RÜFƏT LƏTİF OĞLU HÜSEYNZADƏ

# AZƏRBAYCAN MƏKTƏB VƏ PEDAQOJİ FİKİR TARİXİ

*Dərs vəsaiti*

***Azərbaycan Respublikası Təhsil Nazirliyinin 26.11.2010-cu il tarixli 1541 №-li əmri ilə dərs vəsaitinə nəşr hüququ (qrif) verilmişdir.***

**Bakı - 2020**

**Elmi redaktor:** **Hüseyn Mustafa oğlu Əhmədov**
*Akademik, pedaqogika üzrə elmlər doktoru, professor*

**Rəyçilər:** **Akif Nurağa oğlu Abbasov**
*Əməkdar müəllim, pedaqogika üzrə elmlər doktoru, professor*

**Ləzifə Nağı qızı Qasımova**
*pedaqogika üzrə elmlər doktoru, professor*

**Hümeyir Hüseyn oğlu Əhmədov**
*pedaqogika üzrə elmlər doktoru, professor*

**Həsən Bayram oğlu Bayramaov**
*pedaqogika üzrə elmlər doktoru, professor*

**Vəsaitin tərtibi və dizayn işləri - Əkrəm Rüfət oğlu Hüseynzadə**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**

***Rüfət Lətif oğlu Hüseynzadə- Pedaqogika üzrə elmlər doktoru, professor, Əməkdar müəllim. "Azərbaycan məktəb və pedaqoji fikir tarixi" Dərs vəsaiti. Bakı-2020. ADPU- nəşriyyatı. 538 səh.***

*Dərs vəsaiti müəllifin Azərbaycan Respublikası Təhsil Nazirliyinin xüsusi qriflə təsdiq etdiyi "Azərbaycan məktəb və pedaqoji fikir tarixi", "Azərbaycan təhsil tarixi", "Pedaqogika", "Pedaqogika tarixi" kursu proqramlarına uyğun olaraq hazırlanmışdır.*

*"Azərbaycan məktəbl və pedaqoji fikir tarixi" adlı dərs vəsaiti qədim və orta əsrlər dövründən başlayaraq XIX əsrin sonları, XX əsrin əvvəllərinədək mərhələlərlə təhsil və pedaqoji fikir tarixi ətraflı şərh olunur, daha sonrakı dövrlər - sovet dövrü təhsil sistemi, məktəblər və bu dövrün pedaqoji fikri təhlil olunur, müstəqillik dövrünün təhsil islahatlarına və pedaqoji fikrinə nüfuz edilir, elmi-pedaqoji təhlillər aparılır və ümumiləşdirmələrlə nəticələr çıxarılır.*

*Dərs vəsaitindən "Azərbaycan məktəb və pedaqoji fikir tarixi" kursu üzrə mühazirə və məşğələ aparan pedaqoqlar, ümumtəhsil məktəblərində çalışan müəllimlər, pedaqoji təmayül üzrə təhsil alan tələbələr, təhsil və pedaqoji fikir tarixi ilə məşğul olan tədqiqatçılar, magistrlər, doktorantlar, habelə təhsilimizin tarixi ilə maraqlananlar istifadə edib faydalana bilərlər.*

**© R.L. Hüseynzadə, 2019**

*“Nəslimiz öz milli-mənəvi dəyərlərini öyrəndikcə öz keçmişindən qürur duyur və onlarda öz soyuna, kökünə, millətinə bağlılıq daha da möhkəmlənir”*

***Heydər ƏLİYEV***

***Azərbaycan xalqının ümummilli lideri***

# ÖN SÖZ

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Azərbaycan Gənclərinin Birinci Ümumrespublika Forumundakı çıxışında demişdir: “Xalqımızın tarixinin əsasını təşkil eləyən bütün mərhələlərdə, keçmiş əsrlərdə yüksək mənəviyyat olmuşdur. Keçmiş tariximizdən bizə qalan simaları bu gün dünyada məşhurlaşdıran və bizim üçün nümunə edən onların yüksək mənəviyyatıdır, yüksək amallarıdır... Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz”. Ulu öndərimizin müdrik fikirlərindən irəli gələrək, yetişməkdə olan gənc nəslin milli-mənəvi ruhda tərbiyəsi, təlim və tərbiyə işlərinin milli zəmin üzərində qurulması, tariximizin, mədəniyyətimizin, pedaqoji fikrimizin, zəngin mənəvi irsimizin öyrənilməsi bu gün daha böyük aktuallıq kəsb edir.

Təhsilimizn və pedaqoji fikrimizin keçmişini öyrənmək, onun hazırkı vəziyyətinə də nəzər yetirmək təhsil tariximizin, pedaqoji fikrimizin hər zaman aktual problemidir. Keçmiş irsimizə nəzər saldıqda bu günün nailiyyətlərinin keçmişdən qidalandığını, ondan qüvvət aldığını da görmək olur. Bu gün müdrikcəsinə deyilmiş bir fikrin keçmiş mütəfəkkirlərimiz tərəfindən bu və ya digər formada deyildiyini də görmək olur. Keçmişlə müasirliyi düzgün uzlaşdırmadan, onu düzgün dəyərləndirmədən, müqayisə etmədən bu günkü məktəbimizin və pedaqoji fikrimizin səviyyəsini müəyyənləşdirmək çətin olar.

Müdrikələr yaxşı demişlər ki, keçmişi unutmaq olmaz, çünki o gələcəyin müəllimidir. Böyük demokrat yazıçı Cəlil Məmmədquluzadə deyirdi ki, biz tariximizi ona görə öyrənirik ki, gələcəkdə səhvlər etməyək.

Elmimizin bir çox sahələrində gələcək üçün zəmin təşkil edən bu günün ağıllı, qabaqcıl fikirləri keçmişin mütərəqqi irsi ilə sıx bağlıdır.Təhsil və pedaqoji fikrin keçmişini öyrənmək, onun gələcək perspektivlərini də öyrənməyə kömək edir.

Azərbaycan xalqı, onun mənsub olduğu türk dünyası bəşəriyyətə çox böyük dahilər vermişdir. Onlar dünya elm və mədəniyyətinin inkişafına zəngin mənəvi xəzinə bəxş etmişlər. Onların bir çoxu müxtəlif ölkələrdə-Azərbaycanda, Türküstanda, Ərəbistanda, İranda yaşamış, özlərinə müxtəlif təxəllüslər seçmiş, adlarının əvvəlinə "Əbu", "İbn", "Bin", "Əl" kimi sözcüklər əlavə etmiş, dövrün tələbinə uyğun olaraq ərəbcə, farsca yazıb yaratmış və ümummtürk mədəniyyətinə dəyərli töhfələr vermişlər. Məhəmməd Tağı Sidqinin şəxsi arximizdə saxlanılan bir əlyazmasında böyük pedaqoq və müəllim belə yazmışdır: "Qafqazda (Azərbaycanda) və Türküstanda ərəb dili hakim dil olmuşdur. Hətta "Müəllimi-sani" ismi ilə məşhur olan Əbu Nəsr Farabi və birinci hükəmadan sayılan və şeyxi rəis ləqəbi ilə müləqqəb olan Əbu Əli ibn Sina kimi şəxslər türk oğlu türk ola-ola əsərlərini ərəb dilində yazmışlar". Bu səbəbdən də bir çox fikir adamlarımızın ətraflı öyrənilməsində müəyyən çətinliklər yaranmış, onların bir çoxu başqa xalqın nümayəndəsi kimi öyrənilmiş, bir çoxu da heç öyrənilməmişdir.

Yalnız xalqımızın istiqlaliyyəti, ölkəmizin müstəqilliyi sayəsində öz milli mədəni və mənəvi irsimizi dərindən öyrənməyə, ətraflı tədqiq etməyə və yeni pedaqoji təfəkkür işığında baxmağa imkan yaranmışdır. Biz bu imkandan istifadə edərək, bu mənəvi xəzinəni uzun dövr ərzində səbrlə araşdırmış, böyük mütəfəkkirlərimizi, ortaq türk dünyasının fikir adamlarını, onların həyat və yaradıcılıqlarını, pedaqoji fikir, düşüncə və fəaliyyətlərini, əsərlərini diqqətlə öyrənmiş, məktəb və pedaqoji fikir tariximizdə onların yerini, dəyər və qiymətini əlimizdən gəldiyi qədər göstərmişik. Bütün bünlar məktəb və pedaqoji fikir tariximizi zənginləşdirdiyi kimi, müasir pedaqoji nəzəriyyəni də inkişaf etdirir

və insanlarda yeni zehniyyət, yeni pedaqoji təfəkkür yaradır, onlarda milli iftixar, milli şüur, milli birlıĸ yaradır. Digər tərəfdən müasir qloballaşma dövründə gənc nəslimiz öz soyĸöĸünü, kimliyini öyrənir, əslindən uzaq düşmür, tariximizi bu günümüz ĸimi öyrənir, tariximizlə fəxr edir və onunla yaşayır, tərbiyələnir. Bütün bunlar da təhsilimizin milli zəmin üzərində qurulması tələblərindən irəli gəlir.

Qədim tarixə və zəngin mədəniyyətə malik, coğrafi cəhətdən türk-islam dünyasının mərkəzində yerləşən Azərbaycan xalqının hələ çox qədim zamanlardan yazı və oxu mədəniyyətinə sahib olduqlarını, dövrün, ictimai həyatın xüsusiyyətlərinə uyğun təhsil ocaqları yarada bildiklərini vəsaitdən görmək olur.

Zaman-zaman ölkəmizə edilən təzyiqlər nəticəsində ulu babalarımızın yaratdıqları zəngin elmi, ədəbi və pedaqoji irsin mühüm bir qismi tələf edilmiş, böyük bir mənəvi xəzinə vətənimizdən çıxarılmış, başqa ölkələrə aparılmış və bir qismi də itirilmişdir. Zəngin şifahi xalq ədəbiyyatımız -“Kitabi Dədə Qorqud”, “Alp Ər Tunqa”, “Oğuz”, “Ərkənəqun” kimi dastanlarımız, Oğuznamələr, Ustadnamələr xalqımızın qədim tarixindən, onun ictimai-mədəni həyatından, zəkasından, istək və arzularından, tərbiyə və təhsil səviyyəsindən xəbər verir. Qobustan, Gəmiqaya, Oğlanqala, Qızqala, Kültəpə, Orxon kitabələri və daha bir çox qayaüstü yazılı abidələrimiz xalqımızın yazı yazmaq, oxumaq, hesablamaq, rəsm çəkmək, rəqs etmək və s. mədəni, təhsil vərdişlərinə sahib olmasından xəbər verir. Tariximizin çox qədimliyini göstərən arxeoloji qazıntılar, əldə edilmiş maddi, mədəni nümunələri Azərbaycanın ayrılmaz bir parçası olan Naxçıvanda hələ daş dövründən istifadə edilən duz mədəni və buradan tapılmış daş baltalar, buradakı duz müalicəxanası çox uzaq keçmişimizin mədəni səviyyəsi barədə fikir söyləməyə əsas yaradır. Bütün bunlar Azərbaycan xalqının hələ miladdan əvvəl mədəniyyətə, yazıya, oxuya, sistemli təlim-tərbiyə mədəniyyətinə, təhsil ocaqlarına müalicə üsullarına sahib olduqlarını təsdiq edir.

Naxçıvanda mövcud olan Gəmiqaya abidəsi eramızdan əvvəl

III-I minilliklərə aid edilir ki, üzərindəki rəsmlər, yazı, işarələr, piktoqraflar, mixi yazılar insanların bir-biri ilə ünsiyyət, əlaqə, öyrətmə-öyrənmə prosesini əks etdirir. Qayaüstü təsvirlərdə rəqs səhnələri o dövrün estetik zövqünü bildirir, ov səhnələri, örüş sahələri, keçi, maral, quş, habelə əmək alətləri dövrün peşələri olan ovçuluqdan, əkinçilikdən, maldarlıqdan xəbər verir, at, dəvə, ulaq, araba təsvirləri insanların istifadə etdikləri nəqliyyat növünü göstərir. Günəş, ağac, çay kimi rəsmlər insanlarımızın inancından, daşlar üzərində düz xətlə çəkilmiş bir neçə xətt və ya çox xətt Gəmiqayalıların say anlayışından xəbərdar olmalarını bildirir. Bütün bunlar onu deməyə əsas verir ki, bəşəriyyətin ilk təlim-tərbiyə məkanı, ilk təhsil ocağı bura olmuşdur. Mənbələrdən və apardığımız apardığımız araşdırmalrdan məlum olmuşdur ki, məhz burada - Naxçıvanda pilləli, mərhələli ilk təhsil ocağı, məktəb yaranmışdır ki, bu barədə dərs vəsaitində ətraflı məlumat verilmişdir.

Pedaqoq alimlərimiz təhsilimizin, məktəb və pedaqoji fikir tariximizin müəyyən dövrlərini, hətta başlanğıcdan müasir dövrümüzə qədər səylə tədqiq etmiş, araşdırmış və dəyərli əsərlər ortaya qoymuşlar. Lakin, təhsil, məktəb, pedaqoji fikir daim inkişafda, yeniləşməkdə, zənginləşməkdədir. Onun keçmişini də, indisini də, gələcəyini də öyrənmək hər zaman aktual və əhəmiyyətli olmuşdur. Şübhə etmirik ki, bu tarix yenə də öyrəniləcək, tədqiq ediləcəkdir. Hər dəfə bu dövrləri araşdırdıqca daha yeni məlumatlar, faktlar üzə çıxmaqdadır.

Qədim və erkən orta əsrlər dövürünün təhsili, maarif və mədəniyyəti, pedaqoji fikri deyə bilərik ki, ən çətin və mürəkkəb bir dövrdür. Bu dövrün öyrənilməsinin çətinlikləri кeçmiş məlum siyasi-tarixi dövrlə, siyas şəraitlə bağlı olsa da, digər çətinliкləri də onunla bağlı olmuşdur кi, bu dövrlə bağlı olan mənbələr qədim ərəb və fars dillərindədir ki, onları oxuyub, öyrənmək, tədqiq etmək heç də asan deyildir. Həmçinin qədim və erkən ora əsrlərə aid nəinki təhsil və pedaqoji fikir tariximizə dair materiallar, habelə ümumi tariximizə, ədəbyyatımıza, maarif və mədəniyyətimizə dair

mənbələr də arxivlərimizdə, кitabxanalarımızda, əlyazmalar və digər institutlarımızda da çox azdır.

Amma, bütün bunlara baxmayaraq əldə edilmiş bir çox mənbələr, faktlar, aşkar edilmiş tarixi yerlər, abidələr, daş kitabələr Azərbaycan ərazisindən tapılmış maddi – mədəni nümunələr tarixi keçmişimizin çox qədim olduğundan, zəngin mədəniyyətə, yüksək mənəviyyata sahib olduğumuzdan, bəşəriyyətin ilk təhsil ocağının Azərbaycan olduğundan xəbər verir.

2008-ci ildə 106 yaşında dünyasını dəyişmiş "İstiqlal" ordenli, "Əməкdar müəllim", dosent, şərqşünas, ədbiyatşünas alim, yorulmaz tədqiqatçı, dörd ictimai-siyasi dövrdə - Çar Rusiyası, AXC dövrü, Sovet dövrü və Müstəqillik dövrlərində yaşamış, mollaxana və mədrəsə təhsili görmüş, Naxçıvanda Yeni üsullu "Rüşdiyyə" dünyəvi məktəbində oxumuş və burada İstanbulda təhsil almış Hüseyn Caviddən türk dili və ədəbiyyatı, Tehranda, Nəcəfdə təhsil almış onun böyük qardaşı Şeyx Məhəmməd Rasizadədən ərəb dili, Qori Müəllimlər Seminariyasından məzun olmuş kiçik qardaşı Əlirza Rasizadədən rus dili dərsi almış, 1929-cu ildə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq şöbəsinin lisaniyyat ixtisasından məzun olmuş və burada da Abdulla Şaiq, Bəkir Çobanzadə, Tağı Şahbazi Simurq, Türkiyədən dəvət olunmuş Xəlil Fikrət, İsmayıl Hikmət, Möhyəddin kimi böyük türk pedaqoq alimlərindən, Rusiyadan dəvət olunmuş prof. B.B.Komarovski, prof. A.Makovelski, akademik Marr, prof. Seredinski kimi görkəmli alimlərdən dərs almış, uzun illər boyu maarif və mədəniyyətimizin inkişafında xidmətlər göstərmiş, təhsilimizin müxtəlif pillərində şərəflə xidmət etmiş "Prezident təqaüdçüsü" olmuş atam Lətif Hüseynzadədən miras qalan zəngin ev kitabxanmız, ailə arxivimiz, Şərq ədəbiyyat və mədəniyyətinə dair qiymətli əlyazmalar, qədim tarixi кitablar, nadir əl yazısı nüsxələri, o dövrün təhsilinə dair dəyərli sənədlər və özümüzün də ərəb əlifbasını, fars və türк dillərini bilməyimiz dövrün pedaqoji fiкrini, təlim və tərbiyəsini, təhsilini öyrənməyə əlverişli imkanlar yaratmışdır.

Moskvalı alim görkəmli  yazıçısı -  jurnalist, publisist Viktor Andriyanov “Dəyərli insanların həyatı” seriyasından “Heydər Əliyev” adlı monoqrafiaysını yazarkən  qonağımız olduğu zaman atamın Ulu Öndərimizin 1930-cu illərdə Naxçıvanda pedaqoji texnikumda təhsil aldığı  illər haqqında söylədiyi xatirələri maraqla dinlədi və onları öz dəyərli kitabında əks etdirməklə bərabər, evimizdəki bu zəngin kitabxana, ailə arxivi  də marağına səbəb oldu və onu kitabında belə təsvir etdi: Uzaq illəri yaxşı xatırlayan qocaman müəllim Lətif Hüseynzadə ilə görüşmək xoşbəxtliyi bizə də nəsib oldu...Adi Bakı beşmərtəbələrindən biridir. Qapının arxasında səliqəli dəhliz, böyük iş otağında isə  tavana qədər dörd tərəf kitabdır. Burada azərbaycanca, rusca, türkcə, farsca, ərəbcə nadir kitablar, əlyazmalar və kompyüter vardır…Müsahibim qocaman müəllim Lətif Hüseynzadədir. Onun çox yaxşı yaddaşı vardır. Amma  eşitməsi bir qədər zəifləsə də köməyimizə onun oğlu professor Rüfət gəlir…(В. Андриянов, Г.Мираламов. Гейдар Алиев. Москва: Молодая гвардия, 2005. стр.8).

Qədim ərəb və fars mətnlərinin oxunmasında, mollaxana və mədrəsə təhsil sistemini öz gözləri ilə görmüş, orada təhsil almış, onu yaşamış bir şəxsdən ardıcıl məsləhətlər almaq, soruşub öyrənmək, müsahibə və sorğular aparmaq  yaradıcı işimizə xeyli kömək etmişdir. Dövrün təhsilini, pedaqoji fikrini öyrənib, ümumiləşdirib xalqa çatdırmaq, toplanmış materialları tədrisə gətirmək, tələbə gənclərimiz üçün dəyərli mənbə etmək, Azərbaycan xalqının hələ qədim zamanlardan dəyərli maarif və mədəniyyət  ənənələrinə sahib olmasını, alimlərimizin möhtəşəm əsərlər yaratmasını, xalqımızın yüksək mədəniyyətə, zəngin mənəviyyata, beş min illik dövlətçilik ənənələrinə sahib olmasını bir daha insanlarımıza çatdırmağı əlbəttə vacib, əhəmiyyətli və şərəfli bir iş sayırıq. Bu baxımdan dərs vəsaitimzidə  ən qədim dövrlərdən başlayaraq  erkən orta əsrlər dövrü geniş və ətraflı işlənmiş, daha sonrakı dövrlər diqqətlə  araşdırılaraq Azərbaycanda təlim-tərbiyə mədəniyyəti, təhsil,  pedaqoji fikir tarixi müasir dövrlərimizədək öyrənilmiş, təhlil edilmış  və  sistemli şəkildə, xronolojı ardıcıllıqla  şərh edilmişdir.

Hələ VII əsrdə İslam dininin yayılmasının xalqların, o cümlədən Azərbaycan xalqının həyatında köklü dəyişikliklərə səbəb olduğunu, yeni bir əxlaq və mənəviyyatın, yeni bir məktəb sisteminin meydana gəlməsini görürük

Azərbaycanda azadfikirlilik, dünyəvi elmlər maneəsiz inkişaf etmişdir. Bu məmləkətin Əbülhəsən Bəhmənyar, Qətran Təbrizi, Xətib Təbrizi, Şihabəddin Sührəvərdi, Xaqani Şirvani, Məhsəti Gəncəvi, Nizami Gəncəvi, Nəsirəddin Tusi, Əvhədi Marağalı, Qövsi Təbrizi, Saib Təbrizi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Molla Pənah Vaqif kimi görkəmli alimləri, şairləri, daha sonrakı əsrlərdə də dahi şəxsiyyətləri olmuşdur. Hələ XIV-XV əsrlərdə Qərb humanistlərinin irəli sürdüyü ideyaların bir çoxunun daha mükəmməl şəkildə hələ XIII əsr Azərbaycan alimi Nəsirəddin Tusi tərəfindən təqdim olunmuşdur.

Vəsaitdən öyrənmək olur ki, 1813, 1828-ci illərdə məlum müqavilələrdən sonra Azərbaycan Rusiyanın tərkibinə keçmiş və ölkədə rus məktəblərinin sayı artmış, çoxalmışdır. Azərbaycanda elmi-pedaqoji kadrların yetişməsində, xalqın mədəni inkişafında XIX əsrin 70-ci illərinin ortalarında Qori şəhərində yaradılmış Qafqaz (Qori) Müəllimlər Seminariyasının böyük rolu olmuşdur. Seminariyanın Nəriman Nərimanov, Üzeyir Hacıbəyov, Müslüm Moqamayev, Cəlil Məmmədquluzadə, Məmmədəli Sidqi Səfərov, Əlirza Rasizadə, Mirzə Əbülqasım Sultanov, Rəhim Kazımbəyov, Mirzə Xəlilov, Süleyman Sani Axundov, Firudin bəy Köçərli, Rəşid bəy Əfəndiyev, Mahmud bəy Mahmudbəyov, Fərhad Ağazadə, Səfərəlibəy Vəlibəyov, Soltan Məcid Qənizadə, Bədəl bəy Bədəlbəyli, Mirzə Əliməmməd Xəlilov, Heydər Muradəsilov, Ələkbər Məmmədxanov, Kərimbəy İsmayılov, Xəlil Hacılarov, Ələkbər Qərib, Əli Səbri Qasımov, Müseyib İlyasov, Baba bəy Səfərəlibəyov, Teymur bəy Məmmədbəyov, İsmayıl ağa Vəkilov, Əhməd Seyidov, Əsədulla Muradxanov, Şıxlinskilər, Minasazov qardaşları kimi məzunları olmuşdur ki, onlar bütün həyatını xalqın maarif və mədəniyyətinin inkişafına həsr etmişlər. Ulu öndərimiz

Heydər Əliyevin dediyi kimi, *"Bu təhsil məbədi özündən sonra böyük mədəni irs qoymaqla adını Azərbaycan maarifi tarixinə əbədi həkk etmişdir".*

1881-ci ildə İrəvan şəhərində İrəvan Müəllimlər Seminariyası açılmışdır. 37 il fəaliyyət göstərən bu təhsil ocağı 1918-ci ilin 06 avqustunda Uluxanlı məktəbi ilə eyni vaxtda bağlanmışdır. Bu seminariyanın açılışı zamanı 69 şagirdi olmuşdur. 1881-ci ildə yaranan və 34 il fəaliyyəti davam edən İrəvan Müəllimlər Seminariyasının ilk müəllimlərindən biri Firudin bəy Köçərli olmuşdur. Seminariyanın 1885-ci ildə ilk buraxılışı olmuşdur. Məzunlar sırasında Həbib bəy Səlimov, Nəcəf bəy Vəzirov, Haşım bəy Vəzirov, Mirzə Abbas Məmmədzadə, Cabbar Məmmədzadə, İbadulla bəy Muğanlinski, Vahid Musabəyov, Həmid bəy Şahtaxtinski, Hüseynəli bəy Rüstəmbəyov, Tağı bəy Səfiyev, Mirzə Cəlil Şürbi, Eynəli bəy Sultanov, Sadiq Xəlilov, Vahid Musabəyov və başqaları olmuşdur.

1881-ci ildə isə açılmış İrəvan Kişi Gimnaziyasının 216 şagirdi olmuşdur. Bu gimnaziyada da görkəmli pedaqoq, maarifçi Firidun bəy Köçərli 10 il - 1885-1895-ci illərdə dərs demiş və gecə tərbiyəçisi olmuş və bu Gimnaziyadan dünya şöhrətli alimlər, ictimai və dövlət xadimləri, incənət insanları məzun olmuşlar.

XIX əsrin sonları, XX əsrin əvvəllərində ana dilli məkətblərin açılması ideyası irəli sürülmüş Mirzə İsmayıl Qasir, Sultan Məcid Qənizadə, Mir Möhsün Nəvvab, Mirzə Şəfi Vazeh, Həsən bəy Zərdabi, Məhəmməd ağa Şahtaxtlı, Həbib bəy Mahmudbəyov, Mahmud bəy Mahmudbəyov, Firudin bəy Köçərli, Səfərli bəy Vəlibəyov, Rəşid bəy Əfəndiyev, Seyid Əzim Şirvani, Məhəmməd Tağı Sidqi və digər maarifpərvər şəxsiyyətlər ana dilli məktəblər açmış, ana dilli dərsliklər yazmış, milli təhsil və mədəniyyəti inkişaf etdirərək böyük xidmətlər göstərmişlər.

XIX əsrin sonu, XX əsrin əvvəllərində yetişən milli burjuaziya nümayəndələri və yerli sahibkarlar da millətin maariflənməsi, savadlanması, mədəni və intellektual səviyyəsinin

yüksəlməsi yolunda əllərindən gələni əsirgəməmişlər. Hacı Zeynalabdin Tağıyev, Şəmsi Əsədullayev, Murtuza Muxtarov, Musa Nağıyev, İsa bəy Hacınski kimi sahibkarlar milli ziyalı nəslinin yetişməsində, təhsil sisteminin inkişafında müstəsna rol oynamışdır. Görkəmli maarifçilərimizin qadınların dünyəvi təhsili ilə bağlı istək və arzularının reallaşmasında Hacı Zeynalabdin Tağıyevin əvəzsiz xidmətləri olmuş, qızların təhsil almasına, onlar üçün xüsusi məktəblər açılmasına, qadın milli kadrların hazırlanmasına çalışmış, bu sahəyə böyük məbləğdə vəsait yönəltmişdir.

Şərqdə ilk demokratik, dünyəvi dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti xalq maarifinin, elm və mədəniyyətin inkişafını milli dövlət siyasətinin təməl prinsiplərindən biri kimi ön plana çəkmiş və mövcudluğunun ilk aylarından təhsil sahəsində köklü islahatlara, təhsilin yeni əsaslar üzərində qurulmasına diqqət yönəltmişlər.

1920-ci ilin aprelindən sonrakı dövrdə, Sovet hakimiyyətinin mövcudluğu illərində Azərbaycanda təhsilin inkişaf istiqamətləri ilə bağlı uğurlara və çatışmazlıqlara ədalətli, obyektiv qiymət verməyi Ulu Öndər Heydər Əliyevin müdrik fikirlərindən öyrənməliyik: "Bu təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda dərin savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər onlar olmasaydı, Azərbaycanın iqtisadiyyatı belə güclü inkişaf edə bilməzdi. Onlar olmasaydı, biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır və on illərlə əldə etdiyimiz nailiyyəti heç vaxt unutmamalıyıq".

Müstəqillik illərində Azərbaycanda təhsilin səviyyəsini və inkişafı şərti olaraq üç mərhələyə bölmək olar: birinci mərhələni təhsil sisteminin tənəzzülü, sovet hakimiyyəti illərində qazanılmış nailiyyətlərdən, mütərəqqi ənənələrdən uzaqlaşmaq, ikinci mərhələni sabitləşmə meylləri, milli təhsil quruculuğu sahəsində ilk addımların atılması, dövlətin təhsilə diqqətinin artması, mütərəqqi və inkişafyönümlü qərarların, qanunların qəbul edilməsi,

beynəlxalq əlaqələrin intensivləşməsi, təhsilə investisiya qoyuluşuna başlanması, üçüncü mərhələni isə təhsil sistemində köklü islahatlar, yeniliklər, innovasiyalar, yeni pedaqoji texnologiyalar, müsbət beynəlxalq təcrübənin pedaqoji prosesə tətbiqi dövrü kimi dəyərləndirmək olar.

Azərbaycanda təhsil sahəsində islahatların daha səmərəli aparılması qanunvericilik bazasının təkmilləşdirilməsi ilə şərtlənir. 2009-cu ildə qəbul olunmuş Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu öz üstün məziyyətləri ilə dəyərlidir. Daha sonra Azərbaycan Respublikası Prezidentinin 2012-ci il, 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020-Gələcəyə Baxış İnkişaf Konsepsiyası", Azərbaycan təhsilinin inkişafında mühüm dövlət sənədidir. "Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət Strategiyası" (24 oktyabr, 2013-cü il) ölkə Prezidenti cənab İlham Əliyevin Sərəncamı təhsilimizin inkişafının uzun müddətli metodoloji əsası hesab edilir.

***"Azərbaycan məktəb və pedaqoji fikir tarixi"*** müəllifin Azərbaycan Respubliksası Təhsil Nazirliyinin təsdiq etdiyi ***"Azərbaycan məktəb və pedaqoji fikir tarixi", "Azərbaycan təhsil tarixi", "Pedaqogika", "Pedaqogika tarixi"*** kursu üzrə fənn proqramlarına uyğun hazırlanmışdır. Kursun tədrisində istinad ədəbiyyatı kimi, mövzuların işlənməsində akademik Hüseyn Əhmədovun, professor Fərrux Rüstəmovun, professor Ləzifə Qasımovanın, professor Akif Abbasovun, professor Sərdar Quliyevin, professor Məcid İsmixanovun, professor Hümeyir Əhmədovun, professor Həsən Bayramovun, professor Kərim Məmmədovun, professor İramin İsayevin, professor Rüfət Hüseynzadənin, dos. Aytəkin Məmmədovanın, dos. Şəlalə Adıgözəlovanın, dos.Taleh Xəlilovun, dos.Vahid Rzayevin, Zenfira Əzizova və Sahib Əliyevin və başqalarının əsərlərindən, dərslik, dərs vəsaiti, kitab və monoqrafiyalarından istifadə edilmişdir.

***Professor Rüfət Lətif oğlu Hüseynzadə***

*Azərbaycanın təhsil tarixi hər birimizin*
*fəxr etdiyi nailiyyətlərlə zəngindir.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

# I FƏSİL

# AZƏRBAYCANDA TƏHSİLİN TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI

**Əhatə olunan məsələlər**

1.1. Qədim Azərbaycan sivilizasiyana bir baxış.
1.2. Bəşər tarixində təhsilin ilk məkanı.
1.3. Qədim Azərbaycanda ilkin savad təlimi, qədim yazılarımız və təhsil mədəniyyəti.
1.4. Zərdüşt məktəbləri və "Avesta"da tərbiyə məsələləri.

## 1.1. QƏDİM AZƏRBAYCAN SİVİLİZASİYASINA BİR BAXIŞ

Elmi mənbələrdən və araşdırmalarımızdan məlim olur ki, Azərbaycan dünyanın ən qədim maarif və mədəniyyət, təhsil ocaqlarından biridir. Əlverişli təbii coğrafi şəraitə, zəngin fauna və flora aləminə, mülayim iqlimə malik olan Azərbaycan yer kürəsində ibtidai insanın formalaşdığı rayonlar sırasına daxildir. Aparılmış tədqiqatlarla müəyyən olunmuşdur ki, hələ 12 milyon il əvvəl Azərbaycan ərazisində insanabənzər meymunlar yaşamışlar. 1939-cu ildə Qərbi Azərbaycanda, Şərqi Gürcüstanın sərhədində, Ceyrançöl və Eldar düzənliyinin mərkəzində, Udabno adlanan yerdə insanabənzər meymunun (Udabnopitek) qalıqlarının (dişlərinin) tapılması buna sübutdur. Həmin dövr geoloji bölgüdə üçüncü dövrə uyğun gəlir. Yeri gəlmişkən qeyd edək ki, son vaxtlar

elmi ədəbiyyatda ***"üçüncü dövr"*** termini ***"paleogen"*** *və* ***"neogen"*** ifadələri ilə əvəz edilmişdir. ***"Neogen"***də ibtidai insanların bilavasitə əcdadları olan insanabənzər meymunlar meydana gəlmişdi. Hələ üçüncü dövrdə Ön Qafqaz, o cümlədən Azərbaycan ərazisi insanın təşəkkülü üçün əlverişli şəraitə malik olmuşdur. ***İnsanın təşəkkülü və formalaşması dördüncü geoloji dövrlə bağlıdır.***

Azərbaycanda Azıx, Tağlar (Qarabağ), Zar (Kəlbəcər rayonu), Qazma, Gəmiqaya (Naxçıvan), Daşsalahlı, Damcılı və Aveydağ (Qazax rayonu) kimi dağ, mağara düşərgələri və Qədirdərə, Çaxmaqlı, Kəkilli (Qazax) kimi açıq düşərgələrdə aparılan arxeoloji tədqiqatlarla qədim daş dövrü insanlarının təşəkkülü və inkişafı, ***ibtidai insan icmasının*** yaranması, ilkin əmək alətlərinin formalaşması, ibtidai məşğuliyyət sahələri və s. haqqında məlumatlar əldə olunmuşdur.

Tədqiqatlar nəticəsində Azərbaycanda, dünyada hələlik məlum olan ən qədim insan mədəniyyəti izlərindən biri öyrənilmişdir. Bu, abidənin ilkin tapıldığı yerin adı ilə ***Quruçay arxeoloji mədəniyyəti*** adlanır. Bu mədəniyyətin 1,5 milyon ildən artıq yaşı var. Quruçay mədəniyyəti insanları əvvəl Quruçay hövzəsində açıq düşərgədə yaşamış, sonralar iqlim şəraitinin dəyişməsi ilə bağlı yaxınlıqdakı Azıx mağarasına köçmüşlər.

Qeyd edək ki, Azıx Qarabağda, Füzuli şəhəri yaxınlığında Quruçay dərəsinin kənarında yerləşir. Mağarada öyrənilmiş 10 mədəni təbəqənin (yəni, yaşayış izi qalmış təbəqənin) qalınlığı 14 m-dir. İnsanlar burada 1-1,5 milyon il əvvəl yaşamışlar.

P**aleolit** dövründə Azərbaycan ərazisində müasir insan tipinin formalaşması başa çatmış və Ağıllı insan (*Homo Saphies*) yaranmışdır. ***Mezolit dövründə isə mühüm prosesin–təbiətin hazır məhsullarını mənimsəməkdən onların bilavasitə istehsalına keçidin əsası qoyulmuşdur.*** Qobustanın müvafiq dövr qayaüstü təsvirləri Azərbaycanda **Neolit** dövrü insanlarının dünyagörüşü, ətraf aləmə münasibəti və onu dərketmə qabiliyyəti, habelə ilkin incəsənət vərdişləri haqqında müəyyən təsəvvür yaradır. E.ə. VI

minillikdən başlayaraq Azərbaycanda Neolit dövrü Eneolit dövrü ilə əvəz olunmuşdur ki, bu da e.ə. VI-IV minillikləri əhatə edir. Enolitdə insanlar ilk metalla və mislə tanış olmuşlar.

Azərbaycanda tarixən oda möhkəm inam və sitayiş olmuşdur, hələ e.ə. III minillikdə *(Erkən Tunc)* təşəkkül tapmış ölüyandırma adəti Son Tunc və İlk Dəmir dövründə də davam etmişdir. Qədim əcdadlarımız oda qoruyucu, müqəddəs, təmizləyici qüvvə kimi baxmışlar. Xaç, svastika (*çərxi-fələk*) kimi işarələr odun, işığın simvolu rolunu oynayırdı. Gəncəçay və Borsunlu abidələrində bu işarələrin həkk olunduğu əşyalar daha çoxdur.

Səma cisimlərinə (ay, ulduz, günəş), suya, meşəyə (bəzi ağaclar, məsələn, arçan-ardıc, şam-sənubər ağacları qədim dövrlərdə müqəddəs hesab olunurdu), ayrı-ayrı heyvanlara (at, öküz və s.) sitayiş edilirdi. Suya, suyun müqəddəsiliyinə və paklığına inam dərin köklərə malik idi.

Mədəni-iqtisadi əlaqələr gedişində hazır məhsullarla yanaşı, metal, mal-qara, at və dəvə mübadilə vasitəsi olmuşdur. Azərbaycan hələ qədim dövrlərdən zəngin filiz yataqları, seçmə at cinsləri, saysız-hesabsız heyvan sürüləri ilə şöhrət qazanmışdır. İkiçayarasının (Mesopotamiya) qədim Azərbaycan tayfaları ilə erkən siyasi münasibətləri və iqtisadi əlaqələri Şumer-Akkad mixi yazılarında əks olunmuşdur. E.Ə. III minillikdə Azərbaycanda müxtəlif ad daşıyan dövlət qurumlarının meydana gəlməsi müşahidə olunur. Şumer dastanlarının və mixi yazıların əlavə məlumatlarının təhlili *("Enmerkar və Aratta hökmdarı" dastanı*) Aratta dövlətinin qədim Azərbaycan ərazisində meydana gəldiyini söyləməyə imkan verir. E.ə. XXIII əsrdə Urmiya gölünün cənubunda Lullubi dövlət qurumu yaranmışdır. Lullubium (Lullubi) dövlət qurumu Cənubi Azərbaycanın ərazisində yaranmış ikinci erkən dövlət qurumu idi. E.ə. III minillikdə Urmiya gölünün qərb və cənub-qərb hissəsində Kuti (yaxud Quti ,Qutium) tayfa birləşmələri mövcud idi. E.ə. III minilliyin sonunda Kutium, eləcə də Lullubium dövlətləri süquta uğrayaraq xırda hakimiyyətli vilayətlərə parçalanırlar.

## 1.2. BƏŞƏR TARİXİNDƏ TƏHSİLİN İLK MƏKANI

Çox qədim tarixə və zəngin mədəniyyətə malik olan, coğrafi cəhətdən türk islam dünyasının mərkəzində yerləşən Azərbaycan və bu yurdun qədim sakinləri olan azərbaycanlılar hələ qədim zamanlardan yazı və oxu mədəniyyətinə sahib olmuş, dövrün, ictimai həyatın xüsusiyyətlərinə uyğun təhsil ocaqları yaratmış, insanları inkişafa, tərəqqiyə, yüksək əxlaqa səsləyən müdrik fikirlər söyləmişlər.

Zaman-zaman ölkəmizə edilən basqınlar üzündən ulu babalarımızın yaratdıqları zəngin elmi, ədəbi və pedaqoji irsin mühüm bir qismi tələf edilmiş, böyük bir mənəvi xəzinə vətənimizdən çıxarılmış, başqa ölkələrə aparılmış və bir qismi də itirilmişdir. Zəngin şifahi xalq ədəbiyyatımız – "Kitabi Dədə Qorqud", "Bilqamıs", "Alp Ər Tunqa", "Oğuz", "Ərkənəqun" kimi dastanlarmız, Oğuznamələr, Ustadnamələr xalqımızın qədim tarixindən, onun ictimai-mədəni həyatından, zəkasından, istək və arzularından, tərbiyə və təhsil səviyyəsindən xəbər verir. Qobustan, Gəmiqaya, Oğlanqala, Kültəpə, Orxon kitabələri və daha bir çox qayaüstü yazılı abidələrimiz xalqımızın yazı yazmaq, oxumaq, hesablamaq, rəsm çəkmək, rəqs etmək və s. mədəni, təhsil vərdişlərinə sahib olmasından xəbər verir. Tariximizin çox qədimliyini göstərən arxeoloji qazıntılar, maddi, mədəni nümunələr, xaraba şəhər və qəsəbələr Azərbaycanın bir parçası olan Naxçıvanda hələ daş dövründən istifadə edilən duz mədəni və buradan tapılmış daş baltalar, buradakı duz müalicəxanası çox uzaq keçmişimizdən xəbər verir. Bütün bunlar xalqımızın hələ miladdan əvvəl mədəniyyətə, yazıya, oxuya, təlim-tərbiyə mədəniyyətinə sahib olduqlarını təsdiq edir.

Arxeoloqlar indiki Azərbaycanda ilk insan məskənlərini Daş dövrünə aid edirlər. Azərbaycanda hələ tunc və dəmir dövründə (e.ə. XIV-VIII əsrlər) əhali əkinçiliklə, taxılçılıqla, dəmirçiliklə maldarlıqla məşğul olmuşlar. Qədim insanlarımız taxıl əkmiş, taxıl ehtiyatını xüsusi quyularda saxlamış, torpağı şumlamış, taxılı döymüş, onu üyütmüşlər. Çaxmaq daşı icad etmiş, od əldə etmiş, daş

və dəmir alətlər hazırlamış, texnoloji üsulla misi, dəmiri əritmiş qalay, qurğuşun əldə etmiş, sobalar yaratmışlar. Onlar müxtəlif məqsədli baltalar, yaba, oraq, bıçaq, qanadlı ox, nizə, xəncər, qılınc, silah, at əsləhləri hazırlamışlar. İnsanların estetik şüur və mədəniyyəti, bədii təfəkkürü yüksəlmiş, saysız-hesabsız bəzək əşyaları - tuncdan qolbaq, üzük, sırğa, əqiq, daş və mərmərdən muncuqlar, üzük qaşları hazırlamış, sümükdən, metaldan, dəmirdən, tuncdan istifadə edərək müxtəlif alətlər, toppuzlar hazırlamış, bir rəngli, çoxrəngli saxsı qablar, küplər düzəltmiş, ona gözəl naxışlar vurmuş, mənalı cizgilər və rəsmlər çəkmiş, daha sonralar da qızıldan, gümüşdən istifadə edərək üstündə piktroqrafik işarələr qoymuş, yazılar yazmışlar. Tədricən sənətkarlıq, "xəttatlıq", "rəssamlıq" inkişaf etmiş, böyüklər öyrəndiklərini, təcrübi yolla əldə etdiklərini yetişən nəslə öyrətmiş, onları təlimləndirmiş, tərbiyə etmişlər. İnsanlarımız atı əhliləşdirmiş, sürət əldə etmiş, mühəndislik edərək iki təkərli, dörd təkərli at arabaları yaratmış, ondan yük daşımaq və nəqliyyat vasitəsi kimi istifadə etmişlər. Çadırlar qurmuş, qaya parçalarından evlər, abidələr tikmiş, əkin sahələri, bağ və bostanlar yaratmış, meyvələr yetişdirmiş, xüsusi texnologiya ilə onu qurutmuş, heyvandarlıqla məşğul olaraq heyvan dərisindən, yunundan istifadə etmiş, dəri aşılama, dabbaqlıq, toxuculuqla məşğul olmuş, qida məhsulu kimi ət, süd, yoğurt əldə etmiş, həyat şəraitlərini gün-gündən yaxşılaşdırmışlar. Kiçiklər də böyüklərin yanında olmuş, onların işlərini müşahidə etmiş, onların sənət və peşələrini daha təkmil formada davam etdirmişlər. Bütün bunlar insanların bir-birinə öyrətmə və öyrənmə prosesi ilə müşahidə edilmiş və demək olar ki, bunlar qədim dövrün bəsit şəkildə də olsa təlimini və tərbiyəsini səciyyələndirən cəhətlərdir.

Azərbaycan ərazisinin dünyanın ən qədim insan məskənlərindən biri olduğu artıq sübut edilmişdir. Azıx, Tağlar, Damcılı, Daş-salahlı, Qazma mağaralarında, habelə, başqa abidələrdə aşkar olunan maddi-mədəni arxeoloji tapıntılar, o cümlədən 1968-ci ildə Qarabağda, Füzuli rayonunun 17 km-də tapılmış Azıx mağarası və

buradan aşkar edilmiş 18-20 yaşlı qadının alt çənə sümüyü tədqiq edilmiş və sübut edilmişdir ki, 350-400 min il bundan əvvəl burada qədim insanlarımız - Azıx adamı (Azıxantrop) yaşamış və bu fakt Azərbaycanın ibtidai insanların formalaşdıqları əraziyə daxil olduğunu göstərir. Dünyada üç tapıntıdan biri olan bu nadir tapıntıya görə Azərbaycan ərazisi *"Avropanın ən qədim sakinləri"* xəritəsinə daxil edilmiş və dünyanın ən qədim sivilizasiya ocaqlarından biri hesab edilmişdir. Bu dövrün tarixi 700-150 min il arasındadır. Erkən orta və Aşel dövründə əmək alətləri, ictimai münasibətlər xeyli təkmilləşmiş, yeni növ alətlər meydana gəlmiş, yeni əmək münasibətləri yaranmışdır. Azıx mağarasından 850-900 min illik tarixi olan Şel və Aşel dövrlərinin ən universal alətləri-ürək və badam quruluşlu əl kəsərləri, itiuclular, qaşovlar, dişli-kəzli iskənəyə bənzər alətlər və onlarca başqa növ alətlər aşkar edilmişdir. Müxtəlif daşlardan hazırlanmış həmin alətlər məişətdə istifadə edilmişdir. İbtidai insanlar bu alətlər vasitəsilə özlərini vəhşi heyvanlardan qorumuş, ov ovlamış, balıq tutmuş, geyim tikmiş, toxuculuqla məşğul olmuşlar.

Xalqımızın ulu torpağı olan Cənubi Azərbaycanın bir sıra yerlərində də qədim insanlarımızın yaşayışına dair qiymətli tapıntılar olmuşdur. Urmiya gölünün ətrafında Rizayə şəhərindən 20 km. şimalda yerləşən Tamtama mağarasından neandartala məxsus bəzi qalıqlar dünya elminə bu gün də məlumdur.

Bakının 50 km-də yerləşən Qobustan insanlığın ən qədim yaşayış məskəni olmuşdur. Qayaların üstündə 1000-dən artıq şəkil və yazı işarələri vardır. Bu rəsmlərdə müxtəlif heyvanlar, qayıqlar, əmək, ov və rəqs səhnələri təsvir edilmiş, insanlar nəyi isə başqalarına öyrətmək və ya bildirmək istəmişlər. Qobustan rəsmləri sırasında Mezolit dövrünə (Miladdan əvvəl XII-X minilliklər) aid olan rəsmlər, işarələr, dini ayinlərə həsr edilmiş fiqurlar, rəqs kompozisiyaları, hələ Mezolit və Eniolit dövrlərində Azərbaycanda bədii zövqün, rəsm mədəniyyətinin, təsviri sənətin varlığını, nəqqaşlığın, rəssamlığın səviyyəsini, inkişafını göstərən əsaslı bir dəlildir. Qaya-

larda həkk olunmuş qayıq rəsmləri o dövrün mühəndis ağlından, hesablama işlərinin dəqiqliyindən xəbər verir. Qayıq bir tərəfdən insanların qida ehtiyacını ödəmək məqsədi güdürdüsə, digər tərəfdən bu bir nəqliyyat növü idi ki, başqa yerlərə səfərlər, ticarət və mədəni əlaqələr demək idi. Bütün bunlar qədim qobustanlıların təfəkkür tərzini, mədəni səviyyəsini, dövrə məxsus öyrətmə-öyrənmə prosesinin, təlim-tərbiyə mədəniyyətinin ilkin formalarda varlığını bildirir. Qobustandakı daş abidələr yalnız Azərbaycan üçün dəyərli deyil. Dünyanın ilk sivilizasiya mərkəzlərindən biri olduğu üçün Qobustan dünya miqyaslı, dünya əhəmiyyətli tarixi abidədir.

Qobustanda aparılan tədqiqatların nəticələri göstərir ki, burada - Böyükdaş və Kiçikdaş dağları sahəsində ən qədim insanlar yaşamışdır. Tanınmış norveçli səyyah Tur Heyerdal bildirirdi ki, Qobustan kökləri çox qədimlərə gedib çıxan və hətta Mesopotamiyadan daha qədim, həqiqi tarixi indiyədək öyrənilməyən mədəniyyət incisidir. Qobustan qədim insanın bacarıq və düşüncəsini rəsmlər vasitəsilə bizə çatdıran məkandır.

Burada qədim insanlarımız estetik zövqü, mədəniyyəti olmuş və onlar çalmış, oxumuş, musiqi dinləmiş, rəqs etmişlər. Burada dünyanın ən qədim musiqi aləti Qavaldaş vardır. Bu böyük qaya parçası daş dövründə yaşamış insanların istifadə etdikləri musiqi alətidir. Səthinə zərblə vurulduqda qaval, dəf, nağara kimi səslənən həmin daşlar həm də musiqinin qədimliyindən xəbər verir. Tədqiqatçıların fikrincə, dünyada ilk musiqi aləti qavaldaş olub. Qavaldaşın yaranma tarixi, mütəxəssislərin rəyinə görə, 1-1,5 milyon il əvvələ, yəni Daş dövrünə gedib çıxır. Adının mənasına gəlincə, tədqiqatçıların bir çoxu bu qənaətdədir ki, qavaldaş "qəbilə daşı" deməkdir. Əhəngdaşıdan əmələ gəlməsi və tərkibində çınqılların yaratdığı boşluqlar səbəbindən qavaldaşdan zərb alətlərinin səsi çıxır. Hələ Neolit dövründə bu daşın xüsusiyyətlərini bilən Qobustan ərazisinin sakinlərinin ondan musiqi aləti kimi istifadə etdikləri qayaüstü rəsmlərdə də əksini tapıb. Cingirdağın toponimiyası ilə bağlı deyilir ki, "Cingirdağ" sözünün qədim türk

dilində ayin mərasimlərində şamanların istifadə etdiyi qaval mənasını verən “cingir” sözündən əmələ gəldiyi ehtimal edilir. Tədqiqatçılar qədim zamanlarda qavalabənzər dınqır adlı alətimizin olduğunu bildiriblər. Qobustanda bir neçə qavaldaş var. Lakin bunların arasında böyüklüyünə, səs tembrinə görə ikisi xüsusilə fərqlənir. Onlardan biri Cingirdağın şimal-şərq ətəyindədir. Qavaldaşın özünəməxsus cəhətlərindən biri səsin çıxması üçün yerə təmas etməməsidir. Ona görə bu daşı müəyyən qədər torpaqdan yüksəklikdədir. Alt daşlarla üst daş arasında müəyyən boşluq var, dərə ilə cərəyan edən hava axını bu boşluqdan keçir. Qavaldaş qədim insanlar üçün birlik simvolu idi. Onun ətrafına toplaşaraq dini və bayram mərasimləri keçiriblər. Ayrı-ayrı qəbilələrin üzvləri həm də ova çıxdıqları zaman müxtəlif musiqilər altında rəqs ediblər. Bu gün isə qavaldaş dəyərli abidədir. Cingirdağın ətəklərində on-on iki min il əvvəllərə aid edilən qaya rəsmləri, qavaldaş qədim insanlarımızın mədəniyyətindən, estetik zövqündən soraq verir.

Qobustan qayaüstü rəsmlərinin təhlilindən məlum olur ki, buradakı tərbiyə məsələləri əsas etibari ilə ovçuluq, əməksevərlik, vətənpərvərlik, peşəyə, sənətə məhəbbət, fiziki tərbiyə, təsviri sənət, rəqs, musiqi, estetik tərbiyə kimi keyfiyyətlər gənc nəslə aşılanmışdır. Ovlanacaq heyvanı düzgün nişan almaq, atmaq, silah (ox, nizə, kaman) hazırlamaq və ondan bacarıqla istifadə etmək, eləcə də əmək alətləri hazırlamaq və istifadə etmək, qida əldə etmək kimi bacarıq və vərdişləri gənc nəslə öyrətmək olmuşdur. Qobustan mütəxəssisləri qeyd etmişlər ki, burada böyük öküz rəsmlərində nizə və ox izləri indi də görünür. Bu o deməkdir ki, qədim qobustanlılar vəhşi öküz ovlamağı öyrənmək üçün qayanın üstündə rəsm edilmiş öküz fiquruna nizə, yaxud ox atmaqla gənc nəslə təcrübi olaraq məşqlər keçmiş, onları buna öyrətmişlər.

Yetişən gənc nəsil müxtəlif oyun, rəqs, mərasimlər, adət və ənənələr vasitəsilə xalqın müəyyən etdiyi əxlaq normalarına yiyələnirdilər. Rəqs və mərasimlər zamanı gənclərdə əməksevərlik, həyatsevərlik, kollektivçilik, insanpərvərlik, birlik, qarşılıqlı yardım-

laşma, qoçaqlıq, çeviklik və bir sıra əxlaqi, iradi keyfiyyətlər tərbiyə edilib formalaşırdı. Qayalardakı rəsmlər, rəqs səhnələri, daş qaval, piktoqrafik işarələr maarif və mədəniyyət tariximizin qədimliyindən, insanların estetik və bədii tərbiyəsindən xəbər verir. Uşaqlar və gənclər oyun və rəqsləri müşahidə etməklə və ya praktik olaraq bu nəsillərə ötürürdülər. Qayalar üstündə təsviri-süjetli şəkli prosesdə iştirak etməklə qəbilə və ya tayfanın adət və ənənələrini mənimsəyir, onları yadda saxlayıb digər gələn yazılar, dəmir məmulatlarından istifadə edərək döymə üsulu ilə rəsmlər, işarələr qədim qobustanlıların bədii təfəkkür tərzini, bilik və dünyagörüşünü, insanların öyrətmə və öyrənmə aktlarını, savad səviyyəsini göstərən dəlillərdir.

1979-1994-cu illərdə bu qayaüstü rəsmləri tədqiq etmək üçün Qobustana xüsusi səfər etmiş məşhur Norveç tədqiqatçısı və səyyahı Tur Heyerdal haqqında Qobustan tədqiqatçısı C.Rüstəmov belə söyləmişdir ki, "o, çox maraqlı adam idi. Yol boyu fikirli idi, dinib danışmırdı. Elə bil harasa tələsir, nəyisə görmək istəyirdi, hərdənbir Xəzərə baxır və "Gözəldir" deyirdi. Arzusuna çatdı. Qobustanı gəzdi, dolaşdı. Heyranlıqla təsvirləri nəzərdən keçirdi. Lakin qayıq rəsmlərinin qarşısında duranda elə bil öz dünyasına-gəmilər aləminə qayıtdı, qayıqlar aləminin seyrinə daldı. Gah piano çalan kimi barmaqlarını qayıqların üstünə qoydu, oynatdı, gah ölçülərini götürdü, gah gendən durdu boylandı, sonra da sorğu-suala başladı. "Dünyada qaya təsvirlərində əksini tapan qayıqların yaşı 3500 ildən çox deyil, bəs nə üçün sizinkilərin sorağı səkkiz minilliklərdən gəlir"- dedi. Biz ona qayaların dibində apardığımız arxeoloji qazıntılardan aşkar etmiş olduğumuz təsvirləri göstərdik. Gözlərinə inanmadı. Sevincək halda əllərini qaldırdı və "*bax, indi mən təslim. Bu qaya təsvirləri dünya mədəniyyətinin beşiklərindən sayılanlardan daha qədimdir. Görünür, Azərbaycan belə qədim sivilizasiya, mədəniyyət ocaqlarından biri olub. Bu danılmaz faktlardan sonra heç bir şübhəyə yer yoxdur*" - dedi.

Tur Heyerdal öz ehtimallarının əsaslı sübutunu təkcə Qobus-

tandakı qayaüstü təsvirlərdə deyil, bu təsvirlərin eynilə əsrlərlə sonra vikinqlər tərəfindən Norveç mağaralarının divarlarında həkk olunması və həmçinin orta əsrlərdə yazılmış saqalarda əks olunması ilə müəyyənləşdirmişdir. Qobustan qayaüstü rəsmlərinə aid olan qayıq və üzərindəki günəş təsvirləri qədim Azərbaycanın insan məskənləri ilə, xüsusilə yüksək mədəni irsə malik olan Mesopotamiyanın Şumer sivilizasiyaları ilə sıx əlaqələrindən xəbər verirdi.

Naxçıvanda mövcud olan Gəmiqaya abidəsi eramızdan əvvəl III-I minilliklərə aid edilir ki, üzərindəki rəsmlər, yazı, işarələr insanların bir-biri ilə ünsiyyət və əlaqə, öyrətmə-öyrənmə prosesini əks etdirir. Qayaüstü təsvirlərdə rəqs səhnələri o dövrün estetik zövqünü bildirir, ov səhnələri, örüş sahələri, keçi, maral, quş, habelə, əmək alətləri dövrün peşələri olan ovçuluqdan, əkinçilikdən, maldarlıqdan xəbər verir, at, dəvə, ulaq, araba təsvirləri insanların istifadə etdikləri nəqliyyat növünü göstərir. Günəş, ağac, çay kimi rəsmlər qədim insanlarımızın inancından xəbər verir, daşlar üzərində düz xətlə çəkilmiş bir neçə xətt və ya çox xətt Gəmiqayalıların say anlayışından xəbərdar olmalarını bildirir. Gəmiqayalıların bəbir, canavar, ilan, dəvə kimi rəsmlərin müxtəlif vəziyyətlərdə daşlara döymə üsulla böyük məharətlə işləmələri bir tərəfdən o dövrün rəssamlığını, nəqqaşlığını göstərirsə, digər tərəfdən də şübhəsiz insanlara ətraf mühiti, ərazini onun flora və faunasını öyrədir. Gəmiqaya rəsmlərində bir atlının baş və ayağında geyim olması o dövrün peşələrini (toxuculuq, çəkməçilik və s.) təxmin etməyə imkan yaradır. Böyüklər də əldə etdiyi bilik və təcrübələri, qazandıqları peşələri kiçiklərə öyrətmişlər və yaxud da kiçiklər böyükləri müşahidə etməklə müəyyən bilik, bacarıq və təcrübə əldə etmişlər.

Tədqiqatlardan məlum olur ki, Gəmiqayada 1500-ə yaxın yazı, əlifba nümunələri, rəsm daş və metal alətlərlə döymə, qazma, sürtmə yolu ilə həkk olunmuşdur. Onları aşağıdakı kimi qruplaşdırmaq olar: 1) İnsan rəsmləri; 2) Araba rəsmləri; 3) Heyvan rəsmləri; 4) Müxtəlif mövzulu səhnələr; 5) İşarələr; 6) Qeyri-müəyyən təsvirlər Gəmiqayalılar nəqliyyat vasitəsi kimi at, dəvə,

ulaq və arabadan istifadə etmiş, maldarlıq, ovçuluq, əkinçiliklə məşğul olmuşlar. Buradakı iki təkərli, dörd təkərli araba rəsmləri diqqətimizi cəlb edir. Belə ki, qədim tarixi mənbələrdən, "Oğuznamə"lərdən məlum olur ki, arabanı kəşf edənlər Kanqlı tayfaları olmuşlar: "...Oğuz Kağanın çeriyində bacarıqlı, cüssəli, yaxşı bir kişi vardı. Bu kişi bir araba çapdı... Arabalar gedəndə "Kanq, kanq" deyə səs çıxarırdılar. Onun üçün arabaya "Kanğa" adı qoydular. Oğuz Kağan kanğaları gördü, güldü, ayıtdı.. Qoy yüklü arabaları əsirlər çəksin. Sənə verilən "Kanğaluğ" adı qoy kanğanı yada salsın"[1]. Bu ad Naxçıvanda məskunlaşmış qədim Kəngərli tayfasının adıdır.

Gəmiqayalılar müxtəlif təbiət hadisələrinə, çaya, ağaca, heyvana inanmış, onların təsvirlərini çəkmiş, Günəşə sitayiş etmişlər. Gəmiqayada günəşə sitayişi ifadə edən dairə ortasına nöqtə qoyulmuş rəsmlər vardır ki, bu da günəşi, işığı ifadə edir. Günəş, işıq isə ziyalılıq, tərəqqi deməkdir.

Henrix İohann Hübşman Naxçıvan toponimini Nuh peyğəmbərlə bağlı "dünya tufanı" hadisəsi ilə əlaqələndirir. Onun fikrincə "Naxçıvan" toponimi "törəyiş yeri" anlamını verməkdədir. Hübşmanın istinad etdiyi Nuh tufanı hadisəsinə görə "Naxçıvan" sözü üç hissədən – "Nax" (Nuh) və türk dillərində isim düzəldən şəkilçi olan "-çı" şəkilçisi, sonra da türk dilində yer, məkan bildirən "van" toponimindən meydana gələrək, "Nuhçuvan" – Nuhçuların (Nuh tərəfdarlarının) məskəni", "Nuhun diyarı" deməkdir.

Naxçıvanda tədqiqatlar aparmış XIX əsrin böyük rus alimi Nikitin K.A. yazır ki, Nuh peyğəmbər Naxçıvan şəhərinin əsasını qoymuş, Naxçıvanda yaşamış və orada da dəfn edilmişdir. Nuhun özü də oğlanları ilə bərabər Naxçıvanda duz mədənlərində çalışmışdır[2].

Naxçıvan Azərbaycanın və Şərqin, hətta deyə bilərik ki, dünyanın ən qədim şəhərlərindən biridir və ən qədim insan

---

[1] Oğuznamələr. Bakı: Bakı Universiteti nəşriyyatı, 1993, səh.14

[2] К.А. Никитин. Город Нахичевань и Нахичеванский уезд. Сборник материалов для описания местностей и племен. Кафказа. Вып.II.Тифлис, 1882. с. 113.

məskənidir. Şəhərin tarixi minilliklərin dərinliklərinə gedib çıxır: arxeoloqlar burada eramızdan öncə II və I minilliklərə aid çoxlu maddi mədəniyyət əşyaları tapmışlar.

Gəmiqaya Kiçik Qafqazda ən hündür dağdır ki, hündürlüyü 3906 metrdir. Zirvəsi "Qapıcıq" adlanır. "Qapıcıq" bəşəriyyətin yeni həyatına açılan "kiçik qapı", "giriş yeri" mənasını daşıyır. Yerli sakinlər arasında dolaşan əfsanəyə görə, Nuh peyğəmbər daşqın çəkildikdən sonra burada ailəsi ilə, Ham, Sam, Yafəs adlı oğlanları ilə ömrünün sonuna qədər yaşamış və bu torpaqda da vəfat etmiş, məzarı da Naxçıvandadır. Məşhur realist rəssam Bəhruz Kəngərli[3] "Nuhun qəbri"ni 1918-1920-ci illərdə bir neçə dəfə çəkmişdir. Bu gün Nuhun qəbri Naxçıvanda Kohnə Qalada - Nuhdaban deyilən yerdədir və üzərində böyük türbə ucaldılmışdır.

Şumerlərin Nuhun Tufanından bəhs edən "Bilqamıs" dastanı ilə Naxçıvanın "Nuhdaban" dastanı çox yaxındır. Məzmun, mahiyyət, orada işlənən yer və şəxs adları, adətləri Naxçıvan məkanı ilə eyniyyət təşkil edir. Dünya alimləri Bilqamısı tarixi şəxsiyyət hesab edir və Bilqamısdan o tərəfə heç bir yazılı mənbə olmadığını qeyd edirlər. Dastanda Bilqamıs başına gələn (e.ə. IV minillikdə) və eşitmiş olduğu, özündən neçə min il əvvəlki hadisələri belə təsvir edib:

O hər sirri bilərdi,
O hər şeyi görərdi,
Yeri su basmasından
Bizə xəbər verərdi.
Uzun yollar dolaşıb,
Yorulub əldən düşdü,
Başına gələnləri sal bir qayaya döydü
Sonra hasara alıb, adını Uruk qoydu[4].

Burada söhbət Dünya daşqınından gedir. "Bilqamıs"da təsvir edilən yer və insan adlarını nəzərdən keçirdikdə bunların Naxçıvan

[3] Бехруз Бек Кенгерли. Каталог. Баку: 1947, стр. 18-19.
[4] Bilqamıs.1985. səh. 8.

ərazisində olduğunu görürük. Tədqiqatlardan məlum olub ki, Gəmiqaya daş yazıları “Bilqamıs”dan neçə min il əvvəl mövcud olmuş və bu gün də aydın oxunur. Gəmiqaya təsvirləri arasında Nuhun Gəmisinin rəsmlərin də aşkar edilib.

Pedaqogika elminin banisi, XVII əsrdə yaşamış görkəmli pedaqoq Yan Amos Komenski “Böyük didaktika” əsərində qeyd edir ki, tarixdə ilk məktəbi Nuhun oğlu Sam (Sim) yaratmışdır. Y.A.Komenski[5] bu fikri bizim eradan əvvəl I əsrdə yaşamış yəhudi əsilli yunan filosofu İosif Flavidən götürmüş və ona əsaslanaraq bunu yazmışdır. İosif Flavi[6] Nuhun gəmisinin dayandığı yeri “*Apobaterion*” (yun. Αποβατήριον) adlandırır ki, bu da “İlk dayanacaq yeri”, “İlk məkan” mənasını verir və bu məkanın isə özünün də qeyd etdiyi kimi Naxçıvan olduğunu və burada Nuhun oğlu Sim skale - təhsil ocağı yaratdığını bildirir.

Tarixi mənbələrdən məlum olur ki, Nuhun Gəmisi Naxçıvanda Gəmiqayaya yön almış burada məskunlaşmış və bura “İlk yaşayış yeri”, “Törəyiş yeri” adlandırılmışdır. Naxçıvan sözü də elə “Nuh çıxan” sözlərindən meydana gəlmiş, yəni Nuhun çıxdığı yer anlamına gəlmişdir. Nuhun qəbri də Naxçıvandadır, məzarı üzərində böyük türbə, mavzoley yaradılmışdır. Deyildiyi kimi, o öz ailəsi, oğulları -Ham, Sam, Yafəs ilə burada yaşamış və uzun ömür sürmüş və burada da Nuhun oğlu Sam (Sim) “Skale” - ilk təhsil ocağını yaratmişdir. "Skale" - qədim latın sözü olub - mənəvi, ruhi yüksəliş, mərhələli təhsil ocağı - "pillə". "pilləkan" mənasını verir. Məhz burada - Naxçıvanda pilləli, dərəcəli məktəb, bəşəriyyətin ilk təlim-tərbiyə ocağı, təhsil məkanı, mənəvi yüksəliş mərkəzi yaradılmışdır. “Skale” sözünün “İskələ” kəlməsi ilə uyğunluğunu və eyni məna daşıdığını deyə bilərik. Qeyd etdik ki, Nuhun gəmisi Gəmiqayayada məskunlaşmış və onun Gəmisinin adı ilə də bu dağ

---

[5] Коменский Я.А. Великая дидактика. Москва: Просвещения, 1999. Глава 8, параграф 3. стр.23.

[6] Flavius Josephus, William Whiston, Paul L. Maier - The new complete works of Josephus, Revised and expanded edition, Kregel Academic, 1999, pace 56.

Gəmiqaya adlanmışdır. Türk dilində böyük gəmilərin dayandığı yerə bu gün də “İskele” deyilir ki, bu da gəmiyə və ya quruya çıxmaq üçün pilləkəndır. Rus dilində “qaya" mənasını verən, “Skala”, həmçinin “dərəcə”, "pillə", “mərhələ” mənasını verən “Şkala” sözləri də “Skale”dən yaranmışdır.

Müasir dillərdə məktəb mənasını verən-ingilis dilində “Skul”, türkcə “Okul”, fransızca “Lekol”, almanca “Şule”, italyanca- Ckoula, İspanca - Eskuela, yunanca- Sxole, gürcücə "Skola", rusca, belarusca, ukrayınca “Şkola” sözləri də kökü "İskəle", “Skale" sözlərindən meydana gəlmişdir.

Pedaqogika kitablarında yazılır ki, qədim Yunanıstanda “Asudə vaxt” mənasını verən “Şkola” yaranmışdır. Qeyd edək ki, Yunanlar məktəb, təhsil sistemini Misirdən və Şumerdən öyrənmişlər. Bunu mənbələr təsdiq edir. “Şkola” sözünü də yunanlar Şumerlərdən götürmüşlər. Bəs bu söz Şumerlərə necə gedib çıxmışdır ki, yunanlar da bunu oradan götürmüşlər.

Mənbələrdə Şumer sözünün Nuhun oğlu Simin adından götürüldüyü - Simər, Şumer kimi işləndiyi və Şumer dilinin də Sami dillər qrupuna mənsup olduğu fərz edilir. Nuh və oğulları, o cümlədən Sam Naxçıvanda duz mədənində çalışmış və çox dəyərli, qiymətli duzu çıxarmış, üyütmüş, ələmiş, istifadə etmiş və hətta başqa yerlərə də ixrac etmişlər.

Tarix kitablarında bu da göstərilir ki, Şumerlərlə Arattalıların həmişə sıx əlaqələri, xüsusilə, müntəzəm olaraq ticarət əlaqələri olmuşdur. Naxçıvan da Aratta, sonralar Manna və Midiya dövlətlərinin tərkibində olmuşdur. Naxçıvan duzu at arabaları ilə Şumerlərə daşınmış və oradan əvəzində laciverd (“Lacivərd” mavi rəngli qiymətli daşlar, ”Ləl-cavahirat” deməkdir) alıb gətirmişlər. Şumerlər duza yüksək dəyər vermiş və duza səcdə etmişlər. O zaman məşhur “Duz yolu” mövcud olmuş, Naxçıvan duzu nəinki Şumerlərə bütün Şərqə, Osmanlı dövlətinə daşınmışdır. Bu mübadilə şübhəsiz mədəniyyətlərin də mübadiləsinə təsir etmişdir.

Fransız alimi Katerina Marro yazır: “Naxçıvandakı Duzdağı-

nın duzu m.ö. 4 mininci illərdə belə geniş şəkildə işlənmışdir”[7]. Osmanlı arxiv sənədlərində də göstərilir ki, Naxçıvan duzu müxtəlif ticarət yolları vasitəsilə ayrı-ayrı şəhərlərə daşınmışdır. Mənbələrdə Osmanlı ordusunun yemək xərcləri hesablanarkən, Naxçıvandan alınan duza sərf edilən vəsaitin miqdarı da göstərilir.

Naxçıvan şəhərinin 12 kilometrliyində yerləşən Duzdağda 1870-ci ildə arxeoloji qazıntılar zamanı buradan daş baltalar, daş çəkiclər tapılmışdır ki, bunlar da ibtidai icmanın daş dövrünə aid edilir.

“Naxçıvan Duz Muzeyinin yaradılması haqqında”[8] Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 12 sentyabr tarixli Sərəncamında deyilir: “Naxçıvanın Nuh peyğəmbərlə bağlılığı hələ qədim dövrlərdən diqqəti cəlb etmiş, yunan alimi Klavdi Ptolomey bizim eranın ikinci əsrində ilk dəfə olaraq Naxçıvanı Nuh peyğəmbərin məskəni kimi xatırlatmış, XVI əsrin görkəmli ərəb alimi Əl-Şərifi Nuh peyğəmbərin qəbrinin, hətta gəmisinin də qalıqlarının Naxçıvanda olması barədə ətraflı məlumat vermişdir.

Rus tədqiqatçısı Konstantin Nikitinin 1882-ci ildə Tiflisdə nəşr olunan “Qafqaz ölkəsi və tayfalarının təsviri üçün materiallar məcmuəsi”ndə verilən “Naxçıvan mahalı və Naxçıvan şəhəri” adlı məqaləsində Nuh peyğəmbərin duz mədənində ilk çalışanlardan olması, şəhər əhalisinə duz çıxartmağı öyrətməsi qeyd olunur. Tədqiqatlar göstərir ki, bu ərazidə Eneolit dövründən başlayaraq duz mədənçiliyinin əsası qoyulmuşdur. Bu isə 5 min illik Naxçıvan şəhər mədəniyyətinin formalaşmasına güclü təsir göstərmişdir.

Naxçıvan Duzdağının tarixi əhəmiyyəti nəzərə alınaraq bu ərazidə arxeoloji tədqiqatlar aparılmış, müxtəlif dövrlərə aid daş alətlərlə yanaşı, Eneolit və İlk Tunc dövrlərinə aid keramika məmulatları aşkar olunmuşdur”.

---

[7] Marro Katerina. Duzdağında duz mədənçiliyinin başlanğıcı haqqında. Naxçıvan: İlkin şəhər və Duzdağ. Beynəlxalq Simpozium. 27-28 iyul, 2012-ci il. Naxçıvan, 2013, səh. 25.

[8] “Naxçıvan Duz Muzeyinin yaradılması haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2017-ci il 12 sentyabr tarixli Sərəncamı. “Şərq Qapısı” qəz., 2017, 12 sentyabr.

Arxeoloji tədqiqatlar zamanı ərazidən tapılmış müxtəlif daş alətlər, məmulatlar belə bir fikir söyləməyə əsas verir ki, bəşər tarixində duzdan qida elementi kimi ilk dəfə Naxçıvanda istifadə olunmuşdur. Buradan isə belə nəticəyə gəlmək mümkündür ki, Duzdağ Naxçıvanın qədim tarixi və mədəni potensialını özündə cəmləşdirən əvəzsiz məkandır.

Qeyd etdiyimiz kimi Naxçıvan duzu hələ qədim zamanlardan Şərq ölkələrinə - o cümlədən Şumerlərə ticarət məqsədilə aparılmışdır. Bu ticarət mübadiləsində şübhəsiz ki, burada olan mədəniyyətin Şumerlərə, Şumerlərin də mədəniyyəti digər ölkələrə yayılması təbii hal olacaq idi. Tədqiqatçı Şümeroloqlar – amerikalı Samuel Kramer, türkiyəli İlmiyyə Müəzzəz Çığ apardıqları tədqiqatlara əsasən bildirirlər ki, Şumerlər özlərinə Kəngər deyirdilər. Kəngər tayfaları isə Naxçıvandadır. Bu tayfa öz cəngavərlikləri ilə, şücaətləri ilə tarixdə məşhurdurlar. Generel Naxçıvanskilər, Naxçıvan xanları Kəngərli tayfalarıdır. Görkəmli Qazax alimi, şairi, türkoloq Oljas Süleymenov "Az-ya" əsərində türk xalqlarına məxsus maraqlı bir məlumatı yazır ki, onun bilavasitə xalqımızın yazı mədəniyyəti ilə bağlılığı vardır: "Eramızdan əvvəl III əsr Çin salnaməçisi göstərir ki, Kanqyu ("Kanqlı") xalqı ənənəvi Çin yazısından fərqli olaraq eninə - horizontal xətlə yazılar yazırmış". Kanqlı tayfası bu gün Azərbaycanda yaşayan Kəngərlilərin qədim adıdır. Onlar barədə hələ bizim eradan əvvəl I əsrdə və bizim eranın I əsrində, Flavi, Strabon və Plini yazmışdır. Eramızın ilk əsrlərində Çin, Bizans, Alban, ərəb tarixçiləri öz əsərlərində Kəngərlilər haqqında maraqlı məlumatlar vermişlər. Kəngərlilər "Kitabi-Dədə-Qorqud"da "Qanlı", "Kanqlı" adı altında xatırlanır. "Qanlı qoca oğlu Qanturalı boyu"nda "Qanlı"- "Kanqlı" kəlməsindəndir.

Gəmiqaya ilə bağlı Şumer və Naxçıvan əfsanə və rəvayətləri də demək olar ki, eyniyyət təşkil edir. Bütün bunlar onları deməyə əsas verir ki, Naxçıvan qədim insan məskəni, zəngin mədəniyyət, böyük elm, təhsil mərkəzi olmuş, burada sistemli təlim, yazı və oxu mədəniyyəti olmuşdur.

# ƏDƏBİYYAT


1. Аждар Фарзали. Ноев Ковчег и Гямигая–Гобустанский алфавит. Баку, 2014.
2. Амонашвили Ш. Школа истины. Москва: Свет, 2006.
3. Бехğуз Бек Кенгеğли. Каталог. Баку: 1947.
4. Əliyev V.Q. Gəmiqaya abidələri. Bakı: Azərbaycan Dövlət nəşriyyatı. 1992.
5. Flavius Josephus, William Whiston, Paul L. Maier - The new complete works of Josephus, Revised and expanded edition, Kregel Academic, 1999.
6. Həbibbəyli İ. Ə. Nuhdaban oturaq məkanı və Duzdağ şəhərətrafı mədəniyyəti. Naxçıvan: "İlkin şəhər və Duzdağ", Beynəlxalq Simpozium. 27-28 iyul, 2012-ci il. Naxçıvan, 2013.
7. İsayev E. Naxçıvan şəhər mədəniyyətinin formalaşması və inkişafında ticarət və sənətkarlığın rolu. Naxçıvan: İlkin şəhər və Duzdağ" Beynəlxalq Simpozium. 27-28 iyul, 2012-ci il. Naxçıvan, 2013.
8. Коменский Я.А. Великая дидактика. Москва: Просвещения, 1999.
9. Kitabi Dədə Qorqud. Bakı: Yazıçı, 1988.
10. Kirzioğlu Fahrettin. Osmanlıların Kafkas Ellerini Fethi (1451-1490). T.T.K.Basımevi, Ahkara 1993, s.100-120.
11. Marro K. "Duzdağında duz mədənçiliyinin başlanğıcı haqqında". Naxçıvan: "İlkin şəhər və Duzdağ", Beynəlxalq Simpozium. 27-28 iyul, 2012-ci il. Naxçıvan, 2013.
12. Nikitin K.A. Naxçıvan şəhəri və Naxçıvan mahalı. "Qafqaz ərazilərinin və tayfalarının təsviri üçün materaillar" məcmuəsi. Tiflis, 1882. II buraxılış.
13. Mahmudov Y. Naxçıvan: Dünya sivilizasiyanın ən qədim mərkəzlərindən biri. Naxçıvan: "İlkin şəhər və Duzdağ" Beynəlxalq Simpozium. 27-28 iyul, 2012-ci il. Naxçıvan, 2013.
14. "Naxçıvan Duz Muzeyinin yaradılması haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 12 sentyabr tarixli Sərəncamı/ Şərq qapısı, 12 sentyabr, 2017-ci il.
15. Oğuznamələr. Bakı: Bakı Universiteti nəşriyyatı, 1993.
16. Süleymenov O. Az-Ya.Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1993.
17. Hüseynzadə R.L. Skala - təhsilin ilk tarixi məkanı// Naxçıvan Dövlət Universiteti. Elmi Əsərlər. 2016, № 6.

## 1.3. QƏDİM AZƏRBAYCANDA İLKİN SAVAD TƏLİMİ, QƏDİM YAZILARIMIZ VƏ TƏHSİL MƏDƏNİYYƏTİ

Gəmiqaya, Oğlanqala, Kültəpədə, eləcə də Kəlbəcər, Zəngəzur, Göyəm dağlarının (indiki Qərbi Azərbaycan ərazisində), habelə Cənubi Azərbaycan abidələrinin, xüsusilə, Qaradağ üzərindəki qayaüstü təsvirlərində insanların iqtisadi, mədəni, mənəvi həyatını əks etdirən müxtəlif işarələr, simvollar, damğalar (dairə formalı, düz, sınıq xətt, haçaşəkilli, qarmaqşəkilli, aypara şəkilli, "P", "T" şəkilli işarələr, "həyat ağacı" təsvirləri) aşkar edilmişdir ki, onlara pedaqoji yöndən yanaşdıqda deyə bilərik ki, bunlar qədim insanların bilik, savad və mədəni səviyyəsini, yazı mədəniyyətini, rəssamlıq, heykəltəraşlıq bacarığını, inancını göstərən dəlillərdir. Digər tərəfdən bu işarələrin müxtəlif yerlərdə oxşarlığı regionun qədim insanlarının bir-birilə iqtisadi-mədəni əlaqələrindən xəbər verir. Qədim insanlarımızın daşlar üzərində qoyduqları müxtəlif məzmunlu izlər, işarələr, rəsmlər maarifləndirici, inkişafetdirici, tərbiyəedici olmaqla qədim insanların "öyrətmə-öyrənmə mexanizmi"ni, tərbiyə və təhsil işlərini, savad təlimini bəsit şəkildə də olsa bizə bildirir.

Alimlər göstərmişlər ki, sivilizasiyanın inkişafı tarixində ilk mədəni inqilab yazının ixtirası, əlifbanın meydana gəlməsi olmuşdur. Əlifbanın meydana gəlməsi biliklərin nəsildən-nəsilə ötürülməsi imkanlarını genişləndiurmiş, təhsillənmə formasını yeniləşdirmişdir.

Pedaqoji fikir tariximizdə yazı və əlifba həmişə pedaqoji işin, savad təliminin, mühüm tərkib hissəsi olmuşdur. Müdriklər demişlər: "Yazı elmin yarısıdır". Azərbaycan ərazisində tapılan yazıların, qayalar üzərindəki insan, heyvan, bitki, gəmi və s. rəsmlər göstərir ki, bizim babalarımız nəinki təsviri incəsənət sahəsində, hətta yazının ilk dəfə ixtira edilməsində böyük rol oynamışdır. İlk yazılarımız qayalar, daşlar, saxsı qablar, dərilər, ağaclar üzərində yazılmışdır.

İlk şəkli yazı –piktoqram miladdan əvvəl III minillikdə yaranmış, o zamandan təhsil-təlim işinin ibtidai başlanğıcı qoyulmuşdur.

**Azərbaycan ərazisində mixi yazılardan əvvəl "Şəkli yazılar" olmuş, fikri başqasına bildirmək üçün müəyyən yazı işarələrindən istifadə olunmuşdur.** Şəkli yazılara piktroqrafik işarələr də deyilmişdir. Azərbaycan ərazisində də yazının ilk növü kimi şəkli yazılardan, piktoqrafik işarələrdən istifadə edilmişdir. Azərbaycanda ən qədim dövrlərdə müəyyən bilik qazanmış insanlar şəkli yazıdan istifadə etmək, onu oxumaq bacarığına yiyələnmişlər. Bunu qədim insanların demək olar ki, ilk savadı, ilk təhsili, "tayfa savadı" adlandırmaq olar. İctimai həyatın müxtəlif sahələrinə qədim tarixi yerlərimizdə geniş yayılmış piktoqrafiya mədəniyyəti ilkin öyrətmə-öyrənmə prosesinin varlığını bildirir. Şəkli yazıları, təsvirli-süjetli rəsmləri öyrənmək, onu anlamaq və anlatmaq, ondan baş çıxarmaq və mənasını dərk etmək xüsusi savad, bilik və təlim tələb edirdi. Bütün bunların öyrənilməsi o zamanın savad təliminin məzmununu əhatə edirdi.

Şəkli yazılar əsasən ümumi anlaşma və ya yazılı nitq vasitəsi hesab olunurdu. Şəkli yazılarda müəyyən ifadəli hərəkətlər əks etdirilirdi ki, insanlar bunun mənasını öyrənirdilər. Heç şübhəsiz dağlar, daşlar, habelə müəyyən gümüş qablar üzərində olan yazıların, şəkillərin bir məqsədi insanların öz fikirlərini başqalarına çatdırmaq güdülürdüsə, digər bir məqsədi də bu şəkli yazıların gələcək nəsillərə çatdırılması, biliyi, məlumatı sonrakı nəsillərə ötürmək idi. **Azərbaycan ərazisindəki şəkli yazılar öz rəsmlərinin süjet zənginliyinə görə ümumdünya miqyasında fərqlənən Qobustan qayaüstü rəsmlərində, Naxçıvanda Gəmiqayada, Oğlanqalada, Kültəpədə, Fərhad evində, Füzuli rayonunda Azıx mağarasında, Qazaxda Baba-Dərviş yaşayış məskənində rast gəlinmişdir.**

Təkcə Qobustanda 720 qaya üzərində 4 mindən artıq təsvir vardır və bu təsvirlərin çoxu piktroqrafiyadır. Qobustan qaya rəsmlərinin tarixi 4 min il bundan əvvələ gedib çıxır.

Gəmiqaya tədqiqatçıları qeyd edirlər ki, Gəmiqayada 1000-dən artıq şəkli yazıya, piktoqrafik işarəyə rast gəlinmişdir.

Ən qədim yazı sistemləri bir-birindən asılı olmadan, bir-birindən xəbərsiz Asiyada (Mesopotamiya və Çində), meydana gəlsə də, mənbələrdə yazının vətəni konkret olaraq Qədim Misir və Şumer sayılır. Bu fikrə Azərbaycan ərazisini, Qobustan, Gəmiqaya əlifba və yazı nümunələrini də əlavə etmək olar. **Mixi yazının müəllifi Şumerlər sayılsa da, bu yazı nümunələrinə Naxçıvan ərazisində, xüsusilə Gəmiqayada rast gəlinmişdir. Son zamanlar aparılan tədqiqatlarda isə Naxçıvan mixi yazılarının daha qədim və daha mükəmməl olduğu müəyyənləşdirilmişdir.**

Mixi yazılara habelə Mingəçevirdə, Abşeronda, Azıx mağarasında və digər yerlərdə rast gəlinmişdir. Azərbaycanda yazı mədəniyyəti nümunələri forma və növ zənginliyi ilə seçilmişdir. Bu ərazidə müxtəlif tayfalar - Strabonun dediyi kimi 26 tayfa yaşamışdır ki, onların özünə məxsus dili, ədəbiyyatı, mədəniyyəti və yazısı olmuşdur.

**Miladdan əvvəl IX-VII əsrlərdə mannalıların və midiyalıların da özlərinə məxsus əlifbaları və yazıları olmuşdur. Daha sonralar V əsrdə albanların 52 hərfdən ibarət alban əlifbası olmuşdur.**

Artıq bu dövrdə Arranda (Albaniyada) məktəblər var idi və burada uşaqlar oxuyurdular.Bu məktəblərdə rahiblər "maaşla" dərs verirdilər, yəni ruhanilər maarifçi, müəllim rolunu oynayırdılar. Belə güman etmək olar ki, Arranda yazılı mənbələr və ədəbiyyat xəlifə Əbdülmalikin (685-705) hökmranlığı dövründən başlayaraq, məhv edilmiş və ya sıxışdırılıb aradan çıxarılmışdır. Divanxanalar ərəb dilinə keçmiş, alban yazısı əhali içərisində savadlı təbəqələrin azlığı üzündən də unudulmuş və təbii olaraq məhv edilmişdir.

Maraqlı məsələlərdən biri *Orxon-Yenisey əlifbasının- Göytürk əlifbasının (buna Runik əlifba da deyilir)* Azərbaycan ərazisində işlənib-işlənməməsi ilə bağlıdır. Mənbələrdən məlum olur ki, hələ **VI-VII əsrlərdə qədim Azərbaycanın Dərbənd divarlarından**

**şimalda yerləşən Xəzər xaqanlığında runik əlifbadan istifadə edirdilər. 1948-1952-ci illərdə Mingəçevirdə tapılmış V-VI əsrlərə aid qədim alban epiqrafik nümunələrində türk runik əlifbasının 13 hərfinin 65 dəfə təkrar işləndiyi müəyyən edilmişdir.** Belə faktlar sübut edir ki, hələ Orxon-Yenisey yazıları Avropa alimləri tərəfindən kəşf edilməmişdən çox-çox əvvəllər Göy türk əlifbası Albaniyanın, sonra isə Azərbaycanın türk qəbilələrinə tanış olmuş, onlar ulu əcdadlarının əlifbasından bu və ya digər məqsədlər üçün istifadə etmişlər.

**Gəmiqaya abidələri və yazıları** Naxçıvanın tunc dövrü mədəniyyətinin ayrılmaz hissəsidir. Abidə Ordubad rayonunun Nəsirvaz kəndinin yaxınlığında yerləşir. Qayaüstü təsvirlər, yazı nümunələri başlıca olaraq Qaranquş yaylağında toplansa  da, bu tip təsvirlərə Qapıcıq zirvəsindən başlayaraq Nəbi yurdu və Camışölən yaylağınadək geniş bir ərazidə rast gəlmək mümkündür.

Gəmiqaya Kiçik Qafqaz dağlarının ən hündür zirvəsində ucalıq, böyüklük adıdır.Bu yerlər öz möhtəşəmliyi ilə insanı özünə cəlb etdiyi üçün ən qədim zamanlardan ibtidai insanlar bu zirvəni fəth etmək haqqında düşünmüş və buna nail olmuşlar. Bura insanlarin təkcə otlaq sahəsi deyil, həm də ibadət zirvəsi idi. İnsanlar bu zirvəyə qalxdıqca Tanrıya yaxınlıq hiss etmiş və daha rahat olmuşlar. Qapıcıq zirvəsində hündürlük 3906 m., ondan aşağıda, Gəmiqayası adlanan yerdə isə 3200-3500 metrdir. Bu yerdə birbirini tamamlayan zirvələr çoxdur. Qazangöl dağ 3829 m, Nefitli dağ 3375 m, Dəmirli dağ 3368 m, Yağlı dərə dağı 3825 m və.s.

Gəmiqaya ulu babalarımızın əsrlər boyu yaylağı olmuşdur. Burada-dağın zirvəsində qədim oguz-türk elləri və adları ilə bağlı iki təbii göl vardır. Onlardan biri Göygöl, digəri isə Qazangölüdür. Göygöl dəniz səviyyəsindən 3065 m, Qazangöl isə 3150 m hündürlükdə yerləşir. Göygöldən öz mənbəyini alan Saqqarsu çayı Naxçıvan Muxtar Respublikası ərazisinə, Qazangöldən başlayan Gərd çayı isə Zəngəzur tərəfə axır. Göy göl təkcə onun rənginə verilən ad deyil. Bu adda olan göllərin hamısı dağlıq  zonalarda

yerləşir(Göygöl-Gəncədə, Göyçə göl-yəni göy rəngə çalan-Qərbi Azərbaycanda və s.).Qazangöl isə təbii ki, Kitabi Dədə Qorqudda rast gəldiyimiz, igidlik, mərdlik simvolu olan Qazan xanın adı ilə bağlıdır ki, bunun da tarixi eramızdan çox-çox əvvəllərə aiddir.

**Gəmiqayalıların 32 hərfdən ibarət əlifbaları olmuş**. Onların 9-u sait, 23 –ü isə samit olmuşdur. Hərflər müstəqil şəkildə həm də müəyyən bir sözü ifadə edir. Bu əlaməti Orxon Yenisey əlifbasında da görmək olur. Gəmiqayadakı təsvirlərin özü sübut edir ki, burada yüksək inkişaf etmiş mədəniyyət olmuşdur. Buradakı yazılar, işarələr, rəsmlər istedadlı rəssamlar və bilicilər tərəfindən çəkilmiş nadir sənət inciləridir. Bu rəsmlər qayaların köksündə bədii, həndəsi-riyazi dəqiqliklə qazılmış, həkk edilmişdir. Bunların hamısı sözlü işarələrdir və Tanrıçılıq - yaradılış inamını yer-göy əlaqələrini, kosmik düşüncəni əks etdirir... Gəmiqaya yüksək inkişaf mədəniyyətinin bir göstəricisidir.

Bu rəsmləri yaratmaq, iki təkərli, dörd təkərli arabalar kəşf etmək, atlı rəsmində atlının başında papaq, ayağında çəkmə, əynində kürk, yaxud da müqəddəs mənbələrdə göstərildiyi kimi üzüm suyundan – şərab hazırlayaraq Nuhun istifadə etməsi və s. o deməkdir ki, burada insanlar hərtərəfli bilik qazanmış, mənalı, məzmunlu bir elm, təhsil həyatı keçirmişlər.

Qədim dövr-ibtidai icma quruluşunda yetişən nəslin tərbiyəsinə, icmanın əxlaq normalarına əməl edilməsinə şübhəsiz qəbilə və tayfanın ağsaqqalları, ataları, dədələri, təcrübəli, bilikli insanları rəhbərlik edir, icmaya və onun üzvlərinə məsləhət və istiqamətlər, öyüd və nəsihətlər verirdi. Buna görə də atalar, dədələr, ağsaqqallar bir tərbiyəçi kimi hörmətli şəxs hesab edilir, onlara pərəstiş edilir, hətta sitayiş ayinləri də meydana gəlmişdir ki, bunu tunc dövrünün daş kitabələrində görmək mümkündür.

İbtidai icma quruluşunda ağsaqqal ata və babaların qəbri üzərində bir uzun daş şaquli olaraq yerə basdırılırdı. Bu cür abidələrə çoban daşı da deyirlər. Belə abidələrə dağ və dağətəyi yerlərdə rast gəlmək olar. Naxçıvanın Nehrəm kəndinin aşağı hissəsində “Ölən

şəhər" deyilən yerdə qəbirüstü daşlar məhz dediyimiz çoban daşlarındandır. Həmin uca daşlara insanlar əbədi varlıq kimi baxmış, onlar müqəddəsləşdirilmiş, arzu və niyyətlər, şər qüvvələrdən xilas olmaq bu daşlardan istənmiş, bu daşlar ağsaqqal ata və babaların ruhunu bu dünyada yaşatmaq, ondan yenə də kömək və məsləhətlər almaq düşüncəsini daşımışdır.

Ov, yürüş, qida əldə etmək, təbii fəlakətlərdən qorunmaq kimi həyati proseslərdə qədim insanların inancı, nəyəsə inamı formalaşır, get-gedə bu inanc mürəkkəbləşir, insanların düşüncələri inkişaf edir. Yetişməkdə olan nəsil, uşaqlar bütün bunları müşahidə edir, öyrənir, böyüklər onlara öyrədir. Belə qənaətə gəlmək olar ki, qədim insanlarda tərbiyənin aşağıdakı məqsədləri olmuşdur: l) Qəbilə, tayfa, ailə uşaqları praktik olaraq həyata hazırlamalı, onlara mürəkkəb həyat və təbiət hadisələrindən baş çıxarmağı, təbii fəlakətlərdən, vəhşi heyvanlardan qorunmağı, qida əldə etməyi, balıq tutmağı, daş alətlərdən istifadə etməyi və onu hazırlamağı, ov etməyi və ovlanmış heyvanın dərisindən istifadə etməyi, heyvan məhsullarından müxtəlif qida məhsulları hazırlamağı, daha sonralar da heyvanlardan müxtəlif məqsədlər üçün minik, yük daşımaq, nəqliyyat vasitəsi kimi istifadə etməyi öyrətməli, bunlara müvafiq onları lazım olan bilik, bacarıq və vərdişlərlə silahlandırmalı və uşaqlar da əldə etdikləri bilik, bacarıq və vərdişləri əməli işlərdə nümayiş etdirməlidirlər; 2) Böyüklər uşaqlara ilahi qüvvəyə, ruha, surətə inanmağı, xeyirə sitayiş, pərəstiş və ibadət etməyi, onlara dua etməyin yollarını, formalarını öyrətməli və uşaqlar da praktik işləri ilə onların icrasını qəbilə başçısına, ağsaqqala, dədələrə çatdırmalı idilər. Bütün bunlar tərbiyənin məqsədləri olsalar da onların yerinə yetirilməsi üçün ciddi öyrətmə-öyrənmə prosesi tələb edilir, əməli işləri həyata keçirmək üçün ağsaqqal məsləhəti, tövsiyəsi gərəkdir. Qeyd olunanlar onu göstərir ki, qədim dövrlərdə də, icma quruluşunda da ağsaqqallar, ata və babalar, dədələr icma üzvlərinin təlimi və tərbiyəsi qeydinə qalmış, dövrün tərbiyə və təlim məqsədindən irəli gələrək böyüklər əldə etdikləri təcrübəni

yetişməkdə olan nəslə öyrətmişlər. İbtidai icma dövründə Azərbaycanın bir çox yerlərində dulusçuluq, misgərlik, dəmirçilik inkişaf etmişdir. Qarabağ, Qazax, Naxçıvan, Mildüzü, Aran rayonlarında dulusçuluq, misgərlik və dəmirçilik eramızdan əvvəl hələ ikinci minillikdə inkişaf etmişdir. Mezolit və Eneolit dövrlərində ritmik və simmetrik anlayışların ortaya çıxması, rəqs kompozisiyalarının, naturadan çəkilən rəsmlərin mövcudluğu onu göstərir ki, ən qədim dövrlərdə belə rəsm və incəsənət mədəniyyəti olmuş, müxtəlif yazılar olmuş və buna müvafiq də təlim mədəniyyəti olmuşdur.

**Azərbaycan xalqı, eyni zamanda dünyanın ən qədim dövlətçilik ənənələrinə malik olan xalqlardandır. Azərbaycan xalqı təqribən 5 min illik dövlətçilik tarixinə malikdir**. Azərbaycan ərazisində ilk dövlət qurumları və ya etnik-siyasi birliklər hələ eramızdan əvvəl V minilliyin sonu - IV minilliyin əvvəllərindən başlayaraq Urmiya hövzəsində yaranmışdı. Burada meydana gəlmiş ən qədim Azərbaycan dövlətləri bütün regionun hərbi-siyasi tarixində, gənclərin hərbi vətənpərvərlik tərbiyəsində mühüm rol oynayırdılar. Eramızdan əvvəl I minillikdə - bizim eranın I minilliyinin əvvəllərində Azərbaycan torpaqlarında Manna, İskit (Skit, Skif) şahlığı, Atropatena və Albaniya kimi qüvvətli dövlətlər mövcud olmuşdur. Bu dövlətlər Azərbaycanda dövlət idarəçiliyi mədəniyyətinin daha da yüksəldilməsində, ölkənin iqtisadi-mədəni tarixində, eləcə də vahid xalqın təşəkkülü prosesində mühüm rol oynamışlar. Əlbəttə, bütün bunlar elmin, maarifin, təlim və tərbiyənin inkişafı ilə müşaiyət edilmişdir.

Azərbaycan dağlarından qızıl gümüş, mis, civə, qurğuşun, oxra çıxarılır, ölkədə bol pambıq, üzüm, taxıl, zeytun yetişdirilir, neft və duz istehsal edilirdi. Bol çayları, münbit torpaqları olan Azərbaycan əkinçilik təsərrüfatı üçün geniş imkanlara malik idi. Ölkənin bütün əyalətlərində heyvandarlıq inkişaf etmişdi. Ticarət yollarının üstündə yerləşən Azərbaycan bir çox ölkələrin tacirlərini özünə cəlb etmişdi. Azərbaycandan xarici bazarlara pambıq, ipək, boyaq maddələri, yaş və quru meyvə, balıq məhsulları aparılırdı.

Ölkədə sənətkarlıq, elm, maarif inkişaf edir, yeni şəhərlər meydana gəlirdi. Orta və On Asiya, Yaxın Şərq ölkələri ilə mədəni və ticarət əlaqələri genişlənirdi. Azərbaycanın bir çox şəhərləri xarici ticarət əlaqələrinin inkişafında da böyük rol oynayırdı. Dərbənd, Şabran, Təbriz, Bərdə, Beyləqan, Naxçıvan və başqa şəhərlər ticarət yollarının üstündə olduqları üçün daha geniş imkanlara malik idi. Azərbaycan 100 şəhəri olan ölkə adlanırdı. Şamaxı, Şəki, Şəmkir, Gəncə şəhərlərində də ticarət əlaqələri genişlənirdi. Azərbaycan şəhərləri içərisində Bərdə hərtərəfli yüksək inkişaf etməsi ilə seçilirdi. Xilafətin Cənubundan və Şərqindən Şimala sənaye və ticarət malları aparan karvanlar Bərdədən gəlib keçirdi. Bərdə demək olar ki, bir çox səyyahların da dediyi kimi o zaman Xilafət tabeliyində olan ikinci Bağdad hesab olunmuş və ən zəngin kitabxana burada olmuşdur.

Böyük ərəb alimi, 1213 və 1220-ci illərdə iki dəfə Azərbaycana səyahət etmiş Yaqut Həməvi (1179-1229) “Mucəm əl-Buldan” (“Ölkələrin adlı siyahısı”) adlı əsərində yazır ki, “Azərbaycanın sərhədləri şərqdə Bərdədən Ərzincana qədər, şimaldan Deyləm, Gilan, Tara qədər uzanır ki, bu çox böyük bir ölkədir.... Azərbaycan nəhəng ölkə və qüdrətli dövlətdir. Mən heç yerdə bu qədər qalalar, hədsiz zənginlik və möhtəşəm meyvə bağları görmədim. Azərbaycan əhalisi qırmızıyanaq və ağ dərili, xoşsifət insanlardır. Onlar yaxşı müraciətləri, yumşaq xarakterləri ilə seçilirlər...”.

Urmiya gölünün ətrafından başlayaraq, zaman-zaman Dəclə və Fərat vadiləri də daxil olmaqla, İran körfəzinə qədərki ərazilərdə e.ə. III-II minilliklərdə Aratta, Lullubi və Kuti qəbilə tayfaları yaşayırdı. Bu əyalətlərdəki təlim-tərbiyə mədəniyyəti haqqında da müəyyən məlumatlara sahibik. Aratta inkişaf etmiş Şumer dövləti ilə həmişə sıx iqtisadi, siyasi, mədəni əlaqələrdə olmuşdur. Bu əlaqələr haqqında bir neçə Şumer dastanında, o cümlədən “En-Merkar və Aratta hökmdarı” dastanında ətraflı məlumat verilmişdir. Bu dastanlarda Aratta saf, təmiz ənənələr ölkəsi adlandırılır. Şumerin Uruk şəhər dövlətinin hökmdarı En -Merkar ilə Aratta hökmdarı

arasında gah dostluq, gah da düşmənçilik münasibətləri mövcud olmuşdur. Bu, hər iki hökmdarın bir-biri ilə yazışmalarından bəlli olmuşdur. Arattada yazı işlərini aparan xüsusi mirzələr çalışırdı. Onlar Şumer hökmdarına məktublar yazır və Şumerdən gələn məktubları tərcümə edirdilər. Bu fakt onu göstərir ki, artıq Arattalılar Şumer mixi yazıları və Şumer dili ilə tanış idilər. Bir halda ki, qarşılıqlı ticarət əlaqələri varsa, onda deyə də bilərik ki, Şumerlər də Arattalıların, Gəmiqaylıların, Qobustanlıların mixi yazıları ilə, piktroqrafik yazı, ünsiyyət işarələri ilə, habelə Gəmiqayalıların yaratdıqları araba ilə, Qobustanlıların yaratdıqları qayıqlarla tanış imişlər.

Salyan rayonunun Çuxanlı kəndi ərazisindəki Babazənan dağında bizim eranın 2-ci əsrini əhatə edən 20-dən çox küp qəbir, 200-ə yaxın digər maddi-mədəniyyət nümunələri tapılmışdır. Maraqlısı budur ki, Qədim Şumerdə də belə küp qəbirlər mövcud olmuşdur. Bu hər iki mədəniyyətin oxşarlığını, yaxınlığını, bir–birinə qaynayıb qarışdığını söyləməyə imkan verir.

Arattada mahir ustalar, sənətkarlar, yüksək peşə sahibləri var idi. Bu peşələri onlara böyüklər lap kiçiklikdən öyrədirdilər. Şumer hökmdarı En Merkar qiymətli metalların, əşyaların, mərmər və lacivərdin, habelə, ustaların göndərilməsini Aratta hökmüdarından xahiş edirdi, əvəzində isə Arattaya taxıl göndərəcəyini vəd edirdi. Mazandaranda, Kirmanda, Təbriz yaxınlığında çıxarılan lacivərd Şumerlərə ixrac edilirmiş. Aratta və Şumer arasında sıx ticarət əlaqələri həyata keçirilirdi. Mənbələr Aratta və Şumer dövləti arasında belə sıx əlaqələrdən xəbər verirsə, onda heç şübhəsiz Şumerlərdə mövcud olan maarif və mədəniyyət, ədəbiyyat, Şumer dastanları Arattada da tanınmış və öyrənilmişdir.

Qədim Azərbaycan tayfalarından olan Urmiya gölünün cənubunda Lullubum tayfa ittifaqı, sonra isə Lullubi dövləti yarandı ki, bu da Azərbaycan ərazisində yaranmış ikinci erkən dövlət quruluşu idi. Mənbələrdən aydın olur ki, Lullubum və inkişaf etmiş Akkad dövləti arasında müharibə və savaşlar olmuşdur.

Lullubumlər Anubaninin hökmdarları dövründə daha da qüvvətlənmişdilər. Cənubi Azərbaycanda tapılmış “Daş sütünu” abidəsində bu barədə mixi yazılarla qeyd edilmişdir: “Anubanini qüdrətli Lullubum hökmdarı, öz təsvirimi və İştar ilahəsinin təsvirini Batir dağında qoydurdum”. Böyük bir abidə yondurub qoydurmaq, üstundə yazılar yazmaq bu dövlətin inkişafından, mədəniyyətindən, yazısınının, “arxitektorlarının”, mühəndislərinin, ustalarının olmasından bizi xəbərdar edir ki, bu da şübhəsiz sistemli təhsil və təlimlə mümkün ola bilərdi. Burada Akkad dilini bilən, onu yazıb-oxumağı bacaran və başqalarına öyrədən mirzələr də olmuşdur. Lullubumluların hökmdarı (e.ə. 2170-2150) öz yazılarını mixi əlifbası ilə mirzələrə yazdırırdı. Mixi yazıları buranın əhalisinə yuxarıda göstərdiyimiz kimi hələ varisləri Aratta dövründən tanış idi. Lullubumların əgər mixi yazıları olmuşdursa, demək oxuları da olmuş, kiməsə nəyisə öyrətmişlər - demək burada da təlim mədəniyyəti, tərbiyə prosesi, öyrədənlər və öyrənənlər, mükəmməl savad təlimi mövcud olmuşdur.

Kutilərdə isə qüvvətli hərbi dəstələrin olması burada hərbi təlimin səviyyəsindən, vuruş texnikasından xəbər verir. Kuti hərbi dəstələrinin başçısına Nippur şəhərində mixi yazılarla yazılmış bir abidə də qoyulmuşdur ki, üstündə yazılmışdır: “Qüdrətli Kutium və dünyanm dörd səmtinin hökmdarı”. Yenə də möhtəşəm bir abidənin qoyulması şübhəsiz xüsusi təlim, təhsil görmüş bir memarın, mühəndisin işidir. Belə bir abidənin yaradılması və oradakı məntiqi yazılar insanların xüsusi bir təhsil keçdiyini deməyə əsas verir.

Zaman keçdikcə Azərbaycanın dövlətçilik mədəniyyəti daha da yüksəlmiş, ölkə ərazilərində daha təkmil və daha geniş əraziləri əhatə edən yeni dövlətlər yaranmışdır. Eramızdan əvvəl I minillikdə - bizim eranın I minilliyinin əvvəllərində Azərbaycan torpaqlarında Manna, İskit (Skit, Skif) şahlığı, Atropatena və Albaniya kimi qüvvətli dövlətlər yaranmışdır. Bu dövlətlər Azərbaycanda dövlət idarəçiliyi mədəniyyətinin, maarifinin daha da yüksəldilməsində, ölkənin iqtisadi- mədəni tarixində, mühüm rol oynamışdır.

Manna ərazisində tapılmış eramızdan əvvəl VIII əsrə aid qablardan birinin üzərində saz və ya tənburu xatırladan bir musiqi alətində çalan insan şəkli təsvir olunmuşdur. Musiqiçinin aləti tutma qaydası və onun çalğı manerası ifaçının Azərbaycan ərazisində yaşadığına şübhə yeri qoymur.

Urmiyanın ətrafında miladdan əvvəl IX-VIII əsrlərə aid əldə edilmiş arxeoloji tapıntılar - qızıl cam, qızıl döşlük, qızıl bilərzik, gümüş piyalə və onların üzərindəki naxışlar Mannada rəssamlığın, sənətkarlığın, incəsənətin olmasından xəbər verir.

**Mannalıların Manna əlifbası və yazısı olmuşdur. Manna-Mad dövlətinin qonşuluğunda Şumer, Akkad, Babil, İlam, Assur, Hurri, Urartu kimi böyük xalqlar, hökümətlər olmuşdur ki, onların da özünəməxsus rəsmi dövlət dili, əlifbası, yazısı, mədəniyyəti, təhsili olmuşdur.**

Mannalıların müəyyən yazı və əlifbaya malik olmalarını Assur mənbələrindən də görmək olur. Assur mənbəyi göstərir ki, Manna hakim dairələri və şahlarının müəyyən yazısı olmuş və məktublaşmışlar. Urmu gölünün qərbində Zeyvə məntəqəsindən tapılmış xəzinə şeyləri içərisində olan bir gümüş boşqabdakı yazı rus alimi İ.Dyakonovun ehtimalına görə bu heroqlif yazı Mannalılara aiddir. O qeyd edir ki, ola bilsin ki, bu heroqlif deyil, müəyyən əlifbadan ibarət yazıdır, bəlkə də heroqlifdən əlifbaya keçid dövrünə aid tarixi bir yazıdır.

Mannalıların zəngin şifahi xalq ədəbiyyatı - ağız ədəbiyyatı olmuşdur. Bu xalqın müxtəlif məzmunlu nağılları, dastanları, müxtəlif janr xalq şerləri, bayatıları olmuşdur ki, bu ədəbiyyat nümunələri gənc nəslin mənəvi tərbiyəsində demək olar ki, dəyərli pedaqoji əsərlər sayıla bilər. Əlimizdə o dövrün ədəbiyyatına dair nümunələr olmasa da qədim alimlərin yazılarından onlar barədə müəyyən məlumat, təsəvvür əldə etmək mümkündür. Qədim yunan və rum tarixçiləri yazırlar ki, Manna şahlarının saraylarında şairlər olmuşdur ki, onlar mövzularını, öz şeirlərini milli, şifahi xalq dastanları və rəvayətlərindən almışlar.

Eramızdan əvvəl VI əsrin əvvəllərində artıq Midiya dövlətinin qüdrəti artmış və əraziləri xeyli genişlənmişdi. Midiya iki yerə - "Böyük Midiya" və "Kiçik Midiya"ya bölündü. "Kiçik Midiya" Atropatena adlandı ki, bu Azərbaycanın cənubunda yerləşirdi. Atropatenanın xeyli inkişaf etmiş kənd təsərrüfatı, sənayesi var idi. Atropatenanın qonşu ölkələrlə geniş ticarət əlaqələri mövcud idi. Bu ölkənin 30-dan artıq iri şəhərləri yaranmışdı, xalqın yüksək əxlaqı, mənəviyyatı və mədəniyyəti var idi. Atropatenanın özünəməxsus dili, yazısı, adət və ənənəsi var idi. Əhalisi əkinçiliklə, maldarlıqla, ticarətlə, toxuculuqla məşğul idi. Atropatena dövlətində sinfi cəmiyyət, təbəqələşmə sürətlə inkişaf etdiyindən yüksək səviyyəli mütəxəssislərə ehtiyac duyulurdu. Bu sahədə lazımi ixtisaslı kadr "Saray məktəbi"ndə hazırlanırdı. Burada hakim sinfin uşaqları 16 yaşdan başlayaraq müvafiq ixtisas təhsili alırdılar.

Atropatena ilə bərabər Azərbaycanın şimalında Albaniya dövləti də mövcud idi ki, buranın mərkəzi əvvəlcə Qəbələ, sonra Bərdə şəhəri olmuşdur. Albaniya dövründə Azərbaycanın dövlət idarəçiliyi, maarif və mədəniyyəti xeyli yüksəldi. Alban hökmdarları ölkənin dünyəvi və dini başçısı hesab olunurdular. Onlar, eyni zamanda, qanunlar verir, ölkənin hərbi qüvvələrinə başçılıq edirdilər. Dövlətin ordusu 80 min nəfərdən artıq idi. Alban dövləti hərbi-fiziki hazırlığa xüsusi diqqət yetirir, onun döyüşçüləri düz qılınclarla düşmənlərə qarşı amansız olmuş, vuruşlardan şərəflə çıxmışlar. Düşmənlərə qarşı döyüşdə kişilərlə bərabər qadınlar da döyüşür və igidlik göstərirdilər. Albanlar beş yaşından başlayaraq iyirmi dörd yaşına kimi kamandan ox atmağı, nizə tullamağı və at çapmağı, hətta qaçış hərəkətlərini də öyrənirdilər. Albaniyada Zərdüştlük və Xristiyanlıq dini yayılmışdı. IV əsrdə Albaniyada xristianlıq dövlət dininə çevrilmişdi.

**V əsrdə 52 hərfdən ibarət alban əlifbası meydana gəldi və VI-VII əsrlərdə artıq zəngin alban ədəbiyyatı yaranmışdı.** VII əsrdə yaşamış Davdağın mərsiyələri, şeirləri buna misal ola bilər.

Davdağın yüksək bədii üslubda yazılmış məşhur bir mərsiyəsi Albaniyanın istiqlaliyyətini qorumaq üçün canını fəda verən, ətraf düşmən mövqelərinin hücumlarına baxmayaraq böyük siyasətlə öz ölkəsini İberi sərhədlərindən Dərbəndə və Araz çayına qədər olan torpaqları hakimi-mütləq kimi idarə edən vətənpərvər Azərbaycan hökmdarı Cavanşirin qəhrəmanlığına həsr edilmişdir. Bu qəsidə-mərsiyə müəllifinin daha bir çox əsərlər yazdığını, o dövrün ədəbiyyatını, mədəniyyətini göstərən əsaslı dəlillərdəndir.

Strabonun dediyinə görə Albaniyada 26 tayfa yaşayırdı. Bu tayfaların özlərinə məxsus mədəniyyəti, adət və ənənələri, dili var idi ki, onlar siyasi, iqtisadi və mədəni cəhətcə birləşərək ölkəni birlikdə inkişaf etdirir, ümumalban maarif və mədəniyyətini zənginləşdirirdilər. Albaniyada müxtəlif tayfalar, müxtəlif dini inanca mənsub olanlar yaşadığı kimi müxtəlif məktəblər və təhsil ocaqları da fəaliyyət göstərmişdir. Albaniyada Mehranilər dövründə (VI əsrin sonları, VII əsrin əvvəllərində) Zərdüşt məktəbləri geniş yayılmış, xüsusilə Girdman məbədinin ali təhsil mərkəzi olmasını da güman etmək olar.

Sonrakı dövrlərdə Albaniyanın adı Aran və ya Ağvan kimi də işlədilmişdir. Aranda da məktəblər var idi və burada da tədrisi xüsusi hazırlıqlı şəxslər yerinə yetirir, savad təlimi yazı və oxu ilə müşayiət edilir, uşaqlar ana dilində təhsil alır və alban əlifbasında yazırdılar. Savad təlimi yazı və oxu ilə müşayiət edilirdi. Bu dövrdə Zərdüşt məktəblərinin geniş yayılmasına baxmayaraq xristian məktəbləri də mövcud idi. Bu məktəblərdə təlimin məzmunu və təlim üsulları bir-birindən fərqli olmuşdur. Belə ki, Zərdüşt məktəblərində daha çox şifahi, söz metodlarına yer verilir, "Avesta" materialları şifahi yolla oxudulur, əzbərlədilir və yalnız bundan sonra yazı təliminə keçilir, savad təlimi və oxu vərdişləri öyrədilirdi. Xristian məktəblərində isə yazı və oxu əvvəlcə öyrədilir, ondan sonra əzbərləmə, nəqletmə və s. öyrədilirdi. Beləliklə, məktəblər getdikcə genişlənir, yazı və oxu mədəniyyəti inkişaf edir, yeni tədris üsulları, məktəblər, təhsil ocaqları meydana çıxırdı.

## 1.4. ZƏRDÜŞT MƏKTƏBLƏRİ VƏ "AVESTA"DA TƏRBİYƏ MƏSƏLƏLƏRİ

Zərdüştlük qədim və erkən orta əsrlərdə Azərbaycan, İran, Orta Asiya, Ön Asiya və bir sıra başqa ölkələrdə geniş yayılmış bir fəlsəfə, ədəbi abidə, pedaqoji fikir və din olmuşdur. Zərdüşt dininin müqəddəs dini kitabı "Avesta" ("Qanun") adlanır. "Avesta"nın ilkin variantı bizə gəlib çatmamışdır. Bu kitabın yalnız müəyyən hissələri bəzi əlavələrlə, dəyişikliklərlə bizə gəlib çatmışdır.

Azərbaycanda sistemli məktəb təhsili dövrünün Zərdüşt məktəbləri ilə başlandığını deyə bilərik. Mənbələrdən də məlum olur ki, islamiyyətin yayılmasına qədər Azərbaycanda Zərdüşt məktəbləri daha geniş yayılmış, atəşkədə və atəşgahlar Zərdüştlüyün həm ibadət yeri, həm də təlim, tədris mərkəzləri kimi fəaliyyət göstərmişdir. Bunlar da Azərbaycanda məktəb təhsilinin əsasını təşkil etmiş və təməl amillərdən olmuşdur. Sasanilər dövründə Zərdüştlük qüvvətlənərək ölkənin rəsmi dininə çevrilmişdir. Bu dövrdə ibtidai təhsil verən məktəblərlə bərabər, peşə təmayüllü məktəblər olmuş, hətta Sasanilər dövründə bəzi Pəhləvi ədəbiyyatında ali təhsil almaq üçün görülən tədbirlərdən danışılması burada ali təhsil verən tədris mərkəzlərinin də olmasından xəbər verir. Mənbələrdən bu da aydın olur ki, bu dövrdə təhsil sinfi xarakter daşımış, əhali müəyyən zümrələrə, silklərə bölünmüş və məktəb tipləri də buna müvafiq olaraq dörd təbəqəyə- kahinlər, döyüşçülər, katiblər, sənətkarlar təbəqəsinə bölünmüşdür. Əhalinin dörd silkdən birinin katiblər olması və bu silkə məktubları, protokolları tərtib edən mirzələr hesabdarlar, hüquqşünaslar, həkimlər, yazıçı və şairlər, coğrafiyaşünaslar və münəccimlərin daxil olması onu göstərir ki, burada savadlı, təhsil görmüş elm adamlarına xüsusi diqqət yetirilmişdir. Bu da ona əsas verir ki, Sasani dövlətinin tərkibinə daxil olan Azərbaycanda (Atropatendə) təhsilə, elmə, elm adamlarına, savadlı adamlara xüsusi hörmət göstərilmiş, böyük

əhəmiyyət verilmişdir.

Bu dövrdə yüksək silkə malik olan şahzadələrin, rütbə sahiblərinin uşaqları Saray məktəblərində təhsil alırdılar. Saray məktəblərində gənclərin təlim-tərbiyəsi ilə şahzadələr və yüksək səviyyəli müəllimlər məşğul olurdular. Bu məktəblərdə dövlət üçün kadrlar hazırlanırdı. Zərdüşt təlimi və tərbiyəsi Zərdüşt məbədlərində, atəşkədələrdə aparılırdı. Dövrün ən böyük atəşkədəsi-Azərqoşnəsb Azərbaycan diyarında yerləşirdi. Dövrün böyük alimləri olan əl-Məsudinin, əl-Həməvinin əsərlərindən də məlum olur ki, qədim Azərbaycanın paytaxt şəhərlərindən olan Şiz (Gəncək) şəhərində yerləşən əzəmətli mədəniyyət, elm, təhsil mərkəzi, Zərdüşt məbədi Azərqoşnəsb olmuşdur. Azərqoşnəsb məbədinin Şiz şəhərində yerləşməsi onu göstərir ki, qədim Azərbaycanın paytaxtı olan bu şəhər böyük elm, maarif və mədəniyyət mərkəzi olmuşdur. "Avesta"nın iki nüsxəsindən biri Şiz Atəşkədəsində saxlanılırdı. Sasanilər dövründə Zərdüştün müqəddəs kitabı "Avesta" məhz Şiz nüsxəsi əsasında tərtib edilmişdir. İran, Azərbaycan, Türküstan, Hindistan Zərdüşt məbədlərində çalışmaq üçün ruhani kadrlar məhz Şiz şəhərində hazırlanıb yerlərə göndərilirdi. Yuxarıda adını çəkdiyimiz ərəb tarixçisi Məsudi bu şəhər haqqında yazmışdır ki, burada heyrət doğuran binaların qalıqları, eləcə də səma kürəsini, ulduzları, dünyanı, quru və dənizləri, yaşayış yerlərini, bitki və canlıları əks etdirən rəngarəng və çox gözəl rəssamlıq lövhələri vardır. X əsrdə yaşamış coğrafiyaşünas alim, səyyah Əbu Duləf Şiz şəhəri haqqında yazır ki, bu şəhər qızıl, civə, qurğuşun, gümüş, sarı arsen və cəmast adlı daş mədənləri olan dağlar arasında yerləşir... Orada çox möhtəşəm bir atəşkədə (od evi) vardır. Şərq və Qərbdə yaşayan atəşpərəstlər buradan od aparırdılar. Atəşkədə qübbəsinin başında, onun tilsimi olan gümüş aypara vardır.

Hindistanda və Yunanıstanda Avestanın tibb, nücum, coğrafiya, fəlsəfə sahələrinə dair hissələrin toplanması haqqında Sasani şahı Şapurun (242-272) xüsusi fərman verməsi onu göstərir ki, o dövrdə bu fənlərin öyrənilməsinə xüsusi diqqət yetirilmişdir.

Atəşkədələrdə Zərdüşt təhsili alanlar bütün günü orada olur, orada yeyir, orada gecələyirdilər. Onların təhsil xərclərini Atəşkədə vəqfləri ödəyirdilər. Atəşkədələr bir elm, tədris mərkəzi, alimlər, müdriklər ocağı idi. Dahi Nizami Gəncəvi "İskəndərnamə" əsərində bu barədə dəyərli məlumatlar vermişdir:

**İranda adətdir keçmişdən bəri**
**Atəşkədə idi alimlər yeri,**
**Orda saxlanardı, sərvət, xəzinə**
**Düşməsin başqa bir şəxsin əlinə.**
**Hər sonsuz varlı da, "Savabdır" - deyə**
**Malını qoyardı atəşkədəyə,**
**Ölkələr düşmüşkən dərmansız dərdə,**
**Bir xəzinə idilər Atəşkədələr.**

Buradan aydın olur ki, Atəşkədələr təkcə ibadət yeri, dini mərasimləri icra etmək yeri olmamış, həm də alimlər yeri, ədəb-ərkan yeri, bir mədəniyyət, təhsil mərkəzi olmuşdur ki, Suraxanı Atəşkədələri buna misaldır. Müəllim və alimlər burada təlim və tərbiyə ilə, pedaqoji işlə məşğul olmuşlar. Atəşkədə və atəşgahlarda təlim-tərbiyə işləri ilə mağlar (muğlar), atərvanlar (Od qoruyanlar) məşğul olurdular. Həmin məktəbin təlim-tərbiyə proqramı üç mühüm hissəyə bölünürdü: 1) Dini-əxlaqi; 2) Fiziki; 3) Yazıb-oxumaq.

Zərdüşt məktəblərində təlim "Avesta" duaları, ayinləri və nəğmələri ilə başlayırdı. Daha sonra əlifba və oxu təliminə keçilirdi.Məktəblərdə **fiziki tərbiyəyə**, uşaqların sağlam həyat tərzinə xüsüsi diqqət yetirilir, "Avesta"nın "Xəstələnmə", "Zəifləmə"- kimi çağırışları əzbərlədilir və ona əməl edilirdi. Xəstəlik, zəiflik, pislik şər Allahı Əhrimanın əməlləri hesab olunurdu. Ox atmaq, nizə tullamaq, üzmək, ov etmək, qurşaq tutmaq fiziki tərbiyənin əsas məzmununu təşkil edirdi. Ona görə də şərə qalib gəlmək üçün sağlam, təmizkar və qüvvətli olmaqla bərabər, məktəbdə dərin bilik almaq tələb edilirdi.

**Yazıb-oxumaq**, bilik qazanmağın mühüm şərti hesab edildiyindən Zərdüştlükdə buna ciddi fikir verilir, uşaqların əqli qabiliy-

yətləri inkişaf etdirilirdi.

Zərdüşt məktəblərində öyrədilirdi ki, insan həmişə mülayim, xoşxasiyyət, adil və xeyirxah, fitnə-fəsaddan, qəddarlıqdan, paxıllıqdan, yalançılıqdan uzaq olmalıdır. O, cəmiyyətin fəal üzvü kimi əkinçiliklə, maldarlıqla məşğul olmalı, bataqlıqları qurudub onu məhsuldar torpağa çevrilməsinə səy göstərməlidir.

Zərdüşt məktəblərində yetişən gənc nəslin mənəvi-əxlaqi tərbiyəsinə xüsusi diqqət və əhəmiyyət verilirdi. Belə ki, Zərdüştlüyün əxlaqi idealı xeyirxahlıq, ədalət, yaxşılıq olduğundan Zərdüşt təlimində yaxşılıq və pislik anlayışı kəskin şəkildə qoyulur və bunların mahiyyəti açılır: "Anlayan adam gərək pisi deyil, yaxşını seçə bilsin"- fikri irəli sürülür.

Zərdüşt məktəblərində ibtidai təhsil 7 yaşdan 15 yaşa qədər davam edirdi. İbtidai təlim ilə məşğul olan müəllimə "Hirbod", şagirdlərinə isə "Həvişt" deyilirdi. İbtidai təhsil səhər tezdən xüsusi mərasimlə və dua ilə başlayırdı. "Avesta" duaları dini ayin və mərasimlərin, nəğmələrin öyrənilməsi, əzbərlədilməsi ibtidai təhsilin əsas məzmununu təşkil edirdi. Ona görə də ruhanilər "Avesta" dualarında "Elm ilahəsi"ndən qüvvətli hafizə diləmişlər. Oğlan uşaqlarının yeddi yaşı tamam olandan sonra onlara müqəddəs köynək geydirilir, onları münəccimlərlə bir sıraya üzü günəşə doğru düzüb dini "Avesta" ayinlərini əzbərlədirdilər: *"Mən vəd edirəm ki, Zərdüştlüyə sadiq olacağam. Mən xeyirxah fikrə, xeyirxah sözə, xeyirxah əmələ inanıram"*. Bundan sonra uşaqlara hədiyyələr verilirdi. Bu məşğələ gündə beş dəfə təkrar edilirdi. Azərbaycan Zərdüşt məktəblərində tədris prosesi müəyyən mərasim ilə müşayiət edilirdi. Bu da dərs materiallarının şagirdlər tərəfindən əzbərlənməsini asanlaşdırmaq məqsədi güdürdü. "Avesta" duaları tam əzbərləndikdən sonra yazı öyrədilirdi. Beləliklə, ibtidai təhsil başa çataraq, yeni bir təhsil pilləsinə başlamaq olardı.

VI əsrdən qalmış "Ənuşirəvan və Qolam-bəççe" adlı bir sənəddə "Qolam bəççe" öz təhsili haqqında şaha məlumat verərkən deyir ki, onu müvafiq yaşda məktəbə göndərmişlər və o, "Aves-

ta"nın əsas hissəsini əzbərlədikdən sonra orta təhsil almağa başlamışdır. Həmin sənəddən, eləcə də "Avesta"dakı bir sıra dualardan bu qənaətə gəlmək olur ki, Sasanilər dövründə İranda, eləcə də Azərbaycanda "Avesta"dan ayrı-ayrı duaların və dini nəğmələrin əzbərlənməsi ibtidai təhsilin məzmununu təşkil edirdi və ibtidai təhsil dövründə "Avesta" bir dərslik kimi yeganə tədris vəsaiti hesab olunurdu .

"Avesta" əvvəl şifahi şəkildə – rəvayətlərdən ibarət olub. Sonralar isə yazıya alınmışdır. "Avesta" dövrünün bütün biliklərini əhatə edən mənbə olub. Tədqiqatçıların fikrincə, "Avesta" ilk əvvəl 21 kitabdan ibarət imiş və hər kitabın da ayrıca adı varmış. Makedoniyalı İsgəndər Azərbaycanı işğal edərkən "Avesta"nın tibbi, fəlsəfi və astroloji hisslərini yunan dilinə tərcümə etdirib qızılla yazdırmış, qalan hissələrini isə yandırmışdır. Sonralar qismən də olsa "Avesta" bərpa olunmuş və cəmi beş kitab gəlib çıxmışdır:

***1. Vendidad (Videtdat) – "Divlər əleyhinə qanun".*** Burada əsas yeri Hörmüzlə Zərdüşt peyğəmbərin dialoqu tutur. Təmizlik və saflıq haqqında qaydalar var. Kitabın məqsədi Xeyir Allahının məsləhətinə arxalanıb şərlə, zülmətlə mübarizə aparmaqdır.

***2. Vispered – "Hər şeyin ağası".*** Bu kitab təxminən 25 fəsildən ibarətdir. Onun tərkibinə dualarla bağlı nəğmələr daxil edilib. Zərdüştiliyi öyrənmək baxımından əhəmiyyətli olsa da, bu hissənin bədii tutumu zəifdir.

3. Yasna – "Səcdə etmə, dua etmə". Bu, "Avesta "dan əldə olan ən geniş və mühüm hissədir, 72 fəsildən ibarətdir. Onun 17 fəslini "Qatlar" təşkil edir. Bu hissəyə Zərdüştün ilahi qüvvələrə müraciəti və duaları daxildir.

***4. Yaşt (Yaştiha) – "Pərəstiş, hörmət etmə".*** Yaştlar bizə pərakəndə şəkildə gəlib çatıb. Tərkibi isə ilahi qüvvələrin təriflənməsindən bəhs edən himnlərdən ibarətdir.

***5. Xurda Avesta.*** Kiçik Avesta mahiyyətində xeyirxahlığa yönələn dualardan ibarətdir

“Avesta”da insanların yüksək məqsədə, xoşbəxtliyə çatmasında müəllimin roluna böyük qiymət verilməklə bərabər, həm də bunun əksini də göstərir: “Pis müəllim şüuru korlar, sözün mənasını çatdırmaz, ağlın inkişafını dayandırar, təlim-tərbiyə işini fəsada çevirər. Nəticədə həyatın təbii axınına və gözəlliyinə zərər yetirər”.

“Avesta”da ataların vasitəsilə övlada verilən tərbiyəyə dair xüsusi fəsil ayrılmışdır. Həmin fəslin xülasəsində deyilir ki, təlim-tərbiyə varlığın bünövrəsi kimi mühüm əhəmiyyətə malikdir. Hər bir şəxs müəllim və tərbiyəçilərin vasitəsilə yazıb oxumağı öyrənməli, həm də özünün sağlamlığına ciddi fikir verməlidir. Yalnız bu yolla insanlar yüksək nailiyyətlər əldə edə bilərlər. Zərdüşt müəllimlərlə yanaşı, alimlərin də roluna yüksək qiymət verir: ***“Çalışın ki, alim ilə cahil arasında fərq qoyasınız. Alimlər həyatın yol göstəriciləridir”.***“Avesta”da müəllim və şagird münasibətləri haqqında məlumatların verilməsi bu dövrdə Azərbaycanda digər məktəblərin, təhsil ocaqlarının, tədris müəssisələrinin olmasından da xəbər verir.

Zərdüşt yüksək pedaqoji dəyərə malik müdrik fikirlər söyləmişdir ki, onlar “Avesta” kitabında öz əksini tapmışdır. “Avesta”nın səciyyəvi cəhəti iki əzəli başlanğıcın – Xeyir və Şərin, Həqiqət və Yalanın bir-birinə qarşı qoyulmasıdır. Bu, bütün dünya prosesinin məzmununu təşkil edir, həmin mübarizədə insanın rolu fəaldır. Bu mübarizədə insanın başlıca silahı **xeyirxah fikir, xeyirxah söz, xeyirxah əməldir.** Bu fikri Avestadan poetik dillə belə ifadə etmək olar:

**İndi üz tuturam qulaq asana:**
**Dinləyin özünüz yaxşı sözləri.**
**İki etiqadı yaxşı anlayın, seçin**
**Hər iki söz başdan əkiz yaranıb.**
**Biri xeyirdir, birisi şərdir.**
**Xeyirli ol fikirdə, sözdə, əməldə,**
**Xeyirxah xeyiri, şər də şəri seçibdir.**

“Avesta”nın “Yaştiha” bölməsində “Çista” elm və bilik ilahəsi

kimi göstərilmişdir. Zərdüşt "Çista" ilahəsinə xitabən belə demişdir: "Sən əgər irəlidə olsan, məni gözlə, əgər geridə qalsan özünü mənə çatdır". Bununla Zərdüşt hər cür durğunluğun əleyhinə olaraq insanları elm və bilik qazanmağa çağırmışdır. Buna görə də "Avesta" da elmə yiyələnmək əsas dini vəzifələrdən biri hesab edilmişdir. "Avesta"da təlim-tərbiyə məsələləri ilə bağlı göstərilir ki, təhsil almaq məqsədilə yanınıza kimsə gəlib sizə müraciət edərsə, o şəxsin kim olmasından asılı olmayaraq onu qəbul et və istədiyini ona öyrət.

"Avesta" dualarının birində valideyn Hürmüzdən "yaxşı rəftarlı və şüurlu övlad" diləyir. Demək, Hürmüzün oğlu hesab edilən Azərdən şüur və zəka istənmişdir. Bu ifadələrdən məlum olur ki, Zərdüştlükdə əxlaqi, əqli tərbiyə əsas diqqət mərkəzində olmuşdur. Əqli tərbiyə isə təlim vasitəsilə həyata keçirilir. Təlim isə müəllimin rəhbərliyi və müşaiyəti ilə keçirilən pedaqoji prosesdir.

"Avesta"nın ayrı-ayrı müddəalarına əsaslanaraq zərdüştilikdə qadına böyük məhəbbət, hörmət göstərildiyi, onun qarşısında baş əyilib ilahiləşdirildiyi haqqında fikir söyləmək olar. Həmin müddəalarda "sevimli (istəkli) qadınların" qayğısına qalmaq, onlara hörmət etmək çağırışı təkidlə səslənir. Zərdüştilikdə Daena, Aşi, Arşat adlı qadın ilahələrə xüsusi sitayiş edilirdi.

**"Avesta"da mənəvi dəyərlər – xeyirxah fikir, xeyirxah söz və xeyirxah əməl üçlüyündə öz ifadəsini tapır.** Burada əxlaqi-mənəvi proses üç mərhələyə bölünür: Əvvəlcə xeyirxah fikir yaranmalı, sonra bu fikir sözdə ifadə edilməli və nəticədə xeyirxah əməldə özünü göstərməlidir. Bu üç mənəvi keyfiyyət ailə münasibətlərində, icmada və vilayətdə hər zaman öz əksini tapmalıdır. "Avesta"da deyilir "Tərbiyə həyatın ən zəruri sütunu hesab edilməlidir. Hər kəsi elə tərbiyə etmək lazımdır ki, o oxumağı, yazmağı bacarmaqla yüksək pilləyə qalxa bilsin".

"Avesta"da tərbiyə məsələləri maddi və mənəvi təmizliyə əsaslanır. Yəni, 1) fiziki təmizlik (bədən, geyim, ev-eşik təmizliyi); 2) mənəvi təmizlik (əqidə və əməllərin saflığı). Burada insanın

daxili aləminin, ruhunun, əqidə və əxlaqının təmizliyi nəzərdə tutulur. “Avesta” da insana qiymət, insan şəxsiyyəti yüksək dəyərləndirilir, onun ağlına, yaxşı əməllərinə inam, xeyirxahlığa çağırış, günahsız, pak yaşamaq anlayışı təlqin edilir. “Yasna”nın 19-cu bəndində deyilir: “Uğurlu düşüncə nədir? Müqəddəs kəlam. Uğurlu əməl nədir? Müqəddəs yaranmışları üstün tutaraq onlara sitayiş etmək”. 33-cü bənddə bu fikir daha da inkişaf etdirilir: “Yalan din əleyhinə öz sözü, düşüncəsi və əməli ilə mübarizə edənlər, eləcə də öz adamlarına yaxşılıq öyrədənlər Ahura Məzdanın istədiyini yerinə yetirmiş olurlar”. Burada “Xeyirxahlıq”, “Yaxşılıq” bir əxlaqi kateqoriya kimi xeyirxah idrak və xeyirxah fikirdən irəli gəlmişdir. Ona görə də Zərdüşt insanları fikrində, sözündə, əməlində xeyirxahlığa, yaxşılığa çağırır. Burada göstərilir ki, dünyanın sonunda hər kəs öz əməllərinə, əqidəsinə görə cavab verəcəkdir. Ona görə də insanın düşüncəsindən irəli gələn söz və əməl xeyirli və faydalı olmalıdır.

Zərdüşt “əkini və bol məhsullu tarlanın da, gözəl ailənin” də əsasını düzlük və gözütoxluqda görürdü. Bunların hər ikisi insanı nəfsə qalib gəlməyə, intizamlı və mütəşəkkil olmağa sövq edir. “Avesta”da insanları zəhmətə, əməyə, müqəddəs yola dəvət, düzlüyə, doğruçuluğa qüvvətli təlqin vardır: “Kim taxıl səpir, məhsul becərirsə, o möminlik, düzlük, doğruçuluq, təmizlik əkib becərir, həyata, insanlara xoşbəxtlik və səadət gətirir”. Zərdüşt kəlamlarında pəhrizkarlıq düzlük və doğruçuluğun əsası kimi təlqin edilir: “Düzlüklə pəhrizkarlıq birləşəndə əsl insanlıq cilvələnir. Gəlin, hamımız üz tutub bu səmtə yollanaq”.

“Avesta” - da təqvim və fəsillərin dəyişməsi məsələsinə və bunun məktəblərdə uşaqlara öyrədilməsinə fikir verilirdi. Avestada söhbət iki fəsildən gedir. Bunlardan biri yeddi aydan ibarət yay, digəri beş aydan ibarət qış fəsli hesab edilir. Belə bölgü sistemi bir sıra xalqların təqvimlərində, qədim türklərdə də mövcud olmuşdur.

Beləliklə, deyə bilərik ki, Zərdüşt məktəbləri Azərbaycanda məktəb təhsilinin təşəkkülündə, inkişafında mühüm mərhələni

təşkil etmiş və Zərdüştün müqəddəs kitabı "Avesta" insanların mənəvi, əxlaqi keyfiyyətlərinin formalaşmasında, inkişafında və təkmilləşməsində böyük əhəmiyyət kəsb etmişdir ki, bu da Azərbaycan məktəb və pedaqoji fikir tarixinin mühüm qolunu təşkil etməkdədir.

**Tapşırıqlar**

Aşağıdakılarla bağlı məlumatları müxtəlif mənbələrdən əldə etməyə çalışın.

1. Azərbaycan tarixinin xronologiyası və dövrləşdirilməsi ilə bağlı şərh verin.
2. İslamiyyətdən öncə Azərbaycanda təhsil.
3. Qədim Azərbaycan dövlətlərində tərbiyə və təhsil.
4. Qədim Azərbaycanda yazı mədəniyyəti.
5. Azərbaycanda Zərdüşt məktəbləri.
6. Zərdüşt məktəblərində təhsil sistemi.
7. Bəşəriyyətin ilk təhsil ocağı.
8. "Avesta"da mənəviyyat və əxlaq məsələləri.
9. "Avesta"nın bölmələri hansılardır?

## ƏDƏBİYYAT


1. Əhmədov H.M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: Təhsil, Elm, 2001
2. Xəlilov S.S. Təhsil, təlim, tərbiyə. Bakı: Azərbaycan Universiteti, 2005, 650 s.
3. Yəqubi Ə. R. Azərbaycanda təlim-tərbiyə mədəniyyəti, təhsil və pedaqoji fikir tarixi. Bakı: Nurlan, 2005, 348 s.
4. Şəfizadə B.C. Azərbaycan ədəbiyyat tarixi. Bakı: Adiloğlu, 2003.
5. Hüseynzadə R.L. Qədim və orta əsrlərdə Azərbaycanda tərbiyə, təhsil və pedaqoji fikir. Bakı: Nurlar, 2008 .
6. Hüseynzadə R.L. Pedaqogika tarixi. Magistr hazırlığı üçün dərs vəsaiti. Bakı: Magistratura. az., 2018
7. Hüseynzadə R.L. Skala - təhsilin ilk tarixi məkanı//Naxçıvan Dövlət Universiteti. Elmi Əsərlər. 2016, № 6.
8. Seyidov F.Ə. Soy kökümüzdən gələn pedaqoji fikir. Bakı, 2004.
9. Seyidov F.Ə. Türk xalqlarının tərbiyə və məktəb tarixinə dair. Bakı: Sevinc, 1997.

# II FƏSİL

# İSLAMİYYƏTİN İLK DÖVRLƏRİNDƏ AZƏRBAYCANDA TƏHSİL

**Əhatə olunan məsələlər**

2.1. İslamiyyətdə tərbiyə və təhsil mədəniyyəti;
2.2. İslamiyyətdə tərbiyə işinin təşklili prinsipləri və üsulları;
2.3. Azərbaycanda orta əsr təhsil ocaqlari: suffə, kuttab, məktəblər, xanegah və təkyələr, zaviyə və dərgahlar, kitab evləri və kitabxanalar, mədrəsələr;
2.3.1. Suffədə təhsil;
2.3.2. Məscid və camilərdə təhsil;
2.3.3. Kuttablarda təhsil;
2.3.4. Məktəblərdə təhsil;
2.3.5. Xanegah, Təkyə (Təkkə), Zaviyə və Dərgahlarda təhsil;
2.3.6. Kitabxanalar bir elm, tədris mərkəzi kimi;
2.3.7. Mədrəsələrdə təhsil;
2.3.8. Azərbaycanda yüksək təhsil verən mədrəsələrin yaranıb, inkişafında “Nizamiyyə” mədrəsələrinin rolu;
2.3.9. Azərbaycanda mədrəsələrin yaranması və inkişafı;

## 2.1. İSLAMİYYƏTDƏ TƏRBİYƏ VƏ TƏHSİL MƏDƏNİYYƏTİ

İslamiyyətin meydana gəlməsi elmin, təhsilin, maarifin məzmun və formasına öz təsirini göstərdi, belə ki, onun yenidən qurulmasına səbəb oldu, nəticədə yeni pedaqoji təfəkkür yarandı. İnsanlarda yeni düşüncə, yeni əxlaq və mədəniyyət, yeni həyat tərzi yarandı.

İslamiyyətdən əvvəl ərəblərin yaşadığı yerlər çöl və səhralıq olmuşdur. Bu dövrdə onlar yalnız çöl həyat tərzinə alışdıqlarından elm və təhsildən uzaq olmuşdular. Məkkə şəhərində 11, Mədinədə isə 7 nəfər oxuyan və yaza bilən adam var idi. Məhəmməd Pey-

ğəmbərin (**s.ə.s.**) deyişi ilə, öz dövrünün ərəbləri "Oxuma və yazma bilməyən" savadsız, cahil bir tayfa idilər. Onların bildikləri yalnız hafizəyə əsaslanan və nəsildən-nəsilə keçən təcrübi məlumatlar idi.

Qəbilə və tayfalar arasında tez-tez döyüşlər olduğundan onların at, silah, dəvə kimi savaş vasitələri haqqında müəyyən məlumatları var idi. Bununla bərabər, onların əxlaqi və mənəvi keyfiyyətləri çox aşağı idi. Xüsusilə də qızlar və qadınlar tam hüquqsuz idilər. Ailədə qız uşaqları olduqda kişilər utandıqlarından görünməz olur və yaxud da yenicə doğulan qız uşaqlarını diri-diri torpağa basdırırdılar. Qadın müti vəziyyətdə yaşayır, alınıb-satılırdı.

Yuxarıda qeyd etdiyimiz kimi, belə bir zamanda cəmiyyəti islah etmək, onu doğru yola yönəltmək vəzifəsi Məhəmməd Peyğəmbərin (**s.ə.s.**) (570-632) üzərinə düşürdü. Belə bir ülvi vəzifəni həyata keçirmək üçün yeni bir maarif, mükəmməl bir təhsil sistemi yaratmaq lazım idi.

Məhəmməd Peyğəmbərin (**s.ə.s.**) əsas vəzifəsi insanları cahillikdən uzaqlaşdırmaq, onları maarifləndirmək, gözəl əxlaqa yiyələndirmək, tərəqqi etdirmək idi. Özü deyirdi: "Rəbbim məni təhsilləndirdi (əddəbə) və mənim təhsilimi (tədib) ən mükəmməl qıldı, mən bir müəllim olaraq göndərildim. Mən gözəl əxlaqı tamamlamaq üçün gəldim".

Məhəmməd Peyğəmbər təhsillənmə sözünü "ədəb", "əxlaq" kəlməsində işlətmişdir. Ədəb zehnin və ruhun tərbiyəsidir. Quranda Peyğəmbərimizin vəzifəsinin öyrədici, tərbiyəedici olduğu göstərilməkdədir: "Ey Rəbbimiz! Onlara öz içlərindən özlərinə sənin ayələrini oxuyacaq, onlara kitab və hikməti öyrədəcək bir elçi göndər".

***İslam təlim və tərbiyəsinin əsas məqsədi kamil bir insan yetişdirməkdir. Elə bir insan ki, təkcə vətənində deyil, dünyanın harasında olursa olsun, yüksək insani keyfiyyətlərə malik olsun.*** İslam insanı maddə və mənadan, bədən və ruhdan mütəşəkkil bir varlıq kimi, bütöv şəkildə görür və insanı bütün təmayül və davranışları ilə birlikdə öyrənir. İslam təlim və tərbiyəsinin əsas vəzifəsi

insanı mükəmməlliyə, aliliyə, ən yaxşıya, ən gözələ çatdırmaqdır.

Bir daha vurğulayaq ki, İslamda təlim və tərbiyə sahəsində ilk əməli işi başladan elə Məhəmməd Peyğəmbərin (**s.ə.s.**) özü olmuşdur. O, yeni dinin təbliğatçısı, insanlara mənəviyyatı, əxlaqı yayan bir müəllim, eləcə də elmin, biliyin müdafiəçisi olmuşdur. Məhəmməd Peyğəmbər (**s.ə.s.**) elm və biliyi, mənəviyyatı geniş şəkildə yayır, əhalinin savadlanmasına çalışırdı. O, Bədr savaşında əsir alınan Qüreyşlərdən bir qisminin həyatlarını pul qarşılığında bağışlamış, pulu olmayanları, amma yazıb oxumağı bilənlərin hər birindən biliklərini digər müsəlmanlara öyrətməsini istəmişdir. Buna görə hər əsir həyatı qarşılığında on müsəlmana yazıb oxumaq öyrədirdi.

Göründüyü kimi, Allahın Rəsulu peyğəmbərliyinin hər anını insanlara öyrətməklə dəyərləndirmişdir; həm özü öyrətmiş, həm də bilənlərin bilməyənlərə öyrətməsini əmr etmişdir. Buna görə də, ***"Sizin ən xeyirliniz Quranı öyrənən və öyrədəndir"-sözüylə də elm öyrənməyə insanları təşviq etmiş, insanların gözünü açmışdır".***

Azərbaycan Qaraqoyunlu dövlətinin başçısı, maarifpərvər hökmdar, "Həqiqi" təxəllüsü ilə dəyərli qəzəllər, rübailər, tuyuqlar yazıb, böyük "Divan" yaradan Mirzə Cahan Şah Həqiqi öz "Divan"ında Məhəmməd Peyğəmbərin (**s.ə.s.**) maarifpərvərliyini, tərəqqipərvərliyini, biliksevərliyini belə misralarla tərif etmişdir:

**Ey aləmlərin şahı, ey xətəməl-ənbiya,**
**Ey övliyalar sirrin bilən, ey Məhəmməd əl-Mustafa**
**Sənin ləli-gövhər kəlamların həqiqəti qıldı bəyan,**
**Camalının şəm"i yolumuzu işıqlatdı, oldun bizə rahnüma**
**Eşq günəşi camalının işığından aldı ziya**
**Ey gözlərə nur bəxş edən, ey Padişahi-ənbiya.**

Həzrət Peyğəmbər (**s.ə.s.**) bir tərəfdən bilikləri yayır, insanlara "Nur bəxş edib" onları cəhalətdən qurtarır, digər tərəfdən də bilənlərin bildiklərini başqalarına öyrətməsini əmr edir, ehtiyac duyulan bölgələrə müəllim göndərmə vəzifəsini yerinə yetirirdi. Peyğəmbə-

rin təşviqiylə elm adamları hər yerdə rəğbətlə qarşılanırdı.

Peyğəmbərimiz (**s.ə.s.**) hər zaman zülmə, ana-ataya üsyan edənlərə, rüşvətə, lovğalıq və təcəssümə (başqalarında ayıb axtarma, qeybət), təfriqəyə qarşı mübarizə aparmış, bunların əksinə olaraq millət içərisində düzlük və doğruçuluğu əliaçıqlığı, mərhəməti, qonşu haqlarına riayət etməyi, düzgün dost seçməyi, cihad etməyi, xoş rəftarlı olmağı, gözəl əxlaq sahibi olmağı təbliğ etmişdir.

Peyğəmbərimiz (**s.ə.s.**) özü də əxlaqca insanlara nümunə idi. Müqəddəs kitabımızda peyğəmbərimizə xitabən deyilir: "Doğrudan da, sən böyük əxlaq sahibisən! (Böyük bir din üzərindəsən!)" Peyğəmbərimiz (**s.ə.s.**) buyurmuşdur: ***"Sizin ən xeyirliniz əxlaqca ən gözəl olanıdır".***

Peyğəmbərimiz (**s.ə.s.**) ona vəhy edilənləri yaymış, katiblərinə yazdırmış, təhsili, tərbiyəni, mənəvi, əxlaqi məsələləri xalq arasında təbliğ etmiş, Allahın kəlamlarını yaymış və onları yazdırmışdır.

Bütün bunların nəticəsində Quran adlı müqəddəs bir kitabın meydana gəlməsinə səbəb olmuşdur. **"Quran" özü də "Qər'ə" (قرعه) sözünün kökündən əmələ gələrək, "Oxumaq", "Tələffüz etmək" mənasını verir.**

Başqa sözlə, Quran həm filoloji, həm pedaqoji cəhətdən "Oxumaq", "Qiraət" deməkdir. Çünki Quran özü bir təlim, tərbiyə vasitəsidir. Quran "Ümmül-Kitab" (Kitabların anası), "Kəşfül-Həqayiq" (Həqiqətlərin kəşfi), "Məcmueyi-Xeyrül Kəlam" (Xeyirli sözlər, kəlamlar toplusu) kimi gözəl sözlərlə adlandırılmışdır.

Elmin dəyəri və önəmi haqqında Peyğəmbərimizin (**s.ə.s.**) çoxlu hədisləri vardır. O, belə deyirdi: "Beşikdən qəbirədək öyrən", "Elmini artıraraq Allaha yaxın olmadığın günün şəfəqi lənətlənsin". "Elmi aramayan ölür", "Alimləri eşidin, çünki onlar dünyanın çırağı, axirətin nurudurlar", "Elm öyrənmək üçün yola çıxan kimsə evinə dönüncəyə qədər Allah yolundadır", "Elm arayanları mələklər qanadlarıyla qoruyur", "Elmi əldə edin, Allah yolunda onu əldə edən xeyir işləmiş olur, ondan bəhs edən, Rəbbini öymüş olur, sədəqə vermiş olur; onu haqq edən, kimsələrə verən, yaxşılıq etmiş

olur". "Elm Çində də olsa get dalınca öyrən".

Məhəmməd Peyğəmbərin (**s.ə.s.**) şəxsi nümunəsi və hədislər, peyğəmbərimizin səhabələri İslamda ən gözəl tərbiyə vasitəsidir. İslam dininin banisi Məhəmməd Peyğəmbər (**s.ə.s.**) bacarıqlı bir siyasətçi, qanunşünas, bəlağətli natiq, gözəl əxlaq müəllimi, safürəkli dindar, ləyaqətli başçı, mehriban rəhbər, böyük islahatçı, cəsur sərkərdə, mahir cəngavər olmuş və həmişə qalibiyyət onun tərəfində olmuşdur. Peyğəmbərimizin (**s.ə.s.**) əxlaqi keyfiyyətləri haqqında danışsaq, deyə bilərik ki, o bir əxlaqilik, mənəviyyat timsalı kimi tərbiyə işində gözəl nümunə ola bilər.

**"Qurani-Kərim"də** Peyğəmbərimizə (**s.ə.s.**) xitabən-"Sən böyük əxlaq üzərindəsən"-buyurulur. Peyğəmbərimiz müsəlman ümməti üçün "Usuvəti-həsənə" ("Gözəl nümunə") hesab edilir. İslam tərbiyəsinin ən gözəl nümunəsi şübhəsiz, Məhəmməd Peyğəmbərin (**s.ə.s.**) həyatı, fəaliyyəti, daha sonra bir sıra din böyüklərinin, elm-idrak sahiblərinin və görkəmli şəxsiyyətlərin həyat tərzi, yaşantısı, nümunəsidir. Peyğəmbər (**s.ə.s.**) öz müdrik kəlamlarında tərbiyə məsələsinə geniş yer vermişdir. O özü hər yerdə, hər işdə nəzakət qaydalarını gözləmiş, bəd əməllərdən uzaq olmağı, əmanətə xəyanət etməməyi, hamının hörmətini qazanmağı tövsiyə etmişdir. Peyğəmbərimiz (**s.ə.s.**) ədəb, əxlaq haqqında deyirdi: "Kiçiklərimizin halına acımayan, böyüklərimizin şərəfini bilib haqlarını təslim etməyən bizdən (əhli sünnətdən) deyildir".

İki adamın barışması, onların aralarının düzəlməsi, namaz qılmaqdan, oruc tutmaqdan xeyirlidir. İki cür adama Allah qiyamət günü rəhm etməz: yaxın adamlarının əhvalını soruşmayana və pis qonşuya; Allah lənət eləsin ana ilə övladın, qardaş ilə qardaşın arasına girib, onları bir-birindən ayıranlara; atanın öz oğluna əvəzsiz olaraq verdiyi, bağışladığı şeylərin ən üstünü tərbiyədir; Allaha doğru sözdən daha qiymətli bir sədəqə yoxdur; Düzgün olun, çünki düzgünlük cənnətə açılan qapılardan biridir: yalan danışmaq cəhənnəm qapılarından biridir; Ağlına gələni danışmaq günaha yazılır; Çalış insanları şərdən xilas et. Bu sənin özünə verdiyin qiymətdir:

İslamda insanların mənəvi qiymətləri sahib olduqları əxlaqa görədir. Bir hədisdə deyilir: “Sizin imanca ən gözəliniz, əxlaqca ən gözəl olanınızdır”.

Peyğəmbər (**s.ə.s.**) insanın bir şəxsiyyət kimi formalaşmasında elmi biliklərin mənimsənilməsinə xüsusi diqqət yetirirdi. O alimi, bilikli insanı qiyamət günü parlayacaq bir ulduza bənzədirdi, beşikdən qəbirədək öyrənməyi, bilik ardınca Çinə belə getməyi məsləhət görürdü. O, bilik əldə etməyin ən yaxşı yolunu sual cavabda, soruşub, öyrənməkdə görürdü.

Peyğəmbərimiz (**s.ə.s.**) deyirdi: “Elm elə xəzinədir ki, açarları sualdır. Sual edin, sualda dörd adamın əcri var: sual edənin, alimin, qulaq asanın və onları sevən adamın. Yaramaz ki, cahil bilmədiyi halda, alim bildiyi halda sussun. Bir alimin məclisində olmaq min rükət namaz qılmaqdan, min xəstəyə baş çəkməkdən, min cənazə müşayiət etməkdən yaxşıdır”.

“Biliksiz “Quran” fayda verərmi?” Peyğəmbərimiz hər cür elmi öyrənməyi məsləhət görürdü. Elm və biliklərə yiyələnmək Allahın yanında oruc tutmaqdan da, namaz qılmaqdan da, həccə getməkdən də, Ulu Tanrı yolunda cihada qoşulmaqdan da üstündür. Peyğəmbərimiz (**s.ə.s.**) deyirdi: “Kimdən bilik öyrənirsinizsə, ona hörmət edin, ona qarşı mehriban olun. Kimə bilik öyrədirsinizsə, ona qarşı da mehriban olun”.

Ulu öndərimiz Heydər Əliyev deyirdi: “Bizdə dinə, mənəvi dəyərlərimizə hörmət var. Biz ümumbəşəri dəyərləri öz xalqımıza aşılamalıyıq, ancaq öz milli-mənəvi dəyərlərimizdən də ayrılmamalıyıq”. İslam dini əsrlər boyu bizim mənəviyyatımızın əsasını təşkil etmiş, müsəlmanların dünyada layiqli yer tutmasını təmin etmişdir.

İslam tərbiyəsinin məqsədi insanı mükəmməlliyə, aliliyə çatdırmaqdır. Mükəmməl və ali insan Allaha yaxın olan insan hesab olunur. İslam insanı maddə və mənadan, bədən və ruhdan mütəşəkkil bir varlıq kimi bütöv görür və insanı bütün təmayül və davranışları ilə birlikdə öyrənir.

O, ilk növbədə, insanın davranışlarını idarə edən mərkəzləri

tərbiyə edir. Buna görə də qəlb tərbiyəsinə islam birinci dərəcəli əhəmiyyət verir. Çünki davranışlar qəlbə bağlıdır. İnsanın pis və ya yaxşı, qəddar və ya mərhəmətli olması onun qəlbindən asılıdır. Bu cəhətdən qəlbin düzgün tərbiyəsi və təhsili insanın özünü tanıma yollarını göstərir. İslamda tərbiyə insanın özünü tanımasına kömək etməlidir. İslama görə, özünü tanıyan, dərk edən insan Allahını tanıyır, başqalarını tanıyır və harada necə hərəkət edəcəyini yaxşı bilir. İslam tərbiyəsi insanda islam əxlaqını, islami şərtlərə uyğun davranış normalarını formalaşdırmağı nəzərdə tutur. İslam tərbiyəsi insanın həm dini, həm də dünyəvi elmləri dərindən bilməyi, yüksək mənəvi keyfiyyətlərə sahib olmasını tələb edir. İslam tərbiyəsi insanın əqlinin, ruhunun, bədəninin bərabər səviyyədə inkişafını nəzərdə tutur. İslam tərbiyəsi görmüş şəxsin həm bədəni, həm də ruhu sağlamdır. Bədənin sağlamlığı ruha, ruhun da sağlamlığı bədənə bağlıdır. Bütün ilahi dinlər insanı ən yaxşıya, ən gözələ və üstün olmağa yönəldir. Demək, Allahın insanlardan istəyi yaxşıya, doğruya, gözələ, üstün əxlaqa malik olmaqdır.

İslamda tərbiyə məsələsi sadəcə olaraq uşağa gözəl əxlaq və faydalı biliklər vermək deyildir. Tərbiyə məsələsi daha geniş anlamda başa düşülərək insanın yaşadığı cəmiyyətin inkişafına öz töhfələrini verməsi, xalqın adət və ənənələrini, dilini, dinini qoruması, ona hörmət etməsi, cəmiyyətin iqtisadiyyatını, mədəniyyətini daim yüksəltməyə çalışmasıdır.

Bu məsələ isə bütün bəşəri mədəniyyəti, mənəviyyatı, əxlaqı əxz etməklə, daim yeni biliklər qazanmaqla və özünü təkmilləşdirməklə mümkün ola bilir. İslam dini insanın tərbiyəsi və nümunəvi cəmiyyət üçün lazım olan qaydaları və istiqamətləri, bəşər tarixinin min illər boyunca əldə etdiyi təcrübə və sınaq məktəblərinin nəticələrinə istinad edərək müəyyənləşdirir və insanlara təqdim edir”. İslamda uşağın tərbiyəsi baxımından onun inkişafı iki dövrə ayrılır:

**1) Tədbiri dövr.**

**2) Tətbiqi dövr.**

1. **Tədbiri dövr** ***uşağın ana bətni dövrünü, doğuşuna qədər***

***olan dövrü əhatə edir.*** İslamda gələcək nəslin tərbiyəsi doğumla deyil, hələ kişi və qadın evlənməyə qərar verməsi ilə başlayır. Belə ki, evlənəcək şəxslər dini əqidəni nəzərdə tutaraq mömin bir adamla evlənməli, evlilik həyatında isə haram şeyləri yeyib içməkdən, zinakarlıqdan uzaq olmalıdır ki, haram xromosomlar vasitəsilə uşağın genlərinə keçməsin.

Uşaq ana bətnində olarkən ona olan münasibəti duyur və hiss edir. Bu dövrdə uşağa zərər verə biləcək şeylərdən-siqaret çəkməkdən, zərərli içki içməkdən qaçınılmalıdır. Bu cəhətdən tərbiyə işi uşağın ana bətnindən başlayıb həyatı boyunca davam edən və bir çox şərtlərin gözlənilməsini tələb edən uzunmüddətli, mürəkkəb bir prosesdir. Hətta uşağın zəkası ananın zəka geni vasitəsilə uşağa köçürülür.

2. **Tətbiqi dövr** ***doğuşdan ölənə qədər olan dövrdür***. Tətbiqi dövrdə şəxsin yaşına, gücünə, fərdi-psixoloji xüsusiyyətlərinə, fiziki durumuna, qabiliyyətinə uyğun olaraq onun şüuruna, hisslərinə davranışına təsir göstərilir. Bu, ciddi təlim-tərbiyə dövrüdür. Tərbiyəvi təsirlər onu dəyişdirir, formalaşdırır və onu yaxşılığa, gözəlliyə, doğruçuluğa, bir sözlə müsbət əxlaqa doğru aparır.

Tətbiqi dövrdə də yerinə yetirilməsi bir çox vacib və zəruri şərtlər vardır. Belə ki, uşaq doğularkən, ilk növbədə, ona gözəl bir ad seçib vermək lazımdır ki, o, böyüdükcə adına layiq işlər görsün və ata-anasının ona verdiyi addan sonralar peşman olmasın. Uşaq danışmağa başlayarkən, ilk öncə, ona müqəddəs kəlmələr-ana, ata kimi sözlər öyrədilməli, yanında gözəl və əxlaqi söhbətlər aparılmalıdır.

Uşağın yeməyinə, geyiminə, ünsiyyət və münasibətinə ciddi diqqət yetirilməlidir. Əks təqdirdə mənəvi sərvətlər çox çətinliklə əldə olunar. Uşağın sağlamlığı daim diqqət mərkəzində olmalıdır. Tərbiyənin əsası sağlamlıqdan başlayır. Odur ki, uşaqların səhhətinə ciddi fikir verilməlidir.

Doğuşdan sonrakı mərhələni ***beş əsas dövrə****-uşaqlıq, yeniyetməlik, cavanlıq, yetkinlik və qocalıq dövrlərinə* bölmək olar. Hər

dövrün tərbiyəsi haqqında islamiyyətdə dəyərli fikirlər, hökmlər vardır. İslam insanı doğuşdan ölənə qədər oxuyub-öyrənmədə, təkmilləşmədə, inkişafda görür və deyir- *"beşikdən qəbirədək öyrən".*

Məhəmməd Peyğəmbər (**s.ə.s.**) insanın kamilləşmə prosesini *üç mərhələyə* 7-7 yaş dərəcələrinə ayırmış və demişdir: övlad öz həyatının birinci 7 ilində şah, ikinci 7 ilində (7-14 yaş) nökər, müti, üçüncü 7 ilində (14-21 yaş) məsləhətçi, məsul şəxs hesab olunur. Beləliklə, 21 yaşa qədər insanın həyat yolu-şahlıq, nökərlik və məsləhətçi, məsul şəxs dövrlərinə bölünür.

Beləliklə, yeniyetmə normal şəkildə üçüncü yaş dövrünə-kamillik dövrünə girəcəkdir. Peyğəmbərimiz (**s.ə.s.**) bu üç dövr haqqında mürəbbilərin vəzifələrini bir hədisdə belə müəyyənləşdirmişdir: "Qoy sənin övladın yeddi il oynasın, sonrakı yeddi ili də ədəb öyrənsin, tərbiyə alsın və sonra onu özünün müşavirin və yoldaşın hesab et".

İslamiyyətdə tərbiyə hər şeydən öncə, mənəviyatın və əxlaqın tərbiyə edilməsini nəzərdə tutur. Bu isə insanda əxlaqi görüşlərin, əxlaqi şüur və davranışların tərbiyə edilməsini tələb edir. Əxlaq alimləri tərbiyə məsələsində iki əsas görüşü ələ almaqdadırlar. Birinci görüşə görə, insan doğuşdan tərbiyəli, ya da tərbiyəsiz olur və o sonradan dəyişilə bilməz. Digər görüş isə, bunun tam əksi olaraq, tərbiyəni insan həyatı üçün vacib amil sayır və insanın anadangəlmə tərbiyəli və ya tərbiyəsiz olması ilə bağlı görüşləri qəbul etmir. Böyük alim **İmam Qəzzali** tərbiyə, təhsil və elm haqqında dəyərli fikirlər söyləmiş və demişdir: "Elmi tələb etmək, öyrənmək ibadət, araşdırmaq cihad, bilməyən birisinə öyrətmək sədəqə, onu elm əhli üçün istifadə etmək isə Allaha yaxınlıqdır".

Əqlin fəzilətini heç kəs Qəzzali kimi mənalı şərh etməmişdir. O demişdir:" İnsanın arzu və istəkləri əsasən üç şey üzərində cəmləşir. Onlardan birincisi var-dövlətdir. Var-dövlət arzusu insana şərəf gətirməz. İkincisi elmdir. Elm insana ən uca amalına çatmaq qüdrəti bəxş edər. Üçüncüsü isə sağlamlıq və uzun həyatdır. Bu üç şey içərisində insan üçün ən faydalısı elm qazanmaqdır. Qəzzaliyə

görə elmin özü hədəf deyil, insanın məqsədinə çatması üçün bir vasitədir.

İslam tərbiyəsi insanın əqlinin, ruhunun və cisminin bərabər səviyyədə inkişafını nəzərdə tutur. İslama görə, bədən elə bir qəlibdir ki, ruh buraya tökülür. Bədənə və ruha ağıl rəhbərlik edir və islamın müqəddəs kitabında da deyildiyi kimi Allah ağıldan daha dəyərli bir şey yaratmamış və insanlara - ***"mən sənə ağıl verdim, ağlını işlət"- demişdir.***

## 2.2. İSLAMİYYƏTDƏ TƏRBİYƏ İŞİNİN TƏŞKİLİ PRİNSİPLƏRİ VƏ ÜSULLARI

İslamiyyətdə tərbiyənin özünəməxsus səciyyəvi ***prinsipləri vardır ki onları aşağıdakı kimi qruplaşdıra bilərik:***

***1. İslamda tərbiyənin ilahi səciyyə daşıması.*** Yəni, İslamda əxlaqi hökmlər Allah tərəfindən nazil olmuş və insan Allahın tələblərinə uyğun olaraq öz işini, həyat tərzini qurmalıdır.

***2. İslamda tərbiyənin insan fitrəti ilə bağlılığı.*** İnsanda olan insanlıq xisləti elə insan doğulanda onun fitrətində bu potensial imkan kimi mövcuddur və bu insanı ən yüksək əxlaqi keyfiyyətlərə, yüksək təkamül dərəcəsinə çatdırmağa qadirdir. İnsanda olan bu potensial imkan düzgün istiqamətləndirilsə, tərbiyə edildikdə həqiqi təkamülə yetişər.

İnsan ilk yaradılışından kamil insan kimi formalaşana qədər müəyyən inkişaf yolu keçir, torpaq və ruh ünsürlərindən ibarət olur ki, bu ünsürlər insanın cismində birləşir, onun meyl, arzu və istəklərini müəyyən edir. Ruhani ünsür insanın əzəli fitrətini təşkil edir. Ona görə də islam tərbiyəsində ruh tərbiyəsinə, mənəvi tərbiyəyə xüsusi diqqət yetirilir.

***3. İslamda tərbiyənin ümumi səciyyə daşıması.*** İslam tərbiyəsi milli mənsubiyyətindən, sosial vəziyyətindən, irqindən, cinsindən asılı olmayaraq bütün müsəlmanlara aiddir;

***4. İslamda tərbiyənin bütöv səciyyə daşıması.*** İslam insanın

həyat tərzini, düşüncə və davranışını bir-birindən təcrid edilmiş halda deyil, onları vəhdətdə, bütöv halda götürür və onlarla sıx bağlı şəkildə həyata keçirir.

***5. İslamda tərbiyənin üsul və vasitələrinin, məzmun və formalarının vəhdətdə olması.*** İslam tərbiyəsi insanın zehni, fiziki, əxlaqi, estetik tərbiyəsini vəhdətdə götürür, insanları kamilliyə, çalışqanlığa, halal və haramı seçmək üçün gərgin axtarışa, böyüklərə hörmət etməyə, kiçiklərə qayğı göstərməyə, düşünərək danışmağa, pis əməllərdən çəkinməyə hazırlıq təlqin edir.

***6. İslamda tərbiyəyə həm fərdi, həm də ictimai məsuliyyət kimi yanaşılması.*** Hər bir fərd öz nəfsini təmizləmək, özünü tərbiyə etmək üçün məsuliyyət daşıyır. Ona görə də müsəlman Allah-Taalanın, Quranın buyurduğu yolla getməlidir. Tərbiyənin ictimai məsuliyyət kimi dəyərləndirilməsi o deməkdir ki, hər bir müsəlman öz müsəlman qardaşının təlimi və tərbiyəsi üçün müəkkəlləfdir və dindaşının həmişə doğru yolda olmasını istəyir.

Elmi pedaqogikada mühüm yer tutan tərbiyə prinsiplərinin əksəriyyəti islam tərbiyəsinin də prinsiplərinə aid ola bilər. *Tərbiyədə yaş, fərdi, cinsi xüsusiyyətlərin nəzərə alınması, sözlə əməlin vəhdətinin gözlənilməsi, ardıcıllığa əməl edilməsi, hörmət və tələbkarlığın tətbiq edilməsi, hər bir uşağın gələcəyinə nikbin yanaşılması ilə bağlı Quranda xeyli ayələr vardır.*

**İslam tərbiyəsində tərbiyənin üsulları** "Qurani-Kərim"də, Məhəmməd Peyğəmbərin (**s.ə.s.**) hədislərində öz əksini tapmışdır. Bu üsulların ən başlıcası inandırmaqdır, şüura, ağıla və davranışa təsir göstərmək üsullarıdır. İslam tərbiyəsinin üsulları sırasında əxlaqi söhbət və mühazirələr, təbliğatlar, dini-əxlaqi rəvayətlərin nəql edilməsi, İslam tarixi və peyğəmbərlərin həyat və fəaliyyətindən söhbətlərin aparılması, hədislər əsasında tərbiyə, müqayisələr və bilik əsasında mübahisələr aparmaq, əxlaqi-dini misallar çəkmək, İslam müqəddəslərinin nümunəsində tərbiyə etmək, təlqin və təmrinlər, islami şərtlərə uyğun əməli işlərin görülməsi, habelə, islam tələbləri əsasında gündəlik rejimə əməl etmək üsullarıdır.

İslam tərbiyəsində ən qüvvətli və əsas üsullardan biri də Məhəmməd Peyğəmbərin (s.ə.s.) nümunəsində tərbiyədir. Peyğəmbərimizin həyat və fəaliyyəti ən gözəl əxlaq və ən gözəl tərbiyə nümunəsidir. Quranın "Əl-Həşr" surəsində deyilir: "...Peyğəmbər sizə nə verirsə, onu götürün, nəyi qadağan edirsə, ondan əl çəkin"

Düzgün əxlaq və davranışa, yaxşı mənəviyyata sahib olmaq, ilk növbədə, islam qaydalarına, Allahın kəlamlarına, Məhəmməd Peyğəmbərin (**s.ə.s.**) hədislərinə dərindən inamdan və etiqaddan, onlara əməl etməkdən irəli gəlir. Gözəl əxlaqa sahib olmaq müqəddəs kitabımızda deyildiyi kimi, "Allahın əxlaqı ilə əxlaqlanmaqdır". "Həqiqətən Allahın rəsulu Allaha və qiyamət gününə ümid bəsləyənlər (Allahdan, qiyamət günündən qorxanlar) və Allahı çox zikr edənlər üçün gözəl nümunədir".

İslam tərbiyəsi üsulları sırasında həvəsləndirmə, rəğbətləndirmə, tənbeh kimi stimullaşdırıcı üsullar da vardır. İslam tərbiyəsində həvəsləndirmə üsulu kimi yaxşı işlər görməyə, gələcəkdə hökmən fayda görəcəyinə inandırmaq, pis əməllərinə görə isə müəyyən cəza çəkəcəyinə inandırmaqdır. İslam hər hansı psixi, fiziki cəzaları rədd edir. İslamda məcbur etmə, zor işlətmək kimi üsullar yoxdur. İslam dinimiz tənbeh zamanı tərbiyəçinin qəzəbli vaxtda deyil, sakit vaxtda, düşüncəli şəkildə, ehtiyatla hərəkət etməsini məsləhət görür.

İslamda təlim məsələsində, başqa sözlə öyrətmə öyrənmə məsələlərində islam pedaqojisinin özünəməxsus metodları da vardır. Bu metodları üç qrupa ayırmaq olar :

1. Doğru, düzgün bir qavrayışla öyrənilən material, fakt və ya hadisələr dərininə doğru, hərtərəfli təhlil və tərkib edilir, səbir və təmkinlə araşdırılır. Çünki İslamda öyrənmə məsələsi ilk növbədə səbir və iradəyə dayanan fikir, düşüncə, təfəkkür çalışmasıdır. Öncə təhlil və araşdırmalar aparılır, biliyin, fakt və ya hadisənin həqiqiliyi, doğruluğu düşüncəsinə gəlinir. Öyrənilən bilik və ya məlumatın həyati əhəmiyyətini öyrənən şəxs yalnız bunu öz fikir, düşüncə və təfəkkürü sayəsində anlayır və dərk edir. Belə ki, islam mədəniyyətində öyrənmə metodlarında güc təzyiq, zorluq

üsulları yoxdur.

2. Öyrənmə prosesində öyrənən şəxs öyrəndiyi biliklərə dərindən inanmalı, onları sevərək qəlbində, içində hiss etməli, "Qəlbinin gözü" ilə, hiss və duyğuları ilə öyrənməlidir. Yalnız hökmlər və qaydalar müstəsna olmaqla öyrəndiklərinə zənn – şübhə olarsa bu zaman yenə də qəlbinə və istəyinə görə hərəkət etməlidir. İnanma, istək hissi insanı hərəkət etməyə sövq edir. Çünki duyğular insanı fikrin daşıdığı hadisəyə doğru hərəkətləndirir.
3. Öyrənilən fakt, hadisə, məlumat, bilik insanın əqidəsinə, dünyaya baxışına uyğun olduğunda qazanılan biliklər əməldə, işdə özünü göstərməli, onlar həqiqətdə, real praktik işdə təsdiqlənməlidir. Bu zaman insan inandığı öyrəndiyi biliyi əməlində sevərək, həvəslə yerinə yetirir. Öyrənilən bilik, məlumat yadda saxlamaq üçün deyil, hafizədə qalsın deyə, ağlımda var olsun deyə öyrənilmir. Bilik praktik iş üçün, əməl üçün, fəaliyyət göstərmək üçün öyrənilir.

Bu zaman ağlın qənaətinə görə və qəlbin inandığı kimi bir idrak prosesi baş verir ki, islami terminlə desək əqliyyat meydana gəlir. Bu əqliyyat insanı ən yüksək, ən üstün sifətlərlə yetişdirir və mənən zənginləşdirir, ən gözəl əxlaqi keyfiyyətlər yaradır. Bu əqliyyatla davranan, irəliləyən insan qarşısına çıxan hər cür çətinlikləri, maneələri dəf edir və əqidəsi yolunda hətta fədakarlıqlar göstərə bilir.

İslam tərbiyəsində tərbiyəçilərin özləri tərbiyəli olmalı, yüksək mənəvi keyfiyyətlərə sahib olmalıdırlar. İslam tərbiyəsində yumşaqlıq, mehribanlıq, xoş rəftar əsas yer tutur. İslam biliciləri ədəb haqqında belə demişlər: "Ədəb danışdığın zaman dilini, yalnız qaldığın zaman qəlbini saxlamaqdır". "Ədəb səndən böyük olana hörmət göstərmək, səndən kiçik olana şəfqət etmək, fağır olanlar ilə gözəl davranmaqdır".

## 2.3. İSLAMİYYƏTDƏ TƏHSİL

İslamda ilk təlim fəaliyyəti Həzrəti Peyğəmbərə (**s.ə.s.**) öyrətmə, təbliğ əmri ilə başlamışdır. Bilindiyi kimi başlanğıcda bu təbliğ daha çox gizli həyata keçirilirdi. İlk müsəlmanlar Həz. Xədicə, Həz. Əbu Bəkr, Zeyd, Həz. Əli, Osman, Ömər olduğu məlumdur. İslamiyyəti qəbul edən ilk müsəlmanlar Peyğəmbərimizin rəhbərliyində bir yerə - "Dar-əl-Əqrəm"ə ("Əqrəmin evi") toplaşaraq Peyğəmbərimizə gələn vəhyləri, Qurani- Kərimi öyrənirdilər. Beləliklə **Dar-əl Əqrəm - yəni Əqrəmin evi islamiyyətdə ilk təlim, təhsil ocağı olmuşdur**.

### *2.3.1. Suffədə təhsil*

Peyğəmbərliyin dördüncü ilində Həz. Peyğəmbər(s) vəhyləri açıq-aşkar şəkildə təbliğə başladı. Məhəmməd Peyğəmbər (**s.ə.s.**) istər məkkəliləri, istərsə də ətrafındakıları, açıq-aşkar islama çağırmağa başladı. İslamda geniş şəkildə öyrənmə, təlim prosesi başlandı. Çünki İslam təkcə müəyyən bir qrup, zümrə üçün olmayıb, əhalinin bütün təbəqələri üçün olduğundan əhali kütləvi şəkildə oxuyub, öyrənirdi. Hər kəs elmi, ədəbi, əməli bir başqasına öyrədirdi. Çünki bilənin bilməyənə öyrətməsi islamda savab iş sayılırdı. İslamın ilk dövrlərində elm, bilik, təlim almaq yeri əsasən bilikli adamların evləri idi.

Məhəmməd Peyğəmbərin (**s.ə.s.**) Mədinəyə Hicrəti (622) məktəb təlimi sistemində yeni bir dövr açdı. Oxumaq istəyən müsəlmanların sayı çoxaldı. Bu müsəlmanların ibadəti və təhsil alması üçün geniş bir yerin olması zərurətini tələb edirdi. Həzrəti Peyğəmbər (**s.ə.s.**) Mədinəyə ayaq basar-basmaz müsəlmanların günlük namazlarının qılınması və İslami biliklərin tədris edilməsi üçün kərpicdən bir məscid inşa etdirdi, ki buna "Məscidi – Nəbi" deyildi. (Peyğəmbərə (**s.ə.s.**) məxsus məscid). Bu məsciddə namazların qılınması üçün böyük bir otaq, Peyğəmbərin ailəsi üçün bir otaq və

məscidin nəzdində təlim almaq, oxuyub-öyrənmək üçün bir guşə, bugünkü dillə desək məktəb yaradıldı. Beləliklə, Məscidi-Nəbidə camaat bura toplaşır, söhbət edir, Allaha dua edir, ibadət edir və maariflənirdilər.

Məscidi-Nəbinin arxasında qiblə divarı üzərində kölgəlik yaradılmışdır. Bu kölgəlik yerə **"Suffə"** deyilirdi. Suffədə - açıq havada, kölgəlikdə təhsil almaq daha rahat idi. Beləliklə, Suffə İslamın ilk kollektiv oxuyub, yazma yeri hesab edilirdi. Peyğəmbərimiz (**s.ə.s.**) "Suffə"də bilavasitə dərs vermişdir. Bununla bərabər Quranı tədris etmək, oxuma və yazma sənətini öyrətmək məqsədilə Suffəyə bir çox bilikli adamlar, tədrislə məşğul olanlar cəlb olunmuşdu. Məhəmməd Peyğəmbər (**s.ə.s.**) onları "Əshabi-Suffə" (yəni, məscidin kölgəliyinə toplaşan dostlar) adlandırırdı. Bunlar yetişkin, təcrübəli, bilikli müəllimlər idilər.

Suffədə 400-ə yaxın gəlib-gedən, 80 nəfərə qədər isə daimi yaşayan tələbə oxuyurdu. Artıq Suffənin qurulması ilə islam təlimi yeni bir forma almış, gərgin təhsil həyatı başlamışdı. Beləliklə, deyə bilərik ki, ilk "kollektiv təhsil"in təməli elə burada qoyulmuşdur. Suffə özündən bir neçə əsr sonra Avropada və başqa ölkələrdə kollektiv halda yaranan məktəblər üçün bir model olmuşdur. Suffə davamlı şagird tərkibi olan bir məktəb idi. Suffədə təlim - tərbiyə işlərinə, nizam intizama, təmizliyə ciddi fikir verilirdi.

Suffədə oxuyanlar əsasən kasıb və yoxsul adamlar idilər. Onların ən yaxşı yeməkləri xurma idi. Peyğəmbərimiz (**s.ə.s.**) hər iki adama gündə bir ovuc xurma verirdi. Suffədə oxuyan uşaqlar müəyyən işlərdə çalışmaqla özlərini maddi cəhətdən təmin edirdilər. Peşəsi olan şagirdlərin yaşayışı daha yaxşı idi. İşləyə bilməyənlər möhtac olduqları, ac olduqları halda heç vaxt dilənməzdilər. Könlü, gözü tox idilər. Məscidə sədəqə üçün verilənləri Həz. Peyğəmbər (**s.ə.s.**) onlara paylayır bir qismini özü götürür, bir qismini də yoxsulların evinə göndərirdi. Bir çox hallarda Suffədə təlim görən müsəlmanların xüsusi məsrəflərini də zəngin müsəlmanlar qarşılayırdılıar. Bu nümunə daha sonralar təlim-tərbiyə ilə bağlı vəqflərin

yaranmasına səbəb oldu. Çox çətin şərtlərə baxmayaraq səhabələr də suffə əhlinə əllərindən gələn yardımı edir, onlara maddi və mənəvi kömək göstərirdilər.

Suffədə qadına da xüsusi yer ayrılırdı. Allahın elçisi "Elm qadın, kişi - hər müsəlmana fərzidir" deyərkən kişi ilə qadını bərabər tuturdu. Bu cəhətdən suffədə həftədə bir dəfə qadınlar üçün də dərs keçilirdi.

Artıq Quran açıq-aşkar hər yerdə təlim edilir, oxuyub öyrənmək istəyənlərin sayı çoxalırdı.

### *2.3.2. Məscid və camilərdə təhsil*

Məscidlər islamın ilk dövrlərində ortaya çıxan təlim-tərbiyə mərkəzləri idilər. Məscid və camelərdə təlim bir qədər təkmil formada aparılırdı. ("cami" "cəm" olunan yer deməkdir. Bura məsciddən fərqli olaraq daha çox adam toplaşırdı).

İslamın fəth edildiyi yerlərdə, o cümlədən Azərbaycanda məscidlər sürətlə artır və məscidlərin təyinat dairəsi daha da genişlənirdi. Belə ki, məscid həm ibadət yeri, həm bilik alınan yer, həm müsafirxana, həm də bir qərargah idi.

Səkkizinci əsrin əvvəllərində Azərbaycanda məscid şəbəkəsi yayılmağa başlamışdır. Azərbaycanda ən qədim məscid VIII əsrdə inşa edilən Şamaxı cümə məscididir ki, 743 cü ildə qurulmuşdur. Məscid 3 hissədən ibarət olmuşdur ki, onun da bir hissəsi tədris, oxuyub öyrənmə sahəsinə ayrılmışdır. Məscidə toplanan əhaliyə Quran qiraət edilirdi. Fəqihlər (Hüquqşünaslar) müsəlmanların dini, ailə, mülki və digər işlərini tənzim edən qaydaları şərh edirdilər. Bütün bunlardan baş çıxarmaq üçün dinləyicilərin ibtidai savada malik olmaları, xüsusilə ərəb əlifbasını və ərəb dilini bilmələri zəruri idi. Bu hal məscidlərin nəzdində "məktəb" və ya "kuttab" adı altında ibtidai təhsil mərkəzləri icad edilməsinə səbəb oldu. Məscidlər o dövrdə müsəlmanların əsas maarif ocaqları idi. Məscid məktəblərində ərəb dilinin səs-hərf sistemi tədris edilirdi və Quran

mətnləri əsasında ərəb dilinin öyrənilməsinə səy olunurdu. Buna görə də məscid məktəblərində təlimin ərəb dilində aparılması və ərəb yazısının tətbiqi islami prinsiplərə uyğun tədris məcburi idi.

Sonrakı dövrlərdə yeni yaradılan məscidlərdə xüsusi tədris yerləri də yaradılmağa başlandı. Məscid və camelərdə tələbələrin öyrənmələri üçün müəllimin ətrafına toplaşan yerə "Həlqə" deyilirdi. Tədris üsuluna da "Həlqeyi-tədris" deyilirdi. Həlqələr çox zaman müəllimin adı ilə adlanırdı. Artıq camelərdə təlim prosesi həlqələr şəklində həyata keçirilirdi. Bir müəllim məsciddə bir guşəyə çəkilir və ya bir sütunun dibində dərisini yerə sərər, bu yer də elə o müəllimin adı ilə bilinərdi.

Məscid və ya cameyə girildiyində rəngarəng bir həyat görünürdü. Eyni məkanda namaz qılanlar, istirahət edənlər, söhbət edənlərlə bərabər dərs alanlar da var idi. Belə bir hal Azərbaycanın müxtəlif yerlərində - Şamaxıda, Gəncədə, Naxçıvanda, Beyləqanda mövcud idi.

Həlqədə 20 nəfərə qədər adam olurdu. Həlqədən çıxan hər bir müdavim Quranı əzbər öyrənə bilirdi. Cami və məscidlərdə Quran, Hədis, Fiqh kimi dini elmlər öyrədilməklə bərabər sosial həyatla bağlı elmlər də öyrədilirdi.

Camelərdə tədris həlqələrində dərs verən alimin səsi və sual verən tələbələrin səsləri yüksəlir, müxtəlif həlqələrdən gələn səslər bir-birinə qarışırdı. Belə bir vəziyyət əslində ibadət məqsədilə tikilən məscidlərdə sükunəti pozurdu. Məscid və camedə ibadət edənlərin səsi təhsil alanların səsinə qarışdıqda böyük gurultu meydana çıxırdı.

Beləliklə, məscidlərin həm ibadət, həm də tədris işi üçün fəaliyyəti mümkün olmayan hala gəlmişdi. İlk vaxtlar buna ehtiyac duyulsa da, sonralar məsciddə məktəb yaratmaq əlverişli sayılmadı və məktəblər məsciddən ayrılaraq ayrı və ya ona bitişik yerlərdə yaradılmağa başladı.

### *2.3.3. Kuttablarda təhsil*

Cami və məscidlərdən kənarda müxtəlif yerlərdə, məhəllələrdə xüsusi tədris, təlim yerləri yaradırdı ki, bunlara "Kuttab" deyilirdi.

"Kuttab" ərəbcə "Yazı öyrətmək" mənasını verir.

Kuttablar məsciddən kənarda yaradılsa da, yenə də məscid və camelərdə ibadətlə bərabər təlim işi də aparılırdı. Məscid və camelərin daha təmiz və səliqəli saxlanılması məqsədilə kiçik uşaqların daha çox cami və məscidlərdən kənar kuttablarda və ya islam böyüklərinin təşkil etdiyi məktəblərdə təhsil almaları təşkil olunurdu.

Kuttablarda bugünkü müasir təlim sisteminin izləri çox aydın görünürdü. Kuttablarda dərs deyənlərə, öyrədənlərə "Müəllim" deyilirdi ki, bu ərəb sözü olub "Öyrədən", "Tədris edən" mənalarını verir. Kuttablarda ilk dəfə olaraq yazı lövhəsindən və silgidən istifadə edilmişdir. Kuttablarda adətən, bir müəllim işləyirdi. Bəzən yüksək səviyyəli tələbələr üçün ikinci müəllim də dəvət olunurdu. Burada müəllimlərə əmək haqqı da verilirdi. Beləliklə, müəllimlik bir peşə kimi formalaşırdı. Kuttablarda hər bir dərs arası öyrənənlərə fasilələr verilirdi. Kuttablarda 18 yaşına qədər oxumaq olardı. Bu məktəblərdə oğlan və qızlar 7 yaşına qədər bir yerdə təhsil ala bilərdilər. 7 yaşından sonra qızlar məktəbdən çıxarılıb ev işləri ilə məşğul olurdular. Varlı adamlar evə müəllim çağıraraq qızlarına yazı, oxu və Quran dərsləri öyrədirdilər. Azərbaycanın müxtəlif yerlərində VIII-IX əsrlərdə Xorasanda, Həmədanda, Bərdədə, Naxçıvanda, Gəncədə, Şamaxıda kuttablar, məktəblər fəaliyyət göstərmişdir.

***Kuttablar əsasən iki növdə ola bilirdi: 1 )Uşaqlara yalnız oxuma və yazma öyrədən kuttablar; 2)Quranı, dini hökmləri öyrədən kuttablar.*** Oxuma-yazma kuttabları müstəqil fəaliyyət göstərirdi. Yazı müəllimi Quran müəllimindən fərqli idi. Yazı müəllimi Qurana hörmətindən irəli gələrək yazı materiallarını Quran ayələrindən deyil, müxtəlif şerlərdən istifadə edirdi. Uşaqlar Quranı şifahi şəkildə öyrəndiyi kuttabdan ayrılaraq, yazı müəlli-

mindən də yazı bacarıq və vərdişlərini öyrənirdi. Yazı öyrədilən kuttablarda sonrakı dövrlərdə yazı vərdişlərindən başqa, ərəb dili, qrammatika, poeziya, stilistika, xolleqrafiya, ərəb və fars tarixi, riyaziyyat öyrədilirdi. Belə kuttabların bəziləri pullu olduğundan hamını əhatə edə bilmirdi. Oxuma-yazma üçün istifadə edilən kuttablar çox vaxt müəllimlərin evlərində, ya da xüsusi yerlərdə təşkil edilirdi.

Kuttablarda müəllim kürsü əvəzinə həsirin və ya kilimin üstündə bardaş quraraq otururdu. Uşaqlar da üzü müəllimə tərəf otururdular. Müəllim hər bir şagirdə kiçik taxta parçası və ağ rəng verirdi. Uşaqlar əvvəlcə bu lövhəni ağ rənglə malalayır, sonra qamış qələmlə lövhənin üzərində əlifbanın hərflərini yazır və əzbərləyirdilər. Bu üsul yorucu və çox əzablı idi. Tədrisin əsası Quran idi. Təhsil alandan üç il müddətində Quranın əzbərləməsi tələb olunurdu.

On yaşına qədər Quranı əzbərləyən uşaq kəlmə biliyi, xitabət, ədəbiyyat, tarix kimi fənləri də üç il müddətində öyrənməli idi. Dərslər səhərdən günortaya qədər keçilir, tənəffüs - ehtiyac duyulduqda tənəffüs edilirdi. Cümə günləri uşaqlara istirahət verilirdi.

İlk vaxtlarda təşkil edilmiş kuttablar üçün proqram Həz. Ömər tərəfindən tərtib edilmişdir. Proqramın mətnində belə deyilirdi: “Uşaqlara üzməyi və ata minməyi öyrədin. Onlara geniş yayılmış zərbli-məsəlləri, atalar sözlərini, müdrik fikirləri və gözəl şeirləri də öyrədin.

Uşaqlara öyrədiləsi lazımi şeylər: Oxu, yazı, hesab və üzməkdən ibarətdir”. Oxuma və yazma yolu ilə bilik əldə edərək kamilliyə çatmağı müsəlmanlara tövsiyə edən ilk kitab Quran idi. O dövrdə yazının işlədilməsi bir yenilik idi. Məktəbin proqramında uşaqlara ədəb, əxlaq öyrədilməsi də başlıca yer tuturdu. Bu səbəblə kuttablarda əxlaq, mərifət dərsləri keçilirdi.

### *2.3.4. Məktəblərdə təhsil*

"Məktəb" ərəbcə "Ketb" (Ketebe) kökündən əmələ gəlmişdir. Mənası "yazmaq" deməkdir. "Məktəb" - "Yazı yazılan yer" deməkdir. Erkən orta əsrlərdə Azərbaycanda savadlı, bilikli şəxslərə "Molla" və ya "Mirzə" deyilməsi məlum bir faktdır. "Hər oxuyan Molla Pənah olmaz"- ifadəsi də elə buradan meydana gəlmişdir. Buna görə də məktəblərdə dərs deyənlərə "Molla" istilahından da istifadə edilmiş və məktəblərimizə də orta əsrlərdə "Mollaxana" deyilmişdir. Pedaqoji dərs kitablarımızda, tədris vəsaitlərimizdə də o dövrün məktəbləri "Mollaxana" adı ilə işlənmişdir.

"Məktəb" uşaqların həm oxuma-yazma; həm də Quran və digər bilikləri aldıqları yer hesab edilirdi. Məktəblər geniş şəkildə islamın yayıldığı hər yerdə, ən ucqar kəndlərdə belə təşkil olunurdu.

Ərəblər ölkələri fəth etdikcə islamı da, elmi də yayırdılar. Bunun üçün ərəblər məscidlərin yanında məktəblər, mədrəsələr açırdılar. Azərbaycanda hələ X əsrdən öncə də "Məktəb" və ya "Kuttab" adları ilə ibtidai təhsil verən təlim ocaqları mövcud olmuşdur. Ərəb hakimiyyətindən sonra, mənbələrdən məlum olur ki, VIII əsrin birinci yarısında Azərbaycanda ibtidai məktəblər fəaliyyətə başlamışdır.

VIII-IX əsrlərdə Azərbaycanın müxtəlif şəhərlərində məktəblər tədricən yayılır, Zərdüşt və Alban məktəblərinin yerinə ərəbdilli, islam təmayüllü məktəblər açılır, mövcud Alban, Arami (Aramey) əlifbalarının yerinə ərəb əlifbası, Pəhləvi və Alban yazısının yerinə ərəb yazısı daxil olurdu.

Məktəblər əsasən ilkin ibtidai təhsil verirdi. Məktəblərdə oxu müəllimi ayrı, yazı müəllimi isə ayrı idi. Quranı oxu müəllimi şifahi yolla öyrədirdi, sonra yazıya keçilirdi.

Bir çox məktəblərdə fərqli proqramlarla da dərslər keçilirdi. Belə ki, bəzi saraylarda, xüsusilə xəlifələrin saraylarında ibtidai təhsil verən məktəblər açılırdı ki, bu məktəblərin proqramları daha

geniş, məzmunlu və hərtərəfli idi. Burada dərs deyənlərə "Müəllim" deyil, **"Müəddib"** deyirdilər. "Müəddib" ərəbcə "ədəb" kökündən əmələ gəlib "ədəb", "əxlaq" öyrədən mənasını verirdi. Hökmdarlar öz uşaqlarını müəddibin tam ixtiyarına verir və müəddiblərə də uşaqların təlim-tərbiyəsi üçün hər cür imkan və şərait yaradırdılar.

Ərəb xilafətinin hökmran olduğu dövrdə Əməvilərin (661-750) və Abbasilərin (750-1258) dövründə Azərbaycanda ərəb dili həm din dili, həm dövlət, həm də elm və tədris dili idi. Bu dil yerli dili sıxışdırırdı. Artıq VIII-XI əsrlərdə ərəb dili geniş yayılaraq bütün elm sahələrini əhatə edirdi. Azərbaycanın Təbriz, Ərdəbil, Həmədan, Marağa, Şiz, Gəncə, Bərdə, Beyləqan, Dərbənd, Şəki, Şamaxı, Naxçıvan kimi şəhərlərində islam qaydalarına uyğun məktəblər geniş açılmağa başladı. Şihabəddin Sührəvedi (1155-1191) on yaşında 1165-ci ildə Marağa şəhərində məktəbə getməsi haqqında fakt onu göstərir ki, artıq XI- XII əsrlərdə Azərbaycanda məktəb şəbəkəsi xeyli genişlənmişdi.

Azərbaycanın kənd və şəhərlərində məktəblərin proqramları müxtəlif idi. Amma ümumiləşmiş şəkildə proqramlar təxminən belə idi:

1) ***Qurandan müəyyən hissənin oxunub, əzbərlədilməsi ("Çərəkə");***
2) ***Ərəb əlifbasının şifahi yolla öyrədilməsi (hərflərin adları, hərəkə işarələri, hərəkəli və hecalı əlifba);***
3) ***Əbcəd (ərəb hərflərinin rəqəmlərlə ifadə olunması) öyrədilməsi və ərəbcə sözlərdən ibarət ilk qiraət;***
4) ***Mətbu, ya da əl yazısı ilə yazılmış mənzum və mənsur kitabların, şerlərin ahənglə oxunuşu;***
5) ***Nəsihətamiz kitabların oxunması, hədislərin öyrənilməsi, dini hekayələrin, rəvayətlərin, zərbli məsəllər, əxlaqi söhbətlərin öyrənilməsi;***
6) ***Fars dili və ədəbiyyatının öyrədilməsi;***
7) ***Ərəb dili qrammatikasının öyrədilməsi.***

Uşaqlar az-çox ərəbcə kəlmələri yazmağa başladıqdan sonra, onlara ərəb üsulu ilə gözəl xətlə yazmaq öyrədilirdi. Daha sonra məktəbdə şagirdlərə məktub yazmağı, kəbin kəsməyi, müxtəlif məzmunlu dualar yazmağı da öyrədirdilər. Uşaqlar qamışdan hazırlanmış iti ucluqlu qələm ilə, gözəl xətlə yazılar. Belə yazı nazik və zərif görünürdü. Şərq xəttatlığı Avropa xəttatlığından daha zərifdir. Bunun üçün şərqlilər xəttatlıq sənətini öyrənmək üçün daha çox vaxt sərf edirlər. Xəttatlıq sənətinə Şərqdə daha çox qiymət verilir.

IX-X əsrlərdə Azərbaycanda dini elmlər sahəsində tanınmış alimlər meydana gəldi. Həmin əsrlərdə ərəb dili Azərbaycanın dini və mədəni həyatına möhkəm daxil olmuşdu. Artıq IX-X əsrlərdən başlayaraq Azərbaycan alimləri və din xadimləri, şair və yazıçılar ərəb dilini ana dili kimi mükəmməl öyrənib, ərəb dilində əsərlər yazırdılar. X əsrdə Əbülhəsən Yaqub İbn Musa əl-Ərdəbili, Səid İbn əl-Bərdəi və Əhməd İbn Süleyman Təbrizi kimi məşhur alim və ideoloqlar meydana gəldi ki, onlar təlim və tərbiyə işlərində, elm sahələrində yenilik tərəfdarları idilər. Onlara "Mücəddedun" ("Yeniləşdirənlər") deyirdilər. Onların və onlar kimi bir çoxlarının fəaliyyəti nəticəsində tədris metodlarında, öyrətmə-öyrənmə prosesində yeniliklər meydana gəldi. Belə ki, məktəb və mədrəsələrdə darıxdırıcı imlaları izah, şərh etmə, münazirə (mübahisə, müzakirə) üsulu əvəz etdi. Təlim prosesində yaradılan dəyişikliklər həm məktəb, həm də mədrəsə təhsilinin inkişafına, təkmilləşməsinə səbəb oldu.

Azərbaycandakı məktəblərdə Quran və şəriət dərsləri ərəb dilində tədris olunsa da, tədris edənlər hələ bu dili bilməyən şagirdlərə ayrı-ayrı mətləbləri anladarkən öz şərh və izahlarını istər-istəməz ana dilində söyləməli olurdular.

Məktəblərdə **"Elme əsma"** öyrədilirdi. Əsma - fars dilində adlar deməkdir. **Əsmayi-husna gözəl adlar deməkdir.** Bu fənnin tədrində Alalhın 99 gözəl adının mənaları öyrədilirdi.

**Qətran Təbrizi fars dilini öyrənənlər üçün ilk dəfə olaraq**

**"Ət-təfasir" adlı fars dili lüğətini tərtib etmişdir. Bu fənnin tədrisi üçün lüğət bir dərslik rolunu oynadığından Qətran Təbrizinin tərtib etdiyi lüğət ilk Azərbaycan dərsliklərindən biri hesab oluna bilər.**

Məktəblərdə şagirdlərin qəbulunda yaş həddi qeyri-məhdud idi. 7-10 və bəzən də daha çox yaşlı uşaqlar məktəbə qəbul edilirdilər. Məktəbə qəbulun da dəqiq vaxtı yox idi. İlin istənilən vaxtında uşaqlar məktəbə qəbul edilə bilərdi. Məktəbi bitirmə vaxtı da qeyri-müəyyən idi. Əsasən, 7-8 il təhsil müddəti çəkirdi. Molla uşağın biliyini fərdi qaydada "Kafi" hesab etdikdə uşaq məktəbi bitirə bilərdi. Hər molla 10-15 şagirdlə məşğul olurdu. Mollalar tədris üçün uşaqların valideynlərindən hər həftə müəyyən miqdarda məvacib, hədiyyə alırdılar. Burada molladan başqa bir də onun köməkçisi var idı ki, ona **Xəlfə** (ərəb sözündən götürülmüş xəlifə sözünün qısaldılmış formasıdır) deyilirdi. Qrup nümayəndəsinə də Xəlfə deyilirdi. Mollanın köməkçisi hesab edilən Xəlfə yaşlı şagirdlərdən də seçilirdi. Uşaqlar səhərdən axşama kimi dərs əzbərləyirdilər, nə isə bilməyəndə mollaya ya da Xəlfəyə müraciət edirdilər. Bu hallarda şagirdlərin tələbləri etiraz olmadan icra olunurdu.

Məktəbdə şagirdlər yerdə həsirin üstündə dizi üstə oturub dərs oxuyurdular. Bu məktəblərdə dərslər ərəbcə və ya farsca keçilirdi. Məktəbə daxil olan uşaqlara əvvəlcə Quranın müəyyən bir hissəsini təşkil edən "Çərəkə" öyrədilirdi. "Çərəkə" İrandan gətirilən və daş çapında hazırlanmış dərs kitabı idi. Onu bəzən mollalar öz xətləri ilə yazıb hazırlayırdılar. "Çərəkə" farsların "Çahar-yek" tərkibindən yaranmış dörddə bir deməkdir. Quranın müəyyən bir hissəsi öyrədildiyindən ona "Çərəkə" adı verilmişdir. Dərs hər bir şagirdin fərdi qabiliyyətinə, fərdi bilik səviyyəsinə uyğun olaraq fərdi üsulla keçilirdi. Tədris "Höccələmə" üsulu ilə aparılırdı. "Çərəkə"nin ilk səhifəsində uzun bir xətlə "Bismillahir-rəhmanir-rəhim" sözləri yazılırdı. Heç bir hərflə hələ tanış olmamış uşağa, birinci növbədə bu kəlmələr əzbərlədilirdi. Bundan sonra çərəkədə yazılmış Quran ayələrinin sözləri heca üsulu ilə öyrədilirdi. Buna 6-7 ay, bəzən də

Quranı bütövlükdə oxumağa bir il vaxt sərf edilirdi. Quranı bitirdikdə şagirdin ailəsində şadlıq olurdu. Quranı bitirən şagirdlərə ərəb əlifbasının adları, müxtəlif xətlər, xəttatlıq öyrədilirdi. Quranı bitirmədən yazıya keçənləri molla cəzalandırırdı.

Məktəblərdə "Əbcəd" hesabı deyilən bir qaydanın uşaqlara öyrədilməsinə də xüsusi fikir verilirdi. Bu qaydaya əsasən hər bir hərf, həm də bir rəqəmi ifadə edir. Məsələn, Əlifın qiyməti -(yəni "A" hərfinin) 1-dir, Nunun qiyməti -("N" hərfi) 50-dir. "Əbcəd" sözü ərəb əlifbasının ilk 4 hərfindən (əlif, be, cim və dal) yaranıb. Əbcəd hesabına görə, 1-dən 1000-ə kimi bütün ədədlər 28 hərfin kombinasiyaları vasitəsilə göstərilə bilər. Bu 28 hərfi ardıcıl olaraq yadda saxlamaq üçün onları 8 sözdə birləşdirmişlər: **əbcəd, həvvəz, hütti, kələmən, səfəs, qərəşət, səxəz və zəzəğ.** Bu sözlərin hər hansı məna daşıdığı barədə məlumat yoxdur. Əlifbanın ilk 9 hərfi 1-dən 9-a kimi tək rəqəmləri, sonrakı 9 hərf 10-dan 20-yə kimi onluq ədədləri, növbəti 9 hərf 100-dən 900-a kimi yüzlükləri, nəhayət, sonuncu hərf 1000 ədədini ifadə edir. Klassik Şərq ədəbiyyatına aid nümunələrdə əbcəd hesabına tez-tez rast gəlirik. Hər hansı mühüm hadisənin tarixini çox zaman ədədlərlə deyil, sözlərlə ifadə edirdilər. Hətta şairlər də əksər hallarda öz əsərlərinin yazılma tarixini əbcəd hesabı ilə göstərirdilər.

Məktəbdə yazı işləri qamışdan hazırlanmış qələmlə yazılırdı. Molla uşaqlara hüsnxət nümunəsi verir və bu əsasda da çalışmalar keçilirdi. Belə məşğələlərə "Məşq" deyirdilər. Adətən, valideynlər öz uşaqlarını yaxşı xətti olan mollanın yanında oxudurdular. Dərsini bilməyən uşaqlara cəza üsulu olan falaqqadan istifadə edilirdi. Böyük şair və pedaqoqumuz Abdulla Şaiq bu barədə "Xatirələr"ində yazırdı: "Fələqqə ilə tənbeh etmək mollaxanalarda ən çox yayılmış üsullardan biridir. Kiçik yaşlı uşaqlarda məktəbə, təhsilə nifrət oyadan, uşaqların məktəbdən qaçmasına səbəb olan fələqqə qol yoğunluğunda, bir metr yarım uzunluğunda bir ağacdan ibarət idi. Ortaya yaxın iki yandan qalın kəndir keçirilmiş bu ağacın hər tərəfindən bir uşaq tuturdu. "Müqəssir" uşağın ayaqlarını fələq-

qənin ortasında olan kəndir içində buranda ayaqları göydə, bədəni yerdə qalırdı. Molla isə çubuğu işə salırdı...”

Zəngin ailələrin evlərində də məktəblər açılırdı. Müəllimlər yüksək təbəqənin balalarına dərs verdiklərindən onlar yüksək məvaciblə təmin edilirdilər. Məktəblərdə uşaqların tərbiyəsi də müəllimə tapşırıldığından onlar məşğələlərdən sonra da uşaqlarla məşğul olur, onların ev tapşırıqlarının yerinə yetirilməsinə nəzarət və köməklik edir, asudə vaxtlarını səmərəli və mənalı təşkil edirdilər. Uşaqlar yaxşı əməllərinə görə rəğbətləndirilirdi. “Quran”ın müəyyən hissəsini öyrəndikdən sonra bir günlük tətil verilməsi, təriflə-mək, “Afərin” demək, təbəssümlə qarşılamaq, müəllimin əvəzinə “Quran” oxumağa icazə vermək, müəllimin köməkçisi təyin etmək kimi rəğbətləndirmə üsulları var idi. Uşaqlar səhərdən axsama kimi məktəbdə olurdular. XIII əsrdən başlayaraq məscidlər yanında fəaliyyət göstərən “yetimlər evi”, “təlim evi” adlanan xeyriyyə müəssisələri də ibtidai təhsil verən məktəblər şəbəkəsinə daxil idi.

Beləliklə, deyə bilərik ki, məktəblər ilk vaxtlarda insanlarda yazıb oxumaq missiyasını, yerinə yetirirdisə və ya dini yaymaq, təbliğat vasitəsi kimi fəaliyyət göstərirdisə, daha sonralar cəmiyyətin inkişafı, insanların dünyagörüşünün genişlənməsi artıq məktəbin belə bir vəzifə və funksiyasını qane etmirdi. Ona görə də daha yüksək təlim və tərbiyə müəssisələrinə ehtiyac duyulur, islam aləminin hər yerində müsəlmanların təhsillənməsi, elmə yiyələnib, tərəqqi etməsi islamın başlıca şərti hesab olunur və elmə, biliyə yiyələnmə müsəlmanın başlıca vəzifəsi hesab olunurdu.

### *2.3.5. Xanəgah, təkyə (təkkə), Zaviyə və dərgahlarda təhsil*

IX əsrin sonları, X əsrin əvvəllərində Yaxın və Orta Asiyada, daha sonralar Azərbaycanda sufizm hərəkatı başlandı. Xanəgahlar, Təkyələr (buna təkkə də deyilir), Zaviyələr, Dərgahlar sufizmin həm ibadət yerləri, həm də təlim, tədris yerləri, təhsil ocaqları hesab olunurdu. Bura insanlar toplaşır, söhbət edir, Şeyxin ibrətamiz,

nəsihətverici, təhsilləndirici söhbət və moizələrini dinləyirdilər.

XII əsrin sonlarında, xüsusilə XIII -XIV əsrlərdə Azərbaycanın bir çox qədim şəhərlərində Xanəgahlar geniş yayılmışdı **"Xanəgah"** kəlməsinin mənası "İbadət yeri", "İbadət evi" deməkdir.

Xanagahda bu bölmələr mövcud olurdu: **Səmaxana** (xüsusi ibadət məkanı), **xəlvətxana** ("Tənha yer" mənasındadır, 40 gün burada tək qalaraq paklanma, təmizlənmə, iradəni möhkəmləndirmə, özünütəkmilləşdirmə, nəfs tərbiyəsi məkanıdır. Buna ərəbcə "Ərbain çıxarmaq", farsca "Çilə çəkmə" deyilir ki, hər ikisinin mənası 40 deməkdir), **dərsxana** (təlim, söhbət, müzakirə məkanı), **mətbəx, məscid, şeyx məkanı.** Xanagahın xərcləri vəqflərin hesabına ödənilirdi.

Naxçıvan ərazisində Xanəgahlar, Təkyə və Zaviyələr daha çox idi. Bu Xanəgahlarda əqidə, iradi keyfiyyətlər, mərifət, nəfsə qalib gəlmək kimi keyfiyyətlər aşılanırdı. Burada insanlar təhsil alır, müəyyən bilik və dünyagörüşə yiyələnirdilər. Naxçıvan MR-run Culfa rayonunda, Əlincə çayının sahilindəki Xanağa kəndi orta əsrlərin Xanagahından qalmışdır. Bu Xanagah iki mərtəbədən ibarətdir. Alt mərtəbə sərdabə adlanır ki, Nəiminin qəbri buradadır. İkinci mərtəbədə kitabxana, təlim-məşğələ otağı, yığıncaq otağı və başqa otaqlar vardır. Abidə 8 guşədən ibarət olub qırmızı və ağ bişmiş kərpiclə tikilmiş və yaşıl kaşilərlə bəzədilmişdir. Abidənin üzərində çox əzəmətli bir kümbəz vardır. Məqbərənin qarşısında müxtəlif fiqurlarla nəqş edilmiş 10 metr yüksəkliyində 4 sütun ucalır. Bu Xanəgahın qapı yerinin üstündən düşmüş yazılı bir daş kitabə bu gün Xanagah məqbərəsində saxlanılmaqdadır. Vaxtilə buradakı Xanagaha dövrün bilikli adamları, şair və ziyalıları toplaşır, burada şer məclisləri, dini, elmi, əxlaqi söhbət və müzakirələr keçirirdilər.

Bu gün Azərbaycanın bir çox yerlərində o cümlədən Lerikdə, Cəlilabadda, Biləsuvarda və başqa yerlərdə Xanagah adı ilə kəndlər vardır ki, həmin kəndlərdə də mövcud olmuş Xanəgahların izi bu gün də görünməkdədir.

Böyük islam alimlərindən biri də **Baba Kuhidir** (934- 1050) O Bakıda doğulub. Belə hesab olunur ki, o, məşhur mütəfəkkir, ilahiyyatçı və şirvanşah Mənuçöhrün vəziri Pir Hüseyn Şirvaninin qardaşıdır. Pir Hüseynin Pirsaat çayı üzərindəki Navahı kəndindəki Pirsaatçay Xanəgahı indiyə qədər ziyarətgah kimi qorunub saxlanmışdır. Baba Kuhi yüz ildən artıq yaşamış və 1074-cü ildə vəfat etmişdir.

1000-ci ildə Nişabur şəhərinə gəlmiş məşhur azərbaycanlı ədib və şair, məşhur mühəddis Baba Kuhi (vəf.təxm.1019) burada sufizmin fəal təbliğatçısı olmuşdur. Xorasanın ən görkəmli sufi şeyxlərindən olan Sulaminin xanəgahına rəhbərlik etmişdir. Xanəgaha rəhbərlik edən şəxs dərin elmə, biliyə və ən əsası isə müdərrislik (dərs demək bacarığı) bacarığına malik olurdular. Bu Xanagahda soydaşımız müdərrislik etmiş, müridləri islami biliklərlə aydınlatmışdır. Təsəvvüf ədəbiyyatının ilk nümunələrinə də Baba Kuhinin əsərlərində rast gəlmək olur.

Baba Kuhinin ərəb dilində bizə gəlib çatmış fəlsəfi əsərləri arasında “Əxbar əl-arifin”, “Əxbar əl-qafilin”, “Bədayət hal əl-həllac” və başqalarının adını çəkmək olar. Bunlardan başqa onun farsca şerlər divanı da olmuşdur. Akademik A.Krımski bu “Divan” haqda yazır ki, bu, sufi divanları arasında ən qədimlərindən biridir.

“Xəlvətilik” təriqətinin banisi, XIV əsrin sonlarında Şamaxıda doğulmuş, 1466-cı ildə Bakıda vəfat etmiş, Bakıda yaşayıb-yaratmış, xeyli məktəb və mədrəsələr açmış **Şeyx Seyid Yəhya Bakuvi** Təkyələr kompleksi olan Şirvanşahlar sarayı məkanında da böyük **Xanagah** yaratmışdır ki, özü də bu Xanagahda yaşamışdır. Təkyəyə bağlı olan bu Xanagah bir təlim-tərbiyə ocağı idi. Burada ardıcıl olaraq təlim məşğələləri, ədəb dərsləri keçirilir, ədəb və əxlaq haqqında Şeyxin moizələri dinlənilirdi.

S.Y. Bakuvi Şamaxı mədrəsəsində mükəmməl təhsil almış, ərəb və fars dillərini burada mənimsəmiş və ana dilindən başqa, bu dillərdə də İslama dair, əxlaq və mənəviyyat məsələlərinə dair əsərlər, didaktik şerlər yazıb yaratmışdır.

Şamaxıda anadan olmasına baxmayaraq, Seyid Yəhyaya Şirvani nisbəsi ilə yanaşı, Bakuvi nisbəsinin də verilməsi həyatının ən uzun və mühüm dövrünü Bakıda keçirməsi, oradakı maarif fəaliyyəti ilə ətraf aləmdə tanınıb məşhur olması və burada vəfat etməsi ilə əlaqədardır. Onun burada 40 ildən artıq yaşadığı dövrdə 20 minə yaxın müridi olmuşdur.

Seyid Yəhya Bakuvi elmə böyük qiymət vermiş və insanları da cəhalətdən uzaqlaşıb elmə yiyələnməsini tövsiyə etmişdir o demişdir: "Elmsiz mürid murada yetməz", "Elmsiz heç bir şey bilinməz, heç bir şey tapılmaz", "Alim zəlil olarsa, aləm də zəlil olar", "Alim elmi ilə əməl etsə, bütün aləmə bərəkət yetişər".

Bakuvi bir şerində belə yazır:

**Elm bir şərəfdir, tac kimi başına qoy,**
**Elm fəzilət xəzinəsidir, ey hünər sahibi,**
**Hər kim ondan uzaq olsa xəbərsiz qalar.**
**Elmin bir zərrəsi səni sıxıntıdan qurtarar,**
**Cəhalətin bir zərrəsi səni bəlaya salar .**

Firudin Bəy Köçərli "Azərbaycan ədəbiyyatı tarixi materialları"nın birinci cildində Seyid Yəhya Bakuvi haqqında məlumat verir. Onun diqqət yetirdiyi bir cəhət Bakıda Seyid Yəhya adında bir məscidin yerini A.A.Bakıxanova istinadən müəyyənləşdirmişdir. "Gömrükxana həyətində hal-hazırda mövcuddur" dediyi təkqübbəli, kiçik məscid bu gün də mövcud olub, içərişəhər tərəfdən girişdədir.

Seyid Yəhyanın qəbri İçəri şəhərdə, Şirvanşahlar kompleksinin içərisindədir.

Bir çox Xanəgahların nəzdində və ya ayrılıqda **Təkyələr (və ya Təkkələr)** fəaliyyət göstərirdi. Təkyə farsca "söykənmə", "istinad etmə", "sığınacaq" deməkdir.

Təkyələr əsasən təlim və tərbiyə məkanı olub, ara –sıra məscid vəzifəsini də görürdü. Təkyədə ilahilər oxunur, şer məclisləri keçirilir, ədəb-əxlaq haqqında şeyxin söhbətləri dinlənilir, musiqi dinlənilir, səmavi rəqslər edilirdi. Təkyələr  dini funksiyanı yerinə

yetirməklə bərabər, həm də ədəbiyyat, incəsənət, maarif və mədəniyyət, ədəb-ərkan, musiqi, rəqs mərkəzi idi.

Təkyələrdəki nəzəri təlim alanlar praktik olaraq Təkyənin zikr ayinlərinə qoşulur, təsəvvüf adətlərini icra edirdi. Zikr ayinlərində bəstəli ilahilər oxunur, səma rəqsləri ifa olunur, şer və musiqi dinlənilirdi. Başqa sözlə təkyə həm də bir ədəbiyyat, incəsənət, mədəniyyət ocağı kimi də fəaliyyət göstərirdi.

Təkyələrin bütün xərclərini vəqflər və Xanagah üzvləri ödəyirdilər. Təkyələrdə təsəvvüf həyatına məcazi mənada “Meyxana”, “Xərabat” da deyilirdi. Bir çox klassik ədəbiyyat nümunələrimizdə də təsəvvüf ideyalarından irəli gələn bu ifadələr işlənmişdir. Dahi Füzulinin – **“Meyxanələri fəth edək fatihələrlə” misrası, yaxud, “Gah məmur qılar badə məni, gah da xarab; Görünüz gah quran, gah yıxan memarı”** beyti buna misal ola bilər.

Beləliklə deyə bilərik ki, pedaqoji, psixoloji, didaktik, mənəvi və tibbi məsələlərə varıncaya qədər geniş bir xidmət sahəsi olan təkyələr o dövrün özünəməxsus, səciyyəvi məktəbidir, klubudur, istirahət yeridir, ədəbiyyat və fikir ocağıdır, mənəviyyat mərkəzidir. Təkyə Quranın tövsiyə etdiyi bir metod ilə hikmət və gözəl öyüdlə insanları dinə, həqiqətə, mərifətə, elmə və biliyə çağırırdı. Təkyələrdə insanlar özlərinə sığınacaq tapmış, yolçular, yoxsullar, evsizlər təkyələrdə öz rahatlığını və əmniyyətini təmin edə bilmişlər. Təkyələr həm də insanların bir-birilə ünsiyyət, xəbərləşmə mərkəzi idi. Təkyələr bəzi zamanlar xəstələr üçün də bir şəfa mərkəzi olmuşdur. Burada daha çox təlqin, inam yolu ilə, Şeyxin məsləhət və tövsiyələri ilə insanlar maariflənmişlər.

İbadət və idrak ocaqlarından biri də müəyyən bir Şeyxin adı ilə adlandırılan Dərgahlardır**. Dərgah** “Qapı önü” mənasını verir ki, burada insanlar öz tərəfdarlarını tapmış, ünsiyyət qurmuş, öyrənmiş, bilik qazanmışlar. Vaxtilə Bəktaşi, Mövlana dərgahları mövcud olmuşdur. Şirvanda, Şamaxıda, Naxçıvanda dərgahlar həm ibadət, həm də maarif və mədəniyyət guşəsi kimi geniş fəaliyyət göstərmişdir.

Naxçıvan şəhərindəki Zaviyə məhəlləsində **Bəktaşilərə məxsus Zaviyə** (زاويه) (“Künc”, “Guşə” mənasını verir) məscidi erkən orta əsrlərin qiymətli memarlıq abidəsidir. Zaviyə Bəktaşilərin həm ibadət yeri, həm görüş, həm söhbət yeri, həm də təlim-tədris mərkəzi olmuşdur. Bura toplaşanlar müxtəlif elm, bilik sahələrinə dair dövrün böyük alimlərindən dərs almışlar. Zaviyədə təlim, təhsil məsələlərinə geniş yer verildiyindən bura mədrəsə də deyilmişdir. Zaviyədə çalışan şeyxlərə Zaviyədar, burada oturan dərvişlərə Zaviyəneşin deyilmişdir.

Türk dünyasının müxtəlif yerlərindən Naxçıvana gələn din adamları və tacirlərin səfərlərini rahat şəkildə təşkil etmək burada işləyənlərin əsas vəzifəsi idi. Naxçıvana kənar yerlədən ziyarətə gələn yolçular burada qonaq edilir, ağırlanır və onlara şəhərin müqəddəs yerləri, tarixi məkanları göstərilirdi. Xüsusilə onlar ilk növbədə adı Qurani–Kərimdə zikr olunan “Əshabi-Kəhf” mağarasını, Nuh Peyğəmbərin məzarını, Əlincə qalasını, Atabəy məqbərəsini, Yusif Küseyr türbəsini, Qarabağlar minarəsini, cümə məscidini, Nəiminin məzarını-Xanagahı ziyarət edirdilər. Türk dünyasından gələn qonaqların yemə, içmə, gecələmə kimi ehtiyacları buraya qoyulan vəqflərin hesabına qarşılanırdı.

Ümumtürk fəlsəfi, ədəbi və pedaqoji fikir tarixində şəxsiyyətin inkişafı, tərbiyəsi, özünüdərki, mənəvi zənginliyi problemlərinin öyrənilməsində, habelə XIII əsr Yaxın Şərq, Anadolu, Azərbaycan və xüsusilə Naxçıvanda yayılmış ortaq türk mədəniyyətinin və ümumtürk birliyinin yaranmasında, təsəvvüf ədəbiyyatının inkişafında və yanılmasında Bəktaşiliyin və onun yaradıcısı olan Hacı Bəktaş Vəlinin böyük rolu və əhəmiyyəti olmuşdur.

Bəktaşiliyin əsas mahiyyəti insanın özünü tanıması, özünü dərk etməsi, gözəl ədəbə, zəngin mənəviyyata, saf əxlaqa sahib olmasıdır. Necə ki, demişlər:

**“Ədəb bir tac imiş, nuri xudadan**
**Gey ol tacı, əmin ol hər bəladan!”**

Bəktaşilikdə insanın kamilləşməsinə xüsusi önəm verilmiş

və kamilliyə çatmağın da şərtləri müəyyənləşdirilmişdir. Həmin şərtlərə əməl edənlər – “Mürşidi-kamil” adlanır və ya “Ata” kimi müqəddəs ada layiq görülür. Bəktaşilər insanlara daim yaxşılıq etməyi, mənən zənginləşməyi, yaxşı əməl sahibi olmağı öyüdləmişdir. Bu fikirlər Bəktaşi misralarında belə ifadə olunmuşdur:

**Malım mülküm, sərvətlərim evdə qaldı**
**Oğlum, qızım, əqrəbam, getdiyim yolda qaldı**
**Dostlarımdan, birisi, məndən heç ayrılmadı**
**Allah üçün yapdığım yaxşılıqlar məndə qaldı**

Bəktaşilik insanları irqindən, rəngindən, dinindən, dilindən asılı olmayaraq birlik və bərabərliyə çağırmış və deyilmişdir: **“Bir olaq, iri olaq, diri olaq!”**

Bəktaşilərin həmişə gözəl ədəb və əxlaqa malik olması, süfrəsinin həmişə açıq olduğu və nemətlərinin də halal olduğu müdrik fikirlərindən də aydın görünür:

**Ədəb ərkana bağlıdır, ayağımız başımız**
**Güllərdən qoxu almışdır, torpağımız daşımız.**
**Süfrəmizdəki loxmalar hamısı halaldır,**
**Yeyənlərə nuş olur, çörəyimiz, aşımız!**

Bəktaşi düşüncəsinə görə hər şey insanın öz əlindədir, hər şey onun nüvəsində, kökündədir. Bu xüsusda Bəktaşi belə deyir:

**Hərarət nardadır, sacda deyildir**
**Kəramət hırkada, tacda deyildir.**
**Hər nə ararsan özündə ara.**
**Məkkədə, Qüdüsdə, Hacda deyildir.**

Bəktaşilikdə elmə, təhsilə, ağıla böyük qiymət verilmiş və deyilmişdir: **“Ağılla gedilməyən yolun sonu qaranlıqdır”**. Bu cəhətdən Bəktaşilikdə təlim zamanı fərdə bilik verməzdən əvvəl onun əxlaqı, ağlı, bilik səviyyəsi, düşüncə və dünyagörüşü öncə öyrənilir və buna uyğun metod və üsullar seçilirdi. Bəktaşilikdə müstəqil fikirləşmək, müstəqil düşünmək, hiss etmək, duymaq, iradəni möhkəmləndirmək, nəfsə qalib gəlmək kimi keyfiyyətlər bilik verməzdən əvvəl öyrədilirdi. Bəktaşilər buna “Qabını genişləndirmə” deyirdilər.

Bəktaşi Zaviyələrinin giriş qapısında hər kəsin görə biləcəyi bir yerdə böyük hərflərlə "Ədəb" sözü yazılıb asılırdı.

Bu o demək idi ki, bura ədəb, əxlaq mərkəzidir. Bura ədəblə girilir, ədəblə çıxılır. **"Ədəb"(ادب) kəlməsi ərəb əlifbası ilə "Ə",(ا) "D"(د),"B"(ب) hərflərindən meydana gəlmişdir.** Bu üç hərf, üç kəlməyə dönmüşdür. Bunlar "Əl", "Dil", "Bel" kəlmələridir. Yəni, **"Əlinə sahib ol, dilinə sahib ol, belinə sahib ol"** kəlmələri, Bəktaşi fəlsəfəsinin əxlaq və mənəviyyat prinsipi sayılmışdır. Bəktaşiliyə daxil olanlar bu üç kəlmənin dərin mənasını dərk etmiş və bunu Bəktaşi Zaviyə və Təkkələrinə gələnlərə anlatmışlar:

1. **Əlinə sahib olmaq.** İnsanın əli həm yaxşılığa, həm də pisliyə istifadə oluna bilər. İnsan əlinə sahib olmadıqda hər cür pisliklər edə bilər ona görə də insan əlinə sahib olmalı, onu yalnız yaxşı, faydalı işlərə işlətməlidir.

2. **Dilinə sahib olmaq**. Az danışmaq ədəbdəndir. "Çox danışan çox səhv edər"- demişlər. Hacı Bəktaş Vəlinin müasiri, onun məsləkdaşı, Şəms Təbrizidən müdriklik dərsi almış təsəvvüf ədəbiyyatının görkəmli nümayəndəsi Mövlana Cəlaləddin Rumi Allaha dua edərək deyirdi: **"Allahım məni çox danışmaqdan, çox yeməkdən və çox yatmaqdan qoru". Çox danışmaq ağla zərərdir, çox yemək bədənə zərərdir, çox yatmaq ruha zərərdir.**

Dil insanlar arasında ünsiyyət vasitəsidir. Bir insan dilini yaxşılığa da və pisliyə də istifadə edə bilər. Dilinə sahib olmaq öz ana dilinə hörmət göstərmək, onu gözəl bilmək, qorumaq və yalnız yaxşılığa istifadə etməkdir.

3. **Belinə sahib olmaq**. İnsanın nəfsinə sahib olması nikahı və halalı olmayana meyl etməməsi, öz nəslini, soyunu, kökünü qorumasıdır.

Bu üç qaydaya əməl etmək Bəktaşi ədəb və əxlaqının əsasını təşkil etmiş və Bəktaşi misralarına belə köçmüşdür:

**Haqsızlığa uğramazsan, sahib isən əlinə**
**Bəlalara bulaşmazsan, hakim isən dilinə**
**Davasız dərdə düşməzsən, sağlam isən belinə!**

Bəktaşi müdriklərindən ədəb haqqında dəyərli misraları da yuxarıda dediklərimizə bir nümunədir:

Ədəb gərəkdir qula,
Ta ismimiz təmiz ola.
Ədəbsiz girmə yola,
Var ədəb, öyrən ədəb.

Bəktaşilik başdan başa insana hədsiz sevgi və məhəbbətdir. Bəktaşilərin bütün fikir və ideyalarında insana qayğı, insana sonsuz məhəbbət durur. **“Yaradılanı sev yaradandan ötrü”** ideyasından irəli gələrək Bəktaşi müdrikliyində deyilir:

**“Allahını sevən bir insan bir kimsənin verdiyi üzüntüdən sıxılmaz və qırılmaz. Cavan mərd odur ki, qırılmağa dəyər kimsəni belə qırmaz!”. Bu fikridə insana nə qədər yüksək dəyər və qiymətin bariz nümunəsini görürük”.**

Bəktaşilik **“Sərimi verrəm, sirrimi verməm!”** deyərək, sirr saxlamağı, **“Ayıbları örtücü ol”** – deyərək başqasının eybini, açmamağı, qüsurunu yaymamağı, **“İncinsən də, incitmə sən”** deyərək könül sındırmamağı, “**Ağır başlı ol”- deyərək səbirli və təmkinli olmağı, “Bir olaq, iri olaq, diri olaq!-** deyərək insanları birliyə, bərabərliyə səfərbər etməyi öyüdləmişdir.

Bu gün Bəktaşilər ailəsi qollu-budaqlı, yaşıl yarpaqlı, dadlı meyvəli köklü bir palıd ağacının şaxələri kimi aləmə yayılmışdır. Bu soyadına indi Azərbaycanın müxtəlif guşələrində, xüsusilə Naxçıvanda, Türkiyədə, Orta Asiyada, Ərəb ölkələrində, Makedoniyada, Macarıstanda və daha başqa yerlərdə də rast gəlmək olar. Harada olmasından asılı olmayaraq onlar öz köklərinə bağlı olaraq öz soy kökünü, qan yaddaşını yaşadır, **“Qalxdınsa xidmət üçün qalx” -** müdrik Bəktaşi kəlamına uyğun olaraq vətənə, xalqa, insanlığa layiqincə xidmət göstərməkdədirlər.

Beləliklə deyə bilərik ki, erkən orta əsrlərin ibadət və təlim - tərbiyə mərkəzləri olan Xanagah, Təkyə, Zaviyə və Dərgahlar orta əsrlərin bilik , elm, maarif və mədəniyyət mərkəzləri kimi geniş fəaliyyət göstərmişdir.

### 2.3.6. *Kitabxanalar bir elm, tədris mərkəzi kimi*

İslam dininin müqəddəs kitabı olan Qurani-Kərimin yazıya köçürülməsi, üzünün çoxaldılıb yayılması bütün islam ölkələrində elmin, təhsilin, xüsusilə kitabxanaların, kitab evlərinin inkişafına təkan verdi.

Məscidlərin yaranması və onun şəbəkələrinin bütün islam ölkələrində genişlənməsi kitabçılıq və kitabxanaşünaslıq işinin daha da təkmilləşdirilməsinə şərait yaratdı. Müsəlman ölkələrində yaranan məscid və mədrəsə kitabxanaları İslam dünyasında kitabxanaların və kitabxanaşünaslığın əsası qoyulmaqla böyük maarif və mədəniyyət nümunələri formalaşdırdı.

İslam ölkələrində kitabxana işinin geniş yayılması, kitabxanalara diqqətin getdikcə artması, cəmiyyətdə kitabxanaların rolunun xeyli yüksəlməsinə səbəb olmuşdur.

Ərəb Xilafəti meydana gələndən sonra iri tədris müəssisələri və kitabxanalar təşkil edilməyə başlamışdı. Onlar xəlifələr tərəfindən yaradılır, onların vəsaiti və himayəsi hesabına fəaliyyət göstərirdi. Kitabxanalar bir qayda olaraq hökmdar saraylarında yerləşirdi. Xəlifənin saraya işə dəvət etdiyi alimlər, şairlər, hüquqşünaslar kitabxananın əsas oxucuları idilər. Bu dövrdə "Quran" öyrənmək hər bir müsəlmanın müqəddəs vəzifəsi sayılırdı. Ərəb dili isə həm müsəlman dininin dili, həm də Ərəb xilafətində yaşayan bütün xalqların elm dili idi.

Pedaqoji fikrimizin və elmimizin inkişafında, maarif və mədəniyyətin yanılmasında erkən orta əsrlərdə yaranmış kitab evləri və kitabxanaların böyük əhəmiyyəti olmuşdur. Alimlərin, elmi sevənlərin baş vurduqları əsas yer kitab evləri və kitabxanalar olmuşdur. İslam əhli kitabı həmişə sevmiş və onu yüksək dəyərləndirmişdir. Kitabın dəyərini yüksək qiymətləndirənlərdən biri böyük alim Əl-Cahiz olmuşdur. O, demişdir ki, kitab susduğunuz zaman səssiz, danışdığınız zaman danışan, məşğuliyyətiniz varkən söhbətə başla-

mayan, çalışan zaman sizi yalnız buraxan, özünüzə qarşı heç vaxt minnətçi olmayan, sizi yoldan çıxarmayan bir dost, bezdirib usandırmayan, sizi aldadıb yalan söyləməyən bir yoldaşdır.

Kitab evləri, kitabxanalar elm adamlarının həmişə sevimli yeri olmuş, onlar kitaba son dərəcə böyük qiymət vermiş və kitab oxumağa sərf etdiyi vaxtları ən dəyərli və qiymətli vaxt hesab etmişlər. Xəlifələrdən birisi gecə söhbəti keçirmək üçün hər gecə alimlərdən birini yanına dəvət edərmiş. Saray xidmətçisi alimin yanına gəlib dəvəti söyləmək istərkən alimi kitablar arasında mütaliə etdiyini görmüş və Xəlifənin istəyini ona çatdırmışdır. Alim isə - "Xəlifəyə söyləyin ki, indi yanımda bir qrup hikmət adamları, müdrik insanlar vardır, onlarla söhbət edirəm. Onlarla söhbəti bitirib gələrəm" - demişdir. Xidmətçi alimin sözlərini xəlifəyə bildirərkən, o heyrətlə soruşmuşdur: - "Yanındakı o dəyərli alimlər kimlərdir, əcaba"? Xidmətçi bildirmiş: - "Vallahi ya əmir əl-Mömin yanında heç kim yox idi" - deyincə, xəlifənin marağı daha da artmış və demiş: "Nə edirsən et, onu bu saat mənim yanıma gətir". Nəhayət, alim xəlifənin yanına gəlmişdir. Xəlifə maraq və təəccüblə soruşmuşdur: -"Sənin yanındakı o müdrik insanlar kim idi?". Alim demişdir:

- "Ey Möminlərin əmiri! Onlar: - söhbətlərindən heç zaman doymadığımız, üz-üzə olarkən əmniyyətli və təhlükəsiz olan, baş-başa qaldığımız zaman dadlı, xoş sözləri ilə dərdlərimizi dağıdan, bizə ümid və güc verən, öz elmləri ilə bizi əvvəlkilərin bilik, ağıl, ədəb və doğru görüşlərindən yararlandıran, bizə doğru yol göstərən sədaqətli yoldaşlardır. Onlar – "ölüdür, desəm yalan olar, dirilərə bənzəyir desəm məni qınamazlar...". Xəlifə alimin bu sözlərindən onun kitabları qəsd etdiyini anlamış və gecikməsini əsaslı hesab etmiş, onu mükafatlandırmışdır.

İslam ölkələrində ilk böyük kitabxana VII əsrin II yarısında Əməvilər sülaləsinin I Xəlifəsi Müavinə İbn Əbu Subyan tərəfindən inşa edilmişdir.

Ərəb ölkələrində kitabxanalar "Müdriklər evi", "Mərifət evi" adlanırdı**.** Bu tipli **kitabxanalardan biri VII əsrdə Dəməşq**

**şəhərində yaranmışdır.** VIII əsrdə Bağdad Ərəb xilafətinin paytaxtına çevrilərkən kitabxana da Bağdada köçürülmüşdür.

Məhəmməd Peyğəmbərin qızı Fatimə də (910) Misirin Qahirə şəhərində fondu 70 min nüsxə kitabdan ibarət olan bir kitabxana yaratmışdır.

Ən böyük kitabxanalardan biri də Əməvi xəlifəsi II əl-Həkəm tərəfindən İspaniyanın cənubundakı Əndəlis vilayətinin Kordova şəhərində yaradılmışdır.

Böyük kitabxanalardan biri **Bağdadda** Harun ər Rəşid (787-809) tərəfindən qurulan **"Dar ol- hekmə" (Hikmət evi) olmuşdur** Bura bir kitab evi, elm mərkəzi, tərcümə yeri idi. Burada qədim yunan filosoflarının əsərləri ərəb dilinə tərcümə edilir, nüsxələri çoxaldılır və yayılırdı. Yaxın və Orta Şərq ölkələrinin alimləri bu elm mərkəzindən istifadə edib faydalanmışlar. Mənbələrin verdiyi məlumata görə bu hikmət evi Hülakilərin hücumuna qədər (1258) qalmışdır. Həmin ildə Nəsrəddin Tusi Bağdadda olmuş və bu elm mərkəzindən istifadə etmişdir.

Kitab evi, elm mərkəzlərindən biri də IX əsrdə Bağdadda yaradılmış "Beytül hekmə" ("Hikmət xəzinəsi") (830) olmuşdur. Bu əvvəlcə bir kitab evi, elmi tədqiqat mərkəzi kimi qurulsa da gələcək "Mədrəsə" təhsilinə bir başlanğıc olmuşdur. "Beytül -hekmə"də ədəbiyyat və incəsənət salonu, idman zalı Əl-kimya emalatxanası, rəsədxana, xəstəxana fəaliyyət göstərirdi. Burada tərcüməçilər var idi ki, yunan, latın, pəhləvi, fars dilində olan ədəbiyyat ərəbcəyə tərcümə edilir, çoxaldılıb yayılırdı.

Burada riyaziyyat, fəlsəfə, ritorika, psixologiya, əxlaq, coğrafiya, qrammatika və musiqi sahələrində Sokrat, Platon, Aristotel, Arximed eləcə də tibbə dair Hiroqliyus və Calinus kimi qədim yunan alimlərinin əsərləri geniş miqyasda tərcümə edilmişdir. Bu tərcümələr Yaxın Şərqdə, Qafqazda geniş yayılaraq tədris müəssislərində dərs vəsaiti kimi istifadə olunmuşdur.

İlk dövrlərdə maarifpərvər şəxslər özləri əlyazmaları, kitabları, yazılı mənbələri toplayaraq kitab evləri və kitabxanalar yarat-

mış və bunu xalqın istifadəsinə vermişdir. Bitləmus xanədanında İsgəndəriyyə kitabxanası və Abbasilər dövründə Bağdadda "Beyt ol-hekmə" və digərləri də belə qurulmuşdur.

**Nəcəfdə "Heydəriyə" kitabxanası** İmam Əlinin qəbrinin yaxınlığında Məşhədi Şərif tərəfindən qurulmuşdur. Tarixi bəlli olmasa da çox qədimdir,

Qahirədə XI əsrdə "Darül-Hikmət" kitabxanası qurulmuşdur ki, (təsisi:1005) böyük İslam Universitetlərinin yaranmasının nüvəsi olmuşdur. Tədqiqatçılar düşünmüşlər ki, bura mədrəsədir ya kitabxanadır? Digər tərəfdən də bu müəssisələr istər dövlət tərəfindən qurulsun, istərsə də fərdlər tərəfindən qurulsun bu növdən olan quruluşlara örnək olmuşdur. Beləcə kitab evləri, elm evləri, kitabxanalar islam aləminin hər yerində-o cümlədən Azərbaycanda - Marağada, Təbrizdə, Gəncədə, Naxçıvanda, Bərdədə, Ərdəbildə, Dərbənddə, Həmədanda, Şirvanda, Şamaxıda yaradılmışdır ki, onlar da pedaqoji fikrin formalaşmasında, təhsilin inkişafında, elmin yayılmasında, insanların təhsilə, maarifə cəlb edilməsində, yeni tədris müəssisələrinin açılmasında böyük rol oynamışdır.

Azərbaycanda, o cümlədən Şamaxı və Gəncə şəhərlərində elmi kitabxanaların təşkili daha çox diqqəti cəlb etmişdir. Azərbaycanda kitabxanalar daha çox elmi-tədqiqat və tədris işlərini birləşdirən mərkəzlər kimi inkişaf etmişdir.

Cənubi Azərbaycanın Həmədan şəhərində yaradılmış zəngin kitabxanalardan birinin sahibi azərbaycanlı Əbül Vəfa olmuşdur. Bu kitabxananın şöhrəti İran və Azərbaycan hüdudlarından da uzaqlara yayılmışdır. Azərbaycana sıx bağlı olan ərəb şairi Əbu Təmmam (796- 843) həmin kitabxananın fəal oxucusu olmuşdur. O, İraqa köçərkən onun tərüb etdiyi kitablar, xüsusilə burada yazdığı məşhur "Həmasə" ("Qəhrəmanlıq") kitabı bu kitabxanada qalmışdır. "Həmasənin şərhi" əsərinin müqəddiməsində Xətib Təbrizi yazır ki, Əbu Təmmam Xorasandan İraqa qayıdarkən Əbül Vəfa onu Həmədanda qonaq saxlayır. Şair Həmədandan çıxmaq

istəyəndə çoxlu qar yağdığından yollar tutulur və o bir müddət Həmədanda Əbül Vəfanın yanında qalmalı olur. Əbül Vəfa öz kitabxanasını darıxmamaq üçün Əbu Təmmamın ixtiyarına verir və o bu kitabxananın kitablarından istifadə etməklə "Əl- Həmasə" adlı məşhur şerlər məcmuəsini yazmışdır. Bu kitaba Azərbaycan şairlərinin şerləri də daxil olmuşdur. Bu da məlumdur ki, Xətib Təbrizi bu kitaba böyük şərh yazmış, onu qiymətli əsər saymış və onu dünyaya yaymışdır. Göründüyü kimi bu kitabın yazıldığı yer də Azərbaycan olmuş, ilk oxucuları da azərbaycanlılar olmuş, bu kitaba şərh yazan, onu bütün dünyaya tanıdan da Azərbaycan alimi olmuşdur.

Həmədan şəhərində tez-tez kitab satış bazarları təşkil olunurdu. Belə kitab satış bazarlarından biri də X əsrdə Samanilər dövründə Buxarada olmuşdur. Burada **"Savanül-hikmət"** ("Hikmət xəzinəsi") adlı zəngin saray kitabxanası olmuşdur ki, böyük Azərbaycan alimi Bəhmənyarın müəllimi və dostu Əbu Əli İbn Sina bu kitabxanadan öz əsərlərini yazmaq üçün zəngin materiallar toplamışdır. İbn Sinanın dünyagörüşünün inkişafında Samanilərin Buxaradakı saray kitabxanasının çox böyük rolu olmuşdur. İbn Sina əmir II Nuh İbn Mənsuru müalicə etdikdən sonra bu kitabxananın müdiri təyin olunmuşdur. İbn Sina öz tərcümeyi-halında bu kitabxananı belə təsvir edir: Məni çoxlu otaqları olan binaya buraxdılar otaqların hər birində qalaq-qalaq kitablarla dolu sandıqlar var idi. Bir otaqda ərəb dili və poeziyaya, o birində fiqhə dair kitablar var idi. Beləcə hər otaqda elmlərdən birinə dair kitablar yığılmışdı. Qədim alimlərin əsərlərinin siyahısı ilə tanış olduqdan sonra mən özümə lazım olanı istədim və çoxlarının adlarını belə eşitmədikləri, mənimsə nə qabaqlar, nə də sonralar görmədiyim kitabları gördüm. Böyük loğman İbn Sina haqqında bunu da deyirlər ki, o, Buxara əmirini müalicə etdikdən sonra Əmirin- "cavan oğlan məndən nə mükafat istəyirsən" - sualına saray kitabxanasına daxil olmağı istəyirəm. Mən həmin kitabxanada kitab oxumağı istərdim" - cavabını vermişdir.

Hələ IX əsrdə Əbu Nəsr Farabi Əl -Türki Aristotelin əsərlərini sadələşdirmiş, ona şərhlər yazmış, onları Şərqə, bizə çatdırmışdır. Təsadüfi deyil ki, hələ öz dövründə Farabiyə Aristotelin "Birinci müəllim" ünvanından sonra "İkinci müəllim" ünvanı verilmişdir.

Bir çox Azərbaycan alim və şairlərinin - Nizami Gəncəvinin, Xaqani Şirvaninin, Xətib Təbrizinin, Bəhmənyarın və başqalarının əsərlərindən məlum olur ki, onlar qədim yunan fəlsəfəsini yaxşı bilmiş və onların əsərlərini oxuyub faydalanmışlar. Nizami Gəncəvi Ərəstunun (Aristotelin) 7-7 yaş bölgüsünü bəyəndiyini yazmış və oğlu Məhəmmədə 7, 14, 21 yaşlarında nəsihətamiz şerlər yazmışdır. Bəs, Nizami Gəncəvi Ərəstunu harada, necə və hansı dildə oxuyub öyrənmişdir?

Tarixi mənbələrdən məlumdur ki, mühüm mədəniyyət mərkəzlərindən biri qədim zamanlardan Bərdə şəhəri olmuşdur. IX-X əsrlərdə Bərdə Azərbaycanın ən böyük və ən qabaqcıl şəhərlərindən olmuşdur. Elə Bərdə yaxınlığında doğulmuş "Albaniya tarixi"nin müəllifi Musa Kalankatlının VII əsrdə "Böyük paytaxt və qala şəhəri" kimi qeydə aldığı bu şəhəri X əsr ərəb səyyahı Müqəddəsi "Azərbaycanın baş şəhəri", "Bu diyarın Bağdadı" adlandırmışdı. Bərdənin şair və alimlərinin bir çoxu Şərqin və Orta Asiyanın iri mədəniyyət mərkəzlərində - Bağdadda, Qahirədə, Dəməşqdə, Nişaburda və başqa şəhərlərdə yazıb yaradaraq kitab mədəniyyətinə böyük töhfələr vermiş, Bərdədə və digər şəhərlərdə kitab evləri və kitabxanalar yaratmışlar.

Bərdədə 100 min cilddən artıq kitabı olan kitabxana olmuşdur. Bu kitabxanada çox qiymətli kitablar, qədim əlyazmalar, yunan filosoflarının əsərləri, Farabinin ərəb dilinə tərcümə etdiyi Aristotelin əsərləri də mövcud olmuşdur. X əsrdə slavyanlar Bərdəni yandırarkən dövrün ziyalı, ağıllı adamları kitabları və kitabxananı qorumuş, kitabları sandıqlara dolduraraq torpağa basdırmışlar.

X əsrin ortalarında paytaxt Bərdədən Gəncəyə köçürüləndə kitablar da Nizami yurduna daşınmış və burada böyük saray kitabxanası yaradılmışdır. Azərbaycanı qarış-qarış gəzmiş, buradan xeyli

kitab almış və oxumuş ərəb səyyahı Yaqut əl-Həməvi (1179-1229) “Mucəm əl- buldan” əsərində yazmışdır ki, Gəncə kitabxanası çox zəngindir. Bu kitabxananı yaradan da, onun baş mühafizi də, müdiri də naxçıvanlı alim Həddad İbn Asim İbn Bəkran Əbülfəzl ən-Nəşəvi olmuşdur.

Orta əsrlərdə müxtəlif elm sahələri ilə məşğul olmuş azərbaycanlı alimlər islam mədəniyyətinin inkişafında misilsiz xidmətlər göstərmişlər. Ərəbdilli mənbələrdə bu alimlər tez-tez xatırlanır, onların yaradıcılığından söhbət açılır, elm aləmində xidmətləri qeyd olunur. Belə qiymətli mənbələrdən biri də XII əsrdə yaşayıb-yaratmış məşhur tarixçi, filoloq və mühəddis Əbu Səəd Əbdülkərim ibn Məhəmməd əs-Səmaninin altıcildlik “Kitab əl-Ənsab” (“Nisbələr kitabı”) əsəridir. Əsərdə əs-Səmani Azərbaycanın ayrı-ayrı şəhərlərində təşkil edilən kitabxanalara, elmi məclislərə, bu məclislərdə gedən müzakirələrə toxunur, fəzilətli, nüfuzlu alimlərin adlarını qeyd edir. “Kitab əl-Ənsab”dan məlum olur ki, Azərbaycan şəhərləri arasında Gəncə zəngin kitabxanası olan, elmi məclislərin təşkil olunduğu əsas məkanlardan biri olmuşdur. Şəhərdə keçirilən elmi məclislərdə İbn Makula kimi görkəmli alim də iştirak etmişdir.

Bərdədən sonra Gəncə Arranın ikinci böyük şəhəri sayılmışdır. Bu baxımdan X əsrdə paytaxt Bərdədən Gəncəyə köçürüləndə yeni paytaxt kitabsız və kitabxanasız ola bilməzdi. Gəncədə saray da, “Darül Kütüb” da (“Saray kitabxanası”) əvvəlcə yaradılmış, sonra böyük köç başlanmışdır.

Artıq X-XI əsrlərdə Gəncə maarif və mədəniyyəti inkişaf etmiş bir şəhər halına gəlmişdi. Deməli, bu şəhərin yazıçıları, alimləri, şairləri, xəttatları və kitab tərcüməçiləri, kitab evləri və zəngin kitabxanası olmuşdur.

Bu kitabxanadan dahi Nizami Gəncəvi, Əbül–üla Gəncəvi, Məhsəti Gəncəvi, daha nə qədər Gəncəvilər, Gəncəlilər istifadə edib faydalanmışlar. Farabinin ərəb dilinə tərcümə etdiyi Ərəstunun əsərləri də, başqa dəyərli kitablar da burada mövcud olmuşdur ki, Nizami özünün də yazdığı kimi onları həvəslə oxuyub öyrənmişdir:

**Dünyada nə qədər kitab var belə**
**Çalışıb əlləşib gətirdim ələ.**
**Ərəbcə, dəricə, yeri düşərkən,**
**Buxari, Təbəri əsərlərindən**
**Oxudum, oxudum, sonra da vardım**
**Hər gizli xəznədən bir dürr çıxardım.**
**Əlimə yetişən hər bir varaqdan**
**Nüsxələr bağladım mən zaman-zaman.**
**Onda ki, fikrimi saldım səhmana,**
**Dedim ki, qoy onu düzüm dastana.**
**Oxuyan bəyənib afərin desin,**
**Ariflər, alimlər mənə gülməsin.**

IX-X əsrlərdə Azərbaycanda və Şərq şəhərlərində dəyərli şairlər meydana gəlmişdir ki, onların qələmindən xeyli nəsihətamiz əsərlər çıxmışdır. X əsr müəlliflərindən Yəzdiyar Urməvi, Əhməd Bərdəi, Əbülhəsən Zəncani, Əbu Zürə Ərdəbili, Baba Kuhi Bakuvi və başqaları ədəbi, pedaqoji fikri xeyli zənginləşdirmişlər. X əsrdə Bağdadda yaşamış Azərbaycan alimlərindən Əbülhəsən Ərdəbili, Səid Bərdəi, Əhməd Süleyman oğlu, şairlərdən Baba Kuhi Bakuvi, onun qardaşı Pir Hüseyn Şirvani öz dəyərli əsərləri ilə Azərbaycan kitab evini zənginləşdirmiş, insanların mənəvi tərəqqisinə kömək etmişlər. Görkəmli alim Y.E Bertels (1890-1957) yazırdı: "IX-XIII əsrlər Avropa mədəniyyəti tarixində ən dərin tənəzzül dövrü olmuşdur. Məhz Şərq (o cümlədən Azərbaycan) filosoflarının əsərləri Avropa xalqlarını çətin vəziyyətdən çıxarmış və onlara gələcək inkişaf yollarını göstərmişdir".

891-ci ildə xeyli azərbaycanlı yaşayan Bağdadda 100-dən artıq kitab mağazası və yüzlərlə şəxsi kitabxana var idi. Bu kitabxanaların kitab fonduna azərbaycanlı alimlərin əsərləri də daxil idi. Kitabxana sahibləri sırasında azərbaycanlılar da vardı.

Hələ IX əsrin sonu, X əsrin əvvəllərində Cənubi Azərbaycanın Xunəç şəhərində ilk kağız fabriki işə salınmış və kitabçılıq sahəsində ilk uğurlar qazanılmış, həm kitab bolluğu yaradılmış, həm kitab ucuzluğu yaradılmış, həm də insanların elmə, maarifə geniş şəkildə

cəlb olunması təmin olunmuşdur. Kitabçılıq işində kağıza böyük ehtiyac olduğundan Xunəç kağızı Şərq ölkələrinə, Azərbaycanın digər şəhərlərinə hətta, Suriyaya, İtaliyaya, Çinə belə ixrac edilmişdir.

Hələ **X əsrdə yaradılmış kitabxanalardan biri də Sabir bin Ərdəşirin Bağdadda yaratdığı kitab evi olmuşdur** ki, bura Bağdad alimləri toplaşar, elmi söhbətlər edər, kitablardan faydalanardılar. Bura gələnlər arasında Xətib Təbrizinin müəllimi dövrünün böyük şair-filosofu Əbül-Əla-əl Məərri də var idi.

X-XI əsrlərdə kitab evləri və kitabxanalardan istifadə pulsuz idi. Sultan, əmir, vəzir və tacirlərin də ən böyük varı-dövləti həmin şəxsin evindəki kitablarının sayı ilə ölçülürdü. Kitab evləri oxumaq istəyənlərin üzünə günün hər saatında açıq idi. Gün ərzində elm evində, kitabxanalarda çalışanlara kitabxana sahibi tərəfindən pulsuz nahar da verilirdi.

Orta əsr kitabxanalarında kitabın tərtibi, onun qiymətli ornamentlərlə, miniatürlərlə, gözəl rəsm əsərləri ilə bəzədilməsi, qiymətli mürəkkəblə-qızıl suyu ilə yazılması, həmçinin kitabın cildlənməsinin daha da təkmilləşdirilməsi dünya kitabxanalarına örnək olmuşdur.

Müsəlmanlar erkən orta əsrlərdə kitabları yan-yana deyil, üst-üstə düzürdülər. Çünki yan-yana düzülüş üsulunu o dövrdə heç Avropa da bilmirdi. Digər tərəfdən də kitabların əksəriyyəti nazik papirus kağızından hazırlanırdı. Belə kitabları yanaşı düzmək çətinlik törədirdi. Bir də kitabların adları və müəllifi indiki kimi kitabın üzərində deyil, arxasında və ya ortasında olurdu. Kitab şkafları isə həmişə açıq və xalqın istifadəsində idi. Erkən orta əsrlərdə ümumi kitabxanalar, yarım ümumi kitabxanalar, xüsusi kitabxanalar və mədrəsə kitabxanaları var idi. Bunların hamısında kitabxana personalı var idi. Kitabxana personalı kitabxananın böyüklüyü və kiçikliyindən asılı olaraq dəyişilirdi. Bu dəyişiklik vəzifələrin növünə və sayına görə dəyişirdi.

O dövrdə Azərbaycanın Gəncə, Naxçıvan, Şamaxı, Təbriz,

Ərdəbil, Həmədan kimi şəhərlərinin əksər kitabxanalarında aşağıdakı vəzifələr var *idi:*

1) Kitabxana xəzinədarı; 2) Mütərcimlər (tərcüməçilər); 3) Müstənsixlər (nüsxə çıxaranlar); 4) Mücəllidlər (cildçilər); 5) Müzahiblər (zər-bəzəkli cildlər hazırlayanlar); 6) Münavillər (Kitabxana xidmətçiləri).

***Kitabxana xəzinədarı*** kitabxananın müdiri vəzifəsində idi. Onun əsas vəzifəsi kitabxananın elmi-pedaqoji və idari işlərini aparmaq idi. O, yeni çıxan kitabları kitabxanaya alır, kitabları təbliğ edir, insanlar arasında maarifləndirici işlər aparır, kataloqları diqqətlə tərtib edir, oxucuların mümkün qədər kitabxanadan asanlıqla istifadə etmələrini təmin edirdi. Kitabları çürüməkdən, rütubətdən, korlanmaqdan qoruyur, gərəkən kitabların cildlənməsinə qayğı göstərir. Kitabxana müdiri və ya o dövrün dili ilə desək kitabxana xəzinədarı bilikli, geniş dünyagörüşlü, elmi-metodik səviyyəli bir şəxs olmalı idi.

***Kitabxananın mütərcimləri*** dəyərli kitabları öz ölkələrinin dilinə tərcümə edərək kitab istəyənlərin istifadəsinə verirdilər. Kitabxana mütərcimlərinin yardımı ilə yunan, Suriya, Hind elmləri ərəbcəyə tərcümə edilib, bütün İrana və Azərbaycana yayılırdı. Bu dövrdə Pifaqorun, Sokratın, Platonun, Aristotelin əsərlərinə maraq güclü idi. Fəlsəfi əsərlərdən başqa Evklidin, Arximedin də əsərləri, Aristarxın astronomiyaya dair kitabları da tərcümə edilmişdi. Klavdiy Ptolomeyin "Əl-Macest"i həmçinin, onun "Coğrafiya"sı, ulduzların hərəkət qanunları haqqında kitabları tərcümə edilmişdi. Bu tərcümə kitabları Azərbaycan şəhərlərində yayılmış və insanlarımız da onları oxuyub faydalanmışlar.

***Müstənsixlər*** (nüsxə çıxaranlar) artıq X əsrdə kitabxanalarda kitabları çoxaltmaqla, üzünü çıxarmaqla məşğul idilər. Kitabxananı zənginləşdirmək üçün kitabların bir surətini yazmaq və artırmaq üçün xüsusi müstənsixlər kitabların üzünü çıxarırdılar. Təbrizdən bir qrup müstənsix islam aləmində ilk böyük kitabxana olan Harun ər-Rəşidin təsis etdiyi və oğlu xəlifə əl-Məmunun dövründə zirvəyə

yüksəlmiş Beytül-Hikməyə getmiş və orada Qurani Kərimin, hədislərin, habelə, tibbə, fiqhə, ədəbiyyata fəlsəfəyə dair kitabların üzünü çıxarmış Təbriz kitabxanasını zənginləşdirmişdir.

Bağdadda "Beytül-hikmət"də, Bağdad mədrəsə kitabxanasında, eləcə də Təbriz, Gəncə, Naxçıvan, Xorasan mədrəsə kitabxanalarında xüsusi xəttat və müstənsixlər hazırlanmış və geniş fəaliyyət göstərmişlər. Cənubi Azərbaycan- xüsusilə, Təbriz xəttatlıq məktəbi hər zaman bu sahədə fərqlənmişdir.

***Mücəllidlər*** (Kitab cildləmə) də o dövrdə geniş yayılmışdı. Bu iş Ərdəbil, Təbriz və Həmədanda geniş yayılmışdı. X-XI əsrlərdə təbrizli, həmədanlı sənətkarların məharətlə hazırladıqları cildlər ən gözəl və ən qədim cildlər hesab olunmuşdur.

Daha sonralar cildçilik sənəti inkişaf etdi və kitabları naxışlama, süsləmə geniş yayılmağa başladı ki, onlara *Müzahiblər* (zərbəzəkli cildlər hazırlayanlar) deyilirdi. Müzahiblər Azərbaycanın müxtəlif yerlərində çalışmış və bu sənəti inkişaf etdirmişlər.

***Münavillər*** (Kitabxana xidmətçiləri) isə kitablarla işləmə, kitab axtarıb tapma, müxtəlif mənbələrdən istifadə etmə qaydalarını oxuculara öyrədir və onları istədikləri kitablarla təmin edir, kitabları oxuculara aparıb-gətirirdilər. Münavillər həm də pedaqoji, maarifləndirici, öyrədici bir iş aparırdılar. Münavillər kitab xəzinədarı səviyyəsinə qalxmamış və kitabxana xidmətçisi səviyyəsinə də enməmişdilər.

Erkən orta əsrlər dövründə Bağdadda, Nəcəfdə, Təbrizdə, Bərdədə, Gəncədə ümumi, yarımümumi və xüsusi mədrəsə kitabxanaları mövcud olmuşdur. Bu dövrdə Azərbaycanda maarif, təlim, təhsil və pedaqoji fikrin inkişafının səciyyəvi xüsusiyyətlərindən biri də kitab evləri və kitabxanalar vasitəsilə pedaqoji biliklərin yayılması, insanların kitablar vasitəsilə maariflənməsi, kitablardan faydalanması olmuşdur.

### *2.3.7. Mədrəsələrdə təhsil*

İslam aləmində cəmiyyətin inkişaf etməsi, insanların biliyə ehtiyacının artması yeni tədris müəssisələrinin açılmasını tələb edirdi. Bu ehtiyacı məscidlər, kuttablar, məktəblər kifayət qədər yerinə yetirə bilmirdi. Buna görə də daha yüksək təhsil verən müəssisələr-mədrəsələr yaradılmağa başlandı.

**“Mədrəsə” ərəbcə “Dərasə” sözündən əmələ gəlib “Dərs öyrənilən yer” mənasını verir. Mədrəsədə həm dini elmlər, həm də dünyəvi elmlər öyrədilirdi.**

Mədrəsələr ilk yarandığı vaxtlarda yəni IX əsrdən başlayaraq çoxu müstəqil şəkildə deyil, məscidlərin, kitabxanaların, tərcümə mərkəzlərinin nəzdində fəaliyyət göstərirdi. IX əsrin əvvəllərində Abbasi xəlifəsi Məmunun əmri ilə Bağdadda təşkil edilmiş “Beytül-hikmə” mərkəzində tanınmış alimlər, bilikli insanlar dərs keçirdilər. IX əsrdə Xorasan və Orta Asiya ərazisində onlarla mədrəsə mövcud idi. Buxara, Nişabur, Qəznə və başqa şəhərlərdə 30-dan artıq iri mədrəsə fəaliyyət göstərirdi. Əksər mədrəsələrin fəaliyyəti vəqf sistemi üzərində qurulmuşdu.

**Dünyada davamlı fəaliyyət göstərən ilk yüksək təhsil ocağı 859-cu ildə Mərakeşin Fəs şəhərində təsis edilmiş Qərəviyyin mədrəsəsi sayılır**.

Burada ilahiyyat elmləri ilə yanaşı, ərəb dili qrammatikası, məntiq, tibb, riyaziyyat, tarix, astronomiya, kimya, coğrafiya və musiqi də tədris edilirdi. Müqayisə üçün deyək ki, avropalılar müsəlmanlardan 240 il sonra – 1088-ci ildə özlərinin ilk dünyəvi ali təhsil ocağını – İtaliyada Bolonya Universitetini təsis etmişlər.

Mədrəsədə dərs deyənlərə “müdərris” deyirdilər. Yəni “Dərs deyən şəxs” mənasını verir. Müdərris bizim indiki ali məktəblərimizdə dərs deyən dosent, professor vəzifəsini əvəz edirdi. Müdərrislərə hakimiyyət tərəfindən böyük hörmət və ehtiram göstərilir, onlara kifayətedici məvacib verilirdi.

Mədrəsədə ikinci şəxs, müdərrisin köməkçisi “Muid”

adlanırdı. “Muid” – “Yenidən yaradan, təkrarladan, dirildən” mənasını verir. Allahın 99 adından biri “Muid”dir. Mədrəsədə Muid mədrəsə tələbələrinin biliklərini təkrar etdirir, ev tapşırıqlarının yerinə yetirilməsinə kömək edir, əlavə məşğələlər aparır.

Mədrəsədə üçüncü şəxs “Vaiz” adlanır. “Cəm olunan yerlərdə elmi, maarifi yayan, Quran və hədislər oxuyan şəxs” anlamına gələn Vaiz mədrəsədə də elmi, maarifi yayır, tərbiyə işləri ilə məşğul olur. O bu günki anlayışla tərbiyəçi vəzifəsi deməkdir. Tələbələrin tərbiyə işlərinin əsas təşkilatçısı hesab olunurdu.

Bundan əlavə mədrəsənin kitabxanaçısı, bir Quran oxumasını öyrədən müəllim, bir ərəb dilini öyrədəcək müəllim olmaq üzrə müəllimlər fəaliyyət göstərirdi.

Mədrəsələrin hər sinfində qrup nümayəndəsi olurdu ki, ona “Xəlifə” deyilirdi.

Mədrəsə müəllimlərinin maaşları vəqf gəlirlərindən ödənilirdi. Müdərrislər, bir növ mədrəsənin baş müəllimləri hesab edilirdilər. Müdərrislərin vəzirləri sultanlar tərəfindən təyin edilirdi. Mədrəsələrin baş müəllimliyinə təyin edilən müdərrislər xüsusilə seçilir, alim və elm sahəsində mükəmməl biliyə sahib olmasına diqqət edilirdi. Mədrəsə müəllimlərinin sadə həyat sürdükləri, vaxtlarını elm öyrətməklə keçirdikləri haqqında xeyli məlumat vardır. Əbdülməlik Xanquşi adlı bir elm adamı Nişaburda şəxsi mədrəsə və xəstəxana inşa etdirən və bunların gəlirlərini qarşılamaq üçün geniş əraziləri vəqf etdirmiş, özü isə sadə bir həyat yaşamışdır.

**Mədrəsələr iki dərəcədə olurdu: ali təhsil verən mədrəsələr və orta təhsil verən mədrəsələr.**

**Ali təhsil verən mədrəsəni** bitirənlər həm dini, həm də elmi biliklərə dərindən yiyələnir, mədrəsə tədris proqramı tamamlanarkən tələbə bir dini kitab yazaraq yüksək elmi rütbə - alim rütbəsi qazanır və bilikli, elmli mütəxəssis kimi məzun olur və yüksək dini vəzifələrdə çalışa bilərdilər.

Mədrəsələrdə konkret təhsil müddəti yox idi. Bu mədrəsələrə 16-17 yaşlarından məktəbi bitirmiş oğlan uşaqları qəbul edilirdi.

Tələbələrin dərsi mənimsəmə səviyyəsindən asılı olaraq təhsil müddəti müxtəlif idi.

6-7 il (daha çox da ola bilərdi) müddətinə ali təhsil verən mədrəsə təhsilini başa vurmaq olardı. Mədrəsələrdə tələbələrin fərdi qabiliyyəti, bilik və dünyagörüş səviyyəsi əsas götürülür və buna müvafiq təlim metodu seçilirdi. Təlim prosesində daha çox müzakirə, dialoq, sual – cavab üsuluna üstünlük verilirdi.

Mədrəsələrdə tələbələrin sinifdən-sinfə keçməsi yerinə, fəndən-fənnə keçmə sistemi tətbiq olunurdu. Çalışqan, bilikli, fəal tələbələr mədrəsəni başqa həmyaşıdlarına nisbətən daha tez də başa vura bilərdilər. Tələbələrin tətili qış və yayda deyil, tələbənin çalışqanlığı, materialları yerinə yetirməsi ilə bağlı həyata keçirilirdi.

Mədrəsə siniflərində tələbələrin sayı 20-dən artıq ola bilməzdi. Bu da dərslərin daha yaxşı mənimsənilməsinə kömək edirdi. Dərs müddəti 40 dəqiqə idi. Mədrəsələrdə hər gün tənəffüslərlə 3, 4 saat, həftədə 4 gün dərs keçilirdi. Dərslər günortaya qədər davam edirdi. Hansı dərsin nə vaxt öyrədilməsini, dərs cədvəlini müəllim özü tələbələrlə birlikdə müəyyənləşdirirdi. Mədrəsənin kitabxanası, yeməkxanası, yataqxanası olurdu. Mədrəsələrdə tələbələrin ümumi sayı 40-50, bəzən daha çox 100-200 nəfərə çatırdı. Şərqdə ən böyük mədrəsələrdən biri Nəcəfdə idi ki, onun 7000 tələbəsi var idi.

Günortadan sonra mədrəsədə tələbələr sərbəst idi, sevimli işləri ilə məşğul olur, kitab üzü köçürür, dərslərə hazırlaşır və s. Həftənin cümə axşamı və cümə günləri tələbələrə istirahət verilirdi.

Mədrəsədə təhsilin ilk mərhələsində ərəb dilinin qrammatikası öyrədilirdi. Buna yiyələnmək üçün azı 2-3 il vaxt ayrılırdı. Qədim Şərq ənənələrini özünəməxsus şəkildə davam etdirən mədrəsələrdə humanitar və dəqiq elmlər öyrədilirdi. Burada tarix, məntiq, dilçilik, ədəbiyyatşünaslıq, ədəbiyyat tarixi, ritorika, riyaziyyat, astronomiya, fizika, təbabət kimi dünyəvi elmlər, daha sonra “Quran”, “Təfsir” (Quranın açıqlanması), “Hədis”, (Peyğəmbərin (s) sözləri və onunla bağlı hekayə və rəvayətlər), “Təcvid” (Quranın düzgün oxunması), “Təftil” (Quran mənasının başa

düşülməsi), fiqh, ilahiyyat elmləri öyrədilirdi.

Mədrəsələrdə dərs kitabı kimi "Quran" və hədis kitablarından başqa ən çox istifadə edilən kitablar Biruninin, İbn Sinanın, İbn Rüşdün, Farabinin, Sədi Şirazinin, Hafizin, Şihabəddin Sührəverdinin əsərləri, daha sonralar, Cəlaləddin Ruminin "Məsnəvi"si, Qətran Təbrizinin, Şəms Təbrizinin, Məhəmməd Füzulinin "Divan"ı, Nizami Gəncəvinin "Xəmsə"si, Nəsrəddin Tusinin "Əxlaqi-Nasiri", "Kəlilə və Dimnə", "Qabusnamə" kimi əxlaqi-mənəvi dəyərli əsərlər öyrədilirdi.

Mədrəsələrdə yalnız din və dünyəvi elmlər deyil, həm də bədən tərbiyəsi, incəsənət dərsləri də keçilirdi. Mədrəsədə üzmə, güləş, qaçış, ox atma, at çapma kimi idman növlərinə fikir verilir və öyrədilirdi. Bunlardan başqa, hüsnxət, xitabət (Gözəl danışıq), bədii estetik fəaliyyətlə bağlı dərslər öyrədilirdi.

Tələbələrə imla yazdırmaq, onların mətni oxuyub şərhini və izahını vermək, elmi mübahisə və müzakirələr aparmaq tədrisdə geniş yayılmış öyrətmə metodları idi. Tələbələrin biliklərini yoxlamaq üçün ümumiləşmiş məşğələlər və imtahanlar keçirilirdi. Mədrəsələrdə tədris ərəbcə və bir çox hallarda isə fars dilində aparılırdı. Orta əsrlərdə fars dili Azərbaycanda feodal dövlətlərinin rəsmi dili idi. Amma, şərhlər və izahat işləri ana dilində aparılırdı.

Mədrəsələrdə təhsil pulsuz idi. Mədrəsələrin pansionu var idi ki, ehtiyacı olan tələbələr orada qala bilir, gecələyir, dərslərini hazırlayır, yeyir, istirahət edirdi. Mədrəsədə tələbələrə müəyyən miqdarda təqaüd də verilirdi.

Hər mədrəsənin müdiri var idi ki, onlar Şərq ölkələrində -Bağdadda, Nəcəfdə, Tehranda, Mərvdə, Təbrizdə, Səmərqənddə, Buxarada, İstanbulda təhsil almış yüksək rütbəli ilahiyyatçılar idilər.

Orta təhsil verən mədrəsələrə isə əsasən 11-12 yaşlı uşaqlar qəbul edilirdilər. Bu mədrəsələrdə təhsil müddəti bir qədər az – yəni 4-5 il, tədris proqramları isə bir qədər sadələşdirilmiş formada idi.

Orta təhsil verən mədrəsələrdə də həm dini, həm də dünyəvi elmlər öyrədilirdi. Dini elmlər sırasında Quran və onun təfsiri, ərəb

dili, hədislər, kəlamlar, şəriət, islam tarixi- dünyəvi elmlər sırasında isə təbiət fənləri, coğrafiya, elm nücum (astronomiya), riyaziyyat öyrədilirdi.

Orta əsrlər dövründə Şərqdə və o cümlədən Azərbaycanın müxtəlif yerlərində **ixtisas təmayüllü mədrəsələr** də açılmağa başladı.

***Darül hədis mədrəsələri:*** Bu, hədisləri öyrənən, toplayan, tədqiq edən bir mədrəsə idi. Belə bir mədrəsə Mosulda, daha sonralar Təbrizdə açılmışdır. Buranı bitirənlərə "mühəddis" adı verilirdi, yəni "hədis söyləyən şəxs" deməkdir.

***Darül kurra mədrəsəsi.*** Bu mədrəsədə "Qurani-Kərim"lə bağlı elmlər öyrədilirdi. Bunlara "Darül hüffaz" da deyilirdi. Buranı bitirənlərə "Hafiz", "Xətib" "Müəzzin" kimi adlar verilir və məzunlar məscid və camelərdə vaiz və müxtəlif vəzifələrdə çalışa bilərdilər.

***Darül tibb mədrəsələri.*** Bu, tibb mədrəsələri idi. Bunlara Darül-şəfa, Darül-sihha, Darül-mərza, Darül-afiyə, Maristan, Bimaristan mədrəsələri də deyilmişdir. Böyük Azərbaycan şairi Xaqaninin əmisi Kafiəddin Ömər İbn Osmanın rəhbərliyi ilə XII əsrdə Şamaxı yaxınlığında Məlhəm adlı bir yerdə "Mədreseyi –tibb" adlı mədrəsə fəaliyyət göstərmişdir

### *2.3.8. "Nizamiyyə" mədrəsələri*

Şərqdə o cümlədən Azərbaycanda təhsilin, maarif və mədəniyyətin, pedaqoji fikrin inkişafında **XI əsrdə açılmış "Nizamiyyə" mədrəsələrinin xüsusi əhəmiyyəti olmuşdur.**

Bu mədrəsələrin əsası türk sultanı Alp Arslanın və Məlikşahın vəziri Nizam əl-Mülk tərəfindən qoyulmuşdur. **Nizamiyyə mədrəsəsinin təməli 1064-cü ildə Dəclə çayı sahilində qoyulmuş və 1066-cı ildə tamamlanmışdır.**

Nizam əl-Mülk (1018-1092) tərəfindən inşa edilən onun şərəfinə adlandırılan Nizamiyyə mədrəsələri islam ölkələrində təlim birliyi, mənəvi və mədəni bütünlüyü, ölkəni idarə etmək üçün ağıllı, bilikli, tədbirli dövlət adamlarının, din başçılarının, təfəkkür

adamlarının yetişdirilməsini təmin etmək məqsədi güdürdü. Bu səbəbdən Nizamiyyə mədrəsələrinə dövlətin ilk rəsmi tədris müəssisəsi kimi baxmaq lazımdır.

Mədrəsənin dövlət müəssisəsi sayılması üçün onun dövlət tərəfindən təsdiq edilmiş müəyyən bir proqramı olmalı idi və mədrəsəni bitirənlərə isə dövlət tərəfindən vəzifə verilməsi lazım idi. Bu şərtləri daşımayan mədrəsələr rəsmi dövlət mədrəsəsi sayıla bilməzdi və sərbəst təlimlə məşğul olan mədrəsə sayılırdı. Nizamiyə mədrəsələri isə məhz yuxarıda deyilən şərtlərə cavab verir və dövlət səviyyəsində olan ali təhsil müəssisəsi və ya universitet sayılırdı.

Mədrəsədə təlim metodu əsasən dialoqlar, sual-cavab, şərh, izah, mühazirə, elmi müzakirə və mübahisələr, əzbərləmə idi. Müəyyən bir kitabın oxunub bitirilməsi vacib idi. Bu da müəllim və tələbənin bilik və qabiliyyətlərinə əsasən dəyişilirdi. Müdərrislər dövrün ən bilikli və əxlaqlı adamlarından xüsusi imtahanla qəbul edilir və ölüncəyə qədər bu vəzifədə işləyə bilərdilər. Müdərrislər təlim metodu seçməkdə, dərsini qurmaqda sərbəst idilər. Bir çox müəllimlər, o cümlədən burada 40 il dərs deyən və buranın zəngin kitabxanasının müdiri **Xətib Təbrizi (1030- 1109)** tələbələrinə keçdiyi mövzuya dair əlavə kitablar və öz əlyazmasını verirdi. Bu əlyazmaların üzü tələbələr tərəfindən gözəl xətlə köçürülürdü. (Mədrəsədə təhsil alanlara tələbə deyilirdi. **“Tələbə” ərəb sözü olub “Elm tələb edən” mənasını verir)**. Müdərrislərin mədrəsədəki akademik fəaliyyətləri çox ciddi idi. **Nə səbəb olursa olsun dərsin boş keçilməsinə bəraət qazanılmaz və buna heç vaxt izn verilməz, hətta fasilə zamanları belə cənazə mərasimlərinə qatılmaq belə uyğun görülməzdi.** Müdərrislərin elmi və əxlaqi keyfiyyətləri haqqında bəzi mənbələrdə onların-bilikli, dindar, əxlaqlı, ağır təbiətli, evli, fəzilətli və müdrik olması əsas şərt hesab olunmuşdur**.**

**Müdərrislərin “Muid” deyilən bir köməkçiləri də var idi**. Onlar tələbələrə dərslərini öyrənməkdə tapşırıqları yerinə

yetirməkdə tələbələrə köməklik göstərirdilər. Müid vəzifəsinə çatmaq üçün məzunun "Təməssük" adlı sənədi olmalı idi ("Təməssük"-"Qiymət cədvəli") ki, bu sənəddə onun müəyyən olunmuş fənləri keçdiyi və müvəffəq qiymət alması göstərilirdi. O bilikli, təcrübəli və təşkilatçı olmalı idi. Öyrətmə və öyrənmə metodlarına yaxşı yiyələnməli idi.

Nizamiyəyə əsasən yaşı iyirmiyə qədər olan gəncləri imtahan - müsahibə yolu ilə qəbul edirdilər. Təhsil müddəti əsasən dörd, beş il idi. Lakin tələbələr istədikdə bu müddət qurtarandan sonra da dinləyici kimi mühazirələrdə iştirak edə bilərdi. Mədrəsəyə tutduğu ictimai mövqedən asılı olmayaraq hər kəs qəbul edilə bilərdi. Lakin bu müəyyən edilmiş normanı keçməməli idi.

Nizamiyə mədrəsəsində təhsil alan tələbələr məccani oxuyur, onlara təhsil məqamlarına görə xüsusi adlar verilirdi.

Mədrəsəni tələbələr o zaman bitirirdilər ki, onlar keçilən fənlərin hamısını yaxşı mənimsəyir və müəllimlər onların biliklərini "Kafi" (Kifayət) hesab edirdilər. Tələbələr mədrəsədən müəyyən edilmiş imtahanları müvəffəqiyyətlə verdikdən və bir dini kitab yazdıqdan sonra "Alim" rütbəsi qazanaraq məzun olur və məzunlara "İcazətnamə" adlı sənəd verirdilər. Bu sənəddə tələbənin keçdiyi fənlər, qiymətləri və müəllimlərinin adları yazılırdı. Nizamiyyə mədrəsəsində tələbələrə təhsil müddətində təqaüd, yemək, xüsusi geyim verilir və mədrəsənin pansionunda qala bilmək hüququ verilirdi. Nizamiyyədə dərslər sadədən mürəkkəbə, asandan çətinə, ümumidən xüsusiyə prinsipi əsasında qurulurdu. Bağdad mədrəsəsini digərlərindən ayıran əsas xüsusiyyət, tələbələrin elm, təhsil işində daha çox müstəqil çalışmaları idi. Burada tələbələr müşahidə aparır, təcrübələr keçirir, məlumatlar toplayır, nəticələrin səbəblərini araşdırır, kitab üzərində çox çalışırdılar. Müəllimlərə dərs üslubu seçməkdə, mühazirə oxumaqda tam sərbəstlik verilirdi. Bununla bərabər onlar ümumi pedaqoji qaydalardan və mədrəsənin ümumi qanunlarından kənara çıxa bilməzdilər. Müəllimlər yalnız öz ixtisasları üzrə mühazirələr oxuya bilərdilər ki, hər bir

mühazirənin də müddəti iki saatdan ibarət olurdu. Onlar əksər hallarda tələbələrə öz kitablarından dərs verirdilər.

Nizamiyyənin müəllimləri xüsusi paltar geyməli və bununla da başqalarından fərqlənməli idilər. Nizamiyyə mədrəsəsinin zəngin kitabxanasında 80.000 kitabın olduğu qeyd edilməkdədir. Bu kitabxananın müdiri  Azərbaycan alimi **Xətib Təbrizi** idi.

Dövrün ən böyük alimləri Nizamiyyədə dərs demək üçün bura dəvət edilmişdir. Hinduşah Naxçıvani göstərir ki, **Nizamiyyə mədrəsəsi tamam olan kimi Nizam əl-Mülk Azərbaycan alimi Xətib Təbrizini mədrəsəyə dəvət etmiş və o 40 il bu mədrəsədə dərs demiş, buranın zəngin kitabxanasının müdiri olmuşdur**.

Nizamiyyə mədrəsəsində dərs deyən Azərbaycan alimlərindən biri də böyük şair, mütəfəkkir **Şihabəddin Əbu Həfs Ömər Məhəmməd oğlu Sührəverdi** olmuşdur (1145-1235). O, 1145-ci ildə Zəncan yaxınlığında yerləşən Azərbaycan şəhəri Sührəvərddə doğulmuş və "Sührəverdiyyə" təriqətinin əsasını qoymuşdur.

Nizamiyyə mədrəsəsinin məzunları olmuş bir çox azərbaycanlı alimlər də vardır:

**Həkim ibn İbrahim ibn Həkim əl-Ləkzi əl-Xınalıqi Dərbəndi** əslən indiki Quba rayonunun Xınalıq kəndindən olan bu alim fəziləti, abidliyi, müdrikliyi və nəcibliyi ilə tanınmışdı. Bağdad Nizamiyyə mədrəsəsində təhsil almış, Əbu Hamid Qəzzalinin tələbəsi olmuş, İmam Müvəffəq ibn Əbdülkərim əl-Hərəvidən də dərs almışdır. Bir çox mühəddisdən hədis dinləmişdir. Ömrünün son iki ilini Buxarada yaşamış və h. 538-ci il şəvval ayının 12-si (17 aprel 1144) vəfat etmişdir.

XII əsrdə yaşamış, farsca şerlər yazıb yaradan, Gəncədə doğulub, böyüyən **Əbu Həfs Ömər Gənzi (Gəncəli)** Nizamiyyə mədrəsəsinin məzunu olmuş, sonra bir müddət burada da dərs demişdir. Yaqut əl-Həməvinin məlumatına görə o ədəbiyyatı məşhur alim Əbül Müzəffər əl-Əbiverdidən öyrənmiş və fazil ədib kimi yetişmişdir. Bağdadda, Həmədanda, Xorasanda xeyli hədis toplamış və onları nəql etmişdir. O Bağdad Nizamiyyə mədrəsəsini

bitirdikdən sonra vətəni Gəncəyə qayıtmış, sonra isə Nişaburda vəzir Fəxrül-kün övladlarına dərs vermişdir. Mərv şəhərində təxminən 70 yaşında ikən vəfat etmişdir. Nizamiyyə mədrəsəsinin azərbaycanlı məzunları sırasında habelə **Əbdül Həsən Bərdəyi, Cavid Marağai, Süleyman Təbrizi** və başqaları da olmuşdur.

**"Bədi" ləqəbi ilə məşhur olan Əbül Müzəffər Əbdüssəməd İbn Zəncani (... 1158), Əbubəkr İbn Şirvani, Əlaəddin Məhəmməd İbn Əhməd Səlmasi (...1240)** və başqaları da olmuşdur. Böyük şairimiz **Xaqani Şirvani** də "Nizamiyyə" mədrəsəsində olmuş, buranın böyük alimləri ilə, tələbələri ilə görüşmüş, xəlifənin vəziri Camaləddin İsfahani ilə tanış olmuş, mədrəsə alimləri ilə elmi müzakirə və söhbətlər keçirmişdir. Bağdad xəlifəsi Xaqanini öz sarayına ən yüksək vəzifəyə - vəziri olmağa dəvət etmiş, amma şair vətəninə qayıtmağı üstün hesab etmişdir.

Ensiklopedik biliklərə malik olan **Qəzzalinin** şöhrəti bu dövrdə hər yerdə yayılmışdı. Nizamülmülk onu "Nizamiyyə"yə müəllim kimi Bağdada dəvət etmişdir. Qəzzali 1091-1095-ci ilədək orada tədrislə məşğul olmuşdur. Lakin, 1095-ci ildə onun təfəkkü-ründə dəyişiklik baş vermiş, buna görə də o, dünyəvi-aləmdən əl çəkərək Beytül-müqəddəsə, Məkkəyə və Şama səfərlər etmişdir. Bütün bu müddət ərzində o, tək-tənha surətdə ibadətlə məşğul olmuşdur. Onun əsərləri sırasında "Nəsihətül-müluk", "Kimyaye-səadət", "Ehya Ülumüddin", "Təhafəül-fəlasüfə", "Əlmüntəqez Minzəlal", "Məqasidül-fəlasüfə" xüsusilə seçilir.

"Nizamiyyə" mədrəsəsindən danışarkən onun təsisçisi, yaradı-cısı Əbu Əli Həsən ibn İshaqını – başqa sözlə Nizam əl Mülkü xatırlamamaq qeyri-mümkündür. Çünki bu şəxs orta çağlar İslam Şərqinin görkəmli elm təşkilatçısı, incəsənətin müxtəlif sahələrinin inkişafına himayəçilik etmiş dövlət xadimi idi. O, Xorasanın Tus şəhərində anadan olmuş, Səlcuq sultanları Alp Arslanın (1063-1072) və Məlikşahın (1072-1092) vəziri vəzifəsini icra etmiş, Səlcuq dövlət aparatının yaranması və inkişafında mühüm rol oynamışdır. Mübaliğəyə yol vermədən demək olar ki, vəzirliyi

dövründə imperiyanı əslində Səlcuq sultanları deyil, Nizamülmülk idarə edirdi. Bu dövrdə elmin və mədəniyyətin inkişafına dövlət səviyyəsində verilən düzgün istiqamət islamiyyətin yayıldığı hər yerdə elmin və mədəniyyətin inkişafı üçün əlverişli şərait yaratmışdı.

Nizamülmülk elmi, maarifi yaymağı sayəsində dövlətin qüdrətlənməsinə nail olmuşdur. O, 12 min adama dövlət xəzinəsindən maaş ödəmişdi. Qaynaqlar bu adamların "elm və irfan" sahibi adamlar olduğunu qeyd edir. Elm və irfan sahiblərinə dövlətin dəstək verməsi ənənə halını almışdır. Məlumatlara görə, Nizamülmülk fəqihlər üçün elm ocağı, alimlər üçün məktəb, zahid və yoxsullar üçün isə bağ saldırdı. Onların hamısına təqaüd təyin etdi. Bu xərclər onların yemək-içməyindən əlavə olaraq ödənilirdi. Bu, Səlcuq imperiyasında dəb halını aldı. Bu işlər üçün hər il 600 min dinar xərclənirdi. Sultan Məlikşah dövründə Səlcuq sultanının xəzinəsindən hər il 300 min dinar elm və elm adamlarına xərclənirdi. Nəzərə alsaq ki, elm adamları öz maaşlarını mədrəsələrdən alırdılar, o zaman dövlətin ayırdığı bu məbləğin elmə və elm adamlarına əlavə kömək olduğu ortaya çıxmaqdadır. Bir mədrəsənin illik qazancı 80 min dinar olduğuna görə, Səlcuqlar dövründə ən böyük pulun təhsilə xərcləndiyi ortaya çıxmaqdadır. Bu da Səlcuqların mədəniyyətə və elmə verdikləri qiyməti təsdiq edən ən mühüm dəlillərdən biridir.

**Nizamiyyə mədrəsələrinin iki məqsədi olmuşdur: 1. Elm və təhsilin inkişafı; 2. Oxumaq imkanı olmayan, yoxsul uşaqlara təhsil vermək.**

"Nizamiyyə"lərin şöhrəti, xüsusilə Bağdad "Nizamiyyəsi" və onun bir çox üstünlükləri alimlərin diqqətini həmin tədris ocağına cəlb edirdi. Onlar elmi araşdırmalarda özünü təsdiq etmək, sultana yaxud xəlifəyə yaxın olmaq, həmin məktəbin üstün cəhətlərindən bəhrələnmək məqsədilə burada fəaliyyət göstərməyi özləri üçün fəxr hesab edirdilər. Bağdad "Nizamiyyə"sində tədrislə məşğul olmaq hər bir islam aliminin arzusu olmuşdur.

“Nizamiyyə” mədrəsələrinin təsis edilməsi, hökmdarların təlim-tərbiyə mərkəzlərinə diqqəti alimlərdə elmə, pedaqoji fəaliyyətə maraq oyatdı. Sultanların, hakimlərin, məmurların bəziləri axirət dünyası savabını qazanmaq naminə, bəziləri isə ictimai mövqe əldə etmək məqsədilə təhsil müəssisələri açmağa, inkişaf etdirməyə can atırdılar. Bəzi şəxslər isə sadəcə olaraq rəqabət aparmaq üçün bu fəaliyyətə qoşulurdular.

Səlcuq təhsil sisteminin dünya təhsil sisteminə gətirdiyi yenilik müəllim-tələbə münasibətidir. Müəllim tələbənin problemi ilə maraqlanır, onun dərs xaricində üzləşdiyi çətinlikləri həll edirdi. Səlcuq dövrü mədrəsələrinin, ümumiyyətlə, Səlcuq təhsil sisteminin diqqət çəkən və yenilikçi tərəfi tələbənin təqaüd və evlə təmin edilməsidir. Yəni oxumaq və təhsil pulsuz idi. Tələbənin təhsil alması, elm adamı olması üçün savaddan başqa heç bir şeyə ehtiyacı yox idi.

Nizamiyyə mədrəsələri Bağdaddan başqa Nişaburda, Dəməşqdə, Mərvdə, İsfahanda, Mosulda, Xuzistanda, Xorasanda, Ərdəbildə, Təbrizdə də yaranmış və XV əsrədək fəaliyyət göstərmişdir. Bu mədrəsələr digər yerlərdə də mədrəsələrin yaranmasına təsir göstərmiş və Azərbaycan ərazisində də ali təhsil verən mədrəsələrin açılmasına təsir göstərmişdir.

### *2.3.9. Azərbaycanda ilk ali təhsil verən mədrəsələr*

Mədrəsələrin istər Şərq aləmində və istərsə də Azərbaycanda dəqiq nə vaxt, harada açılması barədə alimlərimiz bu barədə müxtəlif fikirlər söyləmiş, müxtəlif tarixlər göstərmişlər.

Mədrəsələr, əsasən böyük şəhərlərdə məscid və camelərin, vəqfi olan kompleks məqbərələrin, tarixi abidələrin, türbələrin nəzdində yaradılırdı. Mədrəsələrdə dini və dünyəvi elmlər (ərəb və fars dilləri, şəriət, ədəbiyyat, fəlsəfə, məntiq, psixologiya, astronomiya, coğrafiya, həndəsə, cəbr və s.) tədris edilirdi.

X əsrin ikinci yarısından etibarən bütün islam ölkələrindən, o

cümlədən Azərbaycandan da bir çox ziyalılar, elm həvəskarları mədrəsə təhsili almaq üçün Bağdad mədrəsələrinə gedirdilər. **Əl-Tiflisi, Əbül-Həsən İbn Harun əl-Zəncani** kimi Azərbaycan alimləri vaxtilə Bağdad mədrəsələrində təhsil almış və sonra da bu şəhərdə qalıb çalışmışlar.

Bundan əlavə 962-ci ildə Qahirə şəhərinin "Əzhər" adlı came məscidində təşkil olunmuş Əzhər mədrəsəsi də o zaman ümum-islam ölkələri üçün əsas tədris ocağı olmuşdu.

**XII əsrdə** Azərbaycanda mədrəsə təhsili görmüş bir çox alim və ziyalıların, şairlərin adlarına rast gəlmək olur. Belə ki, **Əbül Üla Gəncəvi, Fələki Şirvani, Xaqani Şirvani, Məhsəti Gəncəvi, Nizami Gəncəvi** kimi böyük Azərbaycan mütəfəkkirləri mədrəsə təhsili görmüş və şöhrətlənmişlər. Belə bir tarixi həqiqətin mövcud-luğu onu deməyə əsas verir ki, şübhəsiz XII əsrdə Azərbaycanın iri inkişaf etmiş, ticarət mərkəzləri olan, ipək yolu keçən şəhərlərdə, kompleks tarixi məqbərələri və vəqfləri olan məkanlarda mədrə-sələr yaranıb fəaliyyət göstərmişdir.

Naxçıvandakı məktəb və mədrəsələr, xüsusilə XII əsrdə Ata-bəylər dövlətinin başçısı Atabəy Şəmsəddin Eldənizin dövründə (hakimiyyəti 1136-1125) inşa edilən mədrəsələr Yaxın Şərqdə ta-nınmış və böyük şöhrət tapmışdır. Şəmsəddin Eldəniz ölkəsində məktəb və mədrəsələrin şəbəkəsini genişləndirmək üçün bir sıra tədbirlər həyata keçirmiş, məscid və camelər, məqbərə və türbələr, inşa etdirmişdir. Memar Əbubəkr Əcəmi Naxçıvaninin bu dövrdə yaratdığı və Yaxın Şərqdə şöhrət tapdığı memarlıq abidələri buna misaldır.

XII əsrdə Naxçıvanda ali təhsil verən iki mədrəsənin olması haqqında mənbələrin məlumatı diqqətəlayiqdir. Bu mədrəsələri Azərbaycan ərazisində yaradılan ilk mədrəsə hesab etmək olar!

Belə ki, Naxçıvan ərazisindən keçən böyük karvan yolları bu diyarda ən qədim zamanlardan etibarən Şərq və Qərb maarif və mədəniyyətinin inkişafına öz təsirini göstərmişdir. Hələ XII əsrdə Atabəylər dövlətinin paytaxtı olan Naxçıvanda indiki mənada

universitet statusuna malik olan iki mədrəsənin mövcud olması və bu mədrəsələrdə Şərq məktəb tipi prinsipləri ilə yanaşı, dünyəvi elmlərin - həndəsə, riyaziyyat, astronomiya, coğrafiya kimi fənlərin öyrədilməsi mənbələrdə göstərilmişdir.

Naxçıvanda XII əsrin məktəb və mədrəsələrinin tarixinə dair, onların inkişafına dair dəyərli sənədlərdən biri "Təqrir-i tədris-i mədrəseyi Naxçıvan əz inşa mərhum Şəmsəddin Sahib-Divan" ("Mərhum Sahibi Divan Şəmsəddinin inşa etdirdiyi Naxçıvan mədrəsələrinin tədrisi təqdirinə dair") adlı Fərmandır.

Bu Fərman 1263-1284-cü illər arasına təsadüf edir. Fərman Atabəylər dövründə Sultan Şəmsəddin Eldənizin Naxçıvanda inşa etdirdiyi mədrəsələr, onların təmiri, bir çoxunun bərpası və inkişaf etdirilməsi haqqındadır.

Fərmanda həmçinin Naxçıvan mədrəsələrində təhsilin məzmununa, müdərrislərin və tələbələrin hüquq və vəzifələrinə dair dəyərli məlumatlar da vardır.

Bu mədrəsələrin tarixi Fərmanda qeyd edildiyi kimi 1186-cı ildə Əcəmi yadigarları olan Möminə Xatın və 1162-ci ildə inşa edilmiş Yusif İbn Küseyr türbəsinin tarixinə müvafiqdir. Buradakı mədrəsələr bu abidələr kompleksinə daxil olmuş və onların vəqfləri, gəliri hesabına maliyyələşmiş və öz fəaliyyətini qurmuşlar. Məlum olur ki, Şərqdə məktəb və mədrəsələrin bir çoxu məscidlər və məqbərələr yanında təşkil edildiyindən onların bütün xərcləri də məscid və ya məqbərənin vəqfləri hesabına ödənilirdi.

Mədrəsələrin məqbərələr və məscidlər kompleksinə daxil olmasının xüsusi mənası var idi. Bu, bir tərəfdən, tədris və tərbiyə sahəsində dini məfkurənin təsirini artırmaq, digər tərəfdən isə mədrəsənin maliyyəsini, xərclərini mənsub olduğu məqbərənin, məscidin vəqfləri hesabına təmin etmək zərurətindən irəli gəlirdi. Naxçıvan mədrəsələrinin də Möminə Xatın məqbərəsi vəqflərinin gəliri hesabına idarə olunduğu bilinməkdədir.

Yuxarıda adı qeyd olunan Fərmanın əhəmiyyəti təkcə mədrəsə tarixinə dair məlumat almaqla bitmir. Burada mədrəsə həyatına dair

dəyərli məlumatlar vardır. Belə ki, burada mədrəsənin quruluşu, təhsilin məzmunu, müdərris və tələbələrin hüquq və vəzifələri göstərilməklə yanaşı ilk dəfə olaraq mədrəsədə "Ədəb qaydaları" haqqında məlumat verilir. Ədəb qaydalarında müdərrislər qarşısında xüsusi tələblər qoyulur və tələb olunan qaydalara ciddi əməl olunması göstərilir:

Müdərris çalışqan tələbələri öz ruhani oğlu hesab etməlidir. Tədris və təlim zamanı şagirdlərə əziyyət verməməli, onları yormamalıdır. Tələbələrin təbiəti, istedadı və bilik dərəcəsi müxtəlif olduğundan müdərris hər tələbənin fərdi xüsusiyyətlərini nəzərə alaraq ona fənn təyin etməli və onun şəxsi xüsusiyyətlərinə müvafiq dərs verməlidir. Müdərris dərsləri asan, anlaşılacaq bir tərzdə aparmalıdır. Tələbələrin hafizəsinin qüvvətləndirilməsi və dərsin yaxşı mənimsənilməsi üçün ehtiyac yaranarsa müzakirə və mübahisə üsulundan istifadə edilməlidir. Həftədə bir dəfə keçirilən dərslərin müzakirəsini keçirməli, dərslərin keyfiyyətini və tələbələrin mənimsəmə səviyyəsini öyrənmək üçün isə ayda bir dəfə imtahan təşkil edilməlidir.

Mədrəsədə oxuyan tələbələr üçün də onların aşağıdakı tələblərə əməl etməsi nəzərdə tutulmuşdur:

1. Elm - təhsil etmək istəyən tələbə tənbəllik və səhlənkarlıq etməməlidir. Dərsləri təkrar etməkdən yorulmamalıdır.
2. Dərs zamanı diqqətli olmalıdır. Anlaşılmayan məsələyə dair sual verməkdən çəkinməməlidir.
3. Tələbələr keçmiş dərsi möhkəm mənimsəmədən yeni dərsə keçməməlidirlər.
4. Tələbələr yalnız elm-təhsil ilə kifayətlənməyib, eyni zamanda əxlaq təmizliyinə, doğruluğa diqqət yetirməlidirlər.

Bu mədrəsədə dini elmlərlə yanaşı dünyəvi elmlərə geniş yer verilmişdir. Dərslər mütəşəkkil, kollektiv şəkildə təşkil olunmuş, vaxt bölgüsünə, təhsil müddətinə, vaxtına ciddi əməl edilmişdir. Deyə bilərik ki, burada keçirilən təlim tərbiyə prosesi, ümumilikdə pedaqoji proses orta əsr mədrəsələri üçün xarakterik cəhətlərdir.

📖 📖 📖

Azərbaycanda məktəb və maarifin sürətlə inkişafı XII əsrin sonları, XIII əsrin əvvəllərində daha açıq - aydın özünü göstərir. XII əsrin sonlarından başlayaraq Azərbaycanda məktəb və mədrəsə təhsili nisbətən daha sürətlə inkişaf edirdi.

**XIII əsrin birinci 20 illiyində Təbriz, Marağa, Xoy, Səlmas, Urmiya, Mərənd, Ərdəbil, Bərdə, Gəncə, Beyləqan, Naxçıvan, Bakı və Şəkidə mədrəsələr yaranıb geniş fəaliyyət göstərməyə başlayır.**

XIII əsrin əvvəllərində yaşamış böyük səyyah, alim Yaqut Həməvi "Mucəm əl-buldan" əsərində göstərir ki, Ərdəbildə bütün elmlər üzrə xeyli alimlər var idi. Demək xeyli alimləri olan bir şəhərdə mədrəsə olmaya bilməzdi. Yaqut Həməvi Təbriz, Xoy, Səlmas, Urmiya, Mərənd, Ərdəbil, Bərdə, Şirvan, Gəncə, Beyləqan, Naxçıvan, Bakı, Şəki şəhərlərindən danışarkən bu şəhərlərdə mədrəsələr, xanəgahlar, ədiblər, şairlər, mühəddislər, fəqihlər olduğunu göstərmişdir.

**XIII əsrin ikinci yarısında** Nəsrəddin Tusinin yaratdığı Marağa rəsədxanası və burada "Böyük riyaziyyat məktəbi" adlanan yüksək təhsil verən mədrəsə Şərqin ən mühüm elm və tədris mərkəzi olmuşdur. Buranın zəngin kitabxanası olmuşdur ki, Bağdad, Şam, Musel və Xorasanda olan ən qiymətli kitablar Marağa kitabxanasına köçürülmüş və burada Çindən, Hindistandan gəlmiş tanınmış alimlər müdərrislik etmişlər.

Tusinin özü də Marağa mədrəsəsinin müdərrisi kimi qiymətli elmi mühazirələr söyləmiş, burada yeni elm adamları yetişmişdir. Tusinin yanına təhsil almaq üçün hətta müxtəlif yerlərdən də müdavimlər gəlmişdir. Onların içərisində, görkəmli şair, söz ustası Hümam Təbrizi də (vəf.1314) olmuşdur.

**XIV əsrin əvvəllərində** Azərbaycan şəhərlərində fəaliyyət göstərən təhsil ocaqlarından biri də Bakı Cümə məscidi yanında tikilmiş (1301) mədrəsə, Molla Əhməd məscidi, Molla Nəsrullah

məscidi idi ki, onlar uzun illər fəaliyyət göstərmişdir.

**Azərbaycanda Məhəmməd Qazan xan hakimiyyəti (1295-1304) dövründə Qazan xan ölkəni dirçəltmək və inkişaf etdirmək üçün ilk növbədə elmə, maarif və mədəniyyətə xüsusi diqqət və əhəmiyyət vermişdir.** Özünə baş vəzir dövrünün böyük alimi azərbaycanlı Fəzlullah Rəşidəddini (1248-1318) təyin etmişdir. Qazan xanın dövründə xeyli məscid, mədrəsə, xanəgah və digər xeyriyyə müəssisələri tikilmişdir.

Təbriz yaxınlığında Şam (Şənb) adlanan yerdə **XIV əsrdə Qazan xanın təşəbbüsü ilə tikilmiş məktəb və mədrəsələri, uşaq bağçasını, rəsədxana, kitabxana, xəstəxananı, təsərrüfat müəssisələrini özündə cəmləşdirən "Əbvab-əl-Bərr" ("Xoşbəxt-lik qapısı") adı ilə böyük elm -tədris mərkəzi, təhsil şəhərciyi yaradılmışdı ki, buna "Rəşidəddin şəhristanı" və ya "Rəb`e Rəşidi" deyilmişdir.**

**"Rəb`e Rəşidi"də "Şafe" və "Hənəfiyyə" mədrəsəsində 450-dən çox müəllim çalışırdı ki, onlar 7000 tələbənin təhsili ilə məşğul olurdular.** Bu mədrəsələrdə təlim məşğələləri və tərbiyə işləri Şafeyyə və Hənəfiyə dini cərəyanlarına uyğun olaraq özlərinə məxsus metod və prinsiplərlə aparılırdı. Hər bir mədrəsənin ayrı-ayrı müdərrisləri, müəyyidləri (müdərrisin müavini), tələbələri, xidmətçiləri var idi. Burada elm və tədris işləri üzrə vəzifə tutanlar dövrün ən tanınmış alimləri idilər ki, onlara yüksək maaş verilir, onlar orada yaşayır və ciddi zərurət olmadan mədrəsəni tərk edə bilməzdilər. Ciddi nizam-intizam var idi. Heç bir səbəb dərs bura-xılmasına əsas ola bilməzdi. Bu mədrəsəyə Çindən, Hindistandan, Türküstandan, ərəb ölkələrindən də müəllim və alimlər gəlirdilər.

Rəbb Rəşidi mədrəsəsində İran, Hindistan, Çin, Misir, Bizans və başqa ölkələrdən gətirilmiş 60 min qiymətli əlyazmasını özündə birləşdirən zəngin kitabxana var idi. Burada kitab sənəti ilə bağlı onlarla xəttat, mütərcimlər, mücəllidlər (cildçilər), müstənsixlər (nüsxə çıxaranlar) çalışırdılar. Rəşidəddin öz əsərlərinin bir nüsxə-sini bu kitabxanaya hədiyyə vermişdir. Bu dövrdə Rəşidəddinin

məşhur “Came ət-təvarix” əsəri də yazılmışdır.

Rəbb Rəşidi dünya tarixində məşhur elm və mədəniyyət mərkəzi olmuşdur. Bununla bərabər Rəbb Rəşidi sənətkarlığın, inkişaf etdiyi bir mərkəz kimi də şöhrət tapmış müxtəlif ölkələrlə olan ticarətin inkişafında mühüm rol oyanmışdır. Burada otuz min ev, iyirmi dörd karvansara, min beş yüz dükan, həmçinin yun, parça karxanası, zərbxana, rəngsazlıq emalatxanaları və s. olmuşdur.

Rəbb Rəşididə üç mərtəbəli mehmanxana, xanəgah, məscid, hamam, su anbarı və bir sıra digər binalar var idi. Həmin binalar orta əsr Şərqinə məxsus memarlıq üslubunda tikilmişdir.

**Artıq XIV əsrdə Azərbaycanın bir çox yerlərində mədrəsələrin şəbəkəsi xeyli genişlənmişdi.** Bakıda 1301-ci ildə Cümə məscidinin nəzdində böyük bir mədrəsə tikilib fəaliyyət göstərmişdir. 1312 – 1314-cü illərdə əsası qoyulmuş Şamaxı mədrəsəsi də sonradan universitetə çevrilmiş, ali təhsil vermiş və burada elmin müxtəlif sahələri tədris olunurdu.

**XV əsrdə Azərbaycan şəhərlərində xüsusilə Təbrizdə mədrəsə şəbəkəsi xeyli inkişaf edərək genişlənmişdir.** Burada “Qazaniyyə”, “Qiyasiyyə”, “Fələkiyyə”, “Dəməşqiyyə”, “Məqsudiyyə”, “Nəsriyyə”, “Müzəffəriyyə “ mədrəsələri fəaliyyət göstərmişdir.

**“Müzəffəriyyə” mədrəsəsi Qaraqoyunlu dövlətinin başçısı Müzəffərəddin Cahan Şah tərəfindən arvadı Bəyim Xatunun şərəfinə inşa edilmiş came məscidində yaradılmışdır.** Cahan Şah tərəfindən inşa edilmiş **“Müzəffəriyyə” və ya “Göy məscid”** kimi tanınan bu məscid Təbrizin incisi aldanmışdır. Elə bu məsciddə də iki qəbir vardır ki, biri Cahan Şahın qəbri, digəri arvadı Bəyim Xatunun qəbridir. Cahan Şah dövrünün ən görkəmli abidəsi 1467–ci ildə tamamlanmış və Müzəffəriyyə memarlıq kompleksi adı ilə Şərqin ən məşhur və gözəl abidəsi hesab olunmaqdadır. Bu kompleksin tərkibinə cümə məscidi, xanəgah, kitabxana, mədrəsə, türbə və digər tikililər daxil olmuşdur. Kompleksin qərb hissəsində isə Cahan Şah hamamı yerləşmişdir. Bu nəhəng memarlıq

kompleksindən dövrümüzə yalnız kompleksin baş tikilisi – memarlıq tarixinə ***Göy məscid*** adı ilə daxil olmuş əzəmətli cümə məscidi qalmışdır.

Türk Səyyahı Övliya Çələbi (XVII əsr) "Səyahətnamə"sində Təbrizin ən yaxşı tikililərini sadalayaraq onlardan bir neçəsinin adını çəkir – "Cahan Şah imarəti", "Cahan Şah hamamı", "Cahan Şah karvansarası", "Cahanşah binası" və s. O qeyd edir ki, Təbrizdə ən böyük mədrəsə Cahan Şah mədrəsəsidir ki, tələbələrə yüksək elmi və dini biliklər verir.

Həqiqinin dövründə yaşamış görkəmli alim Cəlaləddin Dəvvani əsərlərini bu mədrəsədə yazmışdır. O bir əsərində belə yazmışdır: "Təbrizdə, Müzəffəriyyə binası zaviyyəsində əsərlərimi yazdım. Allah onu tikən Sultan Əbülmüzəffər Cahanşahdan razı olsun və rütbəsini yüksəklərə qaldırsın...".

Bu tarixi abidə gözəl mərmər və kaşılarla inşa edilmiş, içərisi Quran ayələri ilə bəzədilmiş Müzəffəriyyə came-məscidinin tikilməsində Cahanşahın qızının da böyük əməyi olmuşdur. Bu barədə də Qazi Hüseyn Meybudi belə yazır: "Bu yüksək səqfli binanın tikilməsi və bu gözəl evin möhkəmlənməsi böyük Sultan, ədalətli, hörmətli, istedadlı, camaatın rifahı qayğısını çəkən, hər kəsin haqqını özünə verən, işıqlı şəriətin bayrağını qaldıran, nurlu təriqətin binasını yüksəldən, rəhmli, Allaha təvəkkül edən Əbülmüzəffər Cahanşah zamanında təməli qoyulmuşdur və bu ancaq əzəmətli, vəfalı, vüqarlı, məsum və tükənməz səxavətli qadın, cəsarətli sərkərdə, hər cəhətdən üstün və hökm sahibi olan Xaqan, Sultan Cahanşahın xeyirxah qızının gördüyü ən yaxşı işlərdən biridir".

Azərbaycanın görkəmli mütəfəkkiri, alim, filosof və şairi Abbasqulu Ağa Bakıxanov vaxtilə Göy Məsciddə olmuş, oradakı mədrəsəni və kitabxananı gəzmiş, qədim əlyazmalarla tanış olmuş və demişdir: *"Təbrizin Göy Məscidini vaxtilə "Təbrizin incisi", "İslamın firuzəsi" adlandırırdılar. Yaxın vaxtlarda məlum olmuşdur ki, bu gözəl sənət nümunəsini Cahanşah tikdiribmiş ki, öldükdən sonra onu, arvadı Bəyim Xatunu və uşaqlarını da orada dəfn*

*etsinlər. Məscidi memar Xacə Əli Məmməd ibn Osman tikmişdir".*

Müzəffərəddin Cahan Şah XV əsrdə Azərbaycanda qüdrətli və nüfuzlu bir dövlət qurmuş, cəsarətli bir sərkərdə, bacarıqlı, müdrik bir dövlət başçısı olmuş və "Həqiqi" təxəllüsü ilə şerlər yazmış, Azərbaycan türkcəsində və farsca böyük "Divan" yaratmışdır. Həqiqinin divanı uzun illər boyu itmiş, İstanbuldan Misirə, Misirdən Londona, Londondan Amerikaya, Amerikadan İrəvana - böyük bir "səyahət" etmiş və nəhayət 500 ildən sonra əsər ədəbiyyatşünas alim, "İstiqlal" ordenli, Əməkdar müəllim, dosent Lətif Hüseynzadə tərəfindən İrəvan Mətndaranından aşkar edilərək, mikrofilmi çıxarılaraq vətənə - öz həqiqi varislərinə çatdırılmışdır. Onun türkcə və farsca divanı Lətif Hüseynzadə tərəfindən işlənərək, farsca divanı tərcümə edilərək Azərbaycan oxucularına çatdırılmışdır. Nəşr edilmiş bu kitablar Təbrizdə Göy məsciddə müəllif tərəfindən Cahanşahın məzarı üzərinə qoyulmuşdur.

**Tapşırıqlar**

Aşağıdakılarla bağlı şərh verin:

1. Azərbaycanda islamiyyətin yayılması.
2. İslamiyyətdə tərbiyə təhsilin səciyyəvi xüsusiyyətləri
3. İslamda tədris ocaqları.
4. Suffə, Kuttab, məktəb və mədrəsə anlayışları, mahiyyəti, təyinat.
5. Azərbaycanda ali təhsil verən mədrəsələr

## ƏDƏBİYYAT


1. Xəlilov S.S. Təhsil, təlim, tərbiyə.-Bakı, "Azərbaycan Universiteti", 2005, 650 s.
2. Qaralov Z.İ. Tərbiyə (prinsiplər, məzmun, metodika).-Bakı, "Pedaqogika", 2003, 268 s.
3. Mərdanov M.C. Azərbaycan təhsil tarixi. I cild. Bakı, "Təhsil", 2011, 296 s.
4. Hüseynzadə R.L. Qədim və orta əsrlərdə Azərbaycanda tərbiyə, təhsil və pedaqoji fikir. Bakı: Nurlar, 2009.
5. Hüseynzadə R.L. Pedaqogika tarixi. Magistr hazırlığı üçün dərs vəsaiti. Bakı: Magistratura. az. 2018

# III FƏSİL

# XI-XII ƏSR AZƏRBAYCAN KLASSİKLƏRİ TƏRBİYƏ VƏ TƏHSİL HAQQINDA

**Əhatə olunan məsələlər:**

3.1. Qətran Təbrizinin tərbiyə və təhsil haqqında fikirləri
3.2. Xətib Təbrizinin tərbiyə və təhsil haqqında fikirləri
3.3. Əbülhəsən Bəhmənyarın yaradıcılığında tərbiyə və təhsil məsələləri.
3.4. Nizami Gəncəvinin tərbiyə və təhsil haqqında fikirləri.
3.5. Xaqani Şirvaninin əsərlərində pedaqoji ideyalar

## 3.1. QƏTRAN TƏBRİZİNİN TƏRBİYƏ VƏ TƏHSİL HAQQINDA FİKİRLƏRİ

XI əsr Azərbaycan xalqının ictimai-bədii, pedaqoji təfəkkür tarixinin görkəmli nümayəndələrindən biri Qətran İbn Mənsur Təbrizidir (1012-1088). O, təkcə Azərbaycanda deyil, bütün Yaxın Şərqdə mədhiyyələr yazan, dəyərli fikirlər söyləyən, hikmətli sözlər deyən böyük mütəfəkkir kimi tanınmışdır.

O, Təbrizdə, Gəncədə, Naxçıvanda yaşayıb yaratmış qüdrətli Azərbaycan sənətkarı olmuşdur. Qətran Təbrizinin "Divan"ını ilk dəfə toplayıb nəşr etdirən Məhəmməd Əli Naxçıvani olmuşdur. Qətran Təbrizi bir müəllim-metodist kimi fars dilinin ilk izahlı lüğətini tərtib etmişdir. "Ət-təfasir" adlanan fars dilinin bu izahlı lüğəti ilk didaktik əsərlərdən hesab olunur. Onu da vurğulamaq lazımdır ki, bu lüğət sadəcə olaraq sözlərdən ibarət deyil, həm də burada xüsusi metodika ilə hər sözün izahını ətraflı şəkildə vermək üçün müxtəlif atalar sözlərindən, məsəllərdən və əxlaqi fikirlərdən istifadə olunmuşdur. Məşhur şair və səyyah Nasir Xosrov 1146-cı ildə Təbrizə gəlmiş və burada Qətranla görüşmüş və onun bu kitabı

ilə yaxından tanış olmuşdur. O, özünün “Səfərnamə” adlı əsərində yazmışdır ki, bu fars dilinin ilk izahlı lüğətidir və lüğətdə Qətran Təbrizi sözlərin izahın elə vermişdir ki, bu sözləri oxuduqdan sonra fars dilinə aid bir çox lüğətlər yazılmışdır. Qətran Təbrizinin bu izahlı lüğəti uzun müddət fars dilini öyrənənlər üçün metodik vəsait olmuşdur, bir dərs vəsaiti rolunu oynamışdır. Sonralar isə bu lüğət “Təfasir fi lüğətül-fars”(“Fars dili sözlərinin izahı”), yaxud qısa şəkildə “Təfasir” (“İzahlar”) adlandırılır. Şeri yaradıcılığında əsas yeri dövrün müxtəlif hökmdarlarını tərif edən qəsidələr tutur. Bu əsərlər müasir oxucu və tədqiqatçılar üçün qəsidələrdə mədh olunan qəhrəmanların saraylarında baş verən tarixi hadisələri öyrənmək və anlamaq baxımından çox qiymətlidir. Misal üçün, Qətran Təbrizinin şerlərində oğuzların Azərbaycana bir neçə yürüşü öz əksini tapmışdır ki, həmin məlumatlar indi bizim üçün böyük əhəmiyyət daşıyır.

Qətran Təbrizinin şeirləri əxlaqi, mənəvi, ibrətamiz fikirlərlə olduqca zəngindir. Əsərlərində fəlsəfi fikirlərə də rast gəlmək mümkündür. O, həyat haqqında fikirlərini sadə xalqına müraciət edərək belə söyləyir:

**“Ey ciyəri yanan, bu bağdan meyvə axtarma**
**Bu bağ ancaq ikiqapılı bir söyüdlükdür.**
**Bihudə danışma ki, bağban arxada durub**
**Torpaq kimi aram ol, yel kimi ötüb keç”**

Şair bununla həyatın olum və ölüm adlı iki qapılı söyüdlükdən ibarət olduğunu söyləyir. İnsan ölüm qapısından içəri daxil olaraq dadlı meyvələr axtarır. Amma başa düşmür ki, bu bağ söyüdlükdür, söyüdlükdən dərilmiş “meyvə” heç bir şeyə yaramayacaq, buradan heç nə apara bilməyəcəkdir. Əcəl adlı bağban isə pusquda dayanıb insanı ölüm qapısından içəri atmaq üçün fürsət gözləyir. Şair insanlara “torpaq kimi təvazökar” olmağı, aza qane olmağı, maddiyyətə, mala, pula, hərisliyə meyl etməməyi məsləhət görür. Təbii ki, yaşamaq üçün pul da lazımdır. Bəzi insanlar pulu çox şey, hesab edirlər. Pul çox şey olsa da, hər şey deyildir. İnsan bu

dünyada nə qədər mal, mülk yığsa da, haqq dünyasına köçərkən özü ilə heç nə aparmır. Buna görə də çalışmaq lazımdır ki, insanlara maddiyyətinə görə deyil, insanlığına görə qiymət verək.

Qətranın öz əsərlərində hökmdarları mədh etməsində əsas məqsədi onların elm və bilik səviyyələrini artırmağa, dövləti ağılla idarə etməyə, onları dostluq əlaqələri yaratmağa, bir olmağa çağırırdı. Şair həm də Azərbaycanda vahid qüdrətli bir dövlət yaratmağın zəruri olduğuna da qeyd edirdi. Qətranın "Tövsnamə", "Qusnamə", "Vamiq və Əzra" adlı əsərləri vardır. O, öz əsərlərində "Yusif və Züleyxa", "Səlma" kimi dastanlardakı qəhrəmanların adlarından istifadə etmişdir. Bu da şairin dərin biliyə malik olmasına bir sübutdur. Qətran Təbrizi Azərbaycan və İran xalqlarının poeziya və leksikoqrafiya tarixində dərin izlər buraxmışdır.

**Dostluq.**

Qətran dostluğa yüksək qiymət verirdi və öz şerlərində bunu bədii şəkildə əks etdirmişdir. Şair insanları dostluqda vəfalı, sədaqətli olmağa çağırırdı. Onu da qeyd edirdi ki, dostlar hər zaman birgə olmalıdırlar, bununla onlar hər zaman düşmənə qalib gələ bilərlər. Qətran özü də Şah Əbülxəlil Cəfərlə dostluq əlaqələri saxlayırdı. Şah Əbülxəlil Cəfərin dostluğunu şair yüksək qiymətləndirir və onu işığa bənzədirdi. Qətran Əbu Mənsur Vəhsudanın dostluğunu isə belə mədh edir: "Məhəbbəti dostunu yaşadır, qəzəbi düşməni məhv edir. Dostuna yüklə mal verər, düşməninə qandan yağış yağdırar."

Qətran Təbrizinin nəsihətlərində dərin, müdrik bir məna, dəyər vardır. Nikbin şair insanları şadlığa, sevincə doğru çağırır. İnsanlara tövsiyə edir ki, bu dünyada sevincli anlar da olur, kədərli anlar da, olub keçmiş kədəri unut, onu yadına salma, o yersiz qəmlər üçün düşünmə, keçmiş günün qəmini fikirləşməyə dəyməz. Bu şadlığa, sevincə çağırış Qətran poeziyasında aparıcı keyfiyyətdir. Q. Təbrizinin əsərləri tərbiyənin bütün sahələrini əhatə edir. O, şerlərində mənəvi keyfiyyətləri yüksək dəyərləndirmiş və onları təbii incəliklərlə tərənnüm etmişdir.

**Əməksevərlik.**

Şair əməksevərlik və çalışqanlığa yüksək qiymət verərək insanları əməklə məşğul olmağa, alın təriylə ruzi qazanmağa çağırır. Hər bir insanı öz zəhməti, əməyi hesabına zirvələrə ucala bilər:

**"Şah yüksəlmək üçün əzab çəkdikcə, eybi yoxdur.**
**Tikansız xurma olmadığı kimi, zəhmətsiz də rahatlıq olmaz".**

Əməksevərlikdən danışarkən şair qeyd edir ki, məqsədə yorulmadan çalışmaqla çatmaq olar.

**Qadına hörmət, anaya məhəbbət.**

Q. Təbrizi qadına hörmət, anaya məhəbbət, qayğı motivlərini də şerlərində xüsusilə tərənnüm etmişdir. Qadın incə varlıqdır, qadın anadır. Ana isə müqəddəs varlıqdır. Ən böyük qiyməti qadına Məhəmməd Peyğəmbər vermişdir: "Cənnət anaların ayaqları altındadır". Qətran hökmdar Əbu Nəsr Məmlana hörmətini ifadə edərkən söyləyir: "Sən qadınlar üzərinə qılınc çəkmədiyin üçün / Sənin meydanında kişilər də qadın olmaq istər".

**İnsanpərvərlik və sədaqətlilik**

İnsanpərvərlik və sədaqətliliyi şair gözəl mənəvi keyfiyyət kimi dəyərləndirmiş, insanları bir-birini sevməyə, humanist və bir-birinə qarşı sədaqətli olmağa çağırmışdır. O, Şəddadilər sülaləsindən olan Əbülxəlil Cəfərin simasında belə təsvir etmiş və qiymətləndirmişdir: "İnsanpərvər olduğuna görə başqasının malına-dövlətinə göz dikmir, sədaqətli olduğundan əzabı heç düşmənə də rəva bilmir". Şairin bu cür fikirləri humanizm tərbiyəsində olduqca böyük əhəmiyyət kəsb edir.

**Düzlük, doğruçuluq.**

Düzlük, doğruçuluq Qətran Təbrizi yaradıcılığında özünə xüsusi yer tutmuşdur. Şair qeyd edirdi ki, sudan od çıxmadığı kimi insanın dilindən də gərək yalan çıxmasın. Yalanın ömrü az olur. Sözün düzünü söyləyən adam heç zaman narahatlıq hissi keçirmir. Düzlük insanın baş ucalığıdır. Uşaqları hələ kiçik yaşlardan doğru danışmağa alışdırmalı, onlara yalanın mənfi xüsusiyyətlərini aydın-

laşdırmaq lazımdır. Etdiyi səhvi boynuna olmaq igidlikdir. Atalar demiş: “Yalan ayaq tutar, ancaq yeriməz”.

**Qəhrəmanlıq, cəsurluq.**

Qəhrəmanlıq, cəsurluq da mənəvi keyfiyyət kimi sənətkar tərəfindən yüksək qiymətləndirilmişdir. O, Naxçıvan padşahının qəhrəmanlığını əsərində çox gözəl tərənnüm etmişdir. Onu behiştin zinəti, Xəzərin bəzəyi adlandırır. Onun qılıncı qarşısında hətta dəmir divar da dayanmaz, müharibə meydanında düşmənlərin oxlarının ucu lələyə, lələklər isə oxa çevrilər. Elə ki, zirehli paltar geyindi, başına dəbilqə qoydu onun nərəsindən düşmən qoşunları pələngin səsindən qorxan kimi qorxub qaçarlar.

**Sağlamlıq, fiziki tərbiyə, bədən gözəlliyi.**

Q. Təbrizi əsərlərində sağlamlıq, fiziki tərbiyə, bədən gözəlliyi haqqında da öz fikirlərini söyləmişdir. Sağlamlıq insan üçün ən şirin nemətdir. Sağlamlıq olmayan yerdə heç nəyə nail olmaq olmaz. Buna görə də sağlamlığın qədrini bilmək, onun qeydinə qalmaq lazımdır. Bunun üçün isə ilk növbədə fiziki tərbiyə ilə, idmanla məşğul olmaq gərəkdir. Fiziki tərbiyə ilə məşğul olan inşanın qaməti, bədəni də gözəl olar. Lakin şair bədən gözəlliyi dedikdə ilk olaraq daxili gözəlliyi nəzərdə tutur.

Q. Təbrizinin əsərlərinin qəhrəmanları əsasən tarixi şəxsiyyətlərdir. O, əsərlərində əks etdirdiyi mənəvi əxlaqi sifətləri bu tarixi şəxsiyyətlərin simasında insanlara açıqlayır və onları insanlara bir örnək kimi təqdim edir. Şahların ədalətindən, xalqa ehtiramından, savadından, dünyagörüşündən, igidliyindən bəhs edir.

**Şəxsiyyətin formalaşması.**

Q. Təbrizi şəxsiyyətin formalaşmasına təsir edən amillərə də əsərlərində geniş yer ayırmışdır. O, şəxsiyyətin formalaşmasında irsi amillərə üstünlük vermişdir. Şair insanın əsil-nəcabətini, kökünü tərif edir və “Ot kökü üstə bitər” misalına tərəfdar çıxır. İrsiyyət amilini müxtəlif misallarla izah etməyə çalışmışdır: “Yaxşı fidan yaxşı ağacdan əmələ gələ bilər. Yaxşı ağac da ancaq yaxşı fidan yetirər”. Şairin fikrincə, insanın müəyyən vəzifəyə rütbəyə yüksəl-

məsində irsi amillər xüsusi rolu oynayır. O, irsi amilləri bitki və güllərin timsalında açıq şəkildə izah etmişdir. Buradan belə nəticə çıxır ki, şair "Şahın övladı şah, pinəçinin övladı pinəçi olar" məsəli ilə razılaşır. Sənətkar təkcə müsbət əxlaqi keyfiyyətləri təqdir etməklə kifayətlənməmişdir. O, mənfi əxlaqi xüsusiyyətləri, mənəviyyata zidd sifətləri qəbul etməmiş və onları əsərlərində ifşa etmişdir. "Həmişə nadanlar mənfəət tamahı ilə ziyan çəkərlər". Q. Təbrizi insanları hiyləgərlik, paxıllıq, ədalətsizlik, xəsislik, lovğalıq, yalançılıq, tamahkarlıq, avamlıq kimi eybəcərliklərdən uzaq olmağa çağırır. Bu cür mənfi sifətlərin insana yalnız ziyan gətirə biləcəyini xüsusi vurğulayırdı. O, gözəlliyə var-dövlətə aludə olmağın mənasız olduğunu söyləmişdir. Şairin qənaətinə görə, fal açdırmaqla, tale quşu uçurmaqla heç nəyə nail olmaq mümkün deyildir. Bununla o, xalqı avamlıqdan, savadsız dindarların uydurmalarından xilas etməyə çalışmışdır.

**Estetik tərbiyə**

Q. Təbrizi əsərlərində əxlaq tərbiyəsi məsələləri ilə yanaşı estetik tərbiyə məsələləri də özünəməxsus yer tutur. Uşaqlığını kəndin əlvan təbiəti qoynunda keçirən şair təbiətə, onun gülünə, çiçəyinə, bağlarına vurğun olmuş, şerlərində misilsiz təbiət mənzərələri yaratmışdır. Sənətkar şeirlərində bir çox bitkilərin, heyvanların adını çəkmiş, onların obrazlı təsvirini vermiş və təbiəti o qədər gözəl incəliklərlə tərənnüm etmişdir ki, həqiqətən də onun əsərlərini oxuduqca insanda təbiətə olan sevgi daha da artır. Q. Təbrizinin estetik tərbiyə ilə bağlı təbiət təsvirləri onun "Bahariyyə" adlı şerində öz əksini tapmışdır:

Ağaclara sulu mərcan ilə bəzək verdin,
Bağa Çəmənliyə firuzə don geyindirdin...

Şair özü də təbiəti çox sevir və şeirlərində fəsilləri bədii lövhələrlə təsvir edərək insanda estetik hisslər oyadır.

Beləliklə, bu qənaətə gələ bilərik ki, Qətran Təbrizi yalnız böyük şair deyil, o həm də bir pedaqoq, tərbiyəçi olmaqla XI əsr pedaqoji fikir tariximizdə özünəməxsus yer tutmuşdur.

## 3.2. XƏTİB TƏBRİZİNİN MÜƏLLİMLİK FƏALİYYƏTİ VƏ TƏRBİYƏ HAQQINDA FİKİRLƏRİ

Maarif, mədəniyyət və pedaqoji fikir tariximizin görkəmli nümayəndələrindən biri XI əsrdə yaşayıb yaratmış, ədəbiyyatşünas, dilçi, şərhçi, müəllim və pedaqoq Xətib Təbrizidir.

Dövrünün alimləri Xətib Təbrizini "Ədəbiyyat, qrammatika və leksikoqrafiya elmlərinin başçısı", "Ensiklopedik zəka", "Fazil", "Şeyx", "Ərəb elmlərinin rəhbəri və ədəbiyyatşünaslığın bayraqdarı", "Əxlaq və mənəviyyat şərhçisi" kimi adlandırmışlar. Bu dahi Azərbaycan aliminin Şərqin müsəlman xalqlarının elm, maarif və mədəniyyətinin inkişafında böyük xidmətləri olmuşdur. O, qırx ildən artıq "Nizamiyyə" mədrəsəsində ədəbiyyat elmləri bölməsinin rəhbəri, professoru və mədrəsənin zəngin kitabxanasının müdiri olmuşdur. Təbrizdə doğulan və böyüyən, 10 il Suriya və Misiri dolaşan, böyük alimlərlə görüşən və ömrünün çox hissəsini Bağdadda keçirən Xətib Təbrizi öz dəyərli əsərləri ilə, öz şərhləri ilə mühüm əxlaqi, etik, pedaqoji problemlərə toxunmuş, şəxsiyyətin inkişafı və tərbiyəsi haqqında əhəmiyyətli fikirlər irəli sürmüş və uzun illər onun şərhləri məktəb və mədrəsələrdə Şərq ədəbiyyatının klassik nümunələri kimi tədris olunmuşdur.

Xətib Təbrizi ilk təhsilini Təbrizdə almış, burada ərəb, fars dillərini öyrənmiş, daha sonra Bəsrədə ərəb filologiyası sahəsində mükəmməl bilik əldə etmişdir. Xətib Təbrizi Suriyanın müxtəlif şəhərlərini dolaşmış, elmini artırmış, Dəməşqə gəlmiş, burada "Bağdad tarixi"nin müəllifi məşhur tarixçi Xətib Bağdadi ilə tanış olmuşdur. On ildən artıq səyahət edərək görkəmli alimlərlə görüşən X. Təbrizi Misirdən Bağdada qayıtmış və Hinduşah Naxçıvaninin verdiyi məlumata görə Bağdad Nizamiyyə mədrəsəsi açılan kimi-yəni, 1067-ci ildə Nizam-əl-Mülk Xətib Təbrizini Nizamiyyə mədrəsəsinə dəvət etmişdir. Böyük şərqşünas alim İ.Y.Kraçkovskinin də qeydinə görə Xətib həmçinin, ədəbiyyat elmləri bölümünün dekanı və professoru kimi də fəaliyyətə

başlamışdır. 38 yaşlı Xətib Təbrizinin Şərqin bu böyük mədrəsəsində ədəbiyyat bölümünün rəhbəri seçilməsi, zəngin kitabxananın müdiri təyin edilməsi onun nə qədər bilikli, zəki, parlaq bir şəxsiyyət olmasından xəbər verir.

Xətib Təbrizi ömrünün sonuna qədər 40 il bu vəzifədə çalışmışdır ki, bu da Şərqin yalnız çox nadir simalarına nəsib ola bilərdi.

Xətib Təbrizinin elmi-pedaqoji irsi olduqca zəngin və rəngarəngdir. O, ömrünün sonuna qədər elmi-pedaqoji fəaliyyətini dayandırmamış və dəyərli əsərlər yazmışdır, bu əsərlərdə ədəbiyyat və dilçiliyin tədqiqi ilə bərabər Şərq xalqlarının adət və ənənələri, etnoqrafiyası, əxlaqi-mənəvi təfəkkürü öz əksini tapmışdır.

Xətib Təbrizi islam qaydaları, şəriət qanunları ilə ciddi maraqlanmış və hətta bu barədə iki böyük əsər yazmışdır. Onlardan birincisi “Təfsir əl-Quran”dır (“Quranın açıqlaması”). İkincisi isə Quranın elmi qrammatik cəhətdən təhlilinə-həsr edilmiş “İrab əl-Quran”dır (“Quranda hallanma”).

Xətib Təbrizi alim, tədqiqatçı, şərhçi olmaqla bərabər, həm də böyük şair olmuşdur. X. Təbrizi Sultan Alparslanın vəziri Nizam əl-Mülkə böyük bir qəsidə həsr etmişdir. Xətib öz qəsidəsini Nizam əl-Mülkün müdrik fəaliyyətinə həsr edərək onun sayəsində xalqın vəziyyətinin yaxşılaşdığını, elmə, maarifə yüksək qiymət verdiyini, onun “zəkası ilə dünyanın işıqlandığını, arzuların həqiqətə çevrildiyini” söyləyir.

**Xətib həmişə hər bir işin, hadisənin, hərəkətin məzmununa əsas fikir vermiş, formanı ikinci planda görmüşdür**. O, bu dünyagörüşündən çıxış edərək deyir ki, insanın da dəyəri onun formasında deyil, məzmunundadır.

Xətib Təbrizi insanlarda gözəl estetik duyğuların tərbiyə olunmasını istəyir və şairin tərbiyəvi rolunu yüksək qiymətləndirir. Bu cəhətdən o, öz şerlərində şairlərin yüksək sənətkarlılığa, incə zövqə, estetik duyğulara malik olmasını tələb edir və şerlərində də belə hisslərin təbliğ olunmasını təqdir edir.

Xətib Təbrizi şeirlərin təhlilinə bir çox yönlərdən-pedaqoji,

psixoloji, dilçilik, etnoqrafik, ədəbiyyatşünaslıq, tarix, folklor cəhətlərindən yanaşmışdır. Bu onun dərin və hərtərəfli biliyə bələd olmasından, pedaqoji işdə çalışmasından, müəllimlik fəaliyyətindən irəli gəlmişdir.

Xətib Təbrizinin əsərlərində meydana çıxan mühüm cəhətlərdən biri onun özünün həyata, cəmiyyətə olan baxışlarını ifadə etməsi və əxlaqi-etik fikirlər irəli sürməsidir. Alimin pedaqoji ustalığı ondadır ki, o özünün fikirlərini təhlil etdiyi şeirlərin məzmunu ilə əlaqələndirməyi bacarmışdır.

Xətib Təbrizi insanın formalaşmasında, tərbiyə olunub ərsəyə çatmasında ictimai mühitin roluna yüksək qiymət verir. Xətib Təbrizinin fikirlərindən aydın olur ki, cəmiyyətin əyrilikləri insanların tərbiyəsinə qüvvətli təsir göstərir. O, bu fikri ilə mühitin insan tərbiyəsində roluna yüksək qiymət verir. Pozulmalara müqavimət göstərməyi alim insanların elmi biliklərə yiyələnməsində görürdü. Yalnız elm, bilik vasitəsi ilə insanlar zamanın hadisələrini dərk edə bilərlər, mühitin onların qarşısına çıxardığı çətinliklərə sinə gərərək aciz və zəif qalmazlar.

Xətib Təbrizi aza qane olmağın, dünya malına uymamağın tərəfində olmuşdur. O, “Sitq əz-Zənd”in şərhi”ndə Əbul-Ülanın bir beytini şərh etmişdir: “Torpaq sənə minnətdarlıq edir: çünki sən onun hədiyyəsini götürmürsən, (əksinə) ona bəxşişlər verirsən”. Xətib Təbrizi bu beyti əxlaqilik, könül toxluğu baxımından şərh edərək qeyd edir ki, “Bütün dünya malını verən torpaqdır”. Xətib Təbrizi insanın torpağa əyilməsini, əməklə, əməli işlə məşğul olmasını torpağın bütün nemətlərin anası olduğunu söyləyir.

Xətib insanları öz vətənində kortəbii surətdə deyil, ağılla sevməyə çağırırdı. Məhz buna görə də, alim vətənpərvərliyi insanın ağlının kamilliyində, insanın mərdliyində görürdü. Öz vətəninə, xalqına biganə olanları böyük mütəfəkkir şiddətlə tənqid edərək yazırdı: “Öz qəbilənin, xalqının olduğu bir ölkədən şikayətlənmə, yaxın adamlarının yaşadığı torpağa qarşı biganə olma”. Xətib Təbrizi vətənpərvərliyi insanın ən ali keyfiyyəti hesab edir və əsil

insan dedikdə ilk öncə onun vətənə məhəbbətini nəzərdə tuturdu: “Vətənə məhəbbət insanın ən şərəfli və ən qüdrətli xüsusiyyətidir”. Alimin fikrincə, əgər insanlar bir-biri ilə sıx ünsiyyətdə olsalar, bu onlar üçün fayda gətirər: “Təfriqəçilik isə yalnız pislik gətirə bilər”. Bununla da alim xalqları, millətləri, ölkələri parçalayan, xanlıqlar təşkil edib qanlı vuruşmalar aparan hakimləri tənqid edirdi.

İnsanpərvərlik Xətibin fikrincə, vətənpərvərlik kimi müqəddəsdir. O, insanların bir-biri ilə mehriban, xoş ünsiyyətdə olmasını təbliğ edirdi: “İnsanlarla xoş ünsiyyətdə olanlar onların ən şərəflisidir” - deyirdi.

Xətib Təbrizi öz əsərlərində insanları əməksevərliyə, əməli fəaliyyət göstərməyə səsləyirdi. O, insanları əzmlə, iradə ilə fəaliyyət göstərməyə çağıraraq deyirdi ki, “İnsan öz fikrində, əqidəsində möhkəm olmalıdır”. Alim insanların səbirli və təmkinli olmalarına böyük əhəmiyyət verir və qeyd edirdi ki, insan bir iş görmək istədikdə təmkinli və səbirli olmalı, heç vaxt tələsməməlidir. O deyirdi: “İnsan öz işində ola bilsin ki, tələsməsə, öz ehtiyacını tələsik etməsə, daha tez müvəffəqiyyət qazana bilər. Amma, işində tələsərsə, (bu) tələskənlik onun istədiyini gecikdirər”.

Xətib Təbrizi qənaətcilliyi bir əxlaqi keyfiyyət sayır və bunu varlanmağın yeganə yolu hesab edərək “Qənaət ən böyük dövlətdir” - deyirdi. X. Təbrizi əsərlərində qənaət və qənaətcillik tərbiyəsi haqqında dəyərli əxlaqi fikirlər söyləyir: “İnsan başqalarına əl uzatmaqdansa, özgənin malına göz dikməkdənsə, az yeməyə və yararsız cod geyimə səbr etsə, heç kimin malına ehtiyacı olmaz. Bu isə insanın öz nəfsinə qarşı cihad etməsi kimidir”. Göründüyü kimi X. Təbrizi qənaətcilliyin yolunu da göstərərək bildirir ki, başqasına möhtac olmaqdansa, aza qane olmaq daha yaxşıdır.

X. Təbrizinin tərbiyə haqqında fikirlərinə yekun vurarkən böyük alimin “Həmasə”nin şərhi”ndə əxlaqa verdiyi klassik tərifini göstərməmək mümkün deyildir. O deyirdi: “Ədəb elə bir şeydir ki, insan ona əməl etdikdə xalq içərisində şöhrətlənir, zinətlənir və şərəfi artır”.

## 3.3. ƏBÜLHƏSƏN BƏHMƏNYARIN YARADICILIĞINDA TƏRBİYƏ VƏ TƏHSİL MƏSƏLƏLƏRİ

XI əsrdə yaşayıb yaratmış və fəlsəfəni bilavasitə İbn Sinadan öyrənmiş filosof və pedaqoq Əbülhəsən Bəhmənyar İbn Mərzban əl-Azərbaycani (vəf. təxm. 1065) fəlsəfə tarixində görkəmli yer tutduğu kimi pedaqoji fikir tariximizdə də xüsusi yer tutur. Aşağıdakı hikmətli fikirlər ona məxsusdur: "Qürbətdə insanın munisi ağıldır". "Hikmət elmlərini öyrənməyən və bu elmlərdəki xüsusiyyətlərə yiyələnməyən elm gerçəkliklərindən xəbərsizdir".

"Öz ehtiyaclarından artıq şey tələb edən şəxs hikmət əldə edə bilməz və onu əldə etməyə malik deyildir".

Bəhmənyar böyük alimlər olan Əl-Kindi, Əl-Farabi, İbn Sina ənənələrini layiqincə davam və inkişaf etdirmişdir. Dövrünün alimləri Bəhmənyarı "Alimlərin başçısı" (Mövlan-i Rəis) adlandırmışlar.

Bəhmənyarın ən mühüm əsərləri bunlardır. "Ət-Təhsil" (İdrak), "Əz-zinət" (Bəzək), "Əl-baxça və Səadət" (Şadlıq və səadət) "Fi-musika" (Musiqi haqqında), "Fi miratib əl-mövcudat" (Mövcudiyyatın mərtəbələri), "Fi mabdi ilm mabadat tabiya" (Metafizikarun predmeti haqqında). Bəhmənyarın əsərləri, əlyazmaları Tehranda, Beyrutda, Londonda saxlanılır. Bəhmənyarın şah əsəri sayılan "Ət-Təhsil" Tehranda və Qahirədə nəşr olunmuşdur.

Bəhmənyar insanın kamilləşməsində onun biliyinə və mənəvi aləminə, əxlaq tərbiyəsinə böyük önəm vermiş və onu həmişə yüksək qiymətləndirmişdir. O demişdir. "Mənəvi ləzzət elə dərmandır ki, onunla heç bir xəstəlik baş verməz və elə sağlamlıq vasitəsidir ki, heç bir xəstəliyə məruz qalmaz. Həqiqi həzz əqli həzdir. Zira, əqli həzlər dərdin təqib etmədiyi şəfadır, xəstəliyin yaxın düşmədiyi sağlamlıqdır". Bəhmənyar insanın mənəvi cəhətdən kamilləşməsində ilk növbədə biliyin, təhsilin, əqlin roluna yüksək qiymət vermişdir. Bəhmənyar öz risalələrində məişət və idrak məsələlərinin əxlaqi-etik problemlərini araşdırmış və göstərmişdir ki,

ağıl və bilik insanın ən başlıca var-dövlətidir. İnsan öz ömrünü bilik mənimsəməyə həsr etməlidir, nəinki var-dövlət toplamağa. Var dövləti itirmək olar, amma ağıl, bilik insanın ən etibarlı müdafiəçisi, ən yaxın dostudur. "Sərvət qorunur, əql isə insanı qoruyur", "Sənə narahatlıq üz verdikdə kədəri əzmlə boğ, çıxış yolu tapmaq və xilas olmaq üçün əqli səfərbər et", "Baş vermiş işə görə qüssələnmə, onu aradan qaldırmağa, dəf etməyə çalış, ağlını işlət". Bəhmənyar insanın mənəvi zənginliklərinə böyük əhəmiyyət verərək göstərir ki, bu keyfiyyətlər həm irsidir, həm də sonradan əldə ediləndir. O, bununla insanın formalaşmasında həm irsi amillərə, həm də tərbiyəyə üstünlük vermişdir. Mənəvi keyfiyyətlərdən danışarkən o, intizamlılağa, xeyirxahlığa, məqsədyönlüyə, əliaçıqlığa, qorxmazlığa, əməksevərliyə, bilik qazanmağa böyük önəm vermişdir.

Bəhmənyar insan zəkasına yüksək qiymət verərək deyir ki, böyük Yaradan hər bir insana zəka bəxş etmişdir və bunun sayəsində insan digər canlılardan fərqlənir. Ancaq zəkanın sayəsində insan predmet və hadisələri dərk edə bilər. Bəhmənyar göstərirdi ki, elmin və fəlsəfənin öyrənilməsində əsas məqsəd insan əxlaqının yaxşılaşdırılmasıdır. Fəlsəfənin məhsulu, elmin əsası-insan əxlaqını yaxşılaşdırmaqdır. Biliyə yol-xeyirxahlığa və xoşbəxtiyə yol deməkdir. Bəhmənyar biliyi əxlaq və mənəviyyatla bağlamışdır. O, demək istəmişdir ki, biliyi olub da əxlaqı olmayan insan bir şeyə dəyməz. Ona görə də o, yazırdı: "İnsanlara göstərilən hörmət onların xeyirxahlığı müqabilində olan mükafatdır. İnsanın bilik səviyyəsi, onun artması insanın əxlaqına, təbii halına təsir edib onu dəyişdirə bilər". Bəhmənyar açıq aydın demək istəyir ki, bilik qazanmağın, təlim və tərbiyənin əsas məqsədi insanlara xeyirxahlıq göstərməkdən ibarət olmalıdır. Sonrakı dövrlərdə Bəhmənyarın fikir və ideya davamçısı Nəsrəddin Tusi də deyirdi ki, tərbiyənin məqsədi xeyirxahlıq və insanı xoşbəxt etməkdir.

Beləliklə, Bəhmənyar biliyin gücünə böyük önəm verir və onun insan əxlaqına, mənəviyyatına qüvvətli təsir göstərdiyini bil-

dirir.

İdrak nəzəriyyəsi Bəhmənyarın məntiq fəlsəfəsində mühüm yer tutur. Onun fikrincə materiyasız forma olmadığı kimi, formasız da materiya mümkün deyildir. Çünki materiyada bir forma aradan qalxdıqda labüd surətdə onu başqası əvəz edir. Bəhmənyarın bu fikirləri pedaqoji elmimiz üçün də böyük dəyər qazandırır. Pedaqogikada istər təlim, istərsə də tərbiyə nəzəriyyəsində formasız məzmun, məzmunsuz da forma mümkün deyildir. Formanın özündə də bir məzmun olduğu bizə aydın olur. Bu cəhətdən də tərbiyəvi iş formasının dəyişməsi işin məzmununun da dəyişməsinə səbəb olur. Bu fəlsəfi qayda Bəhmənyar fəlsəfəsində çox aydın şərh edilmişdir ki, bu qaydanı əsas tutmaq pedaqoji işdə mühüm əhəmiyyət kəsb edir.

Bəhmənyarın idrak nəzəriyyəsində deyilir ki, dərk etmə əqli də, hissi də, cismani də ola bilər. Bu fikirlər təlim prosesində biliyin mənimsənilməsində dəyərli əhəmiyyətə malikdir. Buradan başa düşmək olur ki, biliyin dərk edilməsi ağılla da, toxunmaqla da, hiss etməklə də həyata keçirilə bilir. Bu fikir təlimdə əyaniliyin əhəmiyyətini daha da artırır.

Hər bir şeydə ümumi və fərdi xüsusiyyətlərin mövcudluğu da təlim tərbiyə işlərində özünü göstərə bilir. Məsələn, məktəbdə fəaliyyət göstərən uşaq və gənclər təşkilatı əsas etibarilə tərbiyə işi aparır. Müəllimlər, sinif rəhbərləri də, tərbiyə işləri üzrə təşkilatçı da məktəbdə tərbiyə işi aparır. Amma sinifdənxaric tərbiyə işləri ilə uşaq və gənclər təşkilatının apardığı tərbiyə işlərində ümumi və fərqli cəhətlər vardır ki, bunu tərbiyəçi və müəllimlər nəzərə almalıdırlar. Necə ki, Bəhmənyarın fəlsəfəsi də bunu belə nəzərdə tutur.

**Bəhmənyar özünün "Ət-təhsil" kitabında məntiqə elmin bir aləti, bilik qazanmağın mühüm bir aləti kimi baxmışdır.** Onun fikrincə alətsiz bir şey hasil etmək mümkün deyildir. Məntiqsiz də elm, bilik qazanmaq olmaz. Məntiq biliyə digər münasibətlə də kömək edir, onun meyarı kimi çıxış edir.

Təlimin şüurluluq prinsipi heç şübhəsiz məntiq anlayışına söykənir. Biliyi şüurlu şəkildə mənimsəmək məntiqdən irəli gəlir.

Elə ona görə də Bəhmənyar öz sələfləri Aristotel, İbn Sina kimi göstərir ki, məntiq düzgün mühakimə yürütmək bacarığı, həqiqəti sübut etmək yolları haqqında elmdir. Bəhmənyara görə, məntiqin vəzifəsi təfəkkürü səhvlərdən və yanlışlıqlardan qoruyub saxlamaqdan ibarətdir..

Bəhmənyar sanki təhsilimizin bu günki problemlərini görərək "Ət- təhsil" əsərində deyirdi: "Fikir əqlin faydalandığı bir qüvvədir. Fikir zehnin elə hərəkətidir ki, onlardan mətləblərə gedib çıxılır". Bu gün məktəblilərimizin fikirləşmək, düşünmək qabiliyyətini inkişaf etdirmək pedaqoji elmimizin qarşısında duran ən vacib məsələlərdən birisidir. Bəhmənyardan səkkiz yüz il sonra alman alimi A.Disterveq deyirdi ki, uşaqlara fikirləri deyil, fikirləşməyi öyrətmək lazımdır.

Bəhmənyar bunu da qeyd edir ki, fikir, düşüncə əqlin inkişafına qüvvətli təsir göstərir. Bütün bu fikirlər təlim nəzəriyyəsində biliyin şagirdlərə sadə, anlaşıqlı bir dillə çatdırılmasını, öyrənmə prosesində təfəkkür fəaliyyətinin inkişafına diqqət yetirilməsini tələb edən müddəalardır.

Bəhmənyar ümumiyyətlə, biliyi iki qismə bölür: məlum və məchul biliklər. O, qeyd edir ki, insan yalnız "duyğudan gələn, yaxud duyğunun təsdiqlədiyi şeyə inanır". Çünki hissi qavrayışın verdiyi bilik məlumdur, gerçəklik bilavasitə hissi - əyani obrazlarla qəbul olunur. Bilik hisslərlə qavranılmalıdır. Nəzəri elmlərin hələ dərk edilməmiş müddəaları isə məchuldur.

Məntiqin faydası məhz fikrin məlumdan məchula keçmək yollarını göstərməkdir. Bu mənada təlim prosesində şagirdlərin duyğularına, hisslərinə təsir göstərmək üçün, biliyin yaxşı mənimsənilməsi üçün "Əyanilik" prinsipi mövcuddur. Təlimdə əyanilikdən istifadə etmək hiss və duyğulara təsir göstərməkdir ki, bunun sayəsində bilik möhkəm mənimsənilir və uzun müddət yadda qalır. Elə bu məntiqə yüksək qiymət verən təlim nəzəriyyəsinin banisi, "Böyük didaktika"nın müəllifi çex pedaqoqu Y.A. Komenski yazırdı ki, "mümkün olan hər şeyi duyğularla

qavramağa təqdim etmək, qoy müəllimlər üçün qızıl qayda olsun, yəni görünəni görmə duyğusuna, səsi-eşitmə duyğusuna, iyi-iybilmə duyğusuna, dadı olanı dad duyğusuna, toxunula biləni-la-misəyə təqdim etmək lazımdır”.

Bəhmənyar insanın ağıl və zəkasına əxlaqi dəyər vermişdir. O ağıl və zəkanı insanın var dövlətindən daha üstün olduğunu göstər-mişdir. Bəhmənyar göstərirdi ki, insanın əsas zənginliyi onun elm və təhsil sahibi olmasındadır. İnsan var-dövlət toplamaqla deyil, elmə, təhsilə yiyələnməklə zənginləşə bilər. Əsil yoxsulluq insanın mənəvi cəhətdən yoxsulluğudur. Bəhmənyar deyirdi: “Var dövləti dəfn etmək olar, amma ağılı yox, ağıl insanın qəriblikdə ən yaxşı dostu və müdafiəçisidir”.

Bəhmənyar kamil insanın yetişməsində tərbiyəyə üstünlük verir və deyirdi: “İnsan ən yaxşı əxlaqi keyfiyyətləri bu dünyada tərbiyə ilə qazana bilər”. Bəhmənyar tərbiyəyə üstünlük verdiyi kimi, əxlaqi keyfiyyətlərin bir çoxunun anadangəlmə olduğunu da bildirirdi. O, buraya əxlaqi saflığı, xeyirxahlığı, mərdliyi, əliaçıqlı-ğı, əməksevərliyi, ağıllılığı, insansevərliyi və s. aid edirdi.

Bəhmənyar yetişən gənc nəslin fiziki sağlamlığına fikir verilməsini, onların fiziki tərbiyəsi ilə məşğul olmağı vacib sayır və bildirirdi ki, ən böyük gözəllik insanın sağlamlığıdır. O, gözəlliyi fəlsəfi aspektdən təhlil etsə də, fikirləri pedaqoji üçün də dəyərlidir. Bəhmənyar bildirir ki, sağlamlığından istifadə etməyən insanın ruhu xəstədir, o xoşbəxt ola bilməz.

O, deyirdi: ”Gözəllik xeyirxahlıqdır”. Bu fikirlərdən görmək olur ki, Bəhmənyar biliyin də, əxlaqın da, gözəlliyin də xeyirxahlığa xidmət etdiyini göstərmişdir.

## 3.4. NİZAMİ GƏNCƏVİNİN TƏRBİYƏ VƏ TƏHSİL HAQQINDA FİKİRLƏRİ

Nizami Gəncəvi özünün zəngin və hərtərəfli yaradıcılığı ilə bəşəriyyəti daim düşündürən humanist, əxlaqi ideyaları tərənnüm etmişdir. Ədalət, sülh, insanpərvərlik, mərhəmət, mənəviyyat, xeyirxahlıq, əməksevərlik, dostluq, qardaşlıq və s. əxlaqi keyfiyyətlər Nizami yaradıcılığında əsas yer tutur. Buna görə də Nizaminin əsərləri səkkiz əsrdən artıqdır ki, həmişə olduğu kimi, bu gün də aktual və müasirdir. Nizamini tarix boyu dünyada şöhrətləndirən onun "Xəmsə" adlı beş əsəridir. Nizaminin əsərləri qüvvətli tərbiyəedici gücə malik olduğundan uzun illər boyu nəsillərin tərbiyəçisi olmuş, yeni nəsillər ondan müdrik məsləhətlər almış, dəyərli öyüdlər qazanmışlar.

Nizami poeziyası adamları xeyirxahlığa, yaxşılığa, darda qalanların əlindən tutub kömək etməyə çağırır. Nizaminin fikrincə, sən başqasına kömək edərsənsə, başqası da bir gün sənə köməyini əsirgəməz. Bu mənada Nizami yazır:

**Bacarsan hamının yükünü sən çək,**
**İnsana ən böyük şərəfdir əmək**
**Sən də əldən düşüb yorulsan əgər**
**Sənin də yükünü bütün el çəkər.**

Nizaminin fikrincə, yaxşılıq etməyi bacarmaq insan üçün mənəvi zənginlikdir. Belə mənəvi kamilliyə çatmağı, xeyirxah olmağı, başqalarına yaxşılıq etməyi bacarmaq lazımdır. Bu fikir aşağıdakı misralarda öz ifadəsini belə tapmışdır:

**Yaxşılıq etməsən əgər insana**
**Böyüklük şərəfi verilməz sana *(Leyli və Məcnun)***

Yaxud da:

**Səadət kamalla yetişir başa**
**Xalqa hörmət elə, ədəblə yaşa. *(Leyli və Məcnun)***

Nizami əsərlərində haqqında danışılan, təbliğ edilən xeyirxahlıq, yaxşılıq tək bir adama, yaxud ayrı-ayrı fərdlərə göstərilən mü-

nasibət olmayıb ictimai məna daşıyır:

**Çalış öz xalqının işinə yara**
**Geysin əməlindən dünya zər-xara.**

Şairin öz dövründə adamlarda görmək istədiyi və mənəvi keyfiyyət hesab etdiyi xeyirxahlıq, yaxşılıq, anlayışları heç bir zaman məhdudluq bilmir, həmin fikirlər bu gün də aktual və mənəvi keyfiyyət sayılır və məktəblilərin mənəvi tərbiyəsində Nizami irsinin böyük rol oynadığını təsdiq edir.

Nizami insanları yaxşılığa, xeyirxahlığa çağırdığı kimi, adamlarda bu mənəvi keyfiyyətləri qiymətləndirməyin vacib olduğunu da əxlaqi keyfiyyət hesab edir.

Nizami şerlərində, ayrı-ayrı əsərlərindən gətirilən misallardan aydın olur ki, Nizami pedaqoji ideyalarında tərbiyənin məqsədi xoşbəxtliyin yalnız tək-tək adamlarla bağlı olmadığını, onun bütöv bir cəmiyyətə bağlı olduğunu göstərməkdir. Əlbəttə, insanların xoşbəxtliyi, cəmiyyətin xoşbəxtliyinə gətirib çıxarır. Nizami insan xoşbəxtliyindən danışarkən heç bir millət fərqini, cinsi ayrılığı, sinfi mövqeyi nəzərə almır.

Şairin əsərlərindən belə nəticəyə gəlmək olur ki, Nizaminin bütün şerləri mənəvi, əxlaqi fikirlərlə yoğrulmuş, onun misraları insanları humanizmə, ədalətə, qayğı və mərhəmətə, nikbinliyə, doğru və dürüst olmağa, əməksevərliyə, vətənpərvərliyə və s. ən yüksək əxlaqi , mənəvi keyfiyyətlərə səsləyir.

Nizami elmə, biliyə yüksək əxlaqi qiymət verir. Elmsiz insanın qüvvətsiz olduğunu bildirir. Nizami xalqı öz taleyinə laqeyd qalmamağa, hüquqlarını başa düşüb, haqlarını tələb etmək üçün maarifə, biliklərə yiyələnməyə, həm də hər cür biliklərə deyil, insana xeyir gətirən, faydalı biliklərə yiyələnməyə çağırırdı. Nizami göstərirdi ki, cəmiyyətin ən yaxşı vətəndaşı ancaq təhsilli, elmə qabil, maarifpərvər və müdrik olan insanlardır. Buna görə də hər bir şəxs ağıllı olmağa, biliklərə yiyələnməyə, müdrik insanlardan öyrənməyə çalışmalıdır. Nizami son nəticədə göstərir ki, biliyi olan qüvvətlidir:

**Qüvvət elmdədir, başqa cür heç kəs**
**Heç kəsə üstünlük eyləyə bilməz.**

Nizami keyfiyyətli biliyi, həqiqi biliyi əsil bilik sayır və gəncliyə xitabən deyir:

**Bir elmi öyrənmək istədikdə sən**
**Çalış ki, hər şeyi kamil biləsən**
**Kamil bir palançı olsa da insan**
**Yaxşıdır yarımçıq papaqçılıqdan.**

Şair elmə yüksək qiymət verdiyi kimi elm adamına, alimə yüksək qiymət verir və alimin rütbəsinin bütün rütbələrdən uca olduğunu söyləyir, bütün elmlərin açarının alimlərdə olduğunu bildirir:

**Hər uca rütbədən biliniz fəqət,**
**Alimin rütbəsi ucadır əlbət...**

Nizamiyə görə təlim prosesi insana bilik verməklə bərabər həm onu maddi, həm də mənəvi cəhətdən yüksəldir. Nizaminin fikrincə, təlimin son həddi yoxdur. O, insanı həmişə təkmilləşdirməli, həm də mənəvi cəhətdən zənginləşdirməlidir.

Nizami bir əxlaqi keyfiyyət kimi dostluq və yoldaşlığa yüksək qiymət verir və qeyd edir ki, adamlar üzdə bir cür, dalda başqa cürdür. Şair həqiqi, sadiq dost tapmağı məsləhət görür:

**Elə sadiq dost ara, səni darda qoymasın**
**Çəkib tordan çıxarsın, səni torda qoymasın.**

Nizami poeziyasının əməksevərlik əsas yer tutur. "Kərpickəsən qocanın hekayəsi" əməksevərlik baxımından çox ibrətamizdir. Cavan oğlan qoca kərpickəsənə daha asan işlə məşğul olmağı məsləhət gördükdə qoca cavanı utandıracaq şəkildə belə deyir:

**Qarşında boyun büküb əl açmayım deyə mən**
**Əzəldən əl atmışam belə bir peşəyə mən.**
**Nə xəzinə yığanam, nə də tirmə geyənəm,**
**Öz halal zəhmətimin çörəyini yeyənəm.**

Nizami ilk növbədə xalqa xidmət etməyi öyüdləyir və bunu "Sirlər xəzinəsi" əsərində şərəf, ləyaqət hesab edir:

**Xidmət etmək sayılır kişilikdən nişana,**
**Xalqına xidmət etmək bir şərəfdir insana.**

"Yeddi gözəl" poemasında isə belə deyir:

**Səadət kamalla yetir başa,**
**Xalqa xidmət elə, ədəblə yaşa.**

Nizami düzlük, mərdlik, sadəlik, xoşxasiyyətlilik kimi keyfiyyətləri gənc nəsildə tərbiyə etməyi məsləhət bilirdi. Nizamiyə görə düzlük və doğruçuluq böyük mərdlikdir. Nizami həddən artıq yumşaq, mülayim olmağı, yersiz təvazökarlığı ciddi nöqsan saymışdır. Nizami hər cür fəaliyyətdə orta mövqeyin tutulmasını məsləhət görür. Çoxun da, azın da zərərli olduğunu bildirir. Amma, onun ideyalarında orta hədd Qızıl hədd adlandırılır.

Səbirli olmaq, sirr saxlamaq, qənaətcil olmaq yüksək əxlaqi keyfiyyətlər sayılır. Nizami öz dəyərli misralarında bu əxlaqi keyfiyyətləri dilə gətirir və insanlara səbirli olmağı, sirr saxlamağı, qənaətcil olmağı tövsiyə edir. Bu istiqamətdə Nizami misralarından bir neçə nümunəyə diqqət yetirək:

**Səbir etməklə insan yetər kamına**
**Yavaş-yavaş çatar dilaramına...**
**Ovçu səbirsizlik göstərsə əgər,**
**Ovu nişanəyə dəyməz , yan gedər *(Yeddi gözəl)***

**Hər kim qənaətlə əgər şad olar,**
**O, hörmətli olar, sərazəd olar.**
**Kim saxlasa dilini, görməz canı xətanı,**
**Dil gətirər başlara, hər bəlanı, xətanı *(Sirlər xəzinəsi)***

Nizami mahir bir pedaqoq kimi təlim-tərbiyə işlərində yaş dövrlərinin nəzərə alınmasının böyük əhəmiyyəti olduğunu bildirmişdir. Nizami yaş dərəcələrindən danışarkən böyük filosof, tarixdə İlk müəllim hesab edilən Aristotelin 7-7 yaş bölgüsünü bəyənmiş, onu təqdir etmiş və oğlu Məhəmmədə 7, 14, 21 yaşlarında nəsihətamiz şeirlər yazmışdır.

Nizami 7 yaşlı oğlu Məhəmmədə yazdığı ilk nəsihətamiz şeir belədir:

**Biliyə rağib ol, dünyanı qazan,**
**Sən əsmanı oxu, məna alarsan,**
**Vaxtı boş keçirmə qələm al ələ,**
**Allahın əmri ilə bilik kəsb elə.**

Nizami 14 yaşlı Məhəmmədə isə belə ibrətamiz şer yazmışdır:

**Sən ey 14 yaşlım, hər elmə yetkin,**
**Gözündə əksi var iki aləmin.**
**7 yaşar oldun o zaman ki, sən**
**Açıldı gül kimi güləndə çəmən,**
**İndiki çatmışdır yaşın 14-ə,**
**Başın sərv kimi durur göylərdə.**
**Qəflətdə oynama, qeyrət vaxtıdır,**
**İndi hünər vaxtı, şöhrət vaxtıdır.**
**Ucalmaq istəsən, bir kamala çat,**
**Kamala ehtiram göstərir həyat.**

Nizami 21 yaşlı Məhəmmədə şairlə aşağıdakı tövsiyələrini verir:

**Ey oğul , sənədir sözüm, yaxşı bax.**
**Çünki mən yatıram, sənsə qal oyaq.**
**Adın xoş gülüdür əbədiyyətin,**
**Məhəmməd isminin möhrüsən, mətin.**
**Adına yaxşılıq sikkəsini çal,**
**Böyük şöhrət qazan, göylərə ucal.**
**Yaxşı ad qazanmış gözəl dost ara,**
**Onda yetişərsən ağ günə, vara.**
**Xoş ətirli bir dost yaxındır inan**
**Hərzə-hərzə durub danışanlardan.**
**Bir dostun olsa da eyibli əgər,**
**Yüzünün adına ləkə gətirər.**
**Ehtiyatsız bir quş düşərsə tora,**
**Başqa yüz quşu da sürüklər ora.**
**Məkkənin yolunda uddu biri zər,**
**Oğrular yüz qarın yırtdı sərasər.**
**Yatma qoca kimi bu yolda aman,**
**Zalımdan özünü qoru hər zaman.**
**Baxma ki, oynaqdır atın, ayıq ol,**

**Yadından çıxmasın görsən bəd gövhər,**
**Əqrəbi öldür ki, yetirər zərər.**
**Hünər ardınca qoş, xalqa hünər saç,**
**Qapılar bağlama, ər ol, qapı aç.**
**Hər kim öyrənməyi bilməyirsə ar,**
**Sudan dürr, daşdan da gövhər çıxarar.**
**Ancaq öyrənməyi ar bilən insan**
**Məhrumdur dünyada bilik almaqdan.**
**Çox iti zehinlər yatan oldular,**
**Axırda saxsı qab satan oldular.**

N. Gəncəvi şəxsiyyətin formalaşmasında irsi amillərin roluna yüksək qiymət verir. O, dahi filosof Aristotelin dili ilə insanlara məsləhət görür ki, zatı pis olana etibar edib, iş tapşırmaq qurdu bəsləməyə bənzər:

**Zatı pis olana üz göstərmə sən,**
**Qurdu bəsləməkdən ziyan çəkərsən.**
**Bədgövhər adamla heç addım atma,**
**Öz təmiz kimyanı küllərə qatma.**

Nizami Gəncəvi insanın mərdliyinə, hünərinə, şücaətinə yüksək qiymət verir və əsərlərində bu əxlaqi keyfiyyəti tərənnüm edir:

**Mərd olmaq yaxşıdır dünyada hər an,**
**Mərdlik ilə çatar arzuya insan**
**Papağı dik saxla, baş getsə belə**

Nizami şəxsi hünərli olmağa, sözünü deməyə, haqqını tələb etməyə səsləyir və deyirdi: "Ömrü başa vurar şir ürəklilər Öküz ürəklidə olmaz bir hünər".

Nizami Gəncəvi müəllim və tərbiyəçilərin fəaliyyətinə əsərlərində geniş yer vermişdir. Dahi şair yaratdığı qəhrəmanların uşaqlıq və gənclik dövrlərini təsvir edərkən onların təlim-tərbiyəsində mühüm rol oynayan müəllimlərdən də hörmətlə söhbət açmışdır. Nizami əsərlərindəki müəllimlərin: Büzürcümehr, Mənzər, Niqumaş, Ərəstun və başqaları şagirdlərinin bir şəxsiyyət kimi yetişməsində, xarakterinin formalaşmasında, əxlaqi keyfiyyətlərin mənimsəmələrində böyük rol oynadığını qeyd edirdi. Onun fikrincə, müəllim özünün mədəni davranışı, yüksək mənəviyyatı, əxlaqı,

biliyi, dünyagörüşü ilə öz şagirdlərinə örnək olmalıdır. Onun təsvir etdiyi müəllimlər yüksək ağıl, ensiklopedik bilik, gözəl mənəviyyat sahibi olmuşlar. Xosrovun müəllimi Büzürcümehr də belə müəllimlərdən biridir. Xosrov da müəllimindən bilik alır, hikmət öyrənir, hər şeyin sirlərini mənimsəyirdi. Şairin fikrincə yaxşı müəllimin şagirdi müəllimindən də yüksəkdə durmalıdır.

Bəhramın təhsili ilə isə Mənzər müəllim məşğul olmuşdur. O, Bəhrama ərəb, fars və yunan dillərini öyrədirdi. Mənzər də Büzürgümehr kimi ulduzlar elmindən baş çıxaran biridir. Mənzər Bəhrama bütün gizli, aşkar qanunauyğunluqları, göylərin, yerlərin sirlərini öyrətmişdir. Bəhram da müəllimini diqqətlə dinləyir, ondan bütün bu sirləri almaq üçün gecə-gündüz çalışırdı.

N. Gəncəvi təlim-tərbiyə işində müəllimin, tərbiyəçinin rolunu yüksək qiymətləndirir. Qeysin, Bəhramın, İsgəndərin valideynlərinin öz övladlarının taleyini yüksək savada malik alim-müəllimlərə etibar etmələri buna bir sübutdur. Təlim-tərbiyədə şair-pedaqoq müəllimin yüksək savadı, humanizmi, çalışqanlığı və s. kimi keyfiyyətlərə önəm versə də, şagirdin də təlimə marağını, istedadını, müəllimə münasibətini xüsusi qeyd edir. Müəllim – şagird münasibətləri haqqında mütəfəkkirin fikirləri “İsgəndərnamə” poemasında daha geniş əks olunmuşdur. Nizami İsgəndərin öz müəllimi Niqumaşa olan səmimi münasibətini və ehtiramını təsvir edir, bu qarşılıqlı hörmətin nəticəsi kimi onun kamillik zirvəsinə ucalmasını göstərir. Şair-pedaqoq onu da qeyd etmişdir ki, şagird nə qədər bilsə də, dikbaşlıq etməməli, müəlliminin üzünə ağ olmamalıdır, onun zəhmətini itirməməlidir.

Nizami müəllimin mənəvi paklığına, müəllim nümunəsinə, müəllim sözünə böyük əhəmiyyət verirdi. Nizami qəhrəmanları öz müəllimlərinə böyük hörmət bəsləmiş, hətta şahlıq taxtına oturandan sonra belə öz müəllimlərini unutmamışlar. İsgəndər alimləri öz ətrafına toplamış, “alimdir gözümdə əziz olan”, deyə fərman vermişdir. Nizaminin müdrik, dahiyanə kəlamları bu gün də müəllimləri kamilliyə səsləyir, yetişən gənc nəslə elmin açarlarını verməyə,

öz gücü çatan köməyi başqalarından əsirgəməməyə çağırır.

Nizaminin dəyərli nəsihətamiz əsərlərində tərbiyənin bütün sahələri öz əksini tapmış və Azərbaycan pedaqoji fikrində Nizami ideyaları əməyə, zəhmətə qatlaşmaqda, elm, bilik qazanmaqda, peşə, sənət dalınca getməkdə, yaxşı dostlar tapmaqda, ümumiyyətlə, kamil bir insan kimi formalaşmaqda gənclərə əsrlər boyu tərbiyəçi, yol göstərən müəllim olmuşdur.

## 3.5. XAQANİ ŞİRVANİNİN ƏSƏRLƏRİNDƏ PEDAQOJİ İDEYALAR

Xaqani Şirvani (1126-1199) XII əsr Azərbaycan klassik ədəbiyyatının İntibah dövründə yaşayıb, yaratmış, ziddiyyətli həyat və yaradıcılıq yolu keçmiş görkəmli sənətkar, şair-filosof və təlim, tərbiyə, təhsil haqqında dəyərli fikirlər söyləyən bir pedaqoq, müəllim və tərbiyəçidir. Yaradıcılığındakı ziddiyyət ondan ibarətdir ki, o, bir tərəfdən Yaxın və Orta Şərq ədəbiyyatında saray şerinin gözəl nümunələrini yaratmış, dövrünün hökmdarlarına mədhiyyələr həsr etmiş, digər tərəfdən isə saraylara, qolu və hökmü güclülərə qarşı mübarizə ruhlu, coşqun, etiraz səciyyəli  şerlər yazmışdır.

Azərbaycan xalqı tarix boyu həmişə olduğu kimi, erkən orta əsrlərdə də ölkədə elmi, mədəniyyəti, ədəbiyyatı, özəlliklə də poeziyanı inkişaf etdirib zənginləşdirirdi. Bu sahədə məşhur şair və filosof Əfzələddin Xaqani Şirvaninin xüsusilə böyük tarixi xidmətləri olmuşdur. Şirvanda böyük vüsət alan tədris ocaqlarında, mədrəsələrdə zəmanəsinin kamil bilik sahibi olan müəllimlər dərs deyirdilər. Poeziya əvvəlki əsrlərdə görünməmiş bir vüsətlə inkişaf edirdi. Fələki Şirvani (1108-1146), Xaqani Şirvani (1126-1199) kimi böyük şairlər məhz XII əsrdə Şirvanda parlamışdılar.

Xaqaninin əsərlərində tez-tez qarşılaşdığımız, qədim yunan, fars, türk, hind tarixinə, mədəniyyətinə, ərəb dünyasına, islam tarixinə dair zəngin məlumat sübut edir ki, o vaxt Şamaxıdakı kitab mərkəzlərində və Şirvanşahların saray kitabxanasnda xeyli qiymətli

əsərlər toplanmışdı.

Xaqani Şirvani klassik Şərq poeziyasının bütün janrlarında yüksək sənətkarlıq nümunələri yaratmışdır. Xaqani Şirvaninin zəngin ədəbi irsi 17 min beytlik şerlər divanı, "Töhfətül-İraqeyn poeması, bədii nəsrin maraqlı nümunələri olan 60 məktubdan ibarətdir. Divanındakı şerlər qəsidə, qəzəl, mədhiyyə, mərsiyə, rübai və s. ibarətdir. Onun ictimai-fəlsəfi məzmunlu əsərlərinə "Qəsideyi-Şiniyyə", "Mədain xərabələri", "Həbsiyyə" şerləri və "Töhfətül-İraqeyn" poeması daxildir.

Böyük şair-filosof Xaqani elmə, elm öyrənməyə yüksək qiymət vermiş, böyüklərin ağıl və elmindən sağ və sol əli doldurmağı, özünü elm və bilik kölgəsində saxlamağı zəruri hesab etmişdir. Şairin fikrincə, insan dövlətə, mal-mülkə zəhmətlə nail ola bilər. Xaqani Şirvani biliyi, etibarı kişinin şərəfi adlandırırdı. Ağıllı insanları xalq üçün qənimət hesab edən şair qeyd edirdi ki, ağıllı adamlar ziyan çəksələr də, həmişə xalq üçün çalışırlar. Xalq lovğalanmayan insanları çox sevər. Buna görə də insanlar var-dövləti ilə deyil, elmi, hikməti, ağlı ilə öyünməlidirlər

Görkəmli mütəfəkkir insanlarda sadəlik və təvazökarlığı yüksək qiymətləndirirdi. Onun fikrincə, insan mənəm-mənəm deyib özünü öyməməlidir. Çünki cahillər özünü tərifləyərlər. Bilikli insan isə nə qədər çox bilsə də, çox bilirəm deməz. Lovğa insanları heç kim sevməz, boş sözləri heç kim dinləməz. İnsan öz zəhməti, əməli ilə ucalmalı, sadə və təvazökar olmalıdır.

**"Mənəm-mənəm" deyib, öymə özünü!**
**Həmişə müxtəsər eylə sözünü.**
**Cahildir özünü tərif edənlər,**
**Çox bilirəm demə, bilsən də əgər.**

Şair həyatı yalnız yeyib yatmaqda görən, yaşamağın mənasını kef məclislərində axtaranları da məzəmmətləmiş, onların nəfsini itlə, sərvətlərini isə cəsədlə müqayisə etmişdir. Hər bir insan yaşamaq, uğur, müvəffəqiyyət, şöhrət qazanmaq üçün əməklə məşğul olmalı, zəhmətə qatlaşmalıdır. Xaqani nəfsin insanı fəlakətə apar-

dığını, hümmətin isə onu yüksəkliklərə qaldıracaq qüvvəsinə inandığını qeyd etmişdir. Şair balıq kimi zahiri pullu, içi boş yaşamaqdansa sədəf tək üzü sadə, ürəyi, daxili aləmi gözəlliklərlə zəngin olmağı məsləhət görmüşdü. Dahi sənətkar dünya sirlərinə yiyələnməkdə iradənin böyük rolunu qeyd edərək nəfs və tamahın iradəyə qalib gəlməməsini arzulamışdır.

Xaqani Şirvani vətənpərvərliyi ən gözəl bir keyfiyyət kimi öz əsərlərində bədii ustalıqla şərh etmişdir. O, vətənpərvər şair olmuşdur, vətəni Şirvanı hüsnkar təbiətli, bolluq, bərəkət ölkəsi, şairlər ocağı kimi tərənnüm etmişdir. Bəzən zülmkar şahlar və nadan müasirlərindən şikayətlənərək, Şamaxını dar qəfəs, qaranlıq zindan adlandırsa da, qürbətdə olarkən həmişə ürəkdən sevdiyi doğma yurda can atmışdır. Müxtəlif hökmdarlara yazdığı mədhnamələrində belə, doğma yurdun gözəl təbiət mənzərələri, özünün dərin-ictimai-tərbiyəvi amalları parlaq əksini tapmışdır. O, səyahətlərdə olarkən vətən həsrəti onun bütün varlığını bürümüşdü. Şair qeyd edirdi ki, səfərdə olarkən, İraqda, İranda başına tabaqla qızıl töksələr, şahlar onun məclisində diz çöksələr, nemətə, dövlətə qərq olsa da, vətən həsrəti onun qəlbini didər, günü xoş keçməzdi. Xaqani Şirvani qürbətdə xan olmaqdansa, vətəndə dilənib gəzməyi üstün tutmuşdur. O, Şirvanı ülviyyətin anası adlandırırdı.

**Şamaxı! Ey mənim sevimli yurdum,**
**Mən sənin qoynunda xaniman qurdum.**
**İndisə acığın tutmuşdur mana,**
**Sənin qucağından ayrılsam, ana**
**Ümidin, pənahım Təbrizdir, Təbriz,**
**O şəhər də mənə doğmadır, əziz.**

Şerdən göründüyü kimi şair əslən Şamaxılı olsa da, Təbrizin də ona yad olmadığını qeyd etmişdir.

Xaqani Şirvani Bağdadda məşhur "Nizamiyyə" mədrəsəsində olmuş, buranın böyük alimləri ilə görüşmüş, müdərrislərlə, tələbələrlə elmi müzakirə və söhbətlər keçirmişdir. Xaqani Bağdadda xəlifə və onun vəziri Camaləddin İsfahani ilə görüşmüşdür. Bağdad

xəlifəsi Xaqanini öz sarayına ən yüksək vəzifəyə - vəziri olmağa dəvət etmiş, amma şair vətəninə qayıtmağı daha üstün hesab etmişdir.

Aşağıdakı beytlər şairin öz ölkəsinin çox böyük vətənpərvəri olduğunun dərin səmimiyyət duyğusu ilə ifadəsidir:

**Şahlar məclisimdə diz çökər mənim,**
**Başıma təbəqlə zər tökər mənim.**
**Lakin üzüm gülməz, gözlərim ağlar,**
**Qəlbimdə dağ boyda ağır intizar.**
**Yurdun həsrətilə töküb göz yaşı**
**"Ah, vətən!" deyərəm hər sözün başı...**

Xaqani Şirvani dostluğa yüksək qiymət verərək onu müsbət əxlaqı keyfiyyət kimi öz əsərlərində tərənnüm etmişdir. Şair dostlar arasında güzəştə getmək bacarığını dostluqda hünər adlandırırdı. Onun şerlərində, xüsusən həbsiyyələrində vəfalı dost, həmfikir, sirdaş arzusu nəzəri daha çox cəlb edir. İnsan dərdli, kədərli olan vaxtlarda ona dost gərək olur, dosta, sirdaşa ehtiyac duyur. Həyatının çətin anlarında mənəvi dayaq tapa bilməyən şair dostluq haqqında maraqlı mülahizələr söyləmişdir. O, insanları dostluqda vəfalı, sədaqətli olmağa, dostluğun qədrini bilməyə çağırırdı.

**Çalış az dostluq et, etsən də əgər,**
**Dostluqda möhkəm ol, sözdə mötəbər**.

Xaqani namuslu, həyalı, düzlüyü sevən, ədalətli insanlarla dost olmağı məsləhət görürdü. X. Şirvaninin yaradıcılığı ilə tanış olduqda məlum olur ki, o, şadlığın üç şərtini qeyd edir: məkan, zaman, bir də dost. Əsl dost odur ki, dostun səhvini üzünə desin.

Ana, anaya məhəbbət mövzusu Xaqani yaradıcılığında fəxri yer tutur. Şair "Töhfətül-İraqeyn" poemasında öz anasının faciəsini qələmə almaqla onun xanım ikən əsir düşüb satılmasını, vətənindən, valideynlərindən, qohumlarından uzaq düşdüyünü dərin kədər hissi ilə bildirmişdir. Şair-filosof Xaqani ata qayğısı və ana nəvazişini yüksək qiymətləndirərək uşaqların tərbiyəsində onların zəhmətlərini, xidmətlərini qeyd edir. O, anasının simasında bütün anaların böyük zəhmətini, fədakarlığını, tərbiyə işində əməyini çox

yüksək qiymətləndirmişdir.

**Anamın zəhməti olmasaydı bil**
**Dünyada bir işə olmazdım nail.**

Şair bütün insanlara ana adını uca tutmağı, ana qədrini bilməyi tövsiyə etmişdir: "Bu dünyada ana sənə öz zəhmətilə can vermiş, hər nə edirsənsə et, ana haqqını heç zaman unutma; O gündən qorx ki, ana səni tək qoyub bu dünyadan əbədilik köçər." Şairin öz anasına məhəbbəti, ümumiyyətlə anaya müqəddəs varlıq kimi yanaşması "Kitabi-Dədə Qorqud" dastanında "Ana haqqı Tanrı haqqıdır" hökmü ilə səsləşir.

Xaqani gənclərə atalıq qayğısı ilə yanaşaraq, gənclik illərinin qədrini bilməyə, ömrün, bu gözəl çağlarını elm, bilik qazanmağa sərf etməyə çağırırdı. Şair gənclərə həsr etdiyi ayrıca əsərində onlara fitnəkarlıqdan, hiylədən, oğurluqdan, xəyanətdən uzaq olmağı tövsiyə edirdi. Gənclərdə hər zaman gözəl sifətləri tərbiyə etmək istəyən şair dostluqda vəfalı, sədaqətli, möhkəm olmağı, yaxşı insanlarla dostluq etməyi məsləhət görürdü.

Xaqani Şirvani yaradıcılığında təbiət təsvirləri, estetik tərbiyə məsələləri, Şirvanın füsunkar mənzərələri-bir sözlə, ana torpağın gözəllikləri dönə-dönə böyük ilham və məhəbbətlə tərənnüm edilmişdir. Onun təbiət təsvirlərinə həsr etdiyi şerlərində estetik tərbiyə mövzusunda geniş istifadə etmək olar. Həyatı dərindən duyan, təbiəti sevərək və onu dərk edərək qələmə alan həssas sənətkarın əsərlərində təbiət gözəllikləri yeni təravət, incə zövq və əlvan, bədii lövhələrlə canlandırılmışdır. O, öz əsərlərində Bakı, Şamaxı, Dərbənd, Beyləqan, Bərdə, Təbriz, Şabran kimi Azərbaycan şəhərlərinin adlarını çəkmiş, bu şəhərləri tərənnüm etmiş, onların alim və sənətkarlarından, hökmdarlarından söhbət açmışdır. Azərbaycan təbii gözəlliklərindən dəfələrlə söz açan sənətkar Kür, Araz çaylarını, Savalan dağını da böyük sevgiylə təsvir etmişdir.

**Şirvan ki, var, hər cəhətdən ülviyyətin anasıdır,**
**Onun hər cür səhər yeli dərdlərimin dəvasıdır.**

Xaqani Şirvani elmin böyük təbliğatçısı olmuşdur. Ağlı

yüksək qiymətləndirən, insan zəkasını, onun yaradıcı qüdrətini alqışlayan sənətkar müasirlərini dövrünün elmlərini öyrənməyə, təbliğ etməyə çağırmışdır. Şairin əsərlərində tibb, astronomiya, tarix və fəlsəfəyə dair elmi istilahlardan tez-tez faydalanması, onun dövrünün elmlərilə yaxından tanışlığını və öz əsərlərində bu elmləri təbliğə çalışdığını aydın göstərir.

Nəsihətamiz fikirlər Xaqani yaradıcılığında mühüm yer tutur. Şairin nəsihət mövzusuna həsr olunmuş çoxsaylı əsərləri var ki, müasir gəncliyin milli ruhda tərbiyəsi üçün əhəmiyyətlidir. “Hikmət və nəsihət”, “Nəsihət”, “Dünyaya uymamaq üçün nəsihət”, “Ey Xaqani, pis yoldaşdan ehtiyat et, qorx ondan”, eləcə də müxtəlif məzmunlu rübailəri tərbiyəvi cəhətdən çox əhəmiyyətlidir. Onlardan bəzilərinə nəzər salmaq olar: “Hikmət və nəsihət” şerində (şerin Azərbaycan dilinə iki tərcüməsi məlumdur) şair gənclərə müraciətlə deyir:

**Fitnə törətmə, ey fitnəkar cavan!**
**Fitnədir elləri dərdlərə salan.”**
**Yaxud, həmin nəsihətdən başqa bir beyt:**
**Bir kiçik adama nəvaziş etsən**
**Sənin böyüklüyün getməz əlindən…**

Göründüyü kimi, Xaqani Şirvani gəncliyə müraciət edərək onları pis əməldən – fitnəkarlıqdan uzaqlaşmağa, yaxşılığa, xoş rəftara, başqası ilə, xüsusilə vəzifəcə özündən kiçiyə qarşı mehribanlıq etməyə çağırır. Xaqani Şirvanini müasir dövrdən min ilə yaxın bir zaman ayırsa da, sözləri bu günlə səsləşir, aktual və əhəmiyyətlidir.

Xaqani Şirvani insanları mənəvi saflığa çağırır. Şair rübailərinin birində deyir:

**İstəsən güzgütək saf olsun ürək,**
**Sinəndən on şeyi atasan gərək:**
**Haram, qeybət, kin, paxıllıq, tamah,**
**Kibr, riya, həsəd, ədavət, kələk.**

Xaqani Şirvaninin şerləri, qəzəl və rübailəri ədəbi fikrimiz üçün nə qədər əhəmiyyətlidirsə, pedaqoji fikrimiz üçün də bir o qədər dəyərli və əhəmiyyətlidir.

## Tapşırıqlar

1. Azərbaycan mütəfəkkirləri və maarifpərvərləri tərbiyə haqqında.
2. Qətran Təbrizinin pedaqoji fikirləri.
3. Xətib Təbrizinin müəllimlik fəaliyyəti və pedaqoji fikirləri.
4. Bəhmənyarın didaktik fikirləri.
5. Bəhmənyar mənəvi zənginliklər haqqında.
6. Nizami Gəncəvinin tərbiyə haqqında fikirləri.
7. Xaqani Şirvaninin pedaqoji görüşləri

## Ədəbiyyat


1. Azərbaycanda məktəb və pedaqoji fikir tarixindən. Elmi əsərlər məcmuəsi. Bakı, 1981
2. Əhmədov. H.M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: Elm və təhsil, 2014.
3. Hüseynzadə R.L. Pedaqogika tarixi. Magistr hazırlığı üçün dərs vəsaiti. Magistratura. az. 2018
4. Əzizova Z.M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: Mütərcim, 2019
5. Əmirəliyeva İ. B. Pedaqoji fikir tarixindən. Bakı: Mütərcim, 2018

# IV FƏSİL

# XIII-XV ƏSR AZƏRBAYCAN KLASSİKLƏRİ TƏRBİYƏ VƏ TƏHSİL HAQQINDA

**Əhatə olunan məsələlər:**

4.1. Məhəmməd Nəsirəddin Tusi tərbiyə və təhsil haqqında.

4.2. Marağalı Əvhədinin tərbiyə və təhsil haqqında fikirləri.

4.3. Məhəmməd Füzulinin təhsil və tərbiyə haqqında fikirləri

4.4. Nəsimi yaradıcılığında pedaqoji ideyalar. Hürufilikdə tərbiyə

## 4.1. MƏHƏMMƏD NƏSİRƏDDİN TUSİ TƏRBİYƏ VƏ TƏHSİL HAQQINDA

Azərbaycan məktəb və pedaqoji fikir tarixində böyük mütəfəkkir, görkəmli alim və astronom, pedaqoq və tərbiyəçi Məhəmməd Nəsirəddin Tusinin özünəməxsus yeri və xidmətləri olmuşdur. Deyə bilərik ki, N. Tusi böyük astronom, riyaziyyatçı, filosof olmaqla bərabər, həm də bir pedaqoq, müəllim və tərbiyəçi kimi gənc nəslin hərtərəfli inkişafı, tərbiyəsi və təlimi üçün dəyərli əsərlər yazmış, müdrik fikirlər söyləmişdir. Tusinin yaratdığı pedaqoji əsərlər təlim və tərbiyənin çox geniş və müxtəlif sahələrini əhatə etmiş və bu əsərlər neçə-neçə nəsillərin təlim və tərbiyəsində mühüm rol oynamış, müəllim və pedaqoqlarımız həmin əsərlərdən xeyli faydalanmış, öz əməli fəaliyyətində onlardan istifadə etmişlər. Bütün bunlar da öz növbəsində pedaqoji elmimizin, tərbiyə nəzəriyyəsinin inkişafında əhəmiyyətli rol oynamışdır. Tusinin ən məşhur əsəri isə 1235-ci ildə yazdığı "Əxlaqi-Nasiri" əsəridir ki, bu əsər əxlaq, mənəviyyat məsələlərinə həsr olunmuşdur. Bu kitab İranda Qəhistan hökmdarı Nəsirəddinin əmri ilə yazıldığından Tusi bu əsəri hökmdarın şərəfinə "Əxlaqi –Nasiri", yəni "Nasirin əxlaqı" – adlandırmışdır. Pedaqoji fikir tarixində "Əxlaqi- Nasiri" əsəri

yüksək qiymətləndirilir və ali pedaqoji məktəblərdə tədris edilir. Əsər 1 müqəddimə, kitabın yazılma səbəbi, ilk qeydlər və elmlərin bölgüsü hissələrindən, 3 məqalə və 30 fəsildən ibarətdir. Tusinin dövründə də bu əsər məktəb və mədrəsələrdə geniş öyrədilmişdir. Tusinin 200-ə qədər əsər və mənzumələri olmuş ki, bu günə qədər əhəmiyyətini itirməmişdir. Onun öz yaradıcılığı haqqında belə bir şeri də vardır:

**Dünya ləzzətinə uymamışam mən**
**Qorxmaram mal-dövlət getsə də əldən**
**Mənə şadlıq günü, nemət gecəsi**
**Oxumaq, öyrənmək olmuş əzəldən.**

Nəsirəddin Tusi ancaq xalqa xidmət etməklə yaxşı ad qazanmağın mümkün olduğu fikrini irəli sürdüyü üçün, geniş əməkçi xalq da onu yüksək hörmətlə qarşılamışdır. Nəsirəddin bir şerində bu barədə belə deyir:

**Mey içmək səhərdən axşama kimi**
**Böyüklük deyildir, hünər deyildir**
**Çox yemək, ya da ki, əlvan geyinmək,**
**İnsanı böyütməz bir zərrə qədər.**
**Mən deyim sənə qoy, böyüklük nədir,**
**Eşit, səndə varsa ağıldan əsər:**
**Qurtar dostlarını qəmdən, kədərdən,**
**Xalqın istəyilə yaşa müxtəsər.**

Nəsirəddin Tusi yazır ki, Yer üzərində yaranan məxluqatın ən şərəflisi insandır. Bunu əsas götürən Tusi bütün yaradıcılığı boyu insanın tərbiyəvi keyfiyyətlərini tərənnüm etmiş və insanda əxlaqi sifətləri yüksək qiymətləndirmişdir.

Nəsirəddin Tusi əxlaqi sifətlərin yaranmasını gerçəklikdə görür və qeyd edirdi ki, əxlaqi sifətlər yalnız ictimai həyatda yaranır və heç də anadangəlmə proses deyildir. Tusi insanın nəfsinə çox böyük qiymət verir. O, “nəbati”, “heyvani” və “insani” nəfslər arasında ümumi şərikli qüvvələri təhlil etdikdən sonra, bu nəfslərə nisbətən daha yüksək dərəcədə duran insani nəfsə üstünlük vermişdir. Tusi məntiqi nəticə çıxararaq nəfsin tərbiyə edilməsi üçün peyğəm-

bərlərə, filosoflara, rəhbərlərə, müəllimlərə ehtiyac olduğunu göstərir. O, deyir: “Müəllim insanlar arasında ən seçilmiş şəxslər olmaqla, öz yaxşı əxlaqları etibarilə təqlidə layiqdirsə, bu, şagirdləri həqiqi həyata yüksəltmək üçün ən yaxşı vasitə olacaqdır”. Nəsirəddin Tusi “Fəzilət” və “Rəzalət” kimi fəlsəfi, əxlaqi anlayışların mənalarını şərh edir.

**Fəzilətlər dörddür: “Hikmət”, “Şücaət”, “İffət”, “Ədalət”.**

**Rəzalətlər də dörddür: “Avamlıq”-hikmətin ziddi, “Qorxaqlıq”- şücaətin ziddi, “Çılğınlıq”- iffətin ziddi, “Zülmkarlıq”- ədalətin ziddi.**

Nəsirəddin Tusi - həya hissini uşaqlarda olan ən böyük fəzilət kimi qiymətləndirir və bu hissin tərbiyəsinə, onun daha da inkişaf etdirilməsinə böyük əhəmiyyət verir. O, həyanı uşaqlarda olan təmiz və idrakı fəzilətlərdən ən əhəmiyyətlisi kimi qiymətləndirir: “Uşaq həyalıdırsa, əksər halda başını aşağı salıb sırtıqlıq etmirsə, bu onun nəcibliyinə sübutdur: Bu, o deməkdir ki, onun nəfsi çirkin əməllərdən ikrah edib gözəl işlərə meyl göstərir, bu əlamət həmin istedadın uşaqda olduğuna dəlalət edir. Belə isə həmin uşağın tərbiyəsinə xüsusi fikir verməli, hər bir şeyi əsirgəməməli, istedadın sönüb getməsinə yol verilməməlidir”. Uşağı mehribanlıqla, məhəbbət doğuran kəramətlərlə tərbiyə etmək lazımdır, xüsusilə ağıla, şüura, idraka təsir edən başa salmaq yolu ilə; pul vermək, şirnikdirmək, əsil nəsəbə aid olan şeylərlə yox.

**Əsərdə ailə tərbiyəsinə xüsusi yer verilmişdir**. Burada “Ailə dolandırmaq və evdarlıq qaydaları haqqında”, “Övlad saxlamaq və tərbiyə etmək qaydaları haqqında”, “Ata-anaların haqqını yerinə yetirmək, onların razılıqlarını qazanmaq yolları haqqında” və s. fəsillər vardır.

Tusi ata-ananın ilk vəzifəsini “Övlad anadan olan kimi ona gözəl bir ad qoymaq”la ifadə edir. Onun fikrincə, ad uşağa verilərkən valideynlər diqqətli olmalı və çox fikirləşməlidirlər, çünki “uşaq bu adı ömrünün sonunadək daşıyacaq”dır. Tusiyə görə “Uşağa pis ad qoyularsa, ömrü boyu ürəyi açılmaz”. O, uşağın

anadan olduğu ilk gündən başlayaraq, ona tərbiyəni südlə birlikdə verməyi təklif edir.

Tusi təklif edir ki, uşağı ata-ana və ya dayə tərbiyə etdiyi üçün elə etmək zəruridir ki, "tərbiyə verən ağılsız, kəmsavad və xəstə olmasın, çünki bir sıra qüsurlar dayənin südü ilə övlada keçir". Bu mənada Tusi belə yazırdı:

**Övlada tərbiyə vermək istərkən,**
**Yaramaz dayəyə vermə onu sən.**
**Süd ilə bədənə girən xasiyyət,**
**Ömür boyu çıxmaz bədəndən**

Bu məsələ hələ Nizami yaradıcılığında da qeyd edilmişdir. Lakin, Tusi bunu praktik olaraq müşahidə etmiş , haqqında geniş və səhih məlumat vermişdir.

Tusi ailə tərbiyəsində ailə başçısına – ataya böyük üstünlük verir və onu həkimə bənzədir. O, ailəni bütöv bir bədənə, ailə üzvlərini də bədən üzvlərinə bənzədir. Ailəni dolandırmaq sənətini isə bədəni sağlam saxlamaq istəyən həkimlik sənəti ilə müqayisə edir. Təbib insan bədəni, onun üzvləri arasında münasibətin sağlamlığına necə fikir verirsə, ailə başçısı da bütün ailə, eləcə də onun üzvləri arasında olan münasibətlərinə diqqət yetirməlidir.

Bədənin bir üzvü xəstə olduqda digər üzvlərə təsir etdiyi kimi, ailə üzvlərindən biri naqis olduqda digər üzvlərə təsir göstərir. Həkim – ailə başçısı ailə üzvlərinin hamısına diqqət və qayğı ilə yanaşmalı onların "xəstələnməsinə" yol verməməlidir.

Böyük alim, mütəfəkkir və pedaqoq Nəsirəddin Tusi şəxsiyyətin tərbiyəsinin demək olar ki, bütün sahələrinə toxunmuşdur. Tusinin əsərlərində əqli tərbiyə, əxlaq və əmək tərbiyəsi, habelə fiziki və estetik tərbiyə məsələləri öz əksini tapmışdır. Tusi tərbiyənin məzmunu haqqında tərbiyəçilərə, valideynlərə dəyərli məsləhət və tövsiyələr vermişdir.

## 4.2. MARAĞALI ƏVHƏDİNİN TƏRBİYƏ VƏ TƏHSİL HAQQINDA FİKİRLƏRİ

XIII–XIV əsrlərdə Azərbaycanda məktəb və pedaqoji fikrin inkşafı tarixində Marağalı Əvhədinin (1274 –1338) adı iftixarla çəkilir. Dəqiq təvəllüdü məlum olmayan azərbaycanlı məşhur alim və filosof şair Şeyx Marağalı Əvhədinin 1274-cü ildə Azərbaycanın paytaxtı olmuş Marağa şəhərində anadan olduğu təxmin edilir.

Bəzi mənbələrə görə ilk zamanlar "Safi" təxəllüsü ilə şerlər yazmışdır. Təhsilini o zaman Yaxın Şərqin ən məşhur mədəni mərkəzlərindən olan Marağa şəhərində almış, ana dilindən başqa ərəb, fars dillərini, elmi-nücum, məntiq, təbiət elmlərini, fəlsəfəni, ilahiyyatı və sair elmləri öyrənmişdir.

Müxtəlif mənbələrdə onun haqqında deyilmişdir: övliya, xoşsifət, allahpərəst, arif, şeyx, mövlana, mehriban, əxlaqlı, təmiz adam, fazil və kamil insan, təsəvvüf və təriqət başçısı, haqq yolun bələdçisi və s.

Dahi şairimiz İmadəddin Nəsimi Əvhədini çox sevmiş, əsərlərini tərcümə etmiş, yaxud onlara nəzirələr yazmışdır. Xacə Hafiz onu "Piri-Təriqət" adlandırmışdır. Sədi Şirazi onu öz ustadı saymışdır. 20 yaşında yaradıcılığa başlayan Əvhədi "Dəhnamə" və "Cami-cəm" əsərləri ilə şöhrət tapmışdır.

Əvhədi 60 yaşında ikən "Cami-cəm" əsərini yazmaqda məqsədini belə izah etmişdir:

**Biləsən ki, insanpərvərlik nə deməkdir,**
**Mərdlik nədir, insanlara necə yanaşmaq lazımdır,**
**Bir alçağın əlində oyuncaq olmayasan,**
**Yolunu azanların sırasına düşməyəsən**

Əvhədi həmin əsəri məhz pedaqoji məqsədlə yazmışdır. Müəllif öz məsləhət və nəsihətlərini oxucuya təqdim etməzdən əvvəl kainat, canlı və cansız aləm, insanın yaranması, onun fiziki və psixi xüsusiyyətləri haqqında geniş məlumat verir. Bu, hər şeydən əvvəl onunla izah edilir ki, Əvhədi insanı təbiətin, maddi aləmin bir

hissəsi kimi oxucuya təqdim etmişdir.

Kitabın əvvəlindən axırına qədər elmə mədhiyyə oxunur. Dünyanın sirlərini dərk etməkdə, insan əxlaqını yaxşılaşdırmaqda elmin rolunu bədii inandırıcılıqla müəllif açıb göstərir. "Cami-Cəm" hər şeydən əvvəl insanları elmə, biliyə, ağıla səslənir.

**Bu uzaq göylərin sirlərini biz,**
**Dərk edə bilmərik yəqin elmsiz.**
**Yoxdur bilik kimi bir abi-həyat,**
**Ancaq bilik verər insana nicat.**
**Nə əcəl üstünə bir kölgə salar.**
**Onu məhv etməyi bacarmaz zaman,**
**Nə də seldən ona yetər bir ziyan**

Əvhədinin yaşadığı dövr Azərbaycanda elmin çox inkişaf etdiyi bir dövr idi. Təbrizdə və Marağada böyük elm ocaqları, Tusinin tikdirdiyi Rəsədxana var idi. Təbrizdəki "Məmur saray" (Abad saray) adlı elm şəhərciyinin poemadakı geniş təsviri də bu baxımdan əhəmiyyətlidir.

**Cuneydi, Bağdadı nə edirsən yad,**
**Budur, bu Cuneydin, bax, bu da Bağdad**

deyən şair iftixarla Təbrizi yeni dövrün Bağdadı hesab edir, yəni elm və mədəniyyət mərkəzi kimi səciyyələndirir. Bu qanunauyğun bir hal idi. Uzun müddət islam ölkələrindəki intibah mədəniyyətinin mərkəzi olan Bağdad tədricən yeni-yeni mədəniyyət mərkəzlərinə – Naxçıvan, Gəncə, Bərdə, Şamaxı, Təbrizə çevrildi. Həmin cəhət böyük elm və sənət əsərlərinin yaranmasına təsir göstərdi.

Əvhədinin poemasını başqa poemalardan fərqləndirən cəhətlərdən biri onun həyat və məişətin ən kiçik məsələlərinə qədər özündə əks etdirməsidir. "Cami-Cəm" əsərinin ikinci fəslindən bəzi başlıqları xatırlatsaq, fikrimiz aydın olar. "Padşahlara ədalət haqqında nəsihət", "Evin və ev əşyalarının nizama salınması", "Ev tikməyin şərtləri", "Pis qadınların əməlləri", "Övlad tərbiyəsi haqqında", "Hakimlər və məhkəmələrin vəziyyəti", "Nəsihət etməyin qaydaları" və s. Bu başlıqların özü aydın şəkildə göstərir

ki, Əvhədi didaktik poema yaradarkən sələflərindən fərqli bir yolla getmiş, onların toxunmadığı, sənətə gətirməyi məsləhət bilmədiyi ən adi məsələlərə qədər toxunmuşdur.

“Cami-Cəm” əsərində arzu edilən İnsan müəllifə görə ideal insandır. O, hər şeydən əvvəl sağlam, elmli, doğrucul, həqiqət-pərəst, yoxsulların mənafeyini qoruyan, zəhmətkeş, ədalətli, sadə və təvazökar, övladcanlı, təsərrüfatdan baş çıxaran, sərxoşluq və əyyaşlıq etməyən, dostluqda dəyanətli, öz peşəsini dərindən bilən bir adam olmalıdır. O, ideal insanın yetişməsi üçün tərbiyəni əsas vasitə hesab edir və elə güman edirdi ki, cəmiyyətdə baş verən hər cür qeyri-normallıq tərbiyənin nəticəsidir. Lakin o, ideal insanın formalaşması işində tərbiyə ilə yanaşı irsiyyətin də rolunu qiymətləndirir.

“Cami-Cəm” əsərində tərbiyənin əsas vasitəsi elm və təhsil hesab olunur. Əvhədi təhsilin tərbiyəedici qüvvəsinə son dərəcə inanmışdır. Onun fikrincə insanın inkişafı, hətta ərşə qədər yüksələ bilməsi yalnız elm, təhsillə mümkündür. “Cami-Cəm” hər şeydən əvvəl elmə, biliyə, ağıla himn kimi səslənir”.

Əvhədi təhsil almağın yollarını da müəyyən edir və yazır ki, elmi yüksək ideallar naminə öyrənmək lazımdır. O, elmi öz rahat-lığı, yaxşı güzəran keçirmək məqsədilə öyrənənlərin təşəbbüsünü elmə xəyanət hesab edir.

Əvhədiyə görə tərbiyə olunası əxlaqi keyfiyyətlər bir-birindən təcrid olunmuş şəkildə götürülməməlidir, əksinə, insanda bu keyfiyyətlərin birinin tərbiyəsi o birinin də yaranmasına və təşəkkü-lünə səbəb olur. Necə ki, düzlük və doğruçuluq tərbiyəsi hər şeydən əvvəl humanizm və mərdlik tərbiyəsi ilə əlaqədardır.

Sadəlik və təvazökarlıq, dostluq və yoldaşlıq, mərdlik və əməksevərlik tərbiyəsi haqqında, lovğalıq və sərxoşluq, şəhvət və əyyaşlıq əleyhinə də “Cami-Cəm” də qiymətli fikirlər vardır.

Əvhədi əsil insan tərbiyəsində elm və təhsili əsas vasitə hesab etdiyi kimi, özünütərbiyəni də yüksək qiymətləndirir.

Bu əsərdə övlad tərbiyəsinə və ailəni idarə etməyin yollarına

da geniş yer verilmişdir. Qadını necə saxlamaq, övladı pis təsirlərdən və zərərli adətlərdən necə qorumaq, onu necə tərbiyə etmək kimi məsələlər kitabda geniş yer tutur.

"Cami-Cəm" də atanın övlad tərbiyəsi sahəsindəki vəzifəsi qısaca olaraq belə müəyyənləşdirilir:

**Birinci atalıq vəzifən budur.**
**Oğlunu elə böyüdəsən ki, ağı qaradan seçə bilsin.**
**İkinci budur ki, bir sənət sahibi olsun.**
**Üçüncüsü budur ki, malını əsirgəməyəsən.**
**Ona layiqincə toy edib evləndirəsən,**
**Onu yaman adamlardan uzaqlaşdırasan .**

Əvhədi övladı tərbiyə etməyin yollarını da öyrətməyi unutmamışdır. O, atanı ailə üçün nümunə olmağa çağırır, uşaq tərbiyə edərkən kobudluğa, söyüşə yol verməməyi, öz mövqeyindən sui-istifadə etməməyi məsləhət görürdü. Bununla da o, tərbiyə işində valideyn nümunəsinin əhəmiyyətinə yüksək qiymət verirdi. Əsərdə deyilir ki, oğlunu söymə ki, o da söyüş söyən olsun, atanın danışığında şərm və həya olarsa, uşaq da atanın əməlindən şərm və həya öyrənər.

Əvhədi qeyd edir ki, övlad tərbiyəsindən müqəddəs bir şey ola bilməz. Lakin bu sahədə gecikmək də olmaz. "Cami-Cəm" də "Təlim və tərbiyənin təsiri", "Özbaşınalığın sonu", "Övlad tərbiyəsi haqqında", "Evlənmək və artım", "Elm öyrənmək və alimlərin şərəfinə" adlı hissələrdə ailə tərbiyəsinin müxtəlif məsələləri şərh edilmişdir. Marağalı Əvhədinin bu əsəri əsrlər boyu uşaq və gənclərin tərbiyəsi işində əhəmiyyətli rol oynamışdır.

## 4.3. MƏHƏMMƏD FÜZULİNİN TƏHSİL VƏ TƏRBİYƏ HAQQINDA FİKİRLƏRİ

Məhəmməd Füzuli (1494-1556) orta əsr məktəb və pedaqoji fikrinin inkişafına təsir göstərən dahi alim, böyük şair və ədib, görkəmli mütəfəkkirdir. O, öz əsərləri ilə dünya şöhrəti qazanmış və böyük pedaqoq, alim kimi orta əsrlərin pedaqoji fikrinin inkişafı tarixində mühüm yer tutmuşdur.

Məhəmməd Füzuli 1494-cü ildə Kərbəla qəsəbəsində azərbaycanlı ailəsində anadan olmuşdur. O, ibtidai təhsilini Kərbəlada almış, mədrəsə təhsilini isə Bağdad şəhərində tamamlamışdır. Füzulinin ana dilinə yüksək qiymət verməsi və həmin dildə dünya şöhrəti qazanmış "Leyli və Məcnun" poemasını yazması məktəb və pedaqoji fikir tariximizdə mühüm yer tutmuşdur. Onun "Leyli və Məcnun" əsərinin mətnləri Azərbaycan dilinin tədrisi üçün ilk dərs vəsaiti kimi XIX əsrin axırlarına qədər Azərbaycan və Orta Asiya məktəblərində istifadə olunmuşdur. "Söhbətül-əsmar" ("Meyvələrin söhbəti") adlı əsəri isə pedaqoji ədəbiyyatda Azərbaycan dilində yazılmış ilk uşaq ədəbiyyatı nümunəsi kimi qiymətlidir.

Şairin Azərbaycan, fars və ərəb dillərində yazdığı "Divan" dan başqa, "Söhbətül-əsmar", "Bəngi Badə", "Yeddi cam', "Ənisül-qəlb", "Rindi Zahid", "Leyli və Məcnun" və s. əsərlərində də bir sıra mühüm ictimai, tərbiyəvi məsələlərdən bəhs edilmişdir. O, bu əsərlərində orta əsr patriarxal əxlaq normalarını pisləmiş, insan məqamını yüksəldən bir çox əxlaqi keyfiyyətləri tövsiyə və təbliğ etmişdir.

Füzulinin şerləri eşq və məhəbbət duyğularını tərənnüm edən ifadələrlə bəzədilsə də, məqsəd etibarilə əqli və əxlaqi keyfiyyətlərin tərbiyəsi və təbliği məsələsinə həsr edilmişdir. Buna görə də Füzuliyə təkcə "eşq", "məhəbbət" şairi kimi deyil, həm də mütəfəkkir və pedaqoq şair kimi baxmaq lazımdır. Onun dünyagörüşündə insan və tərbiyə problemi əsas yer tutmuşdur. Məhz bu problemi özünün şəxsi nümunəsində həll etməyə çalışan şair

tərcümeyi-halında yazır: "Mən bütün ülüm və fünunu özündə toplamış bir insan olmaq üçün çalışırdım".

Füzulinin pedaqoji konsepsiyasında insan lirik, fəlsəfi, pedaqoji və ruhani varlıq kimi nəzərə alınmışdır. Şairin fikrincə, bu varlıq "hüsn-i surət" (görünüş və davranış gözəlliyi) ilə "kəmal-i mənəvi"ni (əqli və əxlaqi keyfiyyətlər) özündə birləşdirdiyi təqdirdə cəmiyyətə faydalı təsir göstərə bilər.

Füzuli insanın əxlaqi keyfiyyətlərinə yüksək qiymət vermiş, qazanılan biliyin əxlaqa, ədəbə xidmət etməsini və insanın ilk növbədə ədəbli, əxlaqlı olmasını tələb etmiş və demişdir:

**Elmlə, ədəblə tanınar şərəf,**
**Mirvari olmasa nə lazım sədəf**

Füzuli dünyəvi elmləri və dini bilikləri "elm-i əqli" və "elm-i nəqli" adlandırmış, fəlsəfə, riyaziyyat, ilahiyyat və ədəbiyyat nəzəriyyəsini bu elmlərin sırasına daxil etmişdir. Füzuli əqli tərbiyə üçün müxtəlif bilik sahələrinə yiyələnməyi lazım bilmişdir.

Füzuli təhsilin əsası kimi savad təliminə ciddi fikir verilməsini tələb etmişdir. O, hesab edir ki, ibtidai təhsil dövründə şagirdlər savadlı yazmağa, yaxşı nitq mədəniyyətinə və sözü "mərifət" geyimi ilə təqdim etməyə alışmalı, müvafiq bacarıq əldə etməlidirlər. Bu keyfiyyət olmadan verilən təhsil "maarifə qarşı baltaya çevrilir."

Füzuli feodal əxlaq normalarını pisləmiş, insanın cəmiyyətdə fəal şəxsiyyətə çevrilməsini tələb etmişdir. Onun fikrincə, insan faydalı əməlləri ilə cəmiyyətə xeyir verməyi bacarmalı, bununla da özünü tanıtdırıb, etibarlı mövqe kəsb etməlidir. Əks təqdirdə onun varlığı kimsə tərəfindən hesaba alınmaz.

Şəxsiyyətin formalaşması barədə Füzulinin fikirləri orijinal səciyyə daşıyır. O, farsca yazdığı şerlərinin birində deyir;

**"İnsanın zamanə zülmündən şikayət etməsi əbəsdir".**

Füzuli əqli tərbiyənin əxlaq tərbiyəsi ilə vəhdət təşkil etməsini insan şəxsiyyətinin kamilləşməsi üçün mühüm şərt hesab etmişdir.

Füzuli "Söhbətül-əsmar", "Bəngi Badə" və s. əsərlərində şöh-

rətpərəstliyi, riyakarlığı ifşa etmiş, insanpərvərlik və vətənpərvərlik sifətlərinin təbliğinə çalışmışdır. Şair “Oğluma nəsihət” adlı əsərində oğlunu meyvəyə, özünü ağaca, dünyanı bağa oxşatmışdır. Onun fikrincə, yetişən meyvənin ağacdan dərilməsi faydalı olduğu kimi övladın da həddi-buluğa çatdıqda valideyni tərk edib ailə qurması və müstəqil həyat sürməsi məsləhətdir. Məhz bu təqdirdə övlad gəncliyə xas olan müsbət qüvvələrini səmərələşdirməyə imkan tapar, müstəqil şəxsiyyət kimi formalaşıb ictimai həyatda ləyaqətli mövqe kəsb edər. Bu mənada Füzulinin oğlu Fəzliyə nəsihəti tək oğluna deyil, sanki bütün gənclərə nəzərdə tutulmuşdur.

**Dinlə məni, ağıllı balam, diqqət ilə sən,**
**Bu incə nüktə sirrini ta eyləyim bəyan.**
**Qoydun o gün ki, sən bu cahan mülkünə qədəm,**
**Can şirəsilə cisminə verdi qida anan.**
**Süddən ayırdı çün səni dövran dayəsi,**
**Malımla, mülküm ilə tapardı tənin təvan.**
**Möhtac idin mənə nə qədər ki, həyatda sən,**
**Məndən səvay bilməz idin yari-mehriban.**
**Sərf eylədim yolunda bütün ömrümü, bu gün**
**Qaldırmısan qürur ilə baş göylərə yaman.**
**Cismim zəifləşincə göründü yüküm ağır,**
**Məndə bəlanı çəkmək üçün qalmamış o can.**
**Gənclik üzündən işlədiyin hər əməl üçün**
**Yetməzmi tənə vurdu mənə hər qoca, cavan?**
**Udsam bu qəmləri, ey oğul, qorxuram öləm,**
**Rüsvay olaram, qorxuram, etsəm əgər fəğan.**
**Səndən səvay yoxsa da candan mənə əziz,**
**Dırnağı ətdən üzməyə qalmış bugün güman.**
**Meyvə ilə ağac bizə də bir nümunədir,**
**İbrət götür, gözəl deyilibdir bu dasitan.**
**Mənsiz yaşa, qazan özünə hörmət, etibar,**
**Mən maneyəm, yoxunsa bu gün nam ilə nişan.**

## 4.4. NƏSİMİ YARADICILIĞINDA PEDAQOJİ İDEYALAR. HÜRUFİLİKDƏ TƏRBİYƏ

İmadəddin Nəsimi (1369- 1417) Azərbaycanın böyük ədəbi siması, dahi şairi, mütəfəkkiri, ana dilli poeziyamızın və Hürufizmin görkəmli nümayəndəsidir.

Nəsimi Hurufiliyin banisi Fəzlullah Nəiminin goruşlərini mənimsəmiş, davam etdirmiş və Nəimininin təxəllusu ilə həmahəng səslənən "Nəsimi" təxəllusunu qəbul etmişdir. Hərflərin və rəqəmlərin texniki tərəfləri ilə bağlı görüşləri inkişaf etdirməklə hərfləri müqəddəsləşdirən, hürufiliyi bir fəlsəfi-dini fikir sistemi olaraq quran, yayan şəxs azərbaycanlı Fəzlulluah Nəimi Astarabadi (1340-1394) olmuşdur.

Bəzi mənbələrə görə Astarabad və ya Astabad Naxçıvanda Araz çayı sahilində şəhər olmuşdur. Bu şəhər sonralar Araz çayı üzərində su elektrik stansiyası tikilərkən qədim şəhər nümunələri sulara qərq olmuşdur (Bax. Lətif Hüseynzadə. Astabad sulara qərq olmamış.”. “Ədəbiyyat və incəsənət” qəz.11 fevral, 1967).

Nəiminin qəbri hal-hazırda Naxçıvanda Culfa rayonunun Xanağa kəndində, Əlincə çayının sol sahilində Əlincə qalası ilə üzbəüz yamacda yerləşən köhnə qəbristanlıqdadır. Qəbrin üstündə kərpicdən tikilmiş künbəz vardır və o, ziyarətgaha çevrilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 15 noyabr, 2018-ci ildə “Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında” sərəncam imzalamışdır ki, bu sərəncamda deyilir:“Nəsimi dünya poeziyasının ən kamil nümunələri sırasında diqqətəlayiq yer tutan əsərlərində daim insanın əzəmətini, insani məhəbbəti və şəsxiyyətin azadlığını tərənnüm etmişdir...Nəsimi irsinin Azərbaycan xalqının mənəviyyat xəzinəsində layiqli yerini tutması ötən əsrin 70 -ci illərində öz geniş fəaliyyət sahəsində tarixi-mədənidəyərlərimizə münasibətdə əsaslı dönüş yaratmış ümummilli lider Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır. Məhz ulu öndərin təşəbbüsü ilə Azərbaycan ədəbiyyatının görkəmli nümyəndələrindən ilk dəfə Nəsiminin 600 illik yubileyi YUNESKO-nun tədbirlər siyahısına daxil edilmiş və 1973 -cü ildə beynəlxalq miqyasda qeyd olunmuşdur”.

Azərbaycan Respublikası Prezidentinin 11 yanvar, 2019 cu il Sərəncamı ilə də 2019 cu il ”Nəsimi ili” elan olunmuşdur. Həmin sərəncamda deyilir: "Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin zəngin irsi bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsində mühüm əhəmiyyətə malikdir".

Bəli, bu gün də insanların mənəvi- əxlaqi kamilləşməsində, insana dərin sevgi və məhəbbət hisslərinin aşılanmasında Nəsimi irsi, Nəsimi poeziyası, hürufizm fəlsəfəsi və pedaqogikası böyük təsir qüvvəsinə malikdir.

Azərbaycanın orta əsrlər ictimai, dini-fəlsəfi, pedaqoji və ədəbi-mədəni gerçəkliyində sufizmin əhəmiyyətli qollarından biri Hürufizmdir. Panteist dini-fəlsəfi düşüncəni əsas götürən bu cərəyan əsasən XIV-XV yüzilliklər Azərbaycan ədəbi-mədəni, ictimai-siyasi və pedaqoji mühiti ilə o qədər sıx və əsaslı şəkildə qaynayıb qovuşur ki, onu nəzərə almadan həmin dövr ədəbi-pedaqoji fikri dərk etmək çətindir.

Hürufi dedikdə hərf elmi ilə məşğul olan, hərflərdə bir məna axtaran, hərflərə müqəddəs varlıq kimi baxan inanc sahibi başa düşülür. İslam hökmlərində yazıya böyük dəyər verilir və deyilir: "Yazı elmin yarısıdır". Allah-təala Qurani-kərimdə "lövhi-məhfuzda" yazdım deyir. Bu sözün ərəb dilindən tərcüməsi “qorunan lövhə” deməkdir. Qurani-kərimdə bu ad bir neçə ayədə işlədilib. Məsələn: “O, şanlı-şərəfli Qurandır. O, lövhi-məhfuzdadır” (Büruc, 21-22). İslam inancına görə, dünyanın əvvəlindən sonuna kimi baş vermiş və baş verəcək hər şey, bütün hadisələr, əməllər, sözlər, savab və günahlar, o cümlədən, Qurani-kərim və digər səmavi kitablar lövhi-məhfuzda yazılır. Yazılar isə hərflərdən ibarətdir. Qurandakı yazılar Allahın sözüdür. Allahın sözü isə Quranın ruhudur. Quran kitabını açanda ilk növbədə hərfləri görürük. Beləliklə hərflər müqəddəs hesab edilir.

Ümumiyyətlə, ərəb əlifbasının hər bir hərfində bir məna mövcuddur. Bu həm dini, fəlsəfi mənada bir məna, həm də “Əbcəd” hesabında müəyyən bir rəqəmi, ədədi bildirir.

Məsələn, “Əlif” (ا) hərfi özündən sonra gələn heç bir hərflə birləşmədiyi üçün çoxluğa yaxın düşməmişdir, o təkdir. Bu hərf başlanğıc hərfdir və Allahı simvolizə edər. Başlanğıc Allah oldu-

ğuna görə, hər şey Ondan sonra gəlir. Təsəvvüfdə kamil, yetkin insan ərəb hərfləri arasında Əlif (ا) hərfinin rəmzidir. Botanlka aləmində lalə budağının dim dik olması ərəb əlifbasında "Əlif"lə müqayisə edilir. Lalə kəlməsinin yazılışı ilə Allah kəlməsinin yazılışı eyni hərflərlədir. Allah kəlməsində 1 Əlif, 2 Lam, 1 he hərfləri vardır. Əlif hərfinin əbcəd dəyəri 1, lam hərfinin 30, he hərfinin isə 5-dir. Buna görə də "Lalə" ilə "Allah" kəlmələrinin əbcəd hesabı ilə dəyəri 66-dır. "Lalə" ərəb hərfləri ilə yazıldığında (ل ا ل ه) tərs tərəfdən oxunanda ortaya "Hilal" – yəni aypara kəlməsi çıxır(ه ل ا ل).

Qeyd edək ki, aypara islam aləmində geniş yayılmış bir simvoldur. Aypara bayrağımız üzərində dalğalanır. Ayparanı qəbirüstü daşlarda, xalçalar, abidələr üzərində görmək olar. Nədir ayparanın sirrı? Niyə bu qədər geniş yayılmışdır? Belə ki, aypara ərəbcə "Hilal" deməkdir. "Hilal" ərəbcə yazılışına görə "h", "l" "a" "l" hərflərindən əmələ gəlir. "Allah" kəlməsi də bu hərflərdən düzəlir. Hər iki sözdəki hərflərin cəmi "Əbcəd" hesabında "66"- dır. Demək Aypara (Hilal) İslamiyyətdə Allahın simvolu kimi qəbul edilmişdir.

Yaxud, "Vav" hərfi də (و) müqəddəs hərflərdən sayılır. Öz yazılışına və quruluşuna görə əsas üç məna ifadə edir: 1)Formasına görə ana bətnindəki insanı xatrladır; 2)"O" - Allahın özünü xatırladır; 3)"Ol"- Allahın ilk sözünü xatırladır. "Vav" əbcəd hesabında 6 rəqəmini ifadə edir ki, bu həm kainatın simvolu, həm də imanın 6 şərtini (Allaha iman, Peyğəmbərlərə iman, Allahın kitablarına iman, Axirət gününə iman, Qəzavü-qədərə iman, Allahın mələklərinə iman) ifadə edir. İslam alimlərinə görə təssəvvüfdə, əbcəd hesabında Allah kəlməsinin qarşılığı 66-dır. Bu bir birinə kilidlənmiş iki "Vav" hərfinin yazılışı ilə - yəni iki 6 ilə meydana gəlmişidr.

Ona görə də "Vav" birliyi, bərabərliyi bildirir. "Vav" Allahın 99 adından biri olan "Vahid" ismini bildirir və "Vəhdət"in simvoludur. "Vav" həm də qulu təmsil edir. Ana qarnındakı uşağa bənzəyir. İnsan dünyaya "Vav" formasında gəlir və sonra həyatı boyunca "əlif"- (ا ) kimi düz olur, daha sonra da "Vav" formasında da əyilir, dünyadan köçür. "Vav"-ın yazılışında bir gözəllik, estetika olduğundan xəttatlar da ən çox "Vav" hərfi üzərində

çalışmışlar. “Vav” hərfi həmçinin ərəb əlifbasında v, o, ö, u, ü, səslərinin qarşılığını veirir.

İbadət yerlərinin qapısı önündə, padşah, Sultan saraylarının namaz qılınan yerlərinin qapısı başında, ki bu qapı da adam boyundan aşağı yapılır və üstündə üz-üzə yazılmış iki “vav” hərfi yazılırdı. Bu Allahın simvolu kimi qəbul edilir və bura ibadət üçün içəri girənlər baş əyərək bu qapıdan içəri keçərmişlər. İki “vav”ın qarşı qarşıya yazılması həmçinin ürəyin, qəlbin simvolu kimi də qəbul edilmişdir.

**Hürufilikdə, sufilikdə nöqtə vəhdət rəmzidir**. Belə ki, qələmin ucu kağıza və ya lövhəyə toxunduqda nöqtə əmələ gəlir və sonra yazı yazılır. Deməli, nöqtə yazının başlanğıcıdır. Varlığın başlanğıcı da vəhdətə bağlıdır və ondan nəşət edir. Nöqtədən – başlanğıcdan sonra əmələ gələn yazı-xətt isə varlığın tədricən nizamla zühur olmasına işarədir

Hərflərin bir məna, ifadə kəsb etməsi hələ səhabələr dövründən məlum olmuşdur. Həzrəti Əli (s) deyirdi “Bismillah” “ب” (Be) hərfindən meydana gəlmişdir. Mən “Be” hərfinin altındakı nöqtəyəm. “Be” hərfinin təsəvvüfdə müqəddəs bir hərf və bir açar olması haqqında XV əsrdə yaşamış Bərdəli Şeyx İbrahim İbn Məhəmməd İbn Hacı İbrahim İbn Şəhabəddin Bərdəinin (Gülşəni) dəyərli misralan vardır:

**“B” hərfi “bismillahi rəhmani” kəlməsindən,**
**Açar kimi vəhy olmuşdur Allah səsindən,**
**“Bismillah” kimi olmamışdır heç bir açar,**
**O, sözlər ölkəsinin qapısın hər zaman açar”.**

Qurana istinad etsək, nöqtə “B” hərfinin nöqtəsidir. “Quranın sirri Fatihədə, Fatihənin sirri Bəsmələdə, Bəsmələnin sirri “B”-dədir” ifadəsində də hikmət vardır.Yəni nöqtə olaraq qəbul edilən İnsan Onun Yer üzündəki xələfidir. Bundan başqa təsəvvüfdə nöqtə Xal mənasında da işlənir. Burada da xal “Həqiqi vəhdət nöqtəsi” kimi izah olunur.

Hürufilər sözləri varlığın əsası kimi qəbul edirlər. Sözlər “Quran”da və Quran vasitəsilə Allahdan gələn vəhylər dünyanı yaratmışdır. Allahın Qurandakı sözlər vasitəsilə insanda təcəlla etməsi Hürufilik ideyasının əsasını təşkil edir.

Hürufilikdə 7 rəqəmi müqəddəs hesab edilərək açar hesab edilir. Bu Qurandakı Fatihə surəsinin ayətlərini, insanın üzündəki yeddi nöqtə 7 rəqəminə işarət edir ki, insan da həqiqət üçün açar hesab edilir. Bütövlükdə insan şəxsiyyəti, onun yüksək dəyərləndirilməsi, humanizm ideyaları Nəsimi yaradıcılığının əsas ana xəttini təşkil etmişdir. O yazırdi:

**Ey daşa, turabə gövhər deyən insan,**
**İnsan öz lütfü-hüsnüylə gövhər deyilmi.**

Bu gün pedaqoji elmin ən mühüm problemlərindən biri kimi təhsilin humanist, demokratik prinsiplər əsasında qurulması, insan şəxsiyyətinə böyük hörmət və məhəbbət Nəsimi ideyaları ilə həmahəng səsləşir. Nəsiminin "Bəhrül-əsrar"əsəri bir çox illər, hətta XVIII-XIX əsrlərə qədər məktəb və mədrəsələrdə tədris edilmişdir ki, buradakı qəsidələr didaktik və tərbiyəvi əhəmiyyətli olmuşdur.

Filosof-şairin poeziyası çox tez bir zamanda Orta Asiya, Türkiyə və İran xalqları arasında geniş yayılmışdır. Həllac Mənsurla birlikdə onun adı öz əqidəsi uğrunda qeyri-adi sədaqət və cəsurluq rəmzinə çevrilmişdir. Onun əsərləri bir çox dillərə çevrilmiş və həmin dillərdə yazıb-yaradan şairlər onu təqlid etmişlər. Nəsiminin şeirlərini xalq arasında avazla oxumaq və onun hürufi ideyalarını təbliğ etmək üstündə bir çoxları əzablara qatlaşır, hətta canlarından da belə keçmişlər.

Nəsimi "Bulunmaz" rədifli qəzəlində insanlıqdan danışarkən göstərir igidlik iddiasında olan kişi bunu əməli işində göstərməlidir. Sözü ilə əməli bir olmayan, hər çalma qoyan, amma xalqının işinə yaramayanları, hünər, mənsəb sahiblərinin insanlara yardım etməməsini kişilik saymaq olmaz:

**Hər bihünər insafı yox, uş mənsəbi tutdu,**
**Sahib hünərə mənsəbü idrar bulunmaz,**
**Xəlqin əməli azdı, könül yıxıcı ögüş,**
**Bir xəstə könül yapıcı memar bulunmaz.**

Yaradıcılığının ilk dövrlərində Nəsimi də ustadı Nəimi kimi sufizm mövqeyində dayanmış və tanınmış sufi şeyxi Şiblinin təlimini davam etdirmişdir. Bu mərhələdə şair öz əsərlərini "Hüseyni", "Seyid Hüseyni", "Seyid" təxəllüsləri ilə yazmışdır. Lakin X əsrin sufi şairi Həllac Mənsurun təlimi Nəsiminin ruhuna daha yaxın idi.

Nəsimi yaradıcılığının mərkəzində lirik qəhrəmanın aşiq olduğu, onu yüksəldən, kamilləşdirən və öz nuruna qərq edən gözəl Allah, ilahi eşq dayanır. İnsan üçün ən yüksək, ülvi duyğu həmin sevgilinin vüsalına yetişmək, ona qovuşmaq, onda əriyib yox olmaqdır. Şair yazır ki, eşqi günah sayanların sözlərinə baxmayaraq, o, bu yoldan çəkinməyəcək. Çünki yalnız bu yol insanı tanrıya, həqiqətə çatdıra bilər. Nəsiminin bu düşüncələrini poetik tərzdə ifadə edən məşhur şeir də bu fikri təsdiq edir:

**Məndə sığar ikən cahan, mən bu cahanə sığmazam,**
**Gövhəri laməkan mənəm, kövnü məkanə sığmazam.**

Nəsimi bildirir ki, insan nəfsinin qulu olmamalı, dünya malına bağlanmamalı, bütün insanları, yaradılanları sevməli və onları özünə bərabər qəbul etməlidir. "Nəfsə uymak yolunda bulunan kişi rüsva olmuştur. Artık, yatıp qalxarkən onun yoldaşı şeytandır. Ağıllı insansansa dünyaya könül bağlama, şeytan səni aldadar dünya malına meyl edərsən səni əmri altına almış olur. Bundan sonra fəlakətlərə sürüklənirsən, heç nədən xəbərin olmaz."

Nəsimi yazır ki, insan üçün en büyük bəzək mərifətdir, ağıllı insan ömrünü zərə vermez:

**İnsan üçün mərifətdən özgə yoxdur bir bəzək**
**Ağıllı - insan zər üçün öz ömrünü vermez hədər.**

Hürufilik təsəvvüf xətti ilə orta əsrlərin tərbiyə və təhsilində, pedaqoji fikrində, ədəbiyyatında öz qüvvətli təsirini buraxmışdır.

## Tapşırıqlar

1. Azərbaycan mütəfəkkirləri və maarifpərvərləri tərbiyə haqqında.
2. Məhəmməd Nəsirəddin Tusinin "Əxlaqi-Nasiri" əsərində pedaqoji fikirlər.
3. Füzulinin tərbiyə haqqında fikirləri.
4. Nəimi və Nəsimi yaradıcılığında pedaqoji ideyalar.

## ƏDƏBİYYAT

1. Azərbaycanda məktəb və pedaqoji fikir tarixindən. Elmi əsərlər məcmuəsi. Bakı, 1981.
2. Əhmədov. H.M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: Elm və təhsil, 2014.
3. Mərdanov M.C. Azərbaycan təhsil tarixi. I cild. Bakı: "Təhsil", 2011.

# V FƏSİL

# XVII -XVIII ƏSRLƏRDƏ AZƏRBAYCANDA TƏHSİL VƏ PEDAQOJİ FİKRİN GÖRKƏMLİ NÜMAYƏNDƏLƏRİ

## 5.1. XVII- XVIII ƏSRLƏRDƏ AZƏRBAYCANDA TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İNKİŞAFI

XVII-XVIII əsrlər Azərbaycanda məktəb və maarifin inkişafında xüsusi bir mərhələdir. Həmin dövrdə Azərbaycan ərazisində gedən uzun müddətli istilaçı müharibələrin davam etməsinə baxmayaraq, xalq kütləsinin böyük səyi ilə bərpa olunmuş iqtisadiyyat inkişaf etmiş, şəhərlər genişlənmiş, milli mədəniyyət və maarif irəliləmişdi.

XVII əsrin birinci yarısında Azərbaycan dili artıq öz milli hüququna yiyələnmiş və hətta bütün İranın iqtisadi, ictimai və siyasi həyatına nüfuz etmişdi. Səfəvilər dövründə, külli miqdarda Azərbaycan sözlərinin fars dilinə daxil edilməsi buna yaxşı misal ola bilər.

Həmin dövrdə bir çox Azərbaycan məktəblərində təlimin ana dilində aparılması da Azərbaycanda milli mədəniyyətin, xüsusilə də milli maarifin yüksək inkişaf səviyyəsini təsdiq edən faktdır.

XVII əsr mənbələrindən məlum olur ki, bu dövrdə Azərbaycanda ruhanilər və alimlər çatışmırdı, bu əqidəyə xidmət edən ədəbiyyat kifayət qədər yox idi. İctimai-iqtisadi vəziyyətinə görə müsəlman ruhaniləri iki qrupa bölünürdü: 1) ali dərəcəli ruhanilər (şeyx-ül-islamlar, qazılar, axundlar, əfəndilər və.s.); 2) aşağı təbəqəyə məxsus din xadimləri. Buraya dərvişlər, rövzəxanalar, azançılar, hafizlər (Quranı əzbərdən avazla oxuyanlar), seyidlərin aşağı təbəqəsi, dəfn mərasimlərini keçirən mollalar və başqaları daxil idi. Ali təbəqəyə mənsub olan müsəlman ruhaniləri dövlətin əsas dini istinadgahı olmaqla yanaşı, həmin dövlətə arxalanırdılar. Ona görə də onlara yüksək tələb verilirdi. Belə ki, onlar yüksək dini savada

malik olmalı, dinin bütün incəliklərini bilməli və çox ciddi həyat tərzi keçirməli idilər. Mollaları tutduqları vəzifəyə şeyx-ül-islamlar, yaxud qazılar təyin edirdilər. Onlar mollaları bu vəzifəyə təyin etməzdən əvvəl dini ehkamları, Quranı necə bilmələrini yoxlayırdılar. Mollalar öz təhsillərini mədrəsələrdə daim artırır, ərəb və fars dillərini kamil öyrənir, dini kitablarda yazılanlara yiyələnir, sonra isə yerli “alimə”, yaxud da İran və Türkiyədə mədrəsədə imtahan verirdilər. Bundan sonra onlar qazı, yaxud axund adını alırdılar.

Məscid camelər əslində dövrün elmi mərkəzləri və ali təhsil ocaqları hesab olunurdu. Orta və Yaxın Şərq ölkələrində şəhərlərin elmi-ədəbi dairələrinin siması həmin şəhərlərin məscid camelərində gedən mübahisə, müzakirə, mühazirə və tədrisdə öz əksini tapırdı. Buna görə də şəhərlərin elm və mədəniyyət sahəsində tutduğu mövqeləri, səviyyələri çox vaxt məscidlərin sayı ilə hesaba alınırdı. Bu da təsadüfi deyildir ki, Övliya Çələbi Azərbaycanın şəhərlərindən danışarkən birinci növbədə onların məscid camelərinin miqdarını göstərmişdir. Orta əsrlərdə Şərqdə mədrəsələrin geniş intişar tapması Azərbaycanda məhəllə və came məscidlərinin, mədrəsələrin sürətlə inkişafına səbəb olmuşdu ki, bu da ibtidai və orta təhsil verən məktəb, mədrəsə şəbəkəsinin genişlənməsinə və yüksək təhsil verən mədrəsələrin artmasına əlverişli imkan yaratmışdı.

Ö. Çələbi Azərbaycan şəhərlərindən danışarkən yazır ki, “Şamaxının qırx məktəbi var”:, Təbrizin isə “alti yüzə qədər darültəlimi vardır”. Beləliklə, Ö. Çələbinin dediklərindən bu nəticəyə gəlmək olur ki, 1640-cı ildə təkcə Şamaxı və Təbriz şəhərlərində 640 məhəllə məktəbi olmuşdur. Bu məktəblərdən bəziləri o dövrdə böyük şöhrət qazanmışdı. Təbriz məktəbləri sırasında Şeyx Həqqi məktəbi, Həsən Meyməndi məktəbi, Nəqixan məktəbi, Sultan Həsən məktəbi və Sultan Yəqub məktəbi daha məşhur olmuşdur. Bu təhsil ocaqları adlarını daşıdıqları şəxslərin vəsaitləri hesabına inşa edilmişdi. Ö. Çələbi həmin məktəblərdə hər il şagirdlərə hədiyyə verildiyini qeyd etmişdir. O dövrdə 160-a qədər dərviş təkyələri fəaliyyət göstərirdi: ən çox tanınmış təkyələr

Şəms Təbrizi, Bulduq xan, Zeynəb, Aqil, Mirheydər idi.

Həmin məktəblərdə dünya şöhrətli alimlər elmin müxtəlif sahələrini tədris edirdilər. Onlardan Mirzə Məhəmməd Məczuba Təbrizi, İman təxəllüslü Molla Mömin, Mir Əli Nağı Ərdəbili, Mövlana Ələkbər Şirvani, Molla Əliqulu Xalxali, Mirzə İbrahim Ordubadi və s. xüsusilə fərqlənirdilər. Ə. Rəhmani yazır ki, onların mühazirələrinə xeyli Təbrizli gənc gəlirdi.

Bəzi məktəblər vəqf əmlakı hesabına, bəziləri isə dövlət hesabına maliyyələşdirilirdi. Şah Təhmasib açdırdığı məktəbə müəllim təyin edirdi ki, onun da bütün xərcləri xəzinədən ödənilirdi. Özəl məktəblər də vardı ki, burada təhsil alan uşaqların xərcini valideynlər ödəyirdi. Azərbaycanlılar arasında təhsilə maraq indiki kimi güclü idi. Uşaqlar yazıb oxumağı öyrənən kimi onlara hər hansı bir iş tapşırıb, elm və yazı-pozu ilə məşğul olmağı məsləhət edirdilər. İmkanından asılı olmayaraq yazıb oxuya bilməyən adama nadir halda rast gəlmək olardı. Ona görə ki, uşaqlar kiçik yaşlarından məktəbə gedirlər. Onların məscidləri, ibadətxanaları, eyni zamanda məktəbləridir. Hər şəhərdə nə qədər küçə varsa, o qədər məscid və o qədər məktəb vardır. Bu məktəblər məscidlər, məqbərələr nəzdində fəaliyyət göstərən məktəblər idi.

**Şamaxı şəhərində 1640-1641-ci illərdə 40 ibtidai məktəb, 7 mədrəsə var idi**. Şamaxı məktəb və mədrəsələri haqqında A.Oleari yazırdı: “1637-ci il fevralın 5-də mən bizim adamlardan bəziləri ilə birlikdə çox qəşəng tikilmiş və bazaların yanında yerləşən fəlsəfə kollecinə oxşayan bir binanın həyətinə girdim. Bu binanın çoxlu girişləri və otaqları vardır. Bir neçə yerdə böyüklərin və uşaqların əllərində kitabla gəzdiklərini və oturduqlarının görcək biz buranın nə olduğunu soruşduq. Cavabında öyrəndik ki, bura mədrəsədir. Müəllim sinfin ortasında, şagirdlər isə divarın dibi boyu, onun ətrafında dövrə vurub otururlar. Şagirdlər dərsə Quran oxumaqla başlayırlar. Onlar əvvəlcə Qurandan bir neçə surə oxuyub öyrənir, sonra isə Şərq poeziyasının görkəmli nümayəndələrindən, o cümlədən Şeyx Sədinin “Gülüstan” və “Büstan” əsərlə-

rindən şeirlər əzbərləyirlər. Şagirdlərə Hafiz Şirazinin divanından da dərs keçirdilər. Şagirdlər eyni vaxtda dərsi xorla oxuyurdular.

**XVII əsrdə Azərbaycanda məşhur və böyük camelər fəaliyyət göstərirdi: Təbrizdə, Zübeydə-Xatın camesi, Mütəvəkkil Əli-Allah (Dəməşqiyyə) camesi, Sultan Həsən camesi, Şah Abbas camesi, Şah Məqsud camesi, Şamaxıda came Kəbir, Özdəmirzadə camesi, Şəkidə Mirzə Əli-Əkbər camesi, Bakıda Heydər şah camesi, Şabranda uzun Həsən camesi, Toqmaqxan camesi, Uşarxan camesi, Naxçıvanda Əhməd paşa camesi, Fərhad paşa camesi və s. Bu zaman təkcə Şabran, Qarabağ və Təbrizdə 460-a qədər məscid came mövcud idi. Bu camelərdə məktəb və mədrəsələr yaradəlmışdı ki, onlar da böyük nüfuza malik idilər.**

Təbrizdə Qaraqoyunlu Müzəffərəddin Cahan şah camesində yerləşən mədrəsə o dövrdə çox məşhur idi. Onun Quran oxumaq üçün 20-yə qədər dərülkurəsi vardı. Ö. Çələbi Təbrizin məşhur mədrəsələrindən danışarkən yazır: "...Bunların içində cəmi ülüm oxunur. Füzəla-ye dəhrdən alimləri vardır. Ən böyüyü mədrəse-ye Cahanşahdır". Şamaxıda Özdəmirzadə camesində yerləşən mədrəsə də bu qəbil mədrəsələrdən olmuşdur. Ö. Çələbi bu haqda belə yazırdı: "İndiki halda mədrəsədə şəhərin müftisi tədris işi ilə məşğul olur". Şamaxıdakı həmin mədrəsəyə şəhərin Şeyxülislamı kimi böyük müdərrislər cəlb edilmişdi. Ö. Çələbi Şamaxıda 7, Təbrizdə 47, Urmiyada 6, Həmədanda 9, Qəzvində bir neçə məşhur və böyük mədrəsə olduğunu qeyd etmişdir.

Azərbaycanda məktəb təhsilinin inkişafında Şah Abbasın (1587-1620) rolunu xüsusi qeyd etmək yerinə düşər. Belə ki, türk qoşunlarının dəfələrlə hücumları nəticəsində dağıdılmış Azərbaycan şəhərləri Şah Abbasın hökmranlığı zamanında yenidən bərpa edilməyə başlamış, məscid və mədrəsələrin təmir edilməsinə, onların yenidən fəaliyyət göstərməsinə və genişləndirilməsinə ciddi fikir verilmişdi.

Şah Abbasın zamanında Təbriz, Ərdəbil, Marağa, Gəncə,

Şamaxı və Abşeronda tikilmiş bir çox məscidlər (onların hamısının nəzdində mədrəsələr fəaliyyət göstərmişdir) hazırda da mövcuddur. Gəncədə Şah Abbas məscidi nəzdində vaxtı ilə məktəb və mədrəsə üçün tikilmiş tələbə hicrələrindən XIX əsrin axırlarına qədər istifadə edilirdi.

XVII-XVIII əsrlərdə mədrəsələr daha geniş yayıldı və xalqın dini və mədəni cəhətdən inkişafında fəal rol oynamağa başladı. Bu dövrdə müxtəlif yerlərdə ixtisas təmayüllü mədrəsələr də yaradıldı.

**Müsəlman cəmiyyətinin inkişafının sonrakı mərhələsində mədrəsələrdə ixtisaslaşma getdi və üç növ mədrəsə yarandı: 1) xüsusi, 2) ixtisas və 3) ülüm mədrəsələri.** Bu mədrəsələrdə məşhur alimlərin dərsliklərindən istifadə olunur, qədim yunan, İran, Hindistan müəlliflərinin əsərləri öyrədilirdi. Biruninm, Rüşdün, İbn Sinanın da risalələri mədrəsələrdə daha çox istifadə olunan dərsliklərdən biri idi. Biruninin "Münəccimliyin başlanğıcı haqqında düşüncələr" risaləsi riyaziyyat, astronomiya və coğrafiya təlimi üzrə vəsait idi. Tələbələr verilmiş sualların bir neçə cavab variantlarından düzgün olanını seçməli idilər. Təbiəti öyrənən tələbələr İbn Sinanın əsərlərindən geniş istifadə edirlər.

XVII əsrdə Təbrizdə məşhur mədrəsələrdən biri də Sadeqiyyə mədrəsəsi olmuşdur. Bu mədrəsə Səfəvilər dövründə Azərbaycanın maliyyə rəisi olan Mirzə Sadıq tərəfindən tikilmişdi.

**XVII-XVIII əsrlərdə kitabxanalar daha çox elm və tədris mərkəzi kimi fəaliyyət göstərirdi.** O dövrdə kitab evləri, kitabxanalar yaradılırdı ki, bu yerlərdə də bilikli insanlar elm həvəskarlarına müəyyən təhsil verirdilər. Maarifpərvər şəxslər özləri əlyazmaları, kitabları, yazılı mənbələr toplayaraq kitab evləri və kitabxanalar yaradaraq xalqın istifadəsinə verilirdi.

XVII əsrdə Avropadan fərqli olaraq Azərbaycanda kitab çapı işi zəif idi. II Abbasın vaxtında Avropadan mətbəə avadanlığı gətirilməsinə təşəbbüs göstərilmişdi. Lakin kifayət qədər vəsaitin olmaması, daha sonra isə II Abbasın ölümü bu işə mane oldu. Xələfi Şah Süleyman isə kitabsevər alimlərin təkliflərinə qulaq

asmadı.

XVII əsrdə kitabların köçürülməsi işi geniş vüsət alsa da, hər halda kitab çapını əvəz edə bilmədi. Kitab köçürənlər içərisində çoxlu ixtisaslaşmış xəttat və mirzələr var idi. Onlar yalnız kitab evinin və ya feodal elm və incəsənət hamilərinin sifarişi ilə işləyirdilər. Məsələn, 1592-1556-cı illərdə Qızılağacda Azərbaycan xəttatı Əli Feyzi məşhur özbək alimi, ədəbiyyatşünas və dövlət xadimi Əlişir Nəvahinin (1441-1501) seçilmiş əsərlərini Ərdəbil hakimi Fərhad xan Qaramanlının kitabxanası üçün köçürmüşdü.

XVII əsrdə kitabların köçürülməsinin geniş yayılması abidələr üzərindəki yazıların öyrənilməsi üçün gərək olan xəttatlığın inkişaf etdirilməsinə səbəb oldu. Beləliklə, XVI əsrdə Təhmasibin sarayında təşkil edilmiş xəttatlıq məktəbi XVII əsrdə inkişaf edirdi.

Azərbaycan və fars xəttatlığı XVII əsrdə Mir Əbdülbaqi Danişməndin, Əli Reza Təbrizi Abbasın, Mir İmad Qəzvininin əsrin sonunda Məhəmməd Mömin Təbrizinin əsərlərində başa çatdı. Azərbaycan təhsil tarixində XVII-XVIII əsr təhsili və pedaqoji fikri xüsusi bir yer tutmaqdadır.

## 5.2. SAİB TƏBRİZİNİN PEDAQOJİ İDEYALARI

XVII əsrin məşhur və görkəmli mütəfəkkir şairlərindən biri olan Saib Təbrizinin (1601-1676) tərbiyə nəzəriyyəsinin müasirliyi və onun şerlərində təbliğ etdiyi tərbiyə üsulları pedaqoji fikir tariximiz  üçün böyük əhəmiyyət kəsb edir.

Görkəmli Azərbaycan şairi Saib Təbrizi öz zəngin yaradıcılığı ilə Yaxın və Orta Şərq xalqlarının pedaqoji fikir tarixində mühüm yer tutur. İki dildə əsərlər yaradan şair həm şerimizi, həm də pedaqoji fikrimizi forma və məzmunca zənginləşdirmiş və ona yeni bir istiqamət vermişdir. Saibin şeirləri hələ öz sağlığında ikən başlayaraq hər yerdə geniş yayılmışdır. Mənbələrdə  deyilir ki, o, ana dili olmayan fars dilində fars şairlərinin hamısından yaxşı

yazırdı.

Saibin şeirlərinin mühüm hissəsi tərbiyəvi və didaktik səciyyəlidir. Şair çox zaman atalar sözü kimi yadda qala biləcək hikmətamiz beytlər yaradır, hikmətamiz sözləri ilə oxucuya əxlaqi fikirlər aşılamağa çalışır. Ona görə də Saib Təbrizi XVII əsrin ən məşhur maarifpərvər nümayəndələrindən biri hesab olunur. O, öz dövrünün zorakılıqlarına qarşı etiraz etməklə bərabər ədalətli cəmiyyət haqqında utopik fikirlərini ictimai lirik qəhrəmanlarının arzularında əks etdirmişdir.

Onun yaradıcılığında nəsihətçilik, əxlaqi hisslərin tərənnümü və azadlıq arzuları daha bariz hiss olunur. Onun kəskin etirazları, şikayətləri bu yüksək hissin təsirində yaranmışdır. Şair düşdüyü və çıxa bilmədiyi qaranlıq mühitin dar çərçivələri içərisində özünü bir əsir kimi hüquqsuz görmək istəmir. Saray məclislərində yaradıcılığına hörmət görmədiyi zaman dözə bilmir. Minnət ilə yaşamaqdan ölməyi üstün tutur. İstedadı təqdir olunmadığına görə Vətəni tərk etmək məcburiyyətində qalır.

Saib Təbrizinin əsərlərində yer tutan əsas məsələlərdən biri ağır maddi-mənəvi məhrumiyyətlərə düçar olmuş sadə adamların taleyi və gənc nəslin tərbiyəsidir. Bu onun insanpərvərlik qayəsindən irəli gəlmişdir.

Saib də Nəsimi və Qövsi Təbrizi kimi insani varlığın "dürdanəsi" adlandırmışdır. Onun fikrincə yalnız idrakı kamil olanlar yüksək məqama nail ola bilərlər. Bu məqsəd üçün insan öz şəxsiyyətini dərk etməlidir. Çünki "özünü duymaq" insanlığın ilk şərtidir. Buna görə də Saib bütün adamları özünü dərk etməyə çağırmışdır.

**Özünü duymayanın işləri bil ah olacaq,**
**Kim özünü dərk etsə, hər şeyə agah olacaq.**

Saibə görə, özünü dərk etmək üçün hər şeydən öncə tərbiyə vacibdir. Əks təqdirdə insan şüuruna zülmət çökər. Ağıl hakimiyyəti "Həvaye nəfs" -yəni nəfs istəyi olar.

Beləliklə Saib duyğuların təfəkkürlə birləşməsini insan şəxsiyyətinin kamilləşməsi üçün mühüm amil hesab etmişdir. O,

əxlaqi hisslərin tərbiyəsini önəmli saymışdır.

Saib şəxsiyyətin təşəkkülü və formalaşması üçün təbii mühiti ən mühüm pedaqoji təsir hesab etmişdır. Saib, əslində bu amillərin-təhsil-tərbiyə və mühitin vəhdətini zəruri saymışdır. Bu fikir onun elmi-pedaqoji nəzəriyyəsinin əsasını təşkil edirdi.

Öyüd, nəsihət vermək, didaktik fikirlər söyləmək Saib yaradıcılığında xüsusi yer tutur. Bu baxımdan onun şeirində Sədi, Əvhədi, Nəvahi və başqa şairlərin təsiri vardır. Saibin hikmətli nəsihətləri, müdrik öyüdləri öz humanist və xəlqi mahiyyəti ilə seçilir. Şairin bu sıraya daxil olan şerlərində həyatı, dünyanı qəlbən sevən bir insanın həssas düşüncələri, duymaq qabiliyyəti, uzaqgörənliyi, mütəfəkkirliyi oxucunu valeh edir. Saib atalar sözləri kimi mənalı misra və beytlərində insanı düşündürür:

**Gər umarsız ki, cavanbəxt olasız dünyada,**
**Qocalar qədrini zinhar igidlikdə bilin.**

Saib zəmanənin insana münasibəti ilə barışmırdı. Bu həyatda diriyə yox, ölüyə acıyırlar, insanın qədir-qiyməti yoxdur - deyir:

**Bundan qabaqlar ölüb gedənlərə təəssüflənərdi,**
**Bizim dövrümüzdə isə qalanlara təəssüflənirlər.**

Böyüklərə, ata-anaya, müəllimə, ustada hörməti Saib yetkin insanın əxlaqi sifətlərindən biri sayırdı. Müəllimi ən yüksək varlıq kimi tərənnüm edirdi.

**Ağı, qaranı tanıyan bir şəxs,**
**Müəllimini atadan da üstün tutar.**

Şair belə şeirlərində zahiri gözəlliklə daxili (əqli-ürfani gözəllik) gözəlliyi birləşdirir. Saibin didaktik-nəsihətamiz ruhda yazılmış şerlərində əməyə, zəhmətə, dostluğa, ədalətə, düzlüyə, sədaqətə, elm öyrənməyə, mərifət və kamala, insanın əxlaqi-mənəvi saflığına yüksək qiymət verilir. Bunun əksinə olaraq o, dönüklüyü, savadsızlığı, cahilliyi, nadanlığı, təkəbbürlüyü, yersiz hərəkət və danışığı, lovğalığı, riyakarlığı, ikiüzlülüyü, tənbəlliyi, müftəxorluğu, acgözlüyü, mal-dövlət hərisliyini pisləyir. Şair çox vaxt bütün bir qəzəli nəsihətamiz fikirlər əsasında qurur.

Saib pedaqoji təsir vasitəsi kimi kəsərli “sözdən” istifadə etməyə çalışmışdır. Lakin şair ənənəvi tərbiyə üsulu kimi quru nəsihətçiliyi də rədd etmişdir:

**Mən-i məcnuni aqil eyləmək mümkün dəgil naseh,**
**Söz ilən müşki nabi, qan ki, bir qan eyləmək olmaz.**

Saib hesab edir ki, “müşki nabi” söz ilə “qana” çevirmək mümkün olmadığı kimi, nəsihət vasitəsilə da "məcnunların" daxili aləmini dəyişdirmək və onları yönəldikləri həyatdan xilas etmək mümkün deyildir. “Söz” sağlam mühitin təsiri ilə birlikdə fəal təsiredici tərbiyə vasitəsinə çevrilə bilər. Bu mənada “sözün” rolu Saibin diqqətini cəlb etmişdir. Onun fikrincə, tərbiyəvi məqsədə yönəlmiş “söz” müvafiq psixoloji qanunauyğunluqlara əsaslanaraq xüsusi formalarda və lazımi məzmunda ifadə edilərsə “küfri iman eyləmək”-əqidəni dəyişdirmək gücünə malik olar. Ədib və şair kimi Saibin əsərlərində müəyyən fikirlərin təbliği üçün tətbiq edilmiş bədii ifadə və təsir vasitələrin təhlilindən məlum olur ki, o, sözün kəsərini və gücünü o xəlqilikdə görmüşdür. Söz və nəsihət forma və məzmun etibarilə ümumi xalqın düşüncə və amalını tərənnüm edərsə duyğu və təfəkkürə biganə olmadığından şüura nüfuz edib əqidəyə çevrilə bilər. Saib sözün mənasının əqidəyə çevrilməsinin psixoloji əsasına xüsusi diqqət yetirmişdir. Şairə görə söz real varlığı əks etdirdikdə tərbiyəvi məqsəd əldə edilər:

**Doğru söz ox kimidir, düz dəyəcəkdir nişana,**
**Oğul istər kişi tək tab gətirə bilsin ona.**

Saib də böyük Nəsimi və Füzuli kimi əxlaqi sifətləri aşılamaq üçün bədii söz qüvvəsindən və estetik duyğuların köməyindən istifadə etmişdir. Görkəmli ədib qəzəl janrını və bədii sənətkarlıq üsullarını tərbiyə vasitəsi kimi pedaqoji xidmətə səfərbər etmişdir.

Humanist bir şair olan Saib lirikasında insanpərvərlik ideyalarını təbliğ edir, mərdliyi, nəcibliyi, xeyirxahlığı, məğrurluğu, alicənablığı təbliğ edir, insanı insan kimi yaşamağa çağırır:

**Minnət ilə dirilik, Saib, ölümdən də betər,**
**Can verərlər əhli-qeyrət dərdi-bidərman üçün.**

Şair paxıllıq kimi mənfi sifətlərdən uzaqlaşmağın şəxsi həyata müsbət təsir göstərdiyini bildirərək yazır:

**Kim paxıllıq tozunu silsə ürəyindən əgər,**
**Gözlərində yer üzü təzə gülüstana dönər.**

Saib cəmiyyətin hörmətini qazanmaq üçün qeyrətli olmağı, xeyirxah, işgüzar və ictimai-faydalı əməklə məşğul olmağı tövsiyə etmişdir. Məhəbbət, insan və sevgi, insanpərvərlik kimi əxlaqi keyfiyyətlər Saibin şerlərində yüksək bədii ifadəsini taparaq yeni məna qazanır. Saibə görə eşq insan üçün məhək daşıdır, insanın ağlı, kamalı, mərifəti, batini-mənəvi gözəllikləri eşq ilə üzə çıxır. Məhəbbət kimi ülvi bir duyğunun təsiri altında insan ruhu-mənəvi təkamül yolu keçirərək ucalır. Eşq günəşindən nur alan aşiq nəcib, ali əməllər üçün dünyaya gəlmişdir. Onun həyatda sevgidən ayrı həyatı yoxdur, göydən qılınclar yağsa da, aşiq öz yolundan, məsləkindən dönə bilməz. Onun özü də fədakarlıq, doğruluq, həqiqət və gözəllik rəmzidir.

Saib Təbrizinin ana dilində yazdığı əxlaqi, didaktik şeirləri orta əsrlərdə Azərbaycan pedaqoji fikrinin inkişafında mühüm rol oynamışdır. Onun yadigar qoyub getdiyi yüksək sənət nümunələri, təbliğ etdiyi böyük bəşəri ideyalar bu gün də yüksək qiymətləndirilməkdədir.

## 5.3. QÖVSİ TƏBRİZİNİN TƏLİM VƏ TƏRBİYƏ HAQQINDA FİKİRLƏRİ

XVII əsrdə Azərbaycanda pedaqoji fikrinin inkişafında xidmətləri olan mütəfəkkir şairlərdən biri də Qövsi Təbrizidir. O, XVII əsrin əvvəllərində Təbrizdə anadan olmuşdur. İlk təhsilini Təbrizdə atası İsmayıl Qövsidən almışdır. Sonra mədrəsə təhsili almaq üçün Isfahana getmiş, dövrün məşhur müdərrislərdən dərs almışdır.

XVII əsrdə səyahətə xüsusi həvəs göstərən alim, sənətşünas və şairlərlə yanaşı Qövsi də bir müddət Hindistanda yaşamış, öz gözəl, mənalı şerləri ilə hind ədəbi ictimaiyyətinin diqqətini cəlb

edə bilməmişdir. Qövsinin qəzəllərindəki göz yaşı, ah - fəğan, iztirab dərd, kədər mənəvi azadlığı əlində olmayan, məhkum vəziyyətdə yaşayan insanların acı taleyidir.

Qövsinin lirikasında əxlaq tərbiyəsi mühüm yer tutur. O məhəbbəti əxlaqi saflığın mühüm amili kimi qiymətləndirir. Ona görə də məhəbbət mövzusu aparıcı mövzulardandır, həm də dərin ictimai bəşəri səciyyə daşıyır. O, aşiqanə şerlərində duyğuları ifadə edərək, eşqə yeni - yeni məna verirdi. Şairin lirik qəhrəmanı aşiq işıqlı qəlbi, incə, zərif hissləri, əxlaqi - mənəvi gözəllikləri ilə seçilirdi.

Qövsiyə görə eşq əxlaqi - mənəvi kamillik nümunəsidir, həyatın məqsədi, mənasıdır. Eşqi heç bir mal - dövlət ilə almaq olmaz. Eşq aşiq üçün dərdlərinə dərmandır, yalnız məhəbbət insanı həqiqət yoluna gətirib çıxarır.Qövsinin əxlaqi-mənəvi ideyalarına Füzulinin təsiri açıq aşkar şəkildə özünü göstərir ki, bunun da tarixi - ictimai və ədəbi səbəbləri vardır. Burada əsas məsələlərdən biri Qövsinin yaradıcılığını yetişdirən tarixi - ictimai mühitin Füzuli dövrü ilə yaxın olması, onun ədəbi istedad və yaradıcılıq psixologiyası ilə Füzuli sənəti arasında müəyyən yaxınlığın mövcudluğudur.

Qövsinin lirikasında estetik zövq, estetik ideal, estetik tərbiyə mühüm yer tutur, təbiətin al-əlvan gözəlliyi tərənnüm olunur. Onun qəzəllərində gül - çiçək, al rəngli lalələr, düz qaməti ilə gülüstana meydan oxuyan sərv ağacı, şır - şır axan bulaqlar, uca dağlar yeni fəlsəfi məna kəsb edir. Ümumiyyətlə, Qövsi yaradıcılığında bahara qüvvətli bir meyl özünü göstərir, şair baharın yaratdığı sevinci cəmiyyətdə, insan həyatında tapa bilmir və tapa bilmədiyi üçün də kədərlənir. Qövsi, belə mühüm ictimai - siyasi məsələlərdən uzaq olub, əsasən var - dövlət arxasınca qaçanlara istehza ilə gülür, əsl vətənpərvərliyi, ictimai məsələlər haqqında düşünməyi hünər hesab edirdi. Qövsinin şeirlərində insanın şəxsiyyət kimi formalaşmasını təmin edən sağlam mühit, yüksək əxlaqi keyfiyyətlər tərənnüm olunur, insanı alçaldan, onun mənəviyyatını pozan feodal əxlaq normaları pislənir. Qövsi doğruçuluq və doğru sözün təsir dairəsini və müsbət nəticələrini bu cür təsvir etmişdir:

**Doğru söz hər kimsəyə təsir edər naseh, vəli,**
**Aşiqi məst eyləyər-aqilləri hüşyar söz.**

Qövsi öz qəzəllərini ana dilində yazmışdır. Bununla da şeirlərinin Azərbaycan gənclərinə tərbiyəedici təsir gücünü artırmışdır. Şairin bu dildə gənclərə müraciət etməsi, təhsilin ana dilində aparılması tərəfdarı olduğunu əks etdirir.

Qövsinin zəngin yaradıcılığında onun ana dili uğrunda apardığı mübarizə daha mühüm yer tutur. Tarixdən də məlumdur ki, XVII əsrdə Şah Abbasın farslaşdırma siyasəti nəticəsində Azərbaycan dili yavaş - yavaş əvvəlki mövqeyini itirməkdə idi. Bu hal həmin dövrün mütərəqqi ziyalılarını ciddi şəkildə düşündürürdü. Belə bir vaxtda yaşayan Qövsi bir vətənpərvər kimi doğma dilin təəssübünü çəkir, öz yaradıcılığında da ana dilinə üstünlük verirdi.

XVII əsrdə Azərbaycan pedaqoji fikrində mövcud olan əsas ideyalar Qövsi Təbrizinin yaradıcılığında da mühüm yer tutmuşdur.

## 5.4. MOLLA VƏLİ VİDADİNİN YARADICILIĞINDA PEDAQOJİ İDEYALAR

Molla Vəli Vidadi 1707-ci ildə Şəmkir şəhərində anadan olmuşdur. Şairin adı Vəli, təxəllüsü Xəstə Vidadi, atasının adı Məhəmməd, anasının adı isə Xədicədir. Yüksək dini biliyinə və yazı-pozu işləri ilə məşğul olduğuna görə xalq arasında Molla Vəli kimi tanınmışdır. M.V.Vidadi 18 yaşına kimi Şəmkirdə yaşamış, orada dini təhsil almış, ərəb-fars dillərinə mükəmməl yiyələnmişdir. Vidadi zəmanəsinin məşhur şairi olmaqla bərabər, həm də siyasətçi imiş. Onun bacarığı, qabiliyyəti saray adamlarının diqqətindən yayınmamış, şair bir müddət Gülüstan xanlığının sarayında yaşamışdır. Vidadi 1809-cu ilin ilk günlərində, 102 yaşında vəfat etmiş, Şıxlı kəndinin dəfn olunmuşdur.

Molla Vəli Vidadi klassik sənətkarlarımız içərisində ədəbi-bədii irsi az tədqiq olunan şairlərdən biridir. Əldə olunan 55 şeri və üç müsibətnaməsi onun yaradıcılığının böyüklüyündən, zəngin-

liyindən və "qeyri-adi orijinal istedada malik olması"ndan (F. Köçərli) soraq verir. Vidadi xalqa bağlı olan, onların faciəsinə ürəkdən yanan, kədərini, çəkdikləri olmazın əzab-əziyyətləri şerə gətirən, yaradıcılığı ziddiyyətli şairdir. Onun yaradıcılığındakı, dünyagörüşündəki ziddiyyətlər o zaman cəmiyyətin, həyatın özündə idi. Təbii ki, Vidadi də bu təsirdən kənarda qala bilməzdi.

Vidadinin lirikası gənc nəslin milli-mənəvi ruhda tərbiyəsində, vətənpərvər kimi yetişməsində, azad, Azərbaycan vətəndaşı kimi böyüməsində əvəzsiz sərvətdir, tükənməz zəngin xəzinədir. Şairin lirikası hikmətamiz-didaktik fikirlərlə, bəşəri məzmun daşıyan əxlaqi-etik dəyərlərlə, insan mənəviyyatını inkişaf etdirən, onun bir şəxsiyyət kimi formalaşmasına təsir göstərən amillərlə, yüksək ideallar və amallar uğrunda mübarizəyə çağırış notları ilə, haqsızlığa, ədalətsizliyə, saray çəkişmələrinə, şəxsi intriqalara etiraz motivləri ilə zəngindir. Məhz buna görə də onun lirikası gənc nəsli düşünməyə, insanlığın yüksək əməllərini dərk etməyə sövq edir, onlarda gözəl, təmiz hisslərin, pak duyğuların oyanmasına zəmin yaradır, dostluqda vəfalı olmaq, el qədrini bilmək, vətən torpaqlarını sevmək kimi yüksək bəşəri duyğular tərbiyə edir.

Vidadi görürdü ki, ictimai-siyasi hadisələr insan mənəviyyatına ağır zərbə vurur. Cahillərin ucbatından xalq əzab-əziyyət çəkir, adət-ənənələrə hörmət bələnilmir, cəmiyyətdə baş verən hərcmərclik əxlaqi dəyərlərə mənfi təsir göstərir. Vidadi belə bir dövrdə insanlıq meyarlarının itdiyi nizamsız cəmiyyətdə ehtiyatlı olmağın zəruriliyini bildirilərək gənclərə nəsihət edirdi.

Vidadi insan şəxsiyyətinin formalaşmasında, mənəvi inkişafında, əxlaqi kamilliyində tərbiyə və təhsil almağın böyük rolunu qeyd edirdi. Düzgün tərbiyə insanı kamilləşdirir, insan təhsil aldıqca özünün ləyaqətini dərk edir. Mükəmməl mədrəsə təhsili almış, ərəb-fars dillərinin incəciklərinə yiyələnmiş, dövrün ictimai-siyasi hadisələrinin zövqündə durmağa qabil olan Vidadi, əqli təhsilə, elm öyrənməyə, təbiətin, cəmiyyətin, cahanın sirlərindən agah olmağa böyük əhəmiyyət verir, gənc nəslin bütün elmlərdən,

sənətlərdən xəbərdar olmağı tövsiyə edirdi. Bütün gəncliyi, o cümlədən canı dildən sevdiyi oğlu Osmanı elmli görmək istəyirdi:

**Ey həlimü əlimi-rəbbani,**
**Elm ilə möhtərəm qıl Osmani.**

Vidadinin bu diləyi çin olmuş, oğlu Osman da atası kimi mükəmməl təhsil almış, bir müddət Qafqazda dini idarəsində müfti olmuşdur.

Vidadi yaradıcılığında əxlaq tərbiyəsinin ayrılmaz və həlledici tərkib hissələrindən biri vətənə və xalqa məhəbbətdir.

Şairin lirikasında qəriblik, vətəndən ayrı düşmək, vətənə sonsuz və intəhasız sevgilərlə bağlı notlar aparıcıdır. Vətənə, təmsil etdiyi xalqa məhəbbət hissi onun yaradıcılığının leytmotivini təşkil edir. Şairin lirik qəhrəmanını yaşadan, ona qol-qanad, ilham verən, həsrətdən parə-parə qəlbinə məlhəm olan Vətəndir, onun milli nemət yetirən torpağıdır, əlçatmaz, ünyetməz qayalarıdır, lacivərd ətəkli səmasıdır. Vidadinin şeirlərində ata-ana, qohum-qardaş həsrəti də vətənpərvərlik hissi ilə bağlanmışdır:

**Hər məzara düşər olsa güzarın,**
**Yada düşər ata-ana məzarın.**
**Vidadi xəstə tək artar azarın,**
**Bir gün olur vətən deyib ağlarsan.**

İctimai duyğu və düşüncələrin ifadəsinə çevrilmiş Vidadi lirikasında əsas diqqət şəxsiyyətin zahiri aləminə deyil, onun daxili-mənəvi aləminə, taleyinə, keçirdiyi psixoloji vəziyyətin təsvirinə verilmiş, şəxsiyyətin mənəvi inkişafında buxova çevrilmiş amillərin, ətraf mühitin eybəcərliklərinin tənqidinə həsr olunmuşdur.

Vidadiyə görə, bu zəmanədə nəinki insanlar, hətta dilsiz-ağızsız durnalar da kədərlidir; onlar qərib-qərib, qəmgin-qəmgin ötərək həzin nəğmə oxuyur, şadlanmırlar. Çünki onların da yolu nakəslərlə, hərami və yağılarla doludur. Durnalar da insanlar kimi qəmlidir, ona görə də şair durnaların şirin-şirin nəğmələrini dinlədikcə kədərlənir. Ürək ağrısı ilə oxucusuna məlumat verir ki, nəinki yerdə yaşayan insanlar, habelə göydə uçan quşlar da belə

zəmanədə şad deyillər. Sonra şair bu qəmginliyin, kədərin səbəblərini açır, "Durnalar" şeiri ilə çox ustalıqla, sənətkarlıqla dövrünə etirazını bildirir, dövrandan, yaşadığı mühitdən şikayət edir. Bu şikayətlər "çərxi-fələyə" qarşı yönəlsə də, şair öz zamanəsinin ictimai yaralarını nəzərdə tutur. Xanları, sultanları həqiqətin düşmənləri sayır, onlarda dostluqdan, yoldaşlıqdan, ədalətdən, sədaqətdən əsər-əlamət görmür.Yüksək əxlaqi keyfiyyətlərdən, insani hisslərdən məhrum olan belə adamları Vidadi tənqid edir, onlara nəsihət edir, həyat hadisələrinin, xüsusisən də tərbiyənin gücü ilə onların dəyişəcəyinə inanır. Şair öz dostu Vaqifə məktubunda da hakimlərə öz münasibətini açıq göstərmiş, xanların vəfasızlığını ona xatırlatmışdır:

**Çox bulunma bu dünyanın qanına.**
**Vəfa yoxdur, sultanına, xanına.**

Sadə insanların yaşaması üçün qəfəs olan, hər bir gözəl idealı puç edən, şəxsiyyətin mənəviyyatına sağalmaz yaralar vuran orta əsr saray çəkişmələrinin ifşasına həsr olunmuş digər şerlərdə də Vidadi həmin naqisliklərin, eybəcərliklərin səbəbini açmağa çalışır, başqalarından fərqli olaraq demək olar ki, öz istəyinə nail olur.

Vidadi övladı böyük nemət kimi qiymətləndirir, onun tərbiyəsinə, cəmiyyətdə yüksək mövqe sahibi olmasına, şəxsiyyət kimi formalaşmasına böyük əhəmiyyət verirdi.

Ümumiyyətlə, dostluq, yoldaşlıq, əhdə sadəqət, vəfalı olmaq kimi yüksək əxlaqi hisslərin tərbiyəsi Azərbaycan pedaqoji fikrində, xalq pedaqogikasında həmişə yüksək qiymətləndirilmişdir. Vidadi də bivəfa yadlara könül verməməyi, onlardan uzaq olmağı məsləhət bilir. Ürək ağrısı ilə bildirir ki, belələrinə könül versən, yoldaşlıq etsən, sirdaş olsan fələk səni dürlü-dürlü odlara salar, bəlalara düçar edər, könlün şan-şan olar, ömrün bada gedər.

Vidadi insanda ən müsbət cəhətlər, insani keyfiyyətlər, mənəvi yetkinlik, əxlaqi saflıq axtarır. Onun fikrincə insan həm zahirən, həm də mənən gözəl olmalıdır. Vidadi lirikasında mənəvi gözəllik əxlaqın ilkin şərti hesab olunur, təkcə vəfa və etibar deyil, ağıl,

kamal, mərifət, səmimiyyət, nəciblik, mərdlik kimi keyfiyyətlər ön plana çəkilir.

Mənəvi gözəlliyin ən başlıca xüsusiyyəti kimi ədəb, mərifət, saf və təmiz məhəbbət səciyyələndirir. Vidadinin yaradıcılığında insanın mənəvi dünyası, bəşəri dəyərlər əsasında formalaşan əxlaqi keyfiyyətləri, insani hissləri, məhəbbət aləmi təsvir olunur, daxili gözəlliyi səciyyələndirən amillər tərənnüm olunur.

Ümumiyyətlə, Azərbaycan ədəbiyyatında, pedaqoji fikrində, xüsusilə xalq pedaqogikasında insanların zahiri aləminin təsvirindənsə, onun mənəvi aləminə daha çox diqqət yetirilmişdir. Etiraf etmək lazımdır ki, şəxsiyyətin hərtərəfli formalaşmasında, inkişafında zahiri gözəllik də az rol oynamır.

Vidadinin gözəlləri – sadə Azərbaycan qızları daxilən gözəl olduqları kimi, zahirən də gözəldirlər. Şairi dərdə salan, ağlını aparan məhz belə gözəllərdir: Leyli timsallı, ahu gözlü, bənövşə boylu, lalə üzlü, şirin sözlü, sədəf dişli.

Vidadi insanın həm də ruhi inkişafının tərəfdarı olmuşdur. O, islam dininin bütün qayda-qanunlarına riayət etmiş, dini ayinləri icra etmiş, Quranın müqəddəsliyinə tapınmışdır. Lakin o fırıldaqçı mollalara, namaz əhlinə inanmağa çağırmış, onların qapısını cəhənnəm qapısı adlandırıb onlardan uzaqlaşmağı məsləhət görmüşdür. Füzuli lirikasında özünü qabarıq şəkildə göstərən motivlər Vidadi yaradıcılığında sanki təkrar olunur və burada da həyat, eşq, məhəbbət motivləri hər cür dini ehkamlara qalib gəlir.

Şəxsiyyətin hərtərəfli inkişafı, əqli tərbiyəsi, əxlaqi yetkinliyi, mənəvi bütövlüyü baxımından Vidadi yaradıcılığının böyük əhəmiyyəti var. Onun yaradıcılığının vətənpərvərlik, insanpərvərlik, humanizm ideyaları, məhəbbət, dövrandan narazılıq motivləri ilə, bir sözlə, pedaqoji ideyalarla zəngindir.

## 5.5. M. P. VAQİFİN MÜƏLLIMLİK FƏALİYYƏTİ VƏ TƏLİM-TƏRBİYƏ HAQQINDA FİKIRLƏRİ

M.P.Vaqif 1717-ci ildə Qazax mahalının Qıraqsalahlı kəndində doğrulmuşdur. Əsil adı Pənah, atasının adı Mehdi ağadır. O, əvvəllər dövrünün tanınmış alimlərindən olan Şəfi Əfəndinin yanında təhsil almış, daha sonra isə mədrəsə bitirmişdir.

Hələ kiçik yaşlarından xalq yaradıcılığına, aşıq sənətinə böyük həvəs göstərən M. P. Vaqif çox az bir vaxtda öz şer sənəti ilə, mütaliəsi ilə, məktəbdarlığı ilə ictimaiyyət arasında böyük hörmət qazanmış, "Molla Pənah" adı ilə tanınmışdır.

Molla Pənah Vaqif XVIII əsrin böyük vətənpərvər şairi olmaqla bərabər, həm də böyük pedaqoq, müəllim və məktəbdar olmuşdur. Onun yaradıcılığında vətənpərvərlik motivləri yüksək yer tutmaqla bərabər, həm də məktəb, təhsil və tərbiyə haqqında dəyərli fikirləri öz əksini tapmışdır. Şair elmin, təhsilin əhəmiyyətini bədii yaradıcılığında əks etdirdiyi kimi, əməli fəaliyyətində də bunu etmiş, gənc nəsli elmə, maarifə, dərin bilik və dünyagörüşə sahib olmağa səsləmişdir. Elmə böyük həvəs və maraq elə Vaqifin öz həyatında, əməli fəaliyyətində görünməkdədir. O təhsil illəri dövründə elmin əsaslarına mükəmməl yiyələnmiş, ərəb və fars dillərini mənimsəmiş və sərbəst danışmış, fəlsəfəni, siyasəti, tibbi, astronomiyanı, musiqini mükəmməl öyrənmiş, müxtəlif elm sahələrinə vaqif olmuşdur. Elə Vaqif adı da buradan meydana gəlmiş, yəni hər şeydən xəbərdar, məlumatlı olmaqdır. Xalq arasında deyilmiş **"Hər oxuyan Molla Pənah olmaz"** - deyimi də onun geniş bilik və dünyagörüşünə sahib olmasından xəbər verir. O ilk təhsilini Qazaxda tanınmış alim və pedaqoq Şəfi Əfəndidən almış, onun yanında oxumuşdur. Bəzi salnaməçilər belə hesab etmişlər ki, o sonrakı təhsilini Gəncə şəhərində və daha sonra Təbrizdə aldıqdan sonra Qazaxda məscid nəzdində fəaliyyət göstərən mədrəsədə dərs demiş, pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Lakin, Gürcüstanda baş verən feodal savaşları, ixtilaflar Qazaxa da təsir göstərmiş,

köçkün həyatı başlamışdır. Vaqifin ailəsi Qarabağın Tərtərbasar kəndində sığınacaq tapmışdır. Vaqif burada məktəb açmış, xalqın savadlanması ilə məşğul olmuş və geniş müəllimliklə məşğul olmuşdur. Lakin, bir kəndin mollasından aldığı cüzi maaş Vaqifin böyük ailəsinin maddi ehtiyaclarını ödəməmiş və Vaqifin ailəsi kasıblıq həddində yaşamışdır. Necə ki, O yazırdı:

**Bayram oldu, heç bilmirəm neyləyim...**
**Bizim evdə dolu çuval da yoxdur.**
**Dügüylə yağ hamı çoxdan tükənmiş**
**Ət heç ələ düşməz, motal da yoxdur.**
**Allaha bizmişik naşükür bəndə,**
**Bir söz desəm, dəxi qoymazlar kəndə.**
**Xalq batıb noğula, şəkərə, qəndə,**
**Bizim evdə axta zoğal da yoxdur.**
**Bizim bu dünyada nə malımız var,**
**Nə evdə sahib camalımız var.**
**Vaqif, öyünmə ki, kamalımız var,**
**Allaha şükür ki, kamal da yoxdur.**

Şair, "kamal da yoxdur" deməklə, o dövrün yetişməkdə olan nəslinin bilik və kamalının az olmasını diqqətə çatdırır və xalqı kamala, elmə səy etməsini arzulayır, bunun hər cür var dövlətdən üstün olduğunu göstərir və yazırdı:

**Sən gülşən, bülbülü sev, xarı istəmə,**
**Hərgiz kamal istə, varı istəmə.**

Vaqif bildirirdi ki, kamal sahibi olmaq, cəhalət və nadanlıqdan uzaq olmaq deməkdir. Elm və mərifət əldə etmiş təhsilli adamlar bütün bacarıqlarını xalqın mədəni dünyasının inkişafına sərf etməlidir.

M.P.Vaqifin irsində böyüyən nəslin əqli təhsili məsələləri böyük yer tutur. Öz dövrünün görkəmli şairi olmaqla bərabər, həm də təcrübəli, tədbirli siyasi xadim, elmə, maarifə xüsusi əhəmiyyət verən məktəbdar olmuşdur. Şair elmin, maarifin əhəmiyyətini özünün əməli yaradıcılıq işində də, ictimai-siyasi fəaliyyətində nümayiş etdirmiş, gəncləri oxumağa, elmin dərinliklərinə baş vurmağa

həvəsləndirmişdir. M.P. Vaqifin şerlərində böyüyən nəslin əqli təhsil məsələləri böyük yer tutur. Vaqif mənsub odluğu xalqın gənclərini elmə, maarifə yiyələnmiş açıqgözlü, əyrini-düzdən, pisi yaxşıdan seçməyi bacaran, həyat hadisələrini düzgün dərk edən, mədəni bir nəsil kimi görmək istəyirdi.

Bu səbəbdən o, yetişən nəslin məktəb təhsili almasını və elm, bilik əldə etməsini yüksək qiymətləndirirdi. M.P.Vaqif mükəmməl mollaxana və mədrəsə təhsili almış, uzun müddət məktəbdarlıqla məşğul olmuşdur. Ona görə də, onun poeziyasında böyüyən nəslin əqli, əxlaqi, etik, estetik tərbiyə ilə bağlı kifayət qədər fikir və ideyalar mövcuddur. Onun yaradıcılığında şəxsiyyətin formalaşması ilə bağlı bütöv bir sistem mövcuddur.

M.P.Vaqifin şeirləri gənc nəsildə elmi dünyagörüşün formalaşmasında, keşməkeşli və şərəfli tariximiz, mədəniyyətimiz, adət-ənənələrimiz zəminində milli ruhda tərbiyəsində böyük rol oynayır. Onun şerləri tarixi məlumatlar vermək baxımından olduqca maraqlıdır. Daha doğrusu, onun şerləri Azərbaycan həyatının, mədəniyyətinin, tarixinin bir mərhələsidir.

M. P. Vaqif ana dili və onun tədrisi haqqında elmi-nəzəri fikirlər irəli sürməsə də yazmış olduğu şerlərinin təhlilindən aydın olur ki, o, şeri xalqın başa düşəcəyi tərzdə, saf ana dilində yazmağı ön plana çəkərək onu kütlələrin şüuruna təsir edən qüvvətli vasitə kimi baxmışdır. Xalqın yaradıcılıq qüvvəsinə dərin inam və məhəbbət bəsləyən şair əqli qabiliyyətlərin inkişaf etdirilməsi üçün təlimin ana dilində aparılmasını irəli sürmüşdür. Bu tələbi öz yaradıcılığı ilə sübut edərək başqalarına da nümunə göstərmişdir. Belə ki, geniş xalq kütlələri ilə danışmaq üçün ana dilində yazmağı zəruri hesab etmişdir. Təsadüfi deyildir ki, onun yazdığı şerlərdə Azərbaycan dilinə məxsus təbiilik, aydınlıq, gözəllik, obrazlılıq, axıcılıq öz ifadəsini tapır.

M.P.Vaqif xalq yaradıcılığının zəngin xəzinəsindən dərin mənalı ifadələri, gözəl və obrazlı sözləri diqqətlə seçib ədəbi dilimizə gətirməyə çalışmışdır. Özünəqədərki klassik ənənələrin çərçi-

vəsindən kənara çıxaraq adi danışıqdan, sadə ifadə tərzindən məharətlə istifadə edərək ana dilində Azərbaycan xalq poeziyasının orijinal nümunələrini yaratmışdır. Dilimizin, xalq ruhunun təmizliyini, sadə və aydınlığını, varlığını, sübut etməyə çalışmışdır. Bu da Vaqifin xalq yaradıcılıq nümunələrinə, danışıq dilinə dərin bələdliyindən və xalqa olan məhəbbətindən irəli gəlir. Vaqifin dili mənalı və çox anlaşıqlıdır. Onun sözü, ifadə və cümlələri sadə olduğu qədər də təbii və şirindir. Bu isə xəlqiliyin gözəl təcəssümüdür. Vaqifə görə xalqın həyat və məişətinə aid olan, onun ruhunu oxşayıb hiss və duyğularını sevinc və kədərini ifadə edən hər bir söz gözəl və qiymətlidir. Vaqif fars və ya ərəb ifadələrini tətbiq etməkdən xeyli çəkinmiş, xalqın asanlıqla başa düşdüyü təmiz ana dilində yazmışdır.

Əxlaq tərbiyəsi Vaqifin yaradıcılığında Azərbaycan xalqının adət və ənənələri, milli həyat tərzi, dövrün əxlaqi, estetik normaları yüksək peşəkarlıqla təsvir edilmiş, şəxsiyyətin ahəngdar inkişafına təsir göstərən amillər, tərbiyənin, məqsədi, məzmunu ilə bağlı fikirlər öz əksini tapmış, mübarizəyə, həyata bağlılıq, həyat nemətlərindən istifadəyə çağırış motivləri mühüm yer tutmuşdur. **M.P.Vaqifə görə tərbiyənin məqsədi vətənpərvər, xeyirxah, öz xalqını, vətənini bütün varlığı ilə sevən, bədxahlara, yadelli düşmənlərə qarşı mübarizə aparan nikbin insanlar tərbiyə etməkdir.** Gənclərdə yüksək mənəviyyat, insani keyfiyyətlər aşılamaq ideyası Vaqifin sevgi və məhəbbət tərənnüm edən şerlərində özünü daha çox göstərir. Vaqifə görə eşq, məhəbbət bir fərdə aid olmayıb, ümumbəşəri həyat eşqidir. Sevən hər bir şəxs mənəvi-əxlaqi keyfiyyətlərə malik olmalı, gözəlliyi həyatın özündə axtaran nikbin baxışlı bir insan olmalıdır.

M.P.Vaqifin vətən övladlarını xəlqilik ruhunda tərbiyə etmək arzusu onları yüksək əqli inkişafa malik saf mənəviyyatlı insanlar kimi görmək istəyi onun vətənpərvərliyindən doğurdu. M.P.Vaqifə görə, vətənpərvərlik xalqın yaradıcılıq qüvvəsinə inam, vətənin tərəqqisinə, ana torpağına, dilinə, mədəniyyətinə şüurlu sədaqət və

məhəbbət tərbiyə etməkdən ibarətdir.

Vaqif qadına, onun namus və qeyrətinə, ləyaqətinə, analıq tərəfinə yüksək qiymət verir, onun gözəllik və kamalını dini əfsanələrin müqəddəs elan etdiyi on məşhur rəmzi surətlərlə müqayisə edir, canlı Azərbaycan qızını bunların hamısından üstün tutur.

Bu da Vaqifin qadınları zəngin mənəviyyata malik təhsilli insanlar kimi tərbiyə edib yetişdirmək arzusundan irəli gəlir. Qadın azadlığının alovlu təbliğatçısı kimi o, qız-gəlinləri şux, şən, xoşbəxt, sadə, təvazökar, açıq-saçıq, pərdə, sıxıntı və əsarətdən azad görmək istəyir. Bir şeirində qadınların büründüyü yaşmağa qarşı çıxır və göstərir ki, gözəllik gizlədilə bilməz, örtülməsi günahdır, yalnız mənəvi eybəcərlik, naqislik eyib olmalıdır:

**Allaha şükür, lalə yanağında eyib yox,**
**Dişində, dəhanində, dodağında eyib yox..**
**Bir zərrəcə zülfündə, buxağında eyib yox,**
**Qaşında, gözündə, qabağında eyib yox.**
**Dəxi nə yaşınmaq, nə bürünmək, nə utanmaq?**

Vaqifin qadın azadlığı və tərbiyəsi haqqında ideyaları və mübarizəsi öz dövrü üçün, şübhəsiz mütərəqqi bir hadisə kimi yüksək qiymətləndirilməli, onun ailə münasibətləri, qadın ləyaqəti, sevgidə, məhəbbətdə sədaqətlilik, səmimiyyət, inam, etibar və s. haqqında olan tövsiyələrindən müasir gənclərimizin tərbiyəsində geniş istifadə olunmalıdır.

M.P.Vaqifin əsərlərində təlim və tərbiyə motivlərinin araşdırılıb müəyyənləşdirilməsi, sistemləşdirilməsi göstərir ki, o, XVIII əsrdə mühüm pedaqoji məsələlərə toxunmuş, təlim-tərbiyəyə dair fikirlərini öz əsərləri ilə xalq kütlələri arasında yaymağa çalışmışdır. Vətəninə, xalqına, onun dilinə dərin ehtiramla yanaşan şair yetişən nəslin tərbiyəsini və təlimini xəlqilik əsasında qurmağı lazım bilmişdir. Onun istər ədəbi aləmdə yaratdığı yeniliklər, istərsə də təlim-tərbiyə haqqında irəli sürdüyü ideyaları özündən sonra yetişən şair və mütəfəkkirlərin yaradıcılığına öz təsirini göstərmişdir.

## 5.6. QASIM BƏY ZAKİRİN PEDAQOJİ FİKİRLƏRİ

Qasım Bəy Zakir (1786-1857) Şuşada bəy ailəsində anadan olmuşdur. O, mollaxanada təhsil almış, ərəb və fars dillərini dərindən öyrənmişdir.

Zakir zəhmətkeş xalqla, rəiyyətlə yaxından əlaqə saxlamış, onlara qayğı göstərmiş, dövrünün ictimai ədalətsizliklərini də kəskin tənqid etmişdir. Buna görə 1850-ci ildə heç bir əsas olmadan dövlət məmurları tərəfindən Zakiri həbsə alaraq Bakıya sürgün edirlər. Zakirin Bakı həyatı o qədər də yaxşı keçmir. M.F.Axundovun hakim dairələrə müraciət edərək Q. Zakirin vətəninə qayıtmasına nail olur. Şair Şuşaya qayıdıb ömrünün son illərini polis nəzarəti altında keçirir. O, 1857-ci ildə Şuşada vəfat edir.

Q. Zakirin yaradıcılığında vətənpərvərlik motivləri mühüm yer tutur. O, vətəni özünün həyatı, yaxın dostu, sirdaşı, səadətli həmdəmi hesab etmişdir. Zakirin ədəbi irsinə müxtəlif mövzular və janrlarda yazılmış şerlər daxildir. Zakir şerlərinin çoxunun çapını görməmişdi. O, ümumiyyətlə, çar sisteminin əleyhdarı olmuşdu.

Zakirə görə, tərbiyə xalqı bəladan xilas edə bilər. Ona görə də tərbiyə ədalətli, mərd, mübariz, əməksevər, vətənpərvər insan yetişdirməlidir. Zakir insanın tərbiyəsində, onun şəxsiyyət kimi formalaşmasında irsiyyətlə yanaşı, mühit və tərbiyəyə diqqət yetirməyi zəruri sayırdı. O, gənc nəslin əxlaq tərbiyəsinə, dostluq, yoldaşlıq, mərdlik, böyüyə hörmət və s. keyfiyyətlərin təşəkkülünə qayğı göstərməyi tələb edirdi.

Qasım bəy Zakirin yaradıcılığında diqqəti cəlb edən cəhətlərdən biri də sevgi, evlənmək, ailə qurmaq, ailə tərbiyəsi kimi məsələlərə açıq gözlə baxmasıdır. Onun əsərlərində məhəbbət əxlaqi hiss kimi qiymətləndirilir, ailə münasibətlərində ilkin mərhələ kimi təqdim olunur. Zakirə görə, ailə münasibətlərinin möhkəmliyində, ailə tərbiyəsində başlıca amil qarşılıqlı sevgi və yaş uyğunluğunun olmasıdır. O, ailə həyatının müqəddəsliyini qoruyub saxlamaq, uşaqların tərbiyəsi qeydinə qalmaq və s.

məsələləri zəruri saymışdır.

Qasım bəy Zakir sevgi, ailə qurmaq, evlənmək kimi həyati məsələlərə "Məlikzadə və Şahsənəm" hekayəsində ətraflı toxunur. Bu əsərdə "Leyli və Məcnun" poemasında olduğu kimi bir-birini alovlu məhəbbətlə sevən iki cavandan və sevginin yüksək, müqəddəs bir hiss olmasından, mənəviyyatdan, əxlaqi keyfiyyətlərdən bəhs edilir.

Zakir ana dilinə, milli uşaq ədəbiyyatının yaradılmasına xüsusi əhəmiyyət vermişdir. Onun şerləri tərbiyəvi əhəmiyyətli olub, xalqa doğru meylin ən bariz nümunəsidir. Xalqın bədii təfəkkürünün məhsulu olan və özündə əks etdirən atalar sözləri, zərbi-məsəllər onun yaradıcılığının əsasını təşkil edir. Zakirin uşaq və yeniyetmələr üçün yazdığı “Aslan, qurd və çaqqal”, “Dəvə və eşşək”, “Tülkü və qurd”, “Xain yoldaşlar haqqında”, “Tülkü və şir”, “Sədaqətli dostlar”, “Tısbağa, qarğa, kəsəyən və ahu” kimi şerləri uşaqların psixologiyasına, dünyagörüşünə, tərbiyəsinə, əxlaqına əsaslı təsir edərək onlarda bədii təfəkkür və zövqün formalaşmasına, mənəvi keyfiyyətlərin tərbiyəsinə şərait yaradır.

Qasım bəy Zakirin əsərləri bu gün ictimai tərbiyə vasitəsi kimi gənc nəslin əxlaqına, davranışına, ailə münasibətlərinə, dünyagörüşünə müsbət təsir göstərir, bədii-estetik zövq mənbəyi kimi gənclərdə yüksək mənəvi-əxlaqi keyfiyyətləri aşılayır.

Qasım bəy Zakirin əsərlərində irəli sürülən tərbiyə məsələləri yetişən nəslin əxlaq tərbiyəsində müəyyən rol oynadığı kimi, pedaqoji fikrin də zənginləşməsinə təsir göstərmişdir.

# VI FƏSİL
# XIX ƏSR VƏ XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA TƏHSİL VƏ PEDAQOJİ FİKRİN İNKİŞAFI

**Əhatə olunan məsələlər:**

6.1. Azərbaycanda təhsilə dair Çar Rusiyasının həyata keçirdiyi siyasət.
6.2. Azərbaycanda Qəza məktəbləri. Yeni tip müsəlman məktəblərinin yaranması.
6.3. Yeni tip ibtidai məktəblərin açılması.
6.4. Kənd ibtidai məktəblərinin təşəkkülü.
6.5. Şəhər məktəblərinin yaradılması.
6.6. Azərbaycanda qadın təhsili barədə.
6.7. Bazar günü məktəbləri, axşam savad kursları.
6.8. Sənət məktəblərinin açılması.
6.9. Rus-Azərbaycan məktəbləri. Ana dilli məktəblərin yaranması.
6.10. Natamam orta və orta məktəblər.
6.11. Maarifçilik (xeyriyyəçilik) hərəkatı.
6.12. Müəllim kadrları hazırlığı.
6.13. XIX əsr və XX əsrin birinci yarısında görkəmli Azərbaycan maarifpərvərlərinin tərbiyə və təhsil haqqında fikirləri.

## 6.1. ÇAR RUSİYASININ HƏYATA KEÇİRDİYİ TƏHSİL SİYASƏTİ

Ulu öndərimiz Heydər Əliyev hələ 1997-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasında görüşü zamanı milli tariximizin yazılması, araşdırılması və tədrisi sahəsində qarşıda duran vəzifələrdən danışarkən, ***“İlk növbədə Azərbaycanın XIX-XX əsrlər tarixi yazılmalıdır”*** - elmi və pedaqoji ictimaiyyətə tapşırığını vermişdir.

Azərbaycanda təhsilə dair Rusiyanın həyata keçirdiyi siyasət elə qurulmuşdu ki, təhsilin əsas məqsəd və vəzifəsi yerlərdə, dövlət

idarələrində işləyə biləcək qulluqçular-məmurlar hazırlanmasına xidmətdən irəli getməsin, imperiya daxilində yaşayan xalqların milli-mənəvi dəyərləri, adət və ənənəsi, mədəniyyəti inkişaf etməsin, “çar ata” ya sədaqətli təbəələr tərbiyə edilsin.

Qafqazda tətbiq edilən ümumi ruslaşdırma siyasəti ilə bərabər, azərbaycanlıların gələcəkdə xristianlaşdırılması siyasətinin həyata keçirilməsi də nəzərdə tutulurdu. Məhz bu, cəhət Çar Rusiyasının Azərbaycanda həyata keçirdiyi təhsil siyasətinin mühüm istiqamətini təşkil edirdi. Azərbaycan xalqını müstəmləkəçilik rejiminə alışdırmaq və xristianlaşdırmanı həyata keçirmək üçün təhsili ruslaşdırma siyasətinə tabe etmək zəruri idi.

Çar Rusiyasının Azərbaycan türkləri arasında apardığı təhsil siyasətinin digər bir istiqaməti onların kütləvi təhsilinə şərait yaradılmaması, yalnız çar məmurları ilə ünsiyyət qura bilən, zəif rus dilində danışa bilən xidmətçilər hazırlanması ilə kifayətlənməsi idi. Azərbaycanlılar orduya çağırılmır, onlara hərbi təhsil, eləcə də milli kadr hazırlanmasında mühüm əhəmiyyət daşıyan peşə-ixtisas təhsili verilmirdi. Dövlətin əvvəllər qəza mərkəzlərində, sonralar şəhərlərdə yaratdığı bütün tip məktəblər yalnız rus dilində idi. Bu məktəblərin, demək olar ki, hamısında azərbaycanlıların hətta öz aralarında belə ana dillərində danışmalarına icazə verilmirdi. Bütün bu vəziyyəti yaradan göstərişlər çar hökumətinin və o zamanki xalq maarifi nazirliyinin rəsmi sənədlərində öz əksini tapmışdı. Təlimatlarda hökumət mövqeyi əsas götürülürdü.

Azərbaycanın Rusiya tərəfindən işğal edilməsi hadisəsi yeni məktəb sisteminin meydana gəlməsinə və inkişafına səbəb oldu. Təkzibedilməz həqiqətdir ki, çarizm və onun Qafqazdakı nümayəndələri Qafqazda, o cümlədən, Azərbaycanda yerli dillərin, ilk növbədə isə Azərbaycan dilinin də tədris edildiyi məktəblər açmağı zəruri hesab etməklə, həm də yerli xalqları itaətə gətirmək, ruslaşdırma siyasəti yeritmək, xalqın çarizmə qarşı həyəcanlarının qarşısını almaq və beləliklə də çarizmin hökmranlığını möhkəmlətmək məqsədini güdürdü.

## 6.2. AZƏRBAYCANDA “QƏZA MƏKTƏBLƏRİ”

1830-cu illərdə Cənubi Qafqazda, o cümlədən Azərbaycanda Rusiyadakı məhəllə məktəbləri tipində Qəza məktəbləri adı ilə tədris müəssisələri açılıdı. Qafqaz Komitəsi tərəfindən tərtib edilən nizamnaməyə əsasən məhəllə məktəbləri deyil, birbaşa qəza məktəbləri təsis edildi. Çar hökuməti 1829-cu il avqustun 2-də Cənubi Qafqaz məktəbləri üçün Qəza məktəblərinin ilk nizamnaməsini təsdiq etdi. Demək olar ki, Azərbaycanda maarif sisteminin tarixi bu nizamnamə ilə başlayır. Belə ki, bu vaxta qədər Azərbaycanda nə maarif nizamnaməsi, nə xalq maarifinin ümumi sistemi, nə müəyyən büdcəsi və nə də müvafiq təhsil orqanı vardı. Nizamnaməyə görə, bu məktəblərin Gəncə, Şuşa, Nuxa (Şəki), Şamaxı, Quba, Naxçıvan və Ordubad şəhərlərində, Qazaxda açılması təsdiq edildi.

Qəza məktəblərinə hər cür azad ailəyə mənsub olanların uşaqları daxil ola bilərdilər. Bu məktəblərin məqsədi yerlərdə ibtidai savada və rus dilini yaymaq idi. Qəza məktəblərinin vəzifəsi rus dilində ibtidai savadı yaymaq və şagirdləri Tiflis gimnaziyasında təhsillərini davam etdirməyə hazırlamaqdan ibarət idi.

İki sinifdən ibarət olan qəza məktəblərinin tədris planına şəriət, qiraət, hüsnxət, hesab, rus dili daxil idi. Qəza məktəblərinin hər birinin illik xərci əsginas ilə 380 manat olub xəzinədən ödənilirdi.

Çar Rusiyasının 1829-cu təsdiq etdiyi “*Qafqaz məktəblərinin əsasnaməsi*” nə uyğun olaraq əhali arasında rus dilini yaymaq, onlara ibtidai təhsil vermək məqsədilə Şuşa (1830), Nuxa (Şəki) (1831), Bakı (1832), Gəncə (1833), Naxçıvan (1837) və Şamaxıda (1838), Quba və Ordubadda (1854) dövlət məktəbləri olan ilk qəza məktəbləri açıldı.

1835-ci ildə Qafqaz məktəblərinin yeni nizamnaməsinin təsdiqindən sonra Qəza məktəbləri üç sinifli olmuş, burada Azərbaycan, rus dilləri, şəriət, hesab, hüsnxət, tarix, ədəbiyyat, coğrafiya və həndəsə fənləri tədris edilmişdir.

Qəza məktəblərinin xəzinədən maliyyələşməsinə baxmayaraq, yerli əhali məktəbə ya maddi vəsaitlə kömək edir, bina kirayə etmək üçün pul toplayır və ya məktəb binası üçün torpaq sahəsi ayırırdı. Qəza məktəblərində ənənəvi məktəblərdən (mollaxanalardan) fərqli olaraq, yeni üsullar tətbiq olunur, dünyəvi elmlər öyrədilirdi.

1833-cü ilin fevralın 18-də əsası qoyulmuş və dövlət binasında yerləşən Gəncə Qəza Məktəbinin tədris planına şəriət, qiraət, hüsnxət, hesabdan ilk dörd əməliyyat, rus və Azərbaycan dilləri daxil idi. Məktəbə daxil olanlardan heç bir təxmini bilik və ya savad tələb edilmirdi. Məktəb öz hüququna görə Rusiyadakı müvafiq təhsil müəssisələrinə bərabər idi, Gəncə Qəza Məktəbi ilk dəfə 38 şagird ilə işə başlamışdı. Şagirdlərin milli tərkibi beynəlmiləl idi. Burada azərbaycanlılarla yanaşı, ruslar və digər millətlərin uşaqları da təhsil alırdılar.

Gəncə Qəza məktəbində Azərbaycan dili və şəriət müəllimi yerli ruhanilərdən olan Molla Abdulla molla Əliməmməd oğlu idi. O, 13 il həmin məktəbdə çalışmışdı. XIX əsrin ortalarında isə Gəncə Qəza Məktəbinin Azərbaycan dili və şəriət müəllimi vəzifəsində Tiflisdə təhsil almış, əvvəlcə Tiflis gimnaziyasında, sonra isə Tiflis qəza məktəbində Azərbaycan dili və şəriət müəllimi olmuş Mirzə Ələkbər Nəzərov işləmişdi.

Ruhani təbəqəyə mənsub olan Gəncə Qəza Məktəbinin müəllimləri içərisində Mirzə Şəfi Vazeh xüsusilə fərqlənirdi. O, 1846-cı ilin noyabrından 1850-ci ilin yanvarına qədər burada çalışmış və zəngin pedaqoji irs qoymuşdur. Gəncə Qəza məktəbində 1843-cü ildə şagirdlərin ümumi sayı 95 nəfərə, 1844-cü ildə isə 109 nəfərə çatmışdı. Gəncə Qəza Məktəbi 38 il fəaliyyət göstərdi. Gəncə Qəza Məktəbi 1874-cü ildə şəhər məktəbinə çevrildi. Şəhər məktəbləri Azərbaycanın iqtisadi, ictimai və mədəni həyatında xeyli rol oynadı. Bu məktəbin məzunları mülki işlər üzrə müvafiq dövlət qulluğuna getməkdən əlavə, ölkənin müxtəlif ixtisas məktəblərinə daxil olurdular. Bu məktəblərin nəzdində qısamüd-

dətli pedaqoji kurslar açılması və həmin məktəbin məzunlarının ora cəlb edilməsi azərbaycanlılardan müəllim kadrları hazırlığının başlanğıcını qoydu.

Naxçıvan şəhərində ilk qəza məktəbi 1835-ci il nizamnaməsi əsasında Ehsan xan Naxçıvanskinin oğlanları İsmayıl xan və II Kalbalı xanın evində 1837-ci il mart ayının 15-də açılmışdır. Üç sinifdən ibarət olan bu məktəb ilk dəfə 20 nəfər uşaq qəbul etmişdir. Qeyd edək ki, həmin bina 12 il müddətinə pulsuz olaraq şəhər sakinlərinin istifadəsinə verilmişdir.

Üç sinifdən ibarət olan Naxçıvan qəza məktəbi Naxçıvan bölgəsində latın, alman və fransız dilləri tədris olunan yeganə məktəb olmuşdur. Məktəbə əsasən 7 və 14 yaşlı uşaqlar qəbul olunmuşdu. Təhsil müddəti altı ildən ibarət olan bu məktəbdə aşağıdakı fənlər tədris edilmişdi: 1. Ana dilində oxu və yazı-6 saat; Rus dili-12 saat; Hesab-20 saat; Rəsm-10 saat; Rəsmxət-10 saat; Nəğmə-10 saat; Gimnastika-10 saat; Coğrafiya-20 saat; Tarix-20 saat; Təbiətşünaslıq-20 saat; Latın dili-8 saat; Alman dili-6 saat; Fransız dili-6 saat.

Onu da qeyd edək ki, Naxçıvan qəza məktəbində Azərbaycan dili və şəriət fənlərini Naxçıvan atlı alayında qulluq etmiş, hərbiçi, poruçik Molla Allahverdi İmamqulu oğlu Sultanov, rus dili, tarix, həndəsə, hesab, hüsnxət və rəsmxət fənlərini isə İ.Kuzanov, K.Çərkəzov, G.Balçevski, V.Betroşvili, İ.Buqolyubov, G.Bodridze tədris etmişdir.

Naxçıvan qəza məktəbinin ilk müdiri F.Q.Kojevnikov olmuşdur. Həştərxanda təhsil almış F.Q.Kojevnikov 1836-cı il dekabr ayının 23-də Naxçıvanda qəza məktəbi açmaq üçün Qafqazın baş hakimi tərəfindən Naxçıvan şəhərinə göndərilmişdir. Qeyd edək ki, F.Q.Kojevnikov Naxçıvan qəza məktəbində 1844-cü ilədək pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Naxçıvan qəza məktəbinə müxtəlif vaxtlarda A.T.Qriqoryev, İ.Yelizarov, İ.Sanakov, A.Sergeyev, B.Naxçıvanski və başqaları rəhbərlik etmişdir. Məktəbdə təhsil alan şagirdlərin təlim-tərbiyəsi ilə Mirzə Sadıq Qulubəyov, Molla Nəsrulla Hacı Mirzə əli oğlu, Ələkbər Süleymanov, Hacı Əliqulu

Novruzov və başqaları məşğul olmuşlar. Qeyd edək ki, 1842-ci ildə ilk buraxılışını vermiş Naxçıvan qəza məktəbini 10 nəfər şagird bitirmişdir. Naxçıvan qəza məktəbində təhsil alan şagirdlərin sayı 1857-1858-ci tədris ilində 82, 1863-1864-cü tədris ilində isə 126 nəfər olmuşdur. Həmin sənəddə Naxçıvan qəza məktəbində təhsil almış şagirdlərdən Əli Hacı Cəfər oğlunun, Cahangir bəy Novruz ağa oğlunun, Sultan Nəcəfqulu oğlunun, Mirzə Qafar Qulubəyovun, Mirzə Mehdi Bektaşiyevin, Ehsan xan Naxçıvanskinin, Xosrov bəy Mahmud ağa oğlunun, Məlik Bədəlxan oğlunun, Ağa bəy Murad ağa oğlunun adları göstərilmişdir.

Qəza məktəbini "Əla" qiymətlərlə bitirənləri Tiflis gimnaziyalarına dövlət hesabına oxumağa da göndərirdilər. Qəza məktəbinin belə məzunlardan biri **İsmayıl bəy Bəktaşi** olmuşdur. Onun Gimnaziyada yüksək təhsil almaq üçün verdiyi ərizəyə Naxçıvan Qəza qubernatoru Mirzə Nəsir Bəy 1863-cü ildə İrəvan Quberniya Xalq Məktəbləri direktoruna göndərdiyi məktubda yazırdı: "Naxçıvan qəza məktəbində "Əla" qiymətlərlə oxumuş İsmayıl Bəy Bəktaşinin Tiflis Klassik Gimnaziyasında dövlət hesabına oxuması üçün lazımi kömək etməyinizi xahiş edirəm".

Qeyd edək ki, 1872-ci il may ayının 31-də qəbul olunmuş yeni nizamnamədən sonra qəza məktəbləri tədricən altı illik şəhər məktəblərinə çevrilmişdi. Şəhər məktəbində təhsilin ödənişli olmasına baxmayaraq burada təhsil alanların sayı daha da artmışdır.

## 6.3. AZƏRBAYCANDA "ŞƏHƏR MƏKTƏBLƏRİ"

XIX əsrin sonlarında məktəb islahatı nəticəsində "bütün təbəqələrdən olanların uşaqlarına ibtidai, əqli və dini-əxlaqi təhsil vermək" məqsədilə Şəhər məktəbləri yaradıldı. Bu məktəblər Azərbaycanda fəaliyyət göstərən qəza məktəblərinin bazasında formalaşdırıldı. Şuşa (1874), Şamaxı (1874), Nuxa (Şəki) (1877), Naxçıvan (1879), Yelizavetpol (Gəncə) (1884), Zaqatalada (1886), Bakıda (1889) şəhər məktəbləri yaradıldı. Tarixi missiyasını başa vuran

qəza məktəbləri öz yerlərini şəhər məktəblərinə verdi. Şəhər məktəblərinin bir, iki, üç və ya dördsinifli olması nəzərdə tutulurdu. Şəhər məktəbində təhsil müddəti isə 6 il idi. Bu məktəblər quruluşuna görə Rusiyanın şəhər məktəblərinə bənzəyirdi. Sosial vəziyyətindən və milliyyətindən asılı olmayaraq, 7 yaşı tamam olmuş hər bir uşaq şəhər məktəbinə qəbul olunurdu. Şəhər məktəblərində dərs deyən müəllimlərin çoxu Tiflis Aleksandrovski Müəllimlər İnstitutunun məzunları idi. Bu məktəblərdə təhsil pullu olsa da, kasıbların uşaqları pedaqoji şuranın qərarı ilə təhsil haqqından azad edilirdilər.

Bu məktəblərin Mərkəzi hökumət tərəfindən 1872-ci il may ayının 31-də təsdiq edilmiş xüsusi nizamnaməsi var idi. Nizamnaməyə görə, şəhər məktəbləri ya dövlət hesabına, ya zemstvo, şəhər ictimai və təbəqələri, yaxud da xüsusi şəxslərin hesabına açıla bilərdi. Şəhər məktəbləri əsasən bir, iki, üç və dördsinifli nəzərdə tutulurdu.

Şəhər məktəbləri əsasən bir, iki, üç və dörd sinifli olurdu. Belə ki, əgər şagirdlərin sayı çox olarsa, açılan dörd sinif tələbatı ödəməzsə onda beş, bəzən də altıncı sinif də əlavə olunurdu. Qeyd edək ki, şəhər məktəblərində təhsil müddəti dərəcəsindən asılı olmayaraq siniflər üzrə müxtəlif olmuşdu. Daha dəqiq desək bir sinifli şəhər məktəbində şagirdlər şərti olaraq üç şöbəyə bölünürdü. Bu şöbələrdə təhsil müddəti 2, bəzən isə 3 il müəyyən olunmuşdu. Bır siniflidən fərqli olaraq ikisiniflidə təhsil müddəti 4 il idi. Burada təhsil alan şagirdlər öz bilik və qabiliyyətlərinə görə iki qrupu ayrılmışdı. Hər qrupda təhsil müddəti 2 il olmuşdur. Üçsiniflidə isə təhsil müddəti qruplarından asılı olmayaraq 2 il müəyyən edilmişdir. Dördsinifli şəhər məktəblərində isə təhsil müddəti I və II siniflərdə 2 il, III və IV siniflərdə isə 5 il olmuşdur. Ümumiyyətlə, götürdükdə bütün şəhər məktəblərində təhsil müddəti 6 il idi.

Bütün şəhər məktəblərində şəriət, oxu və yazı, rus dili, hesab, təcrübi həndəsə, coğrafiya və tarix, ədəbiyyat tarixindən məlumat, fizika, rəsm və rəsmxət, nəğmə və gimnastika fənləri tədris olunmuşdur. Burada keçirilən fənlərə verilən saatlar əsasən siniflərin

say tərkibindən daha çox asılı idi.

Cənubi Qafqazda şəhər məktəbi ilk dəfə Şuşada təşkil edildi. Bu Şuşa qəza məktəbinin daha çox şagirdə malik olması ilə əlaqədar idi.

Şuşanın ardınca Şamaxı qəza məktəbi də şəhər məktəbinə çevrildi. Şamaxı şəhər məktəbi əvvəlcə bir sinifli məktəb şəklində təşkil edildi.

Şamaxının ardınca, 1877-1878-ci dərs ilindən Nuxa, 1879-cu ildən isə Naxçıvan qəza məktəbləri şəhər məktəbinə çevrildi.

Naxçıvan şəhər məktəbində maarifçi-ictimai mühitin inkişaf edib genişlənməsinə, mütərəqqi demokratik ideyaların yayılmasında, tədrisin elmi əsaslar üzərində qurulmasında tanınmış alim-pedaqoq Konstantin Andreyeviç Nikitinin müəllim-inspektor təyin olunmasının mühüm rolu olmuşdu. K.A.Nikitinin Naxçıvan şəhər məktəbinə rəhbərlik etdiyi dövrdə (21 iyun 1879-cu ildən, 18 iyun 1883-cü ilədək) Mirzə Sadıq Qulubəyov, Fyodor Domaşevski, Georgi Uturqauri, Əliməmməd Xəlilov və Mirzə Kazım Qulubəyov kimi ziyalılar məktəbdə pedaqoji fəaliyyətlə məşğul olmuşlar.

Qeyd edək ki, Naxçıvan şəhər məktəbində təhsil almış şagirdlərin sayı 1889-1890-cı tədris ilində 152, 1890-1901-ci tədris ilində 102, 1903-1904-cü tədris ilində 172, 1910-1911-ci tədris ilində isə 19 nəfər olmuşdur.

Təhsil müəssisələrinin sayı artdıqca, onların ixtisaslı müəllimlərlə təmin olunması məsələsi aktual əhəmiyyət kəsb edirdi. Əgər orta məktəblər üçün universitet qurtarmış və xüsusi təhsilli pedaqoqlar seçilirdilərsə, ibtidai məktəblər üçün müəllim seminariyalarının, orta təhsil müəssisələrinin, o cümlədən qadın gimnaziyalarının pedaqoji siniflərinin məzunları, habelə müəyyən edilmiş xüsusi imtahanları verdikdən sonra ibtidai məktəb müəllimi rütbəsi almış şəxslər işə götürülürdülər.

Yerli dilləri bilən müəllimlərin yoxluğu azərbaycanlı uşaqlarının rus məktəblərinə cəlb olunmasını ləngidirdi. Lakin 1876-cı ildə Qori şəhərində açılmış Qafqaz Müəllimlər Seminariyası, xüsusən

də onun Azərbaycan şöbəsinin məzunları (Fərhad Ağazadə, Üzeyir Hacıbəyov, Cəlil Məmmədquluzadə və b.) kənd məktəblərinə gəldikdən sonra yerli uşaqların bu məktəblərdə oxuması mümkün olmuşdu.

Ana dili müəllimləri içərisində məşhur müəllim və şair S.Ə.Şirvani, onun oğlu Mir Cəfər (Şamaxıda), Mirzə Həsən və Aslan bəy Əmirovlar (Şuşada), Abbas Mirzə Axundov və Molla Çələbi oğlu (Nuxa), Molla Məhəmməd Qazıyev (Zaqatala), Mirzə Qasım Axundov (Gəncə), Mirzə Kərim Qulubəyov və Molla Nəsrulla Hacı Mirzə Əli oğlu (Naxçıvan) və b. var idi. Şamaxı şəhər məktəbində ana dili və qismən fars dilinin müvəffəqiyyətlə tədris edilməsində S.Ə.Şirvaninin xidmətləri xüsusilə böyükdür.

1874-cü il Əsasnaməsinə görə bütün ibtidai məktəblər Xalq maarifi nazirliyinə tabe olundu. Bu ibtidai məktəblərdə təlim ancaq rus dilində aparılırdı. Azərbaycan və digər yerli dillərdə ümumtəhsil məktəbləri açmağa icazə verilmirdi.

Ana dilində savada yiyələnmək cəhdi minlərlə uşağı mollaxana məktəblərinə cəlb edirdi. Əvvəlki dövrdə olduğu kimi, yenə də say üstünlüyü bu məktəblərin tərəfində idi. XIX yüzilliyin sonunda Bakı quberniyasında 245, Yelizavetpol quberniyasında 268 belə məktəb vardı. Bu məktəblərdə oğlanlarla bərabər qızlar da təhsil alırdı.

## 6.4. AZƏRBAYCANDA "KƏND MƏKTƏBLƏRİ"

Azərbaycan təhsil tarixində XIX əsrin 60-cı illərində yaranan kənd ibtidai məktəbləri də xüsusi yer tutur. Belə məktəblər ilk dəfə Lənkəran və Şamaxıda rusların daha çox yaşadığı kəndlərdə açılmışdı. Bu cür məktəbləri çox hallarda qəza məktəblərinin məzunları açırdılar. 1870-ci illərdən etibarən Azərbaycan kəndlərində də rus dilində təhsil verən kənd məktəbləri meydana gəldi. Bu məktəblər bir, yaxud iki sinifdən ibarət idi. Bir sinifli məktəblərdə təhsil müddəti 3 il, ikisinifli məktəblərdə isə 5 il idi. Qazax qəzasının Daşkə-

sən, Zəngəzur qəzasının Gorus, Qubadlı, Cəbrayıl qəzasının Cəbrayıl kəndlərində, Göyçayda, Altıağacda, Salyanda belə məktəblər açıldı. Kənd ibtidai məktəblərinin tədris planına şəriət, ana dili, rus dili, hesab və hüsnxət daxil idi.

XIX əsrin sonu XX əsrin əvvəllərində xalq məktəbləri adı altında formalaşmış kənd məktəbləri də yaranmağa başlamışdır. Bölgələrdə dünyəvi təhsilin yayılmasında xalq (kənd) məktəbləri böyük rol oynamışdır. Naxçıvan qəzasında xalq məktəblərinin XIX əsrin 80-cı illərindən sonra yaranmışdır. 1910-cu illərdə Naxçıvan bölgəsində 42 xalq (kənd) məktəbi fəaliyyət göstərmişdir.

Xalq məktəblərini öz tabeliyinə almaqda və onları dövlət vəsaiti ilə təmin etməkdə Qafqaz tədris dairəsinin gücü çatmırdı. Məhz ona görə də bu məktəblər yerli rəislərin tabeliyinə verilmişdir. Tədris idarəsi yalnız qubernatorun tələbi ilə bu məktəbləri (xalq (kənd) məktəbləri) yoxlaya bilərdi. Məktəb direktorları isə rəhbərlik etdikləri məktəblərin ümumi işinə kənardan nəzarət edirdilər. Direktorlar eyni zamanda məktəblərin illik iş fəaliyyəti ilə bağlı hesabatların hazırlanmasında da iştirak etmək hüquqları var idi.

Bütün xalq (kənd) məktəbləri 1873-cü il 22 noyabr tarixli "Qafqaz tədris hissəsinin təşkili haqqında" hakimiyyətin qanunu ilə rəsmiləşdirilmişdir.

XIX əsrin sonu XX əsrin əvvəllərində açılan xalq (kənd) məktəblərinin əsil amalı əslində uşaqlara elementar savad vermək idi. Bu məktəblərdə dərslər Rusiya Xalq Maarif Nazirliyinin bir və iki sinifli kənd məktəbləri üçün tərtib etdiyi proqram əsasında keçirilirdi. Qeyd edək ki, məktəblərdə təhsil müddəti bir siniflidə 3, iki siniflidə isə 5 il olmuşdur. Məktəblərin tədris planına şəriət, ana dili, rus dili, hesab, hüsnxət fənləri daxil olmuşdur. Bu fənlərdən başqa tədris proqramına coğrafiya, tarix, ədəbiyyat və rəsm dərsləri də daxil edilmişdir. Eyni zamanda xalq (kənd) məktəblərində bacarıqlı müəllimlər tərəfindən elementar həndəsə, əl işi, nəğmə və gimnastika da öyrədilirdi.

Xalq (kənd) məktəblərinin müəllimləri öz aralarında topladıq-

ları kiçik vəsaitlərin hesabına kasıb uşaqları paltar və məktəb ləvazimatları ilə təmin etmişlər. Qafqazda xalq maarifinə rəhbərlik edən çar məmurları kəndlərdə fəaliyyət göstərən məktəblərin sayını hakimiyyətin dövlət xəzinəsi hesabına deyil daha çox yerli əhalidən "məktəb vergisi" adı altında topladıqları vəsait hesabına artırmağa üstünlük vermişlər.

XIX əsrin sonu XX əsrin əvvəllərində xalq (kənd) məktəblərinin yaranması məktəblərdə azərbaycanlıların sayının artmasına da xeyli təsir etmişdir. Xalq (kənd) məktəbləri eyni zamanda göstərilən dövrdə əhali arasında dünyəvi təhsilin yayılmasına, o cümlədən, ədəbiyyatın, teatr və incəsənətin bir çox sahələrinin inkişaf etməsinə də xeyli təsir göstərmişdir. Bu məktəblərdə həvəslə çalışan gənc kənd müəllimləri özlərinin çox cəhətli fəaliyyətləri ilə xalq maarifinin, xüsusilə də, mədəniyyətin dünyada tanınması sahəsində böyük işlər görmüşlər.

XIX əsrin sonu XX əsrin əvvəllərində bölgələrdə bazar günü məktəbləri də açılmışdır. Şəhərlərə nisbətə daha çox kəndlərdə fəaliyyət göstərən belə məktəblər uşaqların savadlanmasında, bilik, bacarıq və vərdişlərinin formalaşdırılmasında böyük rol oynamışdır.

## 6.5. AZƏRBAYCANDA "MÜSƏLMAN MƏKTƏBLƏRİ"

Qəza məktəblərinə müsəlman əhalisinin ləng cəlb edilməsi səbəbindən və hökumətə ruhani, din xadimləri hazırlamaq məqsədi ilə rus çarizmi "Müsəlman məktəbləri" adlı xüsusi məktəblər də açdı. Əslində bu məktəblər təfriqə yaratmaq məqsədi güdürdü. Belə ki, "Müsəlman məktəbləri" sünni və şiə məzhəbində yaradılırdı. Bu məktəblər əhalinin vəsaiti hesabına saxlanılırdı.

Çar hökuməti islam dinini Azərbaycanda apardığı ruslaşdırma və xristianlaşdırma siyasəti üçün ən böyük maneə hesab etdiyindən, "şiə" və "sünni" məzhəbləri arasında ayrı-seçkilik salmaqla, öz məqsədini reallaşdırmağa çalışırdı. Digər tərəfdən isə Şərqin ən mötəbər dini tədris müəssisələrində təhsil almağa gedən müsəlman-

ların qarşısını almaqla, onların təhsilinə nəzarəti öz üzərinə götürməklə, gənc nəsli Şərq oriyentasiyasından rus-xristian istiqamətinə yönəltməyə cəhd edirdi. Çünki özünün müstəmləkəçilik siyasətini həyata keçirərkən əhalinin geniş təbəqəsi içərisində böyük nüfuza və etimada malik olan ruhanilərlə qarşılaşmalı və bəzi hallarda toqquşmalı olurdu. Müsəlman ruhaniləri içərisində çarizmin dayağı və arxalanacağı nümayəndələri yox idi. Bu məqsədlə dini təhsil verən məktəb və mədrəsələrdən, həmçinin dövlət məktəblərindən fərqlənən yeni tip məktəblərin - "Müsəlman məktəbləri"nin açılması nəzərdə tutulmuşdu. Çox keçmədi ki, çar hökuməti yerli əhalidən rus dilini bilən ruhani şəxslər hazırlamaq, şərq dillərini bilən və mütləqiyyətə sadiq məmurlar yetişdirmək məqsədilə müsəlman məktəbləri açmaq məcburiyyətində qaldı.

1848-ci ildə Tiflisdə ilk müsəlman məktəbi olan Əliyyə (şiə), 1849-cu ildə isə Öməriyyə (sünni) məktəbləri açdı. Bu məktəblərin proqramında dini elmlərin tədrisi böyük yer tuturdu. Bu tip məktəblər sonralar Gəncə, Şuşa, Nuxa (Şəki), Şamaxı, Bakı şəhərində, Salyan, Lənkəran və Zaqatalada təşkil edildi. Belə məktəblərin geniş şəkildə açılması çarizmin milli ucqarlarda mövqeyinin möhkəmlənməsinə və müsəlmanlar arasında təfriqə yaymağa xidmət edirdi. Bir faktı da xüsusilə qeyd etmək lazımdır ki, onların ayrı-ayrılıqda təşkil etdikləri "şiə" və "sünni" məktəbləri çox zərərli və qorxulu bir təmayülün yaranmasından xəbər verirdi.

## 6.6. AZƏRBAYCANDA "DÖVLƏT MƏKTƏBLƏRİ"

Qafqaz məktəblərinin 1853-cü il əsasnaməsinə uyğun olaraq, Qubada (1854), Ordubadda (1854), Lənkəranda (1856) və Zaqatalada (1862) yeni tip ibtidai məktəblər yarandı ki, buna Dövlət məktəbləri deyildi.

Ordubad Dövlət məktəbində 36, Quba məktəbində 46, Lənkəran məktəbində 53 şagird təhsil alırdı.

1858-ci ildə Şamaxı quberniyasında 4700 nəfərin təhsil aldığı

299 müxtəlif tipli məktəblər var idi. Bura həm dövlət, həm də məktəb və mədrəsələr daxil idi. Onlardan 262-si kənddə, 37-si isə şəhərdə idi.

Şimali Azərbaycanda dövlət məktəblərinin inkişafı və müvəffəqiyyəti müəllim kadrlarından çox asılı idi. Dövlət məktəblərində çalışan müəllimləri şərti olaraq iki qrupa bölmək olar. Birinci qrup müəllimlər elm-fənn müəllimi olub rus dilini və rus dilində digər fənləri tədris edirdi. İkinci qrup müəllimlər isə şəriət və yerli dilləri tədris edirdi. Elm-fənn müəllimlərindən biri, həm də məktəbin müdiri idi.

Dövlət məktəbləri meydana gələn zaman Cənubi Qafqazın hər yerində olduğu kimi, Şimali Azərbaycanda da müəllim kadrları hazırlayan xüsusi müəssisə olmadığından, bu işin öhdəsindən gələ bilən müvafiq təhsilli adamlar da yox dərəcəsində idi. Ona görə də məktəblər əsasən Rusiya imperiyasının maarif nazirliyi tərəfindən göndərilən müəllimlər ilə təmin edilirdi. Əgər yerlərdə bu vəzifəni tutmağa qabil şəxslər olardısa, onlar Tiflis gimnaziyası şurasında təxmini yoxlamadan keçirilirdilər.

Dövlət məktəbi müəllimlərinin hüquqları Rusiyanın daxili quberniyalarındakı müvafiq məktəb müəllimlərinin malik olduqları hüquqlara bərabər idi. Lakin çarizm öz mövqeyini möhkəmləndirmək üçün Şimali Azərbaycanda və Qafqazda çalışan müəllimlərə bəzi imtiyazlar verirdi. Rusiyadan Cənubi Qafqaza göndərilən elm-fənn müəllimlərinə yol pulundan əlavə, bir illik əmək haqqı qədər birdəfəlik vəsait ödənilirdi. Şimali Azərbaycan qəza məktəblərində işləyən müəllimlər özləri və ya ailələri 15 il əvəzinə 10 il xidmət etdikdən sonra dövlət təqaüdü ala bilərdilər.

Dövlət məktəblərinin meydana gəlməsi ilə Azərbaycanda kitabxana təşkilinə də əlverişli şərait yarandı. Məktəblərin nəzdində kiçik kitabxanalar təşkil edildi. 1845-ci ilin məlumatına görə, Şuşa qəza məktəblərinin kitabxanasında 301, Nuxada 360, Bakıda 746, Gəncədə 113, Naxçıvanda 152, Şamaxıda 249, 1865-ci ilin məlumatına görə isə Ordubad ibtidai məktəbinin kitabxanasında 133

adda 500 nüsxə kitab saxlanılırdı. İlk kütləvi qiraətxana isə Gəncədə açılmışdı. Ancaq bu qiraətxanada kitabların əksəriyyəti rus dilində idi. Buna baxmayaraq 1894-cü ildə Bakıda Nəriman Nərimanov tərəfindən ilk Azərbaycan dilində kütləvi qiraətxana açılmışdı.

Dövlət məktəblərini açmaqda çarizmin məqsədi Rusiyanın xeyirxah, missioner dövlət imicini təbliğ edəcək yerli məmurlar hazırlamaq olsa da, bu tip ziyalılar sonralar həm də Rusiyanın problemlərinin həlli yollarını axtarır, öz xalqlarının milli oyanışını səfərbər edəcək ideyaların daşıyıcılarına çevrilirdilər. Bu ziyalılar sırasında M.F.Axundovun, Mirzə Kazım bəy, Məhəmməd ağa Şahtaxtlı və başqaları var idi.

## 6.7. AZƏRBAYCANDA "DƏMİR YOLU MƏKTƏBLƏRİ"

Azərbaycan ərazisində dəmiryolu məktəblərinin meydana gəlməsi XIX əsrin 80-ci illərinə təsadüf edir. Bu məktəblər əvvəllər RXMN-nin 4 iyun 1875-ci il tarixli bir və ikisinifli məktəblər haqqındakı nizamnaməsinə müvafiq açılırdı. 1898-ci ildə bu məktəblərin xüsusi "Qaydalar"ı təsdiq edildi.

"Qaydalar"a görə bir və ya iki sinifdən ibarət olan bu məktəblər dəmir-yolu idarəsinin vəsaiti ilə dəmiryolu qulluqçu və fəhlələrinin uşaqları üçün açılırdı. Bu məktəblər oğlanlar və qızlar üçün ayrı-ayrı təşkil edilirdi. Nadir hallarda, oğlan və qızların birgə təhsilinə icazə verilirdi.

Azərbaycanda ilk dəmiryolu məktəbi 1888-ci ildə Gəncə stansiyasında açıldı. 1891-ci ildə burada 50, 1892-ci ildə 70, 1893-cü ildə 79, 1894-cü ildə isə 117 şagird, o cümlədən 37 qız təhsil alırdı.

Azərbaycanda növbəti dəmiryolu məktəbi 1893-cü il fevralın 3-də Ağcaqabul stansiyasında açıldı. İlk dəfə məktəbdə 20 şagird qəbul edilmişdi (18 oğlan, 2 qız). Lakin Ağcaqabulun iqlim şəraiti əlverişli olmadığından həmin məktəb 1896-cı il noyabrın 14-də Bakıya köçürüldü. 1895-ci ilin sonunda burada 78 şagird var idi (51 oğlan, 27 qız).

Növbəti dəmiryolu məktəbi XIX sərin sonu, XX əsrin əvvəlində Ağstafa stansiyasında açıldı. Bir sinifdən ibarət olan bu məktəbə ilk dəfə 23 şagird cəlb edilmişdi (13 oğlan, 10 qız).

Göstərilən məktəblərdən yalnız birinin-Gəncə dəmiryolu məktəbinin nəzdində həm də axşam təkrar kursları təşkil edilmişdi. Burada şagirdlərlə bərabər yaşlılar da iştirak edir, savad öyrənirdilər.

Kütləvi dünyəvi Azərbaycan məktəbinin güman edilən proqramı, maddi bazanın yaradılması üsulları, müəllim kadrların hazırlanması, ana dilində təhsil vasitələrinin tərtib edilməsi, qadın təhsilinin təşkili və s. məsələlər ətrafındakı mübahisə kəskin xarakter alırdı. Bütün bu məsələlər Qafqaz dövri mətbuatında, xüsusən 1875-ci ildən 1877-ci ilədək görkəmli maarifçi və alim Həsən bəy Məlikov (Zərdabi) tərəfindən Bakıda nəşr edilmiş ilk Azərbaycan "Əkinçi" qəzetinin səhifələrində öz əksini tapmışdır.

XX əsrin əvvəllərində Naxçıvan şəhərində dünyəvi Dəmiryol məktəbi fəaliyyət göstərmişdir. Qeyd edək ki, İrəvan Quberniyasının 1908-ci il dekabr ayının 8-də Xalq Məktəbləri direktoruna göndərdiyi 25687 №-li məktubunda Naxçıvan şəhərində yerləşən Dəmiryol stansiyasında məktəb açılması üçün icazə istəmişdir. Bundan sonra XVIII sahənin yollar xidməti rəisi Neyakubski İrəvan Quberniyasının Xalq Məktəblər direktoruna göndərdiyi 1909-cu il 26 oktyabr tarixli 2336 №-li məktubunda Naxçıvan stansiyasında Dəmiryol məktəbinin açılması üçün icazə vermişdir. Qeyd edək ki, bundan sonra Naxçıvan Dəmiryol məktəbi 1909-cu il noyabr ayının 1-dən etibarən rəsmi şəkildə fəaliyyətə başlamışdır.

Naxçıvan Dəmir yol məktəbi 2 şöbədən ibarət olub. I şöbədə 24, II şöbədə isə 6 nəfər olmaqla məktəbdə cəmi 30 nəfər şagird təhsil almışdır. 3 sinifdən ibarət olan Naxçıvan Dəmiryol məktəbində 1911-1912-ci tədris ilində 22 nəfəri oğlan, 15 nəfəri isə qız olmaqla 37 nəfər, 1912-1913-cü tədris ilində isə 28 nəfəri oğlan, 17 nəfəri isə qız olmaqla cəmi 45 nəfər şagird təhsil almışdır.

## 6.8. AZƏRBAYCANDA “BAZAR GÜNÜ MƏKTƏBLƏRİ”

XIX əsrin 80-ci illərində Bakı, Şamaxı və Yelzavetpolda (Gəncədə) kişi və qadınlar üçün Bazar günü məktəbləri, həmçinin axşam savad kursları açıldı. 14 avqust 1899-cu ildə Rusiya Xalq Maarif Nazirliyinin bazar günü məktəbləri ilə bağlı verdiyi Sərəncamda bu məktəblərin açılmasının əsas motivi kimi əhali arasında (xüsusilə qeyri-ruslar) rus dilinin yayılması əsas götürülmüşdü. Həmin məktəblərin açılma səbəblərini Hüseyn Əhmədov belə səciyyələndirir: “Bir tərəfdən kapitalizmin inkişafı, bununla bərabər, fəhlələrin sayının artması, digər tərəfdən də xalqın təhsilə meyli, qabaqcıl müəllim və maarifçilərin xalq arasında savadı yaymaq cəhdi XIX əsrin 80-ci illərindən başlayaraq Azərbaycanda bazar günü məktəblərinin meydana gəlməsinə səbəb oldu”.

Bu məktəblər fəhlələrə, kəndlilərə, sənətkar və qulluqçulara məxsus ibtidai savad məktəbləri idi. Burada məşğələlər xristianlar üçün bazar günləri, müsəlmanlar üçün isə cümə günləri keçirilirdi. Bu tədris ocaqları yaşlı əhalinin savadlanmasında müəyyən rol oynadı.

Yeri gəlmişkən qeyd edək ki, yaşlıların təhsilində kitabxana və qiraətxanaların, xüsusən 1894-cü ildə Nəriman Nərimanovun təşəbbüsü və bir qrup ziyalının yaxından iştirakı ilə Bakıda təsis edilən *“Nərimanov qiraətxanası”*nın müstəsna rolu olmuşdur. Bu hadisə o dövr üçün çox böyük əhəmiyyət kəsb edirdi. Bakıdakı qiraətxanaya Kəlküttə, Qahirə, Bombey, İstanbul və başqa şəhərlərdən kitablar gətirilirdi. Həmin dövrdə Bakıda 4 kitabxana var idi. Şuşa, Nuxa (Şəki), Yelizavetpol (Gəncə) və Qubada da kitabxanalar açılmışdı. Qara şəhərdə, Bayılda açılan xalq evləri əsil mədəni-maarif ocaqları idi. Burada görkəmli mədəniyyət xadimləri mühazirələr oxuyardılar.

XX əsrin əvvəllərində milli ucqarlarda çarizmin ruslaşdırma siyasətinin genişlənməsi bazar günü məktəbləri və axşam kurslarının açılmasını sürətləndirdi. Azərbaycan ziyalıları Rusiya təhsil

qanunvericiliyinin imkanlarından bəhrələnərək öz fəaliyyətlərini genişləndirdilər. 1 noyabr 1907-ci ildə təsdiq olunmuş *"Başqa millətlər üçün ibtidai məktəblər haqqında qaydalar"*ın 13-cü maddəsində yaşlı əhalinin təhsil məsələləri öz əksini tapmışdı. Burada müsəlmanlara yaşlılar və uşaqlar üçün rus dili məktəblərinin açılmasına icazə verilirdi. Yaşlı əhali arasında maarifi yaymağı özünün əsas vəzifələrindən biri hesab edən "*Nicat*" cəmiyyəti 1906-cı ildə ilk cümə məktəbini açdı. IV rus-Azərbaycan məktəbinin nəzdində açılan cümə məktəbi 1914-cü tədris ilinədək fəaliyyət göstərdi. Cümə məktəbində tədris planı sadə idi. Burada Azərbaycan və rus dilləri öyrədilir, hesabdan elementar məlumatlar verilirdi. Digər fənlər üzrə məlumatlar söhbət şəklində rus və Azərbaycan dili dərslərində öyrədilirdi. XX əsrin əvvəllərində axşam kursları da ildən ilə artmağa başladı. 1900-cu ildə Bakı quberniyasında olan 81 ibtidai məktəbdən 19-da yaşlılar üçün axşam kursları təşkil edilmişdi.

Cümə məktəbləri, axşam kursları və qiraətxanaların fəaliyyəti qısa olsa da, maarif tariximizdə mühüm yer tutur. Yaşlı əhalinin böyük bir hissəsi məhz həmin təhsil ocaqlarında savad almış, mədəniyyətə yiyələnmiş, tanınmış şəxslərin ayrı-ayrı mövzularda mühazirələrini dinləmək imkanı qazanmışdılar.

## 6.9. AZƏRBAYCANDA "SƏNƏT MƏKTƏBLƏRİ"

XIX əsrdə təhsildə baş verən yeniliklərdən biri də 80-ci illərdən başlayaraq dəmiryolu qulluqçuları və fəhlələrinin uşaqları üçün ayrıca məktəblərin açılması idi. İlk dəmiryolu məktəbləri 1888-ci ildə Yelzavetpolda (Gəncədə), 1893-cü ildə Hacıqabulda, 1896-cı ildə Bakıda və 1901-ci ildə Ağstafada açılmışdı.

XIX əsrdə Azərbaycanın məktəb təhsili tarixində ilk dəfə olaraq texniki-peşə təhsili müəssisələri yaradıldı. İpəkçilik sənayesinin inkişafı ilə əlaqədar ilk peşə məktəbi 1843-cü ildə Şəkidə açıldı. (***Təcrübi ipəkçilik məktəbi***). Fəaliyyət göstərdiyi 20 il ərzində (1843-1863- cü illərdə) məktəbə qəbul olunan 236 şagirddən 117-si

məktəbi bitirərək usta adı almışdı.

1879-cu ildə Naxçıvanda xarratlıq və çilingərlik sənəti öyrədən şəhər məktəbinin (təhsil müddəti üç il idi) əsası qoyuldu.

8 noyabr 1884-cü ildə Yelzavetpolda (Gəncədə) metal emalı üzrə təlim verən sənət məktəbi açıldı. Meyvə emalı və konservləri üzrə mütəxəssislər hazırlığını həyata keçirən Yelizavetpol Mixaylov sənət məktəbi Güney Qafqazda nümunəvi müəssisə sayılırdı.

1880-ci ildə Bakı şəhərində sənət məktəbinin açılması barədə məsələ qaldırılsa da, onun açılışı yalnız 1887-ci ildə mümkün oldu. 10 oktyabr 1887-ci ildə Bakı şəhər dumasının qərarı ilə İmperator II Aleksandr adına sənət məktəbi yaradıldı. Məktəbə 12-16 yaşında ibtidai məktəb təhsili olan uşaqlar qəbul edilirdi. Məktəbdə təhsil pullu idi. 1895-ci ildə həmin məktəbin bazasında Bakı mexanika inşaat məktəbi yaradıldı. Məktəbdə təlim rus dilində aparılırdı. Təlim müddəti dörd il idi.

1893-cü ildə Zaqatalada sənət məktəbi açıldı. Məktəbdə çilingərlik və kənd təsərrüfatı peşələri öyrədilirdi.

Bu dövrdə xüsusi kənd təsərrüfatı məktəbləri də açıldı. 1896-cı ilin oktyabrın 27-də Mərdəkanda Hacı Zeynalabdin Tağıyevin maliyyə vəsaiti hesabına bağbanlar hazırlayan birinci xüsusi məktəb açıldı. İkinci belə bağçılıq məktəbi 1899-cu ildə Qubada təsis edildi. XIX əsrin 90-cı illərindən başlayaraq musiqi, rəssamlıq, mühasiblik ticarət, tibb, bədii tərtibat və s. peşə və ixtisaslar üzrə ixtisas məktəbləri, kursları yaradıldı. Bakıda ilk musiqi məktəbi 1896-cı ildə, ilk rəssamlıq məktəbi isə 1897-ci ildə təsis edilmişdi.

## 6.10. AZƏRBAYCANDA “RUS-TATAR MƏKTƏBLƏRİ”

XIX əsrin ikinci yarısında inkişaf etməkdə olan kapitalist iqtisadiyyatının ixtisaslı fəhlələrə -sənayenin müxtəlif sahələrində texnikaya xidmət göstərməyi, kənd təsərrüfatının səmərəli surətdə qurmağı və ən yeni  nəqliyyat vasitələrini idarə etməyi bacaran təhsilli mütəxəssislərə tələbatı Azərbaycanda ümumtəhsil və peşə

məktəblərinin sayının müəyyən qədər artmasına, onların təhsil səviyyəsinin yüksəlməsinə səbəb oldu.

Əsası Abbasqulu ağa Bakıxanov, Mirzə Şəfi Vazeh, Mirzə Fətəli Axundov, İsmayıl bəy Qutqaşınlı və başqaları tərəfindən qoyulan maarifçilik hərəkatı XIX əsrin axırlarında ictimai-pedaqoji fikrin bütün qatlarına nüfuz edir, xalqın milli şüurunu formalaşdırırdı. Maarifçilər və onların ardıcılları dərk edirdilər ki, *xalqın maariflənməsi millətin tərəqqisinin ən mühüm şərtidir*. Rus mədəniyyəti ilə yaxından tanışlıq Azərbaycanda rus məktəbləri nümunəsində yeni tip tədris müəssisələrinin – "Rus-tatar məktəbləri"nin meydana gəlməsinə səbəb oldu. Bu məktəblər ana dilində təlimi hər cür təhsilin ən mühüm əsası sayan mütərəqqi Azərbaycan ziyalılarının təşəbbüsü ilə, onların inadkarlığı hesabına meydana çıxmışdı. Tədrisi rus dilində olan bu məktəblərdə Azərbaycan dili bir fənn olaraq keçilməyə başlandı. Ona görə bu məktəblərə "Rus - tatar məktəbləri" deyilirdi.

Çar Rusiyasında Azərbaycanlılara tatar deyirdilər. Bu baxımdan bu məktəblərə "Rus-Azərbaycan məktəbləri" də deyə bilərik. Belə məktəblər Şuşada (1874), Qazax qəzasının Salahlı kəndində (1875), Uluxanlıda (1880), İrəvanda(1882), Bakıda (1887), daha sonralar Naxçıvanda Gəncədə, Tiflisdə və digər yerlərdə açılmışdı.

Bakıda açılan rus-tatar məktəbinin fəaliyyəti Sultan Məcid Qənizadə və Həbib bəy Mahmudbəyovun təşəbbüsü və adı ilə bağlıdır. Təlim və tərbiyə işləri rus dilində aparılan bu məktəblərdə şagird kontingenti əsasən azərbaycanlılardan ibarət idi. Bu məktəblər dövlət məktəblərindən fərqli idi. Burada Azərbaycan dilinin tədrisi məcburi sayılırdı.

Azərbaycanda açılan dövlət məktəbləri xalqın savadlanmasına kömək etsə də, o həm məzmunca, həm də formaca ruslaşdırma siyasətini həyata keçirən təhsil müəssisəsi idi. Çar hökuməti milli ucqarlarda, o cümlədən Azərbaycanda dünyəvi təhsil məktəblərinin fəaliyyət dairəsinin genişlənməsinə imkan vermir, milli məktəblərin

fəaliyyətini, ana dilinin təlimini bacardıqca məhdudlaşdırırdı.

XIX əsrin 60-cı illərində Rusiyada başlayan ictimai-pedaqoji hərəkat, K.D.Uşinskinin təlimin ana dilində aparılması ideyası Azərbaycanda da bu ideyanın həyata keçirilməsinə elmi və mənəvi zəmin hazırladı. Milli dili millətin inkişafının ən mühüm şərti hesab edən Uşinskinin meydana atdığı "Xəlqilik ideyası" Rusiyadakı məktəblərdə təlimin xarici dildə aparılması ənənəsini qırdı. Bu ideya get-gedə inkişaf edərək dövrün ən zəruri məsələsinə çevrildi. Ana dili təlimi ideyasının həyata keçirilməsində Mirzə İsmayıl Qasir, Seyid Əzim Şirvani, Məhəmməd Tağı Sidqi, Sultan Məcid Qənizadə, Həsən bəy Zərdabi, Məhəmməd ağa Şahtaxtlı, Həbib bəy Mahmudbəyov, Mahmud bəy Mahmudbəyov, Firidun bəy Köçərli, Səfərəli bəy Vəlibəyov, Rəşid bəy Əfəndiyev, Üzeyir bəy Hacıbəyli, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, M.F. Axundov və digər maarifpərvərlərin böyük xidmətləri oldu.

XX əsrin əvvəllərində Naxçıvanda və Ordubadda ilk Rus-tatar məktəbləri açılmışdır. 1901-ci il sentyabr ayının 1-də Ordubad şəhərində dünyəvi ilk rus-tatar (Azərbaycan) məktəbi fəaliyyətə başlamışdı. Qeyd edək ki, Ordubad şəhər ikisinifli rus-tatar məktəbinə 1902-ci il fevral ayının 4-dən 1902-ci il oktyabr ayınadək V. Muradova, 1902-ci il oktyabr ayının 1-dən 1910-cu il dekabr ayının 30-na kimi A. Qomalauri, 1910-cu il yanvar ayının 1-dən isə  Kazım Həşimov rəhbərlik etmişdir.

Ordubad şəhər ikisinifli rus-Azərbaycan məktəbini 1905-1906-cı tədris ilində Əlimərdanov Əlimardan, Əlixanov Məmməd, Hacıyev Əvəz, Hacıyev Məmmədhəsən, Hübətxanov Hübətbəy və Kaspalov Sololonya olmaqla 6 nəfər şagird bitirmişdir.

## 6.11. AZƏRBAYCANDA “ÜSULİ - CƏDİD" MƏKTƏBLƏRİ

“Cədid” - ərəbcə “yeni” deməkdir. “Üsuli - cədid” yəni “Yeni üsul” deməkdir. Bu anlayış yeni üsullu məktəblərin yaranması ilə meydana çıxmışdır.

Cədidizm – cədidçilik – XIX əsrin ikinci yarısında Rusiyada yaşayan türkdilli xalqlar arasında məktəb və mədrəsə təhsili sahəsində meydana gələn islahatçı hərəkatdır. Bu hərəkat tarixə “Üsulu-cədid” adı ilə daxil olmuşdur.

Yeni mütərəqqi pedaqoji cərəyan olan “Üsulu-cədid” hərəkatının başlıca məqsədi təhsil sahəsində şagirdlərə yeni üsulla oxumağı və yazmağı öyrətmək və ana dilində dünyəvi təhsil verməkdir. Bu üsul təhsildə köhnə hərf-heca üsulunun, əzbərçiliyinin əleyhinə olaraq meydana gəlmişdir. “Üsulu-cədid” məktəbləri ilk növbədə təlimin ana dilində aparılmasını və dünyəvi elmlərin tədrisini təmin etmişdir.

Cədidçilər dini fanatizmi rədd edir, köhnəlmiş dini məktəbləri yenisi – dünyəvi məktəblərlə əvəz etməyi lazım bilir, elm və mədəniyyətin inkişaf etdirilməsinə çalışır, cəmiyyətin demokratik qüvvələrinin birləşməsinə kömək etməklə yeni mədəni - maarif müəssisələri açmaq uğrunda mübarizə aparırdılar.

Cədidizm hərəkatı Krımda, Bağçasarayda yaranmış, sonra Azərbaycana və daha sonra isə Orta Asiyaya, Türkiyəyə yayılmışdır. “Üsuli-cədid” məktəblərində dərslər ana dilində aparılır, rus dili isə müstəqil fənn kimi tədris edilirdi. Tədris planına ümumtəhsil xarakterli fənlər dünyəvi biliklər daxil edilirdi. Əlifba təlimi yeni (sövtü) üsulla aparılırdı.

“Üsuli-cədid” məktəblərində şagirdlər biliyi asan mənimsəyir, təlimin tərbiyəvi xarakteri yüksəlirdi. “Üsuli-cədid” məktəblərində sabit tədris ili müəyyən edilir, şagirdlər partalarda oturur, təlimdə lövhədən, tabaşirdən, silgidən istifadə edilir, sinif – dərs sistemi tətbiq edilirdi. Bu məktəblərdə dövrün qabaqcıl maarifpərvər ziyalıları, səliqəli geyimli, qalstuklu müəllimlər dərs deyirdilər.

Cədidizm hər şeydən əvvəl Rusiya müsəlmanlarının islahatçılıq, yeni maarifçilik və mütərəqqi fəlsəfi fikirləri ilə bağlı olmuşdur. Bu islahatçılar içərisində Krım tatarı, ictimai xadim İsmayıl bəy Qasprinski (1851-1914) xüsusi yer tuturdu.

İsmayıl Bəy Qasprinski (Qasprali) Bağçasaray yaxınlığındakı Ovçuköy adlanan yerdə 1851-ci ildə doğrulmuşdur. Atası Mustafa bəy dövrünün açıqfikirli şəxsiyyətlərindən olmuş, 1854-cü ildə türkçülüyün əsas mərkəzi olan Bağçasaraya köçmüş və kiçik İsmayılın dünyagörüşünün formalaşmasına bu şəhərin ictimai – sosial mühiti böyük təsir etmişdir.

İlk və orta təhsilini Bağçasarayda və Ağ məscid (indiki Simferopol) şəhərindəki gimnaziyada alan İsmayıl bəy sonralar Voronej və Moskva hərbi məktəblərində də oxumuşdur. O Bağçasaray mədrəsələrindən birində, sonra isə Yaltada müəllimlik etmiş, 1871-ci ildə Türkiyəyə, oradan isə Parisə gedərək biliyini daha da təkmilləşdirmişdir. Sonralar İstanbula qayıdan İsmayıl bəy jurnalistika ilə məşğul olmuş, Moskva və Peterburq şəhərlərində nəşr edilən qəzetlərdə pedaqoji məqalələrlə çıxış etmişdir.

İsmayıl bəyin fəaliyyətində nəzəri daha çox cəlb edən başlıca məsələlərdən biri onun 1883-cü il aprelin 13-dən etibarən nəşr etdirdiyi məşhur “Tərcüman” qəzetidir. Bu qəzet Krımdan başlayaraq cəmi Qafqaz, Sibir, Türküstan, hətta Çin, İran, Misir və Türkiyədə geniş yayılmış, Azərbaycana da gəlib çıxmışdır. Qəzetin başlıca məramı – “Dildə, fikirdə, işdə birlik” olmuşdur.

O, “Tərcüman”ın hər sayında “Üsuli-cədid”in üstünlüklərini göstərən yazılar dərc etməklə bu işi böyük həvəslə təbliğ edir, ictimaiyyəti hərəkətə gəlməyə, məktəbə, təhsilə kömək etməyə səsləyirdi. O, Qərb ölkələrinə səyahəti zamanı Avropada yeni üsullu məktəblərin, yəni “Üsuli-cədid” ilə dərs keçirilməsinin əsasının məşhur İsveç pedaqoqu Pestalotsi tərəfindən qoyulmasını öyrənmiş bu yeni təcrübəni mənimsəmiş və vətənə qayıtdıqdan sonra bu üsulun Rusiyada yaşayan müsəlmanlar arasında geniş yayılmasına müvəffəq olmuşdur.

İsmayıl bəy Qasprinski tərəfindən ilk "Üsuli – cədid" məktəbi 1884-cü ildə  Bağçasarayda açılmışdır. Bu məktəbdə oxudulacaq əlifba İsmayıl bəyin yazdığı "Xocayi Subyan" dərsliyi idi. Məktəbdə dərsləri İsmayıl bəyin özü tədris edirdi. İsmayıl bəyin fikirləri və fəaliyyəti heç də asanlıqla qarşılanmırdı. Köhnə – qədim üsulun tərəfdarları olan və "Qədimçilər" adlanan ruhanilər hər vasitə ilə "Üsuli-cədid"in əleyhinə çıxış edirdilər.

Üsuli-cədid məktəbləri çətinliklərlə üzləşir, mühafizəkarların etirazı ilə qarşılanırlar. 1881-ci ildə Qoridən qayıdan Teymur bəy Bayraməlibəyov "Tərcumeyi-hal"ında yazırdı: "Mən bu məktəbə gələndə cəmi 4 şagird oxuyurdu. O zaman azərbaycanlılar öz uşaqlarını rus məktəblərinə qoymaq istəmirdilər. Belə hesab edirdilər ki, rus məktəbində oxumaq günah və dini cinayətdir. Avam valideynlərin, dindarların ciddi təsiri olduğunu görüb, mən müsəlman qardaşlarıma kömək etməyi mənəvi borc bilib, qapı – qapı gəzərək uşaqları məktəbə toplamaq məqsədilə təbliğata başladım. Təəssüf ki, çox vaxt təhqir və təqiblərə məruz qalırdım. Dindar valideynlər məni danlayaraq deyirdilər: "Özün kafir və allahsız olduğun bəs deyil, bizim uşaqları da yoldan çıxartmağa çalışırsan. Rədd ol, kafir!" Belə qəti etiraz cavab məni ruhdan salmadı" Beləliklə, "Oxutmuram, əl çəkin" zamanında maarifçilik hərəkatı kütləviləşməsə də, ayrı-ayrı yerlərdə məhəlli ziyalıların işə qarışması ilə müəyyən irəliləyişlərə nail olmaq mümkün idi. Qədimçilər bunu "Üsuli-yəzid" və yaxud da "fəna-cədid" deyə ləkələməyə çalışırdılar. Azərbaycanda fanatik ruhanilər "Üsuli-cədid" ə qarşı çıxır, bunu şeytan məktəbləri adlandırır, xalqı uşaqlarını bu məktəblərə qoymaqdan çəkindirirdilər. Bu münasibətlə Mirzə Ələkbər Sabir satirik şerində "qədimçilər"in dilindən deyirdi:

**Vah!.. Bu imiş dərsi-üsuli-cədid?!**
**Yoxx! Yox! oğul, məktəbi-üsyandü bu!**
**Molla deyil bundakı təlim edən!**
**Əlhəzər et, bir yeni şeytandı bu!**
**Dur qaçaq, oğlum, baş-ayaq qandı bu!..**

“Qədimçilər” və ya “qədimizm” adlanan mühafizəkarlar təlimdə köhnə – qədim üsula, mollaxana təhsilinə üstünlük verirdilər. Onu da qeyd edək ki, müsəlman ruhaniləri – köhnə üsullu məktəb tərəfdarlarını – yeni üsullu məktəb tərəfdarları ilə qarşı – qarşıya qoymaq, istər Avropada, istərsə də Rusiyada narazılıq, qorxu yaradırdı. Bu qorxunun yaranmasının əsas səbəbi rus çarizminin əsrlər boyu apardığı anti – türk, anti – islam siyasəti olmuşdur.

İsmayıl bəy Qaspirinskinin maarifçilik fəaliyyəti Azərbaycan ilə sıx bağlı olmuşdur. O, dəfələrlə Azərbaycan ziyalıları ilə görüşmüş, o zamanlar Qafqazın elm və mədəniyyət mərkəzi hesab edilən Tiflisə gəlmiş, Azərbaycanın ziyalıları da dəfələrlə Bağçasaraya, onun yanına getmişdilər.

İsmayıl bəy Qaspirskinin üsuli – cədid metodunu öyrənmək üçün Rusiyanın bir çox yerlərindən olduğu kimi Bakıdan, Qafqazdan da Azərbaycan ziyalıları Bağçasaraya getmiş, orada bu təlim üsulunu mənimsəyib öz işlədiyi məktəblərdə tətbiq etmişlər.

Rusiyada səs salmış İ.Qasprinskinin maarifçi fəaliyyəti ilə maraqlanan Nəriman Nərimanov bir qrup Azərbaycan ziyalıları ilə birlikdə Bağçasarayda müşahidə etdiyi “Üsuli cədid” məktəbləri barədə Odessadan Hacı Zeynalabdin Tağıyevə göndərdiyi bir məktubda yazırdı: “…İsmayıl bəy Qasprinski ilə bərabər Bağçasarayda olan müsəlman məktəblərinə vardıq. Bu bir özgə halətdir! Göz gərək, qulaq gərək həmin məktəbləri görüb bülbülə bənzər tatar balalarına qulaq asa! Belə bir qeyrət, belə bir fədakarlıq mən hələ görməmişəm… Bakı məktəbdarlarından bir nəfəri Bağçasaraya göndərib “Üsuli -cədid” ilə aşına olmağı və məktəblərin proqramını bilməyi bu zəmanədə vacib olan işlərdən biridir.”

Azərbaycan ziyalıları Ə.Topçubaşov, H.Z.Tağıyev, Ə.Hüseynzadə, Ə.Ağayev, M.Ə.Rəsulzadə, N.Yusifbəyli, M.T.Sidqi, F.Köçərli, S.Vəlibəyov, S.M.Qənizadə, N.Nərimanov, A.Y.Talıbzadə, Ə.Axundzadə İsmayıl bəyin yaxından tanıdığı, səmimi münasibət saxladığı şəxsiyyətlər idi. İsmayıl bəy özü Qoridə, Bakıda, Tiflisdə olmuş, adları çəkilən bu ziyalıları görmüş, yaxından tanış ol-

muşdur. Onlar da Krımın mərkəzi sayılan Bağçasarayda olmuş və İsmayıl bəyin açdığı məktəbləri əyani surətdə müşahidə etmiş, təcrübələrini öyrənmişlər.

F.Köçərli İsmayıl bəy Qaspirskinin hələ tələbə olduğu illərdən yaxşı tanıyırdı. Firudin Bəy Köçərli 1890-cı ildə Səfərəli bəy Vəlibəyovla birlikdə İsmayıl bəyi görmək, onunla yaxından tanış olmaq, onun iş təcrübəsini öyrənmək üçün Bağçasaraya getmiş, onun ailəsinə qonaq olmuş, Bağçasaray məktəblərinin iş təcrübəsi ilə tanış olmuşdur. İsmayıl bəy onları Bağçasarayda gəzdirmiş və hətta Bağçasaray məktəblərinin birində Səfərəli bəy bir nümunə dərsi də demişdir.

Ümumiyyətlə, İ. Qasprinski Azərbaycan türklərinin maarif və mədəniyyətinin inkişafı sahəsində gördükləri işləri olduqca yüksək qiymətləndirirdi. Səfərəli bəy Vəlibəyovun Bağçasarayda nümunə dərsi deməsi də Azərbaycan müəllimlərinə olan bu ehtiramın nümunəsi idi. "Tərcüman" qəzetində Əbdüssalam əfəndi Axundzadəyə həsr olunmuş məqalədən məlum olur ki, İsmayıl bəy Qasprinski  Əbdüssalam əfəndi Axundzadə və Əbdülqadir əfəndi ilə birlikdə Səfərəli bəy Vəlibəyovun Qori Müəllimlər Seminariyasında müəllimlər hazırlanmasında böyük rolu olduğunu şəxsən müşahidə etmək məqsədilə Qoriyə səfər etmiş, onların iş təcrübəsi, düşüncələri ilə tanış olmuş, qarşılıqlı fikir mübadiləsi aparmışdır. İsmayıl bəy Qori Müəllimlər Seminariyasının, ilk azərbaycanlı müəllimlərinin bu sahədəki təcrübəsindən yararlandığını da səmimiyyətlə etiraf etmişdir.

İsmayıl bəyin səmimi və işgüzar münasibətdə olduğu, dəfələrlə görüşdüyü Azərbaycan ziyalılarından biri də Sultan Məcid Qənizadə idi. S.M.Qənizadə Qori Müəllimlər Seminariyasında işlədiyi zaman İsmayıl bəy "Tərcüman" qəzetində onun barəsində xüsusi bir məqalə dərc etdirmişdir. Məqalədə S.M.Qənizadə "Qafqaziyada ədəbiyyat və lisani – türkiyə xidmət edənlər"in ən tanınmışlarından biri kimi təqdim edilir və bu mənada onun adı M.F.Axundovla bir sırada çəkilirdi.

İsmayıl bəy Qasprinski Nəriman Nərimanova böyük ehtiramını gizlətmədiyi kimi, N.Nərimanov da onun gördüyü işlərə, xalq, millət yolunda fədakarlığına həmişə hörmətlə yanaşmışdır.

İsmayıl bəy Qasprinski "Üsuli – cədid" hərəkatının geniş vüsət almasında Rusiya müsəlmanlarının zənginlərinin mühüm rolu olduğunu minnətdarlıqla xatırlayır və bu hərəkatın öncülləri sırasında Hacı Zeynalabdin Tağıyevin adını ön plana çəkirdi.

Qətiyyətlə demək olar ki, Azərbaycanda "Üsuli – cədid" hərəkatının genişlənməsi birbaşa həm də Hacı Zeynalabdin Tağıyevin adı ilə bağlıdır. O, bu hərəkatın xalqa fayda gətirəcəyinə ürəkdən inanmış və bu yolda ağlasığmaz işlər görmüşdür. Sonralar "Türk Yurdu"na verdiyi müsahibəsində İ. Qasprinski "Üsuli – cədid" hərəkatının geniş vüsət almasında böyük rolu olan şəxslər sırasında məhz H.Z.Tağıyev adını birinci yerdə çəkməsi təsadüfi deyildir.

Tarixi faktlar göstərir ki, H.Z.Tağıyev 1905-ci il inqilabına qədər yeni üsullu məktəblərin açılması sahəsində böyük işlər görmüşdür. O, "Üsuli – cədid" hərəkatının daha da geniş vüsət almasına yardım etmək məqsədi ilə 1906-cı ildə "Nəşri – Maarif" cəmiyyəti təsis etmiş və Həsən bəy Zərdabi, Nəriman Nərimanov, Molla Ruhulla, Sultan Məcid Qənizadə, Əli İsgəndər Cəfərzadə bu işdə onun səmimi dəstəçisi olmuşdular. Bu cəmiyyət artıq sistemli şəkildə məktəblər açılması ilə məşğul olurdu.

Əli bəy Hüseynzadənin dərs dediyi "Səadət" məktəbi də adı çəkilən cəmiyyət tərəfindən açılmış "Üsuli – cədid" məktəblərindən biri idi. bu məktəbə Tağıyev müntəzəm maliyyə yardımı edirdi. Ümumiyyətlə, "Nəşri – Maarif" dən başqa Bakıda digər maarif cəmiyyətləri də fəaliyyət göstərirdi və H.Z.Tağıyev bu cəmiyyətlərin hamısını öz himayəsinə götürmüşdü. Bununla belə Azərbaycanda fəaliyyət göstərən xeyriyyə cəmiyyətləri arasında "Üsuli – cədid"in yayılması "Nəşri – Maarif" cəmiyyətinin adı ilə bağlı olmuşdur.

Şamaxıda S.Ə.Şirvani, Şəkidə Məhəmmədəmin Şeyxzadə, Ordubadda və Naxçıvanda M.T.Sidqi, Şuşada M.M.Nəvvab, Lənkəranda M.İ.Qasir, Gəncədə Mirzə Şəfi Vazeh, Qubada Muxtar

Əfəndizadə, İrəvanda Mirzə Kazım Ələskərzadə ilk "Üsuli - cədid" məktəblərinin yaradıcısı olmuşlar.

Azərbaycan ziyalıları, maarifpərvərləri İsmayıl bəy Qaspralının cədidizm sahəsindəki xidmətlərini yüksək qiymətləndirmişlər. Azərbaycanın tanınmış maarifçisi Firudin bəy Köçərli Rusiya müsəlmanlarının lideri, böyük millət xadimi, türk yurdunun yol başçısı, "Tərcüman" qəzetinin naşiri və redaktoru, ustad pedaqoq, publisist, alim, mütərcim İsmayıl bəy Qaspralının vəfatı münasibətilə "İqbal" qəzetində dərc etdirdiyi məqaləsində yazırdı: "İsmayıl bəy diriliyimizin mayası və millətimizin ruhu mənziləsindən idi. İsmayıl bəy öldü demək millətimizin çırağı söndü, həyat və sevincimizin parlaqlığı pozuldu deməkdir. Əsrin üçdə biri boyunca millətin tərəqqi və yüksəlişi yolunda yorulmadan çalışmaq, hər tərəfdən onun üzərinə yönələn oxlara sinəsini sipər etmək, onun nicat və səadətinə çarələr aramaq, cəhalət kimi öldürücü xəstəliklərini müalicə edib səhhət və səlamətə çıxarmaq yüngül və asan iş deyil. Bu ağır zəhmətlərə və böyük məşəqqətlərə boyun olmaq ancaq İsmayıl bəy kimi sahib hünərlərinin və qəlbi bütövlərin əlindən gəlir…"

N.Nərimanov da İsmayıl bəy Qaspirinskinin vəfatına heyfslənmiş, o zamanlar Bakıda nəşr edilən "Bəsirət" qəzetində "Bağçasaray imtahan meydanı" adlı məqalə ilə çıxış edərək onun heç bir zaman unudulmayacağını, ayrıca vurğulayırdı. N. Nərimanovun məqaləsi bu sözlərlə başlayır: "İsmayıl öldü deməyə dilim gəlmir. "Öldü" sözündə bir yoxluq var. İsmayıl bəy yoxdur xəbəri məni dərin – dərin fikirlərə salır, gözlərimi torlandırır, ağlımı çaşdırır".

"Molla Nəsrəddin" jurnalı İ.Qasprinskinin ictimai-pedaqoji fəaliyyəti ardıcıl olaraq işıqlandırır, bu görkəmli türk maarifçi xadiminin "ana dili və milli intibah" çağırışlarına qarşı çıxan qara qüvvələrin bəd niyyətləri ifşa edilirdi. Beləliklə Azərbaycanda "Üsuli-cədid" hərəkatı getdikcə genişləndi və yeni üsullu məktəblər açılmağa başlandı.

XIX əsr ana dilli məktəblər içərisində S.Ə.Şirvaninin 1869-cu ildə Şamaxıda açdığı "Üsuli - cədid" məktəbi ilk fəxri yeri tutur.

S. Əzimin məktəbində tətbiq edilən yeniliklər onun Şərq ölkələrini gəzməsi, Şərqdə təhsil alması, Şərq elmlərinin təsiri ilə deyil, məhz qabaqcıl klassik Azərbaycan pedaqoji fikrinin, ana dilli məktəb ideyasının, mütərəqqi mədəniyyətin təsirinin nəticəsi idi.

Az müddət içərisində Seyid Əzimin "Üsuli cədid" məktəbi digər ruhani məktəblərdən fərqləndi və şöhrət qazanmağa başladı. Bu, məktəbin daxili qayda-qanunlarından başqa həm də quruluşu, məqsədi, təlimin məzmunu və mahiyyəti, yeni təlim üsulu ilə əlaqədar idi.

Görkəmli ədib və peşəkar ədəbiyyat tənqidçimiz Seyid Hüseynin (1887-1938) yazdığına görə, "Seyid Əzimin tədris etdiyi "Üsuli-cədid" məktəbi o dövrün ən çox yayılmış tədris ocağı olan mollaxanalardan təlimin məzmununa görə əsaslı surətdə fərqlənirdi. "Məktəb bir dərs otağından ibarət olsa da uşaqlar iki diz üstündə palazın üstündə deyil, xüsusi surətdə düzəldilmiş skamyalarda otururdular. Əlavə olaraq dərs odasında qara taxta olurdu ki, bəzi yazılar ağ tabaşirlə orada yazılıb uşaqlara izah edilirdi. Eyni zamanda hər saatda (bir dəfə) 10-15 dəqiqəlik tənəffüs elan edilir, uşaqlar küçəyə buraxılırdı".

Seyid Əzimin yeni üsul məktəbində şəriətdən əlavə türk (Azərbaycan), rus, ərəb və fars dilləri, hüsnxət və rəsmxət öyrədilir, tarix, coğrafiya, hesab, həndəsə və digər fənlərdən də ibtidai məlumat verilirdi.

Məktəbdə Ana dili və rus dili ilə bərabər ərəb və fars dillərinin tədris planına daxil edilməsi onunla əlaqədar idi ki, o vaxtlar hələ də ərəb və fars dilləri Azərbaycan ədəbi dili kimi öz nüfuzunu saxlayırdı. Klassik Şərq ədəbiyyatı ilə tanışlıq üçün də bu dillər böyük əhəmiyyət kəsb edirdi. Lakin bununla belə, Seyid Əzimin məktəbi burada ərəb və fars dilləri tədris edildiyinə görə deyil, ana dili və rus dili öyrənildiyinə görə məşhurlaşmışdı. Mirzə Ələkbər Sabir, Sultan Məcid Qənizadə kimi məşhur ədiblərimiz ilk təhsillərini o dövrün fanatik din xadimlərinin həqarətlə "kafir məktəbi" adlandırdıqları Seyid Əzimin həmin üsuli-cədid

məktəbində almışdılar.

Şairin müasiri, məşhur pedaqoq Həbibbəy Mahmudbəyov "Uzaq keçmişlərdən əski xatirələr"ində Seyid Əzimin məktəbi haqqında yazır ki, "məzkur məktəb Azərbaycan və farsi olmaq üzrə iki şöbədən ibarət idi". Onun sözlərinə görə, "məktəb müntəzəm və gözəl şəklə girmiş, dərslərinin düzgün və müntəzəm getməsilə məktəb az zaman içində gərək mütəşəbbüslərin, gərək sairələrin diqqətlərini cəlb ilə etibarlarını qazanmağa müvəffəq olmuşdu. Seyidin yaxın dostlarından beş-altı nəfər tərəfindən məktəbin ziyarət edilməyən günü yox idi. Gələnlər saatlarla son siniflərdə oturarlar, Seyidin gözəl bir tərzi-tədris ilə verdiyi fars dərslərini dinləyər: çocuqların cavabları ilə maraqlanardılar. Məktəb çocuqları arasında ən çox diqqəti cəlb edən zəki və cəld çocuq Sabir idi".

Seyid Əzimin məktəbi yeni üsullu məktəb idi. Burada ana dili təlimi köhnə hərf – heca üsulu ilə deyil, yeni üsul ilə – "Üsuli-cədid" ilə aparılırdı. Seyid Əzim yeni üsulu təcrübi olaraq tətbiq etməklə bərabər, onu təbliğ edir, yeni əlifba düzəltməyi, uşaqlara "Əlifbayi-cədid" ilə ana dilində dərs deməyi lazım bilirdi.

S.Ə.Şirvani ana dili ilə bərabər həyatın tələbindən irəli gələn rus dilinin tədrisində də böyük əhəmiyyət verirdi. "Puşkin kimi öz zəmanəsinin hər bir həyati hadisəsinə tez cavab verən" (F.Köçərli) Seyid Əzim böyük məşəqqətlərə baxmayaraq xalqını oyatmaq, mədəni millətlər cərgəsinə çıxartmaq üçün çalışırdı. Seyid Əzim hər dilin öz yeri olduğunu göstərir, lakin rus dilinə ayrıca yer verirdi. Bütün bunların nəticəsi idi ki, "Heç bir Avropa təhsili almamış bu sadə Şamaxı Seyidinin" (F.Köçərli) açdığı məktəb təkcə Bakı quberniyasında deyil, cəmi Qafqazdakı müsəlman ümumtəhsil məktəbləri içərisində şöhrət qazanmışdı. Seyid Əzimin məktəbi təxminən 14 il fəaliyyət göstərdi. Mürtəce ruhanilərin təzyiqi, ağır maddi vəziyyət nəticəsində onun məktəbi 1887-ci ildə bağlandı.

Unudulmaz maarifçinin gərgin əməyi və fəaliyyəti sonralar Azərbaycanın digər yerlərində də ana dilində yeni məktəblərin açılmasına təkan verdi. Belə ki, XIX əsrin axırlarında Azərbaycan zi-

yalıları, pedaqoqları xalqın və varlıların yardımı sayəsində öz milli məktəblərini – yeni üsul məktəblərini açmağa həvəslə başladılar.

Şamaxıda şair və pedaqoq Hacı Seyid Əzimin vaxtı ilə açmış olduğu üsuli-cədid məktəbini Mirzə Rza davam etdirirdi. Qubada Molla İbrahim Xəlil, Salyanda Molla Əbülhəsən, Bakıda Mirzə İsmayıl Qüdsi yeni üsullu məktəblərin qurucuları idi.

Şamaxıda daha yeni bir "Üsuli-cədid" məktəbi 1874 -cü ildə açılmışdır. Bu məktəbin yaradıcısı Səid Ünsizadə olmuşdur. Bu məktəb yarı mülki, yarı ruhani məktəb idi. Bu məktəbin maliyyə xərclərini Şamaxı camesi ödədiyindən məktəbin adı "Məclis məktəbi" adlandırılmışdır.

Burada dərslər yeni təlim üsulları ilə keçirilir, şagirdlər mollaxana məktəblərindən fərqli olaraq, quru yerdə yox, şəhərdəki rusdilli qəza məktəbində olduğu kimi, partada əyləşir, yazı və qrammatik tapşırıq işlərində, lövhə və tabaşirdən istifadə edirdilər. Məktəbdə əsas fənləri şəhərin rusdilli qəza məktəbinin müəllimləri- S.Ə.Şirvani və Səid Ünsizadə deyirdilər. Səid Ünsizadə və məktəbin bəzi müəllimləri Tiflisə getdiyindən məktəbə əvvəllər göstərilən yardım getdikcə azalır, müəllim çatışmazlığı tədrisin səviyyəsini hiss olunacaq dərəcədə aşağı salırdı. "Məclis məktəbi" nin ağır günlərində bu yeni təhsil ocağına kömək üçün türkdilli ziyalılara müraciət edilir. Lakin müraciət şəhərin bəzi pul və sərmayə sahibləri tərəfindən soyuqqanlılıqla qarşılanır. S.Ə.Şirvani "Əkinçi" qəzetinin redaktoru Həsən bəy Məlikova (Zərdabiyə) və sonralar "Ziya" qəzetinin imtiyaz sahibinə-Məclis Məktəbinin yaradıcısı Səid Ünsizadə Əfəndiyə də dəfələrlə öz müxbir məktubları vasitəsilə dəfələrlə müraciət edir. Təəssüf ki, nə Zərdabi, nə də Səid Ünsizadə uzaqlardan Şamaxıda yaradılan bu ibtidai təhsil ocağına kömək edə bilmirlər. S.Ə.Şirvaninin sonralar orta məktəblərdə şagirdlərə "Qafqaz müsəlmanlarına xitab" adı ilə təqdim edilən məsnəvisi Şamaxı Məclis Məktəbinə göstərilən münasibətdən bəhs olunur.

S.Ə.Şirvani H. Zərdabidən məsələnin həlli üçün özünün əqidə

və məslək dostu Həsən bəy Məlikovdan (Zərdabidən) xahiş edir ki, o səlahiyyətli və böyük məclislərdə sözü eşidilən Həsən bəy Məlikov - Məclis Məktəbinin düşdüyü çətinlikləri Qafqaz şeyxülislamının və müftisinin diqqətinə çatdırsın. Yeri gəlmişkən qeyd edək ki, o vaxtlar Qafqazın müftisi Əbdülhəmid Əfəndi Mustafa Əfəndizadə (15.04.1812,Şamaxı-10.12.1881,Tiflis ) idi. O, müftilik vəzifəsinə təyin olunana kimi Şamaxının Əhli-Təsənni İdarəsinin sədri, quberniya qazısı idi. Mükəmməl dini təhsili var idi. O, Şamaxı Mədrəsəsində işləyərkən bu şəhərdə müəllimlik edən Avropalı əcnəbi pedaqoqlardan rus və fransız dillərini yaxşı öyrənmişdi. Ə. Əfəndizadə ömrünün son 7 ilini rusca-türkcə tərcümə lüğətinin tərtibinə həsr etsə də, vaxtsız ölüm bu işi başa çatdırmağa imkan verməmişdi.

O vaxtlar Qafqazın şeyxülislamı isə əslən Salyandan olan, klassik Şərq ədəbiyyatını, ana dili ilə yanaşı, ərəb və fars dillərini mükəmməl bilən Əhməd Hüseynzadə (1812, Salyan-1887,Tiflis) idi. O, məşhur şair, ədib, naşir, rəssam Əli bəy Hüseynzadənin ana babası idi. Əhməd Hüseynzadə dini vəzifə çərçivəsində maarifçilik məsələlərinin təbliğində yorulmadan çalışan ziyalılardan idi. Onun fars dilində yazdığı "Dilguşə" adlı dərsliyi uzun müddət Azərbaycan və Türkiyə məktəblərində şagirdlərin istifadəsinə yönəldilmişdir.

1884-cü ilin yanvarında Səid Ünsizadə Tiflisdən Şamaxıya Əhli-Təsənni İdarəsinə sədr təyin olunduqdan sonra "Məclis məktəbi" nin işində əsaslı dönüş yaranmış, məktəbin ilk illərindəki şöhrəti maarifçilik tariximizdə yenidən bərpa olunmuşdur.

S.Ə.Şirvani Məclis Məktəbi haqqında məsnəvisində belə yazmışdır:

**İndi Şirvanda açmışıq məktəb,**
**Dərsimiz rusi, türkı, farsi, ərəbi.**
**Zəhmətim çox, amma heç nəfim yox,**
**Leyk həqqə ümidvaram çox- .**

Şamaxıda açılan "Üsuli-cədid" məktəblərindən biri də Seyid

Əzim Şirvaninin "Üsuli-cədid" məktəbində təhsil almış Mirzə Ələkbər Sabirin "Ümid" adlı yeni üsul məktəbi idi.

1908-ci ilin yay aylarında qabaqcıl ziyalı və maarifpərvərlərin köməyilə hökumətdən icazə alan Sabir həmin ilin sentyabrında "Ümid" adlı "Üsuli-cədid" məktəbi açmışdır.

Görkəmli mühərrir Haşım bəy Vəzirov Şamaxıda olduğu zaman Sabirin açdığı "Ümid" məktəbinə getmiş, xalq şairi ilə görüşmüş, "Üsuli – cədid" məktəbində şagirdlərlə aparılan təlim-tərbiyə işləri ilə tanış olmuşdur. Həcəf bəy Vəzirov yazır: "... Sabir əfəndinin məktəbində... uşaqlar gözəl bir tərzdə təlim tapırlar. Burada dünyəvi elmlər keçilir, dərslər əsaslı və davamlı olaraq təşkil edilir...".

Tələbələrinin dediyinə görə, Sabir bir müəllim və tərbiyəçi olaraq, çox müdrik, həssas və coşqun ruhlu adam olmuşdur. Keçdiyi ədəbi qiraət dərslərində şagirdlərə mümkün qədər ətraflı bilik vermək və xüsusilə, onlarda bədii zövq tərbiyə etmək üçün böyük şövqlə çalışarmış. Nəğmə dərslərinə xeyli vaxt ayırması da maraqlı bir cəhət idi.

Sabirin "Ümid" məktəbində fəaliyyət göstərdiyi vaxtlarda real həyati müşahidələr əsasında qələmə aldığı "Bah!..bu imiş dərsi – üsuli-cədid!" misrası ilə başlanan məşhur şeirində Sabir həm yeni tipli məktəblərdən vahiməyə düşən avamların, "çubuq və fələqqə tərəfdarlarının" iç üzünü açıb göstərmiş, həm də "Üsuli-cədid" məktəbində keçilən "mübtədi elmlər"lə təlim-tərbiyə prosesinin xüsusiyyətlərini qeyd etmişdir.

Sabir məktəbin dünyəvi olmasını təklif edirdi. O, ibtidai məktəblərin tədris planında dini fanatizm əvəzinə dünyəvi fənlər (coğrafiyanın, hesabın, ədəbiyyatın) keçilməsini təklif edirdi. Sabir özünün təşkil etdiyi yeni üsul məktəbində ana dilinə xüsusi fikir verirdi. O, inqilabdan əvvəlki Azərbaycan məktəblərində aparılmasını zəruri hesab edir və bu yolda dönmədən mübarizə aparır, bu məsələnin daha ardıcıl həll olunması üçün ana dilində tədris edə biləcək müəllimlər hazırlanmasını arzu edirdi.

Söz yox ki, mürtəcelər. “kafir” və “mürtəd” adlandırdıqları bir xalq şairinin “Üsuli – cədid məktəblərində” öz işini uzun zaman davam etdirməsinə yol verməzdilər. Bir tərəfdən, az sonra uşaqlardan çoxunun atasının təhsil haqqı verməməsi, o biri tərəfdən də, qaragüruhçuların təzyiqi nəticəsində şair başladığı mühüm xalq işini 1909 - cu ildə dayandırmalı olmuşdur.

Füzulu ədəbi məktəbinin davamçısı olan Mirzə İsmayıl Qasir (1805-1900) Talış mahalında 1871-ci ildə ana dilində “Üsuli-cədid” məktəbi açmışdır.

Mirzə İsmayıl Qasir müxtəlif mənbələrin verdiyi məlumata görə 1805-ci ildə Şamaxı qəzasının (indiki Ağdaş rayonunun) Ləki kəndində ruhani ailəsində anadan olmuşdur”

Qasirin atası Molla Səlim dövrünün mükəmməl təhsil görmüş şəxsiyyətlərindən olmuş, Kərbəlada oxumuş və məşhur şair və ziyalı olmuşdur. O “Qasir” təxəllüsü ilə türk, ərəb və fars dillərində şerlər yazmışdır. Kərbəlada təhsilini başa vurandan sonra Hacı Molla Səlim vətəni Şirvana dönmüş, Cavad mahalında (indiki Sabirabad, Saatlı rayonlarını əhatə edir) mədrəsə açaraq 1812-ciilədək müdərrislik etmişdir.

İsmayıl Qasir hələ balaca ikən atası 1812-ci ildə vəfat etmişdir. “Atasının ölümündən sonra İsmayıl 12-13 yaşlarında Cənubi Azərbaycanın Əhər qəsəbəsində yaşayan bacısıgilə getmiş və təhsilini orada davam etdirmişdir. 4 il burada oxuduqdan sonra Təbrizə getmiş, ərəb və fars dillərini, Şərq ədəbiyyatını və fəlsəfəsini mənimsəmişdir”. Qasir Təbrizdə təhsil alarkən bəzi vaxtlarda Ordubada - dayısı Hüseyn Sultangilə getmiş, bəzən də Lənkəranın Sütəmürdov kəndində yaşayan ikinci dayısı Molla Əliməmmədgilə getmiş və tətil vaxtlarını buralarda keçirmişdir. Ordubadda yaşayan dayısı Hüseyn Sultanın təkidi ilə İsmayıl rus dilini öyrənmiş, rus ədəbiyyatı ilə tanış olmuşdur”. Rus dilini öyrənmək Qasirin sonrakı həyat yolunda öz izini buraxmış, o, bir müddət tərcüməçilik də etmişdir.

Təhsili başa vuran Mirzə İsmayılın xəttatlıq sənətinə dərindən

yiyələndiyi və geniş məlumatlı şəxs olduğu üçün İsfahanlı məşhur tacir Seyid Hüseyn Təbətəbai onu İsfahana dəvət etmiş, ömrünün müəyyən hissəsini onun oğlanlarının təlim-tərbiyəsinə, təhsilinə həsr etmişdir.

Qasir XIX əsrin ən diqqətəlayiq və mütərəqqi fikirli ziyalı müəllimlərindən biri olmuş, tələbələrinin yaddaşında "çox arif bir şəxs, hazırcavab və ustad bir müəllim" kimi qalmışdır.

Mirzə İsmayıl Qasirin Azərbaycanın ilk "cədid" dərsliklərindən birini yazması faktı da pedaqogika tariximiz baxımından maraq doğurur.

1894-cü ildə Mirzə İsmayıl Qasir fars dilinin qrammatikasına aid "Qanuni-Mirzə İsmayıl Qasir" adlı bir dərslik yazmışıdr. Əlyazma halında olan bu kitab tezliklə məşhurlaşmış, "Qasirin dövründə də, ondan sonra da uzun müddət Lənkəranda və onun ətrafında olan məktəblərdə ən çox işlənən bir dərslik olmuşdur. Dərslikdə yenilik ondan ibarətdir ki, höccələmə üsulu islah olunmuş, hərflər nisbətən köhnə adları ilə deyil, söz daxilində verdiyi səslə göstərilmişdir". Hazırda Qasirin irsi içərisində "Qanun"un ayrı-ayrı vərəqləri Əlyazmalar İnstitutunda saxlanılır.

O dövr Lənkəran ziyalılarının böyük bir dəstəsi ilk təhsilini Qasirin dərs dediyi məktəblərdə almışdır. Məşhur ordu generalı Səməd bəy Mehmandarov da Qasirin açdığı "Üsuli-cədid" məktəbində təhsil almışdır.

Lakin, bunu da qeyd edək ki, Lənkəranın xurafat qüvvələri şairə mənəvi təzyiqlər etmiş, ruhani fanatiklər Qasirin yaratdığı "Üsuli - cədid" məktəbinə hücumlar etmiş, özünü təqib etmişlər.

1871-ci ildə Lənkəranda müəllim işləyən şair Mirzə İsmayıl Qasir və məhkəmə katibi və Sadıq bəy Mehmandarov ağır ehtiyac içində yaşayan əhaliyə şəhərin Forştat hissəsində məskunlaşmış rusların və almanların əkdikləri kartofdan yemələrini məsləhət gördüklərinə görə ruhanilər onların hər ikisinin Lənkərandan qovulması barədə qərar çıxarırlar. Başqa əcnəbi millətlərin becərdiyi kartofu murdar adlandıran savadsız ruhanilər şair Qasiri və hüquq-

şünas Sadıq bəyi kafir adlandırır və kartofdan istifadəni camaata qadağan edirlər. Qasir və Sadıq bəy bu barədə məktubla Qafqaz şeyxülislamı Fazil İrəvaniyə müraciət edirlər. O, Lənkəran ruhanilərinin düzgün olmayan qərarını ləğv etməklə, hər iki açıqfikirli ziyalının məktubu ilə əlaqədar onların müdafiəsi mövqeyində dayanır... Qasir 1900-cü ildə Lənkəranda vəfat etmişdir.

Şuşada "Üsuli-cədid" məktəbi açan görkəmli müəllimlərdən biri də Mir Möhsün Nəvvab (1833-1918) olmuşdur. Nəvvab şair, rəssam, astronom, ədəbiyyatşünas, nəqqaş, tarixçi, xəttat və musiqişünas olmuşdur.

Şuşadakı rus məktəblərinin təcrübəsi və 1870-ci illərdən sonra meydana gələn yeni təlim – tərbiyə üsulları ilə tanış olan Nəvvab keçən əsrin 1890-cı illərində Şuşada yeni üsullu ana dilli məktəbi açmış və orada dərs demişdir. Bu məktəbdə Azərbaycan dili, ədəbiyyat, fars dili və digər fənlər tədris edilir, dünyəvi elmlərdən məlumat verilirdi.

Mir Möhsün Nəvvabın kitabları arasında musiqiyə aid "Vüzuhül-ərqam" risaləsi, "Təzkireyi-Nəvvab", "Nəsihətnamə", 1905-1906-cı illərdə erməni-müsəlman savaşına aid kitabı, "Kəşfül həqiqeyi-məsnəvi", "Kifayətül-ətfal", "Nurül-Ənvar" və başqalarını göstərmək olar.

M. Nəvvab Şuşada "Məclisi-fəramuşan (Unudulmuşların məclisi)" və "Musiqiçilər məclisi"ni yaratmışdır. Bu məclislər tək Şuşanın deyil, bütün Azərbaycan sənətinin inkişafında böyük rol oynamışlar. Nəvvab özünün çap maşınında bir çox Azərbaycan şairlərinin şerlərini çap edib yayırdı. O vaxt Azərbaycanın şimalında Bakı və Şuşadan başqa heç bir yerdə mətbəə yox idi. Nəvvabın Şuşa şəhərinin mədəni inkişafında rolu böyük olmuşdu.

Məktəblərdə dinin göstərişinə görə şəkil çəkmək qadağan olduğundan Novruz bayramına 3-4 gün qalmış şagirdlərə "kətələr" deyilən, şerlə yazılmış və qıraqları şəkillərlə bəzədilmiş, Nəvvabın əl mətbəəsində çap edilmiş vərəqlər paylanırdı. Uşaqlar "kətə" paylanan günü həsrətlə gözləyirdilər.

1903-cü ildə Nəvvab Şuşada kitabxana və qiraətxana acmışdır. Bura müxtəlif şəhərlərdən qəzet və jurnallar gəlirdi. Qiraətxana müxtəlif illərdə "Molla Nəsrəddin", "İqbal", "Səda", "İrşad", "Şərqi-rus" və digər jurnal və qəzetləri alırdı. Yenə Bakıdan "Əkinçi", Tiflisdən "Ziya", "Kəşkül", Hindistandan "Həblül-mətin" qəzetlərini və s. alırdı.

Nəvvabın yaratdığı "Məclisi-fəramuşan" məclisinə Abdulla bəy Asi, Fatma xanım Kəminə, Məşədi Əyyub Bakı, Həsənəli xan Qarabağı, Abdulla Həsən Şahid, Mirzə Xosrov və digər şairlər daxil idi. Onlar bir-birləri ilə, həm də 1872-ci ildə Şuşada yaranmış və Xurşudbanu Natəvanın rəhbərlik etdiyi "Məclisi-üns" ədəbi məclisinin üzvləri ilə şerləşirdilər. Nəvvab Natəvanın oğlunun ölümünə şer də yazmışdı. "Məclisi-fəramuşan"ın üzvləri Azərbaycanın digər şəhərlərindəki məclislərlə də, o cümlədən, Şamaxıdakı "Beytüs-Səfa" (bu məclisə məşhur şair S.Ə. Şirvani rəhbərlik edirdi), Bakıdan "Məcməüş-şuara" ilə şerləşirdilər.

"Təzkireyi-Nəvvab" antologiyasında Nəvvab yüzə qədər Qarabağ şairi haqqında məlumat vermişdir. Belə ki, Nəvvab yazdığı dibaçələrdə, yəni müqəddimələrdə Vaqif, Vidadi, Xurşudbanu Natəvan, Zakir və digər şairlər haqqında məqalələr yazmışdır.

Nəvvabın yüksək bədii zövqü var idi. Bu onun poeziyasında, kitablarının bədii tərtibatında, şəxsi evinin, işlədiyi məktəbin, Şuşanın "Böyük məscidinin" iki minarəsinin naxışlarının vurulmasında, formasında və s. özünü büruzə vermişdir. Nəvvabın kitab sənətinin inkişafında rolu xüsusilə böyükdür. Nəvvabın "Bəhrül-həzan" kitabının 5 illüstrasiyasında verilmiş miniatürlər bədiiliyinə, rəng çalarlarına görə klassik miniatürlərdən daha çox Şəki xan sarayının frizlərini xatırladır.

Nəvvabın çoxşaxəli yaradıcılığında onun astronomiya, riyaziyyat, kimya və digər elmlərə aid görüşləri də maraq doğurur. Nəvvab özünə məxsus teleskopla planetləri, ulduzları müşahidə etmiş, hətta modelini də düzəltdirmişdi.

Çoxlu sxemdən və hərfdən ibarət "Cəfəri came-mürtəzevi"

əsəri xüsusi lüğətə bənzəyir.

"Nəsihətnamə", "Kifayətül-ətfal", "Nurul-Ənvar"da onun alim və pedaqoq kimi psixoloji və etik görüşləri əks olunmuşdur.

M.M.Nəvvab elmlərə böyük əhəmiyyət verirdi. O, "Elm və hünərdən yadigar qoymaq yaxşıdır, nəinki mal və əmlakdan – deyirdi. Nəvvab sözə, nitq mədəniyyətinə xüsusi əhəmiyyət verirdi. O deyirdi ki, "Söz yalnız o vaxt təsirli olur ki, yerində işlənsin. Cəvahir kimi gözəl kəlimatları bimövqe yerdə və biviquf kəslərə demə ki, biqədir və biqiymət olsun". Nəvvab haqq, həqiqət tərəfdarı idi. O, "Güman zənni ilə heç kəsi günahkar bilib, onun təqsirinə şəhadət etmə" - deyə tövsiyə edirdi.

M.M.Nəvvabın 1905-ci ildə yazdığı "Qafqaz erməni tayfası ilə müsəlmanların vuruş və iğtişaş tarixləri" adlı son dərəcə əhəmiyyətli, bu gün ilə səsləşən və ortaya atılmış süni Dağlıq Qarabağ probleminin tarixi köklərinin öyrənilməsi üçün qiymətli mənbə olan bu əsər yalnız 1993-cü ildə, yəni yazıldığından 88 il sonra nəşr edilmişdir.

Bu kitabı oxuyarkən, Nəvvabın qələmə aldığı erməni-müsəlman davası ərzində, ermənilərin Bakıda, İrəvanda, Naxçıvanda, Təbrizdə, Şuşada, Tiflisdə, Gəncədə və başqa şəhərlər, kəndlərdə azərbaycanlılara qarşı törətdikləri vəhşilikləri, zülmü təsvir edən hadisələr və faktlar ilə tanış olduqda, genosidin məhz ermənilər tərəfindən həyata keçirildiyi bir daha aydın olur. Nəvvab musiqini inkişaf etdirmək məqsədilə İrəvanda oturan müctəhid Fazil İrəvaniyə müraciət etmiş, ondan musiqi işləri ilə əlaqədar rəsmi surətdə icazə almaq istəmişdir. Nəvvab ruhani qardaşlarına bildirir ki, musiqi elmi ilə qüdrətli və bacarıqlı alimlər məşğul olmuşlar. Bütün dövrlərdə, əsrlərdə onlar elmin ləzzətini dünyanın cəmi ləzzətindən artıq hesab etmişlər. O qeyd edir ki, bu risaləni yəni "Vüzuhül-ərqam"ı yazmaqda bizim də elmiyyədən savayı bir niyyətimiz yoxdur. Nəvvabın yaşadığı dövrü, dini ehkamların sürdüyü tələbləri nəzərə alsaq onun bu fikrinin müasirliyi və mütərəqqiliyi tam aydın olur.

M.M.Nəvvabın çox mühüm xidmətlərindən biri, S.Ə.Şirvani və M.T.Sidqi kimi, öz məktəbində tədris etmək üçün dərslik və tədris vasitələri tərtib etməsidir. M.M.Nəvvabın “Kəşf-ül-həqiqə”, “Kifayət-ül-ətfal”, “Büzuh-ül-ərqam” və “Nəsihətnamə” adlı dörd dərsliyi məlumdur.

XIX əsrin 80-ci illərindən başlayaraq qabaqcıl ana dilli məktəbi yaratmaq cəhdləri get-gedə artmış və 1883-cü ildə Şuşada Səfərəlı bəy Vəlibəyov tərəfindən də “Üsuli cədid” məktəbi açılmışdır. Yay tətili zamanı Şuşada istirahət edən ZMS-nın azərbaycanlı şöbəsinin ibtidai məktəb müəllimi Səfərəli bəy Vəlibəyov müvəqqəti olsa da, bir məktəb açaraq, uşaqlara savad öyrədirdi. Onun məktəbində müxtəlif qəsəbələrdən olan 25 şagird oxuyurdu. Tədris səs üsulu ilə aparılırdı. S.Vəlibəyov şagirdlərə yalnız savad verməklə kifayətlənmirdi. O, eyni zamanda yerli məktəbdarlara səs üsulunun üstünlüyünü izah edir, bu üsul ilə dərs deməyin əhəmiyyətini əyani olaraq göstərirdi.

M.T.Səfərovun (1854-1904) “Üsuli cədid” məktəbi həm məzmun, həm də geniş əhatə dairəsinə görə fərqlənir.

O, 1892-ci ildə Ordubad şəhərində ana dilində bir məktəb açmış və ona “Əxtər” (“Ulduz”) adı vermişdi. Sidqinin “Əxtər” məktəbinin meydana gəlməsi o vaxtki Ordubad və bütünlüklə Naxçıvan ictimai-pedaqoji mühitində çox mühüm hadisə idi. Diqqətəlayiq haldır ki, M.T.Sidqi haqqında yazılan xatirələrdə onun Ordubadda və Naxçıvanda maarifçilik fəaliyyəti daha müfəssəl və ətraflı şərh olunmuşdur. Belə ki, xatirə müəllifləri onunla yaxın münasibətdə və daima ünsiyyətdə olan insanlar idi. Buna görə də bu nümunələrdə təsvir olunanlar və nəzərə çatdırılanlar mübaliğədən uzaq və reallığa söykənən fakt və olaylardır. Bunlar arasında M.T.Sidqinin oğlu Məmmədəli Sidqinin xatirələri öz məzmun və məndəricəsi etibarilə digərlərindən fərqlənir. Xatirələrdə M.T.Sidqinin pedaqoji və maarifçilik fəaliyyətindən, “Əxtər” məktəbini, “Məktəbi-tərbiyə ”ni açmasından, bununla əlaqədar qarşıya çıxan çətinliklərdən bəhs edilir. Məmmədəli Sidqi yazır ki, "o zaman atamın

çayçı dükanı Ordubad ziyalılarının yığıncaq yeri olur. Atamın təbi olduğuna görə, xüsusən Şərq ədəbiyyatına yaxşı bələd olduğuna görə haman çayçı dükanında Sədi, Hafiz, Firdovsi, Nizami kimi şairlərin şerləri oxunur və təhlil olunarmış. Eyni zamanda atam o zaman İrandan, Rusiyadan və Türkiyədən qəzetlər də alıb oxuyarmış. Məsələn, İrandan “Nasiri”, Bağçasaraydan İsmayıl bəy Qaspirinskinin nəşr etdiyi “Tərcüman”, İstanbulda çıxan "Əxtər" qəzetlərini alırmış. Bu qəzetlər çox vaxt atamın həmməsləkləri arasında gizlicə oxunarmış. “Tərcüman” qəzetinin atama böyük təsiri olmuşdur. Çünki o zaman “Tərcüman” qəzetinin müdiri Qasprinski Rusiyada yaşayan müsəlmanlar üçün yeni üsulla məktəblər açılması yolunda uzun müddət mübarizə aparırmış... “Tərcüman” qəzetinin təsiri altında atam və ona bu yolda ən birinci və yaxından kömək edən Hüseyn Sultan Kəngərlinski nəhayət Ordubadda yeni üsulla bir məktəb təşkil etmək fikrinə düşürlər".

Qasprinski yaradıcılığını hərtərəfli araşdıran A. Kəngərli haqlı olaraq yazırdı ki, İsmayıl bəy Qaspirinskinin naşiri olduğu “Tərcüman” qəzeti, öndəri olduğu üsuli-cədid hərəkatı, geniş, çoxşaxəli maarifçilik çalışmaları digər Rusiya müsəlmanları kimi Azərbaycan türkləri ilə də sıx bağlı olmuş, onların oyanmasına, özünüdərkinə xidmət etmişdir".

Sidqinin “Üsuli-cədid” məktəbi dövrün, mühitin yeni məktəbi, yeni təhsil ocağı idi. Bu məktəbdə təlimin məzmunu, forması və ümumi mahiyyətinə görə ruhani məktəblərindən tamamilə fərqlənirdi. Burada yeni təlim və tərbiyə üsulları tətbiq edilirdi. *Məktəbin tədris planına ana dili, hesab, coğrafiya, hifzi-səhiyyə, fars və ərəb dilləri daxil idi.* M.T.Sidqi öz məktəbi üçün əlyazması şəklində ana dili, coğrafiya və hesabdan dərsliklər də tərtib etmişdir .

Qeyd edək ki, Hüseyn Sultan Kəngərlinski Ordubadın fəal maarifçilərindən biri sayılırdı və hamı ona böyük hörmətlə yanaşırdı. O öz vəsaiti hesabına yeni məktəb üçün lazım olan əşyalar- skamya, stul və s. sifariş etmişdi. Dərs kitabları Qafqazda az olduğuna görə Sidqi İstanbuldan bir çox kitab, dərslik gətizdirdi

və  həmçinin özü də şagirdlər üçün dərs kitabları yazdı.

"Əxtər" adlandırılan məktəbi Ordubadda İbrahim xan mədrəsəsi deyilən binada yerləşdirdilər. Günün çox vaxtını məktəbdə keçirən Sidqi bir müddət uşaqlara tək özü dərs verirdi. Uşaqlar altı-yeddi ay ərzində ana dilində savadlandıqlarından camaat məktəbə daha artıq rəğbət göstərir və məktəbə gələn uşaqların sayı artırdı. Məktəbdə təhsil alan uşaqlara başqa dərslər ilə bərabər hər gün Quran öyrədilir və onlar mədrəsə hovuzunda dəstəmaz alıb mədrəsə məscidində namaz qılırdılar. "Əxtər" məktəbində təhsil alan M.S.Ordubadi xatirələrində yazır ki, "bu məktəbə daxil olan əvvəlcə o uşaqlar idi ki, onların ayda əlli qəpik müəllim haqqı verib dərs oxumağa iqtidarı yox idi. Zira bu məktəbdə nə müəllim haqqı, nə də uşaqlara təhmil olunacaq ağır müsafir yox idi"

"Əxtər"in sədası az vaxt içərisində cəmi quberniyaya yayıldı. İrəvan qubernatorunun 1892-ci ilə aid hesabatında deyilirdi: "Ucqar qəzalardan biri olan Ordubadda "Əxtər"  adında yeni bir müsəlman məktəbi açılmışdır. Məktəbi Mirzə Tağı adlı bir şəxs təsis etmişdir. Yerli əhali məktəbə o qədər rəğbət bəsləyir ki, onlar öz uşaqlarını dini məktəblərdən çəkindirib "Əxtər"ə qoyurlar". Qubernator sözünə davam edərək yazırdı ki, "indiyədək biz Mirzə Tağının kim olduğunu bilmirik. Görünür çox yaxşı maarifçidir".

Ordubadda belə bir məktəbin açılmasını eşidən və onun müvəffəqiyyəti ilə yaxından tanış olan *Naxçıvan əhalisi, 1894-cü ildə M.T.Sidqinin Naxçıvana dəvət etməyi qərara alır. Həmin il Sidqi Ordubad məktəbi kimi yeni tipli məktəb açmaq məqsədilə Naxçıvana gəlmiş "Əxtər" məktəbinin quruluşunda burada yeni məktəb açaraq onu "Məktəbi – tərbiyə" (Tərbiyə məktəbi) adlandırmışdır*. Sidqinin yaxın dostu, inqilabçı – demokrat yazıçı C.Məmmədquluzadə öz "Tərcümeyi –halı"nda yazır: "Danabaş kəndində müəllim olduğum vaxtlar Naxçıvanda doxsan dörd və doxsan beşinci ildə böyük tatar məktəbi açıldığına təsadüf edir. Həmin məktəbi idarə etməyə doxsan dördüncü ildə Ordubaddan məşhur müdərris və şairimiz Məşədi Tağı Sidqi dəvət olunur.

Həmin təzə türk məktəbi savayı ondan ki, nə qədər balalarının təzə üsulla savad və bilik əxz etmələrinə səbəb olur, həmin məktəb biz yeniyetmə müəllim və ədiblər üçün də bir darülfünün hesab olunur".

"Tərbiyə" məktəbinin açılması Naxçıvan ziyalıları üçün də böyük hadisə idi. Naxçıvanın demokratik ziyalıları şəhərdə birinci və hələlik yeganə milli mədəniyyət ocağı olan bu məktəbin ətrafında birləşmişdir.

Məktəbin açılışı münasibətilə təşkil olunan açılış mərasimində söylədiyi nitqində Sidqi bu cür məktəblərin əhəmiyyətindən bəhs edərək deyir: "Qafqazda sakin olan müsəlmanlara təğazayi-əsrə görə lazımdır ki, hər şəhərdə və bəlkə hər qəryədə "Məktəbi-ədəb" namında, yəni təhsili-ədəbiyyat üçün, təlimi-qəvaid üçün müntəzəm surətdə üsuli-cədid üzrə məktəblər bina olunsun. O məktəblər türk və fars, ərəb və rus dillərinin təhsil və təliminə davam olunur. Hər yüz evin, qəryənin yenə bu cür məktəblərin təsisi lüzum görüləcəkdir"

"Əxtər" də olduğu kimi, "Tərbiyə məktəbi"ndə də dünyəvi fənlər tədris edilirdi. Məktəbin tədris planına Ana dili, rus, ərəb və fars dilləri, tarix, coğrafiya, nəğmə və hesab kimi dünyəvi fənlər daxil edilmişdi. Ana dili, ərəb və fars dillərini M.T.Sidqi özü tədris edirdi, rus dilini Qori Müəllimlər Seminariyasının məzunu Əkbər Süleymanov tədris edirdi.

Bu məktəbdə dillərin tədrisinə, xüsusilə ana dilinin tədrisinə xüsusi fikir verilirdi. Sidqi deyirdi: "O əvvəla ana dilidir, saniyən Vətən dilidir, salisən millət dilidir". O rus dilinin tədrisinə də xüsusi əhəmiyyət verir və tərbiyə məktəbində ilk dəfə olaraq uşaqlara rus dili öyrədilirdi. Sidqi xarici dil kimi ərəb və fars dilinin də öyrədilməsini məsləhət bilirdi. O deyirdi: "Ərəb dili dinimizin dilidir, fars dili ədəbiyyatımızın dilidir, rus dili hökumətimizin dilidir, türk dili anamızın dilidir".

"Tərbiyə məktəbi"nin proqramından aydın olur ki, burada dərslərin əksəriyyətində əxlaqi-didaktik hekayələr, şer və təmsillə-

rin öyrədilməsi üstünlük təşkil etmişdir.

Bu məktəbdə kollektiv sinif-dərs sistemi tətbiq edilmiş, şagirdlər həsir üstündə deyil, partalarda oturmuş, lövhədən, silgidən istifadə edilmişdir. Sinfə qalstuklu, səliqəli, müasir qaydada geyinmiş müəllimlər daxil olurdu. "Tərbiyə məktəbi"ndə fiziki cəza yox idi. Şagirdlər rahat, sərbəst və şən idilər. Bu məktəbdə pedaqoji fikir tariximizdə ilk dəfə olaraq Sidqinin özü tərəfindən işlənib hazırlanmış olduğu və bu günə qədər əhəmiyyətini itirməmiş, mühafizə edilib saxlanılan "Ədəb qaydaları" tətbiq edilirdi. Tədris planında özünə möhkəm yer tutan əxlaq dərsləri də Sidqiyə böyük şöhrət qazandırmışdı. Sidqi özünün "Nümuneyi-əxlaq" adlı dərsliyində bu dərslərin əhəmiyyətini qiymətləndirərək yazırdı: "Elm və ədəb bir xəzinəyə bənzər ki, onun kilidi məktəbdir. Bizləri nadanlıq zülmətindən qurtarıb nuri-mərifətə yetirən məktəbdir. Çünki insanın qədri qiyməti elm ilə bilinir, yəni elmi və mərifəti nə dərəcədə olsa, habelə dəyəri və qiyməti o qədərdir. Bəs insanın əsl qiyməti bildiyi və öyrəndiyi şeylərdən ibarət imiş ki, o da məktəb ilə hasil olur".

Az müddət içərisində Sidqinin rəhbərlik etdiyi bu məktəbin sədası çox uzaqlara yayılmışdı. İsmayıl Bəy Qaspirinskinin Bağçasarayda nəşr etdirdiyi "Tərcüman" qəzetində göstərilirdi: "Naxçıvandan bizə yazırdılar ki, bu yeni üsullu məktəbdə 80 uşaq oxuyurdu ki, onlardan 20-si təhsil haqqından azaddır. Qəza qazisi və cəmiyyət məktəbə böyük rəğbət bəsləyir. Məktəbə "Tərbiyə" adı verilmişdir".("Tərcüman" qəzeti, 20 yanvar, 1895, № 3).

Sidqinin təsis etdiyi məktəbdə şagirdlər təkcə bilik və mərifət almaq baxımında deyil, həm də burada yaranan yaradıcı pedaqoji mühitin sayəsində yetişməkdə olan gənc nəsil ilk bədi yaradıcılığa sövq edilirdi. H. Cavid "Gülçin" təxəllüsü ilə qələmə aldığı ilk şeirlərini "Tərbiyə" məktəbinin şagirdi ikən yazmışdır. Əliqulu Qəmküsarın, Məhəmmədəli Sidqinin, Məmməd Səid Ordubadinin bədii istedadı, Bəhruz Kəngərlinin rəssamlıq qabiliyyəti, Rza Təhmasibin aktyorluq, rejissorluq qabiliyyəti məhz həmin məktəbdəki təhsil il-

lərində formalaşıb inkişaf etmişdir. Bütün bunlar Naxçıvan pedaqoji mühitinin zəngin ənənələrini nümayiş etdirir.

M.T.Sidqinin Qurbanəli Şərifova ünvanlanan məktubundan aydın olur ki, Hacı Zeynalabdin Tağıyev 1896-cı ildə "Məktəbi-tərbiyə"yə 1000 manat məbləğində maddi yardım göstərmişdir.

Sidqinin "Tərbiyə" məktəbi istər məktəbin quruluşu, daxili qaydaları, istərsə də təlimin məzmunu və üsulları, həmçinin şagirdlərin çoxluğu ilə digər məktəblərdən fərqlənirdi. Az müddət içərisində bu məktəb qəza rəisinin, qubernatorun, xalq məktəbləri direktorunun diqqətini cəlb etdi. Arxiv sənədlərində və dövrü mətbuatda Sidqi məktəbinin üstünlüklərinə aid çoxlu məlumat vardır.

Məktəbdə ana dili ilə bərabər rus dilinin tədrisinə xüsusi fikir verilirdi. Bu işdə Sidqinin mühüm xidməti olmuşdur. İrəvan quberniyası xalq məktəbləri inspektoru 1898-ci ildə Gəncə və İrəvan quberniyası xalq məktəbləri direktoruna yazdığı 362 № li raportunda Sidqinin "Müsəlmanlar arasında rus təhsilini yaymaq işində can yandırdığını və bütün qüvvəsi ilə buna kömək etdiyini" ayrıca qeyd edirdi. İnspektor raportunun sonunda bir daha Sidqidən bəhs edərək yazırdı: "Bununla bərabər, onu da nəzərinizə çatdırmağı borc bilirəm ki, Naxçıvan şəhəri müsəlman əhalisinin ümumi hörmətini qazanan Məşədi Tağı Səfərovun müsəlman əhalisi içərisində rus təhsilinin çiçəklənməsinə göstərdiyi qayğı, səylə işləməsi tədris idarəsinin mükafatına layiqdir".

M.T.Sidqinin açdığı "Tərbiyə məktəbi"nin Hüseyn Cavid, böyük yazıçı Məmməd Səid Ordubadi, məşhur ədəbiyyatşünas alim Əziz Şərif, görkəmli rejissor və aktyor Rza Təhmasib, Məmmədhüseyn Təhmasib, mollanəsrəddinçi şairlər Rzaqulu Nəcəfov və Əliqulu Qəmküsar qardaşları, yazıcı-publisist Ələkbər Qərib, Əli Səbri Qasımov, şair Məhəmmədəli Sidqi (M.T.Sidqinin oğlu), məşrutəçi Ələkbər Məmmədquluzadə, adlı-sanlı maarifçilər- Əbdüləzim Rüstəmzadə, Mircəfər Mirişli, Əlirza Rasizadə (Hüseyn Cavidin qardaşı), realist rəssam Bəhruz Kəngərli, filoloji elmlər namizədi Xəlil Hacılarov, əməkdar müəllim Həsən Səfərli, Ağa Bektaşov, Əsədul-

la Bektaşov, Məmməd Xəlilov və Əli Xəlilov, Heydər Vəzirov, Əsəd Şeyxov, Qasım Camalbəyov, böyük diplomat, Türkiyədə Azərbaycanın ilk səfiri, M.K.Atatürkün silahdaşı İbrahim Əbilov (1882-1923) kimi böyük elm, ədəbiyyat və mədəniyyət, ictimai və dövlət xadimləri yetirmələri olmuşdur. Onlar nəinki Azərbaycanda, eləcə də ölkəmizdən çox-çox uzaqlarda tanınan məşhur şəxsiyyətlər – elm, ədəbiyyat və incəsənət xadimləri, siyasətçilər olmuşlar.

Qori Seminariyasının elmi-ilahi müəllimi görkəmli pedaqoq Rəşidbəy Əfəndizadənin (1863-1942) Məhəmməd Tağı Sidqiyə (1854-1903) göndərdiyi bir məktubundan səmimi ziyalı münasibətlərinin bir çox məqamlarını da anlamaq olur: *“Axund Molla Məhəmməd Tağı Sidqi əfəndim həzrətlərinə! Bəradəri-həqiqim, əfəndim həzrətləri!...*Sizdən təvəqqə edirəm, xah “Uşaq bağçası”nın, xah “Bəsirətül-ətfal”ın haqqında olsun, sərpa oxuyub, tənqid və təqrizinizi ixtisarən bizə bildirəsiniz...Məndən bəradəri-əzizizm Mirzə Ələkbər Süleymanova salam yetirib, deyərsən ki, onunla haqq-salamımız ifrat dərəcədə gərək olsun. Çünki Qori Seminariyasında üç il həmsinif halında oxuduq....” *Həqiqi kəmtəriniz Rəşid Əfəndizadə. Qori şəhəri, 30 oktyabr 1902-ci il.*

Mirzə Şəfi Vazeh (1794 - 1852) 1846 -cı ildə Gəncədə “Üsuli-cədid” məktəbi açmışdır ki, bu məktəbdə Mirzə Fətəli Axundov da oxumuşdur. Vazeh həm şair, pedaqoq, müəllim, həm də məktəbdar olmuş, “Gəncəli müdrik” ləqəbini qazanmış, lirikası ilə Avropanı – Qərb dünyasını fəth etmişdir. Vazeh “ifadəli, aydın” deməkdir.

“Divan-ı Hikmət” ("Hikmət Evi) XIX əsrdə Azərbaycanda qurulan ilk ədəbi məclislərdən biridir. 1820-1830-cu illər arasında, Gəncədə Mirzə Şəfi Vazeh tərəfindən qurulmuş, 1841-ci ildə onun Tiflisə köçməsi səbəbilə, 1841-1846-cı illər arası fəaliyyətini Tiflisdə davam etdirmişdir.

Mirzə Şəfi 1840-cı ildən Tiflisdə Azərbaycan və fars dillərindən dərs demişdir. 1844-cü ildə Tiflisə Qafqaz həyatına böyük maraq göstərən və şərq dillərini daha yaxşı öyrənmək istəyən alman yazıçısı və şərqşünası Fridrix Bodenşted gəldi. O, Tiflisdə Mirzə

Şəfi ilə tanış olur və onun rəhbərliyi altında Azərbaycan və fars dillərini öyrənir. Dərslər həftədə üç dəfə keçirilirdi, dərslərdən sonra isə Mirzə Şəfi qonaq üçün öz əsərlərini nümayiş etdirirdi. Vazehdən şərq dilləri dərsini alan alman şairi Fridrix Bodenşted Almaniyada "Şərqdə min bir gün" (1850) kitabında Vazehin şerlərinin tərcümələrini nəşr etdirmişdir. Sonradan Bodenştedtin "Mirzə Şəfi nəğmələri"(1851) adlı kitabı işıq üzü gördü. Bu nəğmələr Avropa dillərinə dəfələrlə tərcümə edilmişdir. Baxmayaraq ki, sonradan Bodenştedt Vazehin şerlərini özünkü kimi qələmə verməyə başladı, saxlanılan fars və Azərbaycan dillərində olan orijinal vərəqlər Mirzə Şəfinin müəllifliyini sübut etmişdir.

1846-cı ildə Vazeh doğma şəhəri Gəncəyə qayıtmış, burada təşkil etdiyi "Üsuli cədid" məktəbində dərs demişdir. O dərs deməklə bərabər şerlər də yazmağa davam etmişdir 1850-ci ildə Mirzə Şəfi yenidən Tiflisə köçdü. Orada Tiflis gimnaziyasının fars və Azərbaycan dilləri müəllimi vəzifəsində çalışırdı.

1852-ci ildə Tiflisdə dərs dediyi zaman Mirzə Şəfi Vazeh İvan Qriqoryevlə birlikdə Azərbaycan poeziyasının ilk müntəxəbatı – "Kitabi-türki" adlı bir dərslik tərtib etmişdir ki, bu əsər hətta "Vətən dili"ndən də öncə yazılmışdır. Tiflisdə Azərbaycan və fars dillərindən dərs demişdir. Rus pedaqoq İvan Qriqoryev ilə birlikdə Azərbaycan poeziyasının ilk müntəxəbatını və Tiflis Gimnaziyası üçün "Tatar-rus lüğətini" yazmışdır.

Qubada Muxtar Əfəndizadə tərəfindən ilk "Üsuli-cədid" məktəbi açılmış və özü bir çox yerlərdə müəllimlik etmiş, maarif işləri ilə və məktəbdarlıqla məşğul olmuşdur.

Muxtar Əfəndizadə 1880-ci ilin yanvar ayında Ağdaş rayonunun Şəmsabad kəndində bir müdərris (mədrəsə müəllimi) ailəsində anadan olmuşdur. Altı yaşında ikən atası Hacı İsmayıl Əfəndini itirən kiçik Muxtar anası Zeynəb Kərim Əfəndi qızının himayəsində yaşayıb. Uzun müddət (1886-1904) Azərbaycanın müxtəlif mədrəsələrində (Ağdaş, Şamaxı, Quba, Bakı) təhsil alan Muxtar Əfəndizadə hələ 8 yaşında ikən hafiz adını almışıdr. 1904-1905-ci

illərdə o, Qubada "Üsuli-cədid" məktəbi açmış və bir il sonra, 1906-cı ilin axırlarında maarifçilik fəaliyyətini davam etdirmək üçün öz vətəni Ağdaşa qayıtmışdır.

Hələ gənc ikən Muxtar Əfəndi Ağdaşda maarifçiliyin inkişafında müstəsna rol oynayıb. Həmin dövrdə “Yaşlılar üçün kurs” (1906), “Nəşri-maarif” (1906), “Darülirfan məktəbi” (1906), qiraətxana (1906), teatr (1908), “Səadət” qız məktəbi (1909) onun ağır zəhmətinin nəticəsində yaranmışdır. 1909-1910-cu illərdə açılan və “Rus-tatar məktəbi” kimi məşhur olan tədris ocağında da çalışmışdır.

Bir çox elmlərə dərindən yiyələnən Muxtar Əfəndi Azərbaycanın əksər rayonlarında onun özünün köməyi ilə açılan mədrəsələrdə müvəffəqiyyətlə dərslər keçirdi. Gənclər, yeniyetmələr, hətta yaşlılar da dini, fəlsəfi və dəqiq elmlərin sirlərinə yiyələnmək üçün məhz onun dərs dediyi mədrəsələrə axışırdılar. O mədrəsələrdə dil və ədəbiyyat dərslərinə xüsusi əhəmiyyət verilirdi.

Muxtar Əfəndinin Azərbaycan mədəniyyəti və maarifçiliyinin inkişafındakı misilsiz xidmətlərindən biri də iyirminci əsrin əvvəllərində (1907) davamlı təzyiqlərə məruz qalaraq ucqar bir rayonda ilk teatr yaratmasıdır. 1907-ci ildə gələcəyin məşhur bəstəkarı Zülfüqar Hacıbəyov Ağdaşa tərcüman vəzifəsində işləməyə göndərilir. Muxtar Əfəndi Zülfüqar Hacıbəyovla görüşür və onlar o vaxtlar üçün nadir bir hadisə kimi qəbul olunan ilk teatr yaratmaq qərarına gəlmişlər. 1908-ci ilin 10 aprelində təzə yaranmış ilk teatrda Rəşid bəy Əfəndiyevin “Qan ocağı” əsərinin ilk tamaşası səhnəyə qoyulmuşdur. Çox maraqlı cəhət bu idi ki, 1908-ci ildə burada səhnəyə ilk qadın çıxır. Ömrünün çoxunu Ağdaşda yaşamış artist Almaxanım və görkəmli yazıçı Maxsud Şeyxzadənin anası Fatma Şeyxzadə (sonralar Fatma Hacıyeva) yaradıcılıq qəhrəmanlığı göstərərək ilk dəfə səhnəyə çıxırlar. Muxtar Əfəndinin yaxın dostu, o illərin görkəmli sənətkarı Cəmil bəy Bağdatbəyov da bu teatrın yaranmasında və fəaliyyət göstərməsində yaxından köməklik göstərmişdir.

Muxtar Əfəndinin maarifçilik fəaliyyətində Ağdaşda qiraətxa-

na açması da xüsusi yer tutur. O az bir zamanda ərəbcə Misirdən, farsca Hindistan və İrandan, türkcə İstanbuldan, Krımdan, Bolqarıstandan, tatarca Orenburqdan, Kazandan və Həştərxandan, rusca Rusiyadan gələn qəzet və məcmuələr almış və yaratdığı qiraətxananı zənginləşdirir. 1923-cü ildə kitabların sayına görə Ağdaş qiraətxanası Bakıdan sonra ikinci yeri tuturdu.

Muxtar Əfəndi o çətin illərdə səfalətdən əziyyət çəkən uşaqlardan ötrü 1908-1909-cu illərdə bir neçə bölgələrdə "Kimsəsiz uşaqlar evi" açmağa nail olur və kimsəsiz uşaqları bu ocağa yığaraq, onlara atalıq qayğısı göstərməyə başlayır. Bir neçə imkanlı şəxs (Hacı Gözəlov və başqaları) xeyriyyəçilik məqsədi ilə bu sahibsiz uşaqlara şərait yaradırlar. Bu xəbəri eşidən xalqımızın böyük xeyriyyəçi oğlu Hacı Zeynalabdin Tağıyev Muxtar Əfəndiyə xeyirdua verir, müvəffəqiyyət arzulayır və sonra isə həmin məktəblərə yüz qızıl pul göndərərək öz atalıq və ağsaqqallıq qayğısını göstərir.

1906-1907-ci illərdə Muxtar Əfəndinin oğlan uşaqları üçün açdığı "Darülirfan" məktəbləri də fəaliyyət göstərmişdir. Güclü təhsil verən bu beşillik məktəblərdə dünyəvi elmlər tədris olunurdu. Tədris edilən elmlər sırasında ədəbiyyat, tarix, coğrafiya, həndəsə, rus dili, Nücum və s. elmlərlə bahəm təbii ki, şəriət elmi də öyrədilirdi. Məktəblərin xalq tərəfindən sevinclə qarşılanmasının başlıca səbəbi isə burada dərslərin sırf Azərbaycan dilində öyrədilməsi idi. Bu məktəblərdə Muxtar Əfəndi ilə bərabər o dövrün görkəmli maarifçiləri Şərif Əfəndiyev, Qori seminariyasının məzunları Səməd Muradov, Məhəmməd bəy Əfəndiyev, Əhməd Əfəndi və başqaları da dərs demişlər.

Azərbaycanın mədəni həyatında diqqəti cəlb edən hadisələrdən biri də 1909-cu ildə Muxtar Əfəndi tərəfindən "Səadət" qız məktəbinin açılması idi. Tağıyev məktəbini bitirmiş Hədiyyə xanım Məmmədovanın rəhbərlik etdiyi bu məktəbdə qiraət, hesab, hesabi-zehni, şəriət, Quran və s. fənlərdən dərslər keçirilirdi. Görkəmli maarifçi Muxtar Əfəndizadə tərəfindən təsis edilən bu maarif və mədəniyyət müəssisələrinin fəaliyyəti açıldıqları gündən başlayaraq

1920-ci ilə qədər davam etdi və bu məktəblər minlərlə oğlana, qıza savad və bilik verdi. Maarifçiliyin inkişafında uzun müddət cəsarət və ləyaqətlə fəaliyyət göstərən Muxtar Əfəndizadə əhalinin dərin rəğbətini qazanır və buna görə də xalq onu Azərbaycan Cümhuriyyətinin parlamentinə nümayəndə seçmişdir.

1920-ci ilin aprelində Nəsib bəy Yusifbəyov kabineti istefa verərkən o, da siyasətdən uzaqlaşır və maarifçilik fəaliyyətini davam etdirir. Cəmi 3 ay 19 gün parlamentdə olması onun bütün həyatı üzərinə qara kölgələr salır. Bədxahlar Muxtar Əfəndizadəni damğalamağa can atır, ləkələməyə çalışırlar. Sonralar isə 30-cu illərin repressiyasının qara buludları ondan da yan keçmir və haqsızlığa məruz qalan maarifçi bir neçə il sürgün həyatı keçirməyə məcbur olur. 1930-cu ildə o, savadlı bir maarifçi kimi maarif nazirinin təklifi ilə Gürcüstana göndərilir. Muxtar Əfəndizadə 1932-ci ilə qədər Tiflisin ali tədris ocaqlarında dil və ədəbiyyat dərslərini deməklə həm də Tiflisdə nəşr olunan “Yeni kənd” qəzetinin redaktoru və “Dan ulduzu” məcmuəsinin korrektoru vəzifəsində çalışır. Lakin səhhəti ilə əlaqədar o, həkimlərin məsləhəti ilə Bakıya qayıtmağa məcbur olur. Bakıya qayıtdıqdan sonra Muxtar Əfəndi maarif nazirinin əmri ilə baş mətbuat müdirliyində və tarix institutunda tərcüməçilik fəaliyyətinə başlayır. 1939-1944-cu illərdə o, ərəb və fars dillərindən İsgəndər Münşinin, Mirxondun, İbn Əl-Əsirin əsərlərini Azərbaycan dilinə tərcümə edir. Sonralar, 1958-ci ildə isə Muxtar Əfəndi Sədinin məşhur "Gülüstan" əsərinin Azərbaycan dilinə tərcümə etmişdir. 1944-cü ildə Azərbaycan Dövlət Universitetinin rəhbərliyi ərəb və fars dillərinin mükəmməl bilicisi kimi Muxtar Əfəndizadəni elm ocağına dəvət edir və o, uzun illər universitetin şərq dilləri fakültəsində dərs deməyə başlayır. 1947-ci ildə Muxtar Əfəndi professor İbadulla Qarayevin tapşırığı ilə "Miftahül lisan ül ərəb" (ərəb dilinin açarı) adlı dərslik yazır. Ali məktəblər üçün yazılmış bu dərslik keçmiş SSRİ-də nadir hadisə hesab edilirdi və dünya şöhrətli ərəb dili mütəxəssisi akademik Kraçkovski bu dərsliyə yüksək qiymət verərək Muxtar Əfəndiza-

dəni ərəb və fars dillərinin mükəmməl bilicisi adlandırır. Muxtar Əfəndi o illərdə ali və orta məktəblər üçün əlavə bir neçə “Ərəb dili” dərsliklərinin də müəllifi olur. Azərbaycan Elmlər Akademiyasında, Azərbaycan Dövlət Universitetinin şərq fakültəsində işləyəndə, hətta təqaüdçü olduğu dövrdə də Azərbaycanın demək olar ki, bütün gənc şərqşünasları, ümumiyyətlə şərqşünas alimlərin əksəriyyəti, eləcə də nüfuzlu din xadimləri bir çətinliyə düşərkən mütləq Muxtar Əfəndi ilə məsləhətləşirdilər, onun tövsiyələrinə ehtiyac duyurdular. Onu da qeyd etmək lazımdır ki, şəriət elmini dərindən bilən bu nadir şəxsiyyətə respublikanın bütün din xadimləri böyük hörmət və ehtiram hissi ilə yanaşırdılar. Dövlətimizin elm, mədəniyyət və maarifçiliyi qarşısında misilsiz xidmətləri olan bu böyük şəxsiyyət bütün əziyyətlərə qatlanaraq Azərbaycanın torpaqlarını qarış-qarış gəzmiş, qədim əlyazmalarını, nadir kitabları toplamış, onları məhv olmaqdan xilas edərək Respublika Əlyazmalar İnstitutunun Fonduna təqdim etmişdi. Görkəmli maarif xadimi Muxtar Əfəndizadə 1975-ci il 19 oktyabrda 95 yaşında vəfat etmişdir.

Beləliklə “Üsuli - cədid” məktəbləri getdikcə genişlənmiş və Azərbaycanın digər bölgələrində də yaranıb inkişaf etmişidr.

## 6.12. AZƏRBAYCANDA ANA DİLİNDƏ İLK DƏRSLİKLƏRİN MEYDANA GƏLMƏSİ

Hələ qədim və orta əsrlərdən başlayaraq Azərbaycanda ilkin savad təlimi verən təhsil ocaqları, məktəblər mövcud olmuş və belə məktəblər təkmilləşərək bu günki günlərimizədək gəlib çıxmışdır. İlk əvvəllər həmin təhsil ocaqlarında bir sıra gil lövhələrdən, taxta üzərində yazılardan, daha sonra kağız üzərində əlyazmalardan dərslik kimi, təlim materialı kimi istifadə edilmişdir.

Azərbaycanda ana dilində yaranan dərsliklərin tarixi hələ XVII əsrdən başlanır. Belə ki, XVII əsrdə yaşamış Saib Təbrizinin ana dilində yazdığı didaktik kitabdan uzun müddət məktəblərdə

dərslik kimi istifadə edilmişdir.

Sonralar Abbasqulu Ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Mirzə Kazım Bəy, Seyid Əzim Şirvani. Məmməd Tağı Sidqi kimi maarifpərvərlərimiz dərslik hazırlığı sahəsində ciddi cəhdlər göstərmiş, işlədikləri məktəb və mədrəsələrdə ana dilində bədii parçalardan təlim materialları kimi istifadə etmişlər.

Ana dili – Azərbaycan dili - XIX əsrdə təkcə Azərbaycanda deyil, təkcə Qafqazda deyil, bütün yaxın Şərqdə geniş yayılmış və bu ərazilərdə yaşayan müxtəlif xalqların bu dili bilməsi, başa düşməsi, danışması böyük fərəhverici bir əhəmiyyət kəsb edilirdi. Qafqazda olmuş səyyahların, alim və yazıçıların bu dili öyrənməyə çalışması ona böyük əhəmiyyət verməsi məlumdur. Bunun nəticəsi idi ki, Azərbaycan dili ayrıca bir fənn kimi Qafqazın Tiflis, Dərbənd, Kutaisi və s. şəhərlərdə dövlət məktəblərinin tədris planına daxil edilmişdir. Digər millətlərdən ilk növbədə isə ruslardan olan şagirdlərin Azərbaycan dilini öyrənməsinə xüsusi fikir verilirdi.

XIX əsrin sonu və XX əsrin əvvəllərində yeni fəaliyyətə başlayan məktəblərdə uşaqların hansı dərsliklərlə təhsil alması dövrün maarifçilərini həmişə düşündürmüş və mühüm problemlərdən biri olmuşdur. Azərbaycanın görkəmli maarifpərvərləri Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Məmməd Tağı Sidqi, Sultan Məcid Qənizadə, Firudin bəy Köçərli, Haşım bəy Vəzirov, Rəşid bəy Əfəndiyev, Mahmud bəy Mahmudbəyov, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Abbas Səhhət və başqaları məktəblərdə ana dilində keyfiyyətli dərsliklərin olmasını istəyirdilər. Həsən bəy Zərdabi yazırdı: "Uşaqların yaşlarına və bilik səviyyəsinə uyğun olan dərs kitabları yoxdur. Uşaqlar şairlərin kitablarını oxuyurlar. Bunlar ana dili təliminə yaramır. Ona görə dərs kitabları yaratmaq lazımdır. Heç olmazsa, başqa xalqlarda mövcud olan dərs kitablarından istifadə və tərcümə etməklə onları hazırlayaq".

Azərbaycan dilinin tədrisinə aid ilk dərsliklər yaratmaq işində Tiflis qəza məktəbi və gimnaziyası müəllimlərinin xeyli rolu olmuşdur.

Məlum olduğu kimi, XIX əsrdə Tiflis Qafqazın inzibati mərkəzi olmaqla, həm də elmi mərkəzi idi. Digər millətlərin qabaqcıl nümayəndələri kimi Azərbaycanın da Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Mirzə Şəfi Vazeh, Cəlil Məmmədquluzadə, M.Ə.Sabir, Əliqulu Qəmküsar və başqaları kimi maarifpərvər oğulları burada elmi-pedaqoji, bədii-publisistik fəaliyyət göstərmişlər. Onlar bir tərəfdən Tiflisdəki dövlət məktəblərində Azərbaycan dilindən dərs deyir, digər tərəfdən də dərsliklər tərtib edir, yeni dərsliklərə rəylər verir və beləliklə də Azərbaycan dilinin tədrisini yaxşılaşdırmaq naminə əllərindən gələni əsirgəmirdilər.

Beləliklə, XIX əsrin 30-cu illərində Azərbaycan dilində dərslik və tədris vəsaiti nəşr etmək sahəsində ilk addımlar atıldı. Doğrudur, bu vaxt meydana gələn dərslik və dərs vəsaitlərinin əsas məqsədi digər millətlərdən olan şagirdlərin Azərbaycan dilini öyrənməsini asanlaşdırmaq idi. Bununla bərabər göstərilən dərsliklərin tərtibi və nəşri bir tərəfdən Azərbaycan dili tədrisinin həyati əhəmiyyətini göstərir, digər tərəfdən də azərbaycanlı uşaqlar üçün yeni üsullu dərsliklərin yaranmasına təsir edir, əlverişli zəmin hazırlanırdı. Azərbaycanda və bütün Qafqazda dövlət məktəblərinin meydana gəlməsi və Azərbaycan dilinin bir fənn kimi tədris edilməsi bu dildə müvafiq dərsliklərin yaradılmasına şərait yaratdı.

Azərbaycan dilində yeni üsulla dərslik tərtib etmək sahəsində ilk təşəbbüs görkəmli mütəfəkkir və pedaqoq Mirzə Fətəli Axundova məxsusdur. O, 1836-1840-cı illərdə Tiflis qəza məktəbində Azərbaycan dili müəllimi işləyərkən ana dili dərsliyi yazmağa başlamış, lakin sonralar müəllimlik vəzifəsindən azad olunması ilə əlaqədar bu işi davam etdirməmişdir.

M.F.Axundovun 1839-cu ildə tərtib etməyə başladığı “Əlifba” dərsliyi savad təlimi məsələsinə həsr edilmişdir. Burada əsas məqsəd savad təlimini asanlaşdırmaq və bu təlimin müddətini qısaltmaq idi. Onun təlim-tərbiyə barədə görüşləri dövründəki maarifçilərdən fərqli olaraq, nəsihətamiz xarakter daşımırdı. Bu görüşlər özünün konkretliyi, inandırıcılığı ilə fərqlənirdi. Uşağın ailədə tərbiyəsi

problemi onu məşğul edən vacib pedaqoji problemlərdən biri olmuşdur. M.F.Axundov müəyyən müddət müəllimlik etdikdən sonra, tədris prosesində ərəb əlifbasının törətdiyi çətinlikləri əməli surətdə görmüş və həmin əlifbanı yeniləşdirmək, islah etmək üçün bir sıra tədbirlərə əl atmışdır. O öz fəlsəfi əsərlərinin birində belə yazmışdır: “Ərəblər ... bizim şan və şövkətimizi bərbad etdilər, vətənimizi elə xarabdan da xarab etdilər ki, bu günə qədər azad etmək mümkün olmasın. Buna əlavə olaraq bizim boynumuza elə bir yazı da bağladılar ki, onun sayəsində ümumən müyəssər olan savadı əldə etmək bizim üçün işlərin ən çətini olmuşdur”.

Ərəb əlifbasını dəyişdirmək uğrunda ömrünün sonuna qədər mübarizə aparan M.F.Axundov öz arzusuna çatmadan dünyasını dəyişdi. O yazırdı: “Bəli, mən özüm də anlayıram, amma yenə yazıram. Və diri olduqca yazacağam da, ta ki əlifbanı dəyişdirmək fikri bütün millətin arasında yayılmış olsun. Necə ki, on beş ilə yaxındır ki, bu fikrin toxumunu İran və Türkiyə torpağında səpmişəm. Şübhəsiz, bu toxum xələflərimizin əsrində bir gün çıxacaqdır”.

Mətbəə yoxluğu üzündən yazılan dərslik və dərs vəsaitləri çox zaman işıq üzü görmürdü. Azərbaycan ərazisində ilk mətbəə 1830 - cu ildə Şuşada yaradılmışdır. Əlyazması şəklində olan ana dilində dərsliklərə Sankt-Peterburq, Tiflis, Bakı, İrəvan şəhərlərindəki dövlət arxivlərində, eləcə də elmi müəssisələrin arxivlərində də rast gəlinmişdir.

“Türki-Əlifbey («Татağский буквağ») və “Təmsillər və hekayələr” kitabı 1839-cu ildə Tiflisdə çap edilən ilk dərsliklərimiz sırasındadır. Hər iki dərsliyin müəllifi Qafqaz məktəblər direktoru vəzifəsini icra edən Nikolay Dementyevdir. Səs üsulu ilə tərtib edilmiş bu dərslikdən Qafqazda, o cümlədən Azərbaycandakı dövlət məktəblərində istifadə edilmişdir. Bu əlifba dərsliyi rus və qeyri türk dilində təhsil alanlar üçün nəzərdə tutulmuşdur. Bu dərsliklərin hər ikisi Tiflisdə Arzanov qardaşları mətbəəsində çap edilmişdir. Nikolay Dementyevin “Türki –Əlifbey” (Татарский букварь) və “Təmsillər və hekayələr” dərs vəsaiti İrəvan Dövlət Ədəbiyyat və

İncəsənət muzeyində yazıçı Sundukovun şəxsi arxivində 552 nömrəli katolaqda saxlanılır. "Türki-Əlifbey" – (Татарский букварь) dərsliyinə 1967-ci ildə İrəvan Dövlət Ədəbiyyat və İncəsənət muzeyində Rüfət Lətif oğlu Hüseynzadə rast gəlmiş və bu barədə ilk dəfə olaraq bu Əlifba dərsliyinin fotosurəti ilə birlikdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Gənc müəllim" qəzetində (1 sentyabr, 1970-ci il) geniş məqalə ilə məlumat vermişdir" (akad. Hüseyn Əhmədov).

"Türki-Əlifbey" dərsliyi həcmcə kiçik olsa da, pedaqoji, metodiki əhəmiyyəti böyükdür. Kitabın ilk səhifəsində dərslikdən necə istifadə etmək qaydaları göstərilmişdir. Dərslikdə hərflərin öyrədilməsi səs üsulu ilə, asandan çətinə prinsipi əsasında yazılmışdır. Əlifba bəhsindən sonra qiraət materialları verilmişdir. Burada Azərbaycan xalq ədəbiyyatından, atalar sözü və tapmacalar, kiçik uşaq nağılları, şer parçaları verilmiş, Sədi Şirazinin "Gülüstan" və "Büstan" əsərindən nəsihətamiz hekayələr, təmsillər tərcümə olunaraq dərsliyə salınmışdır.

Nikolay Dementyev tərəfindən tərtib edilən vəsaitin hazırlanmasında o vaxtlar Tiflisdə yaşayan Azərbaycanlı ziyalıları, ilk növbədə Mirzə Fətəli Axundov yaxından iştirak etmişdir. Belə ki, Nikolay Dementyev Azərbaycan dilini yaxşı bilmirdi və özünün etiraf etdiyi kimi, oxu kitabına daxil edilən təmsil və povestlərin əksəriyyəti "fars mütəxəbatı"ndan götürülmüşdür. Çox güman ki, dərslikdə yer alan materiallar bu dili yaxşı bilənlər vasitəsilə Azərbaycan dilinə tərcümə etmişlər. Bu tərcüməni isə şübhəsiz Mirzə Fətəli Axundov etmişdir. Çünki onun əlifba dərsliyi yazmaqda ilk təşəbbüsü və bacarığı olmuşdur.

XIX əsrin ortalarına doğru Azərbaycan dilində dərslik tərtibi xeyli genişləndi. Bu vaxt meydana gələn dərsliklər içərisində Qazan Universitetinin professoru Mirzə Kazımbəyin "Türk-tatar dilinin qrammatikası» (1839) və Tiflis gimnaziyasının Azərbaycan və Fars dilləri müəllimi A.Z.Budaqovun "Türk-Tatar dilinin əlifbası"(1844) Tiflis gimnaziyasının müəllimləri Mirzə Şəfi Vazeh və İ.Qri-

qoryevin “Kitabi-türki” (1855) adlı dərslikləri xüsusi yer tuturdu.

Geniş biliyə və istedada malik olan Mirzə Kazımbəyin 1839-cu ildə nəşr etdirdiyi “Türk-tatar dilinin qrammatikası” dərsliyi özünün elmliyi ilə o dövrdə tərtib və nəşr olunmuş bütün dərsliklərdən çox-çox üstün olmuş və pedaqoqların, dilçilərin diqqətini cəlb etmişdir. Təkcə onu qeyd etmək lazımdır ki, 1830-1840-cı illərdə yerlərdə tərtib edilən dərsliklər Peterburq Elmlər Akademiyasına rəyə göndərilərkən, mütəxəssislər hər dəfə M. Kazımbəyin bu dərsliyinin üstünlüyünü qeyd edir, ana dilinin tədrisində bu kitabdan istifadə edilməsini məsləhət görürdülər.

Qafqaz, o cümlədən Azərbaycandakı dövlət məktəblərində Azərbaycan dilinin tədrisi üçün M. Kazımbəyin kitabına olan ehtiyac nəticəsində bu kitab 1846-cı ildə Peterburqda yenidən nəşr edilərək Qafqaz məktəblərinin istifadəsinə verilmişdir.

1854-cü ildə Şamaxı qəza məktəbinin əsaslı kitabxanasında saxlanılan dərsliklərin siyahısında professor Kazımbəyin həmin kitabı aşkar olmuşdur. Məlum olmuşdur ki, Demidov mükafatına layiq görülmüş bu kitabdan Azərbaycan dilinin tədrisi işində dəyərli bir vəsait kimi geniş istifadə edilmişdir.

S.Ə.Şirvani XIX əsrin 60-cı illərində “Rəbiül-ətfal” adlanan bir ana dili dərsliyi tərtib etmişdir. Bu dərslik öz pedaqoji və metodik qənaətlərini məktəb təcrübəsində sınaqdan keçirmiş metodist-müəllimin axtarışlarının nəticəsində meydana çıxmışdır. “Rəbiül-ətfal” “türki-lisanında - ana dilimizdədir. Dərslikdə qiraət və mütaliə üçün toplanan bədii mətnlər geniş və əhatəlidir. Dərsliyin birinci hissəsində 165 öyüd, mənzum hekayə və lətifə toplanmışdır. İkinci hissə isə nəsr nümunələrindən ibarətdir. Bir-birinin eyni olan nəzm və nəsr parçaları yanaşı verilir və dərslikdə işləyən müəllimlərə müqayisə üsulu təklif edir. S.Ə.Şirvani belə bir metodik tələb irəli sürür ki, təlim materialları bir-biri ilə əlaqəli olmalı, biri digərini tamamlamalı və dərsdə vahid pedaqoji sistem yaradılmalıdır.

L.M.Lazarevin 1866-cı ildə çap etdirdiyi “Türk dillərinin

müqayisəli müntəxəbatı" (Osmanlı və Azərbaycan ləhcələri) adlı dərsliyi ana dilinin tədrisinin inkişaf tarixini izləmək baxımından mühüm əhəmiyyət kəsb edir.

Dərslikdə müxtəlif məzmunlu qiraət materialları verilmişdir. Bu mətnlər maraqlıdır və əxlaqi-tərbiyəvi məzmununa görə bu gündə öz aktuallığını itirməmişdir. Bunlara daxildir: "Vəzirin oğlu və alim"; "Şair və dövlətli adam"; "Fəqir adam və dövlətli paxıl"; "Zalım padşah" və s. Müəllif əsərdə qiraət üçün də mətnlər vermişdir ki, bunların çoxu "Leyli və Məcnun" poemasındadır. Dərslikdə, həmçinin, 283 atalar sözü və onların rusca qarşılığı verilmişdir.

Qafqaz Müəllimlər Seminariyası Azərbaycan şöbəsinin müdiri Aleksandr Osipoviç Çernyayevski 1880-ci ildə iki cilddən ibarət ana dilində "Vətən dili" dərsliyi yazdı. Bu dərsliyin I cildi 1880-cı ildə, II cildi 1888-ci ildə Səfərəli bəy Vəlibəyovla birlikdə yazıldı.

Bu dərslik artıq azərbaycanlılar üçün yazılmışdır. Azərbaycan ziyalılarının böyük bir nəsli bu dərslik üzrə savada yiyələnmişdir.

XIX əsrdə Azərbaycanda və bütövlükdə Qafqazdakı dövlət məktəblərində təhsil alan məktəblilərin bütöv bir nəsli həmin kitablardan Azərbaycan dilini öyrənmişlər. Bu ənənə sonralar Süleyman bəy Vəlibəyovun "Üsuli-cədidi-lisani-fars" və Mahmud bəy Mahmudbəyovun səs üsulu ilə yazılan "Yeni əlifba" kitabı ilə davam etdirilmiş, dərsliklər Süleyman Sani Axundov, Fərhad Ağazadə, Abdulla Əfəndizadə, Hacı Kərim Sanılı, Əhməd Seyidov kimi müəllim-metodistlər tərəfindən daha da təkmilləşdirilmişdir.

Firudin bəy Köçərli "Vətən dili" dərsliyi ilə əlaqədar yazırdı: "Bizim əqidəmizə görə, Uşinskinin "Rodnoye slovo" ("Ana dili") dərsliyi rus məktəbləri üçün hansı əhəmiyyətə malikdirsə, "Vətən dili" dərsliyi də azərbaycanlılar üçün elə bir əhəmiyyətə malikdir.

Bu kitabın tərtibində yaxından iştirak edənlərdən biri də görkəmli müəllim və şair Həsənəli Qaradağlıdır. Həsənəli Qaradağlı tərtib olunacaq ana dili dərsliyinə daxil etmək üçün uşaq şerləri və hekayələri yazıb öz öhdəsinə götürmüş Şuşada açdığı məktəbdə bu şer və hekayələri təcrübədən keçirmiş və bunları müəlliflərə gön-

dərmişdir. Həmin materialların bir çoxu Çernyayevski və Vəlibəyovun "Vətən dili" dərsliyinə daxil edilmişdir. "Vətən dili" kitabı uşaqlarda qiraət vərdişləri yaradır; kitabda dərc olunmuş mətnlər, atalar sözü və tapmacalar məzmunlu və tərbiyəvi cəhətdən çox faydalı parçalardır.

Daha sonralar 1856-cı ildən başlayaraq 30 il İrəvan dövlət məktəblərində Azərbaycan dili müəllimi kimi pedaqoji fəaliyyət göstərən Mirzə Ələkbər Elxanov 1880-ci ildə "Azərbaycan dili əlifbası" adlı dərslik yazmışdır. Mirzə Ələkbər Elxanov 1828-ci ildə Uluxanlı kəndində anadan olmuş, İrəvan şəhərindəki baş məscid nəzdindəki ruhani məktəbini bitirmiş, sonra isə rus dilini öyrənmiş, 1856-cı ildə Tiflis gimnaziyasında imtahan verərək Azərbaycan dili müəllimi adını almışdı. Onun Uluxanlı kənd məktəbinin açılmasında böyük rolu olmuşdur. Mənbələrdə yazılır ki, M.Ə. Elxanovun səs üsulu ilə tərtib etdiyi "Tatar (Azərbaycan) dili əlifbası" dərsliyi XIX yüzilliyin 80-ci illərində Rusiya Xalq Maarif Nazirliyində müzakirə edilərək bəyənilmiş və çapa tövsiyə edilmişdir.

1890-cı illərində Bakıda müəllimlik edən Nəriman Nərimanov gənc nəslin təlim tərbiyəsi məsələləri ilə, ilk növbədə isə ana dili məsələləri ilə yaxından məşğul olmuş və bu sahədə zəngin irs qoymuşdur. Nəriman Nərimanov düzgün və asan oxuyub yazmağa kömək edən, uşaqlara ana dilini və onun qayda-qanunlarını yaxşı öyrədən, dövrün tələblərinə cavab verə biləcək dərslik tərtib etmək kimi çətin, məsul vəzifəyə girişmiş və "Türk-Azərbaycan dilinin müxtəsər "sərfi nəhfi" adlı kitabını 1899-cu ildə Bakıda çap etdirmişdir.

Çoxcəhətli yaradıcılıq sahəsinə malik F.Köçərli həm də ədəbiyyat, ana dili tarixini yaradanlardandır. Onun məktəb və maarif sahəsində də böyük xidmətləri olmuşdur. O, 1912-ci ildə "Balalara hədiyyə" adlı dərslik yaratmış, bir sıra dərsliklərə doğru-düzgün təhlillər vermişdir. F. Köçərlinin metodik mülahizələri də diqqəti çəkir. Bu cəhət onun konkret bədii əsərlərin tədrisinə dair elmi-

metodik fikirlərdə daha aydın görünür.

Göründüyü kimi ana dilində dərsliklərin sayı getdikcə çoxalmış, ildən ilə, dövrdən –dövrə təkmilləşərək bu günki günlərimizədək gəlib çatmışdır.

Rəşid bəy Əfəndiyevinin pedaqoji fəaliyyətində diqqəti cəlb edən cəhətlərindən biri onun ana dilində dərsliklər tərtib etməsidir. Rəşid bəy hələ Qori Müəllimlər Seminariyasında oxuyarkən, K.D.Uşinskinin pedaqoji görüşlərinin təsiri altında yeni Azərbaycan məktəbi yaratmağı qarşısına məqsəd qoymuşdur. Buna görə də o, seminariyada oxuyarkən, gələcək Azərbaycan məktəbləri üçün ana dilində mükəmməl dərslik yaratmaq haqqında düşünürdü. O, bu məsələyə münasibət bildirərək yazırdı: "Pedaqojini öyrəndikdən sonra, mən anladım ki, köhnə məktəb dağıdılmışdır. Bu isə yalnız Uşinskinin yeni üsulla olan dərs kitabı kimi, öz məktəbimiz üçün ana dilində dərs kitabı tərtib etməklə mümkündür. Məhz bu məqsədlə də "Uşaq bağçası" kitabını qiymətli bir zərə bənzətmək üçün pedaqoq Uşinskinin məşhur "Əlifba" kitabçasını özünü rəhbər qəbul etdim".

Rəşid bəy yaradacağı xalq məktəblərində şagirdlərə ana dilini öyrətməyi əsas götürürdü. Buna görə də o, seminariyanı qurtarıb kənddə müəllimlik etdiyi vaxt Çernyayevskinin "Vətən dili" dərsliyini təcrübədən keçirib onun bütün müsbət və mənfi cəhətlərini aşkar etmiş və Rəşid bəy Əfəndiyev 1898-ci ildə "Uşaq bağçası" adlı əlifba kitabını yazmış və bu kitab ilk dəfə 1898-ci ildə İstanbulda çap edilmişdir. Kitabın birinci nəşri 104 səhifədən ibarətdir. Bu kitab vasitəsilə uşaqlara ərəb əlifbasını bir ay müddətində öyrədirdi, həm də şagirdlərə yazı vərdişlərini aşılamaq mümkün idi. Buna görə də Rəşid bəy Əfəndiyev kitabın titul səhifəsində belə yazmışdı: "Savadsız adam bir ayda oxuyar və yazar".

Rəşid bəy Əfəndiyev "Uşaq Bağçası" kitabında əvvəlcə ərəb məxrəci ilə ifadə olunan 8 ərəb hərfini ataraq 24-nü saxlamışdır. O, uşaq bağçası kitabında 24 hərfin hər birinə aid bir dərs nümunəsi verməklə kitaba 24 mətn daxil etmişdir.

R. Əfəndiyevin "Uşaq bağçası" kitabı Azərbaycan dilində təhsil verən bütün dövlət və xüsusi tədris məktəblərində istifadə etmək üçün Qafqaz Təhsil Dairəsi tərəfindən bəyənilmişdir. "Uşaq bağçası" 4 dəfə nəşr edilmişdir. Bu kitab təkcə Qafqaz məktəblərində deyil, Şimali Qafqaz və Orta Asiyadakı müsəlman məktəblərinin inkişafında da mühüm rol oynamışdır. "Uşaq bağçası" kitabına daxil edilmiş şer parçalarının bir hissəsi müəllif tərəfindən rus şairlərinin əsərlərindən tərcümə edilmişdir.

Rəşid bəy Əfəndiyevin ikinci məşhur dərsliyi "Bəsirət-ül-ətfal" kitabıdır (Fərasətli uşaqlar). Rəşid bəy 1900-cu ildə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinə müəllim təyin olunarkən, bu şöbənin tələbələri üçün Azərbaycan dilində mükəmməl bir kitab yox idi. Buna görə də o, Tiflisdə işlərkən tərtib etdiyi ədəbi qiraət kitabını 1901-ci ildə 2 min tirajla "Bəsirət-ül-ətfal" adı ilə Bakıda nəşr etdirmişdir. Kitabın titul səhifəsində onun məqsədi və müəllifi göstərilir: "Məktəblərdə oxunmalı türki-qiraət" kitabıdır. Kitabın müəllifi və nasiri "Şaki" təxəllüsü Qafqaz Darül – müəllimin müsəlman şöbəsinin elm-ilahi müəllimi olan Rəşid bəy Əfəndizadə.

"Uşaq bağçası"nda olduğu kimi, müəllif bu kitabda da savad təlimi, oxu texnikasını inkişaf etdirmək məsələləri ilə yanaşı, həm də onların tərbiyə edilməsinə, əxlaqına təsir etməyə xüsusi fikir vermişdir. Bu cəhətə böyük əhəmiyyət verən müəllif əsərin titul səhifəsində yazmışdır: "Müsəlman millətinin tərbiyeyi-əxlaqına və mulimati-nafiəsinə xidmət edici təzə bir kitabdır".

"Bəsirət-ül-ətfal" kitabı 3 babdan, yəni 3 hissədən ibarətdir. Birinci hissə hər biri bir dərsdən ibarət olan kiçik hekayələrdir ki, bunların da bəzisi nəzm, bəzisi isə nəsr ilə verilmişdir. Müəllif, müqəddimədə oxunacaq mətnlərə aid göstəriş vermiş ki, bu da müəllimlərə metodiki vəsait kimi çox faydalıdır.

Kitabın ikinci hissəsində ədəbiyyat və tərbiyə məsələlərinə həsr edilmiş mətnlər vardir ki, müəllifin fikrincə müəllim bu mətnlər vasitəsilə "şagirdlərin qəlbinə, kəmalincə nəsihət ediləcəkdir".

Üçüncü hissədə “müsəlman dininin əqidəsinə münasib və əhkam ilahiyyatın fəzilətinə dair” ir sıra mətnlər verilmişdir.

Azərbaycan klassik şairlərindən M Füzuli və S.Ə.Şirvanidən bir sıra parçalar verməklə yanaşı, böyük rus şairlərindən İ.A.Krılovun “Ayna və meymun”, “Kəndli və ilan”, “Qurd və pişik”, A.S.Puşkinin “Kaftar”, “Torçu və balıq”, “Hal anası”, “Bağçasaray fontanı” və s. hekayə və şerlərini tərcümə edərək kitaba daxil etmişdir.

Rəşid bəy Əfəndiyev “Bəsirət-ül-Ətfal” kitabına yuxarıda göstərdiyimiz rus klassiklərinin bəzi əsərlərinin tərcümələri ilə bərabər, özünün məişətimizdə olan nöqsanları göstərən, xeyirxahlıq, yoldaşlıq və əxlaqi sifətlər aşılayan şer, hekayə və rəvayətlərini də daxil etmişdir. Bu şer, hekayə və rəvayətlərdə vətənin təbiətini sevmək, xalqın məişətini bilmək, məktəbə getmək, elm öyrənmək və s. məsələlər ön planda qoyulmuşdur.

Rəşid bəy Əfəndiyevin “Bəsirət-ül-Ətfal” kitabında kənd təsərrüfatı, təbiəti və coğrafiyaya aid bir sıra məlumatlar da verilmişdir. Kitabın sonunda Azərbaycan dilinin imla qaydaları, ədəbiyyat tarixi və ədəbiyyatşünaslığa aid bir sıra məlumatlarda vardır. Kitabın son hissəsindəki məsələlər içərisində Rəşid bəyin ərəb əlifbasının Azərbaycan dilinin imla qaydalarına uyğun gəlməsi haqqında tənqidi qeydlərində nəzəri cəlb edir. “Bəsirət-ül-Ətfal” əsərinin ən yaxşı cəhətlərindən biri də uşaqlara məktub, ərizə və başqa əməli yazılar öyrətmək üçün nümunələr verilməsidir. “Uşaq bağçası” kimi, bu dərslik də Azərbaycan məktəblərinin inkişafında, tədris və tərbiyə keyfiyyətinin yaxşılaşmasında mühüm rol oynamışdır.

“Bəsirət-ül-Ətfal” kitabı 1901-ci ildən 1912-ci ilə kimi 42.000 tirajla 4 dəfə çap olunmuşdur. Kitab hər dəfə çapa hazırlayan zaman müəllif əlavə materiallarla onu zənginləşdirmiş və bir daha təkmilləşdirmişdir. Ona görə də kitabın 1901-ci ildəki ilk nəşri 128 səhifə olduğu halda axırıncı nəşri 226 səhifəyə qaldırılmışdı. Birinci çapda oxu materiallarına 90 səhifə yer verildiyi halda, axırıncı halda, axırıncı çapda bu həcm 156 səhifəyə çatdırılmışdır. Kitabın

birinci və son çapının forması arasında da fərqlər vardır. Belə ki, kitabın birinci nəşri ərəb əlifbasının kobud şrifti ilə çap edilmişdirsə, sonrakı nəşrləri nisbətən sadə və gözəl şriftlərlə çap olunmuşdur. Bu məqsədlə Rəşid bəy Əfəndiyev 1902-ci ildə İstanbuldan Tiflisə ilk dəfə ərəb əlifbasının sadə şriftini gətirmişdir. Bu, Azərbaycan nəşriyyatının inkişafında Rəşid bəyin mühüm xidmətlərindən biridir.

Rəşid bəy Əfəndiyev göstərilən dərslikləri uzun müddət Azərbaycan məktəblərində geniş miqyasda istifadə edilmiş və Azərbaycan gənclərinin bütöv bir nəsli bu kitablardan təlim və tərbiyə almışdır.

## 6.13. XEYRİYYƏÇİ- MAARİFÇİLİK HƏRƏKATI

XX əsrin əvvəllərində Azərbaycanda ibtidai təhsilin inkişafında maarifçilik-xeyriyyəçilik istiqamətində fəaliyyət göstərən "Nicat", "Nəşri-maarif", "Səadət", "Səfa" cəmiyyətləri xüsusilə fərqlənirdi.

"Nəşri-maarif" Azərbaycanda mədəni-maarif işləri sahəsində fəaliyyət göstərən xeyriyyə cəmiyyəti idi. Fəaliyyətinin ilk mərhələsində "Bakı quberniyası müsəlman əhalisi arasında savadı yayan cəmiyyət" də adlandırılırdı. Müxtəlif illərdə "Nəşri-maarif" cəmiyyətinin Gəncədə, Qubada, Göyçayda, Astarada, Bankə bölgəsində, Ağdaşda, Qaryagində (indiki Füzuli rayonu), Şuşada, habelə Həştərxan quberniyasında, Saratovda, Moskvada, Türkiyədə, Rumıniyada şöbələri açılmışdı. "Nəşri-maarif" cəmiyyəti ibtidai məktəblər təsis edirdi. 1907-1912-ci illərdə cəmiyyət 15 məktəb açmışdı. 1911-1914-cü illərdə "Nəşri-maarif" cəmiyyətinin açdığı məktəblərdə 940 oğlan, 123 qız təhsil alırdı. 1918-ci ilə qədər Bakı şəhərində və onun kəndlərində "Nəşri-maarif" cəmiyyətinin 21 məktəbi fəaliyyət göstərmişdir. Onlardan 3-ü qız məktəbi idi. Bütün məktəblərdə təhsil pulsuz idi. Şagirdlər dərs ləvazimatı və geyimlə pulsuz təmin olunurdular. Təhsil müddəti 4 il idi. Şagirdlərə təkcə

şəriət, ana dili, rus dili, hesab deyil, həmçinin tarix, coğrafiya, biologiya, astronomiya haqqında da ibtidai biliklər verilirdi.

"Nəşri-maarif" 1907-ci ildə Bakıda darülmüəllimin – "İslam" müsəlman müəllimlər seminariyasını açmışdı. Seminariyanın müdiri İstanbuldan dəvət olunmuş Məhəmməd Cövdət bəy idi. Burada Mahmud bəy Mahmudbəyov, Fərhad Ağazadə, Süleyman Əbdürrəhmanbəyov, Yusif Əfəndiyev, Qafur Rəşad Mirzəzadə kimi görkəmli pedaqoqlar çalışırdı. Seminariyaya kitablar Türkiyədən gətirilirdi. Tələbələr üçün xüsusi geyim forması hazırlanmışdı. Fəaliyyət göstərdiyi 3 il ərzində seminariya Azərbaycan xalq maarifi üçün ibtidai məktəb müəllimi dərəcəsi olan 28 müəllim kadrı hazırlamışdı. Seminariya sonralar maliyyə çətinlikləri üzündən bağlanmışdı.

"Nicat"ın təşəbbüsü ilə Azərbaycan müəllimlərinin I və II qurultayları (1906, 1907) keçirilmişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə "Nicat" cəmiyyəti, "Nəşri-maarif"lə birlikdə, Azərbaycanın mədəni həyatında mühüm rol oynamış, azərbaycanlı əhalinin maariflənməsinə, milli ruhun dirçəlməsinə, milli teatr sənətinin inkişafına xidmət etmişdir.

1907-ci ildən Bakıda fəaliyyət göstərən "Səadət" xeyriyyə cəmiyyəti xalqın maariflənməsində, milli oyanışında mühüm rolu olmuşdur. Bu müsəlman xeyriyyə cəmiyyətinin yaranması və fəaliyyətində görkəmli xeyriyyəçi, maarifpərvər Hacı Zeynalabdin Tağıyevin böyük rolu olmuşdur. "Səadət"in əsas məqsədi xalqı maarifləndirmək, onun mədəni inkişafındakı özünəməxsusluğunu qorumaq idi. Cəmiyyət köhnə üsullu məktəb və mədrəsələrin yenidən qurulmasına, təkmilləşdirilməsinə, onların sayının artmasına, kitabxanalar, qiraətxanalar açılmasına çalışırdı. 1908-ci ildə cəmiyyət tərəfindən Bakıda açılmış "Səadət" məktəbində Fərhad Ağazadə, Üzeyir və Ceyhun Hacıbəyli qardaşları, Axund Molla Ağa Əlizadə, Molla Qədir İsmayılzadə, Məmmədhənəfi Terequlov, Əli Hüseynov, Kərimbəy Məlikov və b. müəllimlik edirdilər.

"Səadət" məktəbində dünyəvi fənlərlə (Azərbaycan, rus, fars,

ərəb, alman və fransız dilləri, hesab, coğrafiya, rəsm, tarix, təbiətşünaslıq) yanaşı, ilahiyyat da tədris olunur, türkçülük və islamçılıq təbliğ edilirdi. "Səadət" cəmiyyəti Azərbaycanın bir sıra şəhərlərində məktəb və mədrəsələr, o cümlədən Cənubi Azərbaycandan gəlmiş fəhlələrin uşaqları üçün Bakıda "İttihad", Tiflisdə isə "İttifaq" məktəbləri açmışdı.

"Şəfa" xeyriyyə cəmiyyəti 1912-1920-ci illərdə Bakıda fəaliyyət göstərmişdir. Cəfər Bünyadzadənin təşəbbüsü, yazıçı Seyid Hüseyn və digər ziyalıların köməyi ilə təsis olunmuşdu. 1912-ci ilin sentyabrında Cəfər Bünyadzadənin rəhbərliyi ilə "Şəfa" məktəbi fəaliyyətə başladı. İlk vaxtlarda burada 60 nəfər uşaq oxuyurdu. 1914-cü ildə onların sayı 160 nəfərə çatdı. Cəmiyyətin xəzinədarı Kərbəlayi Əlibaba Zərbəliyev öz vəsaiti hesabına məktəb binası tikdirmişdi. Məktəbin müəllimləri arasında Hüseyn Cavid və Seyid Hüseyn də var idi.

"Şəfa" xeyriyyə cəmiyyətinin də fəaliyyətində maarifçilik əsas yer tuturdu. Yeni məktəblər açmaq, yaşlılar üçün kurslar təşkil etmək, kimsəsiz və yetim uşaqların təhsilə cəlb edilməsi onların proqram məqsədi idi. Cəmiyyət Biləcəri, Binə, Qobu kəndlərində, Quba qəza Dəvəçi kəndində rus-Azərbaycan məktəbi açmışdı. Onların bir məktəbi də Bakıda fəaliyyət göstərirdi. Cəmiyyətin məktəblərində uşaqlara, həm də müxtəlif sənət və peşələr öyrədilirdi. Cəmiyyət Salyan məktəbinə, Şamaxı şəhər 4 sinifli məktəbinə, Kiyev Universitetinin müsəlman tələbələrinə də maddi yardım göstərmişdir.

O dövrdə "Nicat", "Nəşri-maarif", "Səadət", "Şəfa" və digər xeyriyyə cəmiyyətlərindən başqa, Nuxa şəhərində dövlət tərəfindən qeydə alınmış xeyriyyə cəmiyyəti də fəaliyyət göstərirdi. Həmin cəmiyyətin nizamnaməsi 1911-ci ildə təsdiq olunmuşdu. Cəmiyyətin məqsədi Nuxa qəzasında yaşayan azərbaycanlılar arasında elm və maarifi yaymaqdan, xüsusən ibtidai təhsili ana dilində aparmağı təbliğ etməkdən, uşaqların təhsilinə hərtərəfli yardım göstərməkdən ibarət idi.

Bakıda valideynlərini itirmiş uşaqlara, yoxsul ailələrə və qadınlara yardım etmək məqsədilə 1914-cü il noyabrın 21-də "Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti" təsis edildi. Cəmiyyətin təsisçisi Rahilə xanım Hacıbababəyova idi. Sona xanım Tağıyeva Cəmiyyətin idarə heyətinin sədri seçilmişdi.

Cəmiyyət xəstə və yaralı əsgərlərə, yetim və yoxsul uşaqlara yardım göstərir, tez-tez müxtəlif tədbirlər keçirirdi.

XX əsrin əvvəllərində Azərbaycanda maarifin inkişafında, xalqın savadlanmasında həmin dövrdə Gəncə, Quba, Şamaxı, Lənkəran, Əmircan və b. şəhər və kəndlərdə fəaliyyət göstərən xeyriyyə cəmiyyətlərinin böyük xidməti olmuşdur.

Ümumiyyətlə, XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda 30-dan artıq xeyriyyə cəmiyyəti fəaliyyət göstərirdi. Onların fəaliyyətində maarifçilik istiqaməti mühüm yer tuturdu.

# VII FƏSİL

# AZƏRBAYCANDA QADIN TƏHSİLİNİN TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI

**Əhatə olunan məsələlər**

7.1. Azərbaycan maarifpərvərləri qadın təhsili haqqında fikirləri və mübarizələri
7.2. Azərbaycanda qadın təhsilinin təşəkkülü və inkişafı
7.3. Azərbaycanın müxtəlif bölgələrində ilk dünyəvi, milli qiz məktəblərinin yaranması
7.4. H.Z.Tağıyev qız məktəbi və maarifçilik fəaliyyəti

## 7.1. AZƏRBAYCAN MAARİFPƏRVƏRLƏRİNİN QADIN TƏHSİLİ HAQQINDA FİKİRLƏRİ VƏ QADIN TƏHSİLİ UĞRUNDA MÜBARİZƏLƏRİ

Azərbaycan maarifpərvərləri demokratik və bəşəri dəyərlərə əsaslanan vətəndaş cəmiyyətinin yaradılmasında və vətəndaşlıq tərbiyəsində qadın azadlığına nail olmağı, qız məktəbləri acmaqla oxumuş analar və tərbiyəçilər yetişdirməyi, cəmiyyət daxilində ictimai dəyişikliklərə məhz maariflənmə yolu ilə nail olmağı, insanlara cinsindən asılı olmayaraq hüquq və vəzifələrini anlatmağı günün ən vacib məsələsi sayırdılar, qadınların elmə, təhsilə yiyələnməsini onun insani hüquqlarının geri qaytarılması üçün zəruri hesab edirdilər. Məhz bu dövrdə - XIX əsrin sonu, XX əsrin əvvəllərində qadın azadlığı və qadın hüquqlarının cəmiyyət daxilində bərpası məsələsi qabaqcıl və mürtəce qüvvələrin mübarizəsinin əsas obyektinə çevrilmişdir. Bu dövrdə “Füyuzat” və “Şəlalə” jurnallarının ətrafında mürtəce klerikal (dini) ideologiyanın nümayəndələri toplaşmışdı, müsəlman ruhaniləri də onlarla birləşmişdi. Qadınlara münasibətdə onların siyasətinin ana xətti, qadının qapalı və cəmiyyətdən təcrid olunmuş şəkildə mövcud olmasını təsdiq etmələri idi.

Azərbaycan ziyalılarının mütərəqqi hissəsinə gəldikdə isə, bu qüvvələr "Molla Nəsrəddin" jurnalı və onun redaktoru Cəlil Məmmədquluzadənin ətrafında cəmləmişdi.

Azərbaycan maarifpərvərlərinin qadın azadlığı haqqındakı fikirləri bir çox elmi-pedaqoji ədəbiyyatda və dərs vəsaitlərində, kitablarda, məqalələrdə geniş əksini tapmışdır. Bu mənbələrdə qadın hüquqları, qadın təhsilinə geniş yer verilmişdir.

Dövrünün məşhur pedaqoqu H. Zərdabinin pedaqoji irsində qadın təhsili məsələləri mühüm yer tutur...xüsusən onun "Əkinçi" qəzetində dərc etdirdiyi məqalələr toplusunda qadın təhsili problematikası ciddi sosial məzmunda ilə malik əsas ideya istiqamətlərindən biri olmuşdur. Azərbaycan maarifpərvərləri qadın təhsilini irəli sürüb bu məsələni müdafiə edirdilər.

Həsən bəy Zərdabi qadın təhsili haqqında yazırdı: "Kişilər üçün nə qədər məktəb açsaq da, arzu etdiyimiz məqsədə nail ola bilməyəcəyik. Qadınlar elmdən və təhsildən kənarda qalırlar, halbuki gənc nəslin tərbiyəsində qadın mühüm rol oynayır".

XIX əsrdə yeni üsullu tədris özünü büruzə verməyə başladı. Lakin tədrisə ölkənin hər yerindən uşaqlar cəlb olunmurdu. Buna əsas səbəb kimi qızların tədrisinə mane olma hallarının olduğu göstərilirdi. Həmin dövrdə qadın təhsilinə ayrılan yer çox böyük olmamışdı.

Bu dövrdə ölkədə artıq kütləvi şəkildə olan savadsızlıq, qadınların cəmiyyətdəki yerini azaldırdı. Cəlil Məmmədquluzadə bu haqda "Qadın məsələsi" adlı məqaləsində yazırdi: "Məndən qadın məsələsi nə yerdədir sordular, cavab eyni idi. Həmişə necə, indi elə, cəhalət baş alıb gedir və günü-gündən də artmaqdadır".

Nəriman Nərimanovun sosial tərəqqi və milli azadlıq haqqında olan fikirləri qadın azadlığı, qadının özünü cəmiyyətə dəyərli insan kimi saymasında onlara kişilərlə bərabər sosial və ictimai hüquqların verilməsi ideyaları ilə üst-üstə düşürdü. Öz ədəbi və ictimai fəaliyyətində kütlələri oyadıb inqilaba hazırlamaq missiyasını əsas götürən N.Nərimanov öz dövrünün mətbuatında qadın

məsələsinin necə işıqlandırılmasını diqqətlə izləyirdi və bu mövzuda olan yazıları yüksək qiymətləndirib, həmin müəlliflərə dəstək verirdi. Bu xüsusda özünün "Əli qələmli müsəlman ziyalıları haqqında bir neçə söz" məqaləsində bütün ziyalıları belə müəlliflərə səs verməyə çağırırdı: "Başqa bir müəllif qadın təhsilindən danışarkən analarımızı çox pis qələmlə təsvir edib deyir ki, analarımız öz uşaqlarına çox pis tərbiyə verirlər və tərbiyə verməyi bacarmırlar. Buna görə də məqalənin möhtərəm müəllifi gələcəkdə ana olacaq qızlarımız üçün təhsil almağı lazım sanır və ümid edir ki, onun səsinə səs verən olacaqdır".

N.Nərimanov, qadınlar üçün açılan məktəbləri tərəqqi üçün zəruri sayıb alqışlayırdı. Çünki onun fikrincə bu həm sosial, həm də ailə-nikah baxımından cinslər arası ədalətsizliyin aradan qaldırılmasına böyük yardım edərdi. "Mədəniyyət dalınca gedib mərifətdə tərəqqi edən" oğlanların sayı artdığı halda qızların tərbiyəsinin qeydinə qalmamaq ailə daxili münasibətlərin pozulmasına gətirib çıxarırdı, çünki "əqilli övrət pis kişini həmişə yaman yoldan saxlar".

N.Nərimanov cəmiyyətin normal inkişaf etməsi, tərəqqisi üçün ilk növbədə qızların təhsil almasını, onların elm öyrənmələrini zəruri sayırdı. Azərbaycan qadınının hüquqsuzluğu, təhsildən məhrum olması, kölə halında saxlanılıb istismar edilməsi Nərimanovu daim düşündürürdü.

Şərqdə qadınların faciələrlə dolu həyatına yaxından bələd olan Nərimanovun onların azadlığı, təhsili uğrunda ardıcıl mübarizə aparmasının – "Nadanlıq", "Nadir şah", "Pir" və bir çox başqa bədii əsərlərində və məqalələrində qadına münasibət, ailə, qadının acınacaqlı vəziyyəti, azərbaycanlı qadınlarının ləyaqəti, ailədə qadının hüquqsuzluğu haqqında fikirlərinin şahidi oluruq.

N.Nərimanov qadınların təhsil almasının, ictimai işlərdə iştirakının həmişə qızğın tərəfdarı olmuşdur. Onun bilavasitə yaxından köməyi ilə təşkil edilmiş qız məktəblərində təhsil alan yüzlərlə azərbaycanlı qız xalqımızın mədəni inkişafında böyük rol oynamışdır

N.Nərimanov qələm dostlarını da qadın azadlığı və təhsili uğrunda mübarizəyə səsləyir və göstərirdi ki, bütün mütərəqqi adamlar çox yaxşı başa düşürlər ki, başqa çıxış yolu yoxdur; ən doğru yol müsəlman qadınlarının azadlığına və tərəqqisinə çalışmaqdır. N. Nərimanovun yaratdığı Yetər, Gülpəri, Nigar, Xədicə, Gülcahan və Gülbadam obrazları inqilabdan əvvəlki Azərbaycan qadınlarının tipik nümayəndələridir. Bu qadınlar ictimai həyatda hüquqsuz, elm və təhsildən məhrumdurlar. Onların işi, peşəsi ancaq ev işləri ilə məşğul olmaq və ərlərinin əmrlərini sözsüz yerinə yetirməkdən ibarət idi. N.Nərimanov qadınların həmin acınacaqlı vəziyyətinin aradan qaldırılmasına çalışmış və bu yolda böyük qüvvə sərf etmişdir.

N.Nərimanov oğlu Nəcəfə yazdığı məktubunda bildirirdi: "Ömür vəfa etsəydi daha çox işlər görərdim, lakin sənin qarşına az işlərlə çıxıram. Mən 30 yaşımda ali təhsil almışam. Himayəmdə olan 8 qızı böyüdüb təhsil vermişəm. Sən də qızların təhsil almasına çalış. Özün də kamil təhsil almağa çalış".

Gördükləri ilə barışa bilməyən maarif xadimlərimiz qadının öz dövründən xəbərsiz yaşadıqlarını bağışlanılmaz hesab edirdilər. Təhsil qadına lazım olan sərvətdir. Yalnız onunla zəngin ola bilər. Lakin reallıq isə qadının təhsildən kənarda qalmasını sübut edirdi.

Mütəfəkkirlərdən biri öz yazısında qeyd edirdi: "Mən azərbaycanlıları başa düşə bilmirəm. Bizim oğlanlar başqa yerlərdə təhsil alır, vətənə qayıdanda savadsız Azərbaycan qızları ilə evlənmək istəmirlər. Onlar gəldikləri diyardakı savadlı qızları bəyənirlər. Səbəb yenə də savadsızlıqdır. Axı bizim qızların nəyi onlardan əskikdir. Onların da təhsil almağa haqqı var".

Qadının təhsil almasının qızğın tərəfdarlarından biri maarifpərvər A. Bakıxanov olmuşdur. Bədii yaradıcılıqla yanaşı maarifyönümlü işlər aparan Bakıxanov qızların təhsili üçün çox iş görmüşdür. Bakıxanov o vaxt hakimiyyət dairəsində yer tutan general V.Q.Bozenə 1832 – ci ildə uşaqlar üçün dünyəvi məktəb açılması təklifini irəli sürmüşdü. Bakıxanov təhsilin insan üçün əsas olduğu-

nu bilərək belə qeyd edirdi ki, “Maarifə doğru ilk addım məktəb təsis etməkdir. Mən həmvətənlərimin faydası üçün özümü bu işə həsr edirəm”.

Abbasqulu Ağa Bakıxanov ilk dəfə Azərbaycanda qadınların kişilərlə bərabər azad yaşamaq, seçib-seçilmək, o cümlədən azad söz demək hüququnu rəsmiləşdirmişdir. O, qeyd edirdi: “Qərbdə təhsilin qadınlar tərəfindən öyrənilməsi çox gözəl qarşılanır. Onlar bu cür işlərlə fəxr edir. Gərəkdir ki, bizlər də bu cür olaq. Ancaq bizim qızlarımız tez evlənib uşağa baxmaq üçün evə təhkim olunurlar. Onlar dediklərimizdən çox uzaqdırlar”.

A. Bakıxanovun qızların təhsili üçün məktəblərin açılmasına yaxından köməklik göstərdiyini xüsusi qeyd etmək yerinə düşər. O, maarif xadimi kimi qız təhsilini ölkəmizdə yaradan şəxslərdəndir.

XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda xalq maarifi uğrunda mübarizə aparıb elm və maarif məsələlərini Azərbaycanın hər tərəfinə yayan ziyalılar arasında Qori Müəllimlər Seminariyasının məzunları olmuş maarifçi və maarifpərvərlərin fəaliyyətləri Azərbaycan pedaqoji fikir tarixinin ən maraqlı və şanlı səhifələrindən biridir. Bu məzunlardan F.Köçərli, R. Əfəndiyev, S.Vəlibəyov, M.Mahmudbəyov, N.Nərimanov, C.Məmmədquluzadə, Ü. Hacıbəyov, M. Maqomayev, P. Qasımov, F.Ağazadə, S.Acalov, Ə.Seyidov və başqaları Azərbaycan tarixinə özlərindən sonra gələn nəsillərə örnək ola biləcək xalq müəllimi nümunələri kimi daxil olmuşlar.

Qori seminaristlərinin öz əsərlərində toxunduqları ağrılı problemlərdən biri o dövrdə qadın təhsili problemləri idı. Onların ədəbi-pedaqoji irsinin təhlili göstərir ki, onlar qadının kişi ilə bərabər hüquqlara malik olmasını tərbiyə və tərəqqi işinin zəruri amillərindən biri kimi qəbul etmişlər. Maarifçi seminaristlərin fikrincə, cəmiyyətdə baş alıb gedən mənəvi pozğunluğun qarşısını almaq üçün Azərbaycan qadınına təhsil hüququ vermək lazımdır. Maarifçilər ailədaxili ziddiyyətlərin başlıca səbəbini qadına kölə bir varlıq kimi baxılmasında, ailə dəyərlərinin məhəbbət üzərində yox, var-dövlət,

mənsəb münasibətləri üzərində qurulmasında görürdülər.

Azərbaycan maarifçiləri demokratik, bəşəri dəyərlərə əsaslanan vətəndaş cəmiyyətinin yaradılmasında və vətəndaşlıq tərbiyəsində qadın azadlığına nail olmağı, qız məktəbləri acmaqla oxumuş analar və tərbiyəçilər yetişdirməyi, cəmiyyət daxilində ictimai dəyişikliklərə məhz maariflənmə yolu ilə nail olmağı günün ən vacib məsələsi sayırdılar.

Qori seminariyasının məzunları olan Azərbaycan maarifçilərinin qadın təhsili haqqında dolğun fikirləri Firudin bəy Köçərlinin pedaqoji irsində öz geniş ifadəsini tapmışdır. O müsəlman Şərqinin Qərbdən həm iqtisadi, həm də mədəni geriliyinin səbəbini məhz qadına qeyri-insani münasibətdə, qadınlarımızın savadsız olmalarında görürdü. "Həqiqi gözəllik və hərəkətsiz nisfimiz" adlı məqaləsində yazırdı: "Necə ki, fəlc azarına mübtəla olan bir bədənin məruz və illətli hissəsi salamat olan hissəsinə kömək əvəzinə ağırlıq və əziyyət yetirir, habelə aləmi-islamda da müsəlmanların bir nisfi ki, ibarət ola ixtiyarsız, elm və tərbiyəsiz biçarə arvadlardan, hisfi digərinə böyük həml olub, onların tərəqqi etməyinə, müsəlmanlar arasında ...ömrünü zay edən arvad tayfası olur".

F. Köçərli ailə tərbiyəsində həm atanın, həm də ananın bərabər iştirakını tərbiyənin uğurlu nəticəsi kimi qiymətləndirir və bunu özünün qadın azadlığına həsr etdiyi üç məqaləsində, " İslamın qadına münasibəti", "Keçmişdə müsəlman qadını", " Müsəlman qadını hal-hazırda" məqalələrində geniş şəkildə şərh etmişdir. Ailə başçısı ata öz qadınına, yəni anaya qarşı mərhəmətli, nəzakətli olmalı, eyni zamanda qadın da bunun qarşılığında kişiyə sədaqətli olub və onun ağıllı tələblərini yerinə yetirməlidir.

Zəmanəsinin mürtəce qanun-qaydalarının nikaha birtərəfli münasibətini pisləyən F.Köçərli, kəbini hər iki cinsin öhdəsinə buraxmağı tövsiyə edir və göstərir ki, qadına elə yüksək hüquq verilməlidir ki, müasir ölkələrin qadınlarına verilən təhsil və başqa hüquqlardan yüksək dayansınlar. O özünün müsəlman qadınlarının faciəli taleyini, tarixi keçmişini əks etdirən "Müsəlman qadınları

keçmişdə" adlı məqaləsində qadın qapalılığını, çadranı bəşəriyyət üçün ən böyük cahillik hesab etmişdir.

Müsəlman qadınlarının cəmiyyətdə hüquqsuzluğu onların övlad tərbiyəsindəki roluna da öz təsirini göstərir, çünki onlar savadsız olduqlarından və təlim-tərbiyə görmədiklərindən istər ailədə, istərsə də cəmiyyətdə öz üzərilərinə düşən məsuliyyəti dərk edə bilmirlər. Belə vəziyyət təkcə qadınların yox, həm də kişilərin və həmin ailədə böyüyən uşaqların mənəvi inkişafına mənfi təsir göstərir.

Firudin Bəy Köçərlinin fikrincə analıq kimi şərəfli bir vəzifənin öhdəsindən layiqincə gəlmək üçün qızlarımızın özləri kamil insan kimi yetişməli, lazımi təhsil almalıdırlar. Yalnız bu zaman onlar öz hüquqlarının dərk edə bilər və irəli gedə bilərlər.

XX əsrin böyük ədibi və mütəfəkkiri, Qori seminaristlərindən biri olan C. Məmmədquluzadənin yaradıcılığında qadın azadlığı məsələsi və təhsili xüsusi yer tuturdu. O, cəmiyyətin qadınlarla bağlı problemlərini "Xanımlar ictimai", "Yeni qızdan əski söz", "Qərb və bizim qadınlar", "Kişi gəlir", "Xanın təsbehi", "Qız və nənə" və s. əsərlərində əks etdirmişdir.

Cəlil Məmmədquluzadə "Qızların tərbiyəsi və rus-yapon davası" məqaləsində qızlara təlim və tərbiyə verməyin zəruriliyi haqqında yazırdı: " Lazımdırmı, qızlara tərbiyə vermək? Əgər biz üzümüzü keçmiş əsrlərə döndərsək, əgər bizim müsəlmanların keçmiş tarixinə nəzər eləsək, baxıb görərik ki, dünyaya çox müctəhidlər, çox mollalar gəliblər,...amma qızların tərbiyəsi barədə bir söz buyurmayıblar. Budur ki, indiyədək müsəlman qızları səkkiz yaşa çatana kimi evdə milçək tutmaqla məşğul olublar və doqquz yaşında mollalar kəbinlərini kəsib veriblər ərə... Amma indi Nuxada mollalar özləri qız məktəbləri açırlar" .

XX əsrin əvvəllərində qadın azadlığı, qadın təhsili və cinslərin sosial bərabərlik baxımından vəziyyətlərini elmi-pedaqoji cəhətdən təhlil edərkən C. Məmmədquluzadənin başçılığı ilə çıxan "Molla Nəsrəddin" məcmuəsinin rolunu xüsusilə qeyd etmək lazımdır. Bu

məcmuədə cəhalət və nadanlığı tənqid edən yazılarla bərabər, qadın təhsili və tərbiyəsini ən ümdə vəzifə kimi önə çəkən məqalələrə də geniş yer verilirdi ki, onlar qadınların təhsili məsələsində məcmuənin mübariz və prinsipial mövqeyini aydın göstərir: “Hicab məsələsi barəsində idarəmizə çox kağızlar göndərib, soruşurlar ki, övrət məsələsi bəs harada qaldı, nə yerdə tamam oldu? Cavabımızı biz həmin məsələyə başlayanda da demişik və indi də deyirik ki, qızlarımızı gərək oxudaq! Və qızlarımızı gərək oxudaq! Və qızlarımızı gərək oxudaq!”.

O dövrkü Azərbaycan ailələrində və bütövlükdə cəmiyyətdəki ətaləti və durğunluğu, din xadimlərinin özbaşınalığını, insanların şüurlarını hörümçək toru kimi sarıyan xurafat və mövhumatı böyük ədib tənqid edib, tamamilə hüquqsuz olan qadınların halına acıyan ədib, ona qarşı olan təhlükə və təzyiqlərə baxmayaraq qadın azadlığı məsələsini inadla təbliğ edir, “Bu işlərin çarəsi balaca qızlarımızı oxutmaqdır” deyirdi. Bu məqsədlə o, Nehrəmdə qızları məktəbə cəlb edir və qızların gələcək taleyi ilə bağlı belə açıqlama verirdi: “Elə ki, qızlarımız elm və tərbiyəli olub, öz qədirlərini bildilər, onda özləri bilərlər ki, necə rəftar etsinlər“.

Cəlil Məmmədquluzadənin Nehrəm kəndində qızları oğlan məktəbinə cəlb etməsi və sonralar qızlar üçün ayrıca qız siniflinin açılmasına nail olması o dövrdə ən cəsarətli addımlardan biri idi. Hətta onun qadın təhsili ilə bağlı bu addımı dövlət dairələri tərəfindən də yüksək qiymətləndirilmişdir. Ədibin bu inqilabi çağırışı cəmiyyətdə çevriliş qüvvəsinə bərabər sayıla bilərdi. Qadınların cəmiyyətdə iştirakını ön plana çəkən C. Məmmədquluzadə, qadın təhsilini hər iki cins üçün əhəmiyyətli amil hesab edib kinayə ilə “oğlanlarınızı oxutmayın” deyə müsəlmanlara müraciət edirdi. Əslində isə bu müraciətin arxasında “qızın da təhsil alması”nın vacibliyini bununla əsaslandırır ki, “oxumuş oğlan oxumuş qızla evlənmək istəyəcək”, bununla cəmiyyətin bütünlüklə maariflənməsini təbliğ və təqdir edirdi.

Bəy nəslindən olan Həmidə xanım 1905-ci ildə Tiflisdə tanış

olduğu Mirzə Cəlil Məmmədquluzadəyə iki il sonra ərə gedərək ona ömür – gün yoldaşı olmuşdur. Həmidə xanım Mirzə Cəlilə vəfalı və fədakar ömür-gün yoldaşı olmaqla yanaşı, həm də ustad sənətkarın ən yaxın maarifçi silahdaşı, ziyalı həmdəmi, Molla Nəsrəddinin isə xeyirxah himayədarı olmuşdur. Bütün varidatını, sərvətini həyat yoldaşının yaradıcılığına böyük ürəklə sərf edən Həmidə xanım Cavanşir-Məmmədquluzadə Mirzə Cəlillə 25 il əsl məhəbbət və qarşılıqlı ehtiramla ömür sürmüşdür. Bu illərdə Mirzə Cəlil nə qədər kəskin zərbələrə, ittihamlara tuş gəlsə, nadanlıqla qarşılaşsa da qadını, həyat yoldaşı Həmidə xanım ona dəstək olmuş, mənəvi dayaq olmuşdur.

Tarix Həmidə xanım Cavanşir-Məmmədquluzadəni böyük xeyriyyəçi və cəfakeş insan kimi yaddaşlara həkk edib. Tək Kəhrizli kəndinin deyil, cümlə Qarabağın ona kömək üçün pənah gətirən insanlarının əlindən tutan, qayğılarını həll edən bu xanım həm də o dövrün yardıma ehtiyacı olan ziyalılarının da problemlərini həll etmişdir. Ciddi xəstəliyi olan Mirzə Ələkbər Sabir məhz Həmidə xanımın məsləhəti ilə Mirzə Cəlil tərəfindən Tiflisə müalicə üçün dəvət almışdır. Sabir bu hadisəni Abbas Səhhətə yazdığı məktubunda belə xatırlayırdı: “Mirzə Cəlil və Həmidə xanım cənablarından çox razıyam. Bilmirsən mənə nə qədər ehtiram edirlər! Bu neçə müddətdə təmam məxaricimi və zəhəmatımı mütəhəmmil olmuşlar. Mənim mehmanxana, ya xəstəxanada yatmağıma razı olmadılar, öz evlərində mənzil vermişlər. Xülasə, bilmirəm nə dil ilə təşəkkür edim”. Həmidə xanımın Sabirə göstərdiyi qayğı haqqında isə Azərbaycan ziyalılığının baş tacı olan Üzeyir Hacıbəyov xüsusi məqalə yazmışdır. Məqalə bu sözlərlə bitirdi: “Qoy ədəbiyyat tarixinə yazılsın ki, Sabir kimi şairi diriliyində təqdir edən bir kişi olmadısa da, bir nəfər arvad oldu ki, şairin iadei-səhhəti üçün, milyonçu kişilərə rəğmən, öz varından keçəcək qədər böyük bir həmiyyət göstərdi”. Bu hadisə Həmidə xanım Cavanşir-Məmmədquluzadənin vətəndaş mahiyyətini, xeyirxah əməllərini əks etdirən yüzlərlə faktdan yalnız biridir.

Həmidə xanım 1912-ci ildən Kəhrizlidə öz vəsaiti hesabına məktəb açmış, qızları təhsilə cəlb etmiş və burada dərs demişdir. Mirzə Cəlilin vəfatından sonra da ölkənin ictimai-ədəbi həyatında fəal mövqe tutan Həmidə xanım Yazıçılar İttifaqına üzv seçilmiş, ömür-gün yoldaşının əsərlərini tərcümə etməklə yanaşı, bu böyük sənətkarla bağlı kövrək xatirələrini böyük ustalıqla qələmə almışdır.

1955-ci ildə vəfat edən Həmidə xanım Cavanşir-Məmmədquluzadə Fəxri Xiyabanda Mirzə Cəlilin məzarı yanında dəfn olunmuşdur. Dinimizdə də qadın təhsilinə böyük diqqət və əhəmiyyət verilmişdir. Həzrəti Peyğəmbərin təhsillə bağlı həyata keçirdiyi fəaliyyətlər arasında qadınların təhsil alması və yetişdirilməsi mühüm yer tutmuşdur. Məhəmməd Peyğəmbər qadın təhsili sahəsindəki fəaliyyətini 3 istiqamətdə həyata keçirib. 1. Qadınları təhsil almağa təşviq etmək 2. Qadınları istəkləri və bacarıqlarına uyğun fəaliyyətlərə yönəltmək. 3. Qadını yaradılışına uyğun olaraq tərbiyə etmək.

Məhəmməd Peyğəmbər (s) demişdir: ‘‘Elm öyrənmək hər müsəlmana fərzidir”. Peyğəmbərimiz (s) qadın və kişi ayrı-seçkiliyi salmadan hər kəsin elmli olmasını istəmiş və qadınların təhsil almada sərbəst olduqlarını bildirmişdir. Bu hədis qadınların təhsil almalarını istəməyən insanların, qadınlara qarşı etmiş olduqları ayrı seçkiliyi ortadan qaldırmaqdadır.

Peyğəmbərimizin zamanında məscidlər ibadət yerləri olmaqla birlikdə, həm də təhsil ocağı idi. Peyğəmbərimiz qadınların məscidlərə getmələrinə icazə vermiş və bu haqda kişilərə xanımlarına icazə vermələrini əmr etmişdir. ‘‘Sizdən icazə istədiklərində xanımlarınızın məscidlərə getmələrini qadağan etməyin“ buyurmuşdur.

Dahi şair, dramaturq Hüseyn Cavid – “Qadın gülərsə bütün bəşəriyyət gülər”-deyərək qadın təhsilinə, qadınların tərəqqi etməsinə xüsusi diqqət yetirmiş və əsərlərində qadın problemləri genişliyi ilə öz əksini tapmışdır. Övladının tərbiyəsi qeydinə qalmayan valideynləri Cavid əfəndi qınayır və söyləyirdi: “Xeyirsiz, xain,

ədəbsiz övlad yetişdirən, onları tərbiyə və islaha çalışmayan ata-analar, şübhəsiz ki, gələcəkdə namuslu, vicdanlı, heysiyyətli insanlara müsəlləh olmaq üçün bir sürü əxlaqsız, bir yığın sərsəri yetişdirmiş olurlar. Böylə qeydsiz ata-ananın nə dərəcə məsul olacağı... hər kəsə məlum və aydın bir həqiqətdir.... Bu gün azacıq təbiətə qarşı durub övladını tərbiyədən məhrum buraxanlar, yarınkı gün cigərguşələrinin zillət, fəlakət odunda yanıb-qovrulduqlarını ağlaya-ağlaya seyr edəcəklər… Çocuqlar məsumdurlar, onuncun etdikləri işlərin heç birinə məsul deyildirlər, onların hal və hərəkətlərindən məsul olacaq yalnız ata-analarıdır. Qızını, oğlunu tərbiyə etməkdə müsamihə göstərən valideyn qanun və əxlaq nəzərində şiddətlə məsul tutulmalıdır. Çünki cəmiyyəti-bəşəriyyət üçün müzür bir adam hazırlamış olurlar".

Hüseyn Cavid bəzi ailələrdə uşaqların rejim qaydalarına baxılmadığının, onların düzgün tərbiyə almadıqlarının, erkən yaşlardan uşaqların müxtəlif xəstəliklərə düçar olduqlarının səbəblərini anaların savadsız və uşaqlara münasibətlərini, qulluq etmək qaydalarını bilmədiklərindən irəli gəldiyini söyləyir. O belə qənaətə gəlir ki, cəmiyyətin rifahı ziyalı, iffətli analardan daha çox asılıdır.

Valideynlər evdə uşağın təlim və tərbiyə işinə ciddi nəzarət etməlidir. Çünki uşaqların təlimə yiyələnməsi onları avamlıqdan, cəhalətdən xilas edər. Bu məsələdə H. Cavid "Qurani- Kərim"ə, Məhəmməd peyğəmbərin kəlamlarına istinad edib deyir ki, "Beşikdən qəbirədək elm öyrənin". "Elm Çində də olsa, gedib öyrənin". Hüseyn Cavid valideynləri ilk növbədə uşaqlarına ana dilini təmiz öyrətməyə çağırırdı. Buna görə də Hüseyn Cavid qız uşaqlarının təhsilə cəlb olunmasını istəyirdi. O qız uşaqlarının məktəbdən yayındırılmasının və təhsildən uzaqlaşdırılmasının islama zidd olduğunu söyləyirdi. Sualı belə qoyurdu: "Əcaba, səkkiz-doqquz yaşında bir qız yalnız ibtidai, yaxud rüşdi təhsil görürsə, şəriətə müxalifmi zənn olunur?" Guya "qız tərbiyə görür-görməz itaətsiz olacaq" söyləyənlərin fikirlərini rədd edirdi. Valideynləri qız uşaqlarını məktəbə qoymağa çağırır və qızların

tərbiyəsinə xüsusi fikir verilməsini, onların yüksək, əxlaq və mənəviyyata sahib olmalarını istəyirdi. Bu cəhətdən onun "Qız məktəbində" şeri pedaqoji baxımdan çox dəyərli və əhəmiyyətlidir.

Qadın azadlığı məsələsini və qadın təhsilinin zəruriliyini diqqət mərkəzinə çəkənlərdən biri də Məhəmməd ağa Şahtaxtlı idi ki, o, qadınların hüquqsuzluğunun birmənalı şəkildə qadın təhsilinin olmaması və islam dini ilə əlaqələndirirdi. O, qadın ləyaqətinin, şəxsiyyətinin alçaldılmasının ən bariz nümunəsi olan çoxarvadlığa şəriət tərəfindən icazə verilməsini dövrünün ən böyük faciəsi hesab edərək yazırdı: "Bir neçə arvadı olan kişi... pula görə kölə qadınlara ağalıq edən quldardır. Burada ancaq kişi tərəfindən zülmkarlıq və qadın tərəfindən itaət vardır". Qori seminaristlərindən Rəşid bəy Əfəndiyev qızlar üçün məktəblərin açılmasını, ailədə əsas tərbiyəçi olan anaların elmli, mədəni olmalarının vacibliyini özünün "Arvad məsələsi" kitabında geniş vermiş və özü 1920 -ci ildə həm kişilər və həm də qadınlar üçün Nuxada Müəllimlər Seminariyası açmışdır.

R. Əfəndiyev qızlar üçün məktəblərin açılmasını, ailədə əsas tərbiyəçi olan anaların elmli, mədəni, dünya işlərindən xəbərdar olmalarını zəruri sayırdı. O, qızlara məktəblərdə təhsil və tərbiyə verməyi, qadın təhsili məsələsini mühüm bir sosial problem kimi həll etməyi xalqın mədəni və iqtisadi həyatı üçün mühüm və zəruri problem hesab edirdi. Özünün qadın təhsili haqqındakı fikirlərini həmkarları ilə daim bölüşürdü. O, yazırdı: "Təcrübə ilə isbata yetirilmişdir ki, hər bir millətin və hər bir taifənin səadəti və xoşbəxtliyi arvadlarının dərəceyi-elmiyyətindən asılıdır. Yeni növ bəşəri həyatı ər ilə arvadın bir bədən hesabına yaşayış qüvvəyi-mənəviyyatlarından asılıdır".

## 7.2. XIX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA QADIN TƏHSİLİNİN TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI

XIX əsrin əvvəllərində Azərbaycanda xalq maarifinin vahid sistemi olmadığı kimi qadın təhsili sistemi də yox idi. Qızlar evlərdə ayrı-ayrı şəxslərdən təhsil alırdılar.

1851-ci ildə Bakıda 91 nəfər qadın öz evində məktəb açmış və ya ayrı-ayrı qızlara fərdi təhsil verirdilər. Daha sonralar belə məktəbdar qadınlar tərəfindən açılan məktəblər Şuşa, Şamaxı, Gəncə, Nuxa və başqa şəhərlərdə də oldu. Belə məktəblərdən biri dövrün maarifpərvər qadınlarından olan Güllübəyim xanım tərəfindən 1850-ci illərdə Şamaxı şəhərində açılmışdır. Bu məktəbdə şəriət ilə yanaşı ana dili, hesab, fars dili, tarix, nəğmə və rəsm tədris edilirdi. Məktəb 1862-1863-cü illərə kimi fəaliyyət göstərmişdir.

Göstərilən məktəblər qadın təhsili sahəsində xeyli rol oynamaqla, onun sonrakı inkişafına da güclü təsir etmişdir.

XIX əsrin 60-cı illərinə aid arxiv sənədlərində Gəncədə 11 qadının evdə qız təhsili ilə məşğul olması göstərilir. Burada cəmi 55 qız oxuyurdu. Onlardan 2 xan, 4 nəfəri dvoryan, 3 nəfəri ruhani, 40 nəfəri şəhərli, 6 nəfəri isə kəndli qızları idi.

Cənubi Qafqazda təhsilin rus dilində verildiyi ilk qız məktəbi 1840-cı illərdə Tiflisdə “Nəcib qızlar” məktəbi açıldı. Bu məktəbdə əsasən dövlət məmurlarının və gürcü zadəganlarının qızları oxuyurdu”...

1846-cı il mayın 5-də Tiflisdə, 1847-ci il mayın 14-də Kutaisidə “Müqəddəs Nina” Xeyriyyə cəmiyyətinin qız məktəbi açıldı. Bu məktəblərdə təhsil rus dilində idi. Azərbaycanda da belə məktəblərin açılması zərurəti meydana gəlmişdi. Təhsilin rus dilində verildiyi qız məktəbini quberniya mərkəzi olduğundan Şamaxıda açmaq lazım bilindi.

Beləliklə Azərbaycan ərazisində rus dilində ilk qız məktəbi 1848-ci il aprelin 30-da Şamaxıda açıldı. “Müqəddəs Nina” qız məktəbi adlanan və elementar biliklər verən bu təhsil ocağı Qaf-

qazın o zamankı canişini M.S.Vorontsovun həyat yoldaşı Y.K.Vorontsovanın təşəbbüsü və köməyi ilə tərkibində azərbaycanlı qadınlar da olan eyni adlı xeyriyyə cəmiyyəti tərəfindən açılmışdır. Birinci il bu məktəbə 16 şagird cəlb edilmiş, 11 il fəaliyyət göstərmiş, 1859-cu ildə burada baş verən Zəlzələ nəticəsində dağılmış və Bakıya köçürülmüşdür.

İrəvanda yaradılmış “Müqəddəs Ripsime” qadın cəmiyyəti qadınların, qızların təhsilində, maariflənməsində geniş fəaliyyət göstərirdi. Bu sahədə cəmiyyət bir çox xeyriyyə tədbirləri keçirirdi.

“Müqəddəs Ripsime” İrəvan qadın xeyriyyəçilik cəmiyyətinin fəaliyyətində Naxçıvan əhli general-leytenant Ehsan xanın qızı Sonabəyim, Ehsan xanın oğlu Naxçıvan xanı general-mayor Kəlbəlixanın qızı Sarabəyim, ştabskapitan İsmayıl xanın həyat yoldaşı Cahan xanım, kapitan Hüseyn Sultanovun həyat yoldaşı Tovuzbəyim, Mahmud ağanın həyat yoldaşı Xırda xanım, Nəcəf ağanın həyat yoldaşı Bəyimcan xanım, Cavan ağanın həyat yoldaşı Xırda xanım kimi məşhur adamların qızları və həyat yoldaşları fəal iştirak edirdilər. Əvvəlcə cəmiyyətin 63 üzvündən yalnız 7-si azərbaycanlı idisə, 1865-ci ildə “Müqəddəs Ripsime”nin fəaliyyətində 42 azərbaycanlı qadın fəal iştirak edirdi. Bunlar dövlət məmurlarının, hərbçilərin, bəylərin, aristokratların həyat yoldaşları idilər. Bu zadəgan və təhsilli qadınlar müsəlman qadınlarına yardım etmək, onları zəngin milli, rus və Qərbi Avropa mədəniyyətinə yaxınlaşdırmaq arzusu ilə xeyriyyəçilik hərəkatına qoşulmuşdular. Onlar öz övladlarına Rusiyanın, Avropanın ən yaxşı tədris müəssisələrində təhsil verir, onlar sonralar məktəb açaraq öz xalqının qızlarını maarifləndirmək işinə dəstək verirdilər.

“Müqəddəs Rimsipi” xeyriyyə cəmiyyətinin İrəvan şöbəsində fəaliyyət göstərən mütərəqqi azərbaycanlı qadınları yeni məktəblərin açılması ilə bağlı müəyyən işlər görürdülər ki, 1850-ci ilin yanvarın 1-də İrəvan şəhərində ilk qız məktəbi açıldı. Burada da başqa millətlərin nümayəndələri ilə birlikdə azərbaycanlı qızları da təhsil alırdılar. 1851ci ildə 21 qızdan 3-ü, 1856-cı ildə 28 şagirddən 7

nəfəri azərbaycanlı idi. İrəvan qız məktəbində Mir Mehdi adlı bir müəllim tərəfindən Azərbaycan dili dərsi də tədris edilirdi.

1860-cı illərdə keçirilən məktəb islahatından sonra 1864-cü il oktyabrın 1-də Zaqatalada 2-ci dərəcəli qız məktəbi açıldı. Bu məktəb 1904-cü ildə 4 sinifli Marinski qız məktəbinə çevrildi.

1874-cü ildə Azərbaycanda Marinskaya adını almış ilk qadın gimnaziyası da açılır. Bakı quberniyasında XIX əsrin sonunda 4915 şagirdin, o cümlədən 64 qızın təlim keçdiyi 245 məktəb fəaliyyət göstərirdi. Eyni zamanda Yelizavetpol quberniyasındakı 268 məktəbdə 4384 şagird, o cümlədən 145 qız oxuyurdu.

XIX əsrin sonu – XX əsrin əvvəli xeyriyyəçiliyin imkanlı insanlar üçün yazılmamış qanun olduğu bir dövr idi. Bakının bütün məktəblərində, gimnaziyalarında və progimnaziyalarında şəhər tacirləri və zadəganlarının ən görkəmli nümayəndələrindən ibarət olan himayədarlıq şuraları fəaliyyət göstərirdi. Onların böyük həcmdə etdiyi ianələr çox vaxt inqilabdan qabaqkı Bakının tədris müəssisələrinin əsasını təşkil edirdi.

Ən iri sənayeçi və mesenat Hacı Zeynalabdin Tağıyevın geniş və çoxcəhətli xeyriyyəçilik fəaliyyəti hamıya məlumdur. Bakı inşaat-texniki və Bakı kommersiya məktəblərinin, Bakı Marinskaya Qadın Gimnaziyasının fəxri himayəçisi olan H.Z.Tağıyev Bakı Aleksandrınkıya adını almış ilk rus-müsəlman pedaqoji məktəbini açmışdı ki, bu - onun maarif sahəsindəki fəaliyyətinin tacı sayılır.

Qadın məsələsinin həllini H.Z.Tağıyev cəmiyyətin normal fəaliyyət göstərməsi, ictimai inkişafın sürətlənməsi üçün vacib şərt hesab edirdi. H.Z.Tağıyev maarifə böyük üstünlük verir, onu qadın məsələsinin həllindəki əsas halqa sayırdı. Azərbaycan qızları üçün xüsusi məktəbin yaradılması barədə Tağıyev hələ XIX əsrin 90-cı illərində düşünmüşdü. Belə ki, tanınmış ictimai xadim M.A.Şahtaxtinskiyə yazdığı 4 may 1896-cı il tarixli məktubunda Tağıyev qeyd edirdi: "Müsəlman qadınını olduğu qapalı həyatdan çıxarmaqdan ötrü yeganə bir yol var – "yalnız məktəb; və bu məktəbi elə yaratmaq və elə qurmaq lazımdır ki, müsəlmanlar ona rəğbətlə

yanaşsın və tam əminliklə öz qızlarını ora oxumağa göndərsinlər".

Buradan görünür ki, belə məktəbin açılması o zaman üçün aktual və eyni zamanda olduqca mürəkkəb iş idi. Və yalnız Hacı Zeynalabdin Tağıyevin qətiyyəti və inadı, üstəgəl müdrikliyi və bakılılar arasındakı nüfuzu, həmçinin onun vəsaiti bu ideyanı sona çatdırmağa imkan verdi.

1875-ci il oktyabrın 26-da Şuşada Xeyriyyə cəmiyyəti tərəfindən ilk qız məktəbinin əsası qoyuldu . 1884-cü il yanvarın 1-də Gəncə "Müqəddəs Nina" qadın xeyriyyə cəmiyyətinin xətti ilə 6 nəfər rus şagirdlə ilk qız məktəbi fəaliyyətə başladı.

Gəncədəki bu məktəb inkişaf edərək 1889-cu ildə progimnaziya, 1902-ci ildə isə gimnaziyaya çevrildi. Azərbaycan ərazisində ilk dəmiryol məktəbi 1888-ci ildə Gəncə dəmir yolu stansiyasında açıldı ki, burada oğlanlarla bərabər, qızlar da təhsil almağa başladı.

Qızların oğlan məktəblərinə cəlb edilməsinə Nuxa qəzasının Vartaşen (Oğuz) və Qarabulaq, Cəbrayıl qəzasının Qarğabazar kənd məktəblərində də rast gəlirik. Qarabulaq kəndində oxuyan 80 nəfərdən 5 nəfəri qızlar idi. 1895-ci ildə Qubada iki sinifli ibtidai məktəb nəzdində qızlar üçün ayrıca şöbə açılmışdı.

Rus-Azərbaycan məktəblərinin və yeni üsullu məktəblərin bəzisinin nəzdində ayrıca qız şöbəsi də təşkil edilirdi. Belə şöbələrdən biri 1894-cü ildə Nuxada, görkəmli müəllim M. Şeyxzadənin "Darüssüada məktəbi nəzdində, digəri isə 1901-ci ildə Bağmanlar "Rus-Azərbaycan" məktəbi nəzdində meydana gəldi. XIX əsrin sonlarında Azərbaycan ziyalılarının qadın təhsili uğrunda mübarizəsi get-gedə genişlənirdi. Onların bir hissəsi öz həmvətənlərinin dini görüşlərini nəzərə alaraq və ona hörmət əlaməti olaraq, qız məktəblərini, orada yalnız qadın müəllimlərinin dərs deməsi şərti ilə açmağı məqsədə daha müvafiq hesab edirdilər. Ziyalıların bir dəstəsi isə bu sahədə praktik addım atmağa çalışır, imkan daxilində qızların düzgün təşkil edilmiş dünyəvi məktəblərə cəlb edilməsinə cəhd edirdilər.

İllər ötdükcə Azərbaycanda yeni-yeni məktəblər yaranır,

oxumuş qızların sayı artırdı.

Göründüyü kimi XIX əsr Azərbaycan ərazisində açılan qız məktəblərində azərbaycanlı qadınlar yaxından iştirak etsələr də orada oxuyan azərbaycanlı qızların sayı çox az idi. İllər ötdükcə qadın təhsilinə diqqət artırıldı. Hətta texnikum, ali təhsil səviyyəsində qadın təhsili həyata keçirildi.

Azərbaycan Dövlət Pedaqoji Kolleci yarandığı 90 il ərzində Azərbaycan Təhsilinin inkişafında böyük rolu olmuşdur. 1919-cu ildə bu müəssisə Qadın Müəllimlər Seminariyası kimi fəaliyyətə başlamışdır. Bu Seminariyada məşhur ədəbiyyat və incəsənət xadimi Üzeyir bəy Hacıbəyov, tanınmış pedaqoq Camo Cəbrayılbəyli, yazıçı Abdulla Şaiq və Elmira Şahtaxtinskaya kimi görkəmli pedaqoqlar dərs demişlər.

Qız məktəblərinin, qadın təhsilinin meydana gəlməsi azərbaycanlı qızlarının dünyəvi təhsil alma ideyasını xeyli gücləndirirdi. Bir tərəfdən yeni rus məktəblərinin açılması, digər tərəfdən inkişaf etməkdə olan milli mədəniyyətin qüvvətli təsiri və dövrün ictimai-mədəni, siyasi tələbləri azərbaycanlı qızlarının dünyəvi təhsil alma, müasir biliklərə yiyələnmə zərurətini reallaşdırırdı. Bu ideyanın ilk təşəbbüskarları və carçıları da Rusiyada təhsil almış, rus dilini bilən, mütərəqqi azərbaycanlı ziyalılar idilər. Dünyəvi qadın təhsili ideyasının irəli sürülməsində böyük maarifçilər H.Zərdabi, F.Köçərli, S.M.Qənizadə, H.Mahmudbəyov, M.Şahtaxtılı, M.T.Sidqinin, C.Məmmədquluzadə, Eynəlibəy Sultanov öz təşəbbüskarlıqları, nəzəri və əməli fəaliyyətləri ilə fərqlənirdilər ki, bunlar da nəticəsiz qalmamışdır.

## 7.3. AZƏRBAYCANIN MÜXTƏLİF BÖLGƏLƏRİNDƏ İLK DÜNYƏVİ, MİLLİ QIZ MƏKTƏBLƏRİNİN YARANMASI

Qadın təhsili ilə əsasən ruhani təhsili almış qadınlar məşğul olurdu. 1830-cu illərə aid mənbələrdə Bakıda, Şamaxıda, Naxçıvanda Şuşa və Nuxada evlərdə qız məktəbinin mövcud olmasına, orada dini kitablarla bərabər, dünyəvi fənlərin, məlumatların ana dilində tədris edilməsinə, müxtəlif saplarla, toxumaq, tikmək, evdarlıq məsələləri haqqında maraqlı məlumatlar verilirdi.

Bakı qız məktəbində olmuş N.S.Stepanova adlı bir müəllif yazırdı: "Bakıda ikən Xırdaxanım adlı bir qadının öz evində təşkil etdiyi məktəbə getdim. Çox gözəl, zərif və gənc bir qadındır. Dediyinə görə, ana dili, hesab, fars dili, tarix, nəğmə, rəsm, Quran və şəriət dərsləri keçir. Mənim xahişimə görə nəğmə dərsini keçdilər. Mən Şərq musiqisini başa düşməsəm də deyə bilərəm ki, müəllimə xanım qabil xanəndədir. Şagirdlər də gözəl oxuyurdular. Sonra qızların çəkdikləri şəkillərə, tikdikləri tikmələrə baxdım, oxumalarına qulaq asdım. Adam inana bilmir ki, bu qızları öyrədən xanım müəllim deyil, adi ev qadınıdır. Burada tərbiyə və təlim işi yüksək səviyyədə qurulmuşdur".

Keçən əsrin ortalarında Güllübəyim Mir Mahmud qızının (1825-1897) Şamaxıda açdığı xüsusi qız məktəbi özünün şöhrəti ilə Şamaxı quberniyasında məşhur idi.

Burada şagirdlərə gözəl xətlə yazmaq, rəvan oxumaq öyrədilir, onların çəkdiyi şəkillər, tikdiyi tikmələr, oxuduqları nəğmələr diqqətəlayiq idi. Belə məktəblər tək-tək idi və qadın təhsili, əsasən, dini kitabların oxudulması ilə məhdudlaşdırılırdı.

Oğlan məktəblərində olduğu kimi, qız məktəblərində də təhsil pullu idi. Təhsil haqqı valideynin varidatından asılı idi.

Azərbaycanın Rusiya tərəfindən işğalından sonra qadın təhsilinin yeni forması meydana gəldi. Burada qulluq edən hərbi və mülki qulluqçu ailələrinin sakin olması, rus qız məktəblərinin təsis edilməsi ilə nəticələndi.

Azərbaycan ərazisində rus dilində ilk qız məktəbi 1848-ci il aprelin 30-da Şamaxıda açıldı. “Müqəddəs Nina” qız məktəbi adlanan bu təhsil ocağı Qafqazın o zamankı canişininin M.S.Vorontsovun həyat yoldaşı knyaginya Y.K.Vorontsovanın təşəbbüsü və köməyi ilə təşkil edilən eyni adlı xeyriyyə cəmiyyəti tərəfindən açılır və saxlanılırdı .

“Müqəddəs Nina” qadın xeyriyyə cəmiyyətinin tərkibində azərbaycanlı qadınlar da iştirak edirdi. “Müqəddəs Nina” qız məktəbi cəmi 11 il fəaliyyət göstərdi. 1859-cu il mayın 30-da Şamaxıda baş verən zəlzələ nəticəsində məktəb öz fəaliyyətini müvəqqəti olaraq dayandırmalı oldu. Quberniya mərkəzinin Şamaxıdan Bakıya köçürülməsi ilə əlaqədar olaraq 1861-ci ildə həmin məktəb də Bakıya köçürüldü və “Müqəddəs Nina” qız məktəbi adlandırıldı.

XIX əsrin 60-cı illərində təkcə Bakı quberniyasında deyil, həmçinin Qafqazın şərq hissəsində rus dilində yeganə qız tədris müəssisəsi olan Bakı “Müqəddəs Nina” məktəbinin tədris planı daha geniş idi. Burada rus dili, hesab, coğrafiya, tarix, fransız dili, musiqi, hüsnxət, əl işi və ilahiyyat öyrədilirdi. Məktəbin maddi vəsaiti artdıqca, yeni siniflər açılır, şagirdlərin sayı çoxalırdı.

1874-cü ildə Bakı “Müqəddəs Nina” qız məktəbi əsasında müstəqil gimnaziya təsis edildi. 1880-ci illərdə Bakı qız gimnaziyası şagirdlərin sayına görə Qafqaz qız məktəbləri içərisində birinci yerdə gedirdi.

1896-1897-ci tədris ilində burada 576 şagird təhsil alırdı. Qız gimnaziyası əlavə VIII sinfə-pedaqoji sinfə malik idi.

1860-cı illərin məktəb islahatı qadın təhsilinin az-çox inkişaf etməsinə səbəb oldu. İctimai-siyasi və pedaqoji hərəkatı nəticəsində ayrı-ayrı yerlərdə qız məktəbinə ehtiyac və tələb get-gedə artırdı.

1864-cü il oktyabrın 1-də Zaqatalada ilk qız məktəbi açıldı.

Təhsil pullu idi. Zaqatala qız məktəbinə ilk dəfə az şagird qəbul olunmuşdur. Tədris planına ilahiyyat, rus dili, hesab, hüsnxət, əl əməyi və təsərrüfat işləri daxil idi. Zaqatala qız məktəbi  az bir müddət ərzində yerli əhalinin rəğbətini qazandı və 1904-cü ildə 4

sinifli Marinski qız məktəbinə çevrildi.

Qadın təhsilinə olan tələbat Azərbaycanın digər şəhərlərində, xüsusilə də Şuşada daha çox idi. Şuşalılar qızların ana dilində təhsili ilə bərabər, rus dilində də təhsil almasına cəhd edirdilər.

1875-ci il oktyabrın 26-da Şuşada xeyriyyə cəmiyyəti tərəfindən də ilk qız məktəbinin əsası qoyuldu. Tədris planına rus dili, hesab, tarix, coğrafiya, ana dilində oxu və yazı, rəsm və rəsmxət, ümumi coğrafiya, Şuşa qəzasının, Qafqazın, Rusiya imperiyasının xəritəsini çəkməklə ölkəşünaslıq daxil idi.

Bunlardan başqa, şagirdlərə xorla milli mahnılar oxudulur, təbiyyat və fizikadan ümumi məlumat verilirdi. Təhsil pullu idi. Kasıblar təhsil haqqından azad idilər. Əlavə təhsil haqqı verənlərə fransız və alman dilləri, musiqi öyrədilirdi. Rus dili dərsləri K.D.Uşinskinin “Vətən dili” dərsliyi üzrə keçirilirdi.

Azərbaycan ərazisində ilk dəmiryol məktəbi 1888-ci ildə Gəncə dəmir yolu stansiyasında açıldı ki, burada oğlanlarla bərabər, qızlar da oxuyurdu. 1894-cü ildə (115 şagird, o cümlədən 45 qız). Məktəbin müəllimləri Tiflis Aleksandrovski Müəllimlər İnstitutunun və Moskva Qızlar İnstitutunun məzunlarından idilər.

1894-cü ildə Şəkidə görkəmli maarifçi, müəllim Məmməd Şeyxzadə ana dilli qadın təhsili təşkil etmişdir. Onun dərs dediyi “Darüs – süəda” məktəbinin nəzdində qızlar üçün ayrıca sinif açmışdır. Burada yeni üsulla dərsi Şeyxzadənin qızı Şəfiqə xanım deyirdi. Bu məktəbdə kiçik yaşlı qızlar oxuduğu üçün oğlanlar da qəbul olunurdu.

Əsrin sonlarında Ağcaqabul (1893), Bakı (1896) və Ağstafa (1901) stansiyalarında da dəmir yolu məktəbləri meydana gəldi ki, bu məktəblərdə qızlar sinfi mövcud idi.

1881-ci ildə Şamaxı şəhər məktəbi nəzdində qızlar üçün də qruplar yaradıldı və onlar ayrıca təhsil ala bilirdilər.

Şamaxı qız məktəbi Azərbaycanda qadın təhsili sisteminin bünövrəsini qoydu və onun inkişafına xeyli təsir etdi.

Tiflis Aleksandrovski Müəllimlər İnstitutunun və Qori Müəl-

limlər Seminariyasının məzunları olan S.M.Qənizadə, H.Mahmudbəyov ilə yanaşı M.Ə.Sabir, A.Səhhət və M.Hadinin də qızların təhsilə cəlb olunmasında böyük xidmətləri olmuşdur.

Bu dövrdə Şamaxıda fəaliyyət göstərmiş "Molla Pəri", "Molla Tibnisə", "Molla xanım", "Zeynəb xanım", "Nisə xanım" və başqalarının məktəbləri qızların müəyyən qədər təhsil almalarında müəyyən rol oynadı. Təhsil müddəti bir il olan bu məktəblərdə oxu və yazı öyrədilirdi. Məktəb Azərbaycan və rus dillərində olmaqla, iki şöbədən ibarət idi. Məktəbin pulsuz axşam kursları da var idi. Müdavimlərin əksəriyyətini azərbaycanlılar təşkil edirdi.

Əsrin sonlarına doğru Nuxa, Gəncə, Bakı və s. yerlərdə də belə məktəblər meydana gəldi. Bu məktəblərə müxtəlif fabrik və zavodlarda işləyən fəhlələr cəlb olunurdu. Az müddət ərzində bazar günü məktəbləri əhalinin rəğbətini qazandı. Bakı bazar günü məktəbi özünün təlim müvəffəqiyyəti və şagird çoxluğu ilə Rusiyadakı bazar günü məktəbləri içərisində fərqlənirdi. Bu məktəb nailiyyətinə görə, 1896-cı ildə Nijni-Novqorodda Ümumrusiya sərgisində II dərəcəli, Nuxa bazar məktəbi isə IV dərəcəli diploma layiq görüldü.

Azərbaycanda iqtisadi həyatın inkişafı, sənətkarlığın genişlənməsi ilə əlaqədar olaraq, xüsusi sənət məktəbləri də meydana gəldi. Hələ 1843-cü ildə Nuxada təşkil edilən "Təcrübə ipəkçilik məktəbi" geniş şöhrət tapmışdı. 236 şagirdi olan bu məktəb təkcə Azərbaycanda deyil, bütün Qafqazda ipəkçiliyin inkişafı üçün mühüm əhəmiyyətə malik idi.

1894 - cü ildə Şuşa qız məktəbi Mariinski qız məktəbinə çevrildi. 1895-1896-cı dərs ilində burada 147 nəfər təhsil alırdı. Növbəti qız məktəbi 1895-ci il yanvarın 14-də Gəncə şəhərində meydana gəldi. İlk dəfə cəmi 6 şagirdlə işə başlayan Gəncə "Müqəddəs Nina" qız məktəbi get-gedə inkişaf edərək 1889-cu ildə progimnaziya, 1902-ci ildə isə gimnaziyaya çevrildi. Beləliklə, keçən əsr ərzində Azərbaycanda rus dilində cəmi 4-5 məktəb açılmışdı ki, burada oxuyanlar da əsasən qeyri millətlərin uşaqları idilər. Azərbaycanlılar bu məktəblərin təşkilində yaxından iştirak edir,

maddi kömək edirdilərsə də, orada oxuyan azərbaycanlı qızların sayı çox az idi. Azərbaycan qızlarının cüzi hissəsi evlərdə təşkil edilən məktəblərdə, yaxud da ailənin böyük üzvlərinin yanında bu və ya digər təhsil alırdı.

1876-cı ilin məlumatına görə, Gəncə-İrəvan quberniyaları xalq məktəbləri direksiyası üzrə xüsusi məktəblərdə 647, Bakı-Dağıstan quberniyaları xalq məktəbləri direksiyası üzrə isə 376 nəfər azərbaycanlı qız təhsilə cəlb edilmişdi.

Rus qız məktəblərinin meydana gəlməsi azərbaycanlı qızlarının dünyəvi təhsil ideyasının meydana gəlməsinə xeyli kömək etdi. Bir tərəfdən mütərəqqi rus məktəbi və pedaqoji fikir, digər tərəfdən isə inkişaf etməkdə olan milli mədəniyyətin qüvvətli təsiri və dövrün ictimai-mədəni tələbi azərbaycanlı qızlarının dünyəvi təhsil ideyasını sürətləndirirdi. Bu ideyanın ilk carçıları da Rusiyada təhsil alan azərbaycanlı gənclər oldu.

Qadınların təhsilinə böyük əhəmiyyət verən Teymur Bayraməlibəyov 1917-ci ildə Lənkəranda "Ünas" (qızlar) məktəbinin əsasını qoymuşdur. Teymur bəy Bayraməlibəyovun inqilabi hərəkatda fəal iştirakı bəhanə göstərilərək, o, 1918-ci ildə həbs edilmiş və Bakıya göndərilmişdir. Onun işini qızı- Məryəm xanım davam etdirmişdir. 1918-1921-ci illərdə Lənkəranda fəaliyyət göstərən Qız məktəbinin müdiri olmuşdur.

Məryəm xanım Bayraməlibəyova 1898-ci ildə Lənkəran şəhərində Azərbaycanın görkəmli xalq müəllimi, Qori Müəllimlər Seminariyasının məzunu Teymur bəy Bayraməlibəyovun maarif nurlu ocağında dünyaya gəlmişdir. Məryəm xanım ibtidai təhsilini "Nicat" xeyriyyə cəmiyyətinin hesabına 1905-1911-ci illərdə Bakıda, Hacı Zeynalabdin Tağıyevin qız məktəbində - I rus-tatar qızlar məktəbində almışdır. O, təhsilini davam etdirmək məqsədi ilə 1911-ci ildə "Müqəddəs Nina" qızlar məktəbinə daxil olmuş və 1917-ci ildə bu məktəbin 8-ci pedaqoji sinfini qızıl medalla bitirmişdir. Oxumağa böyük həvəs göstərən Məryəm xanım ali təhsil almaq üçün Moskvaya gedir və tibb institutuna qəbul edilir. Mosk-

vada tibb institutuna daxil olan Bayraməlibəyovanın təhsil xərcləri-ni Bakı milyonçusu - xeyriyyəçisi Murtuza Muxtarov öz üzərinə götürmüşdü. Oktyabr çevrilişi (1917) nəticəsində vəziyyətin dəyiş-məsi ilə əlaqədar vətənə dönmüş və müəllimlik fəaliyyətinə başla-mışdır. Məryəm xanım bu haqda xatirələrində yazır ki, Moskvada 2 aydan artıq qala bilmədim. İnqilabın başlanması ilə əlaqədar olaraq Bakıya qayıtdım. Bakıda qalmaq üçün hər cür imkanın olmasına baxmayaraq, Məryəm xanım Lənkərana gedir. Teymur bəy maarif-pərvər bir xalq müəllimi idi və Məryəm xanımın taleyində böyük rolu olmuşdur. Məryəm xanım atasının yolu ilə gedərək müəllimliyi ömrünün qayəsi olmuşdu. Qadınların təhsilinə böyük əhəmiyyət verən Məryəm xanım Bayraməlibəyova 1918-ci ilin əvvəllərindən atasının səyi ilə 1917-ci ildə Lənkəranda yaradılmış və hələ fəaliyyətə başlamamış "Ünas" (qızlar) məktəbinin müdiri kimi işə başlayır. Məryəm xanım Bayraməlibəyova Lənkəranda 50 uşağın təhsil aldığı ilk müsəlman qız məktəbində dərs deməklə yanaşı, 1921-ci ilədək bu məktəbə rəhbərlik etmiş, dram və xor dərnəkləri təşkil etmişdi. Məryəm xanım həmçinin 1919-cu ildə Lənkəranda ilk qadın Xeyriyyə cəmiyyəti yaratmışdır. Gənc müəllim qısa müd-dət ərzində ev-ev, qapı-qapı gəzib məktəbə 9-12 uşaq toplaya bil-miş və nəticədə, 1918-ci tədris ilində məktəb fəaliyyətə başla-mışdır. Qısa müddət ərzində Lənkəranda 50 uşağın təhsil aldığı ilk müsəlman qız məktəbi Məryəm xanımın rəhbərliyi altında böyük uğur qazanır.

Azərbaycanda mütərəqqi qadın ziyalılarının yetişməsində Lənkəran Müsəlman Qız Məktəbinin özünün xüsusi dəsti-xətti olmuşdur. Böyük maarifpərvər Teymur bəyin səyi və qızı Məryəm xanımın böyük əməyi sayəsində təşkil edilən qız məktəbində ali təhsilli müəllimə Nəsibə Bayraməlibəyova və tibb elmləri namizədi Rahilə Bayraməlibəyova, Azərbaycan Respublikasının xalq artisti, Azərbaycanın ilk opera müğənnisi Həqiqət Pzayeva, əməkdar artistlərdən Münəvvər Kələntərli və Cahan Talışinskaya, Məhbubə Seyidzadə, Dilşad Talışlı, Xanımcan Kərimova, Bacıxanım Axun-

dova, Tacı Zeynalova, Qöncə Axundova, Aliyə Qurbanova, Sərvər Sakayeva kimi tanınmış qabaqcıl ziyalı qadınlar yetişmişlər.

Deyə bilərik ki, dünyəvi qadın təhsili ideyasının irəli sürülməsində ilk təşəbbüs dövrünün məşhur müəllimi və maarifçisi H.Zərdabiyə məxsusdur. Bu ideyanı ilk dəfə H.Zərdabi və onun "Əkinçi" qəzeti irəli sürdü.

Qadınların dünyəvi təhsil ideyası nəticəsiz qalmadı. 1870-ci illərdə azərbaycanlı qızlar üçün ayrıca məktəb açmaq sahəsində ilk təşəbbüs edildi. Bu təşəbbüs H.Zərdabinin həyat yoldaşı Hənifə xanıma məxsus idi.

Həsən bəylə Hənifə xanım Məlikovanın bu təşəbbüsü Qafqazın digər şəhərlərində, ilk növbədə isə Qafqazın həm inzibati, həm də mədəni mərkəzi olan Tiflisdə azərbaycanlı qızlar üçün rus dilində ümumtəhsil məktəb açmaq fikrini gücləndirdi.

Əsrin sonlarına yaxın azərbaycanlı qızları üçün ümumi təhsil məktəbi açmaq fikri daha da gücləndi. Azərbaycan maarifçilərinin qabaqcıl dəstəsi də qız məktəbinin təsirinə böyük əhəmiyyət verir və onu müdafiə edirdilər.

Lakin xəzinədən vəsait buraxılmadığından, ianələrdən toplanan vəsait isə azlıq etdiyindən Tiflis müsəlman qız məktəbinin təsisi bir daha baş tutmadı.

Beləliklə, Azərbaycanın Rusiya tərkibinə daxil olmasından sonra keçən uzun müddət ərzində çar höküməti azərbaycanlı qızları üçün (rus dilində olsa da) nəinki orta, hətta ibtidai məktəb belə açmadı. Azərbaycanlı qızların təhsili sahəsində çarizmin mürtəce siyasətinə baxmayaraq, Azərbaycanın qabaqcıl maarifçiləri qadın təhsilinə böyük əhəmiyyət verir, ayrı-ayrı mütərəqqi müəllimlər qızların məktəbə cəlb edilməsinə səy göstərir, özləri xüsusi qız ümumtəhsil məktəbləri açırdılar.

Çarizmin müstəmləkəçilik siyasətinə baxmayaraq XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvan bölgəsinin bir sıra kəndlərdə qız məktəbləri açılmışdı. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində saxlanılan sənədlərdə Naxçıvan bölgəsində ilk qız mək-

təbinin 1870-ci ildə oktyabr ayının 7-də Əylis kəndində açıldığı göstərilmişdi. Qeyd edək ki, 1 nəzarətçi (müdir), 1 fənn, 1 nəfər isə şəriət müəlliminin pedaqoji fəaliyyətlə məşğul olduğu Əylis qız məktəbində I bölmədə 35, II bölmədə 22 nəfər, III bölmədə isə 10 nəfər şagird olmaqla 67 nəfər qız şagird təhsil almışdır.

Naxçıvanda XIX əsrin sonlarında burada pedaqoji mühit və pedaqoji fikir sürətlə inkişaf edir və yeni mütərəqqi məktəblər, yeni pedaqoji fikirlər yaranmağa başlayırdı. Naxçıvanda maarifçilik və yeni pedaqoji ideyalar böyük şair və pedaqoq, müəllim və məktəbdar Məhəmməd Tağı Sidqinin (1854-1903) əməli pedaqoji fəaliyyəti ilə daha da genişlənmiş və özünün yaratdığı yeni üsullu məktəblər, ədəbi-pedaqoji məclislər Naxçıvan pedaqoji mühitinin mərkəzinə çevrilmişdi. Cəlil Məmmədquluzadə, Qurbanəlibəy Şərifzadə, Cümşüd-Paşa Sultanov, Mirzə Nəsrulla Əmirov, Əbülqasım Sultanov, M.Kəngərli, Eynəlibəy Sultanov, Mirzə Ələkbər Süleymanov və başqaları M.T. Sidqinin ən yaxın məsləkdaşları olmaqla Naxçıvan pedaqoji mühitinin aparıcı qüvvələri idilər. Onların bir çoxu Rusiyada, Qoridə təhsil almış, rus dilini bilən qabaqcıl ziyalılar idilər. M.T.Sidqi, Cümşüd Paşa Sultanov, Əliməmməd Xəlilov kimi mütərəqqi ziyalılar rus dilli mətbuatı oxumaqla yanaşı, müzakirələr aparır, əhali arasında maarifləndirici işlər görür, ədəbi-bədii məclislər qurur, qabaqcıl ziyalıların iştirakı ilə teatr tamaşaları göstərirdilər.

XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvan bölgəsində qadın azadlığı və təhsili məsələlərini görkəmli mütəfəkkirlərimizdən Eynəli bəy Sultanov, Cəlil Məmmədquluzadə, Məhəmməd Tağı Sidqi, Məmməd Səid Ordubadi, Hüseyn Cavid, Əbülqasım Sultanov, Leyla xanım Şahtaxtınski, Nazlı xanım Tahirova (Nəcəfova), Xədicə Səfərəliyeva (Cəfərova) və başqaları çox ciddi milli və ictimai məsələ kimi irəli sürmüşlər. Bu maarifpərvərlərin qadın azadlığı və təhsili uğrunda apardıqları mübarizə təkcə praktik fəaliyyətlə və ədəbi-bədii yaradıcılıqla kifayətlənməmişdi. Onlar eyni zamanda qəzet və jurnallarda dərc etdirdikləri elmi-publisistik

məqalələrində qadın təhsili probleminin bilavasitə nəzəri məsələlərini işıqlandırmağa çalışmışlar. Belə bir dövrdə görkəmli maarifpərvər ziyalı, 1883-cü ildə Tiflis klassik gimnaziyasının məzunu Eynəlibəy Sultanov qadın azadlığı və bərabərliyini irəli sürən ilk mütərəqqi şəxsiyyətlərdən biri kimi irəli çıxmışdı. Onun "Qadın", "Sahub və əşya" kimi məqalələri, xüsusilə "Tatarka" ("Azərbaycan qadını") adlı iki pərdəli komediyası Naxçıvan qadınlarının hüquq və azadlığına həsr edilmişdi. E.Sultanovun bu istiqamətdə fəaliyyəti Naxçıvan dindarlarının qəzəbinə səbəb olmuş və özünün də yazdığına görə hər gün məscid minbərindən ona lənətlər yağdırırdılar.

Cəlil Məmmədquluzadə yazdığı felyeton və hekayələrində qadınların ağır vəziyyətini daim diqqət mərkəzində saxlamışıdır. O, qadınların savadsızlığını "Molla Nəsrəddin" jurnalının 1909-cu il tarixli 28-ci sayında deyilirdi: "Biz müsəlmana fərzdir, nəinki, oğlan məktəbi, xeyir, bizlərə vacibdir qız məktəbi, çünki balalarımızın tərbiyəsi anaların əlindədir...".

Dahi mütəfəkkir Hüseyn Cavid də yazdığı əsərlərində qadın təhsili məsələlərinə toxunmuşdu. O, qızlarımızın təhsil almasını dönə-dönə qeyd etmiş, oğlanlarla yanaşı qızların da məktəblərdə oxumalarının vacibliyini bildirmişdir. O, yazırdı: "Bir çox mübarək ağızlar, qadınların tərbiyə görür-görməz itaətsiz olacaqlarını söyləməkdən çəkinməyirlər, əcaba məktəb, təlim və tərbiyə insana itaətsizlikmi öyrədir? Yaxud insaniyyət, şəfqət, mərhəmət, nəzafətövlada məhəbbət, böyüklərə itaət nə olduğunu təlim edər? Bir də cəbrə təzyiqə nə hacət, arıq iyirmi ilə otuzu hesab etmək üçün anaların təsbihləri ilə, qızların barmaqlar ilə komediya çıxarmaları çəkilir bir dərd deyildir. Azacıqda utanıb qızarmalıyıq"

Naxçıvanda qadınların təhsil məsələsi digər naxçıvanlı mütəfəkkirlər kimi, Qori Müəllimlər Seminariyasının naxçıvanlı məzunu Əbülqasım Sultanovu da düşündürmüşdü. O, qadınların təhsil almaları haqqında belə demişdi: "Hər bir ata və ana gərək axırıncı köynəyini satıb balalarına elm versin. Çünki elm insanı adam edib, hörmət sahibi edər. Qızlar elm öyrənməlidirlər ki, ana olanda öz

balalarına tərbiyə verib pərvəriş etsinlər”.

Bakıda və Tiflisdə fəaliyyət göstərən Azərbaycan maarifçilərindən fərqli olaraq Naxçıvan ziyalıları qadınların azadlığı və maariflənməsi uğrunda mübarizəni daha mürəkkəb və çətin şəraitdə aparırdılar. Belə ki, burada onlar bir tərəfdən çarizmin Azərbaycanda yeritdiyi milli ayrıseçkilik siyasətinə qarşı mübarizə aparır, digər tərəfdən xalqa maarifin, mədəniyyətin əhəmiyyətini başa salır, qadınların azadlığa çıxması, onların təhsillənməsi zəruriliyini inandırır, eyni zamanda da xürafatçı, fanatik din xadimlərinə qarşı müqaviməti qırırdılar.

Məhz belə bir dövrdə M.T.Sidqi Naxçıvanda “Üsuli-cədid” təliminin əsasını qoyan bir xalq müəllimi, bir məktəbdar kimi 1892-ci ildə Ordubadda “Əxtər” (Ulduz) adlı yeni üsullu milli məktəb açdı ki, bu məktəb xalqın irəliyə, tərəqqiyə sürətli inkişafında böyük rol oynadı və Sidqinin də geniş pedaqoji fəaliyyəti elə buradan başladı. 1894-cü ildə Sidqi yeni üsullu məktəb yaratmaq üçün Naxçıvan xanının dəvəti ilə Naxçıvana gəldi və Sidqi 1894-cü ildə Naxçıvanda Ordubadda açdığı məktəbə bənzər “Məktəbi tərbiyə” yəni- “Tərbiyə məktəbi”ni də burada  açdı. M.T. Sidqi hələ bu məktəblərin açılması ilə bərabər Naxçıvan qızlarının, qadınlarının təhsilinə xüsusi fikir vermiş, onların azad, təhsilli olmalarına qayğı göstərmiş, qadın hüquqlarının müdafiəsi uğrunda onları mübarizəyə səsləmişdir. Onun qadın məsələsinə aid fikirləri “Əxlaq nümunələri”, “Qızlara hədiyyə” dərsliklərində “Rübabə”, “Sitarə və xalası”, “Analar bəzəyi”, “İki bacının söhbəti”  məqalə və hekayələrində öz əksini tapmışdır.

“İki bacının söhbəti” hekayəsi qızların təhsilə cəlb olunması baxımından çox ibrətamizdur: “Balaca bacım, sən hələ kiçiksən. Elmin məziyyətini və faydasını bilmirsən... İnsanın hər işində və əməlində elmə ehtiyac vardır. İnsanın şərafəti və heyvan ilə insanın təfavütü elm ilən bilinir. Sən elm təhsil elə, təki dünya və axirətdə səadətmənd olasan”.

M.T.Sidqi qızların təhsil alması zəruriliyindən danışmaqla,

yazmaqla kifayətlənməmiş, bu ideyalarını əməli olaraq həyata da keçirmişdir. M.T.Sidqi 1896-cı ildə Naxçıvan qəzasında ilk dəfə olaraq ana dilində müsəlman qız məktəbini açmağa nail olmuşdur. XIX əsrin sonunda Naxçıvan kimi ucqar bir bölgədə, dindar bir yerdə qızlar üçün məktəb açmaq böyük hünər idi. Şəhərin din xadimlərinin, molla və müctəhidlərin hücumlarına baxmayaraq Sidqi öz mütərəqqi fikirlərindən dönməmiş və qız məktəbinin açılmasına nail olmuşdur.

Əsrin sonlarına doğru qadın təhsilinin zəruriyyəti təkcə şəhərlərdə deyil, kəndlərdə də özünü göstərirdi. Bir sıra qabaqcıl kənd müəllimləri dərs dedikləri oğlan məktəblərinə qızları da cəlb edirdilər. Bu məsələdə görkəmli yazıçı və pedaqoq C.Məmmədquluzadənin xidmətləri böyük olmuşdur. Belə ki, 1890-1897-ci illərdə Nehrəm kəndindəki iki sinifli məktəbin müdiri vəzifəsində çalışan C.Məmmədquluzadə qızların məktəbə cəlb edilməsinə, onların maariflənməsinə xüsusi səy, diqqət və qayğı göstərirdi.

Xalqın maariflənməsində, tərəqqisində, oğlan və qızların təhsilə cəlb olunmasında böyük demokrat yazıçı C.Məmmədquluzadə həm əsərləri ilə, həm də əməli pedaqoji fəaliyyəti ilə, bir yazıçı, bir xalq müəllimi, bir fəal maarifçi, ziyalı kimi geniş fəaliyyət göstərirdi. O çalışdığı Nehrəm kənd məktəbində təlim-tərbiyə işlərini yenidən qurmuş, maarifçilik hərəkatını genişləndirmiş, məktəb təhsilini xeyli dərəcədə inkişaf etdirmiş və qadın trəhsilini genişləndirmişdir.

Bu məqsədlə o, ilk növbədə məktəbdə şagirdlərin sayını xeyli artırmışdı. Cəmi 26 nəfər şagirdlə qəbul etdiyi Nehrəm məktəbində təhsil alanların sayı 1896-cı ildə 40 nəfərə çatdırılmışdı. 1896-cı ildə Cəlil Məmmədquluzadə çalışdığı Nehrəm məktəbində 8 nəfər qızı, o cümlədən bacısı Səkinə Məmmədquliyevanı təhsilə cəlb etmişdi .

Nehrəm kimi ucqar, geri qalmış, dindar bir kənddə qız sinfinin açılması böyük ictimai-siyasi hadisə idi. Bütün bunlar Azərbaycanda qız təhsili sahəsində atılan ilk addımlardan biri idi.

Nehrəmdə oxumağa gələn Şərəbanı Adıgözəlova, Səkinə Cahangirova, Ümbül Qazıyeva, Səkinə Məmmədquliyeva, Xədicə Mehdixanova, Zəhra Mehdiyeva, Səkinə Mırzəməmmədova, Mina Mirzəməmmədova (Yenə orada) bəlkə müsəlman dünyasında, yaxud cəmi Qafqazda məktəbə ayaq basan ilk müsəlman qız şagirdlər idilər. Buna görədir ki, Xalq Məktəbləri Direktorluğu özünün xüsusi raportu (№ 172) ilə "Müsəlman qızları arasında savadı yaymaq üçün göstərdiyi qayğıkeşliyə görə" C. Məmmədquluzadəyə "səmimi təşəkkürlərini bildirməyi" özü üçün "xoş bir vəzifə" hesab etmişdi.

Naxçıvanda qadın təhsili ilə bağlı bir maraqlı fakt da M.S.Ordubadinin "Qanlı sənələr" əsərində öz əksini tapmışdır. Əsərdə göstərilir ki, Naxçıvan ziyalısı Məmmədqulubəy Kəngərli öz şəxsi hesabına 1901-ci ildə Qafqazda ilk dəfə olaraq "Leyli" qız məktəbini təsis etmişdir. Bu məktəb ibtidai təhsil deyil, gimnaziya tipli olaraq yüksək təhsil vermiş və buranı bitirənlər universitetə qəbul oluna bilərdilər. "Leyli" qız məktəbində oxuyanların hamısı azərbaycanlı qızlar idilər.

Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində saxlanılan sənədlərdə 1904-cü il oktyabr ayının 10-da Naxçıvanda ilk rus-Tatar (Azərbaycan) qız məktəbinin də açıldığı göstərilir. Naxçıvan rus-Tatar (Azərbaycan) qız məktəbi Naxçıvan şəhər sakini Mehdi xan Zeynalabdinbəyovun evində açılmışdır. Arxiv sənədlərindən məlum olur ki, müdiri Mariya Blasova olan Naxçıvan rus-Tatar (Azərbaycan) qız məktəbinə ilk dəfə 4 nəfəri zadəgan, 1 nəfəri isə ruhani silkinə məxsus olmaqla cəmi 36 nəfər qız uşağı qəbul olunmuşdur.

Hacı Molla Sadıq Əliyevin şəriət və Azərbaycan dili dərslərini tədris etdiyi Naxçıvan rus-Tatar (Azərbaycan) qız məktəbinə 1904-1905-ci tədris ilində 65 nəfər qız uşağı qəbul edilmişdir.

XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvan bölgəsində qadın təhsilinin inkişafında Azərbaycan İnqilab Komitəsinin 25 dekabr 1920-ci il tarixli dekreti ilə, 1921-ci il mart ayının 1-də Bakı

şəhərində açılmış “Birinci Məktəbəqədər Qadın Tərbiyə İnistitutu”nun da rolu olmuşdu. “Birinci Məktəbəqədər Qadın Tərbiyə İnistitutu” Azərbaycan Xalq Komissarları Sovetinin 29 noyabr 1922-ci il tarixli dekreti ilə Qadın Pedaqoji İnstitutuna çevrilmişdi. Direktorluq vəzifəsi Sara xanıma tapşırılan bu institut 1923-1924-cü tədris ilində 17 nəfər qadınla ilk buraxılışını vermişdi.

XX əsrin əvvəllərində Naxçıvanda qadın təhsilinin tarixindən danışarkən bu diyarda qadınlar və qızlar arasında maarifin və mədəniyyətin yayılmasında müstəsna xidmətləri olmuş Nazlı xanım Tahirova-Nəcəfovanın xüsusi yeri olmuşdur.

Nazlı xanım Tahirova –Nəcəfova 1890-cı ildə Naxçıvan şəhərində anadan olmuşdur. O 1908-ci ildə Bakıda Tağıyevin rus-müsəlman qız məktəbini bitirdikdən sonra 1909-cu ildə İrəvanda Haşım bəy Nərimanbəyovun rus-türk məktəbində ilk müəllimlik fəaliyyətinə başlamış və elə buradaca 1910-cu ildə ilk qız məktəbi təşkil edərək burada dərs demişdir.

Nazlı xanım “Xatirat”ında yazır: ”Günlərim ağır və əzablarla keçirdi. Hər dəqiqəm və saatım ölümlə üz-üzə dururdu. Qızlar dərsdən çıxıb evlərinə gedəndə nələr eşitdiyimi dilimə gətirmək belə istəmirəm. Barmaq silkələyən, hədə-qorxu gələn, söyən arxamca daş atan bir-iki deyildi...” Nazlı xanımın xatiratından görünür ki, həmyerli qız və qadınların təlim-tərbiyəyə yiyələnməsi, onların maarif və mədəniyyətə qovuşması, onun üçün inqilaba qədərki Naxçıvanda can bahasına başa gəlmişdi.

XIX əsrin sonu XX əsrin əvvəllərində Naxçıvan bölgəsində yenicə yaranmış məktəblər şəbəkəsini genişləndirmək məqsədilə Xalq Maarif Nazirliyi məktəblərə qadın müəllimələri göndərmişdi. Bu qadın müəllimələrinin əsas məqsədi dərs demək və işlədikləri qadınlar arasında mədəni-maarif işlərini yaymaqdan ibarət idi. Buna görə də Nazlı xanım öz yetirmələrində olan Cənnət Talıbzadəni, Nazlı Şəfibəyovanı, Nərgiz Məmmədzadəni, Xədicə Səfərəlibəyovanı, Tərlan Səfərəlibəyzadəni, Asya Vəzirzadəni və başqalarını maarif işinə cəlb etmişdir.

Naxçıvan qadınlarının maariflənməsində mühüm rol oynamış şəxslərdən biri də Xədicə Səfərəliyeva (Cəfərova) olmuşdur. İlk təhsilini Naxçıvanda alan, sonra isə Bakıda Tağıyevin qız məktəbini bitirən X.Səfərəliyeva bacısı Tərlan xanımla Naxçıvanda öz ata evində iki otaq ayıraraq, şəhər qızları üçün məktəb təşkil etmiş, dörd il ərzində onlar 31 nəfər qız uşağına savad öyrətmişdir. Sonralar Naxçıvanın qabaqcıl qadınlarından olan B.Kəngərli, X.Mahmudova, S.Novruzova, A.Kələntərli ilk təhsillərini Xədicə Səfərəliyevanın qız məktəbində almış və Naxçıvanda müəllimlik etmişlər.

Qadın müəllimlərinin hazırlanmasında Naxçıvan və Ordubad pedaqoji texnikumları, Naxçıvan Müəllimlər İnstitutu mühüm rol oynadı. Kəndli gənclər məktəbləri (1930), fəhlə fakültələri (1930), sənət məktəbləri, kolxoz məktəbi, kommunist darülfünunu və başqa tədris müəssisələrini bitirmiş qadınların bir çoxu kəndlərinə gedərək qızların məktəbə cəlb edilməsində öz səylərini əsirgəmirdilər. Məsələn, Ordubad pedaqoji texnikumunun məzunu Tovuz Sadıqzadə texnikumu bitirdikdən sonra rayonun bir çox kəndlərində müəllim, məktəb direktoru, rayon xalq maarifi şöbəsinin müdiri işləmişdi.

XX əsrin 20-30-cu illərində naxçıvanlı qadınlar ictimai həyatın ən müxtəlif sahələrində mühüm rol oynasalar da onların xalq maarifi sahəsində, pedaqoji sahədə apardığı iş daha geniş və əhatəli olmuşdu. Çox ağır və mürəkkəb şəraitdə, qadın azadlığının əleyhdarlarının sərt müqaviməti ilə rastlaşdığı bir dövrdə bu müəllimlər gecəni – gündüzə qataraq yetişən nəslə təlim-tərbiyə vermiş, qız uşaqlarını məktəbə cəlb etmiş, yaşlı qadınların savadsızlığını ləğv etmişdilər.

## 7.4. HACI ZEYNALABDİN TAĞIYEVİN MAARİFÇİLİK FƏALİYYƏTİ VƏ İLK QIZ MƏKTƏBİNİN YARANMASINDA XİDMƏTLƏRİ

Şimali Azərbaycanda XIX əsrin sonunda kişi təhsili ilə yanaşı, qadın orta təhsili də inkişaf etməyə başlayırdı. 1874-cü ildə Azərbaycanda 1883-cü ildən sonra Mariinskaya adını almış ilk qız gimnaziyası açıldı. Bakı quberniyasında XIX əsrin sonunda 4915 şagirdin, o cümlədən, 64 qızın təlim keçdiyi 245 məktəb fəaliyyət göstərirdi. Eyni zamanda Yelizavetapol quberniyasındakı 268 məktəbdə 4384 şagird, o cümlədən, 145 qız oxuyurdu.

Ən iri sənayeçi və messenat H.Z.Tağıyevin geniş və çoxcəhətli xeyriyyəçilik fəaliyyəti geniş yayılmışıdr. Bakı inşaat-texniki və Bakı kommersiya məktəblərinin, Bakı Marinskaya qadın gimnaziyasının fəxri himayəçisi olan H.Z.Tağıyev Bakı Aleksandrinskaya adını almış ilk rus-müsəlman qız məktəbini açmışdı ki, bu onun maarif sahəsindəki fəaliyyətinin tacı sayılır.

H.Z.Tağıyevin qətiyyəti və inadı, həmçinin müdrikliyi və bakılılar arasındakı nüfuzu, eləcə də onun vəsaiti qız məktəbinin açılması məsələsini sona çatdırmağa imkan verdi. Bu yolda Tağıyev yerli hakimiyyətin gizlin narazılığını və həm də şəhərin ortodoksal dairələrinin açıq müqavimətini dəf etməli oldu.

Belə ki, 24 aprel 1896-cı ildə Qafqaz Tədris Dairəsinin nəzarətçisi K.P.Yankovskiyə ünvanladığı məktubda o, qız məktəbinin açılışını II Nikolayın taxta çıxmağına həsr etdiyini elan etdi. Eyni zamanda H.Z.Tağıyev qız məktəbinə imperatriçə Aleksandra Fyodorovanın adını verərək – onu "Aleksandrinskaya" adlandırmağı vəd etdi. Beləliklə azərbaycanlı qızlar üçün ilk qız məktəbinin açılışına icazə verildi.

İkinci maneəyə gəldikdə isə burada məsələ daha çətin idi, çünki müsəlman qızları üçün məktəbin açılmasını ruhanilərin müəyyən hissəsinin etirazını dəf etmək lazım idi.

Sonralar tanınmış Azərbaycan artisti Sidqi Ruhulla Axundo-

vun xatırladığı kimi, əvvəl H.Z.Tağıyev quberniyanın qazisi Mirməhəmməd Kərimin və Axund Mir Abuturabın, həmçinin bir neçə mollanın razılığını ala bildi. Daha qatı yola gəlməyənləri inandırmaq üçün isə H.Z.Tağıyev molla Mirzə Məmmədoğlunu "diplomatik səyahət" olaraq Mədinə, Xorasan və Bağdad şəhərlərinə göndərdi və o da ən iri, hamının hörmət etdiyi müctəhidlərlə (şiələrin mənəvi liderləri) görüşərək onlardan müsəlman qızları üçün məktəb açılmasına yazılı icazə ala bildi.

1896-1901-ci illər ərzində Bakının mərkəzi küçələrindən birində, hazırki Əlyazmalar Fondunun binasında məktəbin tikintisi davam etdirildi və bu tikinti 183 min rubla başa gəldi.

H.Z.Tağıyev məktəbə Həsənbəy Məlikovun (Zərdabi) həyat yoldaşı Hənifə xanım Məlikovanı direktor təyin etdi. Paytaxt qəzetləri vasitəsi ilə Tağıyev bütün müsəlman qadın müəllimlərinə ilk müsəlman qadın məktəbinə kömək çağırışı ilə müraciət etdi.

Qızları həmin məktəbə 7 yaşdan başlayaraq 4 il müddətinə qəbul edirdilər. Məktəbdə tərbiyə müsəlman ailəsinin adət və ənənələri üzərində qurulmuşdu. Görkəmli messenat H.Z.Tağıyev o zamanın təhsil sistemini, o cümlədən, ən tanınmış tədris müəssisələrinin strukturunu dərindən öyrənmiş və burada Şərqin özünəməxsus xüsusiyyətlərini nəzərə almışdı.

Məktəbdə Himayədarlar Şurası təşkil olundu. Şuraya Tağıyev və onun həyat yoldaşı Sona xanım Tağıyeva (Ərəblinskaya) başçılıq edirdi. Nizamnaməyə əsasən, bu vəzifə nəsildən-nəslə irsən keçməli idi. Nizamnamədə göstərilirdi ki, həmin məktəbin müdiri və müəllimləri mütləq azərbaycanlı qadınlardan təşkil olunmalıdır.

Məktəbin tədris proqramına: Azərbaycan və rus dili (dil, ədəbiyyat), hesab, tarix, coğrafiya, təbiətşünaslıq, hüsnxət, nəğmə, musiqi, etika, o cümlədən, anatomiya, tibbin əsasları və şəriət daxil idi. Qafqazda ilk dəfə olaraq müsəlman qızlarının Azərbaycan və Rusiya mədəniyyəti ilə tanış olması məqsədilə təsis edilən və ilk Aleksandriya rus-müsəlman qadın məktəbinin 1901-ci il oktyabrın 7-də təntənəli açılışı oldu. Bu Şərqdə müsəlman qızları üçün açılan

ilk dünyəvi məktəb oldu.

20 nəfər şagird üçün nəzərdə tutulmuş məktəb pansionu açılış günü 35 pulsuz məktəbli, 15 nəfər isə ildə 100 rubl ödəməklə gəlibgedən tələbə qəbul etdi. Qızlar Qafqaznın hər yerindən, Şimali Qafqazdan qəbul olunurdu. Bakıda Tağıyev qız məktəbinin açılması Azərbaycan ziyalı cəmiyyəti tərəfindən böyük heyranlıqla qarşılandı.

Qazan müsəlmanlarının H.Z.Tağıyevə göndərdiyi məktubda deyilirdi: “Bu ilk məktəbdir ki, bütün şəriət qaydalarına riayət olunmaqla müsəlman qızları Qərb sivilizasiyası ilə tanış olacaq və bu təhsil məbədində müsəlman əhalisinin müxtəlif təbəqələri qarşılaşacaq və ümuminsani qardaşlıq və məhəbbət hisslərinə malik olacaqdır”.

Bakı qız məktəbinin təşkili Azərbaycanın bütün ziyalılarını sevindirdi. Onlar əsrlərdən bəri həsrəti çəkilən bu maarif ocağının meydana gəlməsini alqışlayır, ona mənəvi kömək edirdilər. Məktəbin açılışı münasibəti ilə göndərilən teleqramlar, ünvanlar onun böyük həyati əhəmiyyətinə əyani sübut idi.

Müsəlman ziyalı qadınları məktəbin açılışını öz həyatlarının mədəni bayramı, bütün bayramlardan və şənliklərdən ən əzizi sayırdılar. Teleqramlardan birində deyilirdi: “Biz nəslimizin və gələcəyimizin yaxşı olacağını görüb sevinirik və şadlığımızdan coşuruq”.

O vaxtlar Bakıda olmuş fransız səyyahı Baron-debay 1901-ci ildə Parisdə nəşr etdirdiyi “Rusiyanın icmalı” adlı əsərinin “Tatarlar arasında. Dərbənddən Yelizavetaroladək” fəslində ilk rus-Azərbaycan qız məktəbinin açılışını yüksək qiymətləndirərək yazırdı ki, bu ideya müasirliyi ilə yanaşı, həm də maraqlı və təsirləndiricidir. O, böyük çətinliklər hesabına meydana gəlmişdir.

Bakıda qız məktəbinin açılışı Azərbaycan maarifinin çox mühüm hadisələrdən biri idi. Təkcə Azərbaycanda deyil, bütün Qafqazda və Rusiyada nəşr edilən bir sıra dövrü mətbuat Bakı qız məktəbinin açılışını böyük ruh yüksəkliyi ilə qarşıladı.

Qız məktəbində rejim belə idi: Şagirdlər saat 7 –də yuxudan

dururdular. Saat 8-də onları yeməkxanaya, çay içməyə aparırdılar. 8.30-da dərslər başlanırdı. Dərslər I və II şöbələrdə (siniflərdə) 13.20-dək, II və IV şöbələrdə isə 14.20-dək davam edirdi. Hər dərs 50 dəqiqə olurdu. Səhər yeməyi üçüncü dərsdən sonra – 11.20- də verilirdi. 14.20-də başa çatan sonuncu - beşinci dərsdən sonra nahar, ondan sonra isə tənəffüs idi. Şagirdlər məktəbin geniş həyatinə çıxır, bir-birilə oynayır, istirahət edirdilər. 17.00-da onlar dərslərə hazırlaşmaq üçün siniflərə gedirdilər. Saat 19-da çay verilirdi. Saat 20-də aşağı, 21.30-da isə yuxarı şöbələrin şagirdləri yatmağa gedirdilər. Tədris həftəsi şənbə günü başlayır və cümə axşamınadək davam edirdi. İstirahət cümə günü idi.

Aleksandrinski qız məktəbində tədris ili sentyabrın 1-də başlayır, martın 14-də isə sona çatırdı. Fəaliyyət göstərdiyi müddət ərzində təhsil müəssisəsinin şagirdlərinin, pedaqoqlarının sayı xeyli artmış, maddi təchizatı yaxşılaşmışdı. Əgər, 1907 –ci ildə burada 86 qızı oxuyurdusa, 1908-ci ildə onların sayı 100, 1915-ci ildə 89, 1916-cı ildə 104 nəfər oldu və həmin ildə 125-çatdı. 1901-ci ildə məktəb açılanda müdirə ilə birgə müəllimlərin sayı 4 nəfər idi. 1908-ci ildə onların sayı 7, 1912-ci 1913-cü illərdə 8, 1915-ci ildə 11 nəfər oldu. Çoxu H.Z.Tağıyevin dəvəti ilə Rusiyadan, o cümlədən, Gürcüstandan, Litvadan, Özbəkistandan, Dağıstan, Tatarıstandan Bakıya gəlmiş, öz taleləri onun məktəbi ilə Azərbaycanla bağlamışlar.

4 illik Qız Məktəbi iki ildən sonra 5 illik, çox keçmədən 6 illiyə keçdi. Sonralar Hacı banka 100.000 manat 5 faizli qızıl pul verib məktəbi seminariyaya çevitdirmişdi. Təkcə məktəbin binasına tarixi sənədlərə görə, 183.533 manat qızıl pul sərf olunmuşdu. Tədris avadanlığına isə əlavə qızıl pulla 29.000 manat pul xərclənmişdi. Bankda 125.000 manat toxunulmaz kapital 5 faiz gəlirlə saxlanılırdı ki, bu da məktəbin xərclərini təmin etməyə sərf olunurdu. Məktəb seminariyaya çevriləndən sonra vəsait 225.000 manat olmuşdu.

Binanın zirzəmisi Orucov qardaşlarına mətbəə üçün kirayəyə verilmişdi ki, buradan da əldə edilən neçə min manat pul qız

məktəbinin ehtiyacına sərf edilirdi. Həmin məktəbin nəzdində qadın müəllimlər üçün ikiillik hazırlıq kursları da açılmışdı.

Məktəbin əsaslı kitabxanasında 314, şagird kitabxanasında isə 852 adda kitab var idi. Məktəbdə müsəlman şəraitinə, tarixə, coğrafiyaya, riyaziyyata, təbiət elmlərinə, hüsnxətə, rəsmə, musiqiyə və digər fənlərə aid 595 tədris vəsaiti var idi. Onlardan 100-ü əyani vəsait idi.

Aleksandriski məktəbi şagirdlərin uzunmüddətli yaşaması üçün bütün şəraitə, o cümlədən, xəstəxana, mətbəx, camaşırxana, hamam otaqları, sanitar xidmətlərinə malik idi. Məktəbdə xüsusi həkim, feldşer ştatı vardı, pansionda qalan qızların səhhəti daimi nəzarət altında saxlanılırdı.

Məktəbin müəllimləri – Rəhilə Terequlova, Səidə Şeyxazadə, Sara Vəzirova, Nabat Nərimanova, Məryəm Gimbitskaya, Gövhər Qazıyava və başqaları böyük məsuliyyətlə və ən başlıcası isə uşaqlara sevgi ilə yanaşırdılar.

Hənifə Məlikova, Məryəm Sulkeviç, Gülbahar Axriyeva, Ədilə Şahtaxtinskaya, Səlimə Yaqubava müxtəlif illərdə məktəbin müdirləri olmuşlar. Bu müəllimlərin əksəriyyəti sonralar peadqoji fəaliyyətlərini Azərbaycanın orta və ali tədris müəssisələrində fəaliyyətlərini davam etdirmişlər.

1916-cı ildə məktəbin tarixində mühüm bir hadisə baş verdi. Onun statusu ali ibtidai məktəblərə bərabər tutuldu.

Qız məktəbinin binası memarlıq baxımından Azərbaycan memarlığının milli-romantik üslubunda idi. Arxitektoru polyak Qoslavski idi. Əsas fasaddakı divar bir cərgə ağ, digər cərgə isə qızılı daşdan hörülmüşdü.

Məktəbdə təlim-tərbiyə işini nümunəvi qurmaq üçün yaxşı şərait yaradılmışdı. Pansion xarakterli bu tədris ocağında qızlara dünyəvi elmlər öyrədilirdi. Burada tamaşa göstərmək və müsamirə keçirmək üçün xüsusi səhnə və salon da var idi.

Məktəbin pedaqoji kollektivi uşaqların estetik zövqünü və bədii təfəkkürünü tərbiyə etmək, teatra, incəsənətə maraq oyatmaq

üçün yuxarı sinif şagirdlərindən və müəllimlərdən ibarət dram kollektivi yaratmışdı. Bu, Azərbaycanda ilk qız dram kollektivi idi. Həmin kollektivə azərbaycanlı qadınlar arasında teatr və dramaturgiya aləminə ilk qədəm qoymuş Səkinə xanım Axundzadə və Azərbaycanın ilk publisist qadını Şəfiqə xanım Əfəndizadə rəhbərlik edirdilər. Onlar istedadlı qızların və müəllimlərin köməyi ilə Azərbaycan yazıçılarının əsərlərini səhnələşdirir və həmin tamaşaları Novruz bayramında, təntənəli gecələrdə valideynlərə göstərirdilər.

Azərbaycan qadın təhsili yolunda mayak kimi işıq saçan bu məktəbin 1906-cı ildə ilk buraxılışı mədəni bir hadisəyə çevrilmişdi. İmtahan verən 15 nəfər qızın hamısı öz cavabları ilə müəllimlərini fərəhləndirmişdi. Şagirdlər istər Azərbaycan, istərsə də rus dilindən imtahanları əla qiymətlərlə vermişdilər. Həmin qızlar bunlardır: Ayna Musabəyova, Fatma Sultanova, Maral Bayraməlibəyova, Xeyransa Axundova, Əminə Məmmədova, Sona Axundova, Nabat Nərimanova, Tura Əfəndiyeva, Tubu Əhmədbəyova, Səyad Usmiyeva, Gülşən Əlibəyova, Kövsər Nərimanova, Səidə Şeyxzadə, Münəvvər Əlibəyova, Nərgiz Sultanova.

Məktəbi ilk dəfə qurtaran qızlara Quran, Lev Tolstoyun, Puşkinin, Qoqolun, Lermontovun əsərlərindən nüsxələr, təzə libas və başqa hədiyyələr verilmiş və bundan sonra hədiyyə vermək ənənəyə, adətə çevrilmişdir.

İran şahı yolüstü Bakıda olanda, onun həyat yoldaşı qız məktəbinə gəlir və hər şagirdə qızıl zəncirdən asılmış bir onluq qızıl bağışlayır; qızlar da bu bəxşişi həmayil kimi boyunlarından asırlar.

Tağıyevin açdığı bu məktəb həqiqətən müsəlman qızlar arasında dünyəvi təhsilin ilk qaranquşu oldu. 1901-ci ildə İrəvanda, 1902-ci ildə Gəncədə, 1907-ci ildə Nuxada və Ərəşdə, 1909-cu ildə Bakıda rus-Azərbaycan qız məktəbləri açıldı. Onların ardınca Naxçıvanda, Ağdamda Şuşada, Şamaxıda, hətta bir çox kəndlərdə - Zəyəmdə (Göyçay qəzası), Salahlıda (Qazax qəzası), Balaxanıda (Bakı qəzası) və s. yerlərdə qız məktəbləri yarandı.

Qız məktəbini qurtaranların bir çoxu sonralar xalqımızın azad-

lıq mübarizəsində və mədəniyyətinin inkişafında görkəmli fəaliyyət göstərmiş, öz müəllimləri ilə birlikdə Azərbaycan qadınlarının təhsili uğrunda fədakarlıqla çalışmışlar.

Müsəlman qız məktəbini bitirən şagirdlər xüsusi imtahan verməyin Xalq Maarif Nazirliyindən ibtidai siniflərdə, habelə kənd və şəhər məktəblərində dərs demək hüququnu verən şəhadətnamə ala bilərlər.

Məzunların bir qismi rus gimnaziyalarında imtahan verərək müəllimlik hüququ qazanmış və məktəbin özündə dərs deməyə başlamışdır. Mina Məmmədzadə, Şərabanı Şabanova və Nabat Nərimanova belə müəllimlərdən idilər.

Azərbaycanın bir çox qabaqcıl qadını, o cümlədən, "Müqəddəs Nina" məktəblərində, gimnaziyaların təhsil almış Ədilə xanım Şahtaxtinskaya, Gövhər xanım Qazıyeva, Gülbahar xanım Axrıyeva, Sabirə xanım Əbdürrəhmanova, Mavilə xanım Şərabçıyeva və başqaları bu təhsil ocağında azərbaycanlı qızların təlim-tərbiyəsi qayğısına qalmışlar.

Tağıyevin qız məktəbi 1918-ci ilə qədər fəaliyyət göstərdi və çoxlu sayda ali təhsilli intellektual şəxsiyyətlər pleyadası yaratdı. Bakıda bolşeviklərin və daşnakların törətdiyi qanlı cinayətlər, mart soyqırımı məktəbin də bağlanmasına səbəb oldu.

H.Z.Tağıyevin Bakıda Qız məktəbindən başqa, Əhmədli kəndində də ibtidai məktəb təsis etmişdir. Bu məktəb toxuculuq fabrikində işləyən fəhlələrin uşaqları üçün nəzərdə tutulsa da, məktəbin qonşuluğunda yaşayanlar da bu məktəbdə oxuya bilərdilər. Dərsləri 1904-cü il oktyabrın 1-də keçirmək qərara alınsa da, məktəbdə dərslər dekabrın 1-də başlanmışdır. Amma məktəbin rəsmi açılışı 1905-ci ilin aprelində təşkil olunmuşdur. Məktəbin ilk direktoru Qafqaz Müəllimlər Seminariyasının 1896-cı il məzunu, Qarabağın Gülablı kənd məktəbinin direktoru Əbdülkərim bəy Vəlibəyov olmuşdur.

1924-cü ildə Hacı Zeynalabdin Tağıyev vəfat etdi. Ölümündən 28 il əvvəl, məktəbin təsis olunması barədə xahişlə müraciət

edəndə, o demişdir: “Məktəb təhsili yolu ilə müsəlmanları öz insan hüquqlarını dərk etməyə çalışacağıq”.

**Hacı Zeynalabdin Tağıyevin maarif və mədəniyyətimizin inkişafı tarixində mühüm xidmətlərindən biri də müqəddəs dini kitabımız olan Qurani-Kərimin təfsirinin ana dilimizə tərcümə etdirməsidir.** Belə ki, o XX əsrin əvvəllərində 1907-ci ildə müqəddəs Qurani-Kərimin təfsirini Bakı Quberniya Qazisi Məhəmməd Kərim Cəfərzadə və məşhur din xadimi Axund Əbu Turaba tərcümə etdirmişdir. Bu təfsir üç cilddə - “Kəşfül- Həqayiq” (“Həqiqətlərin Kəşfi”) adı ilə “Kaspi” mətbəəsində çap edilmişdir.

H.Z.Tağıyev üç cilddə nəşr etdirdiyi bu müqəddəs kitabı 1907-ci ildə bir nüsxəsini türk sultanı Sultan Əbdül Həmidə hədiyyə olaraq göndərmişdir. Hacının İstanbula türk Sultanına göndərdiyi bu müqəddəs kitab 4000 altun lirə dəyərində zinətli daşlar və almazlarla bəzədilmişdir.

Sultana göndərilən bu hədiyyə, xüsusi nüsxə olaraq qızıl suyu ilə yazılmış, almaz qaşlarla bəzədilmiş və qalın gümüş qutuda yerləşdirilərək Xeyriyyə Cəmiyyətinin üzvü müəllim və pedaqoq, görkəmli şair, ictimai xadim Abdulla Şaiqin qardaşı Axund Yusif Talıbzadə (Yusif Ziya adı ilə də məşhurdur) tərəfindən 1907-ci ilin 19 avqustunda Sultan Əbdül Həmidə çatdırılmışdır.

Axund Yusif Talıbzadə ali dini təhsilini Bağdadda yüksək təhsil verən mədrəsədə başa vurmuş, sonra, 1899-cu ildə Tiflisə qayıtmış və 1900-cü ilin sentyabrında Bakıya gəlmişdir. Hələ Tiflisdə yaşadığı zamanlardan yaxşı tanıdığı Nəriman Nərimanovla görüşmüş və onun vasitəsilə neft milyonçusu Hacı Zeynalabdin Tağıyevlə yaxından tanış olmuşdur.

O, 1900-cü ildə Bakıda, “Rus-tatar” məktəbinə şəriət müəlimi təyin olunduqdan sonra Azərbaycan dilinin qrammatikasına aid “Təhsili-qəvaid” (Təhsil qaydaları), (1901) adlı o zaman üçün qiymətli bir kitab da çap etdirmiş, həmin dövrdə N.Nərimanovun “Nadir şah” əsərini fars dilinə çevirmiş və “Müəllimüş-şəriə” (Şəriət müəllimi), (1903, 1908, 1909), “Təəlümüş-şəriə” (Şəriət təlimi)

(1904), "İslam tarixi" (1907), "Həqiqəti-islam". "Hədiyeyi-nisvan" (Qadınlara hədiyyə) (1903), "Türk lisanında sərf və nümunə", "Tərtibi-beyti-nisvan", "İbtidai məktəblər üçün təlimi-əlşəriyyə" əsərlərini yazmışdır.

Məhəmməd Kərim ağa ədəbi fəaliyyətlə də məşğul olmuşdur. O, şərq dillərindən – əsasən ərəb dilindən bir sıra əsərləri Azərbaycan dilinə tərcümə etmişdir.

Böyük ədib və şairimiz Abdulla Şaiq böyük qardaşı Axund Yusif Talıbzadənin Türkiyə səfəri haqqında belə yazmışdır: "Bakı qazisi Mir Məhəmməd Kərim Mir Cəfərzadə Quranı Azərbaycan dilinə tərcümə edib məşhur sərvətdar Hacı Zeynalabdın Tağıyevin pulu ilə çap etdirmişdir. Hacı tərcümənin əlli nüsxəsini qızıl suyu ilə çap etdirib qiymətli cildə tutdurmuşdur. Bu nüsxələrdən birinin cildini qalın gümüşdən yapdırıb ortasına da "La ilahə illəllah, Məhəmməddən Rəsulillah" sözlərini yazdırmış və qardaşım Axund Yusif Talıbzadə vasitəsilə həmin nüsxəni Türkiyə Sultanına hədiyyə göndərmişdir".

Osmanlı arxivində mühafizə edilən yazılı bir sənədə əsasən Axund Yusif Talıbzadə - Xeyriyyə Cəmiyyətinin idarə işlərində vəzifə daşıdığını, ziyalı bir ailədən gəldiyini, Rus ali məktəbindən məzun olduğunu, müsəlman əhalisinin mənən və dinən xilafət məkanına daha qüvvətli bağlanması və onların aydınlanması üçün nəşr etdirdiyi günlük "Təzə həyat" qəzetində yazarlıq yapdığını saray nazirlərinə bildirdikdən sonra, Bakıda İslam Xeyriyyə Cəmiyyətinin qurucusu və rəhbəri olan Hacı Zeynalabdın Tağıyevin təqib etməyə çalışdığı xətti hərəkəti və sıraya yazdığı xüsusi məktubu saray məmurlarına bildirdi. Məktubda yazılmışdı:

1) İndiyə qədər Qafqaz Türkləri yazışmalarında yalnız farscadan istifadə etmişlər. Bundan sonra farscanın yerinə ana dilimiz olan türkcənin istifadə edilməsi və genişləndirilməsini təmin etmək;
2) Məktəb kitablarımızın türkcə yazılmasını təmin etmək;
3) Məktəblərimizin proqramları ilə Osmanlı Maarif proqramları arasında uyğunluğun olmasını təmin etmək;

4) Mərkəzi idarəsi Bolqarıstanın Varna şəhəri ilə İranın Urmiya şəhərlərində yerləşən Emeni-Amerikan və Erməni-Proteston Komitələri Qafqaz və Azərbaycan türklərini xilafət məqamına bağlılıqdan və müqəddəs qayə olan İslam ittihadından uzaqlaşdırmaq üçün ərəbcə, türkcə, farsca və kürdcəyə vaqif olan ermənilər Qafqaza zərərli nəşriyyatlar soxur və təbliğ edirlər. Bunları bir an öncə təsirsiz hala gətirmək və Qafqaz müsəlmanlarına təsirini önləmək üçün qarşı nəşriyyatda bulunmağımız gərəkir;
5) Qafqazdan İrana, Misirə və Avropaya fərarilik edib, oralarda tutulmayanların bir daha Qafqaza dönmələrinə izin verməmək;
6) Uyğun bilinən məktəb müdirləri və müəllimlərin Osmanlı hökumətindən Qafqaza, onun şəhərlərinə göndərilməsini təmin etmək;
7) Dini kitabların və təfsirlərin, peyğəmbərimizin hədisləri, əxlaqi kitablar və bu mövzuda yararlı təmimlərin yayınlanmasına rəvac vermək.

Axund Yusif Talıbzadə Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin və onun sədri H.Z.Tağıyevin həyata keçirmək istədiyi əsas məsələləri bu şəkildə saray məmurlarına izah etdikdən sonra Qurani Kərimin Hacı Zeynalabdın Tağıyev tərəfindən hazırlatdırmış üç cildlik türkcə təfsirini, onun (H.Z.Tağıyevin) yazdığı bir məktubla birlikdə, Osmanlı Dövlətinin Padşahı II Sultan Əbdülhəmidə verilməsi üçün Sədarət məqamına təqdim edilmişdir.

Saray məmuru Sultan həzrətlərinin hüzuruna çıxaraq qonağı təqdim etmiş, məramını bildirmiş, Axund Yusif Talıbzadə Quranı Türk Sultanına təqdim etmiş, Sultan Qurani-Şərifin təfsirini öpərək qonağı hörmətlə qəbul etmişdir.

Abdulla Şaiqinin verdiyi məlumata əsasən Axund Yusif Talıbzadə Sultan tərəfindən yüksək səviyyədə qarşılanmış Sultan onu yeməyə dəvət etmiş və Sultan Əbdül Həmid Axund Yusif Talıbzadəni hökumətin ən yüksək ordeni ilə mükafatlandırmışdır. Belə bir orden Axund Yusif Talıbzadə vasitəsilə Hacı Zeynalabdın Tağıyevə də göndərilmişdir.

Mənbələrdən məlum olmuşdur ki, Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin Axund Yusif Talıbzadə vasitəsilə göstərdiyi səylərə cavab olaraq 1907-ci ildən etibarən Osmanlı Türkiyəsindən Azərbaycana müəllimlər, din adamları, dini kitablar və kitabxanalar, mətbəə ləvazimatı göndərilmiş, Qafqaz müsəlmanları ilə Osmanlı Türkiyəsi arasında maarif və mədəniyyət sahəsində sıx münasibətlər qurulmuşdur.

## TAPŞIRIQLAR

1.Azərbaycanın görkəmli şəxsiyyətləri qadın təhsili haqqında
2. Azərbaycanda qadın təhsilinin təşəkkülü və inkişafı
3. Azərbaycanda ilk qadın pedaqoji kadrları
4. Cəlil Məmmədquluzadənin, M.T Sidqinin qadın təhsili ilə bağlı fikirləri və əməli fəaliyyətləri.
5. Hacı Zeynalabdin Tağıyevin təsis etdiyi Qız məktəbinin yaranması və inkişafı
6. Azərbaycan Qadın Xeyriyyə Cəmiyyətləri

## ƏDƏBİYYAT

1. Hacıyev İ.M. Böyük Vətən Müharibəsi illərində Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında qadınların iştirakı. Tarix elmləri namizədi dis. avtoreferatı. Bakı, 1991.
2.Abbasova S. Naxçıvan Muxtar Respublikasında qadın hərəkatının inkişaf tarixindən. Bakı, 2007.
3. Hüseynzadə R. L Ailə pedaqogikası. Dərslik. Bakı: ADPU, 2015

# VIII FƏSİL. XIX ƏSRİN SONLARINDA VƏ XX ƏSRİN II YARISINDA AZƏRBAYCAN PEDAQOJİ KADRLARININ HAZIRLIĞI MƏSƏLƏLƏRİ

**Əhatə olunan məsələlər**

8.1. Azərbaycanda pedaqoji kadrların hazırlanmasının təşəkkülü və inkişafı
8.2. Azərbaycan pedaqoji kadrlarının hazırlığında Qori Müəllimlər Seminariyasının fəaliyyəti.
8.3. Azərbaycan pedaqoji kadrlarının hazırlığında İrəvan Müəllimlər Seminariyasının fəaliyyəti.
8.4. İrəvan pedaqoji mühiti və pedaqoji kadr hazırlığı
8.5. Pedaqoji kadr hazırlığında Müəllimlər Seminariyalarının fəaliyyəti

## 8.1. ZAQAFQAZİYA (QORİ) MÜƏLLİMLƏR SEMİNARİYASI VƏ ONUN AZƏRBAYCANLI MƏZUNLARI HAQQINDA

Azərbaycanda elmi-pedaqoji kadrların yetişməsində, xalqın mədəni inkişafında XIX əsrin 70-ci illərinin ortalarında Gürcüstanın Qori şəhərində yaradılmış Qafqaz (Qori) Müəllimlər Seminariyasının (ZMS) böyük rolu olmuşdur (1875-ci ilin 8 aprelində seminariyanın açılmasına icazə verilmiş, 1876-cı ilin 12 sentyabrında fəaliyyətə başlamış, 1879-cu il 1 sentyabrda seminariyanın Azərbaycan şöbəsi açılmış, 1918-ci ildə isə seminariyanın Azərbaycan şöbəsi Firudin bəy Köçərlinin rəhbərliyi ilə Qazaxa köçürülmüşdür).

Qafqaz Müəllimlər Seminariyası Uşinskinin "Müəllim seminariyasının layihəsi" əsasında fəaliyyətə başlamışdı. Uşinski öz layihəsini irəli sürərkən müəllimin mədəni səviyyəsini yüksəltməkdə, onu inkişaf etdirməkdə həlledici və mühüm rolunu görürdü. O,

nəinki seminariya açmaq, hətta pedaqoji fakültələrin də yaranmasını vacib hesab edirdi. Pedaqoji hərəkat zamanı xalqın maarifə olan böyük ehtiyac və həvəsini görən Uşinski yazırdı ki, yaxşı məktəblər indi hava, su kimi lazımdır. İndi xalq oxumağın zəruriliyini dərk etmişdir. Lakin müəllim yoxdur və yoxdur...

O, bu layihədə hazırlıqlı müəllimlər yetişdirmək zəruriyyətini, seminariyaların qapalı müəssisə olmasını, uşaqların bu seminariyaya müəyyən hazırlıqla gəlməsini və ciddiyyətlə seçilməsini, seminariya həyatının sadə, lakin intizamlı olmasını, burada təlimin son dərəcə dərin olmasını, seminariyaların şəhərə yaxın məsafədə kənd yerlərində açılmasını məsləhət görmüşdü. Qafqaz Müəllimlər Seminariyasının açılmasında da bu tələblər nəzərə alınmış və seminariya o zaman inqilabi qüvvələrin toplaşdığı Bakı və Tiflisdə deyil, məhz Qori şəhərində açılmışdı.

1876-cı ilin ilin mayında "Əkinçi" qəzeti yazırdı: "...Qori şəhərində bir məktəbxana açılıb ki, orada oxuyan şagirdləri müəllim eləsinlər. O məktəbxanada iyirmi nəfər erməni və gürcü padşahlıq xərcinə oxuyacaqlar. İndi "Kafkaz" adlı qəzet yazır ki, doğrudur, müsəlmanların məktəbxanaları üçün müəllimləri oxutmaqdan ötrü əlahiddə məktəbxana açılacaq, amma indi müsəlmanlardan hər kəs xahiş etsə, zikr olan Qoridə açılan məktəbxanaya öz uşaqlarını öz xərcinə qoya bilərmi? Oraya oxumağa girən hər kəs gərək uyezdni şkolada oxumuş ola və özü on altı-on doqquz yaşında ola. Orada üç il dərs deyiləcək"

Hələ 1875-ci il aprelin 8-də Qafqaz Müəllimlər Seminariyasının "Əsasnaməsi"ndəki bir qeyddə deyilirdi ki, müsəlmanlar xüsusi müsəlman müəllim məktəbi açılana kimi bu seminariyaya və onun nəzdindəki məktəbə daxil ola bilərlər.

Qori Müəllimlər Seminariyası ibtidai siniflər üçün müəllim kadrları hazırlamaq məqsədi daşımasına baxmayaraq, Qori Seminariyasının çar Rusiyası dövründə Azərbaycana verdiyi kadrları Rusiya imperiyası dövründə heç bir ali təhsil ocağı verməmişdir. Qori Seminariyasını bitirən nəsil Azərbaycan maarif və mədəniyyə-

tinin, təhsilinin və tərəqqisinin inkişafında müstəsna rol oynamşdır. Seminariyanın məzunları millətimizin azadlıq və istiqlaliyyəti uğrunda apardığı mübarizəsinin önündə getmişlər. Ümumi təhsil rus dilində olsa da, hər millətin öz ana dilini və şəriət dərsini ayrıca keçirdilər, eyni zamanda dünyəvi fənlər tədris edilir və buradan xalqımız üçün milli ruhlu, vətənpərvər pedaqoji kadrlar yetişmişdir.

Seminariyanın Azərbaycan şöbəsi təxminən 40 illik fəaliyyəti dövründə Azərbaycan məktəbləri üçün 300-dən artıq müəllim kadrı hazırlamışdır. Bu məzunlar Azərbaycanın müxtəlif guşələrindən buraya gələrək təhsillərini başa vurmuş, öz yurdlarına dönərək xalqın maariflənməsində, tərəqqi etməsində, təhsilin inkişafında faydalı işlər görmüşlər. Ulu öndərimiz Heydər Əliyevin dediyi kimi, “Bu təhsil məbədi özündən sonra böyük mədəni irs qoymaqla adını Azərbaycan maarifi tarixinə əbədi həkk etmişdir”.

Seminariyanın əsasnaməsində göstərilmişdi ki, Azərbaycan şöbəsinin idarə edən şəxs-inspektor mütləq xristian olmalıdır. Elə bu səbəbdən də şöbənin ilk inspektoru Aleksey Osipoviç Çernyayevski oldu. Aleksey Osipoviç təqribən 10 il Qafqaznın müxtəlif şəhərlərində ibtidai məktəb müəllimi, daha sonra bəzi xalq məktəbləri müdiriyyətlərində məsul işdə çalışır.

1879-cu il, sentyabrın 3-də Mirzə Fətəli Axundovun təşəbbüsü və səyi ilə Qafqaz Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi açıldı. Bu şöbəyə rəhbərlik üçün Aleksandr Osipoviç Çernyayevski dəvət olunur. O böyük pedaqoq Uşinskinin dostu, seminariya direktoru Dmitri Dmitriyeviç Semyonovun zəmanəti ilə Azərbaycan şöbəsinin inspektoru təyin olunur. Azərbaycan şöbəsinin təlim-tərbiyə fəaliyyətinə 14 il ərzində rəhbərlik etdiyi dövrdə onun müəllimlik istedadı daha parlaq şəkildə özünü göstərmişdir.

Şamaxıda anadan olan A.O.Çernyayevski Azərbaycan xalqına, onun böyüyən nəslinin təlim-tərbiyəsinə, müəllim kadrları hazırlığına sözün həqiqi mənasında fədakarlıqla xidmət etmişdir. O, ilk təhsilini Şamaxı qəza məktəbində almış, əmək fəaliyyətinə Mərəzə kənd poçtunda başlamışdı. Mərəzə kəndində ilk xalq məktəbini

yaratmış və müəllimlik vəzifəsini pulsuz olaraq öz öhdəsinə götürmüşdü. A.O.Çernyayevskinin rəhbərliyi altında seminariyanın Azərbaycan şöbəsi ən nümunəvi təhsil ocağına çevrilmişdi.

Seminariyada Azərbaycan şöbəsinin açılması çətinliklə də olsa, təsdiqlənəndən seminariyanın direktoru Dmitri Dmitriyeviç Semyonov A.O.Çernyayevskini yanına çağıraraq ümidsizcəsinə deyir ki, şöbə açılsa da, ərizə verən çox azdı, belə getsə, şöbəni bağlayacağılq. Aleksey Osipoviç isə ümidini üzmür və şöbənin açılması üçün axtarışa çıxır. O, İrəvanda, Naxçıvanda, Gəncədə, Şuşada, Şamaxıda, Qubada, Dərbənddə olur, qapı-qapı gəzib qəza mərkəzlərində seminariyaya uşaq toplayırdı. Valideynlərə təhsilin, maarifin nə demək olduğunu izah edib deyirdi ki, məqsədimiz Azərbaycan xalqının qaranlıq yollarını işıqlandırmaqdır, balalarınızı bu işığı yandırmaqdan məhrum etməyin. Yüz kilometrlərlə yolu faytonla, araba ilə, qatarla, bəzən də piyada gedərək, seminariya üçün tələbə toplamışdır.

Xalqımızın maarif işığını yandıran böyük ziyalı Firidun bəy Köçərli sonralar yazırdı: “Qori Seminariyasının Azərbaycan şöbəsində yaxşı və diqqətəlayiq nə vardısa, hamısı Çernyayevskinin adı ilə bağlıdır. Çernyayevskinin “Vətən dili” dərsliyi bizim məktəblərdə tamam yeni bir dövr açdı”. Çernyayevski “Vətən dili” dərsliyində bir pedaqoq kimi ən yararlı materialları seçmiş, atalar sözündən, tapmacalardan, zərb-məsəllərdən istifadə etmiş və seçdiyi materialları canlı uşaq dilində düzəldib təqdim etmişdir. Bu kitab təkcə seminariyada deyil, ölkənin bütün qəzalarında ibtidai rus-Azərbaycan məktəblərində geniş tədris olunurdu. Çernyayevski kitabı tələbəsi Rəşid bəy Əfəndiyevin xətti ilə daş basmasında nəşr etdirmişdi. Konstantin Uşinskinin “Rodnoe slovo” dərsliyi rus məktəbləri üçün nə qədər əhəmiyyətli idisə, Çernyayevskinin “Vətən dili” kitabı da azərbaycanlılar üçün həmin əhəmiyyətə malik idi.

Çox keçmədən Şuşadan Firudin bəy Köçərli, Səfərəli bəy Vəlibəyov, Baba bəy Səfərəlibəyov, Lənkərandan Teymur bəy Məmmədbəyov, Qazaxdan İsmayıl ağa Vəkilov, Məmmədağa

Şıxlinski, Şəkidən Rəşid bəy Əfəndiyev Çernyayevskinin ümidlərini doğrultdular və onun işini davam etdirdilər. Bu gənclər özlərindən sonra gələnlərin yolunu işıqlandırmaq üçün çətin bir yola çıxdılar. Azərbaycanlı tələbələr bilikləri qavramaqları, gözəl əxlaqları və yüksək mədəniyyətləri ilə seminariyanın xristian tələbə və müəllimlərini heyrətə salmışdılar. Firudin bəy Köçərli tələbə ikən yunan filosofu Sokratın həyatı və əxlaqi görüşlərinə həsr olunmuş "Təlimati-Sokrat" əsərini tərcümə etmişdi. Sonralar Saleh bəy Zöhrabbəyovla birlikdə "Təlimati-lisani-türki" dərsliyini tərtib etdilər. Rus, fars və ərəb dillərini yaxşı bilən tələbə Səfərəli bəy Vəlibəyov isə "Xəzineyi-əxbar" adlı ensiklopedik kitab tərtib etmişdi. İlk buraxılışda təhsilini əla qiymətlərlə bitirdiyinə görə Seminariya Şurası Səfərəli bəy Vəlibəyovu 1881-ci ildə seminariyada ana dili müəllimi saxladı. Firudin bəyi İrəvan gimnaziyasına, Teymur bəyi Lənkərana, Mirzə Əli Məhəmmədi isə Naxçıvana ibtidai rus-tatar məktəbinə müəllim göndərdi. Rəşid bəy Əfəndiyev isə Şəki qəzasının Qutqaşen kəndinə məktəb müdiri kimi göndərildi.

Seminariyanın tələbələri şəriət, rus dili, hesab, tarix, ədəbiyyat, rəsm, həndəsə, Azərbaycan dili fənlərini öyrənməklə bərabər, musiqi və idmanla  da məşğul olurdular. Seminaristlər bostançılığı, bağçılığı, ipəkçiliyi, əkinçiliyi və arıçılığı da öyrənirdilər. Seminariyada teatr tamaşaları, kitab müzakirələri, təntənəli gecə və səhnəciklərin təşkil edilməsi, digər məktəblərdə oxuyan qızlarla birlikdə keçirilən tədbirlər semnaristlərin formalaşmasında mühüm rol oynayırdı. Seminariyada şagirdlərin və tələbələrin səliqəli, nəzakətli, özünə və başqalarına qarşı diqqətli olmaq kimi etik qaydalara riayət etmələrinə xüsusi fikir verilirdi.

Qori seminariyasında Azərbaycan dili və sünni təriqəti üzrə şəriət müəllimi vəzifəsinə Mirzə Hüseyn Əfəndi Qayıbzadə, şiə təriqəti üzrə şəriət müəllimi vəzifəsinə isə Əbdüssəlam Axundzadə təyin edilmişdi. Bu şəxsiyyətlərin hər ikisi şəriət qanunlarının çox güclü olduğu bir dövrdə azərbaycanlıların dünyəvi təhsil alması yolunda böyük xidmət göstərməklə Azərbaycan təhsil tarixində

silinməz iz qoymuşlar.

Qafqaz Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinə ilk dəfə 32 nəfər qəbul edilmişdi. Bunlardan 24 nəfəri A.O.Çernyayevski tərəfindən yerlərdən seçilərək seminariyaya dəvət olunmuşdu, qalanları isə öz arzuları ilə gəlmişdilər. 32 nəfərdən 19-u şöbənin əsas sinfinə, 13 nəfəri isə hazırlıq sinfinə qəbul olundu. Maraqlıdır ki, Azərbaycan şöbəsinə ilk qəbul olunanlardan 3 nəfəri birbaşa II əsas sinfə qəbul edilmişdi. Onlar iki il oxuduqdan sonra seminariyanı 1881-ci ildə bitirmişdilər.

Seminariyanın Nəriman Nərimanov, Üzeyir Hacıbəyov, Hənəfi Terequlov, Müslüm Maqomayev, Cəlil Məmmədquluzadə, Sultan Məcid Qənizadə, Süleyman Sani Axundov, Firudin Bəy Köçərli, Rəşid Bəy Əfəndiyev, Mahmud Bəy Mahmudbəyov, Fərhad Ağazadə, Səfərəli Bəy Vəlibəyov, Əlişbəy Tahirov, Əhməd Seyidov, Əhməd Ağa Mustafayev, Məiş Hüseynov, Qəzənfər Qəniyev, Yusif Qasımov, Yasin Miralıyev, Hüseyn Paşayev, Xosrov Şirinbəyov, Əliş Səfiyev, Lətif Şahməmmədbəyov, Əli Hüseynov, Rzaqulu Şadlinski, Səməd Bəy Acalov, Azad Əmirov, Hüseyn və Abbas Minasazovlar, Müseyib İlyasov, Osman Əfəndiyev, İsmayıl ağa Vəkilov, Əli Qəmərlinski, Bədəl Bəy Bədəlbəyov, Fərəc Bəy Sultanov, İsmayıl Bəy Şəfibəyov, Hacı Baba Zamanov, Mustafa Mahmudov, Teymur Bayraməlibəyov, Ələsgər Şeyxhəsənov, Qasım Qasımov, Əlirza Rasizadə (Hüseyn Cavidin qardaşı), Məhəmmədəli Sidqi Səfərov (Məhəmməd Tağı Sidqinin oğlu), Əli Səbri Qasımov, Mahmud bəy Mahmudbəyov, Hacı Kərim Sanılı, Əsədulla Bəy Muradxanov, Süleyman Qayıbov, Cavad Cuvarlı, Yusif Əfəndiyev, Əhməd ağa Gülməmmədov, Rəcəb Əfəndiyev, Mustafa Mahmudov, Pənah Qasımov, Alyoşa Mustafayev, Məmməd Qarayev, Səməd Muradaov, Rəhim, Əli, İbrahimağa, Məmmədağa və Vəliağa Şıxlınskilər və başqaları kimi görkəmli məzunları olmuş, xalqa, vətənə layiqincə xidmət etmişlər.

Seminariyanın məzunları gənc nəsli avamlığa, cəhalətə qarşı mübarizə aparmaq və Uşinski ideyaları üzərində yeni məktəblər,

qız məktəbləri açmaq, yeni dərslik, uşaq ədəbiyyatı yaratmaq, jurnal nəşr etmək, əlifba islahatı aparmaq kimi müqəddəs vətəndaşlıq borcu yerinə yetirməyin yollarını hələ seminariya partaları arxasında öyrənmişdilər. Bu yollar doğma məzunları mənəviyyat və sədaqət zirvəsinə ucaltmışdır ki, onların bəziləri haqqında məlumat vermək yerinə düşər:

Şıxlinski Rəhim bəy Tahir bəy oğlu Qazax qəzasının İkinci Şıxlı kəndində anadan olmuşdur. Doğum tarixi haqda günümüzə dəqiq məlumat çatmamışdır. Qori Seminariyasını bitirmiş və dövrünün öncül pedaqoqlarından biri olmuşdur. Müəllimlik fəaliyyətinə Şəki qəzasında başlamış, sonra Ağdamda və Bakıda dərs demişdir. Daha sonra hüquq-mühafizə orqanlarına keçmiş, bir müddət Şuşa polismeysterində işləmişdir. 1917-20-ci illərdə Azərbaycanın İstiqlal Hərəkatında fəal iştirak etmiş, siyasi oriyentasiyası etibarilə Türkiyə tərəfdarı olmuşdur. Məlum siyasi görüşlərinə görə sovetləşmədən sonra repressiya olunacağından ehtiyyat edərək Tiflisə köçmüşdür. Tiflisdəki Azərbaycan orta məktəbində uzun illər direktor işləmişdir.

İstiqlal Bəyannaməsini imzalayanlardan biri kürdəmirli Mustafa Mahmudov olmuşdur ki, o da O, Qafqaz Müəllimlər Seminariyasının məzunu olmuşdur.

“Ziyayi-Qafqasiyyə” qəzetin naşiri və sahibi mətbuat tariximizdə öz dəsti-xətti olan Səid Ünsizadə yazırdı: “Qorı Darülmüəllimün Məktəbinin şagirdlərinə bu ildə (1884-cü ildə) imtahanın nəticəsi bu olubdur ki, 35 nəfər şagirdlər çox əla imtahan dutub cümləsinə (Attestat) şəhadətnamə verilübdür. Bunlardan 13-ü rusdur, 7-i gürcüdür, 4-ü polyakdır və bir yəhudidir və bir qreqdir və 2 dəxi İslamdır. Bu islamlardan biri Şuşa şəhrinin bəyzadələrindən Nəsrulla bəy Tahirovdur və biri dəxi Tiflis bəyzadələrindən Əlimərdan bəy Topçubaşovdur”. Teymur Məmməd bəy oğlu Bayraməlibəyov (22.08.1862, 02.09.1937) tarixçi-etnoqraf, pedaqoq, maarifçi, folklorşünas olmuş, Qori Müəllimlər Seminariyasının ilk müdavimlərindən biri olmuşdur. İlk təhsilini Lənkəran rayonunun

Yeddi oymaq kənd mollaxanasında almış, Quranı oxumağı öyrənmiş və Sədi Şirazinin (1210-1292) "Gülüstan" və "Büstan" əsərlərinin əsasında fars dilinə yiyələnmişdir. Daha sonra qardaşının təklifi ilə Lənkərandakı 2 sinifli rus məktəbində oxumuş, 1875-ci ildə oranı bitiribTiflisdə yenicə açılmış feldşerlik məktəbinə təhsil almağa göndərilimişdir. O, burada öz şəxsi hesabına deyil, Bakı torpaq Şöbəsinin xərci ilə oxumuşdur. Burada olduğu illərdə Qori Müəllimlər Seminariyası açılmış və Teymur bəy böyük məhəbbətlə öz sənədlərini buraya vermiş və 1879 -cu ildə seminariyanın Azərbaycan şöbəsinə daxil olmuşdur.

Y.A.Komenskinin ideyalarının Azərbaycanda yayılmasında Qafqaz Müəllimlər Seminariyasının məzunlarının da böyük rolu olmuşdur. Teymur Bayraməlibəyov ana dilinin tərbiyəvi əhəmiyyətindən bəhs edərkən Y.A.Komenskinin "Ana dilini bilmədən özgə dili bilmək olmaz" fikirlərinə istinad edərək böyük pedaqoqun ideyalarından bəhrələnmişdir. O zəngin folklor materaialları toplamış, araşdırma və tədqiqatlar aparmış, ilk folklorşünas tədqiqatçılarımızdan sayıla bilər.

1881- ci ildə seminariyanı bitirən Teymur bəy Lənkərandakı 2 sinifli rus məktəbində 1881-ci ildən 1899-cu ilədək rus dili və riyaziyyat müəllimi kimi fəaliyyət göstərmiєdir. Teymur bəyin səyi nəticəsində 5 sinifli "Behcət" adlı məktəb 15 sentyabr, 1907-ci ildə İran səfiri İsmayıl xanın səlahiyyəti altında təsis edilir. Teymur bəyin təşəbbüsü ilə yaradılan "Behcət" məktəbi 1910-cu ildə bağlanmışdır.

Lənkəranda tez-tez maneə və müqavimətlə qarşılaşan Teymur bəy mənəvi tərəqqi uğrunda ardıcıl mübarizəsini davam etdirmiş, o 1909-cu ildə "Ziya" adlı ilk rus-tatar (Azərbaycan) məktəbini azmış, Lənkəranda kitabxana yaratmışdır.

Qadınların təhsilinə böyük əhəmiyyət verən Teymur Bayraməlibəyov 1917-ci ildə Lənkəranda "Ünas" (qızlar) məktəbinin əsasını qoymuşdur. Teymur bəy Bayraməlibəyovun inqilabi hərəkatda fəal iştirakı bəhanə göstərilərək, o, 1918-ci ildə həbs edilmiş

və Bakıya göndərilmişdir. Onun işini qızı- Məryəm xanım davam etdirmişdir. 1918-1921-ci illərdə Lənkəranda fəaliyyət göstərən Qız məktəbinin müdiri olmuşdur.

Qafqaz (Qori) Müəllimlər Seminariyasına uzaq Naxçıvan diyarından təhsil almağa gedənlər və bu seminariyanı bitirib Naxçıvanda işləyənlər də çox olmuşdur.

Seminariyanın ilk yarandığı vaxtdan Azərbaycan şöbəsinin inspektoru olmuş A.O.Çernyayevski (sonralar 1905-1908-ci illərdə S.M.Qənizadə, 1917-ci ildən isə F.Köçərli şöbəyə rəhbərlik etmişdir) müdavim toplamaq üçün Naxçıvan şəhərinə hələ 1879- cu ilin yazında, elə seminariyanın Azərbaycan şöbəsinin açıldığı ilk ildə gəlmiş və Seminariya üçün tələbə toplamışdır.

A.O.Çernyayevskinin seminariyanın direktoruna yazdığı 9 iyul 1879-cu il tarixli hesabatında deyilir: "Naxçıvan qəza məktəbinin şagirdlərindən 10 nəfəri valideynlərinin razılığı ilə seminariyaya daxil olmaq arzusunda olduqlarını bildirdilər. Ancaq onlardan üç nəfərini qəbul etməyə imkan tapdım. Belə ki, əksəriyyətinin azyaşlılığı məlum oldu". Qeyd edilən həmin üç nəfər – Mirzə Əliməmməd Xəlilov (1862-1896), Mirzə Ələkbər Süleymanov (1862-1921), Ələsgər Şeyxhəsənov (1862-?) olmuşlar.

Qori Müəllimlər Seminariyasının naxçıvanlı məzunlarından Mirzə Əliməmməd Xəlilov Naxçıvanın mötəbər ziyalılarından olmuşdur. O, 1862-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. Mirzə Əliməmməd Xəlilov şəhər ikisinifli məktəbini bitirdikdən sonra 1879-cu ildə Qori Seminariyasının ilk müdavimlərindən olmuş və xüsusi istedadı sayəsində beş illik seminariya təhsilini iki ilə başa vurmuş, yalnız "əla" qiymətlərlə oxumuş, 1881-ci ildə buranı bitirmişdir ki, seminariyanın ilk azərbaycanlı məzunlarından biri olmuşdur. Mirzə Əliməmməd Xəlilov 1881-1885-ci illərdə Naxçıvan şəhər üç sinifli məktəbində müəllim və inspektor köməkçisi kimi çalışmış, 1881-1882-ci tədris ilində isə yeniyetmə Cəlil Məmmədquluyevə dərs demişdir. M.Ə.Xəlilovun Qori Müəllimlər Seminariyasının ənənələri haqqında, oradakı təhsil sistemi

haqqında öz şagirdlərinə, gənclərə danışması heç şübhəsiz onların da bu seminariyaya üz tutmasında az rol oynamamışdır. M.Ə.Xəlilov 1885-ci ilin 20 sentyabrında açılmış Baş Noraşen (İndiki Cəlilkənd) ikisinifli kənd məktəbinin ilk müdir–nəzarətçisi təyin olunmuşdur. M.Ə. Xəlilov məktəbdarlıqla, mətbuat və teatr işləri ilə fəal məşğul olmuşdur. O Naxçıvan teatrının inkişafında böyük xidmətlər göstərmiş, bir çox teatr tamaşaları M.Ə. Xəlilovun evində təşkil olunmuş və özü də aktyor və ya rejissor kimi fəaliyyət göstərmişdir. M. Ə. Xəlilov rus dilli qəzet və jurnalların fəal oxucusu olmuş, mətbuat orqanları ilə sıx əməkdaşlıq etmiş, şərq və qərb cərəyanlarının, yeniliklərin Naxçıvanda yayılmasına şərait yaratmışdır. Naxçıvanda "Qafqaz" qəzetinin təmsilçisi funksiyasını yerinə yetirmişdir.

M.Ə.Xəlilov 1881-1882-ci illərdə tanınmış alim-pedaqoq Simferopol Gimnaziyasını bitirmiş (1852-ci il) Naxçıvan Şəhər Məktəbinə müəllim-inspektor vəzifəsinə təyin olunmuş (1879 - 1883-cü illər) K.A.Nikitin (1832-1894) və 1875-ci ildə Tiflisdə Aleksandrovski Müəllimlər İnstitutunu bitirmiş mükəmməl biliyə, demokratik dünyagörüşə, malik gürcü ziyalısı 1881-1884-cü illərdə Naxçıvan Şəhər Məktəbində coğrafiya müəllimi kimi çalışmış G.Uturqauri hər üçü birlikdə "Naxçıvan şəhərinin meteoroloji gündəliyi"ni hazırlamışlar.

Naxçıvandan Qori Müəllimlər Seminariyasına yollananlardan və oranın Azərbaycan şöbəsinin ilk məzunlarından biri də Mirzə Ələkbər Süleymanov (1862-1921) olmuşdur. O Seminariyada Rəşid bəy Əfəndiyevlə 3 il bir sinifdə oxumuş, birinci buraxılış ilində - 1882-ci ildə Seminariyanı bitirərək Naxçıvana qayıtmış, Şərur rayonunun Yengicə kənd məktəbinə müdir təyin edilmiş, 1890 - 1894-cü illərdə Baş Noraşen 2 sinifli zemstvo məktəbində müəllimlik etmiş, 1894-cü ildən isə elə ilk açılış ilindən M.T.Sidqinin Naxçıvanda təşkil və təsis etdiyi məşhur "Tərbiyə" məktəbində rus dili dərsi demişdir (1894-1906). Qeyd edək ki, M.T.Sidqinin bu məktəbi 1896-cı ildə Rus-tatar (Rus–Azərbaycan) məktəbinə çevri-

lərkən məktəbinin fəxri nəzarətçisi Bəhram xan Naxçıvanski olmuş, sonra o yerini istefada olan rotmeyster Cəfərqulu xan Naxçıvanskiyə vermiş, daha sonra isə Mirzə Ələkbər Süleymanov özünün yazdığına görə 1897-ci ildə məktəbin müdiri təyin edilmişdir. Seminariya məzunu M.Ə.Süleymanov Naxçıvanın ictimai-siyasi, elmi-pedaqoji və ədəbi həyatında fəal iştirak etmiş, xalqı, tərəqqiyə, elmə, maarifə çağırmışdır. O 1882-ci ildə yazıçı, şair, dramaturq, publisist, tərcüməçi, pedaqoq, teatr xadimi, teatr tənqidçisi Eynəlibəy Sultanovun (1866-1935) Naxçıvanda ilk dəfə evində yaratdığı "Ziyalı cəmiyyəti"nin fəal üzvü olmuşdur. M.Ə. Süleymanov Naxçıvan şəhər üçsinifli məktəbində ana dili və ilahiyyat müəllimi (1906-1909), daha sonra da həmin məktəbdə inspektor köməkçisi kimi də çalışmış (1910-1914), 1837-ci il 15 martda isə Naxçıvanda ilk dünyəvi elmlər öyrədən qəza məktəbinin, 1854-cü il 24 noyabrda Ordubadda açılan ilk ibtidai məktəbin təşkilində, inkişafında, yeni nəsillərin yetişdirilməsində M.Ə. Süleymanovun böyük xidmətləri olmuşdur.

Qori seminaristi Ələsgər Şeyxhəsənov (1862-?) C.Məmmədquluzadənin elmi, dünyəvi dünyagörüşünün formalaşmasında xalası oğlu Əhmədin və yaxın qohumlarından olan Ələsgər Şeyxhəsənovun ilkin və müstəsna rolu olmuşdur. Mirzə Cəlil onlara "binəmazlar" demişdir. Ölülər əsərində Ələsgərin "Kefli İsgəndər" obrazı İsgəndərin prototipidir. Ələsgər Şeyxhəsənov oxumuş, savadlı, çox bilikli olduğundan ona "Mirzə Ələsgər" demişlər. Rus təhsili görmüş Mirzə Ələsgər Şeyxhəsənov 1883-cü ildə Qori Seminariyasını bitirərək İrəvan Quberniyasının Böyük Vedi kənd məktəbində pedaqoji fəaliyyətə başlamış, sonralar Şərurda və Naxçıvanda pedaqoji fəaliyyətlə məşğul olmuş, Naxçıvanda teatr tamaşalarında aktyor kimi fəaliyyət göstərmişdir.

Böyük demokrat yazıçı, dramaturq, böyük müəllim və pedaqoq Cəlil Məmmədquluzadə (1869-1932) Qori Müəllimlər Seminariyasına daxil olmaq arzusunda olanların ən fəalı, ən səbatlısı və ən inadcılı olmuşdur.

C.Məmmədquluzadənin Qori Müəllimlər Seminariyasına müdavim kimi yazılması hələ 1879-cu ildə - A.O.Çernyayevski Naxçıvana müdavim toplamağa gələrkən qeydə alınmışdır. Lakin o zaman gələcək böyük insanın yaşının az olması (10 yaş) buna imkan verməmişdi. Atası Məmmədqulu Məşədi Hüseynqulu oğlu övladının seminariyaya daxil olması haqqında arzusunu yerinə yetirmək üçün üç dəfə -1880, 1881, 1882-ci illərdə ərizə ilə seminariyanın rəhbərliyinə müraciət etmişdir. Lakin, hər dəfə “yaşı azdır” – deyə onu seminariyaya qəbul etməmişlər. Nəhayət sonuncu dəfə 1882-ci ilin 02 iyulunda onun imtahanlara buraxılmasına icazə verilmiş və C.Məmmədquluzadə qəbul imtahanları verərək seminariyaya qəbul olunmuşdur. Seminariya dövrü Mirzə Cəlilin ümumi inkişafında, yazıçılıq taleyində, mənəvi zənginliyində mühüm rol oynamışdır.

C.Məmmədquluzadə seminariyada oxuduğu illərdə seminarist İsmayılbəy Şəfibəyovla yaxın dostluq münasibətlərində olmuşdur. İ.Şəfibəyov 1882-cı ildə seminariyaya daxil olmuş 1887-ci ildə seminariyanı bitirmişdir. İ.Şəfibəyov Seminariyanı bitirərkən C.Məmmədquluzadəni Şuşaya dəvət etmiş və orada C.Məmmədquluzadə Xurşudbanu Natəvanla, Ə.Haqverdiyevlə görüşmüşdür. İ.Şəfibəyov sonralar İrəvan gimnaziyasında müəllimlik etmişdir.

C.Məmmədquluzadə Qori seminariyasını bitirdikdən sonra İrəvan quberniyasının Uluxanlı məktəbində, Baş Noraşen (indiki Cəlilkənd) iki sinifli zemstvo məktəbində, Naxçıvan və Nehrəm məktəblərində müəllimlik etmiş, ədəbi, bədii, pedaqoji yaradıcılıqla məşğul olmuş, dəyərli hekayələr, ölməz dram əsərləri yazmış, maarifçilik ideyalarını yaymış, mədəni - maarif tədbirlərində iştirak etmiş, fəal ictimai-ədəbi, pedaqoji mühit yaratmış, xalqın maariflənməsi, tərəqqi etməsi üçün Tiflisdə bütün Şərqdə tanınan və məşhur olan, ətrafına yaradıcı qüvvələri birləşdirən “Molla Nəsrəddin” jurnalı nəşr etdirmiş (1906, 20 aprel), ömrünü xalqın maarifinə, mədəniyyətinə və tərəqqisinə həsr etmişdir.

Bir çox mənbələrdə göstərilir ki, Cəlil Məmmədquluzadə Naxçıvandan Qori Müəllimlər Seminariyasına özü ilə bərabər üç

həmşəhərlisi ilə bərabər getmişdir. Bəs, Mirzə Cəlildən başqa o üç nəfər müdavim kim olmuşdur? O müdavimlərin kimliyi uzun müddət qaranlıq olmuşdur. "Tərcüman" qəzetinin 12 iyul, 1887-ci il nömrəsindəki kiçik məlumata əsasən deyə bilərik ki, həmin müdavimlərdən biri Heydər Muradəsilov (1863-1896) olmuşdur ki, sonralar o Naxçıvan məktəblərində 1930-cu illərədək rus dili müəllimi kimi fəaliyyət göstərmişdir. 1887-ci ildə seminariyanı bitirən Heydər Muradəsilov dövrünün maarifpərvər, ziyalı şəxslərindən biri olmuşdur. Professor Əziz Şərifin (1895-1988) də qeyd etdiyi kimi atası Qurbanəli Şərifzadənin tez-tez görüşdüyü, ictimai, fəlsəfi fikirləri bölüşdüyü və yaxın dostlarından biri Heydər Muradəsilov olmuşdur.

Cəlil Məmmədquluzadənin digər ikinci bir yoldaşı Mirzə Əbülqasım Sultanov (1866-1916), üçüncü yoldaşı isə Mirzə Ələkbər Məmmədxanov (1875-1920) olmuşdur. Cəlil Məmmədquluzadə bu üç yoldaşıa Naxçıvandan Qoriyə birlikdə getmiş və birlikdə təhsil almışlar.

Mirzə Əbülqasım Sultanov Mirzə Cəlillə eyni illərdə Naxçıvan şəhər üçsinifli məktəbində, daha sonra da Qori Müəllimlər Seminariyasında bir yerdə təhsil almışdır. Lakin Ə. Sultanov 1885-ci ildə xəstələndiyindən bir il sinifdə saxlanılmış və 1888-ci ildə seminariyanı bitirərək Şərur qəzasının Şahtaxtı kənd məktəbinə təyinat almışdır. O Seminariyada oxuduğu dövrdə "Ədəbiyyatşünaslıq dəftəri" adlı dərs vəsaiti yazmışdır ki, bu gün o vəsait Naxçıvan MR Tarix- Diyarşünaslıq muzeyində saxlanılır ( fond KP, № 2320). Onun "Ədəbi nümunələr müntəxəbatı" adlı yenə bir dərs vəsaiti də vardır.

Mirzə Əbülqasım Sultanov əhali arasında pedaqoji təbliğat aparmış, geniş maarifləndirici işlər görmüş, şerlər yazmış, tərcümələr etmiş, məktəbdarlıqla məşğul olmuş, doğma Şahtaxtı kəndində 8 il (1888-1896), Cəlil Məmmədquluzadənin işlədiyi Baş Noraşen məktəbində isə 12 il (1896-1908) rus dili müəllimi kimi pedaqoji fəaliyyətlə məşğul olmuşdur. M.Ə.Sultanov "Baş Noraşen

ikisinifli zemstvo məktəbinə daxil olan və oranı bitirənlərin siyahısı”nı tərtib etmişdir ki, bu da məktəb tarixi araşdırıcıları üçün dəyərli bir pedaqoji sənəddir. Bu siyahıda 63 nəfərin adı vardır. Məktəbin məzunlarından 13 nəfəri İrəvan Gimnaziyasında təhsil aldığı, bir nəfərin Aleksandropol şəhər məktəbində təhsilini davam etdirdiyi, bir nəfərin də - Rəhim Kazımbəyovun isə Qori Müəllimlər Seminariyasında oxuduğu qeyd edilmişdir.

Mirzə Əbülqasım Sultanov ömrünün sonlarını Qəzvində keçirmiş orada da 1916-cı ildə dünyasını dəyişmişdir. Qəzvindən yazdığı məktublarından onun xalqın maariflənməsi üçün nə qədər qayğı göstərdiyi görünür: ”İnsanın cövhəri, qədr və qiyməti elm təhsil etməsidir. Hərgah müsəlman milləti sair millətlər kimi elmi vacib bilib oxusaydı, bu gün başına cürbəcür bəlalar gəlib, vadiyi-zülmətdə qalmazdı, abu-xak və müqəddəs Vətən əldən getməzdi. Nə deyim, nə yazım, qoy qalsın. Ancaq suznak ah çəkməkdən başqa özgə bir əlac əldən gəlmir. Lənət gəlsin o atalara ki, elm, fənn və sənətdən kənar düşüb, bəzi bimənə sözlərə inanıb öz övladlarının təhsili haqqında düşünməyib, onlara zülm ediblər. Yan, qəlbim, yan! Şölə çək!”.

Mirzə Ələkbər Məmmədxanov (1875-1920) Naxçıvan şəhər ibtidai məktəbini bitirdikdən sonra qəbul imtahanlarını müvəffəqiyyətlə verərək Qori Müəllimlər Seminariyasının aşağı hazırlıq sinfində təhsilə başlamışdır. Ələkbər Məmmədxanov Qori seminariyasının azərbaycanlı tələbələri ilə musiqiçilər kollektivinin tərkibində fəal çıxış etmişdir. Bununla belə seminariya rejiminin əksinə olaraq ana dilində danışdığına görə bir neçə dəfə cəzalandırılmışdır. Ə Məmmədxanova təhsil haqqını ödəyə bilməməsi haqqında da dəfələrlə irad tutulmuşdur. Ə.Məmmədxanov öz ərizəsi ilə seminariyadan çıxmış, şəxsi işini geri almış və sonra Xarkov Universitetində təhsil almışdır. Ə.Məmmədxanov Şərq ölkələrinə səyahətə çıxmış, özünəməxsus, fərqli fəlsəfi düşüncələrini təbliğ etmiş, görkəmli rus yazıçısı L.N.Tolstoyun ədəbi, fəlsəfi irsinə böyük rəğbət göstərmiş, L.Tolstoyla şəxsi əlaqələr yaratmış və onunla məktublaş-

mışdır. Ənənəvi olmayan, fərqli ideyalı əsər və risalələri, Quran surələrini rus dilinə tərcümə edərək Yasna-Polyanaya-Tolstoya göndərmiş və ondan da 1908, 1909-cu illərdə təşəkkür cavab məktubları almışdır.

XIX əsrin 90-cı illərində C.Məmmədquluzadənin 1890-1897-ci illərdə müdir olduğu Nehrəm kənd məktəbində daha bir seminariya məzununu görürük. Bu Kərimbəy İsmayılzadədir ki, 1890-cı ildə Qori Müəllimlər Seminariyasını bitirmişdir. Həmin il Nəriman Nərimanov və daha başqa Seminaristlər - Hüseyn Həsənzadə, Şəhriyar Qiyasbəyov, Əhməd Qaibov, Həsənbəy Axundov seminariyanı bitirmişlər. Seminariyada onların ana dili və şəriət müəllimi Salyanlı Axund Əbdüssəlam Axundzadə olmuşdur.

Kərimbəy İsmayılzadə əvvəlcə Vedi məktəbində müəllim - nəzarətçi, daha sonra Qafqaz Təhsil dairəsinin 15 centyabr 1892-ci il tarixli sərəncamı ilə Nehrəm kənd məktəbinə müəllim göndərilmişdir ki, bu məktəb 11 dekabr 1885-ci ildə iki sinifli məktəb kimi açılmışdır. K.İsmayılzadə bu məktəbdə 1892-1894-cü illərdə müəllim kimi pedaqoji fəaliyyət göstərmişdir. Nehrəm məktəbindəki yaradıcılıq şəraiti, sağlam pedaqoji mühit K.İsmayılzadə elmi pedaqogikaya, metodik əsərlərin yazılmasına sövq etmişdir. O qısa müddətdə dəyərli metodik əsərlər yazmış və 1893-cü ildə "Nehrəm kəndi" adlı iri həcmli tarixi, etnoqrafik əsər meydana gətirmiş və bu əsər sonralar çap olunmuşdur. K.İsmayılov publisistik məqalələr yazmış, "Hesab məcmuəsi", "Nağıllar" kitablarını da nəşr etdirmiş, "Molla Nəsrəddin", "Maarif" jurnalında elmi-pedaqoji və publisistik məqalələrlə çıxış etmişdir. Onun Əshaf-Kəhflə bağlı "Ölən şəhər" məqaləsi geniş yayılmış və çox oxunmuşdur.

Əziz Şərifin "Keçmiş günlərdən" əsərində yazdığı bir qeydi daha bir seminaristin təsbit olunmasına imkan verir. Bu böyük pedaqoq, məktəbdar Məhəmməd Tağı Sidqinin (1854-1903) böyük oğlu Məmmədəli Sidqi Səfərovdur (1888-1956). Ə.Şərif bu barədə belə yazır: "Sidqinin ən yaxın dostlarından Cəlil Məmmədquluzadə onun oğlanlarından Məmmədhəsəni Tiflisdə təzəcə açdığı pansiona

aparmışdı. Sidqinin Qoridəki Müəllimlər Seminariyasını qurtarmış böyük oğlu Məmmədəli isə "Tərbiyə" məktəbinə müəllim təyin edilmişdi, qızı Dostuxanım Bakıda Hacı Zeynalabdın Tağıyevin qız məktəbinə qəbul edilmişdir". Bu qeyddən həm M.T. Sidqinin ailə üzvləri haqqında, həm Qori seminariyasının daha bir naxçıvanlı məzunu barəsində dəyərli məlumat alırıq, həm də C.Məmmədquluzadənin yeniyetmə və gənclərimizi gimnaziyaya hazırlamaq məqsədilə Tiflisdə xüsusi pansion açmasından xəbərdar oluruq. C.Məmmədquluzadə 09 iyun 1910-cu ildə məktubla Məmmədəli Sidqini Tiflisə dəvət etmiş və bir müddət "Molla Nəsrəddin"in idarəçiliyini ona tapşırmışdı.

Məmmədəli Sidqi bir müddət "Şeypur" satirik jurnalın redaktoru kimi çalışmışdır. "Şeypur" jurnalının cəmi 14 sayı çıxmışdır, onlardan 11-i 1918-ci ilə, 3-ü isə 1919-cu ilə aiddir. Jurnalın ilk sayı 5 oktyabr 1918-ci ildə, son sayı isə 18 yanvar 1919-cu ildə işıq üzü görmüşdür. Həftədə bir dəfə çıxan bu jurnal Bakıda elektrik "Turan" mətbəəsində nəşr olunurdu. "Şeypur" jurnalının səhifələrində Məmmədəli Sidqi, Səməd Mənsur, Salman Mümtaz, Cəfər Cabbarlı və digər tanınmış qələm sahiblərinin ideya-bədii mükəmməlliyə malik yazıları mühüm yer tuturdu.

Məmmədəli Sidqi 1894-1900-cü illərdə "Tərbiyə" məktəbində, sonra Naxçıvan şəhər məktəbində təhsil almış, atasının ümidlərini doğruldaraq təhsilini artırmış, onun yolunu davam etdirmiş, bir sıra əsərlərini ("Kəblə Nəsir", Heykəli-insana bir nəzər", "Puşkin") Bakıda nəşr etdirmişdir. Məmmədəli Sidqi özü də publisistik yazılar, dəyərli şerlər yazmış, tərcümələr etmişdir. Onun bir şeri 2008-ci ildə 106 yaşında dünyasını dəyişmiş "İstiqlal" ordenli, əməkdar müəllim atam Lətif Hüseynzadənin şəxsi arxivində qorunub saxlanmışdır. Şerdə 1918-ci ildə ermənilərin Naxçıvanda törətdikləri qırğınlar və Naxçıvan gənclərinin mübarizəsi, döyüş səhnələri əks etdirilir.

Məmmədəli Sidqi qardaşının da Qori Müəllimlər Seminariyasına daxil olması üçün Firudinbəy Köçərliyə (1863-1920)

müraciətdə bulunmuşdur ki, Firudinbəyin Məmmədəliyə məktubu da maraqlıdır: *"Mehribanım Məmmədəli!...*O ki qaldı qardaşınızın seminariyaya girməyinə, indidən o barədə vədə verə bilmənəm. Amma əlimdən gələnköməkliyi müzayiqə etmənəm... O gərəkdir ki, çox yaxşı hazırlaşsın ki, əvvəlinci klasa imtahan verə bilsin...İmtahan avqust ayının 25-də başlanır...Sizdən artıq xoşhal olaram ki, mərhum Sidqinin övladlarından birisinə bacarıb təlim və tərbiyə verə biləm...*Firudin Köçərli.Qori 14 noyabr, 1913-cü il"* .

Qori Seminariyasının daha bir naxçıvanlı müdavimi Rəhim Kazımbəyov oLmuşdur (1883-1958). R.Kazımbəyov 1897-ci ildə Baş Noraşen ikisinifli məktəbini bitirdikdən sonra əvvəlcə İrəvan gimnaziyasında, daha sonra da 1903-1908-ci illərdə Qori Seminariyasında təhsil almışdır. Rəhim Kazımbəyov Qoridə oxuduğu illərə dair yazdığı "Xatirələr"ində qeyd edir ki, mən seminariyada 5 il oxudum...Bütün fənlər rus dilində tədris olunurdu. Yalnız həftədə bir saat şəriət dərsi keçirilirdi... R.Kazımbəyovun xatirəsində həmçinin Üzeyir Hacıbəyovun, Müslüm Maqomayevin, Azad Əmirovun seminariyada təhsil aldıqlarından Üzeyirin və Müslümün mahir skripka çaldıqlarından danışılır. R.Kazımbəyov Qoridən qayıtdıqdan sonra 1908-ci ildə indiki Şərur rayonunun Qıvraq kəndində, daha sonra Şərurda, Naxçıvanda orta məktəblərdə və pedaqoji texnikumda rus dili müəllimi kimi fəaliyyət göstərmiş və "Azərbaycan məktəblərində rus dilinin tədrisi" adlı metodik kitabça da yazmışdır. R.Kazımbəyov, Naxçıvan maarif və mədəniyyətinin, təhsilinin inkişafında xidmətlərinə görə 1944-cü ildə ona Əməkdar müəllim adı verilmiş, 1957-ci ildə isə Naxçıvan MR Ali Sovetinin Fəxri Fərmanı verilmişdir.

Qori Müəllimlər Seminariyasının məzunlarından biri də Əlirza Rasizadə olmuşdur. O Naxçıvanda tanınmış, məşhur ruhani, mərsiyəxan Abdulla Rasizadənin (1843-?) ailəsində doğulmuşdur. Abdullanın üç oğlu – Şeyx Məhəmməd Rasizadə, Hüseyn Cavid Rasizadə və Əlirza Rasizadə yüksək təhsil almış dövrünün mütərəqqi, ziyalı, yaradıcı şəxsiyyətlərindən olmuşdur.

Şeyx Məhəmməd Rasizadə (1878-1939)- Hüseyn Cavidin böyük qardaşı tanınmış maarif xadimi, müəllim və şair olmuşdur. Təbrizdə, Urmiyada, Tehranda ruhani təhsil almış, ərəb və fars dillərini, şəriət elmlərini mükəmməl öyrənmişdir. Sonra İrəvan maarif idarəsində xüsusi kurs bitirmişdir(1917).Şeyx Məhəmməd həmçinin istedadlı şair olmuş, XX əsrin əvvəllərindən "Şərqi-Rus", "Həyat", "Irşad", "Tazə Həyat", "Təkamül", "İqbal", "Füyuzat", "Açıq söz", "Hürriiyət" kimi qəzet və jurnallarda, sonralar isə Sovet mətbuatında, xüsusilə "Şərq qapısı" qəzetində xalqı maarif, elm və mədəniyyətə səsləyən şerlər dərc etdirmişdir.

Hüseyn Cavid (1882-1941) İstanbul Universitetini bitirmiş, böyük filosof şair, dramaturq, müəllim və pedaqoq olmuşdur. Əlirza Rasizadə isə (?-1923) - Hüseyn Cavidin kiçik qardaşı Qoridə Qafqaz Müəllimlər Seminariyasını bitirmiş, rus dilində təhsil almış, dünyəvi elmlərə dərindən yiyələnmiş, mütərəqqi müəllim, ziyalı olmuşdur.

Qori Seminariyasının daha bir naxçıvanlı müdavimi Rəhim Kazımbəyov olmuşdur (1883-1958). R.Kazımbəyov 1897-ci ildə Baş Noraşen ikisinifli məktəbini bitirdikdən sonra əvvəlcə Irəvan gimnaziyasında, daha sonra da 1903-1908-ci illərdə Qori Seminariyasında təhsil almışdır (5). Rəhim Kazımbəyov Qoridə oxuduğu illərə dair yazdığı "Xatirələr"ində qeyd edir ki, mən seminariyada 5 il oxudum...Bütün fənlər rus dilində tədris olunurdu. Yalnız həftədə bir saat şəriət dərsi keçirilirdi... R.Kazımbəyovun xatirəsində həmçinin Üzeyir Hacıbəyovun, Müslüm Maqomayevin, Azad Əmirovun seminariyada təhsil aldıqlarından Üzeyirin və Müslümün mahir skripka çaldıqlarından danışılır. R.Kazımbəyov Qoridən qayıtdıqdan sonra 1908-ci ildə indiki Şərur rayonunun Qıvraq kəndində, daha sonra Şərurda, Naxçıvanda orta məktəblərdə və pedaqoji texnikumda rus dili müəllimi kimi fəaliyyət göstərmiş və "Azərbaycan məktəblərində rus dilinin tədrisi" adlı metodik kitabça da yazmışdır. R.Kazımbəyov, Naxçıvan maarif və mədəniyyətinin, təhsilinin inkişafında xidmətlərinə görə 1944-cü ildə ona Əməkdar

müəllim adı verilmiş, 1957-ci ildə isə Naxçıvan MR Ali Sovetinin Fəxri Fərmanı verilmişdir

Seminariyanın naxçıvanlı məzunlarından biri də Məmmədhüseyn Xəlilovdur. M.Xəlilov Naxçıvanda C.Məmmədquluzadənin təhsil aldığı şəhər məktəbini bitirmiş və oradan da onların böyük dostluğu başlamışdır. Məmmədhüseyn Xəlilov seminariyanı bitirərkən "Qafqazlı yetirmələrin Rusiya taxt – tacına və Vətəninə xidmətləri" mövzusunda yazdığı buraxılış işində sərkərdə Lazarevin, knyaz Baqrationun və Kalbalı xan Naxçıvanskinin hərbi və maarifçilik fəaliyyətini geniş işıqlandırmışdı. Əsər dünya seminariyalarının məşhur Paris sərgisində nümayiş etdirilmişdir. Müasirləri Məmmədhüseyn Xəlilovu "Xalq müəllimi" kimi yüksək ada layiq görmüşlər. Məmmədhüseyn Xəlilov Naxçıvan teatrında aktyorluq və suflyorluq etmişdir.

Qori Müəllimlər Seminariyanın daha bir naxçıvanlı məzunu Xəlil Hacılarov (1895-1970) olmuşdur. Xəlil Hacılarov Qori Seminariyasını bitirdikdən sonra sonra Tiflisdə Müəllimlər İnstitutunu da bitirmişdir. O bütün ömrünü müəllimliyə həsr etmişdi. Əvvəlcə, Naxçıvan mahalında, sonra isə Gürcüstanda və Tiflisdə maarif sahəsində çalışmışdır.

Xəlil Hacılarov 1922-ci ildən fəaliyyətə başlayan Naxçıvan Müəllimlər Seminariyasının ilk direktoru olmuşdur ki, bu seminariya sonralar pedaqoji texnikuma çevrilmişdi. Xəlil Hacılarov pedaqogika və didaktika dərslərini, onun köməkçisi Əbdüləzim Rüstəmov (1887-1953) coğrafiya dərslərini, Həsən Səfərli riyaziyyat, Həsən Qazıyev təbiət, İbrahimxəlil Axundov bədən tərbiyə, Lətif Hüseynzadə ədəbiyyat dərslərini demişdir.

Xəlil Hacılarov qısa müddətli pedaqoji kursların, Naxçıvan darülməlliminin və bir sıra məktəblərin təşkilində xüsusi xidmət göstərmişdir. O, istər kurslarda, istərsə də "Ünas" və "Zikur" pedaqoji texnikumlarında "Pedaqogika" və "Didaktika" fənnlərini xüsusi məharətlə tədris etmişdir.

Geniş pedaqoji fəaliyyət aparan Xəlil Hacılarov maarifçilik

ideyalarının yayılmasında, metodiki müşavirələrin keçirilməsində, Xalq Maarif Komissarlığının kollegiya iclaslarında elmi-pedaqoji və metodik mövzuların məktəb rəhbərlərinə çatdırılmasında əvəzsiz xidmətləri olmuşdur. O, dəfələrlə Naxçıvanda keçirilən iclaslarda tədrisin keyfiyyətinin yüksəldilməsi barədə məzmunlu çıxışlar, məruzələr və məqalələr nəşr etdirmişdir. Onun "Qırmızı müəllimlər hazırlayaq", "Balalarım", "Pedaqoji biliklərin zərurəti", "Naxçıvan müəllimlərinin müasir səviyyəsi", "Əxlaq və maddi vəziyyət" adlı onlarla məqalə və məruzələrində Naxçıvanın o, dövrdəki xalq maarifi, tədris, təlim və tərbiyə məsələləri hərtərəfli əks etdirilmişdir. O, yazırdı: "Təlim və tərbiyə başlıca olaraq uşaqlara məktəblərdə aşılanır. Buna görə də hər bir müəllim və tərbiyəçi öz yetirmələrinə həqiqi mənada bilik, bacarıq və vərdişlər aşılamaq üçün bir sıra müsbət keyfiyyətlərə malik olmalı və öz işinin ustası olmalıdır. Müəllim o vaxt böyük şöhrətə malik olur ki, o öz ixtisasını əsaslı bilməklə və yaxşı öyrətməklə yanaşı, yetirmələrinə məhəbbət və qayğı bəsləməyi, uşaqları sevməyi də bacarmalıdır".

Qori Müəllimlər Seminariyasının daha bir məzunu Ələkbər Abbasovdur. (Ələkbər Qərib ) Ələkbər Abbasov 1893-1894-cü ildə xırda sənətkarlıqla məşğul olan, formal təriqətinin fəal üzvlərindən olan Kərbəlayi Tağının ailəsində dünyaya gəlmişdir. Məmmədhüseyn və Rza Təhmasiblə, Nəsrulla Şeyxovla yaxın qohumluqları olmuşdur. M.T.Sidqinin "Tərbiyə" məktəbində təhsil almışdır. 1913-cü ildə Qori Müəllimlər Seminariyasını bitirtdikdən sonra o bir müddət Tiflisdə, Bakıda yaradıcılıqla məşğul olmuş hekayə və povestlər yazmış, rus dilindən tərcümələr etmişdir. Onun 1912-ci ildə, hələ tələbə ikən yazdığı "Qəlbimin sultanı" povesti və 1914-cü ildə yazdığı "Haqq divanı" hekayələr kitabı Bakıda "Orucov qardaşları" mətbəəsində çap edilmişdir. O 1913-cü ildə N.M.Karamzinin "Bədbəxt Liza" povestini ruscadan azərbaycancaya tərcümə etmiş, 1915-1916-cı illərdə Doktor Xosrov bəy Sultanovun rəhbərliyi altında "Cəmiyyəti xeyriyyə" xətti ilə Ərdəhan, Batum və başqa şəhərlərdə olaraq türk qaçqınlarına, "Hərb-zədə"lərinə yardım hərə-

katında iştirak etmiş, bu hərəkatda Hüseyn Cavid, Əhməd Cavad, Əli Səbri və başqa ziyalılarla birlikdə səfərbəredici, əməli işlər görmüşdür. Ələkbər Abbasov tarixi-etnoqrafik, ədəbi-bədii yazılarla da mətbuatda çıxışlar etmiş, dəyərli elmi-pedaqoji, ədəbi əsərlər yazaraq unudulmaz izlər qoyub getmişdir. Xüsusilə 1928-1929-cu illərdə Ruhulla Axundovun redaktəsi və rəhbərliyi altında 50 minə qədər sözün tərcüməsi verilən ikicildlık "Rusca-türkcə (azərbaycanca) lüğət"in hazırlanmasında Ələkbər Qəribin xüsusi payı və zəhməti olmuşdur (Rus-türk lüğəti. Tərtibçiləri: Əhməd Pepinov, Ələkbər Qərib,Ələkbər Heydərli. Bkı, AzQİZ, 1928).

"Qori Müəllimlər Seminariyasında təhsil alanların siyahısı"nda (Bu siyahı Azərbaycan Respublikasının Təhsil Muzeyinin arxivində saxlanılır) "Naxçıvanlı Ələkbər Rahib" – adlı bir şəxsin adına rast gəlirik ki, o da 1909-cu ildə seminariyaya daxil olmuş və 1913-cü ildə də seminariyanı bitirmişdir. Naxçıvanlı soyadından onun naxçıvanlı olması bəlli olur və şübhəsiz Naxçıvan diyarından Qoriyə yollanmışdır. Təhsil Muzeyinin arxiv sənədləri içərisində Naxçıvandan Qoriyə yollanmış bir naxçıvanlının adı da ayrıca bir sənəddə yazılmışdır: "Ələkbərov Şeyx Hüseyn"- nə vaxt daxil olması və bitirməsi haqqında isə məlumat verilməmişdir.

Qori Müəllimlər Seminariyasının bir naxçıvanlı məzunu da, Sidqinin "Tərbiyə" məktəbinin yetirməsi, yazıçı, jurnalist, tərcüməçi Əli Səbri Qasımov (15.04.1892-19.02.1983) olmuşdur. Babək rayonunun Nehrəm kəndində doğulmuşdur.

1909-cu ildə Qori seminariyasına daxil olmuş və 1913-cü ildə bu seminariyanı bitirdikdən sonra bir müddət Bakıda rus-tatar məktəbində müəllimlik etmişdir. Burada C.Məmmədquluzadə, Ü.Hacıbəyov, M.Maqomayev, M.Mahmudbəyov, N.Nərimanov və başqalarının mühitinə düşmüş və onun mütərəqqi pedaqoji və ədəbi görüşləri burada da geniş formalaşmışdır. Əli Səbrinin Qori Müəllimlər Seminariyası "Xatirələr"indən məlum olur ki, o seminariyada dərs deyən Firudin bəy Köçərli, Rəşid bəy Əfəndiyev və başqa ziyalılarla həmişə yaxın əlaqə və münasibətdə olmuş, F.Kö-

çərlinin "Azərbaycan ədəbiyyatı tarixi materialları"nın üzünü köçürmüş, bədii yazılarını, başqa dillərdən etdiyi tərcümələrini də Firudin bəyə oxumuş, ondan məsləhətlər almışdır. Əli Səbri Qasımov müəllimi Firudin bəy Köçərli haqqında xatirəsində yazır: "F.Köçərli bizə təkcə elmli olmağı deyil, həm də səliqəli, qənaətcil, təmizkar olmağı öyrədirdi. F.Köçərlinin ciblərində hər şeyin öz yeri var idi. O, bir cibinə əlini iki dəfə salıb pencəyi sürtməzdi. O bu keyfiyyəti biz şagirdlərdə də tərbiyə edə bilmişdi. Və yaxud, pulumuzu saxlamaq üçün F.Köçərliyə verərdik. Ondan xərclik üçün pul istədikdə o, bu pulların nəyə xərcləndiyi barədə bizdən hesabat alar və israfçılığa yol verməzdi. F.Köçərli bizim vaxtında yuyunmağımıza, dırnaqlarımızı kəsməyə, xüsusən, ayaqlarımızı yumağa diqqət yetirərdi. Həmişə deyərdi "İnsanın dırnağı ilə ayaqqabısının təmizliyi onun mədəniyyətini göstərir". Bu xatirələrdən aydın olur ki, F.Köçərli hələ Qori seminariyasında təhsil alan azərbaycanlı balalarına bir ata qayğısı ilə yanaşmış, onlara arxa, kömək olmuşdur.

Əli Səbri Qasımov Seminariyada təhsil illəri dövründə Laçından olan 1912-ci ildə seminariyanı bitirmiş ictimai və maarif xadimi, pedaqoq Müseyib İbrahim oğlu İlyasovla (1884-1944) yaxın dostluq münasibətlərində olmuş və daha sonralar bu dostluq münasibətləri haqqında "Xatirələr"ində də yazmışdır. Məlumat üçün deyə bilərik ki, M.İlyasov 1920-ci ildə Şuşada açılan Müəllimlər Seminariyasının – Darülmüəllimin ilk yaradıcısı və təşkilatçısı olmuş və özü də 1925-ci ilədək bu seminariyanın direktoru vəzifəsində çalışmışdır.(Əsası 1907-ci ildə qoyulmuş gimnaziyanın bazasında yaradılmış bu seminariya 1931-ci ilədək Müəllimlər Seminariyası adlanmış, sonralar isə pedaqoji texnikuma çevrilmişdir. Bu gün bu tarixi müəssisə Şuşa Mədəni-Maarif Texnikumu kimi uğurla fəaliyyətini davam etdirir). M.İlyasov Bakıda keçirilən I Türkoloji qurultayın nümayəndəsi olmuş, 1925-1931-ci illərdə isə Laçın-Qubadlı-Zəngilan-Kəlbəcər Qəza Xalq Maarif Şöbəsinin müdiri olmuş, 1931-1939-cu illərdə Azərbaycan Xalq Maarif Komissarlığında bir çox məsul vəzifələrdə çalışmış, APİ-nin rus dili kafedra-

sında assistent, müəllim vəzifələrində işləmişdir.

Əli Səbri Qasımov Birinci Dünya Müharibəsi illərində Xeyriyyə Cəmiyyətlərinin xətti ilə Azərbaycanın, Gürcüstanın, Türkiyənin müxtəlif bölgələrində fəaliyyət göstərmişdir. 1918-ci ildə Naxçıvanda erməni təcavüzünə qarşı könüllü xalq dəstələrinin yaradılmasında təşəbbüskarlıq göstərmiş və özü də bu dəstəyə qoşulmuşdur. Naxçıvanın Azərbaycanın tərkibində qalması haqqında Antanta dövlətlərinin Ermənistandakı ali komissarı, amerikalı polkovnik V.Haskelə təqdim etdiyi sənədin altında Əli Səbri Qasımovun da imzası vardır. 1919-cu ilin yayında ingilis-daşnak birləşmələri Naxçıvanda kütləvi həbslərə və repressiyalara başlayarkən Əli Səbri Qasımov da həbs olunaraq Aleksandropola (Gümrüyə) sürgün edilmişdir. Daha sonralar sovetləşmədən sonra da repressiya illərində Ə.Səbri bir neçə dəfə həbs olunmuşdur. Bütün bu əzablı, mürəkkəb həyat yoluna baxmayaraq o bədii, publisistik yaradıcılığını həmişə davam etdirmişdir. Əli Səbri "Molla Nəsrəddin" jurnalında "Tağyanuszadə" imzası ilə çıxışlar etmiş, "Solğun çiçək" romanını, "Balaca və Xallı" povestini yazmışdır. Əli Səbri Qasımov 1925-1930-cu illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsində təhsil almışdır. "Maarif işçisi" jurnalının redaktoru, "Azərnəşr"in bədii ədəbiyyat şöbəsində redaktor, Azərbaycan yazıçılar İttifaqı ədəbi fondunun sədri olmuş, bir çox povest və hekayələr yazmış, rus və dünya ədəbiyyatından Azərbaycan dilinə tərcümələr etmişdir. Əli Səbri bir-birindən maraqlı nəsr əsərlərinin müəllifidir. Onu ədəbiyyatımızda tanıtmış və ona şöhrət qazandırmış ilk əsəri "Solğun çiçək" romanı olmuşdur. Bu əsərdə iki gəncin sevgi məhəbbəti canlandırılsa da əsərin əsas mahiyyətini mövcud dövrdəki hakimiyyətə qarşı etirazlar təşkil etmişdi. Onun bu əsəri Bakıda Orucovların mətbəsində 1913-cü ildə nəşr olunmuşdur. Əli Səbri "Hümayə", "Qaraçı", "Balaca xallı", "Firuzun kədəri" və "Şəbi-hicran" kimi qiymətli əsərlər də yazmışdır. Onun bu əsərlərinin ideya mərkəzində pak sevgi və mənəvi saflıq dururdu. Bununla yanaşı Əli Səbri 1918-1920-ci illərdə Nax-

çıvanın ictimai-siyasi həyatında fəal iştirak etmiş, Naxçıvan bölgəsinin erməni təcavüzündən qorunmasında fədakarlıqlar göstərmişdir.

Qori Seminariyasının məzunlarından biri də Qurban Abdulla oğlu Həsənovdur. Noraşen (İndiki Şərur) rayonunun Zeyvə kəndindəndir. Pedaqogikadan "Azərbaycanda ikinci beşillik dövründə pedaqoji kadr problemi" mövzusunda pedaqogika üzrə namizədlik dissertasiyası yazmış və 1933 –cü ildə müdafiə etmişdir. O, 1932-cı ilin əvvəllərində "Təhsil sahəsində Elmi-Tədqiqat Pedalogiya İnstitutu"nda (İndiki "Azərbyacan Respublikasının Təhsil İnstitutu") pedaqogika bölməsinin rəhbəri vəzifəsində çalışmışdır. Onun həmin dövr üçün xarakterik olan "Xalq maarifinin planlaşdırılması və təşkili" adlı tədqiqat işi diqqəti cəlb etmiş və yüksək qiymətləndirilmişdir.

1937-ci ildə əqidəsinə görə həbs edilmişdir. Günahsız olaraq həbs olunduğunu və azad olması üçün RSFSR-in Krasnoyarsk ölkəsinin Şimali Yenisey rayonundakı Novaya Eruda qəsəbəsində həbsxanadan Mircəfər Bağırova məktub yazmışdır. Məktubunda ixtisarla belə yazılır: "Hörmətli Bağırov yoldaş! ... Mən 1917-ci ildə Qori Müəllimlər Seminariyasında təhsil almışam. 1929-cu ildə Krupskaya adına Kommunist Tərbiyəsi Akademiyasını bitirmiş, 1932-ci ildə həmin akademiyanın pedaqoji üzrə aspiranturasını qurtarmışam. 1933-cü ildə "Azərbaycanda ikinci beşillik dövründə pedaqoji kadr problemi" mövzusunda dissertasiya müdafiə etmişəm. Pedaqoji fəaliyyətə 1918-ci ildən başlamışam, bu sahədə bir çox məqalələr müəllifiyəm. 1935-ci ildə Moskvanın "Revolyutsiya nasionalnostey" jurnalında "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasında xalq maarifinin vəziyyəti və perspektivləri" adlı məqaləm dərc olunmuşdur.

Yoldaş Bağırov! Mən özüm Noraşen rayonunun Zeyvə kəndindənəm. Atam ömrünün sonunadək bərbər olmuşdur. Qardaşlarım sovet hakimiyyəti qurulanadək muzdur idilər. Yalnız mən elmi qabiliyyətimə görə dövlət hesabına Müəllimlər Seminariyasına

qəbul olunmuşam. 1937-ci il oktyabr ayının 3-də Bakı şəhərində həbs edilmişəm... Sizə müraciət etməklə, yoldaş Bağırov, artıq dərəcədə xahiş edirəm ki, düşdüyüm ağır vəziyyətdən çıxmaqda mənə kömək əlinizi uzadasınız". Məktubdan göründüyü kimi Bir ziyalı, alim, müəllim-pedaqoq 37-cu ilin repressiya qurbanı olmuş və əfv edilmək üçün müraciət etmişdir. Hüseyn bəy Baxşəli oğlu Minasazov (1881-1932) - Qori Müəllimlər Seminariyasının məzunu (1889-1894) uzun müddət Naxçıvanda yaşamış, Naxçıvanda çalışmış və Naxçıvan pedaqoji mühiti ilə sıx bağlı olmuşdur. 1899-cu ildə seminariyanı bitirdikdən sonra H.Minasazov bir müddət Borçalıda, Salyanda, Bakıda müəllimlik etmiş, sonra isə Naxçıvana köçmüş və burada arxivlər idarəsində elmi işçi kimi çalışmış və elmi-pedaqoji fəaliyyətlə, naşirliklə, qəzetçiliklə və jurnalistlik fəaliyyəti ilə məşğul olmuş, publisistik yazılar yazmışdır. Hüseyn Minasazovun mübariz publisist kimi yetişməsində dövrunün görkəmli ədib və ziyalılarının - xüsusilə M.Şahtaxtılı, C.Məmmədquluzadə, M.T.Sidqi, Ə.Qəmküsar, M.S.Ordubadi, Ö.F.Nemanzadə, Ə.Haqverdiyev, A.Sereteli, İ.Çavçavadze və başqalarının mühüm rolu olmuşdur. 1902-ci ildə ildə Hüseyn Minasazov Bakıda "Kaspi" qəzetinin korrektoru olmuş, və bu qəzetdə "İnsan", "Oğul" və başqa kiçik hekayələrini çap etdirmişdir. 1906-cı ilin ortalarında Hüseyn Minasazov Tiflisdə "Zaqafqaziye" qəzetində əməkdaşlığa başlamışdır. Hüseyn Minasazov burada məşhur Cəlil Məmmədquluzadə və inqilabçı-demokratik hərəkatın banilərilə yaxından tanış olmuşdur.

1907-ci ilin axırlarında Hüseyn Minasazov "Zakafkaziye" qəzetinin müxbiri kimi Təbrizə yola düşmüş, orada-Cənubi Azərbaycanda milli-azadlıq hərəkatının gedişini qəzet vasitəsilə işıqlandırmışdır. Hüseyn Minasazov 1909-cu ildə Peterburqa getmişdir. Onun mahir bir jurnalist-publisist kimi yetişməsində Peterburq mühitinin də çox böyük təsiri olmuşdur.1908-1910-cu illərdə Hüseyn Minasazov bir xeyriyyəçi kimi xarici şəhər və dövlətlərdə oxuyan müsəlman ali məktəb tələbələrindən yüzlərlə minnətdarlıq məktubu almışdır. H.Minasazov teatrın inkişafı, qadın azadlığı məsələlərinə

xüsusi diqqət yetirmiş və ciddi münasibət göstərmişdir. H.Minasazovun məqalələrində təhsilin ana dilində aparılması məsələsinə toxunmuş, məktəblilər üçün dərsliklərin yaradılması və başqa vacib məsələlər haqqında dəyərli fikirlər söyləmişdir. Bütün bunlar da onun maarif fədaisi olduğunu, fəal bir ziyalı, istedadlı pedaqoq olduğunu deməyə əsas verir. H.Minasazovun ədəbiyyat və incəsənətə dair xeyli məqalələr yazmışdır. Onun M.F.Axundzadə, M.T.Sidqi, S.M.Qənizadə, H.Mahmudbəyov, N.Nərimanov, C.Məmmədquluzadə, M.Ə.Sabir, Ü.Hacıbəyov, H.Ərəblinski, Şövkət Məmmədova haqqında yazdığı məqalələr ədibin yaradıcılığında xüsusi yer tutur. H.Minasazov məqalələrində C.Məmmədquluzadənin uğurlarını xüsusi vurğulamış, 1909-cu ildə məşhur “Ölülər” əsəri haqqında da ilk söz deyən, onun “Poçt qutusu” nu 1915-ci ildə İ. Aşurbəyovun mətbəəsində çap etdirən H.Minasazov olmuşdur. Mirzə Cəlilin "Əsarət" məqaləsini rus dilinə tərcümə edərək "ОГНИ" jurnalında dərc etdirmişdir.

Uzun illər ailə arxivimizdə saxlanılan və bu gün əlimizdə olan görkəmli pedaqoq M.T. Sidqinin uşaqlar üçün yazdığı “Kəblə Nəsir” mənzum hekayəsini 1912-ci ildə “Oliqetrik” mətbəəsində çap etdirən də H.Minasazov olmuşdur. Əsərin üzqabığında yazılmışdır: “Yazanı mərhum Məhəmməd Tağı Sidqi. Naşiri Hüseyn Bəy Minasazov. Bakı, “Oliqetrik” 1912. “Bu kitabın mənfəəti mərhumun külfətinindir” sözləri yazılmışdır.

Qori Seminariyasının naxçıvanlı məzunları maarif və mədəniyyətimizin inkişafında böyük xidmətlər göstərmişlər. Onlar yeni, dünyəvi, müasir təhsilin, mütərəqqi elmin carçıları olmuşlar. Naxçıvan teatrının qurulub, inkişaf etməsində, kitabxanaların təşkilində, elmi, ədəbi-pedaqoji cəmiyyətlərin yaradılmasında, savadsızlığın, geriliyin aradan qaldırılmasında, qadın təhsilinin inkişafında geniş və hərtərəfli işlər aparmışlar.

## 8.2. İRƏVAN MİLLİ MAARİFÇİLİK MÜHİTİ. İRƏVAN MÜƏLLİMLƏR SEMİNARIYASI VƏ PEDAQOJİ KADR HAZIRLIĞI MƏSƏLƏLƏRİ

İrəvan maarifçilik mühiti milli təhsilimizin, maarif və mədəniyyətimizin inkişafında xüsusi yeri və əhəmiyyəti vardır. İrəvan maarifçilik mühitinin öyrənilməsi pedaqoji fikir tariximizi, təhsil tariximizi yeni bilik  və məlumatlarla xeyli zənginləşdirir və dəyərli ensiklopedik mənbəyə çevrilir.

Bu gün İrəvan maarifçilik mühiti ilə tanış olan müasir oxucu, xüsusilə gənclərimiz bizim qədim, ulu torpaqalrımızın Qərbi Azərbaycan dediyimiz məkanda, əzəli Azərbaycan torpaqlarında xalqımızın necə zəngin maarif və mədəniyyətə sahib olduğunun, necə dəyərli məktəblər, texnikumlar, ali məktəblər yaratdıqlarının, bu təhsil ocaqlarında necə fədakar, səriştəli, peşəkar pedaqoji kadrların, elm xadimlərinin yetişməsini öyrəndikcə milli iftixar hissi keçirir və qürur duyurlar.

Mənbələrdən məlum olur ki, İrəvanda dünyəvi məktəblər açılana qədər hələ XIII, XIV əsrlərdə Novruzəli bəy məscidi, Abbas Mirzə məscidi, Şah Abbas məscidi və digər adlarla məscidlər inşa edilmişdir ki, bu məscidlərin nəzdində mollaxana və mədrəsələr fəaliyyət göstərmişdir. XVIII əsrdə İrəvan xanı Hüseyn Əli xanın əmriylə 1766 -cı ildə burada möhtəşəm Göy Məscid inşa edilmişdir ki, bu İrəvan şəhərində o dövrdə inşa edilən məscidlərin ən böyüyü hesab edilmiş və onun nəzdinə məktəb və mədrəsələr fəaliyyət göstərmişdir.

Daha sonralar xanlıqlar Rusiya tərəfindən işğal olunduqdan sonra İrəvanda Qəza məktəbləri, progimnaziyalar, gimnaziyalar, realni məktəblər və s. məktəblər yaranmışdır.

Əsası 1747-ci ildə Mir Mehdi xan tərəfindən qoyulan İrəvan xanlığı Ağrıdağ ovasını, Göyçə gölünün sahillərini, Araz çayını əhatə edirdi. Xanlıq Naxçıvan və Maku xanlıqları ilə, Osmanlı İmperiyası, Kartli-Kaxetiya çarlığı, Borçalı, Qazax sultanlıqları və

Qarabağ xanlığı ilə həmsərhəd olmuşdur. Xanlığın mərkəzi İrəvan şəhəri olmuşdur.

İrəvan xanlığında türkdilli azərbaycanlıların yerli xalq olması faktları Qafqazın ali baş komandanı general Paskeviçin rəsmi məlumatlarında da qeyd edilmişdir.

ABŞ-dan olan professor Kastin Makkarti Rusiya işğalına - 1828-ci ilə qədər İrəvan xanlığı əhalisinin 80 faizinin yerli türklər olduğunu göstərmişdir. S.Şopen 1828-1832-ci illərə qədər İrəvan xanlığında əhalinin mütləq çoxluğunu müsəlmanların, yəni azərbaycanlıların təşkil etdiyini yazmışdır. Onun hesablamalarına görə, İrəvan əyalətində 16.075 ailə (81.749 nəfər) müsəlman, 4.428 ailə (25.151 nəfər) isə erməni idi.

Şəhər ruslar tərəfindən alınandan sonra əhalinin bir qisminin İrana köçməsinə baxmayaraq, yenə də azərbaycanlılar şəhər əhalisinin böyük əksəriyyətini təşkil etmişdir. 1829-cu ilin məlumatına görə, təkcə İrəvan şəhərində əhalinin beşdə dördünü və ya 80 faizini azərbaycanlılar təşkil edirdi.

XIX əsrin əvvəllərindən başlayaraq 1920-ci ilə qədər İrəvan sürətlə inkişaf etmiş və bu bölgə böyük mədəniyyət mərkəzlərindən biri olmuşdur. İrəvan şəhəri Bakı, Təbriz, Naxçıvan, Xoy və başqa şəhərlər kimi Azərbaycanın aparıcı elm və mədəniyyət mərkəzi olmuşdur. Buna görə də Şərq elmi tarixində xeyli "İrəvani" təxəllüslü məşhur şəxslərə rast gəlmək olur.

Məsələn, Mirzə Qədim İrəvani (1825-1875) məşhur rəssam və nəqqaş olmuş, bir çox əsərləri Sankt-Peteburqda-Ermitajda saxlanılır. Hacı Süleyman ibn Salman Qacar İrəvani - XVIII əsrdə yaşamış görkəmli Azərbaycan həkimi və alimi olmuşdur.Şeyxülislam Fazil İrəvani - XIX əsrdə Qafqazın Şeyxülislamı olmuşdur.

Elə böyük alimlər də olmuşdur ki, onlar İrəvani nisbəsi ilə deyil, öz dövrü üçün mühüm olan başqa bir şəhərin (və ya əyalətin) adını özünə nisbə götürmüşdür. Bu adamlar da öz vətənlərinin əzəli Azərbaycan torpaqları olmasını sübut edən bir fakt kimi özlərinə nisbə, "təxəllüs" seçmişlər. Belə şəxslərdən biri qədim zamanlarda

yaşamış Əbül-Fədl İsmayıl ibn Əli ibn İbrahim əl-Gəncəvi kimi böyük alim fiqh və hədis elmlərini Əli əl Masisi kimi mötəbər alimdən dərs almışdır. Əli əl-Masisi on birinci yüzillikdə yaşamış böyük alim olmuşdur.

XIX əsrin 1880-ci illərin əvvəllərində İrəvanda kadr hazırlayan üç böyük tədris müəssisəsi yaranıb fəaliyyət göstərmişdir.

Onlardan biri 1881-ci ildə açılmış İrəvan Kişi Gimnaziyası, ikincisi yenə həmin il - 1881-ci ildə yaranmış İrəvan Müəllimlər Seminariyası və üçüncüsü 1884-cü ildə yaranmış İrəvan qız progimnaziyasıdır.

1881-ci ildə açılmış İrəvan Kişi Gimnaziyasının direktoru Vladimir İosifoviç Brajnikov olmuşdur. 1881-ci ildə burada 216 tələbə təhsil almşıdır.

Gimnaziyada təhsil müddəti 4 il olmuşdur. 1883-cü ildə gimnaziyada 37 azərbaycanlı tələbə oxuyurmuş. Gimnaziyanın ilk buraxılışı 1885-ci ildə olmuşdur. 1881-1915- ci illər ərzində Gimnaziyada 582 azərbaycanlı təhsil almışdır. Bu gimnaziyanın pansionu var idi ki, görkəmli ədəbiyyatşünas alim, Əməkdar Elm Xadimi Əziz Şərif də burada hazırlıq mərhələsi keçmiş, sonra da İrəvan Kişi Gimnaziyasında təhsilini davam etdirmişdir.Əziz Şərif xatirələrində yazır: "İrəvanda pansionda yaşayan zaman atam mənə fars dili müəllimi tapmışdı. Bəxtimdən mənim İrəvandakı müəllimim olduqca bilikli və təcrübəli imiş". Cabbar bəy Məmmədovun atası Molla Abbas fars dilinin mütəxəssisi olduğu üçün "Fars Abbas" adı ilə şöhrət tapmışdı.

Gimnaziyanın çox görkəmli tanınmış müəllimləri olmuşdur.

Firudin bəy Köçərli 1892-ci ildən İrəvan Kişi Gimnaziyasında Azərbaycan bölməsinin müdiri, eyni zamanda Azərbaycan dili müəllimi işləmişdir. Bu böyük maarif xadimi gimnaziyada müsəlman şöbəsinin müdiri və gimnaziyanın tərkibində olan pansionun müdiri vəzifələrində də çalışmışdır. İrəvan gimnaziyasında çalışdığı illərdə F.Köçərli maarif məsələlərinə dair dəyərli məqalələr yazmış, Zöhrabzadə ilə birlikdə"Təlimi-lisani-türki" adlı dərslik tərtib et-

miş, “Təlimati-Sokrat” (1891) adlı fəlsəfi əsərini nəşr etdirmiş, rus klassikllərindən bədii tərcümələr etmişdir. Daha sonralar onun yazdığı “Balalara hədiyyə” kitabı uşaq  ədəbiyyatı üçün ən dəyərli əsərlərdən sayılmaqdadır

F.Köçərli İrəvan gimnaziyasında 10 illik fəaliyyətindən sonra 1895-ci ilin oktyabr ayından Qori Müəllimlər Seminariyasında pedaqoji fəaliyyətini davam etdirmişdir.

İsmayıl bəy Şəfibəyov F.Köçərlidən sonra 1895-ci ildən İrəvan Kişi Gimnaziyasının həm müsəlman şöbəsinin müdiri, həm Azərbaycan dili müəllimi, həm də gimnaziyanın nəzdində pansionun müdir müavini kimi fəaliyyət göstərmişdir.

Mirzə Abbas Məhəmmədzadə XIX əsrin sonları və XX əsrin əvvəllərində Qərbi Azərbaycanda, xüsusən də İrəvanda ictimai-siyasi, mədəni və ədəbi mühitdə barmaqla göstərilən məşhur ziyalılardan biri kimi tanınırdı. Başqa ziyalılardan onu fərqləndirən ən üstün cəhəti zamanının ensiklopedik biliyə malik fars dili mütəxəssisi olması idi. O həm pansionda, həm də İrəvan Kişi Gimnaziyasında fars dilindən dərs deməsi, tələbkar bir müəllim tək şagirdlərinin rəğbətini qazanması, “Razi” təxəllüsü ilə ədəbi-bədii cəhətdən dolğun məzmunlu şerlər yazması onu daha məşhur etmişdir.

Molla Tağı Mahmud oğlu İrəvan Kişi Gimnaziyasında 1836-1856 -cıilədək, Mirzə Ələkbər Elixanov isə 1856-1885-ci ilədək burada dərs demişdir.

Mirzə Ələkbər Elxanov əslən Uluxanlıdandır. Şəhərdəki Şah Abbas məscidi nəzdindəki mədrəsədə mükəmməl təhsil almışdır. Onun səs üsulu Həm pansionda, həm də gimnaziyada fars dilindən dərs deməsi, tələbkar bir müəllim tək şagirdlərinin rəğbətini qazanması, “Razi” təxəllüsü ilə ədəbi-bədii cəhətdən dolğun məzmunlu şerlər yazması onu daha məşhur etmişdir.

Onun tərtib etdiyi “Vətən dili” dərsliyi XIX yüzilliyin 80- ci illərində Rusiya Xalq Maarif Nazirliyində müzakirə edilərək çapa tövsiyə edilmişdir. Sözü gedən əsrin sonlarına doğru İrəvanda yeni məktəblər açılır, şəhərin teatr həvəskarları tez-tez tamaşalar

göstərirdilər. “Rus-Azərbaycan” qız məktəbləri əhalinin rəğbətini qazanmışdı.

İrəvan Kişi Gimnaziyasının görkəmli məzunları olmuşdur:

İrəvan Kişi Gimnaziyasının tanınmış məzunlarından biri Eynəli bəy Sultanov olmuşdu. O, Naxçıvan qəza məktəbində ibtidai təhsilini 1879-cu ildə başa vurmuş, bir il sonra, yəni 1880-cı ildə İrəvan Kişi Gimnaziyasına daxil olmuş, 1886-cı ildə oradan məzun olmuşdur. Eynəli bəy Sultanova 1886-cı il, 5 iyun gimnaziyanın pedaqoji şurasını qərarı ilə 538 saylı müəllimlik hüququ verən Şəhadətnamə təqdim edilmişdir. Gimnaziyanı bitirdikdən sonra Eynəli bəy 1886-1891-ci illərdə fasilələrlə Naxçıvanda yaşamış, Qarsda "Mühüm işlər üzrə məmur"  vəzifəsində çalışmışdır. Eynəli bəy Sultanov Gimnaziyada oxuduğu müddətdə mükəmməl təhsil almış, xüsusən Avropa dövlətlərini və Qərb maarifçiliyini dərindən öyrənə bilmişdir. O, xarici dillərdən rus, latın, yunan və fransız dillərini, habelə riyaziyyat, fizika, tarix, coğrafiya, ilahiyyat, ədəbiyyat kimi fənnləri də mükəmməl  öyrənmişdir.

Eynəli bəy Sultanov geniş ədəbi, pedaqoji, publisistik fəaliyyəti ilə yanaşı, həm də folklorumuzun mahir bilicilərindən olmuş, Naxçıvan folklorunun toplanmasında, yayılmasında böyük əmək sərf etmişdir. Görkəmli ədib folklor toplayıcısı kimi 1886-1890-cı illərdə - 4 il müddətində İrəvan quberniyasını və Naxçıvan diyarını dolaşaraq 3 mindən çox atalar sözü və zərbül -məsəllər, əfsanə və rəvayətlər, Şəbeh xalq tamaşaları, aşıq yaradıcılığı nümunələri toplamışdır. Topladığı folklor materiallarının bir çoxunu 20 məktub vasitəsilə Firudin bəy Köçərliyə göndərmişdir.

E.Sultanov 1882-ci ildə öz evində “Ziyalılar cəmiyyəti”, 1883- cü ildə “Müsəlman incəsənəti və dram cəmiyyəti”  yaratmış və öz evində ilk teatr tamaşaları təşkil etmiş və özünün yazdığı “Tatarka” (“Azərbaycan qadını”. Əsər bəzi mənbələrdə “Sənəm” adı ilə də işlədilmişdir) adlı tamaşa ilə ev şəraitində ilk tamaşa göstərmiş, əsərin baş qəhrəmanı Sənəm obrazını da gənc müəllifin özü oynamışdır. Bu tamaşa qadının ictimai mövqeyi, hüquqları, ailə -

məişət həyatı məsələlərinə həsr olunmuşdu ki, o dövr üçün bu çox mühüm və mütərəqqi hadisə idi. C.Məmmədquluzadə "Xatirələr"ində yazırdı ki, ilk dəfə qadın hüquqlarını müdafiə edən Eynəli yoldaşımız olmuşdur.

XIX əsrin səksəninci illərindən başlayaraq dövrünün mətbuat orqanları ilə əməkdaşlığa başlayan E.Sultanov bir çox qəzet, jurnal və məcmuələrdə müxtəlif mövzulu yazılarla çıxış edir və ictimaiyyət arasında qələmli publisist kimi tanınırdı. Məhz qələminin kəsərli olmasının nəticəsi idi ki, 1905-1908-ci illərdə "Kaspi" qəzetinin İrəvan və Naxçıvandakı xüsusi müxbiri vəzifəsi ona həvalə edilmişdi. İrəvanda olarkən 10 il müddətinə hüquq sistemində müxtəlif vəzifələr daşıması artıq E.Sultanovu bir hüquqşünas kimi də yetişməsinə səbəb olmuşdur. Buna görə də 1906-cı ildən etibarən İrəvan Dairə məhkəməsi prokurorunun Naxçıvan mahalı üzrə köməkçi vəzifəsini də daşımışdır. Hətta 1907-ci ildə Dövlət Dumasına deputat seçilmişdir.

O, Tiflisdə yaşayarkən pedaqoji fəaliyyətlə də məşğul olmuş, belə ki, 1912 -ci ildən 1916 -cı ilə qədər Tiflis Birinci Qadın Gimnaziyasında rus dili müəllimi, 1917-ci ildən isə ana dili müəllimi və sinif nəzarətçisi vəzifəsində çalışmışdır. O latın əlifbasına keçmək uğrunda ardıcıl səy göstərmiş, Yeni Əlifba Tiflis şöbəsinin katibi vəzifəsini daşımışdır.

Ömrünü xalqının maariflənməsinə, tərəqqisinə həsr edən, humanizm ideyaları təbliğ edən, qadın azadlığı, dini fanatizmin aradan qaldırılması və yeni əlifba uğrunda mübarizə aparan Eynəli bəy Sultanovun bütünlüklə həyatı, fəaliyyəti, yaradıcılıq irsi vətənə, xalqına, millətinə həsr edilmişdir.

Mustafa bəy Topçubaşov (1895-1981)- Akademik. İrəvan Kişi Gimnaziyasını sonuncu qızıl medalçısı olmuşdur (1904-1914). Daha sonra Kiyev universitetinin tibb fakültəsində təhsil almış, görkəmli cərrah, ictimai və dövlət xadimi olmuşdur.

Əziz Əliyev (1897-1962 ) Akademik. - İrəvan Kişi Gimnaziyasını 1917-ci ildə fərqlənmə diplomu ilə bitirmiş, Hacı Zeynalab-

din Tağıyevin maliyyə yardımı ilə Sankt-Peterburq Hərbi Tibb Akademiyasında təhsil almış, Səhiyyənin müxtəlif sahələrində yüksək vəzifələrdə çalışmış, Tibb İnstitutunun rektoru olmuş, professor, "Əməkdar həkim", ictimai və dövlət xadimi olmuşdur.

Əhməd Rəcəbli (1898-1963) Akademik. 1907- ci ildə Gimnaziyaya daxil olmuş və 1916-cı ildə oranı gümüş medalla bitirmişdir. 1919- cu ildə AXC hökuməti Ə. Rəcəblinin İtaliyaya oxumağa göndərmiş, qayıtdıqdan sonra Moskva Universitetində dərs demiş, Zaqatalada Kənd Təsərrüfatı texnikumu yaratmış, ora rəhbərlik etmiş, 1937 -ci ildə həbs edilmiş, 1963-cü ildə vəfat etmişdir.

Heydər Hüseynov (1908-1950) - Akademik. Əmək fəaliyyətinə 1924-cü ildən başlamış, pedaqoji texnikumun kitabxanasında işləmişdir. 1931-ci ildə ADPİ -nin ictimai elmlər fakültəsinin qiyabi şöbəsini bitirmişdir. 1931-1932-ci illərdə Azərbaycan Elmi -Tədqiqat İnstitutunun aspirantı olmuşdur. 1939-cu ildə "M.F.Axundovun fəlsəfi görüşləri" mövzusunda namizədlik, 1944 -cü ildə isə doktorluq dissertasiyası müdafiə etmişdir. 1936-1940-cı illərdə Heydər Hüseynov SSRİ Elmlər Akademiyası Azərbaycan filialı Ensiklopediya və Lüğətlər İnstitutunun direktoru olmuşdur. 1939-1945-ci illərdə SSRİ Elmlər Akademiyası Azərbaycan Filialı sədrinin müavini, 1945- 1950-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının vitse prezidenti olmuşdur. 1943- 1945-ci illərdə Azərbaycan Dövlət Universitetinin əvvəl fəlsəfə kafedrasının müdiri, 1945-1950-ci illərdə Azərbaycan Partiya Tarixi İnstitunun direktoru olmuşdur. O, Bəhmənyar, Nizami Gəncəvi, Bakıxanov, Mirzə Kazım Bəy, Həsən Bəy Zərdabi və başqaları haqqında 100- dən artıq dəyərli elmi - tədqiqat işləri aparmışdır.

Mehdi Kazımov - (1890-1954) İrəvanda azərbaycanlı ziyalıların təşəbbüsü ilə yaradılan ilk təhsil ocaqlarında rus dili dərsi dərs demiş, 1924-cü ildə İrəvan Türk Pedaqoji Texnikumunun açılmasının təşəbbüskarı və ilk direktoru olmuşdur.

Miryusif Mirbabayev (1889-1951) Miryusif Mirbabayev ilk təhsilini İrəvan rus-tatar məktəbində, daha sonra İrəvan Kişi gimna-

ziyasında almışdır. O, 1916-cı ildə Moskva Universitetinin hüquq fakültəsini bitirmişdir. Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra M. Mirbabayev Azərbaycan İrəvandakı diplomatik nümayəndəliyində katib işləmişdir.

Akademik Heydər Hüseynovun rəhbərliyi altında hazırlanmış (1940-1946) 4 cildlik "Rusca-azərbaycanca lüğət"ə görə 1948-ci ildə yüksək dövlət mükafatı verilmişdir. Miryusif Mirbabayev 1951-ci ildə Bakıda vəfat etmişdir.

Maqsud Məmmədov-ictimai xadim, 1929-cu ildə Bakı Dövlət Universitetinin rektoru, maarif naziri olmuşdur.

Adil və Əslidar Muğanlinski- qardaşları Almaniyanın Leypsiq Universitetində təhsil almışlar.

Səid Rüstəmov (1907-1983) - Görkəmli bəstəkar, dirijor, pedaqoq. Azərbaycanın xalq artisti. 1921-ci ildə o, Bakıya köçərək müəllimlər seminariyasını, 1929-cu ildə Musiqi Texnikumunu və 1932-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun kimya fakultəsini bitirmişdir.

Səid Rüstəmov musiqi sənətinə ilk dəfə tarzən kimi gəlmiş, bu sənətin sirlərini Azərbaycan professional musiqisinin banisi Üzeyir Hacıbəyovdan və tarzən Mansur Mansurovdan mənimsəmişdir. S.Rüstəmov 1931-ci ildə Ü. Hacıbəylinin təşkil etdiyi ilk notlu Azərbaycan xalq çalğı alətləri orkestrinin yarandığı gündən əvvəl konsertmeyster, daha sonra isə həmin orkestrin bədii rəhbəri və baş dirijoru kimi uzun illər fəaliyyət göstərmişdir. 1930-cu illərdə bəstəkarlığa başlayan S.Rüstəmovun ilk əsəri “Bayatı-kürd” muğamı əsasında fantaziya məhz xalq çalğı alətləri orkestri üçün yazılmışdı. Sonralar o, həmin orkestr üçün “Cəngi” və “Qəhrəmani” pyeslərini, üç süita, tar konserti və bir sıra kantatalar bəstələmişdir.

Daha başqa görkəmli tanınmış şəxsiyyətlər: Həsən Seyidov, Hüseyn Şahtaxtinski, Mirhəsən Mirbababayev, Əbdülhəmid Qənizadə, Əsədula Bəy Kəngərlinski, Abbasqulu Bəy Şadlinski, Rza Bəy Səfərbəyov, Abbas Ağa Fərəcov, Qulam Fərhadov, Əjdər bəy Hacıbəylinski, Əbdülhəmid Qənizadə, Hüseyn Şahtaxtinski, Rza

Ağayev, Əkbər bəy Qazıyev, Həbib bəy Səlimov və başqaları İrəvan Kişi Gimanziyasını bitirmişlər.

1918-ci il avqustun 6-da İrəvanda erməni daşnaklarının törətdiyi fəlakətlər nəticəsində həm İrəvan Kişi Gimnaziyası, həm də İrəvan Müəllimlər Seminariyası fəaliyyətini dayndırmışdır.

İrəvanda Azərbaycan dilində kitab çapına XIX əsrin 80-ci illərindən başlanmışdır. Kitab nəşri sahəsində ilk təşəbbüsü Molla Hüseyn İrəvani göstərmiş, onun 121 səhifəlik şəkilli 1888-ci ildə Təbrizdə daş basması ilə "Müseyibnamə" kitabı, bir il sonra Mirzə Ağa Əli Həkimi İrəvaninin növhə və qəzəllərindən ibarət 239 səhifəlik divanı həm azərbaycan dilində, həm də fars dilində çap olunmuşdur. İrəvan məktəb müəllimlərindən Mirzə Qəmərlniski, Haşım bəy Nərimanbəyov, Şahtaxtınski, Rəcəbov, Qazıyev, Məhəmmədov, Şəfibəyov, Sultanov və Mirzə Ələkbər Mirzazadənin yazdıqları I, II, III "Ana dili" dərslikləri 1907-1908-ci illərdə Tiflisdə "Qeyrət" mətbəəsində, Abbas Məmmədzadənin "Bədərəqətülətfal" kitabı 1911-ci ildə Bakıda Orucov qardaşlarının elektrik mətbəəsində, Həsənzadə Mirzə Hüseyn İrəvaninin "Tamam əlifba" kitabı Tiflisin "Kultura" mətbəəsində (1913) çap olunmuşdur..

*1881-ci il, 8 noyabrda İrəvan şəhərində İrəvan Müəllimlər Seminariyası açılmışdır.*

37 il fəaliyyət göstərən bu təhsil ocağı 1918-ci ilin 6 avqustunda Uluxanlı məktəbi ilə eyni vaxtda bağlanmışdır. Seminariyanın direktoru, görkəmli maarifçi Yakop Stepanoviç Şuşevski əsas diqqəti tədris ocağını müəllim kadrları və şagird kontingenti ilə təmin etməyə yönəltmişdi. Onun səyi nəticəsində birinci il seminariyaya 9 müəllim və 42 şagird cəlb edilmişdi. Seminariyanın Azərbaycan bölümünün rəhbəri Axund Məmmədbağır Qazızadə olmuşdur. Seminariyaya Azərbaycanın müxtəlif bölgələrindən bura təhsil almağa gəlmişlər. İrəvan Müəllimlər Seminariyası xalqın maariflənməsində, intellektual potensialının yüksəlməsində mühüm rol oynamışdır.

Seminariyanın fəaliyyətində Qori Müəllimlər Seminariyasının

azərbaycanlı məzunlarının böyük rolu olmuşdur. Görkəmli maarifçi-demokratlar Firudin bəy Köçərli, İsmayıl bəy Şəfibəyov, C.Ələkbərbəyov, Cəlil Məmmədquluzadə, M.Terequlov və başqalarının ilk pedaqoji fəaliyyəti İrəvan Kişi  Gimnaziyası, Uluxanlı kənd məktəbi və İrəvan Müəllimlər Seminariyası ilə sıx bağlı olmuşdur.

Müəllimlər Seminariyası fəaliyyətə iki qrupla başlamışdır: böyük hazırlıq qrupu və birinci sinif. Sonrakı dərs ilində ikinci sinif, 1883-cü ildə isə üçüncü sinif təşkil edilmişdi. Beləliklə, Qafqazda olan bütün müəllimlər seminariyası kimi, İrəvan Müəllimlər Seminariyası da 4 sinifdən ibarət olmuşdur. Hər il müəllimlər seminariyasının hazırlıq qrupuna və I sinfə qəbul elan edilirdi. II və III siniflərə birbaşa qəbul olunmağa icazə verilmirdi. Əsasnaməyə görə seminariyaya yalnız oğlanlar qəbul oluna bilərdi.  Qəbul imtahanları ilahiyyat, rus dili, hesab, həndəsə, coğrafiya, tarix və biologiya fənlərindən aparılırdı.

İrəvan Müəllimlər Seminariyasının nəzdində ibtidai məktəb fəaliyyət göstərirdi. Seminaristlər pedaqoji təcrübələrini həmin məktəbdə keçirdilər. Ordubad şəhər məktəbi həmin seminariyanın təcrübə məktəbi hesab olunurdu. Burada müxtəlif fənlər tədris edilməklə yanaşı, həm də bir sıra peşələr  öyrədilirdi. Bu cəhətdən İrəvan Müəllimlər Seminariyasında xarratlıq, cildçilik, tərəvəzçilik və ipəkçilik fənləri də tədris olunurdu.

Seminariyanın 1885-ci ildə ilk buraxılışı olmuşdur. Məzunlar içərisində 25 nəfər azərbaycanlı var idi ki, bu məzunlar İrəvan qəza məktəblərində, Naxçıvanda, Uluxanlıda dərs deməyə başlamışlar.

Seminariyanın ikinci buraxılışı beş ildən sonra -1890-cı ildə olmuşdur. Bu buraxılışda 69 nəfər azərbaycanlı məzun olmuşdur.

İrəvan Müəllimlər Seminariaysının müsəlman şöbəsinin müxtəlif vaxtlarda direktorları Məmmədbağır Qazızadə, Rəşid Bəy Şahtaxtinski, Həmid Bəy Şahtaxtinski, Cəfər Bəy Cəfərbəyov olmuşdur:

İrəvan Müəllimlər Seminariyası haqqında pedaqoji mətbuatda az məlumat verilmişdir. Buna baxmayaraq bu seminariyanın

müəllimləri və məzunları haqqında bəzi məlumatlar əldə edə bilmişik.

İrəvan Müəllimlər Seminariyasının əldə etdiyimiz məlumata əsasən müəllimlərindən aşağıdakıların adlarını çəkə bilərik: Məmmədbağır Qazızadə, Axund Məmmədbağır Kazımzadə tatar (Azərbaycan) dili müəllimi, Firidun bəy Köçərli1885-1895 ana dili və şəriət müəllimi, Rəhim Xəlilov, Mirzə Məmmədvəli Qəmərli, Axund Məmmədbağır Tağızadə, Məmməd Axundov, K.Şulgin, Mirzə Abbas Məhəmmədzadə, İsmayıl bəy Şəfibəyov, Cabbar Məmmədzadə. Q.Qənbərov hüquq fənnindən, Mixail Klopov rus dili fənnindən, Məmmədbağır Qazızadə Azərbaycan dili və ədəbiyyat fənnindən və başqaları dərs demişlər.

1881-ci ildə yaranan və 37 il davam edən İrəvan Müəllimlər Seminariyasının ilk müəllimlərindən biri Firudin Bəy Köçərli olmuşdur ki, o burada 10 il dərs demiş və geniş mədəni-maarif işləri aparmışdır. F.Köçərli dərs deyərkən İrəvan mədəni mühitinin köhnə ənənələrdən uzaqlaşması, yeni müasir elmi dünyagörüşünün formalaşması uğrunda mübarizə aparırdı. Yeni dünyagörüşünün yayılması qarşısında xüsusilə cəhalətpərəst din xadimləri dururdular. İrəvana gəldikdə mühitlə yaxından tanış olan F.Köçərli öz təəssüratlarını belə bölüşürdü: "İrəvan 202 üləmaları çox geridə qalmış, onlar o dərəcədə cəhalətə qapılıblar ki, hətta "Tərcüman" qəzetini oxumağı, mühəriri sünni olduğu üçün qadağan edirlər. Bunlar başa düşmürlər ki, inkişaf üçün nəinki Şərqdən, hətta xristian Qərbindən də kitab, qəzet gətirmək vacibdir".

Mirzə Məmmədvəli Qəmərli1901-1911 -ci illərdə İrəvan Müəllimlər Seminariyasında dərs demişdir.

Mirzə Məmmədvəli Qəmərli 1898-ci ildə İrəvanda rus-tatar məktəbini bitirib, 1900-cü il martın 13-də İrəvan quberniya məclisində imtahan verərək müəllim adı almış, 1901-1911-ci illərdə İrəvan rus-tatar seminariyasında müəllim işləmişdir. Son vaxtlar aparılmış axtarış və araşdırmalardan bəlli olur ki, Məmmədvəli Qəmərlinin atası Əli Qəmərli çar ordusunun generalı olmuşdur. Babasının

yolunu davam etdirən Məmmədvəlinin oğlu Hüseyn Qəmərli də türk ordusunun generalı rütbəsinə yüksəlmişdir. İkinci oğlu Əli Qori Müəllimlər Seminariyasını, digər oğlanları Paşa, Adil, Mahmud isə gimnaziya bitirib müəllim işləmişlər

Qəmərlinskilər İrəvan xanlığının mahallarından olan və İrəvan şəhərinə yaxın ərazidə yerləşən Qəmərli (Gərnibasar) mahalının adını özlərinə soyad kimi qəbul etmişlər. "Atalar sözü" kitabının titul səhifəsindən bəlli olur ki, bu toplu İrəvan məktəbi-islamiyyəsinin türk dili müəllimi Məmmədvəli Qəmərlinin əsəridir və 1899-cu ildə İrəvanın "Edelson" mətbəəxanasında çap olunub. 1907, 1908 və 1911-ci illərdə dəfələrlə dərc edilmiş "Ana dili" kitablarının müəllifləri sırasında Məmmədvəli Qəmərlinin də adı vardır. 1926-cı ildən nəşrə başlayan "Zəngi" qəzetinin (sonralar "Sovet Ermənistanı") 12 və 19 yanvar 1926-cı il tarixli 5 və 6-cı saylarında "o vaxtın adamı" imzalı bir müəllifin "Ermənistan türklərinin mədəniyyəti barəsində" məqaləsindən məlum olur ki, Məmmədvəli Qəmərli həm də 1900-cü ildə dərc edilmiş "Vətən dili" kitabının müəllifi olmuşdur. Məqalədə çar üsul-idarəsi dönəmində Azərbaycan türkcəsinin (dilinin) təqiblərə məruz qalmasından, yerli sakinlərin acınacaqlı durumundan, Məmmədəli Qəmərlinin vəziyyətinin ağırlığından, o cümlədən maarif sahəsində çalışan ziyalıların müxtəlif təzyiqlərlə üzləşmələrindən söz açılmışdır.

"Kavkazskiy kalendar"ın 1900-cü il məcmuəsinin 335-ci səhifəsində Rəhim Xəlilovun həm Uluxanlı məktəbinə, həm də özünü layiqli müəllim kimi təqdim etdikdən sonra İrəvan Müəllimlər Seminariyasına türk dili (Azərbaycan dili)dərslərini demək üçün dəvət olunduğu göstərilmişdir.

Həmid bəy Şahtaxtinski (12 mart 1880, Naxçıvan-3 fevral 1944, Arxangelsk)-Azərbaycan Xalq Cümhuriyyətinin dövlət xadimlərindən biri, parlamentin üzvü; görkəmli maarifçi, Naxçıvanda mollaxanada, üçüncü dərəcəli şəhər məktəbində oxumuş, sonra da İrəvan Müəllimlər seminariyasını (1899) bitirmişdir. Pedaqoji fəaliyyətə elə həmin il seminariyada Azərbaycan və rus dilləri

müəllimi kimi başlamışdır. İrəvandakı Müsəlman Xeyriyyə Cəmiyyətinin üzvü olmuşdur. Odessada (1912) Novorosiysk Universtitetinin hüquq fakultəsini bitirmiş, tələbəlik illərində buradakı "Azərbaycan həmyerlilər təşkilatı"-nın başçılarından olmuşdur. 1912-ci ildə Gəncəyə gələrək şəhərin siyasi-ctimai həyatında yaxından iştirak etmişdir. 1914-cü ildə Yelizavetpol (Gəncə) quberniyasının xalq məktəbləri inspektoru təyin edilmişdir. İki ilə yaxın Yelizavetpol dairə məhkəməsində andlı müvvəkilin köməkçisi vəzifəsində işləmiş, sonra Bakıya köçərək, dairə məhkəməsində eyni vəzifədə çalışmışdır. Fevral İnqilabından (1917) sonra siyasi fəaliyyətə başlamışdır. 1917-ci ildən "İttihad" partiyasının üzvü idi. 1917-ci il avqustun 29-dan Cənubi Qafqaz Təhsil İdarəsi üzrə komissar olmuşdur. Azərbaycan Milli Şurasının üzvü olmuş, Azərbaycan Xalq Cümhuriyyətinin ikinci, üç və dördüncü hökümət kabinələrində maarif nazirinin müavini, beşinci hökümət hökümət kabinəsində maarif və dini etiqad naziri (1920-ci ilin martın 5-də istefa vermişdir), Azərbaycan Parlamentinin üzvü olmuşdur. Şahtaxtinski Azərbaycanın şəhər və kəndlərində ana dilində məktəb və seminariyaların açılmasına böyük əmək sərf etmişdir. Bakı Dövlət Universitetinin təşkilində böyük xidmətləri olmuş, orada müəllim, prorektor (1919-1925), həmçinin Bakı xalq maarifi şöbəsi nəzdindəki İkiillik Müəllimlər İnstitutunda və Azərbaycan Dövlət Tibb İnstitutunda (1930-1940) işləmişdir (1929-cu ildən professor), Tiflisdəki Qafqaz Universitetinin tibb fakültəsini bitirmişdir (1928). Azərbaycanın ümumtəhsil məktəbləri üçün dərsliklərin, Azərbaycan dilində elmi terminologiyanın tərtibi üzrə komissiyaların sədri olmuş, yeni Azərbaycan əlifbasının yaradılmasında yaxından iştirak etmişdir. Şahtaxtinski repressiyaya məruz qalmış, 1941-ci ildə həbs olunaraq sürgün edimişdir. Sürgündə Şahtaxtinski dünyasını dəyişmişdir

İrəvan Müəllimlər Seminariyasının  məzunlarından isə aşağıdakıların adlarını çəkə bilərik:

Həbib bəy Səlimov, Nəcəf bəy Vəzirov, Haşım bəy Vəzirov, Mirzə Abbas Məhəmmədzadə, Cabbar Məhəmmədzadə, İbadulla

bəy Muğanlinski, Vahid Musabəyov, Həmid bəy Şahtaxtinski, Hüseynəli bəy Rüstəmbəyov, Tağı bəy Səfiyev, Mirzə Cəlil Şürbi, Eynəli bəy Sultanov, Sadıq Xəlilov, Vahid Musabəyov, Fərrux Ağakişibəyov, İbrahim Səfiyev Məmmədqulubəy Kəngərli, Rəhim Xəlilov, Axund Məmmədbağır Kazımzadə, Məmməd Axundov, Hacı Məmmədəli oğlu, Məmmədbəy Qazıyev, Qasım bəy Camalbəyov və başqaları olmuşdur.

Naxçıvanda maarifçilik ideyalarının təşəkkülündə Məmmədqulubəy Kəngərlinin misilsiz xidmətləri olmuşdur. O, 1864-cü ildə Naxçıvan şəhərində anadan olmuş, 1905-ci il avqust ayının 29-da Batumi şəhərində erməni komitəsi tərəfində 41 yaşında faciəvi şəkildə qətlə yetirilmişdir.Məmmədqulubəy Kəngərli ilk təhsilini atası mayor Şəfiağa Kəngərlidən almışdı. Daha sonra təhsilini atasının onun üçün tutduğu xüsusi müəllim yanında evdə fərdi şəkildə davam etdirmişdir. Məmmədqulubəy Kəngərli birbaşa mənsub olduğu xalqa xidmət göstərmək niyyəti ilə hərbi işi buraxıb maarifçilik cəbhəsinə keçmək qərarına gəlmişdi.

Məmmədqulubəy Kəngərli 1893-cü ildə istefaya çıxdıqdan sonra aşağıdakı iki istiqamətdə maarifçilik fəaliyyətini davam etdirmək qərarına gəlmişdi: 1)Vəkil-hüquqşünas;2) Məktəbdarlıq. Məmmədqulubəy Kəngərli uzun illər müəllimlik fəaliyyəti ilə də məşğul olmuşdur. O, Qafqazda ilk dəfə olaraq "Leyli" qız məktəbini də açmışdır.

İrəvan Müəllimlər Seminariyasının məzunlarından Məmmədbəy Qazıyevin Naxçıvanda maarifçilik ideyalarının təşəkkülündə böyük rolu olmuşdur. O, 1897-ci il yanvar ayının 18-də Naxçıvanda anadan olmuş, 1909-cu il mart ayının 30-da Uluxanlıda vəfat etmişdir. Məmmədbəy Qazıyev İrəvan Müəllimlər Seminariyasındakı təhsilini başa vurduqdan sonra (1886-cı ildə) elə həmin ilin avqust ayının 1-də təyinatla Uluxanlı normal məktəbinə ikinci müəllim vəzifəsinə göndərilmişdir. 1888-ci il iyun ayının 1-də Xalq Məktəbləri Direktorluğunun (XTD) 895 №-li əmri ilə Baş Noraşen ikisinifli məktəbinə müdir əvəzi vəzifəsinə təyin olunmuşdu. O, Baş

Noraşen məktəbindən sonra yenidən Uluxanlı məktəbinə getmiş, 1896-1909-cu illərdə bu məktəbdə nəzarətçi müəllim vəzifəsində çalışmışdır. Onun məktəbdarlıq sahəsindəki uğurlu fəaliyyəti daima Xalq Məktəbləri Direktorluğu diqqət mərkəzində saxlamışdır. Məmmədbəy Qazıyevin III dərəcəli Müqəddəs Anna ordeni ilə təltif olunduğu göstərilmişdir.

İrəvan Müəllimlər Seminariyasında 1889-1893-cü illərdə təhsil almış naxçıvanlı maarifpərvər ziyalılardan biri də Tağı bəy Səfiyevdir. O, bu seminariyadakı təhsilini başa vurduqdan sonra təyinatı üzrə Baş Noraşen məktəbində müəllimlik fəaliyyətinə başlamışdır. Tağı bəy Səfiyev 1895-1896-cı illərdə Nehrəm kənd məktəbində ikinci müəllim vəzifəsində də rus dili dərsləri demişdir. O, bu fənnin məktəblərdə tədrisinin təkmilləşdirilməsinin yeni metod və yolları haqqında Rusiya Maarif Komissarlığına (RMK) özünün hazırladığı xüsusi bir layihə də təqdim etmişdir. Onun bu layihəsi Rusiya Maarif Komissarlığı (RMK) tərəfindən bəyənilmişdir. Bu münasibətlə onu Rusiya Maarif Komissarlığı "Maarif zərbəçisi" döş nişanı ilə təltif etmişdir.Tağı bəy Səfiyev eyni zamanda bir ictimai xadim kimi Türkiyə-Rusiya və Azərbaycan arasında bağlanmış Qars müqaviləsinin imzalanma mərasimində Naxçıvan nümayəndəliyinin tərkibində iştirak etmişdir. Tağı bəy Səfiyevin 1937-ci il repressiya qurbanlarından olmuş, 1939-cu ildə vəfat etmişdir.

İrəvan Müəllimlər Seminariyasını qabiliyyətli məzunlarından biri də  Sadıq Xəlilov olmuşdur. O, 1864-cü il dekabr ayının 20-də Naxçıvan şəhərində doğulmuş, 1905-ci il noyabr ayının 3-də Naxçıvan şəhərində vəfat etmişdir.

Sadıq Xəlilov ilk təhsilini 1877-1882-ci illərdə Naxçıvan şəhər ibtidai məktəbində almış, 1882-ci ildə İrəvan Müəllimlər Seminariyasına qəbul olmuş, 1886-cı ildə seminariya təhsilini başa vurmuşdu. Xalq Məktəbləri Direktorluğu (XMD) 1886-cı il 01 iyul tarixli 284 saylı sərəncamı ilə onu Baş Noraşenin Yengicə məktəbinə ikinci müəllim vəzifəsinə təyin etmişdir. Sadıq Xəlilov bir il

Yengicə məktəbində müəllim işlədikdən sonra 1888-ci il iyul ayının 14-dən Nehrəm kənd məktəbində çalışmışdır. Sadıq Xəlilov 1901-ci ildən etibarən Naxçıvan şəhər məktəbində ana dili və şəriət müəllimi işləmişdir. 22 aprel 1902-ci ildə isə Azərbaycan və rus dillərini mükəmməl bilən savadlı ziyalı kimi Naxçıvan şəhər rəisi Cəfərqulu Naxçıvanskinin köməkçisi vəzifəsinə dəyişdirilmişdir.

İrəvan Müəllimlər Seminariyasının tanınmış naxçıvanlı məzunlarından Mirzə Cəlil Şürbi (Mirzəyev) Naxçıvanda maarifçilik ideyalarının təşəkkülündə öndə gedənlərdən biri olmuşdur. O, 1874-cü il fevral ayının 12-də Naxçıvan şəhərində anadan olmuş, 1915-ci il sentyabr ayının 4-də Naxçıvan şəhərində dünyasını dəyişmişdir.

M. C. Şürbi (Mirzəyev) Naxçıvan şəhər məktəbini bitirdikdən sonra 1888-ci ildə İrəvan Müəllimlər Seminariyasına daxil olmuş, 1892-ci ildə seminariyadan məzun olmuşdur. Mirzə Cəlil Şürbi (Mirzəyev) seminariyadakı təhsilini başa vurduqdan sonra (1892-ci ildə) təyinatı üzrə Şərur-Dərələyəz qəzasının Aralıq ibtidai məktəbində müəllimlik fəaliyyətinə başlamışdı. İki il burada işlədikdən sonra 1894-cü ildə Nehrəm kənd məktəbinə dəyişdirilmişdi. Mənbələrdə Mirzə Cəlil Şürbi (Mirzəyev) 1903-1908-ci illərdə Ordubad qəzasının Vənənd kənd ibtidai məktəbində nəzarətçi vəzifəsində işlədiyi də göstərilirdi. O, bir müddət Vənənd kənd ibtidai məktəbində nəzarətçi işlədikdən sonra, Naxçıvan şəhər rus-tatar məktəbinə müdir vəzifəsinə təyin edilmişdir. Mirzə Cəlil Şürbinin pedaqoji fəaliyyətinə görə 1909-cu ildə "Kollec reqistratoru" rütbəsi verildiyi göstərilir.

İrəvan Müəllimlər Seminariyasının bacarıqlı məzunlarından biri də Qasım bəy Camalbəyov olmuşdur. Qasım bəy Camalbəyov 1881-ci ildə Naxçıvan şəhərində dünyaya göz açmış, 1938-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Qasım bəy Camalbəyov Sidqinin "Tərbiyə" məktəbində oxumuş. O, iki il bu məktəbdə təhsil aldıqdan sonra şəhər dördillik məktəbinə daxil olmuşdur. Qasım bəy Camalbəyov 1901-ci ildə

İrəvan Müəllimlər Seminariyasında imtahan vermiş, xalq müəllimi rütbəsi almış, 1901-ci ildən, 1911-ci ilədək İrəvan quberniyasının müxtəlif kəndlərində müəllimlik etmiş, 1912-ci ildən isə tərcüməçi işləməyə başlamışdır.

İrəvan Müəllimlər Seminariyasının daha bir naxçıvanlı məzunu Axund Məmmədbağır Kazımzadənin adını çəkə bilərik. Naxçıvan şəhər ibtidai məktəbində tatar dili (Azərbaycan dili) müəllimi işləmiş Axund Məmmədbağır Kazımzadə Naxçıvanda maarifçilik ideyalarının inkişafında mühüm işlər görmüşdür.

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda maarifçilik ideyalarının təşəkkülündə və inkişafında İrəvan Müəllimlər Seminariyasının məzunlarından Məmməd Axundovun, Hacı Məmmədəli oğlunun və Rəhim Xəlilovun da unudulmaz xidmətləri olmuşdur.

Təəssüf hissi ilə bir məsələni də vurğulamaq lazımdır ki, 37 ilə qədər fəaliyyət göstərən İrəvan Müəllimlər Seminariyası 1918-ci ilin avqust ayının 6-da İrəvan gimnaziyası isə Uluxanlı məktəbi ilə eyni vaxtda fəaliyyətini dayandırmışdır. Uluxanlı məktəbi 1920-ci ildə yenidən açılsa da İrəvan Müəllimlər Seminariyası və İrəvan gimnaziyası bir daha fəaliyyət göstərməmişdir.

Beləliklə, XIX sonu XX əsrin əvvəllərində Azərbaycanda maarifçilik ideyalarının təşəkkülündə İrəvan Müəllimlər Seminariyasının rolu böyük olmuşdur. Burada dərs deyən müəllimlər təkcə tədrislə məşğul olmamış, həm də böyük ictimai-siyasi, elmi pedaqoji və metodiki işlər həyata keçirmişlər. İrəvan Müəllimlər Seminariyasının məzunları Azərbaycanın bir çox bölgələrində o, cümlədən Naxçıvan bölgəsində uğurla pedaqoji işlə məşğul olmuş, xalqın, millətin tərəqqisində və irəli getməsində mühüm xidmətlər göstərmişlər.

1884-cü ildə İrəvan Qız Progimnaziyası açılmışdır. Təhsil rus dilində aparılmışdır. 91 şagirdlik İrəvan qız progimnaziyasında (natamam gimnaziya, 4 və 6 sinifli progimnaziya) Xeyriyyə Cəmiyyəti və pedaqoji Şura yaradılmışdır. İrəvan Qız Progimnazi-

yanın direktoru Vladimir İosifoviç Brajnikov, gecə dayəsi Varvara Ağayeva olmuşdur.

Qız progimnaziyasında Pansion yaradılmış və burada 8 yaşından 12 yaşınadək olan qız şagirdlər xeyriyyə vəsaiti hesabına, yuxarı yaşlılar isə öz vəsaitləri hesabına məktəbdə təhsil almışdır. Progimnaziyada təhsil alan pansioner qızlar cəmi 150 manat təhsil haqqı ödəyirmişlər, ilk əvvəl qəbul üçün 36 manat, ilin sonunda isə sinifdən-sinfə keçəndə bir qayda olaraq 30 manat vəsait daxil edirmişlər.

Qız progimnaziyanın məzunları - Tacıxanım Bağırbəyova, Kübra Bağırbəyova, Bülbül Kazımova, Fatma Əlizadə, Leyla Fərəcova, Nuşi Əlixanova, Firuzə Qazıyeva, Fərəh Axundova, Rübabə İbrahimova, Münəvvər Əlixanova, Gülruh Qədimbəyova, Gövhər İsmayılova, Siddiqə Abbasova, Sona Qocayeva və başqaları regionda qadın təhsilinin inkişafında mühüm rol oynamış və onlar özləri də yeni qız məktəbləri açmışlar. Məhz onların sayəsində 1905 -ci ildə İrəvan Müsəlman Qız Məktəbi yaradılmışdır. Buranın müdiri Fatma xanım Qədimova (Qədimbəyova) olmuş və o burada Məmmədəli Qəmərlinski, Tərlan Sultanova və başqaları ilə birlikdə çalışaraq qızların təhsilində mühüm xidmətlər göstərmişlər. Fatma xanım 1920 -ci illərdə öz evində də qız məktəbi açmış, savad kursları yaratmış, soydaşlarının təlim -tərbiyəsi ilə məşğul olmuşdur.

Beləliklə, deyə bilərik ki, pedaqoji kadrların hazırlanmasında İrəvan pedaqoji mühitinin rolu və xidmətləri böyük olmuşdur. Bu mühitin müəllimləri, tələbələri yalnız tədris işləri ilə məşğul olmamış, həm də böyük ictimai- siyasi, elmi pedaqoji və metodiki işlər həyata keçirmişlər. Onlar bir çox dərslik və dərs vəsaiti yazmış, lüğətlər tərtib etmiş, teatr tamaşaları yaratmış, xalqın maariflənməsində fədakarcasına çalışmışlar.

XX əsrin ilk illərindən başlayaraq İrəvanda müxtəlif tipli məktəblər yaradılıb fəaliyyət göstərmişdir.

1922 -ci ildə İrəvanda 7 illik Azərbaycan orta məktəbi təşkil olundu ki, bu məktəbin direktoru İsmayıl Babayev idi. Bu məktəb

1929 cu ildə 9 illik məktəbə, 1935-ci ildə M.F.Axundov adına 10 illik tam orta məktəbə çevrilmişdir.

1922- ci ildə Puşkin adına 7 illik orta məktəbi də yaradılmışdı ki, bu məktəbin direktoru Məmməd Əliyev idi. Daha sonralar bu məktəb M.Əzizbəyov adına tam Azərbaycan orta məktəbinə çevrildi ki, direktoru Adil Süleymanov, dərs hissə müdiri Təvəkkül Kərimov oldu. Artıq 1970 -ci ildə İrəvanda iki tam Azərbaycan orta məktəbi fəaliyyət göstərirdi. İrəvanda 1928 -ci ildən - Asriyev adına Beynəlmiləl orta məktəb və F.Dzerjinski adına Beynəlmiləl orta məktəb fəaliyyət göstərirdi ki, burada da Azərbaycan bölmələri var idi. Bu məktəblərdə Rəşid Kərimov, Bülbül Kazımova, Fatma xanım Qədimova, Həqiqə Abbasova uzun illər dərs demiş və bu məkətblərin Məhəmməd Salmanov, Kübra Məmmədova, Ceyran Həsənova, Səfər Səfərov, Əfşan Məmmədova kimi məzunları olmuşdur.

1924-cü il, 15 oktyabrda İrəvan Türk Pedaqoji Texnikumu açılmış və texnikum 1949 - cu ilə qədər fəaliyyət göstərmişdir. Bu texnikumun yaradılmasının ilk təşəbbüskarı Mehdi Kazımov (1890-1954) olmuş və özü də buranın ilk direktoru olmuşdur. O İrəvan Kişi Gimnaziyasını bitirmişdir. Mehdi Kazımov ömrünün 50 ilini İrəvanda Azərbaycan maarifinin, mədəniyyətinin inkişafına sərf etmişdi. İrəvan Türk Pedaqoji Texnikumunda fəaliyyətə başlayan Yusif Məmmədəliyev, Ələşrəf Bayramov, Əsgər Əsgərzadə, Bülbül Kazımova, Miryusif Mirbabayev, Məhəmməd Əzimzadə, İsmayıl Babayev və digər ziyalılar çalışmışlar. Pedaqoji Texnikumda "Mədəniyyət ocağı", "Mədəni hücum", "İrəli" adlı divar qəzetləri çap olunmuşdur. Texnikumun ilk məzunlarından - Əmir Abasquliyev, Budaq Budaqov, Adil Axundov, Nəriman Əliyev, Rübabə Bağırbəyova, Nəsir Əliyev, Nəzər Paşayev və başqaları olmuşdur. 1936-cı ildən bu Pedaqoji Texnikum Pedaqoji Məktəb kimi fəaliyyət göstərmişdir.

İrəvan Pedaqoji Məktəbinin 1948-ci ildə Azərbaycanın Xanlar (indiki Göygöl) rayonuna köçürülməsi və 1972-ci ilə qədər orada

fəaliyyət göstərməsi bir daha təsdiq edir ki, bu təhsil müəssisəsi Azərbaycan təhsilinin tarixində, pedaqoji kadr hazırlığında silinməz izlər qoymuşdur.

Qeyd edim ki, “İstiqlal” ordenli, Əməkdar müəllim, dosent Lətif Hüseynzadə 1930 -cu illərdə bir müəllim, pedaqoq olaraq Azərbaycan dili və ədəbiyyatdan Azərbaycan Dövlət Universitetinin 1930 -cu il məzunu kimi təyinatla İrəvan pedaqoji məktəbində və daha sonralar isə İrəvan Pedaqoji İnstitunun Azərbaycan şöbəsində dərs demiş, pedaqoji kadrların hazırlığında dəyərli xidmətlər göstərmiş və İrəvan yazıçı və şairlərinin ədəbi orqanı olan, iki ayda bir kitab şəklində nəşr olunan “Ədəbi Ermənistan” almanaxının bir müddət redaktoru da olmuşdur.

İrəvan Pedaqoji Məktəbinin məzunları olmuş sonralar yüksək elmi dərəcələrə nail olmuş, uzun illər elm və təhsil sahəsində çalışmış, akademik Budaq Budaqov, akademik Zərifə Budaqova, prof. Əli Fərəcov, prof. Yusif Yusifov, prof. Cəfər Cəfərov, prof. Həsən Mirzəyev, prof. Süleyman Məmmədov, prof. Nəriman Əliyev, prof. Fərhad Fərhadov, prof. Qasım Mustafayev, prof. Tapdıq Əmiraslanov, Əməkdar müəllim, filologiya üzrə fəlsəfə doktoru, dosent Nəcəf Nəcəfov, ictimai xadim Qəşəm Aslanov, dosent Zəhra Əliyeva və ADPU-nun professoru olmuş Kövsər Tarıverdieva, Əməkdar müəllim Həsən Şəkərəliyev və başqaları da bu məktəbin fəal məzunları olmuş, xalqımızın fədakar, peşəkar müəllimləri, elm adamları, ictimai xadimləri kimi xalqa, vətənə ləyaqətlə xidmət etmişlər. Azərbaycanın bir çox görkəmli ziyalıları - Cəlil Məmmədquluzadə, Əli Nazim, Mir Cəlal Paşayev, Səməd Vurğun, Mikayıl Rəfili, Yusif Məmmədəliyev və başqaları bu pedaqoji məktəbdə olmuş, tələbələrlə görüşmüş, müəyyən dövrlərdə dərs də demişlər .

1925-ci ildə İrəvanda müəllim kadrlarının hazırlanması məqsədilə iki illik kurslar təşkil edildi. Bu təhsil ocağı 15 il fəaliyyət göstərdi. Bu təhsil ocağında Rza Vəlibəyov, Mehdi Kazımov, Əli Yüzbaşıyev, Abbas Azəri, Ağa Seyidov və başqaları dərs deyirdi.

1936 -cı ildə İrəvan Dövlət Qiyabi Pedaqoji İnstitutu, 1937 -ci ildə iki illik Müəllimlər İnstitutu daha sonra isə 1945-1988 -ci illərdə isə İrəvan Pedaqoji İnstitutunun Azərbaycan şöbəsi fəaliyyət göstərmişdir. Azərbaycan şöbəsində İbtidai təhsilin metodikası, Azərbaycan dili və ədəbiyyat, Tarix, Coğrafiya, Fizika-Riyaziyyat fakültələri yaradılmış və bunlara uyğun ixtisaslı pedaqoji kadrlar hazırlanırdı.

İrəvan Pedaqoji İnstitutunda təhsil almış və həmçinin bu institutun tanınmış məzunları olmuş - Akademik Zərifə Budaqova, prof. İbrahim Bayramov, prof. Hüseyn Əmirov, prof. Rüfət Hüseynzadə, Əməkdar Müəllim Zəhra Əliyeva, Əməkdar Müəllim Mənzərə Cəfərova, Xalq Artisti Mübariz Tağıyev, dos Mehdi Həsənov, İsrafil Abbasov, Bağır Bağırov, Aida Salahova, Rəziyyə Abdullayeva və başqaları olmuşdur.

İrəvan Pedaqoji İnstitunda dərs demiş dos. Əkbər Yerevanlı, dos. Lətif Hüseynzadə, dos. Əli Dalqılıcov, dos. Fərrux Rzayev, dos. İsrafil Məmmədov, dos. Mehdixan İrəvanski, dos. Hüseyn İsmayılov, dos. Məhərrəm Hüseynov, dos. Vilayət Əliyev, prof. Fərhad Fərhadov, prof. Rəhim Allahverdiyev, prof. Həmid Əliyev, prof. Mirəli Seyidov, Adil Süleymanov, Sabir Əsədov, Arzuman Qəmbərov, Təvəkkül Kərimov kimi tanınmış pedaqoq alimlər pedaqoji fəaliyyətlə bərabər elmi-tədqiqat işləri aparmış, yaradıcı işlər görmüşlər. Prof. Fərhad Fərhadov 1942-43 -cü illərdə İrəvan Pedaqoji Texnikumnda və sonra İrəvan Pedaqoji İnstitutnda dərs demiş və 1945 -ci ildə İrəvanda “Qədim və orta əsrlər ədəbiyyatına dair oçerklər” kitabını nəşr etdirməyə nail olmuşdur.

İrəvan Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsinin müəllimləri İrəvan arxivlərində axtarışlar aparır, Azərbaycan ədəbiyyatının nadir nümunələrini üzə çıxarır və onları ədəbi ictimaiyyətin nəzərinə çatdırırdılar. 1436-1467-ci illərdə Azərbaycan Qaraqoyunlu dövlətinin başçısı olmuş Müzəffərəddin Cahanşah “Həqiqi” təxəllüsü ilə doğma Azərbaycan türkcəsində gözəl şerilər yazmışdır. Həqiqinin “Divan”ını İrəvan pedaqoji İnstitutunun

müəllimi, filologiya elmləri namizədi, dosent Lətif Hüseynzadə üzə çıxarmışdır. Uzun müddət həmin "Divan"ın harada saxlanması haqqında dəqiq məlumat olmamışdır. Yalnız 1961-ci ildə əlyazmanın sirri açılmışdır. Məlum olmuşdur ki, Həqiqinin "Divan"ı uzun müddət İstanbulda, türk sultanlarının saray kitabxanasında saxlanılmışdır. Sultan Əbdülhəmidin dövründə əlyazma kitabxanadan itmiş, bir müddət sonra isə Misirdə, İskəndəriyyə kitabxanasında tapılmışdır. Lakin sonradan buradan da yoxa çıxaraq, dünyanı gəzə-gəzə Londona gəlib çıxmışdır. Həmin əlyazma buradan da yoxa çıxmış, hansı yollasa Nyu-Yorkda yaşayan erməni kolleksiyaçısı Arutyun Hazaryanın şəxsi arxivinə gəlib çıxmışdır. O, Həqiqinin Divanını və 270 ədəd Şərq əlyazmalarını İrəvan Mətndaranına göndərmişidr. Lətif Hüseynzadə Həqiqinin əlyazma "Divan"ını burada aşkar etmiş, onun mikrofilmini çıxarmağa müvəffəq olmuş, ona müqəddimə yazaraq 1966-cı ildə İrəvanda 12500 tirajla nəşr etdirmişdir. çap etdirmişdir. Daha sonralar isə Həqiqinin farsca Divanını tərcümə edərək Bakıda 2000-ci ildə nəşr etdirmişdir.

1975-ci ildə Azərbaycan folklorşünası Sədnik Paşayev isə İrəvanda çap etdirdiyi "Erməni aşıqlarının azərbaycanca şerləri" kitabı Azərbaycan aşıq mühitinin erməni ədəbi mühitinə təsirini öyrənmək baxımından qiymətli mənbədir.

İrəvan elmi, mədəni və pedaqoji mühitinin formalaşmasında, inkişafında Azərbaycanın görkəmli şəxsiyyətlərinin o cümlədən-M.S.Ordubadinin, M.Müşfiqin, Mehdi Hüseynin, Cəlil Məmmədquluzadənin, Mir Cəlal Paşayevin, Əziz Əliyevin, Yusif Vəzir Çəmənzəminlinin, Əziz Şərifin, Hacı Kərim Sanılının, Mirzə Ələkbər Elxanovun və başqalarının böyük xidmətləri olmuşdur.

İrəvanda "Sovet Ermənistanı" qəzeti nəşr olunurdu ki, bu mətbuat orqanı da İrəvanda maarif və mədəniyyətin, əverişli pedaqoji mühitin yaranmasında böyük rol oynamışdır ki, bu qəzetin redaktoru o zaman professor Teymur Əhmədov olmuşdur.

İrəvan pedaqoji İnstitutunda dərs demək üçün müxtəlif illərdə Bakıdan da müəllimlər dəvət olunmuşdur: Prof. İnayət Bektaşi,

prof. Firudin Hüseynov, prof. Əkbər Bayramov, prof. Əhməd Seyidov, prof. Hüseyn Əhmədov, prof. Xalid Əlmirzəyev, prof. Cəfər Cəfərov, prof. Abbas Zamanov, prof. Mürsəl Həkmov, prof. Nizami Xudiyev, prof. Cəlil Nağıyev, Bəxtiyar Vahabzadə və başqalarının xalqa, millətə fədakar xidməti unudulmazdır.

İrəvan elm və təhsil mühtinin yetişdiridiyi akademiklər var ki, onların da adlarını çəkmək yerinə düşər: Faiq Bağırzadə, Budaq Budaqov, Zərifə Budaqova, Hüseyn Həsənov, Heydər Hüseynov, Tağı Paşayev, Əhməd Rəcəbli, Mustafabəy Topşubaşov, Misir Mərdanov, Yəhya Məmmədov, Surxay Əkbərov, Bəhmən Axundov, Rafiq Qasımov və başqaları olmuşdur.

## 8.3. QAZAX MÜƏLLİMLƏR SEMİNARİYASI

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin maarif, təhsil müəssisələrinin milliləşdirilməsi sahəsində ilk tədbirlərindən biri Qafqaz (Qori) Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin Azərbaycana köçürülməsi haqqında 22 iyun 1918-ci il tarixli qərarı oldu. Mili hökümət bu məqsədlə Gəncə xəzinədarlığından maliyyə vəsaiti ayırdı və Gürcüstan hökuməti ilə əvvəlcədən razılığa gəldi.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti seminariyanın bəzi maliyyə xərclərini öz öhdəsinə götürmüş qazaxlıların xahişini nəzərə alaraq 10 iyul 1918-ci il tarixli iclasında məsələni onların xeyrinə həll etdi.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Qori şəhərində seminariyanın Azərbaycan şöbəsinin əmlakını yığıb Azərbaycana gətirmək barədə bu şöbənin sonuncu inspektoru Firidun bəy Köçərliyə göstəriş və səlahiyyət verdi. Firidun bəy Köçərli seminariyanı 1918- ci ilin 1 sentyabrında Qazaxa köçürdü. Məşədi İbrahim ağa Kosalı özünün mülkünü təmənnasız olaraq tədris binası kimi seminariyaya hədiyyə etdi. Qazağın məşhur Vəkiloğulları nəsilindən olan Məşədi İbrahim ağa Kosalı dövrünün maarifçi – xeyriyyəçisi, mütaliəni sevən məşhur ziyalılardan olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti bu təhsil müəssisəsinin daha səmərəli, mühitə yaxın olmasını nəzərə alaraq onu əvvəlki yerindən çox uzaqlaşdırmamağa çalışdı. İkinci tərəfdən Qazaxda Qori seminariyasının ən nüfuzlu məzunları Əhməd ağa Mustafayev, Haley bəy Şıxlınski, Süleyman Qayıbov, Yusif Əfəndiyev, Əhməd ağa Gülməmmədov, Alyoşa Mustafayev, Osman Şıxlinski, Səlim Əfəndiyev, Yusif Qasımov, Əli Hüseynov, İbrahim Qayıbov və bir çox başqaları işləyirdilər. Bu müəllimlər seminariyada müxtəlif fənlərin tədrisinə cəlb edilmiş və pedaqoji kadrların yetişməsində görkəmli xidmətlər göstərmişlər. Hələ F.B.Köçərlinin sağlığında Qazax Müəllimlər Seminariyasına daxil olmuş böyük şairimiz Səməd Vurğun, Osman Sarıvəlli, İsmayıl Şıxlı kimi böyük şəxsiyyətlər Seminariyada təhsil almış və buradan məzun olmuşlar.

Qazax Müəllimlər Seminariyası 1918-ci il noyabrın 10-da müstəqil seminariya kimi fəaliyyətə başladı. Əli Hüseynovun yazdığına görə, Firudin bəy Köçərlinin sədrliyi ilə seminariyanın açılışında o zaman Qazaxda yerləşən türk ordusunun komendantı Sədri bəy, türk qarnizon rəisi Camal bəy, Qazax qarnizonunun rəisi Haley bəy Şıxlınski, xalq məktəbləri inspektoru Nəsib ağa Qiyasbəyov, ali məktəblər inspektoru Əhməd ağa Mustafayev, yerli hökumətin məmurları, şəhər adamları və seminariyaya daxil olacaq şagirdlərin valideynləri iştirak edirdilər. Təntənəli iclası giriş nitqi ilə İbrahim Əfəndi Qayıbzadə açaraq, "Quran"dan elm və təhsilin zəruriliyi haqqında ayələr oxumuş, Azərbaycan Xalq Cümhuriyyətini möhkəmlətmək üçün biliyə yiyələnməyin vacib olduğunu söyləmişdi.

Hələ fəaliyyətinin ilk günlərində müəllim hazırlığına xüsusi diqqət yetirən Firidun bəy Köçərli Azərbaycanda fəaliyyət göstərən müəllimlərin qabaqcıl təcrübəsini, məktəbə, dərsə olan münasibətini ümumiləşdirərək "Qafqazda müəllim seminariyası", "Müsəlmanların ehtiyacı məsələsi", "Təlim xeyir edənlərimizin cəzası", "Məişətimizə dair" və bir çox başqa silsilə nəzəri və pedaqoji məqalələrində müəllim hazırlığı məsələlərinə toxunaraq yazırdı ki, müəllim orta əsrlərdə olan kimi ancaq dərs deyən məhdud adam olmayıb,

ictimai xadim olmalıdır. Firidun bəy Köçərli müəllimi təşəbbüskar, yenilik uğrunda mübarizə aparan, qazandığı nailiyyətlərlə kifayətlənməyən, təlim-tərbiyənin yeni üsul və vasitələrini axtaran adam kimi təsəvvür edirdi. Firidun bəy Köçərli müəllim hazırlığı haqqında fikirlərini Qori və Qazax seminariyalarında tətbiq etməklə yüksək nəticələr əldə etmişdi.

Firudin bəy Köçərli Qazaxda yaranacaq yeni seminariyanın işini düzgün qurmaq üçün onunla bərabər Qoridən gəlmiş üç nəfər yüksək ixtisaslı, savadlı, təşəbbüskar və xalq balaları üçün ürəyi yanan İbrahim Qayıbov, Mirzə Vəliyev və Mustafa Məmmədov kimi müəllimləri, o zaman Qazaxda fəaliyyət göstərən Əli Hüseynov, Əhməd ağa Mustafayev, Yusif Qasımov, İsfəndiyar Vəkilov, Məiş Hüseynov kimi Qori seminariyasını qurtarmış xalq müəllimlərinin ən qabaqcıl nümayəndələrini seminariyaya dəvət etdi. O zaman uşaq toplamaq ən çətin məsələlərdən biri idi. Əhalinin 90%-nin savadsız olması, kəndlərdə feodal-patriarxal ənənələrinin hökm sürməsi, mal, qoyun, əkin-biçin işlərində uşaq əməyindən geniş istifadə edilməsi təhsilin keyfiyyətini, oxumağın əhəmiyyətini aşağı salan səbəblər idi. Oxumağın əhəmiyyətini başa düşməyən avam kəndlilər uşaqlarını məktəbə buraxmaq istəmirdilər. Seminariyaya tələbə toplamaq üçün geniş təbliğat işi aparmaq, xalq içərilərinə gedib insanları inandırmaq, Qurandan gətirilmiş iqtibaslarla elmin əhəmiyyətini başa salmaq lazım gəlirdi. Ona görə də Firudin bəy Köçərli belə bir ağır şəraitdə oxuduğu Qori seminariyasında Çernyayevskinin tələbə toplamaq təcrübəsindən istifadə edib, İbrahim Qayıbov, Mustafa Məmmədov, Əhməd ağa Mustafayev, Mirzə Vəliyev, Yusif Qasımov, Əli Hüseynov və Məiş Hüseynovu tələbə toplamaq məqsədilə Azərbaycanın rayon və kəndlərinə ezam etmişdi. Firudin bəy Köçərli Qazax seminariyasının işini doğru istiqamətləndirmək məqsədilə pedaqoji şura təşkil etmişdi. Pedaqoji şuranın bütün üzvləri, demək olar ki, Firudin bəy Köçərlinin Qori seminariyasındakı tələbələri olmuşdular. Firudin bəy Köçərli pedaqoji şuranın birinci iclasında Qori seminariyasının nizamnaməsini

əsas götürərək, şagird və müəllimlər üçün Azərbaycan Xalq Cümhuriyyətinin milli maraqlarına müvafiq təlimat hazırladı. O, yorulmadan çalışaraq Qori seminariyasında olduğu kimi, Qazax seminariyasında da növbətçi müəllim və tələbələr təyin edir, bu növbətçilərin naharı təşkil etmələrinə xüsusi nəzarət edirdi. Seminariyanın pansionunda kənddən və başqa rayonlardan gələn uşaqlar yaşayırdılar. Firidun bəy Köçərli "qaydalar"a müvafiq pansiondan icazə ilə şəhərə və tətil zamanı evlərinə getmiş tələbələrin vaxtında qayıtmalarını nəzərə çatdırır, qaydanı pozanların cəzalanacağını, hətta seminariyadan xaric ediləcəklərini də onlara başa salırdı. O, seminariyada elə qayda qoymuşdu ki, uşaqlar dərsə gəlmədikləri günlərin materialını öyrənməli, əlavə saatlarda müəllimə cavab verməli idilər.

Firudin bəy Köçərli əlverişli tərbiyə üsulları seçir, ev tapşırıqlarının normadan çox olmamasına nəzarət edir, geridə qalan, xəstəlik üzündən yetirməyən şagirdlərlə işə və sinifdənxaric oxu kimi məsələlərin düzgün təşkilinə diqqət yetirirdi. O, şagirdlərin səmərəli işləməsi üçün dərs otaqlarının, yaşayış binalarının səliqəsinə xüsusi diqqət yetirməklə yanaşı, uşaqların səhhətinə, istirahətinə də şərait yaratmağa çalışırdı.

Firudin bəy Köçərli Qori seminariyasının ənənələrinə sadiq olaraq Qazaxda təlim işlərinin keyfiyyətini yüksəltmək, metodiki və pedaqoji məsələləri müzakirə etmək, müəllimlərə tövsiyələr hazırlamaq üçün müxtəlif komissiyalar yaratmışdı. Bu komissiyalar dərsdə xorla oxu, mahnı, şer demək, müxtəlif didaktik oyunlar keçirmək, dərsdə gərginliyi aradan qaldırmaq üçün gimnastik təmrinlər etmək üçün müəllimlərə göstəriş verirdi. Bu komissiyalar, eləcə də təlim prosesində oxu, yazı növləri, əyanilik kimi məsələlərin istifadəsində müəllimlərə kömək göstərir, dərsdə qəzet və jurnallardan kəsilmiş müxtəlif şəkillər vasitəsilə məktəb həyatına, ailəyə, ilin fəsillərinə, görkəmli şəxsiyyətlərin həyatına dair albomların necə düzəldilməsi barəsində tövsiyələr verirdi. Müəllimlərin təlim materialı ilə bağlı düzəltdikləri bu əyani işlərdən tələbələr həm

dərsdə, həm də pedaqoji təcrübə müddətində istifadə edirdilər. Firudin bəy Köçərli seminariyanın müəllimlərindən tələb edirdi ki, onlar böyük pedaqoji məharət göstərib tələbələrin hər birinə fərdi yanaşsınlar və onları qabiliyyətinə müvafiq işlətsinlər. Firidun bəy Köçərli Qazax seminariyasında elə münasib iş əhvali-ruhiyyəsi və pedaqoji mühit yaratmışdı ki, orada aparılan işlərin növlərinə, həcminə, rəngarəngliyinə təəccüb etməmək olmur.

Seminariyanın proqramını yazan Firudin bəy Köçərli orada milli adət-ənənələri nəzərə almış, dövrün tələblərinə uyğun olaraq onu müasirləşdirmişdi. Firudin bəy Köçərli Qazax seminariyasında işlərkən də ana dilimizin təmizliyini qoruyub saxlamağa çalışmış, proqramların, metodik tövsiyələrin hazırlanmasında, tədris prosesində bunun nəzərə alınmasını vacib hesab etmişdi.

Qazax seminariyası 1921-ci ilə kimi Qori seminariyasının nizamnaməsi əsasında işləmişdir. Bu nizamnamə ümumi müddəalar, həyat tərzi haqqında qaydalar, təlim haqqında qaydalar, pedaqogikanın praktik məşğələləri haqqında qaydalar kimi 4 bölmədən ibarət idi. Qazax seminariyasında sonralar daha müfəssəl bir nizamnamə qəbul edilib. Firidun bəy Köçərli əvvəlki nizamnamədən çar hökumətinin siyasətinin mahiyyətindən doğan maddələri çıxarmış daha mütərəqqi və demokratik nizamnamə hazırlamağa müvəffəq olmuşdu. Nizamnamə 7 bölmədən ibarət idi: 1.Ümumi qaydalar; 2.Təlim və tərbiyə işləri; 3.Müəllim seminariyalarına qəbul; 4.Müəllim seminariyasının ştatı; 5.Pedaqoji şura; 6.Təsərrüfat kollegiyası; 7.Seminariyanın hüququ.

Azərbaycan Xalq Cümhuriyyətinin maarif naziri Həmid bəy Şahtaxtinski seminariyada təhsilin məzmununu yeni dövrün tələblərinə müvafiq qurmaq üçün Firudin bəy Köçərliyə belə bir təlimat göndərmişdi. Təlimatda yazılırdı ki, seminariyalar üçün hal-hazırda proqramlar mövcuddur. Ancaq həyat bu proqramların yeniləri ilə əvəz olunmasını tələb edir. Köhnə proqramlardan lazım olmayanları, artıqları və az lazım olan materialları çıxarıb onları yeniləri ilə əvəz etmək və proqramda mövcud olan məsələləri bu günü nəzərə

alan elementlərlə zənginləşdirmək lazımdır. Bunu əsas götürən Firudin bəy Köçərli "Azərbaycan tarixi" kursunun proqramını tərtib edib, tarix dərslərini bu əsasla keçməyi təklif etdi.

Firudin bəy Köçərli Qazaxda qısa müddət ərzində seminariyanı elə şöhrətləndirdi ki, onun sədası respublikanın hər yerindən gəldi. Bu seminariya metodik mərkəzə çevrildi. Firidun bəy Köçərli "Müsavat" partiyasının fəal üzvü kimi Qazaxda təkcə direktor deyil, həm də ictimai xadim kimi tanındı. O, seminariya müəllimlərinin köməyi ilə yaşlılar üçün savad kursları açdı, yetimlər evi təsis etdi, qaçqınlara yardım fonduna da yaxından kömək etdi. Maarif nazirinin göstərişinə əsasən türk dilində ədəbiyyat seçmək, ədəbiyyat nümunələrini toplamaq, onu xalq arasında yaymaq üçün oxu dərnəkləri, kəndlərdə isə bu dərnəklərin filiallarını yaratdı. O, Maarif Nazirliyinin göstərişinə əsasən, cümə günləri savadsızlığı aradan qaldırmaq məqsədilə kəndlərdə dərs deyirdi. 1920- ci ilin 4 iyununda F.B.Köçərli "Qırmızı terror"un qurbanı olduqdan sonra Seminariyanın rəhbəri Əhməd ağa Mustafayev,  daha sonra isə Əli Hüseynov rəhbərlik etmiş və F.B.Köçərlinin ənənələrini davam etdirmişdir. 1923-cü ildə Seminariyanın ilk buraxılışı olmuş və 1925 -ci ildə isə adı dəyişdirilərək Qazax Pedaqoji Texnikumu adlandırılmışdır. Qazax seminariyası bütün fəaliyyəti ərzində Qori seminariyasının ənənələrinə sadiq qalmış, orada təlim və tərbiyə sahəsində tətbiq edilən bütün mütərəqqi cəhətləri davam etdirmişdir.

## 8. 4. BAKI KİŞİ MÜƏLLİMLƏR SEMİNARİYASI

Azərbaycan Dövlət pedaqoji Kolleci müxtəlif dövrlərdə müxtəlif adlarla fəaliyyət göstərmiş və pedaqoji kadr hazırlığında mühüm xidmətlər göstərmişdir.

1919-1920-ci illərdə Bakı Kişi Müəllimləri Seminariyası;

1920-1925-ci illərdə Bakı Qadın Müəllimləri Seminariyası;

1925-1926-cı illərdə Bakı Müttəhid (Birləşmiş) Müəllimlər

Seminariyası;

1926-1930-cu illərdə Azərbaycan Mərkəzi Beynəlmiləl Pedaqoji Texnikumu;

1936-1938-ci illərdə M.Ə.Sabir adına Mərkəzi Beynəlmiləl Texnikumu;

1938-1963-cü illərdə M.Ə.Sabir adına Rus Pedaqoji Məktəbi;

1968-ci ildən M.Ə.Sabir adına Bakı Pedaqoji Məktəbi;

1991-ci ilin dekabrından M.Ə.Sabir adına Bakı Pedaqoji Texnikumu;

1999-cu ilin dekabrından Azərbaycan Dövlət Pedaqoji Kolleci kimi fəaliyyət göstərir.

2018- ci ildən Azərbaycan Dövlət Pedaqoji Kolleci ADPU -nun nəzdində fəaliyyət göstərir.

Kollecdə aşağıdakı ixtisaslar üzrə mütəxəssislər hazırlanır:

"İbtidai sinif müəllimliyi", "Texnologiya müəllimliyi", "Xarici dil", "Ailə və ev təhsili", "Təsviri incəsənət müəllimliyi", "Fiziki tərbiyə müəllimliyi", "İnformatika müəllimliyi", "Qeyri Azərbaycan məktəblərində Azərbaycan dili müəllimi".

Kollecdə 227 nəfər müəllim fəaliyyət göstərir. Onlardan 1 nəfər elmlər doktoru, professor, 17 nəfər fəlsəfə doktoru, 16 nəfər baş müəllim, 30 nəfəri isə dissertantdır.

Bu təhsil müəssisəsinin zəngin bir tarixi vardır. Cəmi 23 ay (1918-ci il mayın 28-dən 1920-ci il aprelin 27-dək) fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyətinin ən böyük xidmətlərindən biri də xalqımızın savadlanması və maariflənməsi, pedazqoji kadr hazırlığı yolunda apardığı işlər olmuşdur.

AXC bu məqsədlə yerlərdə orta ümumtəhsil məktəbləri açmaq, onları maddi təchizat və müəllim kadrları ilə təmin etmək məsələlərini əsas vəzifələrdən biri kimi qarşıya qoyaraq yeni təşkil olunmuş Xalq Maarif Komissarlığına hər cür əməli köməklik göstərirdi.

Nəzəri və əməli hazırlıqlı, bacarıqlı təşkilatçılıq qabiliyyəti nəzərə alınaraq Qori Müəllimllər Seminariyasının məzunu Pənah

Qasımov 1920-ci ildə Bakı Kişi Müəllimllər Seminariasının (Darulmüəllim) direktoru təyin olunmuşdur. 1921-ci ildə bu məktəb indiki Əlyazmalar İnstitutunun binasında yerləşirdi. Pənah Qasımov qısa bir müddətdə pedaqoji kadr hazırlıqları işindəki ciddi nöqsanları aradan qaldırdıqdan sonra təlim-tərbiyə işlərini normal ahəngə salmaq məqsədi ilə ilk növbədə ətrafına mütərəqqi ideyalı, demokratik fikirli pedaqoqları topladı. Məktəbin nüfuzunu qaldırmaq üçün oraya dövrün ən görkəmli və tanınmış müəllimlərindən Soltan Məcid Qənizadəni, Hüseyin Cavidi, Abdulla Şaiqi, Azad Bəy Əmirovu, Əlibəy Qasımzadəni, Qori seminariyasının digər məzunlarından Nuruş Şahsuvarovu, Məhəmməd Abdullayevi, Əhməd Kədəri Zəkizadəni, Qafur Rəşadı, Sultanmurad Əliyevi və başqalarını bura dərs deməyə dəvət etmişidr.

Bakı Müəllimlər seminariyası kimi öz fəaliyyətini davam etdirən tədris ocağı formalaşmış ənənələr əsasında təlim-tərbiyə uğurları qazanaraq respublikanın təhsil ocaqları arasında özünəlayiq yer tutdu.

Sabir adına Bakı Pedaqoji Texnikumunun sələfi olmuş darülmüəllimin hələ 1920-ci illərin əvvəllərindən nəinki təkcə Azərbaycan üçün, eləcə də türk və müsəlman respublikaları üçün müəllim kadrları hazırlamışdılar. Belə ki, darulmüəllimində özbək, türkmən, tacik, dağıstanlı uşaqları da oxutmuşlar.

1930-cu ildə seminariya Beynəlmiləl Pedaqoji Texnikumu adlandırılmışdır. 1936-cı ildə texnikuma böyük satirik şair və demokrat-maarifçi M.Ə.Sabirin adı verilmiş, Sabir adına Beynəlmiləl Pedaqoji Texnikum adlanmışdır.

Bəynəlmiləl Pedaqoji Texnikumu 1937-1938-ci dərs ilinə qədər Azərbaycan, rus və erməni bölmələri üzrə fəaliyyətini davam etmişdir.

Məktəbin işgüzar fəaliyyəti respublika ictimaiyyətində müsbət rəy və yüksək maraq oyadırdı. Beləliklə ikinci buraxılışda 24, üçünçü buraxılışda 28, dördüncü buraxılış 56 məzun olmuşdur. 1952-1962-ci illərdə bu texnikumda Ü.Hacıbəyov, M.Maqomayev,

A.Şaiq, C.Cəbrayılbəyli, H.Cavid kimi görkəmli şəxslər dərs demişlər.

Pənah Qasımovun rəhbərlik etdiyi bu tanınmış təhsil ocağında müasir ruhlu gənc pedaqoq-müəllim heyəti hazırlanmışdır. Bu müəllimlər uzun müddət xalqın savadlanması, təlim-tərbiyəsi sahəsində namuslu xidmət göstərməklə yanaşı, sonralar maarif, mədəniyyət və incəsənətin ən görkəmli nümayəndələri kimi tanınmışlar. Milli mədəniyyətimizin fəxri Üzeyir Hacıbəyov, Abdulla Şaiq, məşhur pedaqoqlardan Camo Cəbrayılbəyli, Azad Əmirov, ilk ziyalı qadınlarımızdan Mədinə xanım Qiyasbəyli kollecdə dərs demiş, zəngin bir irs qoyub getmişdir. Akademiklərdən Əlisöhbət Sumbatzadə, Məmmədhüseyn Təhməsib, professorlardan Əkrəm Cəfər, Mərdan Muradxanov, Fatma Süleymanova, Əli Sultanlı, Xalq rəssamı Salam Salamzadə, Bəstəkarlar Niyazi, Səid Rüstəmov, Əfrasiyab Bədəlbəyli, Xalq yazıçısı Mehdi Hüseyn, Əzizə Cəfərzadə, yazıçı Sabit Rəhman, şairlərdən Mirvarid Dilbazi, Cabir Novruz və başqaları kollecin məzunları olmuşdur.

## 8.5. NAXÇIVAN MÜƏLLİMLƏR SEMİNARİYASI VƏ ONUN VARİSLƏRİ

1922-ci il avqust ayının 28-də Naxçıvan şəhərindəki Naxçıvan Müəllimlərinin I qurultayında Naxçıvanda müəllim kadrlarının çatışmazlığı müzakirəyə çıxarılmış və 1 noyabr 1922-ci ildən etibarən Naxçıvan Müəllimlər Seminariyası açılması haqqında qərar qəbul olunmuşdur. Müəyyən maddi-texniki baza yaradıldıqdan bir neçə ay sonra Naxçıvan Müəllimlər Seminariyası fəaliyyətə başlamışdı. Qeyd edək ki, bu seminariya Naxçıvanın gələcək müəllim kadrları hazırlığında çox mühüm rol oynamışdı.

Naxçıvan Müəllimlər Seminariyasına Xəlilağa Hacılarov ilk direktor, Əbdüləzim Rüstəmov isə köməkçi və coğrafiya müəllimi, Həsən Səfərli riyaziyyat müəllimi, Həsən Qazıyev təbiət müəllimi, İbrahim Axindov bədən tərbiyəsi müəllimi təyin olundular.

Naxçıvan Müəllimlər Seminariyası bir il fəaliyyət göstərdikdən sonra 1923-1924-cü tədris ilində Naxçıvan Pedaqoji Texnikuma çevrilmişdi. Texnikumda pedaqoji şura, metodiki təşkilatlar, tələbə komitəsi, müxtəlif fənn dərnəkləri yaradılmışdı. 1927-ci ldə texnikumun ilk buraxılışında 18 nəfər məzun müəllimlik diplomu alaraq Muxtar Respublika məktəblərində pedaqoji fəaliyyətə başlamışdı. Bunların sırasında Zəngilandan Əkbər Abbasovun, Vedibasardan Abdulla Kərimovun, Eynalı Əlizadənin, Ordubaddan Mirəhməd Seyidzadənin, və Mirmehdi Seyidzadənin, Naxçıvandan Əkbər Fərəcovun, Əli Fərəcovun, Əli Axundovun, Aqil Mirişlinin, Kazım Talıbovun, Nemət Novruzovun, Əbdüləli Tahirzadənin, Səməd Seyidlinin və başqalarının adlarını çəkmək olar. Sonrakı üç buraxılış ilində 149 nəfər məzun müəllimlik diplomu aldı.

1938-1939 - cu tədris ilində ulu öndərimiz Heydər Əliyev Naxçıvan Pedaqoji Texnikumun məzunu olmuş və 2027 № -li müəllimlik diplomu ilə Şahbuz rayonuna təyinatla müəllim göndərilmiş və orada müəllim kimi ilk pedaqoji peşə fəaliyyətinə başlamışdır.

"İstiqlal" ordenli, Əməkdar Müəllim, dosent Lətif Hüseynzadə - Naxçıvan Müəllimlər Seminariyasının ilk məzunlarından biri və sonra elə bu tədris müəssisənin müəllimi, dərs hissə müdiri olmuş o illəri xatırlayaraq belə yazmışdır: (Xalqın müəllim. Bakı, 2008) "1938--1939 -cu tədris ilində mən Naxçıvanda pedaqoji texnikumda dil-ədəbiyyat müəllimi və texnikumun dərs hissə müdiri işləyirdim. Bizim bu texnikum o zaman Azərbaycanda çox tanınmış, nüfuzlu, şərəfli yeri olan bir texnikum idi. Bura respublikanın hər tərəfindən təhsil almağa gəlirdilər. Hər il texnikumun 700-dən artıq tələbəsi olurdu. Buranın məzunları yüksək ixtisaslı kadrlar kimi ölkənin hər yerində çalışırdlar. Burada çox yüksək səviyyəli, dərin bilikli, tələbkar, eyni zamanda qayğıkeş müəllimlər çalışırdı. Texnikumun direktoru Kazım Talıblı idi. Çox bacarıqlı işgüzar, təşkilatçı və olduqca tələbkar bir şəxs idi. Tofiq Bəktaşi Moskvada təhsil almışıdr. Çox ciddi, dərin bilikli riyaziyyat müəllimi idi. On-

dan müsbət qiymət almaq da çox çətin idi. Əli Əliyev tariximizin mükəmməl bilicisi, xüsusilə Naxçıvan tarixini gözəl bilən onu tədris və təbliğ edən, tələbələrə böyük qayğıkeşliklə yanaşan əsil bir pedaqoq, alim, müəllim idi. Əsəd Cəfərli təcrübəli bir müəllim kimi təbiət, biologiya dərslərini tədris edirdi. Bir müddət texnikumun direktoru vəzifəsində də işləmiş və Naxçıvan maarifinin inkişafında xidmətləri böyükdür. Murad Tutayuq rus dilini çox gözəl bilən Rusiyada təhsil almış fizika-riyaziyyat müəllimi idi. Cəfər İmanov, Əsgər Əhmədov kimya dərslərini tədris edirdilər. Çox bilikli, ciddi, tələbkar müəllimlər idilər. Cəlil İskəndərli ədəbiyyat, Abbas Əsgərov Azərbaycan dili müəllimi idi. Həsən Bəy Qaziyev İrəvanda təhsil almış, anatomiya dərslərini aparırdı. Əbdüləzim Bəy Rüstəmov coğrafiya müəllimi idi. Naxçıvanda maarif və mədəniyyətin inkişafında böyük xidmətləri olmuş və ictimai xadim kimi də fəaliyyət göstərmişdir. Sonralar Ordu Generalı olmuş Akim Abbasov texnikumun hərbi rəhbəri idi. Həsən Səfərli riyaziyyat, Nəcəf Qəhrəmanov isə hərbi hazırlıq müəllimləri idilər. Daha sonra Kazımbəy Rəhimbəyov (Qori Müəllimlər Seminariyasının məzunu), Həsən Salayev, David İsrafilov, Xədicə Yusifbəyli, Mirzə Musayev və başqaları texnikumun sevimli müəllimləri idilər. Texnikumda bədən tərbiyə və idman işləri yüksək səviyyədə qurulmuşdu. Bu dərsləri İbrahimxəlil Axundov öyrədirdi. O həm də Rusiyada zabitlik məktəbini bitirdiyindən tələbələrin hərbi təliminə ciddi fikir verirdi. Texnikumda çox zaman orkestr sədaları altında idman məşqləri keçirilir, tələbələrin hərbi-fiziki hazırlığına diqqət verilir, silahdan istitfadə etmək qaydaları öyrədilirdi. İbrahimxəlil müəllim demək olar ki, şəxsi təşəbbüs və səyi ilə texnikumda hər cür idman avadanlığına malik geniş idman zalı yaratmışdı. Texnikum tələbələrinin gücü ilə şəhərdə futbol meydançası təşkil etmişdi. Texnikumda voleybol, güləş, yüngül atletika, ağırlıq qaldırma, boks, futbol, üzgüçülük kimi idman bölmələri fəaliyyət göstərirdi. Yarışlarda texnikum birinciliyi əldən verməzdi. Bayramlarda, əlamətdar günlərdə şəhərdə qaçış, velosiped yürüşləri təşkil olunurdu ki, ona

İbrahimxəlil Axundov başçılıq edirdi. 1937-ci ildə SSRİ Ali Sovetinə ilk dəfə keçirilən seçkilər münasibətilə Naxçıvan-Bakı velosiped yürüşü təşkil olunmuşdu. 12 nəfərdən ibarət tərkib noyabrın 1-də Naxçıvandan çıxmış, 7 noyabrda Bakıya çatmışdı. İbrahimxəlil Axundov ölkədə tanınmış məşhur idmançı idi. Onun Naxçıvan MR-da bədən tərbiyə və idmanın inkişafında görkəmli xidmətləri olmuşdur. Ölkədə idman işlərinin ilk və əsas təşkilatçısı olmuşdu. Muxtar Respublikada idman müəllimlərinin yetişməsində onun böyük xidmətləri olmuşdur. Bunu da qeyd edim ki, 1918-ci ildə İbrahimxəlil Axundovun təşəbbüsü ilə könüllü xalq taburu təşkil edilmişdi. Axundov bu taburla Ordubadın erməni təcavüzündən qorunmasında böyük fədakarlıqlar göstərmişdir.Texnikumumzda hər gün səhər gimnastikasının keçirilməsi ənənəsi var idi ki, bu sonralar bütün şəhər məktəblərinə də yayılmışıdı. Texnikumun məzunları arasında vətənə xalqa ləyaqətlə xidmət edən, yüksək səviyyəli elm adamları, şair və yazıçılar, dövlət adamları, böyük vəzifələrdə, dövlət işlərində çalışan şəxslər olmuşdur. Onların arasında görkəmli professor, Əməkdar Elm Xadimi Səfərəli Babayev, istedadlı şair, rəssam, millət vəkili, Əməkdar Müəllim, "Şöhrət" ordenli Dövlət Məmmədov, maarif və mədəniyyətimizin və mətbuatımızın tərəqqisində böyük xidmətləri olan, ictimai xadim, Əməkdar Müəllim Manaf Xudiyev, istedadlı şair, publisit, jurnalist, mətbuat tariximizdə diqqətəlayiq xidmətləri olan Cavad Cavadlı, görkəmli ədəbiyyatşünaslar-professor İnayət Bəktaşi və professor Firudin Hüseynov, tanınmış alim, psixoloq, ictimai xadim İsa Məmmədov, xalq yazıçısı, Naxçıvan MR yazıçılar ittifaqının sədri "Şöhrət" ordenli Hüseyn İbrahimov, şair, yazıçı Həsən Fətullayev, filosof-alim Yunis Qasımov maarif və mədəniyyətimizin inkişafında xüsusi xidmətləri olan, öz yetişdirmələrinin xoşbəxtliyi yolunda fədakarcasına çalışan əməkdar müəllim Teymur Nağıyev və bir çox başqaları var idi. Texnikumun Səkinə Əliyeva, Səkinə Rzalı, Firüzə Rzayeva, Göyçək Vəzirova kimi qadın məzunları olmuşdur ki, onlar ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak etmişlər.

Texnikumun məzunları içərisində görkəmli ictimai-siaysi xadim, böyük dövlət adamı, dünya siaysət aləmində tanınmış, sabiq ölkə Prezidentimiz, Ulu öndərimiz Heydər Əliyevin xüsusi yeri olmuşdur. O pedaqoji texnikumu bütün fənlərdən yalnız "Əla" qiymətlər alaraq bitirmiş, öz təhsili, davranışı, fəaliyyəti ilə nümunəvi olmuşdur. Pedaqoji texnikumumuz Naxçıvan Muxtar Respublikasının maarif və mədəniyyətinin tərəqqisində müəllim kadrlarının yetişməsində, təkmilləşməsində müstəsna rol oynamışdır. Texnikum müəllimləri ardıcıl olaraq rayonlara gedərək müəllimlər arasında pedaqoji mühazirələr, seminarlar təşkil edirdilər. Əhalinin savadlanması üçün savad kursları açırdılar. Şəhərdə maarif və mədəniyyət ocaqlarında maraqlı elmi, pedaqoji söhbətlər təşkil edir, qəzetdə tez-tez təlim-tərbiyə problemləri ilə bağlı məqalələrlə çıxış edirdilər. Texnikumun nəzdində qüvvətli dram dərnəyi var idi. Bu dərnəkdə kiçik tamaşalar hazırlanırdı. Pedaqoji texnikumun tələbələrinin maddi ehtiyaclarını müəyyən qədər ödəmək üçün onlara hər gün pulsuz yemək verilir və xüsusi tələbə geyimi verilirdi. Texnikumun uzaqdan gələn tələbələri üçün yataqxanası da var idi... Heydər Əliyev tələbəlik illərində yoldaşları arasında böyük hörmət qazanmış və özünü bir şəxsiyyət kimi aparırdı. Qətiyyətli, məqsədyönlü, fəal və təşəbbüskar idi. Elmlərə yiyələnmək, ictimai işlərdə fəal iştirak etmək həvəsi aşıb daşırdı. Öz düşüncə tərzi, həyata baxışı ilə hamıdan fərqlənirdi. Qoltuğunda çox vaxt kitablar görərdim. 1918-ci ildə Türkiyədən Naxçıvana xeyli türk ədəbiyyatı, məcmuələr göndərilmişdi. Naxçıvanda Milli Kitabxananın əsası bununla qoyulmuşdu. Zəngin türk ədəbiyyatı kitabxanası yaradalmışdı. Bu kitabxana tələbələrimizin ən sevimli yerlərindən biri idi. Heydər boş vaxtlarında tez-tez bu kitabxanaya gedər və buradakı kitabları mütaliə edərdi. O bütün fənləri əla oxuyurdu. Hər bir dərsə səylə hazırlaşır, əlavə materiallarla maraqlanırdı. Tələbələr də onu çox sevir ona hörmətlə yanaşırdılar. O, dərs danışanda sinifə tam sükut çökürdü. Uşaqlar ona diqqətlə qulaq asırdılar. Gözəl nitqi, ifadəli danışıq tərzi var idi. Qədd-qamətli, yaraşıqlı

siması, şax duruşu, zabit yerişi var idi. O fəaliyyətində qətiyyətli, inamlı, tapşırılan işə məsuliyyətli idi. Onun ifadəli baxışları, nəzakətli rəftarı, mədəni davranışı, hamıya mehribanlıqla, hörmət və qayğı ilə yanaşması və xüsusilə həmişə hər yerdə birinci olmağa səy göstərməsi bu tələbənin səciyyəvi xüsusiyyətləri idi. Mən indi 100 yaşımı keçmiş bir dövrdə o illəri xatırlayarkən düşənürəm ki, Heydər Əliyev sanki o vaxtdan böyük bir rəhbər olmaq arzusunda olmuş, xalqa, millətə daha yaxşı, firavan həyat bəxş etmək istəyində olmuşdur. Heydər Əliyev heç vaxt tək özünü düşünməmişdir. Ətrafdakı insanların həyatının yaxşılaşdırılması haqqında həmişə düşünmüşdür. O yoldaşlarının qayğısına qalır, onların problemləri ilə maraqlanır ehtiyacı olanlara kömək etməyə çalışırdı. Baxmayaraq ki, özünün də ehtiyacları az deyildi.

Heydər Əliyev texnikumda keçilən bütün fənləri eyni dərəcədə çox yaxşı öyrənirdi. Yalnız "əla" qiymətlər alırdı. Müəllimlər tələbələrin fəaliyyəti haqqında danışanda Heydərdən daha çox danışırdılar. Tofiq Bəktaşı deyirdi ki, ondan yaxşı riyaziyyatçı olacaq, onda riyazi təfəkkür çox yüksəkdir. Tarix müəllimi də bildirirdi ki, Heydər tariximizi dərindən öyrənir, ciddi maraqlanır, o yaxşı tarixçi ola bilər. Mən isə fikirləşirdim ki, Heydər Əliyev ən yaxşı ədəbiyyatçı, dilçi ola bilər. İfadəli, aydın, səlis nitqi, gözəl xətti, savadlı yazısı var idi. Bədii təfəkkürü də çox yüksək idi. İstər türk klassiklərinin əsərləri, istərsə də rus, Avropa yazıçılarının əsərlərini orijinaldan mütaliə edirdi. Rus dilini gözəl bildiyindən Lev Tolstoyun "Hərb və sülh" romanını oxuyub məzmununu tələbə yoldaşlarına danışırdı. Rəşad Nuri Güntəkinin, Əbdülhaq Hamidin əsərlərini də oxuyurdu. Çətin ərəb və fars sözlərini düzgün tələffüz edir, mənasını bilir və yerində də düzgün işlədirdi.

Heydər Əliyev bizim ən yaxşı tələbəmiz olmaqla bərabər, o həm də çox gözəl rəssam idi. Müəllimlərimiz öz yetişdirmələrinə bilik verməklə bərabər, onlara təbiəti, doğma vətən torpağının gözəlliklərini sevdirir, müxtəlif yollarla estetik zövqlərini inkişaf etdirirdilər. Doğma diyarımıza ekskursiyalara gedib qayıtdıqdan

sonra tələbələrə ekskursiyadan aldıqları təəssüratdan inşa yazmağı tapşırırdıq. Hamı yazırdı. Amma, Heydər fərqli yazırdı. O ekskursiyadan aldığı təəssüratı çox məzmunlu yazmaqla bərabər ekskursiyada gördükləri gözəlliklərini təsvirini də qələmə alırdı. Tarixi yerlərə, abidələrə getdiyimiz zaman o oranın tarixi haqqında ətraflı məlumat toplayır, yazır və tarixi abidənin rəsmini də çəkirdi. Məsələn, Möminə Xatın, Yusif ibn Küseyr məqbərələrinin şəkillərini, Haça dağın rəsmini öz dəftərinə çəkmişdi. Naxçıvanın 75 illiyinin təntənəli qeyd edilməsi mərasimində iştirak edən H. Əliyev Möminə Xatın məqbərəsinə yaxınlaşaraq dedi ki, mən memar Əcəminin yaratdığı bu əsəri çox sevirəm. Bu abidənin hər bir naxışını, hər bir detalını yaxşı bilirəm. Mən bu abidənin nə qədər şəkillərini çəkmişəm…

Heydər Əliyevin tələbə yoldaşı və yaxın dostu bizim sevimli və fəal tələbəmiz olmuş, indi əməkdar rəssam, müəllim, ictimai xadim Dövlət Məmmədov xatirələrinin birində deyirdi ki, "Bizi Heydər Əliyevlə birləşdirən təkcə tələbə yoldaşlığımız deyildi, hər ikimiz həm də rəssamlığa maraq göstərirdik. Tez-tez Möminə Xatın türbəsinin yanına gedib oradan dəmiryol vağzalı istiqamətində olan mənzərələri çəkirdik. 1937-ci ildə rus şairi A.S.Puşkinin 100 illiyi keçirilirdi. Biz də onun əsərlərinə illüstrasiyalar çəkmişdik… O vaxt təşkil olunmuş sərgidə Heydər Əliyev birinci yeri, qardaşı Hüseyn Əliyevlə mən ikinci, üçüncü yerləri tutduq" "Şərq qapısı" qəzeti, 6 iyul, 2004). Bir çoxları da düşünürdü ki, H. Əliyevdən yaxşı bir aktyor çıxacaq. O Naxçıvan teatrının ən fəal tamaşaçısı, iştirakçısı və deyə bilərəm ki, aktyorlarından biri idi. Naxçıvan teatrı Azərbaycanın ən qədim teatrlarından biri olub zəngin ənənələrə malik idi. Bu teatrda M.F.Axundovun, C.Məmmədquluzadənin, H.Cavidin, Ü.Hacıbəyovun, Ə.Haqverdiyevin, əsərləri səhnəyə qoyulmaqla bərabər, dünya dramaturgiyasının ən görkəmli nümayəndələrinin – Şekspirin, Şillerin, Ostrovskinin, Qorkinin əsərləri səhənələşdirilirdi. Bu teatrda görkəmli aktyorlar – İbrahim Həmzəyev, Zəroş Həmzəyeva, Səməd Mövləvi, İsa Musayev, Rza

İsfəndiyarlı, Rza Təhmasib, Əli Xəlilov, Mirhəsən Mirişli, Məşədi Mirzə Bağır, Sadıq Həsənzadə, Ruxsarə Ağayeva, Firuzə Əlixanova, Xədicə Qazıyeva kimi sənətkarlar çalışmışlar. Heydər Əliyevin həssas qəlbi, zərif, incə zövqü, ifadəli nitqi, insanları duymaq, hiss etmək və onlara təsir etmək qabiliyyəti yüksək idi. Bu da onun yüksək pedaqoji qabiliyyətindən irəli gəlirdi. Onun aktyorluğa məxsus səs tonu, gözəl diksiyası və xoş fiziki görünüşü var idi. Qardaşı Hüseyn Naxçıvan Teatrında rəssam işlədiyindən tez-tez ora gedər, səhnələrin tərtibatında, rəsmlərin çəkilməsində, afişlərin yazılmasında ona kömək edər və özü də teatr üçün şəkillər çəkərdi.

Naxçıvanda Telman klubu var idi. Bu o zamanlar pionerlər evi idi. Vaxtilə Bəktaşilərin Zaviyə məscidi və mədrəsəsi olmuşdur. Orada məktəblilər üçün tamaşalar da göstərirdilər. Həmin tamaşaları məşhur rejissor, sonralar Xalq Artisti adını almış İbrahim Həmzəyev səhnələşdirib təşkil edirdi. Heydər Əliyev texnikumumuzun dram dərnəyinin üzvlərini toplayıb tez-tez teatra aparır və orada tamaşalar göstərirdilər. Özü də tamaşalarda rollarda çıxış edirdi. O həmişə kral, padşah, hökmdar rollarında oynayırdı. Hətta İbrahim Həmzəyev, Zəroş Həmzəyeva kimi peşəkar aktyorlarla tərəf-müqabil olurdu. İbrahim Həmzəyev deyirdi ki, o rolları əsil peşəkar aktyorlar kimi oynayır. Teatr müxtəlif insan psixologiyaları ilə zəngin bir həyat məktəbi idi. Heydər Əliyev bu məktəbi də uğurla keçmişdi. Heydər Əliyev təsadüfən demirdi ki, mən teatrı çox sevirəm. Məni bu incəsənətə bağlayanları həmişə xatırlayıram. Heydər Əliyev texnikumda bədən tərbiyəsi və idman işlərinin də əsas təşkilatçısı idi. Texnikumda idmanın bütün növləri ilə məşğul olmuşdu. Yarışlarda fəal iştirak edirdi. Üzgüçülüyü daha çox sevirdi. Heydər Əliyev böyük ictimaiyyətçi və təşkilatçı idi. Hər zaman tələbələrin, gənclərin arasında idi. Xatırlayıram ki, o zamanlar bir dövr yaranmışdı ki, şəhərdə məhəllələr arasında savaşlar meydana gəlmişdi. Bir məhəllənin gəncləri o biri məhəllənin uşaqlarını, gənclərini daşlayır, vururdular. Bu da heç şübhəsiz düşmən qüvvələrin fitnə-fəsadları idi. Bu vəziyyətin daha da böyümək və

genişlənmək təhlükəsi var idi. Bu təhlükəli halın qarşısını məhz Heydər Əliyev aldı. Məhəllənin böyükləri ilə, savaşanların başçıları ilə görüşdü, valideynlərlə söhbət apardı və bu fitnə-fəsadı aradan qaldırdı. Heydər Əliyev deyə bilirəm ki, hələ yeniyetmə – gənclik dövründə hərtərəfli inkişaf etmiş bir şəxsiyyət, bir lider idi. Heydər Əliyev pedaqoji texnikumu müvəffəqiyyətlə bitirdi. Onun texnikumu bitirmək haqqında "Attestat"ında yalnız "Əla" qiymətlərdir. Fəxr edirəm ki, həmin Attestatda mənim də imzam vardır..."

Bəli Ulu Öndər Heydər Əliyev pedaqoji texnikumu "Əla" qiymətlərlə bitirərək müəllimlik peşəsinə yiyələnmiş və müəllimlik peşəsini də hər zaman yüksək qiymətləndirmiş, texnikumun peşəkar, tələbkar və qayğıkeş müəllimləri Heydər Əliyevin ən sevimli müəllimləri olmuş və özünün dediyi kimi: "…39-cu ildə burada pedaqoji texnikumu qurtarmışam. O dövrdə aldığım təhsil gələcək həyatımın bütün mərhələlərində mənə yardım edibdir... Naxçıvan məktəbində müəllimlərimin mənə verdiyi dərslər, o cümlədən başqaları ilə bərabər ana dili, ədəbiyyat dərsləri mənim bu günki dilimin əsasını təşkil edir. Ona görə mən öz müəllimlərimi həmişə xatırlayıram....Bilirsiniz ki, mən böyük həyat yolu keçmişəm, yaşım da az deyildir. Çox şeylər, çox insanlar görmüşəm, çox böyük şəxsiyyətlər görmüşəm. Yadda qalanları da, qalmayanları da var. Az yadda qalanı var, çox yadda qalanı var. Amma sizə demək istəyirəm ki, ən yadda qalanlar, mənim üçün əziz adamlar Naxçıvandakı müəllimlərimdir... Pedaqoji texnikumda bizə Azərbaycan dilinin incəliklərini öyrədən, Azərbaycan dilinin qrammatikasını, ədəbiyyatı öyrədən gözəl müəllimlərimiz var idi. Amma bu müəllimlərin içərisində Lətif Hüseynzadə xüsusi yer tutur...O sinifdə lövhədə Azərbaycan dilinin qrammatikasından yazırdı, yəni hər bir sözün düzgün yazılışını. Bir də Azərbaycanın ədəbiyyatını-şairlərimizi, yazıçılarımızı öyrədirdi...". Heydər Əliyev müəllimlik peşəsini bütün peşələrdən üstün tutmuş və demişdir: "Mən yer üzündə müəllim adından yüksək bir ad tanımıram!". Heydər Əliyev müəllimlik adını çox yüksəkdə tutmuş və ona müqəddəs bir peşə kimi

baxmışdır. "…Mən Azərbaycanın sadə vətəndaşıyam. Bu addan yüksək ad yoxdur. Ancaq bundan da yüksək ad müəllimlikdir..." demişdir. Bu qiymətli sözlər Ulu Öndərimizin müəllimlik peşəsinə daim sıx bağlı olmasından, bu peşəyə yaxından bələd olmasından, ilk peşəsinin müəllimlik olmasından və ilk vəzifə təyinatının da müəllimlik olmasından irəli gəlməkdədir.

O bu barədə Azərbaycan Müəllimlərinin I qurultayındakı (26 sentyabr, 1998-ci il) nitqində belə demişdir: "Doğrudur, siz məni də müəllim hesab edirsiniz. Burada müəyyən əsas var. Siz mənim təhsilimə əsaslanaraq bunu deyirsiniz... mən 1939-cu ildə Naxçıvanda Pedaqoji Texnikumu bitirmişəm. Naxçıvan Pedaqoji Texnikumu məhz həmin dövrdə müəllim çatışmazlığına, ibtidai siniflərə, hətta orta məktəblərin 7-8-ci siniflərinə qədər dərs demək üçün müəllim olmadığına görə müəllim kadrları hazırlayırdı. Mən isə orta məktəbin 8-ci sinfini bitirdikdən sonra pedaqoji texnikuma daxil oldum. Məqsədim də o idi ki, müəllim olmaq, müəllim işləmək və ailəmə kömək etmək istəyirdim.... Pedaqoji texnikumun sonuncu kursunda bizə pedaqoji təcrübə dərsi verirdilər. Biz həftədə 2-3 dəfə gedib məktəblərin 2-ci, 3-cü, 4-cü siniflərində dərs deyirdik. Ona görə də mənim o vaxtdan dərs vermək təcrübəm olubdur...".

Heydər Əliyevin məktəblə, maariflə həmişə sıx bağlı olması haqda özü belə deyirdi: "Məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam...Hesab edirəm ki, cəmiyyət harada olursa olsun kəsib təhsilə xərcləməli, gənc nəslin savadına, biliyinə, müəllimə kömək etməlidir..." O müəllimlik peşəsini ürəkdən sevmiş, müəllim əməyinə yüksək qiymət vermiş və heç də təsadüfi deyil ki, Heydər Əliyev Azərbaycanda ona təklif olunan müxtəlif fəxri adlardan yalnız "Xalq müəllimi" fəxri adını məmnuniyyətlə qəbul etmişdir.

Heydər Əliyev hələ Naxçıvanda orta məktəbdə oxuduğu illərdə, daha sonrakı təhsil illərində də həmişə öz müəllimlərinə böyük hörmət və ehtiramla yanaşmış, onları daim minnətdarlıqla xatırlamışdır: "Mən həmişə Naxçıvanda təhsil aldığım illəri xatırlayıram. Bu illər mənim yaddaşımdan heç vaxt silinməyəcək. Müəllimləri-

min hamısı yadımdadır. Hansı binada, hansı sinif otağında dərs keçməyimizi, hansı parta arxasında oturduğumu da yaxşı xatırlayıram. Mən burada mükəmməl təhsil almışam, özü də elə həvəs və aludəçiliklə oxumuşam ki, sonralar digər ali təhsil müəssisələrində oxumağım mənim üçün çətin olmayıb. Əksinə, burada olduğu kimi, tələbələr arasında da seçilmişəm.... Mənim üçün müəllim adı həmişə ən ülvi, ən şərəfli bir məfhum olubdur. Mən bu gün müəllim qarşısında baş əyirəm, müəllimə hörmət və ehtiramımı bildirir, Azərbaycan müəllimlərinə bundan sonra da öz işlərində uğurlar arzulayır, cansağlığı və səadət diləyirəm".

Müəllim hazırlığını genişləndirmək məqsədi ilə 1937-1938–ci tədris ilində Ordubad şəhərində pedaqoji texnikum açılmışdır ki, bu texnikumun ilk direktoru vəzifəsinə Mehdi Mehdiyev təyin edilmişdi. Texnikuma birinci ildə 7 nəfər qız olmaqla 57 nəfər tələbə qəbul olunmuşdu. Növbəti tədris ilində isə onların sayı artıq 4 dəfə artaraq 213 nəfərə çatdırılmışdır. 1941-ci ildə Naxçıvan Pedaqoji Texnukumu Ordubad Pedaqoji texnikumuna birləşdirildi. Naxçıvan Pedaqoji Texnikumu yarandığı 1922-ci ildən 1941-ci ilə qədər 1071 nəfər müəllim hazırlamış ki, onlardan 182 nəfəri qadın olmuşdur.

Naxçıvan Muxtar Respublikası Xalq Komissarları Şurasının 14 avqust 1939-cu il tarixli qərarı ilə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Müəllimlər İnstitutu yaradıldı. Bu institut 1939 - cu ilin 15 sentyabrında iki fakültə ilə (Dil-ədəbiyyat və fizika - riyaziyyat) fəaliyyətə başlamışdı. Bu instituta ilk qəbulda 180 nəfər tələbə kontingenti nəzərdə tutulsa da, cəmi 129 nəfər tələbə qəbul edilmişdir. Onlardan cəmi 31 nəfəri qız olmuşdur. Növbəti 1940-1941-ci tədris ilində Naxçıvan Dövlət Müəllimlər İnstitutunda 4 fakültə - dil ədəbiyyat, fizika-riyaziyyat, təbiət-coğrafiya və tarix fakültələri açılmışdır ki, orada ümumilikdə 230 nəfər tələbə oxumuşdur. Lakin I kursa qəbul edilənlərin bir hissəsi sovet ordusuna səfərbər edilib, onlardan bir qismi isə müxtəlif səbəblərdən təhsillərini başa vura bilməmişdilər. 1941-ci ildə institutun ilk məzunlarının sayı cəmi 65 nəfər təşkil etmişdir. Onların 52 nəfəri dil-

ədəbiyyat, 13 nəfəri fizika–riyaziyyat fakültələrini bitirmişdir. Bu ilk məzunlar arasında Qəzənfər Əkbərov, Nazlı Tahirova, Mahmud Axundov, Qasəm Haciyev, İsmayıl Sadıqov, Yunis Qasımov, Salman Ağayev və başqalarını adlarını çəkmək olar.

Naxçıvan Dövlət Müəllimlər İnstitutunun 1943-cü ildə qiyabi şöbəsi, 1949-cu ildə rus bölməsi yaranıb fəaliyyət göstərmişdir. İnstitut fəaliyyətə başladığından yüksək ixtisaslı professor-müəllim heyətinin formalaşdırılması, tələbələrə dərin və əsaslı bilik verilməsi, onların elmi dünyagörüşünün yüksək səviyyədə inkişaf etdirilməsi daim diqqət mərkəzində idi. İnstitutun müəllimlərindən - Əli Talıbov, Abbas Əsgərov, Əsəd Cəfərli, Əli Sultanlı, Tofiq Bəktaşi, Məmməd Mirzə Cabbar oğlu Bəktaşi, Müzəffər Nəsirli, Lətif Hüseynzadə, Murad Tutayuk, Cəfər İmanov rayonlara gedərək qiyabiçi tələbələrə mühazirələr oxumuş, həmçinin respublikanın bölgələrində olaraq institut üçün yeni abituriyentlər seçmişlər. Müxtəlif illərdə Naxçıvan Dövlət Müəllimlər İnstitutunda Əli Əliyev, Əli Sultanlı, Əli Hüseynov, Əli Talıbov, Əli Tağızadə, Şeyx Əli Qurbanzadə, Əsəd Cəfərov, İzzət Maqsudov, Yunis Qasımov, Babaxan Muradov, İbrahim Hüseynov, Müzəffər Nəsirli, İbrahim Xəlil Axundov, Abdulla Qurbanov, Xəlil Əliyev, Qasım Mustafayev, Məmməd Əliyev, Abbas Əsgərov və başqaları dərs demişlər.

Naxçıvan Dövlət Müəllimlər İnstitutun ilk fəaliyyət illəri 1941-1945-ci illər - müharibə illərinə təsadüf etdiyindən institut əsasən öz fəaliyyətini hərbi istiqamətdə qurmuş, hərbi - vətənpərvərlik tərbiyəsinə xüsusi diqqət yetirilmiş, bir çox tələbə və müəllimlər könüllü olaraq müharibəyə getmişdir. İnstitutun tələbələrindən və məzunlarından - Qəzənfər Əkbərov, Nəcəfqulu Rəfiyev, Abbas Quliyev II Dünya müharibəsində iştirak edərək Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşlər.

Naxçıvan Dövlət Müəllimlər İnstitutunun müxtəlif vaxtlarda direktorları uğurla fəaliyyət göstərmiş, institutun inkişafında, bacarıqlı, səriştəli pedaqoji kadrların hazırlanmasında, tələbə gənclərin milli-mənəvi ruhda tərbiyə edilməsində böyük xidmətlər göstərmiş-

lər ki, onların adlarını fəxrlə çəkə bilərik: Əsgər Əhmədov (1939-1941); Əli Hüseynov (1942); Nəsir Məmmədov (143-1944); Cəfər İmanov (1945-1946); Həsənpaşa Əbdiyev (1946-1950); Əbülfəz Həsənov (1951-1952); Lətif Hüseynzadə (1952-1953) Süleyman Sülleymanov (1953-1954).

Naxçıvan Dövlət Müəllimlər İnstitutu öz fəaliyyətinin 15 ili dövründə (1939-1954) vətənə, xalqa çox dəyərli, adlı sanlı tanınmış məzunlar vermişdir ki, onların arasında, görkəmli dövlət və ictimai xadimlər, akademik və professorlar, Sovet İttifaqı Qəhrəmanları, generallar, fədakar müəllimlər, həkimlər, mühəndislər, vətən üçün xalq üçün dəyərli mütəxəssislər və sair müxtəlif peşə adamları vardır. Onların sırasında Məmməd Bəktaşi Heydər oğlu, İnayət Bəktaşi Heydər oğlu, Firudin Hüseynov, Cəlal Əliyev, Səfərəli Babayev, Manaf Xudiyev, Yavuz Axundlu, Qaraş Mədətov, Yəhya Məmmmədov, Dövlət Məmmədov, Əli Sultanlı, Şahin Səfərov, Cavad Cavadlı, Yusif Seyidov, Əkbər Süleymanov, Nəcəfqulu Rəfiyev, Abbas Quliyev, Qəzənfər Əkbərov, Həbib Rzayev, Səkinə Əliyeva, Sənəm Sadıqova, Maral Qənbərova, Sona Sadıqova, Fəxrəntac Zülfüqarova, İsa Məmmədov, Yusif Nəbiyev, Kamran Rəhimov, Şikar Sadıqov, Yusif Seyidov, İbrahim Mollayev, Hüseyn Nəbizadə, Rəhim Rəhimov, Həbib Rzayev, Yaqub Yusifov, İbrahim Bağırov, Murtuz İmanov, Nəriman Orucəliyev, Yunis Qasımov, Heydər Səfərov, Mirhüseyn Seyidov, Abbasqulu Şadlinski, Arif Mirişli, Quşdan Bağırov, Əziz Abbasov, Firudin Abdullayev, Musa Axundov, Əli Babayev, Əli Əliyev, Əli Həşimov, Əyyub Mirzəyev, Əli Quliyev, Sabir Hacıyev, Şərif Şərifov, İsmayıl Kəngərli və başqaları vardır.

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Müəllimlər İnstitutu Azərbaycan təhsilinin, maarifinin, ictimai-pedaqoji fikrin inkişafında mühüm rol oynamış, vətənə səriştəli müəllim kadrlarının yetişdirilməsində, layiqli vətəndaşlar hazırlanmasında böyük xidmətlər göstərmişdir. Bu institut öz geniş və hərtərəfli fəaliyyətinə görə, yetişdirdiyi çox dəyərli kadrlarına görə nəinki Naxçı-

van Muxtar Respubliksında, nəinki Azərbaycanda, həmçinin Qafqazda təhsilin, pedaqoji fikrin, ictimai-siyasi fikrin inkişaf tarixində mühüm rol oynamışdır.

Dövrün tələbləri, cəmiyyətin inkişafı, Naxçıvan Muxtar Respublikası ümumtəhsil məktəblərinin şəbəkəsinin genişlənməsi nəticəsində ali təhsilli müəllim kadrlarına böyük ehtiyac yaranırdı. 1964-1965-ci tədris ilində Naxçıvan MR məktəblərində 2498 müəllimdən 582 nəfəri ali təhsilli müəllim var idi. Ali təhsilli kadrlar ən çox V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutun məzunları idi. Naxçıvan ziyalıları, alimləri mütəmadi olaraq mətbuat səhifələrində səlahiyyətli orqanlar qarşısında regionda ali-pedaqoji təhsil ocağının açılması məsələsini qaldırırdılar.

Azərbaycan KP MK və Nazirlər Sovetinin 11 oktyabr 1966-cı il tarixli 564 №-li qərarı ilə Azərbaycan SSR ali və orta ixtisas təhsil Nazirliyinin 5 noyabr 1966-cı il tarixli 323 №-li əmrinin yerinə yetirmək məqsədilə V.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun 1967-1968-ci tədris ilində Naxçıvan şəhərində filialının açılması göstərildi. Naxçıvanda açılacaq filial Azərbaycan Dövlət Pedaqoji İnstitutunun bir parçası və yetirməsi idi. 1967-ci ilin yayında filiala tələbə qəbulu elan olundu. Naxçıvan Muxtar Respublikasının məktəblərinin ən savadlı məzunları Azərbaycan Dövlət Pedaqoji İnstitutun Naxçıvan filialına 75 sənəd verdi və ilk tələbə adını qazananalar aşağıdakılar oldular: İsmayılova Elmira, Həbibov İsa, Məsiyev Zakir, İsmayılova Məlahət, Abdullayeva Həqiqət, İmanov Akif, Qasımova Ləzifə, Məmmədova Raziyə, Məmmədova Zöhrə, Hüseynova Zemfira, İsmayılova Sveta, Nuriyev Rza, Nəbiyeva Nəcibə, Mirzəyeva Tərlan, Əhmədova Həqiqət, Lazımov Hüseyn, Abbasov Xeyrulla dil-ədəbiyyat fakültəsinə, Həsənov R., Rüstəmov İ., Eminov M., Dadaşov Ə., Səmədov S., Abdinov K., Əliyev Ə., Mahmudov A., Axundov Z., Məmmədov V., Həsənəliyev Ə., Hüseynov K., Seyidov M., Əliyeva R., Ağayev Q., Həbibzadə Ç., Kərimov S. fizika-riyaziyyat fakültəsinə, Axundov Ə., Axundov F., Cəfərov H., Kərimov Q., Qasımov Ə., Rzayev

F., Ələsgərova T., Məmmədova S., Həsənov R., Musayev Ə., Quliyev N., Əliyev H., Cəfərov M., Hacıyev İ., Qəhrəmanov M., Seyidov A., Babayev V. Hüseynova S., Qurbanov T., Əliyev M., Seyidov Q., Novruzov Z., Səfərov R., Bayramova E., İmanov T., Nəsirov F. tarix fakültəsinə qəbul olundular.

Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı keçmiş 1 №-li məktəbinin bazasında üç ştat vahidi olmaqla (direktor, tədris işləri üzrə direktor müavini və metodist) açıldı. Bu vəzifəyə müvafiq olaraq Əli Əliyev, Yavuz Axundov, Mahmud Mahmudov təyin olundular. Filialın ilk müəllimləri İbrahim Mollayev (pedaqogika və psixologiya), İzzət Maqsudov (ədəbiyyat), Firuz Rəhimov (tarix), İbrahim Hüseynov (Sov. İKP tarixi), Allahverdi Hüseynov (tarix), Eli Həşimov (riyaziyyat) oldular. Sonralar Müzəffər Nəsirli, Qasım Qasımov, İbrahim Bağırov, İsmayıl Zeynalov, Zemfira Əhmədova, Nəriman Orucəliyev filialın müəllim personalına daxil oldular. Filial Azərbaycan Dövlət Pedaqoji İnstitutun rəhbərliyi altında, onun göstəriş və göndərdiyi tədris planları ilə işləməyə başladı.

İlk illərdən hər fakültədə 25 nəfər tələbə olmaqla tarix-ədəbiyyat və riyaziyyat ixtisasları üzrə müəllim hazırlığına başlayan filial APİ-nin professor-müəllim heyətinin köməyi ilə getgedə genişlənib inkişaf etmiş, tələbə kontingenti isə ildən ilə çoxalaraq tarix-ədəbiyyat, riyaziyyat ixtisasları ilə yanaşı coğrafiya, coğrafiya-biologiya, kimya ixtisasları üzrə müəllim nəzərdə tutulmuş və davam etdirilmişdir.

1969-cu tədris ilində Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialının coğrafiya ixtisası üzrə: Allahverdiyev İ., İsmayılova E., Eminov M., Səfərov N., Məhərrəmov A., Mustafayev S., Quliyev H., Əhmədov V., Vəzirova T., Mahmudova S., Məmmədov M., Əliyev D., Həsənov Ə., Zeynalov M., Muxtarov M., Seyidova Ş., Əhmədova A., Əzizova S. və başqalarından ibarət 50 nəfər tələbə instituta qəbul olunmuşdur. Coğrafiya və fizika fakültələrinin açılması ilə əlaqədar Mehdiyev Abbas, Məmmədov

Əli və başqaları filialın müəllim heyətinə daxil oldular.

1970-ci ildə Naxçıvan filialı Naxçıvan MSSR-də ali təhsilli kadrlar yetişdirən ilk və yeganə ali təhsil müəssisəsi olmuş, 5 fakültə: tarix, ədəbiyyat, riyaziyyat, coğrafiya, fizika fakültələri fəaliyyət göstərmiş, əyani şöbəsində 506 nəfər, qiyabi şöbədə isə 434 nəfər tələbə təhsil almışdır.

1970-ci ildə filialda 25 nəfər ştat üzrə, 18 nəfər isə saathesabı müəllim işləyir. Bunlardan 11 nəfəri elmlər namizədi, 7 nəfəri isə ayrı-ayrı institutların aspirant və dissertantları idi. Bu dövrdə Səfərəli Babayev institutun direktoru vəzifəsində çalışırdı.

Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialında şair və yazıçılarla vaxtaşırı görüşlər keçirilir. 1970-ci ildə şair İslam Səfərli, Tofiq Bayram, Nəbi Xəzri ilə keçirilən görüşlər tələbələrə xoş təsir göstərmiş, həmçinin Böyük Vətən Müharibəsi iştirakçıları ilə görüşlər tələbələrin dünya görüşünün formalaşmasında xüsusi rol oynamışdır.

Filialın sonuncu kurs tələbəsi İsa Həbibovun (Həbibbəyli) “Yollar cığırlardan başlayır” yazdığı esse filialın tələbə elmi cəmiyyətinin fəaliyyətinə həsr olunmuş və yüksək qiymətləndirilmişdir. Sonralar İsa Həbibbəyli Naxçıvan Dövlət Universitetinin uzun illər rektoru vəzifəsində çalışmış və bu universitetin inkişafında xüsusi xidmətləri olmuşdur.

Dil-ədəbiyyat fakültəsinin sonuncu kurs tələbəsi Akif İmanov “Gənc müəllim” qəzetinə göndərdiyi məktubunda tələbə yoldaşlarından Məlahət İsmayılova, Ləzifə Qasımova, Həqiqət Abdullayevanın üçüncü kursu əla qiymətlə başa vurmasından danışır.

Pedaqogika müəllimi, elmlər namizədi İbrahim Mollayev tezliklə pərvazlanan 90 nəfər filialın ilk qaranquşlarına uğurlu yol arzulayır. Onların tezliklə muxtar respublikanın məktəblərində əməkçi balalarına dərs deməsindən bəhs edir.

Dil-ədəbiyyat fakültəsinin tələbəsi Raziyə Məmmədova, İsa Həbibov, Həqiqət Abdullayeva, Akif İmanov, Məlahət İsmayılova və başqaları, tarix fakültəsinin tələbəsi Qabil Kərimov, riyaziyyat

fakültəsinin tələbəsi M.Eminov, R.Həsənov və başqa qabaqcıl tələbələr təcrübə dərsləri zamanı texniki-əyani vasitələrdən, filmlərdən, foto-şəkil və lent yazılarından geniş istifadə edirdilər.

Filialda Bədən Tərbiyəsi və İdman kafedrasının müdiri Xalid Hüseynovun rəhbərliyi altında gimnastika, voleybol, yüngül atletika və basketbol bölmələri fəaliyyət göstərir, bu bölmələrdə 300-ə yaxın idmançı məşğul olur. Sərbəst güləş üzrə respublika çempionu olmuş, Bakıda keçirilən respublika birinciliyində yüksək yerlər tutmuş Mürsəl İsayev, İsmayıl Hacıyev kimi idmançılarla kollektiv fəxr edir. 1970-1971-ci tədris ilində Səfərəlı Babayev, İbrahim Mollayev, Yavuz Axundov, Səməd Quliyev, İbrahim Salayev, Museyib Zeynalov, Heydər Səfərov, Tofiq Bəktaşi, Eli Həşimov, Damət Seyidov, Hüseyn Kazımov, Xalid Hüseynov, Akif Əliyev, Məmməd Bektaşı, Əli Əliyev, İbrahim Hüseynov, Qasım Qasımov, Firuz Rəhimov, Allahverdi Hüseynov, İsmayıl Zeynalov, İbrahim Bağırov filialda dərs deyirdi. 12 iyun 1972-ci il tarixli Azərbaycan SSR Nazirlər Sovetinin 214 №-li qərarı əsasında Naxçıvan MSSR Nazirlər Sovetinin 206 №-li qərarı ilə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun bazası əsasında Naxçıvan şəhərində Naxçıvan Pedaqoji İnstitutunun təşkil edilməsi haqqında qərar qəbul edildi. Beləliklə filial müstəqil instituta çevrildi. Naxçıvan Dövlət Pedaqoji İnstitutuna akademik Yusif Məmmədəliyevin adı verildi.

1972-ci ildən başlayaraq Naxçıvan Dövlət Pedaqoji İnstitutunda ibtidai təhsil pedaqogikası və metodikası, fizika, ümumi texniki fənnlər, əmək, kimya, biologiya ixtisasları üzrə müəllim hazırlanması üçün ayrıca yeni fakültələr açılmışdır. 1981-ci ildə Naxçıvan Dövlət Pedaqoji İnstitutunda 14 kafedra fəaliyyət göstərir, əyani şöbədə 1338 nəfər, qiyabi şöbədə ildə 616 nəfər tələbə təhsil alırdı. Onların təlim tərbiyəsi ilə 130 nəfər professor-müəllim heyəti məşğul olurdu. Onların içərisində elmlər doktorları, elmlər namizədləri və aspirant-müəllimlər fəaliyyət göstərir.

29 dekabr 1990-cı il tarixli Azərbaycan SSR Nazirlər Sovetinin qərarına əsasən Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət

Pedaqoji İnstitutu Naxçıvan Dövlət Universitetinə çevrildi.

Xalqımızın Ümummilli lideri Heydər Əliyev 1974, 1992, 1999-cu illərdə dörd dəfə Naxçıvan Dövlət Universitetində olması, burada etdiyi tarixi nitqlər, verdiyi tövsiyələr və tapşırıqlar, göstərdiyi qayğı, ölkədə və regionda ali təhsilin və elmin, o cümlədən Naxçıvan Dövlət Universitetinin inkişafında mühüm rol oynamışdır. Naxçıvan Dövlət Universiteti bu gün də uğurla fəaliyyət göstərir, Bakalavr, magistrtatura, doktorntura təhsil səviyyələırində təsərrüfatın müxtəlif sahələri üzrə Vətənə, xalqa dəyərli mütəxəssis kadrlar hazırlayır.

**Tapşırıqlar**

1. Pedaqoji kadr hazırlığında Qori Müəllimlər Seminariyasının rolu.
2. Qori Müəllimlər Seminariyasının azərbaycanlı məzunları haqqında.
3. Qazax Müəllimlər Seminariyasının pedaqoji kadr hazırlığında fəaliyyəti.
4. İrəvan maarifçilik mühiti və İrəvan Müəllimlər Seminariyasını pedaqoji kadr hazırlığında fəaliyyəti.
5. İrəvan Müəllimlər Seminariyasının, İrəvan Pedaqoji İnstitutunun azərbaycanlı məzunları haqqında.
6. Bakı Müəllimlər Seminariyasının pedaqoji kadr hazırlığında fəaliyyəti.
7. Naxçıvan Müəllimlər Seminariyası, onun varisləri və məzunları.

**Ədəbiyyat**


1. Əhmədov H. XIX əsr Azərbaycan məktəbi. Bakı: Maarif, 2000,
2. Əhmədov H. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: Elm və təhsil, 2014.
3. Əziz Şərif. Keçmiş günlərdən. Bakı: Yazıçı, 1983.
4. Hüseynzadə R.L. İrəvan maarifçiliyi// Azərbaycan məktəbi, 2018, № 1.
5. Hüseynzadə R.L. Qafqaz Müəllimlər Seminariyasının naxçıvanlı məzunları// Azərbaycan məktəbi 2010 № 1
6. Rüstəmov.F.A. Azərbaycanda pedaqoji elm: təşəkkülü, inkişafı və problemləri (1920-1991-ci illər).Bakı: Bakı universiteti, 1998.
7. Ağayev.Ə.Ə, Rzayev.V.M. Güney Qafqaz xalqlarının pedaqoji əlaqələri tarixindən. Bakı: Təhsil, 2004..
8. Pedaqoji fikir tarixindən. Naxçıvan: Əcəmi, 2019.

# IX FƏSİL. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ TƏHSİL

**Əhatə olunan məsələlər**

9.1. AXC-in maarif sahəsindəki islahatları
9.2. Təhsilin milliləşdirilməsi
9.3. Ana dilli məktəblərin dərsliklərin hazırlanması
9.4. Milli pedaqoji kadrların hazırlanması
9.5. Qadın hüquqları və qadın təhsili
9.6. Qadın Gimnaziyalarının yaradılması
9.7. Bakı Dövlət Universitetinin təsis edilməsi

## 9.1. AZƏRBAYSAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ TƏRBİYƏ, TƏHSİL VƏ PEDAQOJİ FİKİR

Hələ 1917-si ildə Müsavat Partiyası gələcək Azərbaycan Xalq Cümhuriyyətinin proqramını işləyib hazırlayarkən bir sıra mühüm məsələlərlə yanaşı xalq maarifi, təhsil məsələlərinin də yeni demokratik həlli yollarını irəli sürmüşdür.

Maarif sahəsində bütün vətəndaşlar milliyətindən və cinsindən asılı olmayaraq bərabərdirlər. Məktəb məsələlərinin həllində yerli orqanlara və şəxsi adamlara idarəetmədə istənilən qədər təşəbbüskarlıq göstərmək ixtiyarı verilsin. Xalqa tam təhsil azadlığı verilsin.

Müxtəlif tipli məktəblər arasında sıx, ardıcıl əlaqə yaradılsın, yəni ibtidai məktəb kursunun bitirənlər, ali ibtidai, oradanda ali təhsil müəssələrinə daxil ola bilsinlər. Universitetlər və ali təhsil müəssisələri daxili qaydaları tənzimləməkdə və təhsil məsələlərinin həllində tam müstəqil olsunlar. Ali məktəblərin xalq arasında maarif və mədəniyyəti yaymasına heç bir maneçilik olmasın. Yerli özünüidarə orqanları təlim və tərbiyə məsələlərinin həllində tam müstəqil olsun. İbtidai və ali – ibtidai məktəblərdə təhsli ümumi, pulsuz və icbari olsun.

Yerli özünüidarə təşkilatları yaşlılar üçün ümumtəhsil kursları

açsın. Xüsusi texniki və kənd təsərrüfatı məktəblərinin açılması zəruri hesab edilsin. Yerlərdə çoxluq təşkil edən millətlərin ibtidai və orta təhsili ana dilində aparılsın. Orta məktəblərdə rus və türk dillərini öyrənmək məcburidir. Ali məktəblərdə təhsil türk dilində həyata keçirilsin. Tələb olunan miqdarda kişi və qadın gimnaziyaları açılsın. Azlıqda qalan millətlərin uşaqlarından bir sinifdə 40 şagird olarsa, təlim onların ana dilində aparılsın. Azlıqda qalan millətlərdən müəyyən miqdarda uşaq toplanarsa onlara ibtidai, orta və ali məktəb açmağa və ana dilində oxumağa icazə verilsin.

Bu humanist və demokratik tələblər Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan sonra tədricən həyata keçirilmişdir. Belə ki, türk dili (Azərbaycan dili) dövlət dili elan edildi və təlim ana dilində aparıldı.

Kəndlərdə, şəhərlərdə yeni ana dilli məktəblər açıldı.

Qori Müəllimlər Seminariyasının Azərbaycan bölməsi Firudin Bəy Köçərlinin rəhbərliyi ilə 1918-ci ildə Qazağa köçürüldü və ilk dərslər 1918-ci ilin 10 noyabrında fəlaiyyətə başladı.

Orta və ali məktəblərdə dərs demək üçün Türkiyədən və Rusiyadan xeyli müəllimlər dəvət olundu.

"Nina" rus qız məktəbləri milli qadın gimnaziyalarına çevrildi.

Məktəb yaşından böyük olan vətəndaşlar üçün axşam savad kursları təşkil edildi. Şərqdə ilk dünyəvi ali təhsil verən - Bakı Dövlət Universiteti yaradıldı.

Azərbaycan Xalq Cümhuriyyəti 17 iyun 1918-ci il tarixli müraciətində deyilirdi ki, hökumətin yaxın dövrdə həyata keçirəcəyi tədbirlərdən biri də xalq maarifi, təhsil müəssisələrinin milliləşdirilməsi, maarif ocaqlarında tədrisin ana dilində aparılması, anadilli məktəblər şəbəkəsinin genişləndirilməsi, ana dilli dərsliklərin nəşr edilməsi idi. Eyni zamanda müraciətdə bu da xüsusi vurğulanırdı ki, təhsildə milliləşmə prosesi tədrici yolla, mərhələlərlə həyata keçiriləcəkdir.

Fətəli Xan Xoyskinin baş nazir kimi imzaladığı həmin qərarla

Azərbaycan türkcəsi Azərbaycan Xalq Cümhuriyyətinin dövlət dili elan edildi, bütün dövlət orqanları, məhkəmə, təhsil müəssisələri və digər inzibati qurumlarda da bu dildən istifadə olunması tələb edildi. Parlamentin dəftərxanası bütün dövlət və ictimai təşkilatlara, ayrı-ayrı şəxslərə bildirdi ki, parlamentə, onun dəftərxanasına hər cür yazılı müraciət ancaq dövlət dilində olmalıdır.

AXC hökumətinin qarşısında duran ciddi məsələlərdən biri ölkəmizdə ali təhsil müəssisələrinin yaradılması və milli pedaqoji kadrların hazırlanması məsələsi idi. Bu sahədə Milli Hökumət iki istiqamətdə iş aparırdı: 1. Ölkədə ali təhsil müəssisələrinin yaradılması; 2.Azərbaycan gənclərinin Rusiyanın və Avropa ölkələrinin məşhur universitetlərinə təhsil almağa göndərilməsi. Birinci istiqamətdə BDU, Kənd Təsərrüfatı İnstitutu, Pedaqoji institutun yaradılması, Konservatoriyanın təşkili və s.

Təhsilə, maarifə yüksək səviyyədə münasibətin nəticəsi idi ki, hələ Tiflisdə yaranan ilk Müvəqqəti hökumət kabinetinin (28.05.1918-17.06.1918) tərkibindəki 9 nazirlikdən biri Xalq Maarif Nazirliyi idi. Birinci Azərbaycan hökuməti kabinetində "Maliyyə və Xalq Maarif Nazirliyi" kimi fəaliyyətə başlayan bu nazirlik sonrakı 4 hökumət kabinetində "Xalq Maarifi və Dini Etiqad Nazirliyi" adlandırılmışdır.

Hökumətin 1-3 kabinetinin maarif naziri Yusif Bəy Nəsibbəyli, hökumətin 4-cü kabinəsinin maarif naziri Rəşid bəy Kaplanov, 5- ci hökumət kabinəsinin maarif naziri Həmid Bəy Şahtaxtinski olmuşdur.

Nazirlik yarandığı ilk gündən Azərbaycan Xalq Cümhuriyyətinin təhsil siyasətinin əsas istiqamətlərindən olan təhsil müəssisələrinin milliləşdirilməsi məsələsini ön plana çəkdi, ümumi icbari təhsil layihələri hazırladı, kəndlərdə, şəhərlərdə yeni milli məktəblər açmağa qərar verdi.

Ölkədə fəaliyyət göstərən bütün maarif ocaqları, məktəblər onun tabeliyinə verildi. Az keçmədi ki, hökumətin qərarı ilə Azərbaycanda həmin Nazirliyin tabeliyində əvvəlkilər saxlanmaqla, 10

bölgədə yeni xalq məktəbləri müfəttişliyi yaradıldı və regionlardakı təhsil müəssisələrinin fəaliyyətinə nəzarət onlara tapşırıldı.

AXC hökuməti məktəb dərsliklərinin hazırlanması və nəşri məqsədi ilə Maarif Nazirliyində xüsusi komissiya təşkil etmişdir. 1919-cu ildə “Türk əlifbası”, “Təzə elmi-hesab”, “İkinci il”, “Yeni məktəb”, “Ədəbiyyat dərsləri”, “Müntəxəbat”, “Türk çələngi”, “Tarixi-təbii”, “Rəhbər cəbr” dərslikləri nəşr olundu. Azərbaycan parlamenti 1919-cu il 18 sentyabr tarixli qərarı ilə türk dilində yeni kitablar almaq üçün Xalq Maarifi Nazirliyinin sərəncamına 1 milyon manat vəsait ayırmışdır. Bununla belə Türkiyədən dərsliklərin alınıb gətirilməsi barədə hökumətin 1918-ci ilin payızında belə bir qətnaməsi də var idi: “Azərbaycandakı təhsil müəssisələrinin milliləşdirilməsi üçün mütləq Türkiyədən dərs kitabları gətirilməli, bir qisim müəllimlər də dəvət edilməli və bu məqsədlə növbəti şəxs Konstantinapola (İstanbula) ezam olunmalıdır”. Bu dövrdə məktəblərdə çalışan məşhur müəllimlərin dərs kitablarından da istifadə edilirdi. A.Şaiq, A. Səhhət, H.Cavid, M.Mahmudbəyov, S.S.Axundov, F.Ağazadə belə müəllimlərdən idilər. Abdulla Bəy Əfəndizadə həm ərəb, həm də latın qrafikalı əlifba ilə "Son türk əlifbası" adlı dərslik də yazmışdı ki, bundan da geniş istifadə olunurdu. Məlum olmuşdur ki, latın qrafikalı əlifba ilə dərslər daha yaxşı mənimsənilirdi. 1919-cu ildə nəşr edilmiş Hüseyn Cavid və Abdulla Şaiqin birgə yazdıqları “Ədəbiyyat dərsləri” kitabı da çox əhəmiyyətli və dəyərli dərslik kimi geniş istifadə olunurdu.

1919-cu ilin əvvəllərində respublika ərazisində 23 dövlət orta təhsil müəssisəsi var idi ki, onlardan da altısı kişi, dördü qadın gimnaziyası, beşi real məktəb, üçü müəllimlər seminariyası, üçü “Müqəddəs Nina” qız məktəbi, biri politexnik və biri kommersiya məktəbi idi. Həmin dövrdə Azərbaycan ərazisində 637 ibtidai məktəb fəaliyyət göstərirdi.

1914-cü ildə yaradılmış Balaxanı qız (real) məktəbinin bazasında oğlanlarla qızların birgə təhsil aldığı gimnaziya yaradıldı. Kişi gimnaziyaları iki şöbədən - humanitar və real, qadın gimna-

ziyaları isə ancaq humanitar şöbədən ibarət idi.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti həm məktəbləri, həm də onların rəhbərlərini mümkün qədər milliləşdirməyə çalışırdı. 11 avqust 1919-cu ildə Bakıdakı "Müqəddəs Nina" qız məktəbi Azərbaycanın birinci milli qadın gimnaziyasına, Gəncə və Nuxadakı (Şəkidəki) məktəblər isə uyğun olaraq, Gəncə və Nuxa qadın gimnaziyalarına çevrildi.

Petroqradda fizika-riyaziyyat fakültəsini qurtarmış Səlimə xanım Yaqubova I Milli Qadın Gimnaziyasına, Müslüm Moqamayev I Bakı qarışıq ibtidai ali məktəbinə, Rəşid bəy Əfəndiyev isə Bakı Kişi Müəllim seminariyasına müdir təyin olundu. Milli kadrların bu təyinatı özünün müsbət nəticəsini verdi. Səlimə xanım Yaqubova I Milli Qadın Gimnaziyasına müdir təyin edildikdən sonra, müəllim heyətinin tərkibində dəyişiklik aparmağa başladı. Məktəbin inspektoru vəzifəsinə Azərbaycanın maarifpərvər qadını Xədicə xanım Ağayevanı təyin etdi. Qısa bir vaxtda məktəbin 57 qeyri-azərbaycanlı müəllimindən 14-nün azərbaycanlı ilə əvəz edilməsinə nail oldu. Səlimə xanım Yaqubova savadlı müsəlman qadınlarını işə cəlb etməklə məktəbin rolunu və nüfuzunu yüksəltdi. Rəşid bəy Əfəndiyev də işlədiyi məktəbdə 24 qeyri-azərbaycanlı müəllimin 17-ni azərbaycanlı kadrlarla əvəz etdi. O, Hüseyn Cavid, Əzim Əzimzadə, Rza Təhmasib kimi milli ruhlu müəllimləri məktəbinə işə dəvət etdi. Müslüm Maqomayev isə qeyri-azərbaycanlı müəllimlərdən 4-nü azərbaycanlı ilə əvəz etdi. Onların içərisində Əli Terequlov, Molla Qafar, Pənah Qasımov kimi xalq müəllimləri var idi. Qeyri-millətlər milliləşmə məsələsinə nə qədər mane olmağa çalışsalar da, Azərbaycanın qabaqcıl maarifpərvərləri müxtəlif kənd və qəzalardan milli ruhlu, savadlı müəllimləri tapıb, öz məktəblərinə işə dəvət edir və onlar üçün lazımi şərait yaradırdılar. Bakı şəhərində yerləşən məktəblərin müdirlərinin bu cür vətənpərvərlik nümunəsi göstərmələri milliləşmə kimi çətin bir vəzifənin həyata keçirilməsində mühüm rol oynadı.

Təhsilin daha da təkmilləşdirilməsi məqsədilə gimnaziyaların

strukturunda, orta məktəblərin fəaliyyət istiqamətində, tədris planlarında dəyişikliklər aparıldı. Belə ki, 2 iyun 1919-cu ildə qadın gimnaziyalarında pedaqoji şura sədri, müdir, sinif mürəbbiləri (tərbiyəçilər) vəzifələri ləğv olundu və onun yerinə kişi gimnaziyalarında olduğu kimi, direktor, inspektor və sinif rəhbərinin köməkçisi vəzifələri yaradıldı.

Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirlər nəticəsində 1919-cu ilin əvvəllərində 637 ibtidai məktəb 23 orta ixtisas təhsili məktəblər var idi.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin ümumi təhsilə, ümumi təhsil müəssisələri şəbəkəsinin inkişafına müstəsna əhəmiyyət verməsinin bir göstəricisi də bu idi ki, milli hökumət əvvəlcə ölkədə hamılıqla icbari ibtidai təhsilə, sonra isə ümumi orta icbari təhsilə keçidi özünün təhsil siyasətində prioritet istiqamət hesab edirdi. Belə ki, Azərbaycan Xalq Cümhuriyyətinin sayca dördüncü hökumət kabinetinin Parlamentə təqdim etdiyi Hökumət Proqramında (deklarasiyasında) deyilirdi ki, təhsilin milli müstəqilliyin möhkəmləndirilməsində müstəsna rolu nəzərə alınaraq, ümumi icbari təhsil haqqında qanun layihəsi hazırlanmalı və ümumi təhsil müəssisələri şəbəkəsi daha da genişləndirilməlidir. Bu məqsədlə hökumət ilk növbədə təhsilin məzmunu sahəsində islahatlar aparmaq, yeni dərsliklər hazırlamaq məqsədilə komissiyalar yaradılacağını xüsusi vurğulayırdı.

1919-cu ildə respublikada 15 milliləşdirilmiş, ali ibtidai məktəb var idi ki, onlar da Bakı, Göyçay, Quba, Qusar, Salyan, Lənkəran, Şamaxı, Göytəpə, Gəncə, Gorus, Ağdaş, Şuşa, Nuxa (Şəki), Qazax və Zaqatalada yerləşirdi. Nazirlik daha 2 ali ibtidai məktəbin açılması haqqında məsələ qaldırmışdı. Ali ibtidai məktəblərlə yanaşı, Şuşa və Zaqatalada qadın gimnaziyaları, Gəncə, Zaqatala və Nuxada sənət məktəbləri var idi.

İbtidai məktəbləri bitirən şagirdlər orta məktəblərə, yaxud əsrin əvvəllərində yaradılan, təhsil müddəti dörd il olan ali ibtidai məktəblərə qəbul olunurdular.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin təhsil sahəsindəki tədbirlərindən biri də müasir tipli məktəbəqədər tərbiyə müəssisələrinin ilk nümunəsini yaratması oldu. Belə ki, "Azərbaycan Parlamentinin 1 mart 1919-cu il tarixli qərarı ilə Bakıda I Milli Qadın Gimnaziyası nəzdində 1 sentyabr 1919-cu ildə uşaq bağçası təsis olunmuşdu. Avropa modelli ilk uşaq bağçası Qərbi Avropada məktəbəqədər tərbiyənin nəzəriyyəçisi, alman pedaqoqu Fridrix Frebelin müəyyənləşdirdiyi və onun adı ilə tanınan Frebel sistemi əsasında qurulmuşdu. Bu məktəbəqədər tərbiyə müəssisəsinin tərbiyə proqramında kəsmə üzrə işlər, rəsm, müxtəlif əl işləri, riyazi oyunlar, gimnastika, musiqi və nəğmə əsas yer tuturdu. Frebel sistemi əsasında qurulan məktəbəqədər tərbiyə müəssisəsində tərbiyə alan qızlar gələcəkdə milli qadın gimnaziyalarının hazırlıq və əlifba siniflərində təhsillərini davam etdirə bilərdilər. Bu təhsil-tərbiyə ocağının yaradılması göstərir ki, Milli hökumətimizin təhsil quruculuğunda və təlim siyasətində təhsildə fasiləsizlik prinsipi əsas kriteriyalardan biri idi.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti bu dövrdə təhsildən yayınmış "küçə uşaqları"nın taleyinə də biganə qalmamış, 1919-cu ilin avqustunda Bakıda həmin uşaqlar üçün dövlət hesabına "Uşaq evi" və "Uşaqlara yardım bürosu" təşkil etmişdi.

Hökumət yeni peşə-ixtisas məktəblərinin yaradılması, yaxud mövcud təhsil müəssisələrinin inkişaf etdirilməsi sahəsində də müəyyən tədbirlər gördü. 1919-cu ildə peşə-ixtisas məktəbinin açılması barədə göstəriş verildi. Gədəbəydə peşə-ixtisas məktəbi 1888-ci il 19 apreldə çar Rusiyası tərəfindən təsdiq edilmiş Nizamnamə əsasında açıldı. Yalnız burada tədris planından ilahiyyat və rus dili fənləri çıxarıldı, onların yerinə türk dili və şəriət fənləri daxil edildi. Eləcə də ixtisas fənlərinin saatları artırıldı.

Bu dövrdə musiqi təhsili sahəsində böyük boşluq var idi. Ayrı-ayrı həvəskar bəstəkarlar olsa da, gənc musiqişünaslar yetişdirən Konservatoriya yox idi. Konservatoriyanın açılmasını məqsədəuyğun hesab edən Maarif Nazirliyi Azərbaycan teatr sənətini də

inkişaf etdirmək məqsədilə 1920-ci il aprelin 27-də Azərbaycan teatrının gələcək perspektivlərini Ağakərim Şərifov, Zülfüqar və Üzeyir bəy Hacıbəyov qardaşları, Müslüm Maqomayevlə müzakirə etmişdi.

1919-cu ildə Maarif Nazirliyi Şərqşünaslıq kursu açdı, şərqşünaslıq kursunda üç şöbə yarandı: 1) Linqvistik şöbə; 2) Tarix-təbiət şöbəsi; 3) Hüquq şöbəsi. Həmin dövrdə kənd təsərrüfatında, sənayedə ixtisaslı mütəxəssislərin, fəhlə kadrlarının, texniki profilli ustaların hazırlanması məqsədilə müvafiq kurslar fəaliyyət göstərirdi. Hətta Bakıda Şərq incəsənəti və təsviri sənətin ənənələrini davam etdirmək məqsədilə sənaye incəsənət məktəbinin açılması qərara alınmışdı.

Parlamentin qərarı ilə ali təhsil almaq üçün 100 nəfər azərbaycanlı abituriyent xarici ölkələrə – Almaniya, İtaliya, Fransa və Türkiyəyə yola salınmışdı.

## 9.2. BAKI DÖVLƏT UNİVERSİTETİNİN TƏSİS EDİLMƏSİ

Azərbaycan Xalq Cümhuriyyətinin 1 sentyabr 1919-cu il tarixli iclasında Bakıda ilk dövlət universitetin təsis edilməsi haqqında qərar qəbul edilmiş və onun nizamnaməsi təsdiq edilmişdir. Ümummilli lider Heydər Əliyev BDU-nun yaradılması kimi mühüm tarixi hadisəyə qiymət verərək demişdir ki, əsrin əvvəlindən bu günə kimi Azərbaycan elminə çıraq tutan universitetimizin yaradılması xalqımızın tarixində ən əlamətdar hadisələrdən biridir. Tarixi haqsızlıq ucbatından uzun müddət müstəqilliyini və dövlətçiliyini itirməyə məcbur olmuş Azərbaycan xalqı milli təhsil sistemini və mənəvi tərbiyə formalarını yaratmaq imkanlarından da məhrum edilmişdi. Yalnız 1918-ci ildə müstəqillik qazanaraq Azərbaycan Xalq Cümhuriyyətini elan edən xalqımız neçə yüz illərdən sonra milli və ictimai tərəqqidə elmin, təhsilin rolunu qiymətləndirmək imkanı qazandı.

Nəsib bəy Yusifbəyov may ayının 27-də universitet komissi-

yasının nümayəndələrini qəbul etmiş və nümayəndələr işin gedişi haqqında məlumat verərək, komissiya üzvlərindən bir neçəsini elmi avadanlıqlar almaq üçün Qərbi Avropa ölkələrinə ezamiyyətə göndərməyə icazə verməyi xahiş edirlər. N.Yusifbəyov ən qısa zamanda onların təklif və xahişlərinin yerinə yetiriləcəyini bildirir. Universitet komissiyası az bir vaxtda gərgin əmək sərf edərək, çox səmərəli işlər görür: may ayının 31-də komissiya Bakı Dövlət Universitetinin açılması haqqında bəyannaməni, Bakı şəhərində Dövlət Universitetinin təsis edilməsi haqqında qanun layihəsini və ona əlavə edilən izahlı qeydləri, Universitetin nizamnaməsini, 1919/20-ci tədris ili üçün tərkibində Şərq şöbəsi olmaqla tarix-filologiya fakültəsinin və tibb fakültəsinin ştatlarını və smetasını hazırlayıb Xalq Maarif Nazirliyinə təqdim edir.

Beləliklə universitet ilk tədris ilini 2 fakültə ilə - Tarix-filologiya, Tibb fakültələri ilə fəaliyyətə başlamışdır. Daha sonralar fizika - riyaziyyat (1920), şərqşünaslıq (1922), hüquq (1928), kimya-biologiya (1934) fakültələri yaradılmışdır. İlk tədris ilində 44 müəllim olmuş və universitetin ilk rektoru görkəmli rus alimi, Kazan Universitetinin professoru, məşhur cərrah V.İ.Razumovski olmuşdur. Daha sonra 1926-1929 cu illərdə universitetin ilk azərbaycanlı rektoru Tağı Şahbazi olmuşdur.

Bakı Dövlət Universitetinin yaradılması heç də asanlıqla başa gəlməmişdir. V.İ.Razumovski yazırdı: “1919-cu ilin əvvəllərində Azərbaycan Respublikasının xalq maarif naziri Həmid bəy Şahtaxtinski Tiflis şəhərinə gəldi. O, Qafqaz rus universitetini Bakıya köçürmək təklifi ilə gəlmişdi, yaxşı binalar, maddi təminat və s. vəd edirdi...”. Qafqaz rus universitetinin Tiflisdə fəaliyyət göstərə bilməməsi professorlar şurasının arasında köçməklə bağlı ciddi mübahisə və danışıqların uzanmasına səbəb olmuşdu. Belə bir vəziyyətdə 1919-cu il martın sonunda rektor V.İ.Razumovski universitet şurasının iclasında Bakıdan alınmış təkliflərin daha real, daha məqbul və daha sanballı olmasını əsas gətirərək, məhz universiteti Bakıda yaratmaq təklifini irəli sürür və təklif qəbul edilir.

Bakı Dövlət Universitetin yaranmasında Fətəli Xan Xoyskinin, Nəsib Bəy Yusifbəylinin, Həsən Bəy Ağayevin, Məmmədəmin Rəsulzadənın, Rəşid Xan Kaplanovun, Sultan Məcid Qənizadənin, Həmid Bəy Şahtaxtlının və başqalarının çox böyük böyük xidmətləri olmuşdur.

Dövrün ağır və mürəkkəb beynəlxalq şərtlərinə, xarici təhdidlərə, kəskin maliyyə və kadr çatışmazlığına baxmayaraq, milli hökumət ölkədə təhsil və mədəniyyətin inkişafına xüsusi diqqət yetirir, ciddi tədbirlər həyata keçirirdi. Universiteti professor-müəllim heyəti ilə təmin etmək məqsədilə 1918-ci il iyulun 23-də AXC hökumətinin qərarı ilə Türkiyədən 50 nəfər, Rusiyadan da nəfər  müəllim dəvət edilmişdi. Onlar 1919-cu ilin oktyabr ayının əvvəllərində  Bakı Dövlət Universitetində müəllimlik fəaliyyətinə başlamışdılar. Onların arasında Rusiyadan - Komarovski, Makovelski, Seredinski, Marr, Meşşaninov və başqaları, Türkiyədən - İsmayıl Hikmət, Xəlil Fikrət, Mühittin Birgin, Mehmet Fuad Köprülüzadə, Bəkir Çobanzadə və başqaları universitetdə elmi-pedaqoji fəaliyyətlə məşğul olmuşlar.

Bu böyük alimlər çox dəyərli elmi- pedaqoji tədqiqat işləri, dərslik və dərs vəsaitləri də yazmışlar. Məsələn, İsmayıl Hikmət 4 cildlik "Türk ədəbiyyatı tarixi", 2 cildlik "Azərbaycan ədəbiyyatı tarixi", Möhyəddin "Psixoloji", Fuad Köprülüzadə "Azəri ədəbiyyatına dair tədqiqlər", Xəlil Fikrət "Tədris və tərbiyə tarixi" əsərlərini nəşr etdilmişlər.

Cümhuriyyət xadimlərinin, demək olar ki, hamısının bir nəfər kimi Bakıda universitetin uğurlu fəaliyyəti üçün köməyi edirdilər. Bu vətənpərvər ziyalılarımızın əksəriyyəti Avropanın qabaqcıl universitetlərində təhsil almış şəxsiyyətlər olmuşdur. Məsələn, Əlimərdan bəy Topçubaşov Sankt-Peterburq Universitetini, Fətəli xan Xoyski Moskva Dövlət Universitetini, Nəsib bəy Yusifbəyli Odessa Universitetini, Əhməd bəy Ağayev Parisdə Hüquq Məktəbini və Sorbonna Universitetini, Behbud xan Cavanşir Almaniyanın Frayberq şəhərində Dağ-Mədən Akademiyasını, Mir Hidayət Seyi-

dov Kazan Universitetini, Aslan bəy Səfikürdski Sankt-Peterburq Universitetini, Məmmədrza Vəkilov Xarkov Universitetini bitirmişdilər. Onlar mükəmməl təhsilin bəhrələrini öz gözləri ilə görmüş, həyat təcrübələrində sınaqdan keçirərək, bunu öz vətənlərində həyata keçirmək arzusu ilə yaşayırdılar.

Azərbaycan elm və maarifinin ilk milli məbədini yaratmaq yolunda böyük maneələr olmasına baxmayaraq, milli hökumətimiz və ziyalılarımız heç bir çətinlikdən qorxmadan bu işi uğurla başa çatdırdılar. Beləliklə, 1919-cu il sentyabrın 1-də Azərbaycan parlamenti ictimai fikir tariximizdə, elmin, maarifin inkişafında əvəzedilməz xidmətlər göstərəcək ilk universitetin açılması haqqında qanun qəbul etdi. "Bakı şəhərində dövlət universitetinin təsis edilməsi haqqında" adlanan bu qanunda universitetin dörd fakültədən ibarət olması göstərilirdi: Şərq şöbəsi ilə birlikdə tarix-filologiya, fizika-riyaziyyat, hüquq və tibb fakültələri. Qanunun onuncu maddəsində deyilirdi ki, Bakı şəhərində Dövlət Universiteti 1919-cu il sentyabrın 1-dən açılmış hesab olunur. Qanunun II maddəsinin 2-ci bəndində qeyd edilirdi ki, bütün fakültələrdə türk dili məcburi fəndir. Bundan başqa, müsəlman və türk dünyasında qadın təhsilinə münasibətin də Avropa parlamentlərinə uyğun gəldiyini göstərən VIII və IX maddələr də var idi.

Sultan Məcid Qənizadənin sədrliyi, Əhməd Cövdət Pepinovun katibliyi ilə keçirilən parlament iclasında 1919/20-ci tədris ilində 100 nəfər tələbənin xarici ali məktəblərə göndərilməsi haqqında da iki maddədən ibarət qərar qəbul edilir. Orada göstərilirdi ki, 1919/20-ci tədris ilində 100 nəfər abituriyent və tələbənin xarici ali məktəblərə göndərilməsi üçün dövlət xəzinəsi vəsaitindən xalq maarif nazirinin sərəncamına yeddi milyon manat, Avropaya gedənlərin hər birinə hər ay dörd yüz frank və yol xərci üçün min frank, Rusiyaya gedənlərin hər biri üçün isə hər ay üç min manat və yol xərci üçün üç min manat təyin edilir.

Universitetin 1920 - 1930-cu illərdə aparıcı müəllimləri böyük Azərbaycan yazıçıları Əbdülrəhim bəy Haqverdiyev və Tağı Şah-

bazi, tanınmış akademik və professorlar P.K.Juze, A.O.Makovelski, B. Komarovski, N.Y. Marr, hüquqşünas professor A.O.Mişel, məşhur riyaziyyatçı professor L.Q.Lopatinski, kimyaçı alim Möhsünbəy Xanlarov və digər tanınmış alimlər olmuşlar.

Universitetin ilk rektoru, professor Vasili İvanoviç Razumovski sonralar bu təhsil ocağının fəaliyyətə başlamasının əhəmiyyətindən bəhs edərkən yazırdı: “Azərbaycan öz maarif ocağını yaratdı. Türk xalqının tarixinə yeni parlaq səhifə yazıldı. Avropa ilə Asiyanın qovuşağında yeni məşəl yandı. Bu böyük tarixi hadisənin şahidləri kimi biz özümüzü xöşbəxt hesab edə bilərik”. Lakin Azərbaycanda hər şey arzu edildiyi kimi getmədi. 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqutu, bolşeviklərin hakimiyyətə gəlməsi respublikanın, o cümlədən Bakı Dövlət Universitetinin də tarixində mürəkkəb bir dövrün başlanğıcını qoydu.

1930-cu ilin iyun ayında Azərbaycan SSR Xalq Komissarları Sovetinin qərarı ilə Azərbaycan Dövlət Universitetinin fəaliyyəti dayandırıldı, onun ayrı-ayrı fakültələrinin bazası əsasında yeni müstəqil institutlar yaradıldı. İmperiya qüvvələri bu addımı Azərbaycanın düşünən beyinlərindən, milli ruhlu ziyalılarından qorxduqları üçün atmışdılar. Başlıca səbəb buraya qısa bir zamanda intellektual səviyyəsi çox yüksək olan milli ruhlu ziyalıların toplaşması, Azərbaycanın gələcəyini fikirləşən aydın düşüncəli insanların yığışması idi. Lakin təhsilin və elmin bayraqdarı olan universiteti də imperiya həmişəlik bağlaya bilmədi. Fədakar ziyalılarımızın gərgin əməyi nəticəsində 1934-cü ilin may ayında Azərbaycan SSR Xalq Komissarları Sovetinin qərarı ilə Bakı Dövlət Universiteti yenidən işə başladı və o, yenə də respublikada elmi-pedaqoji fikrin mərkəzinə, ziyalılığın məbədgahına çevrildi.

Belə bir faktı bir daha vurğulamaq lazımdır ki, sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan Xalq Cümhuriyyətinin yaratdığı bir çox təsisatlar, dövlət rəmzləri və atributlarımız da ləğv edilmiş, ilk müstəqil dövlətimizin özü kimi, bunlar da yalnız arxiv sənədlərində və vətənpərvər insanların xatirəsində yaşamalı ol-

muşdur. Xalq Cümhuriyyətinin yaratdığı möhtəşəm elm abidəsi – Bakı Dövlət Universiteti bu təzyiqlərə davam gətirmiş, uzun illərin sınağından alnıaçıq, şərəflə çıxmışdır. Bu dövr ərzində bir neçə dəfə adı dəyişdirilmiş, əməkdaşları repressiya və təzyiqlərə məruz qalmış, lakin mahiyyəti – vətən övladlarına elm, ziya, təhsil vermək amalı heç vaxt dəyişməmişdir.

1929-1930 - cu tədris ilində Şərqşünaslıq fakültəsindən məzun olmuş dosent Lətif Hüseynzadə xatirələrində yazır ki, tələbələr təhsil illərində dərin və hərtərfəli bilik qazanmaqla bərabər, həm də ciddi elmi - tədqiqat işləri ilə də məşğul olmuş, ictimai işlərdə fəal iştirak etmiş, faydalı təşəbbüslər irəli sürmüşlər. L.Hüseynzadə xatirələrində yazır ki, 1928-29-cu tədris ilində Lenin adına Azərbaycan Dövlət Darülfünunun (1922-ci ildə adı dəyişdirilmiş, 1924 cü ildə Leninin adı verilmişdir) 10 illik yubileyi ərəfəsində Şərq fakültəsi nəzdində jurnalistika şöbəsi yaradıldı. Mikayıl Müşfiq, Əhməd Cavad, Məmmədsəlim Tahirli, Əhməd Seyidov, Lətif Hüseynzadə və başqa fəal tələbələr dərsdən sonra jurnalistika şöbəsinin məşğələlərində iştirak edirdik. Bu şöbədə Qori Müəllimlər Seminariyasının məzunu, əsgəri xidmətdə olmuş, bizdən daha yaşlı və təcrübəli olan Əhməd Seyidovla daha yaxın münasibətlər quraraq məşğələlərə davamlı həvəslə gedir və birlikdə fəaliyyət göstərirdik. Burada qəzetçilik, müxbirlik, mətbəə ləvazimatı, redaksiya işlərinə dair çox maraqlı dərslər keçir, məqalələr yazırdıq. Jurnalistika fakültəsinin və jurnalistika şöbəsinin rəhbəri professor S.Seredinski idi. Bir gün rektorumuz Tağı Şahbazi məşğələmizə gəldi və biz ona müraciət etdik ki, darülfünunda çoxtirajlı bir qəzet nəşr edək. Rektor da fikrimizi razılıqla qarşıladı və 1929 cu ilin iyun ayında Azərbaycan Dövlət Darülfünunda "Student jurnalist" adlı çoxtirajlı universitet qəzetinin ilk nömrəsini buraxmağa nail olduq. Bu ilk nömrədə Tağı Şahbazinin "Böyük yubiley qarşısında", Hadi Mirzəzadənin "Darülfununda jurnalizm kafedrası", M.Səlimxanlının "Bizdə qəzetçilik sənəti", Əbdüləziz Salamzadənin" Darülfünün bizə nə verdi", S.Aşurbəylinin "Pedaqoji fakültənin yeni qurulu-

şu.Prof. Fridonlu ilə müsahibə", Lətif Hüseynzadənin "Azərbaycan necə öyrənilir", Tanabeylinin "Lisaniyyat kafedrası. Professor Bəkir Çobanzadə ilə müsahibə", Əhməd Seyidovun "Tibbi fakültədə yeni tədbirlər", adlı məqalələri getmişdir". Rəngli buraxılmış bu ilk qəzetin redaksiya heyətində Məmməd Arif, Adil Əfəndizadə, S.Aşurbəyli, Əhməd Seyidov və Lətif Hüseynzadənin adları görünməkdədir.

1930-cu illərin amansız repressiyaları universitetin milli ruhlu kollektivindən də yan keçməmişdir. Bu illər universitet həyatı üçün dəhşətli, qorxulu və səksəkəli illər oldu. Universitet tarixinin ən çətin illərindən olan 1937-ci ildə universitetin rektoru görkəmli ictimai-siyasi xadim, Azərbaycan təhsil sistemində xüsusi yeri olan Əziz Məmmədkərim oğlu Əliyev olmuşdur. İlk təhsil ocağımızın keçdiyi keşməkeşli yola nəzər salarkən görürük ki, Azərbaycanın bugününü, onun dünya şöhrətli elmini, iqtisadiyyatını, mədəniyyətini, alimlər ordusunu, bütövlükdə müasir Azərbaycan cəmiyyətini bu elm məbədinin fəaliyyətindən ayrılıqda təsəvvür etmək mümkün deyil. Bu illərdə Azərbaycan ziyalılarının BDU-nu milliləşdirmək, milli zəmində inkişaf etdirmək uğrunda mübarizə aparmaları azadlıq ideyalarının, milli özünüdərkin təşəkkül tapmasına çalışmaları sovet çərçivəsində düşünən sərt rejim tərəfdarlarını təşvişə salmış və repressiyalara yol açmışdı. Bakı Dövlət Universitetindəki bir çox milli kadrlar, qabaqcıl ziyalılar da imperiya siyasətinin qurbanı olmuşlar. Lakin SSRİ tərkibində olduğumuz sonrakı illərdə də Azərbaycan alimlərinə, ziyalılarına təzyiqlər səngiməmişdir. Təqiblər, hədə-qorxular ziyalılarımızın fəaliyyətini məhdudlaşdırır, onların müstəqilliyini əllərindən alırdı. Bu səbəbdən də 1937-ci il repressiyalarının ağırlıq mərkəzi BDU-nun müəllim və məzunlarının üzərinə düşmüşdü. Bu dövrdə yüzlərlə professor, müəllim, işçi və tələbəyə "xalq düşməni", türkçü, turançı, pantürkçü, panislamçı damğaları vuruldu. O illərdə amansız Stalin repressiyalarının qurbanı olmuş, Sibirin həbs düşərgələrinə sürgün olunmuş və ya güllələnmiş Əli Nazim, Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl

Müşfiq, Vəli Xuluflu, Bəkir Çobanzadə, Tağı Şahbazi, Həmid Şahtaxtinski, Məmməd Ələkbərli kimi unudulmaz ziyalılarımızın xatirəsi bu gün dərin hörmət və ehtiramla yad edilir. 1937-ci ildə 2 dekan, 2 dekan müavini, 4 kafedra müdiri, kitabxananın direktoru, elmi katib, xüsusi hissənin müdiri, partiya və komsomol təşkilatlarının rəhbərləri, 8 professor, həmçinin Universitetin rektoru olmuş xalqımızın 4 görkəmli ziyalısı (Tağı Şahbazi, Maqsud Məmmədov, Məmmədkazım Ələkbərli, Balabəy Həsənbəyov) ən ağır cəzaya – güllələnməyə məhkum edildi. Bu insanların hər birinin Azərbaycan ziyalılığının formalaşmasında və təşəkkülündə müstəsna xidmətləri var idi. 1937-ci ildə əsən sərt küləklər xalqımızın bir çox gərəkli övladları kimi, Universitetin 100 nəfərədək ziyalısını da məhvə məhkum etmişdi.

II Dünya müharibəsi universitetin də həyatına mənfi təsir etdi, tədris prosesi ağır vəziyyətə düşdü. 1941-ci il iyunun 22-də – müharibənin başlandığı ilk gündə universitetin rektoru Cəbrayıl Ağəli oğlu Ələsgərovun cəbhəyə getməsi bütün müəllim-tələbə kollektivi üçün bir çağırış oldu. Bir neçə gün ərzində universitetin 159 müəllimi, 23 aspirantı, 1141 tələbəsi səfərbərliyə alındı, silaha sarılaraq ön cəbhəyə getdi. 1940-41-ci dərs ilində universitetin bütün məzunları və 200 tələbə cəbhəyə yollandı. Onlar həm döyüşən hissələrdə, həm də Avropa ölkələrində partizan və müqavimət hərəkatında fəal iştirak etdilər. Döyüşən ordu sıralarına çağırılmayanlar isə arxa cəbhədə öz əməkləri ilə fərqləndilər.

Müharibənin ən ağır dövründə – 1941-1944-cü illərdə universitetə dosent Şamil Rəhim oğlu Əliyev rektorluq etmişdir. Amansız müharibə universitetin fəaliyyətinə ağır zərbə vursa da, onun kollektivi bu ağır sınaqdan şərəflə çıxdı. Elə həmin çətin illərdə universitet alimləri beynəlxalq əhəmiyyəti olan bir sıra kəşflərə imza atdılar. Bunlara ən parlaq misal akademik Yusif Məmmədəliyevin donmayan sürtkü yağlarını kəşf etməsini göstərmək olar ki, müharibə illərində hərbi aviasiya sənayesində Sovet təyyarələri üçün bu tapıntı həlledici rol oynadı. Müharibədən sonrakı dövr universitet

həyatının canlanması ilə müşayiət olunurdu. Lakin ağır müharibənin yaratdığı çoxlu problemlər də mövcud idi. Dərs vermək üçün yüksək ixtisaslı müəllimlər, dərslik, dərs vəsaitləri, auditoriya və laboratoriyalar, avadanlıqlar çatışmırdı. Bu dövrdə universitet kollektivinin qarşısında duran mühüm vəzifələrdən biri müharibənin törətdiyi ağır fəsadları aradan qaldırmaq, universiteti inkişaf etdirmək idi. Universitet kollektivi böyük ruh yüksəkliyi ilə həmin vəzifələrin yerinə yetirilməsi istiqamətində ciddi səylər göstərdi. Universitetdə tədris və elmi həyat canlandı, təşəbbüskarlıq artdı. Müharibənin sona çatmasından sonrakı ilk illərdə universitetdə bir neçə yeni fakültə və ixtisas açıldı, kafedra və laboratoriyalar təşkil edildi, bir sıra əsaslı dəyişikliklər aparıldı.

1950-ci illərinin ortalarında sovet cəmiyyətində baş verən nisbi yumşalma universitet həyatına da müsbət təsir etdi. Lakin bu vəziyyət çox uzun sürmədi. Yenidən milli ruhun sıxışdırılması prosesi başladı. Mərkəzin nəzarəti sərtləşdirildi, təhsildə yersiz siyasiləşdirmə və ideologiyalaşdırma daha da gücləndirildi. Bütün bunlara baxmayaraq, universitet öz inkişafından qalmadı, burada yeni fakültələr yaradıldı, laboratoriyalar açıldı. Beləliklə, artıq universitet ölkədə ən güclü elmi mərkəzə çevrildi. Ümumiyyətlə, 40-50-ci illər universitetin həyatında xüsusi yüksəliş illəri kimi qiymətləndirilə bilər. Xalqımızın 4 böyük ziyalısının həmin illərdə universitetə rəhbərlik etməsi dediklərimizin bir sübutudur. 1944-1950-ci illərdə akademik Abdulla İsmayıl oğlu Qarayev, 1950-1954-cü illərdə professor Cəfər Xəndan Zeynal oğlu Hacıyev, 1954-1958-ci illərdə akademik Yusif Heydər oğlu Məmmədəliyev, 1958-1965-ci illərdə akademik Şəfayət Fərhad oğlu Mehdiyev kimi böyük təhsil və elm təşkilatçılarının rəhbərliyi universitetə yeni inkişaf stimulları gətirdi.

Qeyd etmək lazımdır ki, ümumiyyətlə, universitet yarandığı ilk günlərdən yalnız tədrislə deyil, həm də tədqiqat işləri ilə məşğul olmuşdur. İlk dövrlərdə elmi institutlar olmadığı üçün kafedra və laboratoriyalarda aparılan elmi-tədqiqat işlərinə 1920-ci ildə yara-

dılmış Elm cəmiyyəti, sonra isə Elm komitəsi rəhbərlik etmişdir. Elmi-tədqiqat işlərinin genişlənməsi elmin müxtəlif istiqamətlərində kəşflər etməyə, dərsliklər hazırlamağa imkan verirdi. 1921-ci ildən bu günə kimi universitetin dövri mətbuat orqanı olan "Elmi Xəbərlər" müntəzəm olaraq çap edilir. Bu gün həmin jurnal universitet alimlərinin elmi araşdırmalarını əks etdirən mötəbər mətbuat orqanlarından biridir. Universitetin elmi araşdırmalarının nəticəsi olaraq, 1950-ci illərin ortalarından yüksək elmi səviyyədə hazırlanmış dərsliklər və dərs vəsaitləri də sürətlə artmağa başlamışdır. Bu həm də universitetdə elmi potensialın güclənməsinin, yüksəkixtisaslı kadrlar hazırlanmasının məntiqi göstəricisidir

2001 -ci ildən Bakı Dövlət Universiteti ilkin adı ilə uzun və mürəkkəb keşməkeşli dövrlərdən keçmiş, ildən ilə inkişaf etmiş, təkmilləşmiş və şərəfli 100 illik fəaliyyətini arxada buraxmışdır.

Universitetin inkişafında yeni keyfiyyət mərhələsi, heç şübhəsiz, Azərbaycan xalqının ümummilli lideri, BDU-nun tarix fakültəsinin "Əla" qiymətlərlə məzunu olmuş Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlı olmuşdur.

Xalqımızın siyasi qüdrətinin təcəssümçüsü, Azərbaycan ziyalılarının ağsaqqalı və himayəçisi, milli təhsil quruculuğumuzun nəhəng memarı Heydər Əliyev mənəvi böyüklüyümüzün simvolu, elmimizin, təhsilimizin, mədəniyyətimizin möhtəşəm məbədi olan Bakı Dövlət Universitetinə xüsusi həssaslıqla yanaşmış, Azərbaycanın keçmişini, onun mədəniyyətini, elm və iqtisadiyyatını, bütövlükdə müasir Azərbaycan cəmiyyətini bu elm məbədgahından ayrı təsəvvür etməmişdir. Heydər Əliyev bilirdi ki, Azərbaycanın intibahı və inkişafı bu təhsil ocağının köməyi ilə baş verə bilər. Cəmiyyətin tərəqqisinin, elm, mədəniyyət, mənəviyyat inkişafının ən qüdrətli vasitəsi rolunu oynayan təhsilə qayğının artırılması, bu işə dövlət siyasətinin prioritet prinsipi kimi yanaşılması Heydər Əliyevin rəhbər və vətəndaş qayəsini ifadə edən önəmli cəhət idi. Bakı Dövlət Universitetinin 50 illik yubileyində sovet rejiminin tətbiq etdiyi bütün qadağaları aşan və o dövr üçün inqilaba bərabər bir ha-

disə baş verdi. 1969-cu il noyabrın 1-də universitetin yaradılmasının 50 illiyi münasibəti ilə yubiley tədbiri keçirilirdi. O zaman Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyevin tədbirdə iştirak etməsi və ana dilində nitq söyləməsi təkcə universitet kollektivinə deyil, bütün Azərbaycan cəmiyyətinə milli ruhun qaytarılması istiqamətində bir dönüş anı oldu. Bu nitq o vaxta qədərki bütün sovet sisteminin ağır repressiyalarından və təqiblərindən əziyyət çəkən universitet kollektivinin ürəyində ümid çırağı yandırdı, onları ruhlandırdı. Universitetin həyatında yeni bir keyfiyyət mərhələsinin başlanğıcını qoydu. Heydər Əliyev deyirdi: "Azərbaycan universitetinin yaranması qabaqcıl qüvvələrin qələbəsi idi, doğma xalqı maarifləndirmək uğrunda, dünya mədəniyyəti və elm xəzinəsinin qapılarını onun üzünə açmaq uğrunda Azərbaycanın ən yaxşı oğullarının bir çox illər ərzində apardıqları mübarizənin yekunları idi". Bu fikirlər Heydər Əliyevin Azərbaycan maarifçilərinə, ziyalılarına və Cümhuriyyət dövrü xadim"lərinə verdiyi böyük qiymət idi. Əslində, bu sözləri ilə Heydər Əliyev milli tarixə xüsusi diqqət yetirilməsinə səsləyirdi. Heydər Əliyevin nitqini ana dilində söyləməsi böyük tarixi əhəmiyyət daşıyırdı. O vaxtadək çoxları respublika rəhbərinin ana dilində nitq söyləyəcəyini güman etmirdi. Sovet sistemi şəraitində milli dildə nitqlərə mərkəzdə rəğbətlə yanaşmırdılar. Respublika rəhbərləri, ümumiyyətlə rəhbər işçilər rus dilində danışırdılar. Heydər Əliyev isə mövcud qadağaları cəsarətlə qıraraq, nitqi ilə təkcə ana dilinə olan bağlılığını, sevgi və hörməti nümayiş etdirmədi, eyni zamanda bütün Azərbaycan cəmiyyətinə bu yolda bir nümunə göstərdi. Bu tədbirdə iştirakı və ana dilində nitqi ilə Heydər Əliyev milli ruhu universitet divarları arasına qaytardı. Heydər Əliyev deyirdi: "Bu gün, təntənəli yubiley günündə biz öz biliyini, öz istedadını Azərbaycan universitetinin yaranmasına və inkişafına sərf edənlərin xatirəsini hörmətlə yad edirik". Bu sözlər Heydər Əliyevin milli tariximizə, mədəniyyətimizə və elmimizə olan dərin hörmətini və sıx bağlılığını göstərirdi. Elm və təhsili layiqincə inkişaf etdirməsi-

nin, elm və mədəniyyət sahəsində yüksək ixtisaslı kadrlar hazırlanması işində nailiyyətlər qazanmasının nəticəsi olaraq, SSRİ Ali Soveti Rəyasət Heyəti 1969-cu ildə Azərbaycan Dövlət Universitetini yaranmasının 50 illiyi münasibəti ilə Qırmızı Əmək Bayrağı ordeni ilə təltif etmişdi. Sonralar da Heydər Əliyev Bakı Dövlət Universiteti ilə bağlı hər hansı qərarın qəbul olunmasından, onun yubileylərinin keçirilməsindən tutmuş, burada çalışanların təltif edilməsi, mükafatlandırılmasına qədər hər bir məsələyə həssas yanaşmışdır. Bu da onun BDU-ya olan sevgisinin göstəricilərindən biri idi. Azərbaycanın müstəqil dövlət quruculuğuna aparan yolu, əslində, 1969-cu ildən – məhz onun hakimiyyətə gəlişindən sonra başlamışdır. Bu mənada, azərbaycançılığın ən parlaq səhifələri də elə həmin illərdən etibarən yazılmışdır. Heydər Əliyev o dövrdə mövcud olan ideologiyanın qəlibləri çərçivəsində Azərbaycanda milli ruhun tamamən sıxışdırılmasına nəinki yol verməmiş, əksinə, onu yüksəltmək yolunda bütün imkanlardan maksimum dərəcədə istifadə etməyi bacarmışdı.

Bu gün biz bir daha fəxrlə söyləyirik ki, Heydər Əliyev kimi nadir şəxsiyyət Bakı Dövlət Universitetinin məzunu olmuş, həyatının bütün dövrlərində bizim təhsil ocağımızla möhkəm bağlanmış, heç zaman BDU-dan öz qayğıkeş əlini çəkməmişdir. Bu onun ziyalılara, müəllimlərə olan sevgisindən, doğmalığından irəli gələn bir cəhət idi. O deyirdi: "Bakı Dövlət Universiteti Azərbaycan xalqının milli sərvətidir". Və bu sərvəti göz bəbəyi kimi qorumaq üçün tələbkar rəhbər qətiyyəti göstərirdi. Eyni zamanda, hər bir ziyalıya, elm adamına, təhsil işçisinə öz əzizi kimi baxırdı. Azərbaycanın hər bir savadlı, təhsilli insanı onun sevimlisi idi.

Bütün dövrlərdə Bakı Dövlət Universitetinə Heydər Əliyevin xüsusi bir sevgisinin şahidiyik. O, BDU-ya olan məhəbbətini, ehtiramını, sevgisini bu sözlərlə bildirirdi: "Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam".

1980-ci ildə universitetin yaradılmasının 60 illik yubileyi keçirildi və həmin tədbirlərdə də Heydər Əliyev iştirak etdi. Bu

iştirakdan sonra universitet həyatında bir sıra yeniliklər baş verdi. Burada yeni kafedra və laboratoriyalar açıldı, maddi texniki baza möhkəmləndirildi, bir çox əməkdaşlara fəxri adlar verildi.

1994-cü ildə Bakı Dövlət Universitetinin yaradılmasının 75 illiyi tamam oldu. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sərəncamı ilə yubiley komissiyası yaradıldı. Yubiley komissiyasının iclasına Heydər Əliyevin şəxsən sədrlik etməsi Azərbaycan rəhbərinin universitetin cəmiyyətin həyatında roluna və yerinə verdiyi böyük qiymət və diqqətlə bağlı idi. Bu həm də ümummilli liderin ölkəmizdə elm, təhsil və mədəniyyətə yüksək qayğısının nümunəsi idi. Təntənəli yubiley mərasimində iştirak edən Heydər Əliyev geniş nitq söylədi və dedi: “Bakı Dövlət Universiteti Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvətidir, milli iftixarıdır...”.

1999-cu ildə Bakı Dövlət Universitetinin yaradılmasının 80 illiyi tamam oldu. Bu münasibətlə 1999-cu il dekabrın 28-də universitet kollektivinə göndərdiyi təbrik məktubunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yazırdı: “Diqqətəlayiqdir ki, Bakı Dövlət Universiteti öz fəaliyyətinin bütün dövrlərində elm və təhsil məbədi olmaqla yanaşı, həm də Azərbaycan dilinin inkişafında, milli şüurun, vətənpərvərlik ruhunun inkişafında xidmətlər göstərmiş bir mərkəz rolunu oynamışdır. Bakı Dövlət Universitetinin əsasını qoyanların, onun inkişafına təkan vermiş insanların əməyini daim yüksək qiymətləndirərək, onların xatirəsini böyük minnətdarlıq və ehtiram hissi ilə yad edirəm”.

Bakı Dövlət Universitetinin ən böyük məzunu xalqına, onun mədəniyyətinə və mənəviyyatına son dərəcə bağlı olan, şəxsiyyəti ilə xalqımızın simvoluna çevrilən, Azərbaycan dövlətinin xilaskarı və qurucusu, dünya azərbaycanlılarının lideri Heydər Əliyevdir. Heydər Əliyev BDU-nun həm bütün Azərbaycan xalqının, həm də universitetimizin şöhrətini yüksəklərə qaldıran, millətinə xidmət göstərən ən məşhur məzunudur. Heydər Əliyev BDU-nun məzunu olması ilə fəxr etdiyini dəfələrlə vurğulamış, onu Azərbaycan xalqı-

nın milli sərvəti adlandırmışdır.

Bakı Dövlət Universitetinin inkişafının yeni mərhələsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin adı ilə bilavasitə bağlıdır. Universitetin sonuncu tədris korpusu 1988-ci ildə istifadəyə verilmişdi. Həmin tarixdən keçən dövr ərzində açılan yeni fakültələr, kafedralar, laboratoriyalar, elmi-tədqiqat institutları və digər qurumlar, habelə tələbələrin sayının kəskin artması tədris prosesində xeyli problemlər yaratmışdı. Ona görə də yeni tədris korpusunun tikintisi barədə qərar qəbul edilmiş və onun inşasına 1991-ci ildə başlanmışdı.

24 aprel 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncamla universitetin 90 illik yubileyinin respublika miqyasında geniş şəkildə qeyd olunması, 30 oktyabr 2009-cu il tarixi sərəncamları ilə Bakı Dövlət Universitetinin ümumilikdə 107 nəfər professor-müəllliminə müxtəlif fəxri adlar, mükafatlar, fərdi təqaüdlər verməsi və yubiley tədbirinə qatılması müsəlman Şərqində ilk Avropa tipli ali təhsil ocağı olan BDU-nun milli kadr hazırlığındakı müstəsna yeri və roluna verilən yüksək qiymətdir.

2013-cü il sentyabrın 18-i Prezident İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Bakı Dövlət Universitetinin Qubadakı Tədris-təcrübə və istirahət mərkəzinin açılış mərasiminə qatılması universitet tarixinin ən şərəfli səhifələrindəndir. Bakı Dövlət Universiteti Azərbaycan ali məktəblərinin flaqmanı, dövlətçiliyin barometridir. Bu gün ölkədə aparılan təhsil islahatlarının önündə gedən Universitet kollektivi Avropaya surətlə inteqrasiya edən ölkəmizin gələcəyini təmin edən yüksək ixtisaslı kadrların hazırlanması üçün əlindən gələn hər şeyi edir.

Ulu Öndərimiz Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev Bakı Dövlət Universitetinə diqqət və qayğısını bu gün də durmadan davam etdirir və “Bakı Dövlət Universitetinin 100 illik yubileyinin keçirilməsi haqqında” 14 noyabr, 2017 - ci il tarixli xü-

susi Sərəncam imzalamışdır. Həmin sərəncamda deyilir: "2019-cu ildə Azərbaycanın nüfuzlu elm və təhsil ocağı Bakı Dövlət Universitetinin təsis edilməsinin 100 illiyi tamam olur.

Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı Bakı Dövlət Universiteti müsəlman Şərqində yeni tipli ali məktəb kimi yartandığı vaxtdan etibarən nailiyyətlərlə zəngin şərəfli bir yol keçmişdir. Daim azərbaycançılıq məfkurəsinə sadiqlik nümayiş etdirən Universitetin ölkədə ali təhsil sisteminin qurulmasında, elmi tədqiqatların dərin məzmun kəsb edərək son texnologiyaların da tətbiqi ilə müasir standartlara uyğun aparılmasında və ümumən milli özündərk prosesinin sürətləndirilməsində təqdirəlayiq xidmətləri  vardır. Bakı Dövlət Universiteti tarixən vətənpərvər ziyalıların fədakar əməyi sayəsində yetirdiyi ictimai-siyasi, elm və mədəniyyət xadimləri ilə Azərbaycanın mövcud simasının təşəkkülünə böyük töhfələr vermişdir..."

## Tapşırıqlar

1. AXC dövründə təhsilin səciyyəvi xüsusiyyətləri.
2. AXC dövründə təhsilin milliləşdirilməsi.
3. AXC dövründə pedaqoji kadr hazırlığı.
5. AXC dövründə Bakı Dövlət Universitetinin yaradılması.
6. BDU-nun rektorları haqqında.
7. BDU nun məşhur məzunları haqqında.
8. BDU -nun inkişafında Ulu öndər Heydər Əliyevin xidmətləri.
9. BDU -nun yubileyləri haqqında dövlət Sərəncamları.
10. BDU nun 100 illiyi haqqında ölkə Prezidentinin Sərəncamı.

## Ədəbiyyat


1. Heydər Əliyev. Təhsil millətin gələcəyidir. Bakı: BDU, 2002.
2. İlham Əliyev. "Bakı Dövlət Universitetinin 100 illik yubileyinin keçirilməsi haqqında" 14 noyabr, 2017-ci il tarixli sərəncam/ Xalq, 15 noyabr, 2017.
3. Hüseynzadə R.L. BDU-nun ilk mətbuat orqanı-"Student-jurnalist" qəzeti. BDU -nun 100 illiyi şərəfinə/Tərəqqi, 22-29 may, 2019. may
4. Hüseynzadə R.L. Görkəmli pedaqoq Əhməd Seyidova həsr edilmiş monoqrafiya / Azərbaycan müəllimi, 12 yanvar, 2019 -cu il.

# X FƏSİL

# XIX ƏSRİN SONU VƏ XX ƏSRİN BİRİNCİ YARISINDA AZƏRBAYCAN KLASSİKLƏRİNİN, GÖRKƏMLİ MAARİFPƏRVƏRLƏRİNİN TƏRBİYƏ VƏ TƏHSİL HAQQINDA FİKİRLƏRİ

**Əhatə olunan məsələlər**

10.1. XIX əsrin sonu və XX əsrin birinci yarisinda Azərbaycan klassiklərinin, görkəmli maarifpərvərlərinin tərbiyə və təhsil haqqinda fikirləri

10.2. XIX əsrin sonu və XX əsrin birinci yarisinda Azərbaycan klassiklərinin milli pedaqoji kadrların hazırlığı haqqında

10.3. XIX əsrin sonu və XX əsrin birinci yarisinda Azərbaycan klassiklərinin, qadın təhsili haqqında fikirləri haqqında

## 10.1. ABBASQULU AĞA BAKIXANOVUN TƏRBİYƏ VƏ TƏHSİL HAQQINDA FİKİRLƏRİ

**Abbasqulu ağa Bakıxanov** (1794-1847) Azərbaycan xalqının görkəmli alimi, böyük mütəfəkkiri, filosof və pedaqoqu olaraq, dərin biliyi və geniş yaradıcılığı ilə fərqlənən şəxsiyyətlərdən biridir. Abbasqulu ağa Bakıxanovun uşaqlıq illəri Əmircan, Balaxanı və Maştağa kəndlərində keçmişdir. Onun əsl vətəni özünün də qeyd etdiyi kimi Bakıdır. Lakin sonralar XIX əsrin lap əvvəllərində Bakıxanovun atası II Mirzə Məhəmməd xan xanlıqlar arasındakı vuruşmalar nəticəsində Bakıdan Qubaya köçməli olmuş və 7 yaşlı oğlu Abbasqulunu da özü ilə aparmışdır. Qubada əvvəl bir müddət Şeyx Əli xanın sarayında, sonra isə atasının Əmsar kəndindəki malikanəsində yaşamışdır. Burada o, gözəl və nəcib xasiyyəti ilə qubalılardan özünə çoxlu dost qazanmışdır. İlk təhsilini Qubada almışdır. Burada o, ruhanilərdən fars və ərəb dillərində dərs alaraq hər iki dili

öyrənmişdir. Fars və ərəb dillərini yaxşı bilməsi sayəsində Firdovsi, Xəyyam, Nizami, Xaqani, Füzuli kimi böyük klassiklərin əsərləri ilə tanış olmuşdur.

A.Bakıxanov 1819-cu ilin dekabr ayında Tiflisə gedib orada Qafqazın baş hakimi general A.P. Yermolovun idarəsində Şərq dilləri üzrə mütərcim vəzifəsinə qəbul edilmişdir. Rəsmi dövlət qulluğu Rusiya-İran və Rusiya-Türkiyə müharibələri dövrünə təsadüf etdiyindən o, bir sıra hərbi səfərlərdə iştirak etmiş, bacarıqlı ictimai xadim-diplomat kimi tanınmışdır. Hərbi xidmət sahəsində polkovnik rütbəsinə yüksələn A.Bakıxanov rəsmi dövlət qulluğunda çalışmaqla yanaşı elmi və ədəbi yaradıcılıqla da məşğul olmuşdur. O, muxtəlif illərdə "Qanuni-Qüdsi", "Təhzibi-əxlaq", "Kitabi-nəsihət", "Kitabi-Əsgəriyyə", "Mişkatül-ənvar" və b. əsərlərini yazmışdır. "Qanuni-Qüdsi" - əsəri Bakıxanovun birinci elmi əsəri olmuşdur və o bu əsri uşaqlara fars dilinin sərf və nəhvini sadə dildə öyrətmək məqsədi ilə yazmışdır. Bu dərslik kitabı farsların özlərindən də çox qabaq bu dilin təlimi üçün yazılan ilk əsərlərdən biridir. A.Bakıxanov əsəri üç fəsilə bölür: "Hərflər", "Kəlmələr" və "Cümlə". Burada müəllif əsasən ərəb və fars dillərinin qrammatik prinsiplərinə əsaslanmış, onları orjinal yolla fars dilinin daxili qanunauyğunluqlarına uyğunlaşdırmağa çalışmışdır. O, Şərqdə bir ənənə şəklini almış qaydaya riayət edərək, bəzi misalları şerlə vermiş və bu şerlərdə atalar sözlərini xatırladan hikmətamiz fikirlər ifadə etmişdir. Müəllif bu əsəri "Riyazül-Qüds"dən təqribən 8 il sonra, yəni hicri tarixi ilə 1244-cü ildə yazmışdır. Əsər ilk dəfə 1831-ci ildə fars dilində, 1841-ci ildə isə Tiflisdə rus dilində nəşr edilmişdir. Müəllif "Qanuni-Qüdsi"nin məktəb şagirdləri üçün bir dərslik olmasını nəzərdə tutduğu üçün, əsərdə əyanilik prinsipinə riayət etmişdir; sərf-nəhv qanunlarının yadda möhkəm saxlanılması üçün misalların əksəriyyətini şer parçaları ilə vermişdir. Əsərin farsca nəşrinin müqəddiməsində o bu xüsusla yazır: "Misalları yazdığım şerlərlə vermişəm ki, dərk etmək asan olsun, çünki şerlə deyilən sözlər asan yadda qalır" misalların əksəriyyəti eyni zamanda tərbi-

yəvi mahiyyət daşıyırdı. Bunların içərisində maarifçi alimin rasionalist dünyagörüşünü ifadə edən misallar da vardır. Məsələn: "Hər bir müvəffəqiyyətli iş ağıl sayəsində mümkün olur", "Ağılsız adam həmişə hünərsiz olar", "Zalıma deməyin ki zülm etmə, çünki o, bu hərəkətindən əl çəkməz"

A.Bakıxanovun ən böyük elmi əsəri isə Azərbaycan və Dağıstan xalqlarının tarixinə aid olan "Gülüstani-İrəm" əsəridir. Müəllif özü dövlət başçılarına və müasirlərinə yazdığı məktublarında "mənim uzun illər zəhmətimin məhsuludur" deyə qeyd edirdi. Bütün əsərlərində olduğu kimi bu əsərə də A.Bakıxanov müqəddimə ilə başlayır. Müəllif yığcam lakin dolğun olan müqəddimədə tarix elminə qısa bir tərif verir; onu cəmiyyət və xalq üçün ən faydalı elmlərdən biri sayır. Bəşəriyyətin keçmiş həyatını təcrübə adlandırır və gələcək həyatı qorumaq üçün bu təcrübədən istifadə etməyi lazım görür. "Gülüstani-İrəm" əsəri elmi əsər olsa da, bu əsərdə də Bakıxanovun pedaqoji ideyalarına rast gəlinir. Belə ki, Bakıxanovun qadın haqqında xüsusi əsəri və ya müntəzəm şəkildə şərh olunmuş baxışları yoxdur. Lakin onun "Gülüstani-İrəm", "Kitabi-Əsgəriyyə" və başqa əsərlərindəki bir sıra faktlardan görünür ki, Bakıxanov qadınlarda yüksək əxlaqi keyfiyyətlərin olmasını, qətilik, mərdlik, xarakter möhkəmliyi, müstəqillik, düşüncəli olmaq, mərhəmətli, mübariz olmaq, azadlığa meyl emək kimi bir sıra müsbət keyfiyyətləri qeyd etmişdir.

Abbasqulu ağa Bakıxanovun elmi əsərlərindən əlavə onun pedaqoji məsələlərlə bağlı bilavasitə yazdığı əsərləri də vardır. O, pedaqoji məsələlərlə də bir alim-pedaqoq kimi məşğul olmuş, uşaqların və gənclərin tərbiyəsi ilə əlaqədar olaraq dəyərli əsərlər yazmışdır ki, bunlardan biri "Təhzibül-Əxlaq", digəri isə "Kitabi-nəsihət"dir.

"Təhzibül-Əxlaq" müəllifin həm pedoqogika və psixologiyaya aid elmi, həm də nəzəri məsələlərlə məşğul olan fəlsəfi əsəridir. Əsər fars dilində yazılmış müqəddimə, on iki fəsil və nəticədən ibarətdir. Bu əsərin əsas məqsədi gəncləri pis əməllərdən çəkindirmək,

onlarda nəcib və gözəl əxlaq normalarını oyandırmaqdır. Şəxsiyyətin bütövlüyü, doğruluq, ədalətlilik, mərdlik, insanlarla yaxşı rəftar, təvazökarlıq, elm və maarifi hər şeydən üstün tutmaq, vətən və xalqa məhəbbət və s. ideyalar əsərin irəli sürdüyü əsas məsələlərdir. O, əsərində bir əxlaq müəllimi, tərbiyəçi kimi faydalı məsləhət və nəsihətləri ilə oxucunu düz yola dəvət edir,onu əməyə rəğbət, dostluğa sədaqət, böyüyə hörmət, təvazökarlığa və ədalətə çağırır. İnsan qəlbini ləkələyən, onu cəmiyyət içərisində xar edən tənbəllik, riyakarlıq, paxıllıq, nankorluq, yalançılıq kimi alçaq sifətlərdən çəkindirməyə çalışır və öz fikirlərini elmi sürətdə, dərin fəlsəfi izah və sübutlarla möhkəmləndirir, bir çox məsələlərdə dünyəvi əxlaq cəbhəsində duraraq ümumbəşəri əxlaq normalarını təbliğ edir. ”Təhzibül-Əxlaq”əsərində qədim materialist yunan fəlsəfəsi və klassik Şərq şerinin təsiri də özünü açıq şəkildə hiss etdirməkdədir. Əsərdə müəllif ayrı-ayrı məsələlərin şərhi ilə əlaqədar olaraq, yeri gəldikcə Sədi, Əttar, Hafiz, Rumi və başqalarından mənalı, ibrətamiz beytlər vermişdir. Abbasqulu ağa Bakıxanov dostluğu üç qrupa bölür:

1. Formal dostluq: rəsmi, vəzifə münasibətlərindən irəli gələn dostluq.

2. Məişət ehtiyatlarını ödəməyə əsaslanan dostluq.

3. İdeya, məfkurə yaxınlığı üzərində qurulan dostluq. “Təhzibül-Əxlaq” əsərində müqəddimədən sonra gələn “Etidala-riayət”, “Yaxşı işlərin fəziləti”, ”Can sağlığının qazanılması”, ”Şöhrətin bəyanı” fəsilləri əxlaq normalarının şərhinə həsr olunur. Bu fəsillər demək olar ki, “Kitabi-Nəsihət”dəki əxlaq nəsihətlərinin elmi və fəlsəfi şərhidir. Buna görə də bu iki əsər arasında ideya və məzmun yaxınlığı vardır, bunlardan biri digərini tamamlayır. A.Bakıxanovun əxlaqi nəzəriyyəsində “orta hədd” prinsipi mühüm yer tutur. Onun fikrincə hər bir şeydə orta həddə riayət etmək lazımdır. O, təbiətdən və insan həyatından çoxlu misallar göstərir ki, hər şeydə azlıq faydasız olduğu kimi, çoxluq da zərərlidir. Məsələn: xəsislik pis xasiyyətdir, lakin həddindən artıq israfçılıq da yaramaz. Bir

şeyin təsvir və təyin edilməsində çoxlu bilik şübhə və tərəddüdə səbəb ola bilər. A.Bakıxanovun orta həddə riayət prinsipinin həyatın bir çox sahələrində qəbulu məsləhət görüldüyü halda, bəzi sahələrdə bunun qəbulu mümkün deyildir. Azadlıq, bilik toplamaq, dövlətin öz iqdisadi qüvvəsini artırmaq kimi məsələlərdə etidala riayət prinsipinin qəbulu yaxşı nəticə verməz. Abbasqulu ağa Bakıxanovun əxlaq nəzəriyyəsi onun insanlığa, vətənə və xalqına olan məhəbbəti, maarifçi və demokratik dünyagörüşü ilə bağlıdır. O bu nəzəriyyəsi ilə gənclərdə elə gözəl əxlaqi sifətlər tərbiyə etmək istəyir ki, onlar müasir cəmiyyətin faydalı və xeyirxah üzvləri olsunlar, onlardan xalqa zərər gəlməsin. Abbasqulu ağa Bakıxanov öz vətəndaşlarını insaflı olmağa, dünyada yaxşılıq etməyə çağırırdı.

O, yazır: “Bədbəxt o adamdır ki, əlindən yaxşılıq gəldiyi halda, onu etmir”. Lakin o, pis adam haqqında yaxşılıq etməyi rəva görmür. Onun fikrincə minlərcə insanı incidən zalıma yaxşılıq etmək məzlumlara zülm etməkdir. Ümumiyyətlə A.Bakıxanovun əxlaq nəzəriyyəsi xəlqilik prinsiplərinə əsaslanır. “Kitabi-Nəsihət” və ya “Nəsihətnamə” Abbasqulu ağa Bakıxanovun ikinci pedoqoji əsəridir. Bu əsərin pedoqoji əhəmiyyəti çox böyükdür. Əsərdə 102 nəsihət vardır. Əsər müəllifin kiçik müqəddiməsindən sonra dini nəsihətlərlə başlanır. Bu nəsihətlərdə Allaha, peyğəmbərə, imamlara olan dini münasibətlərdən bəhs olunur.

Bu nəsihətlərin əsas məqsədi insanları əxlaqi saflığa, mənəvi zənginliyə çağırmaqdır. Beləliklə, hicrətdən 1252-ci il keçən zamanda “Nəsihətnamə” adlı kitab yazılıb başa çatdı.Əsərin əsas əhəmiyyəti ondan ibarətdir ki, burada müəllif kitabı asan, anlaşıqlı dildə yazmışdır ki, şagirdlər kitabdakı əxlaqi gözəllikləri mənimsəyə bilsin, pis sifətlərdən uzaq olsunlar.A.Bakıxanov yazır ki,” Uşaqlıqda öyrənilən bilik daşa qazılmış şəkil kimidir”. Məhz bu səbəbdən də uşaqların tərbiyəsi ilə erkən yaşda məşğul olmaq lazımdır. O kitabda uşaqlara üz tutub deyir:

“Ey mənim əzizim! Sən insansan.İnsan dünyada hər şeydən üstün yaranmışdır. Görmürsənmi ki, heyvanlar o qədər böyük

bədən və güc ilə insan əlində əsirdirlər.

Bu isə işi yaxşı bacarmaq səbəbindəndir. İnsanlar arasında hər kəs bilikli və iş bilən olsa, həmişə hörmətli olar. Deməli, gərək iş bilmək və yaxşılıq etmək qaydalarını o adamlardan öyrənmək lazımdır ki, onlar həyatda təcrübəli və qabiliyyətli olmuşdurlar. Belə adamların sözləri bizlərə nəsihətdir....."

Göründüyü kimi "Təhzübil-Əxlaq" da olduğu kimi, "Kitabi – Nəsihət" əsərində də əsas məqsəd insanın əxlaq və tərbiyəsini yaxşılaşdırmaqdır. Özündən böyüyə hörmət, ata-ananı sevmək, onların itaətindən çıxmamaq, qohum-əqraba ilə mehriban olmaq, dost və aşinalıqda sədaqət, işdə və haqq hesabda düzgünlük, doğru danışmağa adət etmək, pis adamlarla ünsiyyətdən uzaq olmaq, həyatdakı çətinliklərə və müsibətlərə dözmək, mərdlik və qorxmazlıq, zəhmətkeşlik, elm və təhsilə həvəs, tənbəlliyə nifrət və s. bu kimi əxlaqı nəsihətlər "Kitabi-Nəsihət"in əsasını təşkil edir.

Əsərin müəllifi bir nəsihət kimi uşaqlara deyir: "Faydasız sözə əməl etmə, bədbəxtə gülmə, yaxşı adamlarla dost ol, yalan danışma, elm-təhsili hər şeydən üstün bil, yüngül olma,qəzəb vaxtı özünü saxla, heç kəsə paxıllıq etmə; paxıllıq qabiliyyətin olmamağındandır: o kəsin ki, öz hünərinə inamı var, çalışır ki, özgələrdən artıq olsun, amma hünərsiz adamın tərəqqi etməyə qüdrəti yoxdur".

Pis ehtiraslardan uzaqlaşmağı nəsihət edən müəllif uşaqlara deyir: "Həris adam həmişə qəmdədir, nə qədər varıdır, güman edir azdır.... Dünya malına həris olan adam heç kəslə dostluq edə bilməz. Ondan ötrü ki, öz xeyri üçün özgənin zərərinə çalışmaqdadır".

A.Bakıxanov böyük və təcrübəli adamların sözlərinin bizim üçün nəsihət olduğunu qeyd edir və yazırdı: "Hər kəs vəzifədə, elmdə və yaşda səndən böyükdürsə ona hörmət et ki, səndən kiçiklər də sənə hörmət etsinlər....", "Hər kəsi görən zaman ona salam ver. Əgər o sənə bir söz desə ədəb və təvazökarlıqla ona cavab ver ki, hamı səni sevsin" , "Elə adamlarla otur-dur ki, böyüklər onları yaxşı hesab edirlər, əclaf və hərzə danışan adamlardan uzaq gəz ki, sən də onlar kimi olmayasan"

Bundan başqa Bakıxanov "Nəsihətnamə" əsərində insanları pislikdən çəkindirməyə, başqalarına pislik etməməyə paxıl , xəsis və həris olmamağa çağırmışdır.O yazırdı:

"Başqasına pislik etməyə çalışan bir adama yaxşılıq etmə. Bu pislərə yaxşılıq etmək, yaxşılara pislik etmək kimi bir şeydir", "Heç kəsin pisliyini başqasına söyləmə. Çünki əgər o şəxs sənə düşmən-dirsə bu sözləri həmin adama çatdırar. Əgər dostdursa sənin haq-qında pis fikrə düşər", "Sən pis iş görəndə ondan heç bir mən-fəət görməzsən, əvəzinə bədnamlıq sənə qalar", "Paxıllıq qabiliyyətsiz-lik əlamətidir. Öz hünərinə inananlar başqalarından çox müvəffə-qiyyət əldə edər. Hünərsiz tərəqiyyə çatmağı bacarmadığı üçün baş-qalarının tənəzzülünü arzualayar ki, onunla bərabərləşsin", "Paxıl-lıqdan daha betər yandırıcı od yoxdur. Paxıl adamlar heç vaxt rahat yaşaya bilməz. Onun öz dərdi və başqalarının şadlığı hər ikisi ona müsibət olar", "Həris adam həmişə kədərli olar. Çünki, o nə qədər dövlət qazansa elə bilər ki, azdır". "Xəsis adam dolanacağın çətinli-yin qorxusundan ağır həyat keçirər. Təkəbbürlü adam xalqın nəzə-rində xar olar və xudbin adam xəcalət çəkməkdən qorxub başqa-larının məzhəkəsinə alət olar. Qəzəbli adam başqalarının günahı üzündən özünə əzab verər".

Bakıxanovun bu "Nəsihətlər"inin əsas pedoqoji əhəmiyyəti onadadır ki, bu nəsihətlər uşaqlarda müsbət xüsusiyyətləri forma-laşdırır, tərbiyə edir və inkişaf etdirir. Uşaqların gələcəkdə bir şəxsiyyət kimi formalaşmasına zəmin yaradır. Onlarda yaxşılıq, təvazökarlıq, böyüklərə hörmət, düzgün rəftar qaydaları və bir çox müsbət keyfiyyətləri formalaşdırır. Məsələn; "Bir adamı ehtiyac içində görəndə nə qədər bacarırsansa ona kömək et ki, sənin də bir şeyə ehtiyacın olanda başqaları da sənə kömək etsin" , "Özünə rəva görmədiyin işi başqasına rəva görmə, onun əvəzində bir başqasın-dan cəza alarsan", "Düzlüyü özündə şüar et. Hər kim əyriliyə qur-şansa, onun həyası əldən gedər və xalq içində rüsvay olar", "Yaxşı əməldən iki dəfə zövq alarsan, birincisi onu edəndə, ikincisi onun əvəzi sənə çatanda...", "Bədbəxt o adamdır ki, başqasına yaxşılıq

etmək əlindən gəlirsə onu etməyə..", "Hər kəsə öz halına müvafiq yaxşılıq elə. Çox olmuş ki,cüzi bir şey böyük bir şeydən çox adamın karına gələr..", "Heç kəsə zərər verməyə razı olma və öz hesabında pak ol, əmanətə xəyanət eləmə ta...xalq içindən qovulmuş olmayasan", "Başqalarının səni tərifləməsi ilə sənin istedadlı olduğunu zənn etmə, bəlkə onun bir məqsədi vardır və bu təriflə öz müddəalarını pərdələmək istəyir", "Hər mənsəbdə olsan öz həddini bil ki, özünü olduğundan nə aşağı tut, nə də yuxarı". A. Bakıxanov düzgün rəftar qaydaları haqqında yazır: "Şuxluq və boş zarafatı özündə adət eləmə ki, nəzərlərdə yüngül görünməyəsən və istehza etdiyin mövqedə xalq səndən inciyər və haqqında pis fikirlərə düşər", "Mübahisə zamanı əgər qalib gəlsən elə etmə ki, onun nadanlığı orada oturanlara məlum olsun. Çünki belə olduqda o ürəyində sənə kin bəsləyər və intiqam almaq üçün fürsət axtarar", "Söhbət zamanı başqalarıının danışığına mane olma. Mümkündür hiyləgər bir şəxs səhv edib öz sirrini aça və düşmən sənin xeyrini deyə. Amma sən çox danışsan belə nöqsanlar sənin tərəfindən baş verər".

Bakıxanov elmi, biliyi, ağılı hər şeydən üstün tutmuş , tənbəl inasanların həyatda heç bir uğur əldə edə bilməyəcəyini söyləmiş və insanları tənbəllikdən uzaq olmağa daim elm və kamal əldə etməyə çağırmışdır. "Tənbəllikdən qorx ki, o bütün eyiblərdən daha pisdir", "Bir şey o biri şey olamadan yaşaya bilməz. Sən də onlardan birisən. Əgər işsiz qalsan daş və palçıq səndən daha yaxşıdır. Çünki onlar bir ev tikməyə yarayırlar", "Elm və kamalı əldə etməyi hər şeydən əziz tut. Çünki hər şeyi onalrın vasitəsilə əldə edirlər.", "Hər işi öz ağlının təsdiqi ilə gör", "Çox yeməkdən özünü qoru ki, bədəninin sağlamlığına və ağla ziyanı vardır", "Hər ürəyin istəyəni eləmə, bəlkə ağlın istəyəni icra et. Çünki ancaq ağıl yaxşı və pisi bir-birindən ayıra bilər", "Hər işdə qərəz sahibi olmayan, özündən ağıllı adamlarla məsləhətləş.Tək adamın ağılı hər işin səlahını tam bilə bilməz", "Ağıldan və elmdən daha yaxşı bir dövlət yoxdur, çünki onlar həmişə səninlə olar və heç kəs onları sənin əlindən ala bilməz", "Ağıllı adam odur ki,öz eybini başqalarının

eyiblərindən artıq görər və öz hünərini başqalarının hünərindən az hesab edər”.

A. Bakıxanovun daha başqa nəsihətlərinə də nəzər salaq: “Ey oğul! Öz ata-ananı hamıdan artıq və əziz tut və hər nə buyursalar əməl elə, onları heç vaxt incitmə... Sonra, böyük qardaşına, bacı, əmi və dayına itaət elə!”, Hər kəs vəzifədə, elmdə və yaşda səndən böyük olsa ona hörmət elə, ta ki, səndən kiçiklər də sənə hörmət etsinlər”, “Dövlət başçılarına itaət eləməyi özünə vacib bil , əgər onlar olmasa, ölkədə nizam-intizam olmaz və adamlar bir-birinin malına, canına və namusuna qəsd edərlər”. “Hər kəs səndən bir söz soruşsa, ədəb və təvazölə cavab ver”.

Abbasqulu ağa Bakıxanovun tərbiyəyə dair bir çox qiymətli fikirləri vardır. Onun tərbiyənin məqsədinə aid fikri son dərəcə əhəmiyyətlidir: “*Həqiqi insan yetişdirmək!”.*

Bakıxanov yığcam şəkildə tərbiyənin məqsədini sərrast ifadə edir. Həqiqi sözündə bir həqiqət var. İnsanın hərtərəfli, kamil şəxsiyyət kimi yetişməsi üçün o, bir çox mənəvi, əqli, fiziki, estetik və s. keyfiyyətlərə, bacarıq və vərdişlərə yiyələnməlidir.

*“Həqiqi insan”* deyəndə, Bakıxanov bu keyfiyyətləri, nümunəvi davranış təcrübəsini, rəftar tərzini özündə birləşdirmiş, müsbət dünyagörüşə yiyələnmiş şəxsi nəzərdə tuturdu. Bakıxanovun qənaətincə, insan orqanizminin əsas üzvü ürəkdirsə, kainatın da ən ali varlığı, yaranışı insandır. Abbasqulu ağa Bakıxanovun pedaqoji baxışlarında insan tərbiyəsinin əsas iki cəhəti: əxlaq və əqli tərbiyə məsələləri mühüm yer tutur.

Abbasqulu ağa Bakıxanovun tərbiyəyə aid ideyalarında davranış və əxlaq məsələləri, uşaq və yeniyetmələrin xarakterinin formalaşması böyük yer tutur.

Abbasqulu ağa Bakıxanov insan xarakterində olan mənfi cəhətlərə qarşı mübarizə aparmağı tələb edir və uşaqlarda arzu olunan müsbət keyfiyyətlərin tərbiyə edilməsini məsləhət görürdü.

## 10.2. MİRZƏ FƏTƏLİ AXUNDOVUN PEDAQOJİ FİKİRLƏRİ

**M.F.Axundov (**1812-1878) özünün zəngin ədəbi, bədii publisist və fəlsəfi fikirlərində, praktik pedaqoji fəaliyyətində ana dilli məktəb uğrunda ardıcıl mübarizə aparmış və unudulmaz pedaqoji irs qoymuşdur.

Mütərəqqi Şərq, Rus və Avropa mədəniyyəti ilə yaxından tanış olan M.F.Axundov ən mühüm xidmətlərindən biri məktəb təliminin ana dilində aparılmasına çalışması idi.

Məlum olduğu kimi bir neçə əsr ərzində Azərbaycanda hökmranlıq edən yadelli işğalçılar uşaq və gənclərin ana dilində təliminə etinasız yanaşırdılar. Bütün bunlara baxmayaraq, Azərbaycan xalqı öz ana dilini yadelli işğalçılardan mühafizə edib saxladı.

O zamanlar Azərbaycan dilinin tədrisi nə qədər zəruri və həyatı əhəmiyyət kəsb edirdisə, bir o qədər də çətin idi. Bu çətinliklərin başlıca səbəblərindən biri müəllim kadrları ilə, digəri isə yeni üsullu dərsliklərin olmaması ilə bağlı idi. M.F.Axundov Azərbaycan dilinin tədrisi sahəsində qarşıda duran hər iki mühüm problemin həllində praktik fəaliyyət göstərmişdir. Dövrünün tanınmış ziyalılarından olan M.F.Axundov öz mütərəqqi müasirləri kimi pedaqoji fəaliyyətə ayrıca əhəmiyyət vermişdir.

Dövlət məktəblərində çalışan azərbaycanlılardan ilk ana dili müəllimlərinin şərəfli dəstəsinə mənsub olan M.F.Axundov Tiflis qəza məktəbində 1834-1840-cı illər arasında Azərbaycan dilində dərs demişdir. Məhz bu dövrdən o, təlim-tərbiyənin, xüsusilə ana dili təliminin bir sıra vacib məsələləri ilə də yaxından tanış olmuş və onların həllinə çalışmışdır. Qafqaznın inzibati mərkəzi olmaqla bərabər, həm də ictimai elmi mərkəz olan Tiflisdə fəaliyyət göstərən M.F.Axundov burada cəmləşən digər millətlərin qabaqcıl nümayəndələri ilə yaxınlığı sayəsində bacarıqlı pedaqoq kimi məşhurlaşmışdı.

M.F.Axundov təkcə dərs deməklə kifayətlənməmiş, həm də

ana dili tədrisinin qarşısında duran digər mühüm problemlərin həllində də yaxından iştirak etmişdir.

M.F.Axundov pedaqoji fəaliyyətində diqqəti cəlb edən çox mühüm məsələlərdən biri də ana dili dərsliyi ilə bağlıdır. O zamanlar Azərbaycan dilinin tədrisi üçün nə müvafiq dərslik, nə də çap olunmuş oxu kitabları var idi. Bunun əsas səbəbi Azərbaycanın Rusiyaya birləşməsinə qədər ya İran şahlarının, ya da Türkiyə sultanlarının hakimiyyəti altında olması idi. M.F.Axundov yazırdı: "İran şahları hakim olduqları zamanda tatarların (azərbaycanlıların) yazı işləri fars dilində, türklər olduqları zamanda isə Qafqazda yaşayan tatarların (azərbaycanlılar) dilindən, kökündən fərqli olaraq türk dilində aparılırdı. Bütün bunların nəticəsi idi ki, şagirdlər təmiz Azərbaycan dilində ədəbiyyatdan, demək olar ki, məhrum idilər". M.F.Axundov yazdığı kimi, əgər bu dildə bəzi əsərlər vardırsa da, onlar ya başqa dillərdən tərcümə edilmiş, ya da fars, türk və ya ərəb sözləri ilə dolu, anlaşılmaz bir dildə yazılmışdı. Yəni, bu tərcümələr əsasında Azərbaycan dilinin ruhunu anlamaq və bu dili xalqın işlətdiyi vəziyyətdə məktəbdə tədris etmək mümkün deyildi.

Beləliklə, bütün Qafqazda ilk dövlət məktəblərinin meydana gəlməsi ilə dərsliklər sahəsində acınacaqlı vəziyyət özünü açıq şəkildə göstərirdi. Sonralar, 1853-cü ildə bu məsələlərdən bəhs edən M.F.Axundov yazırdı: "Hər yerdə qəza məktəbləri açıldığı zaman hökumət başqa fənlərlə bərabər bu məktəblərdə Azərbaycan dilinin öyrənilməsini də lazım bildi". Lakin bu dildə dərs kitabları olmadığına görə böyük çətinliklər meydana çıxdı. Bu çətinlikləri aradan qaldırmağa ilk təşəbbüs edənlərdən biri də məhz M.F.Axundov olmuşdur. O, yuxarıda göstərilən məktəblərdə-Tiflis qəza məktəbində Azərbaycan dili müəllimi vəzifəsində işləyərkən 1893-cü ildə öz həmvətənləri üçün yeni üsullu bir dərs kitabı tərtib etməyə başlamışdır. Lakin, M.F.Axundov Tiflis qəza məktəbinin Azərbaycan dili müəllimi vəzifəsindən azad edilməsi ilə əlaqədar olaraq göstərilən dərsliyi yazıb sona çatdırmamışdır. Onun başladığı bu xeyirxah işi davam etdirmək, M.F.Axundovun yerinə

müəllim təyin edilmiş M.Ş.Vazehə nəsib olmuşdur.

1839-cu ildə Tiflisdə çap edilmiş dərsliklərin-Qafqaz məktəblər direktoru vəzifəsini icra edən saray müşaviri Nikolay Dementyev tərəfindən yazılan “Əlifba” və ”Oxu” kitablarının hazırlanmasında M.F.Axundovun yaxından iştirak etdiyini söyləmək olar. N.Dementyevin etiraf etdiyinə görə onun hazırladığı “Oxu” kitabına daxil edilən mətnlərin əksəriyyəti onun müşahidəsi altında bu dili bilənlər vasitəsilə Azərbaycan dilinə tərcümə edilmişdir və yaxud burada tatar dilini bilən məşhur şəxslərin köməyi ilə bütün material toplanmış və ölçülüb biçilmişdir. O zamanlar məhz 1839-cu ildə Tiflisdə yaşayan və pedaqoji fəaliyyət göstərən, Azərbaycan dilini bilən məşhur şəxs, ilk növbədə M.F.Axundova işarədir və Mirzə Fətəlidən qeyri heç kim ola biməzdi. Başqa bir yerdə, Oxu kitabının müqəddiməsində N.Dementyev yazır: “Qafqaz məktəblərində Şərq dillərindən dərs deyən müəllimlərin arzusunu nəzərə alaraq kitabdakı mətnləri Avropa qaydası ilə soldan-sağa deyil, yerli müsəlmanların adət etdikləri Şərq qaydası ilə sağdan-sola düzdük”. Dərslik müəllifinin bu etirafı da fikrimizi təsdiq edir. Belə ki, həmin dərsliklər hazırlanan və nəşr edilən zaman Qafqaz məktəblərində dərs deyən müəllimlərdən biri də M.F.Axundov idi.

M.F.Axundov Azərbaycan dilinin tədrisindəki çətinlikləri aradan qaldırmaq üçün özünün bədii əsərlərindən məktəblərdə bir tədris vəsaiti kimi istifadə edilməsini məsləhət bilirdi. Bu pyeslər Azərbaycan dilində yeganə orijinal əsərlər olmaqla bərabər bu dili öyrənmək arzusunda olan şagirdlər üçün çox faydalı vasitə idi. M.F.Axundov yazırdı: “Ancaq onların vasitəsilə Azərbaycan dilinin ruhunu, xüsusiyyətini, cümlələrin, ifadələrin quruluşunu, feillərin və sözlərin müxtəlif hallara düşməsini və sairəni öyrənmək olar”.

M.F.Axundovun ana dilli məktəb uğrunda mübarizəsi, bütövlükdə təlim və tərbiyə məsələlərinə dair fikirləri, onun ictimai-siyasi fikirlərindən nəşət edirdi. O, çox yaxşı başa düşürdü ki, beş-on məktəb açmaqla iş bitmir. O, ölkənin başdan-başa savadlanması ideyasını müdafiə və təbliğ edirdi, bununla bərabər o, mövcud şəra-

itdə bu işi müşkül hesab edir və bu məsələdə inqilabi-demokratik mövqedən çıxış edirdi.

Mirzə Fətəli Axundovun yaradıcılığında milli-mənəvi dəyərlər, tərbiyə, əxlaq məsələləri xüsusi yer tutur. O, əxlaqi görüşlərində tərbiyənin məqsədinə, mənəvi tərbiyənin üsul və vasitələrinə, istiqamətlərinə öz münasibətini bildirmişdir.

Axundova görə, tərbiyənin məqsədi kamil insan yetişdirməkdir. Elə bir insan ki, o, elmdən, bilikdən, dünya mədəniyyətindən xəbərdar olan yüksək zövqə, çalışqan, vətənpərvər bir şəxsiyyət səviyəsinə yüksəlmiş olsun. Onun nöqteyi-nəzərincə, insan pis əməldən qaçmalı, yaxşılıq etməyə çalışmalı, zülmü dəf etməyə nail olmalı, cəmiyyətdə həmnövləri ilə müttəfiq yaşamalı, elm öyrənməli, elmi yaymağa çalışmalıdır. M.F.Axundzadova görə, insan ömrünün mənası xalqa, insanlığa xidmət etməkdir. Əsil vətəndaş – insan xalqın tərbiyəsi, onun səadəti, vətəninin abadlaşdırılması və ölkənin vəziyyətinin yaxşılaşması uğrunda çalışan kəsdir.

M.F.Axundov kamil insanın tərbiyəsi üçün üç mühüm şərtin yerinə yetirilməsini zəruri sayırdı. Bu fikri o, Həsən Bəy Zərdabiyə məktubunda belə ifadə edirdi: “Sən qəzetində hər bir müsəlman tayfasına elmin fəzilətini və faydasını bildirib bizə hey təklif edirsən ki, elm öyrənin, elm öyrənin. Çox yaxşı, biz sizin məsləhətinizi eşidib elm öyrənməyə hazırıq. Bizə de görək elmi harada öyrənək, kimdən öyrənək və hansı dildə öyrənək?” M.F.Axundov harada öyrənək deyərkən məktəblərin azlığından şikayətlənirdi. Kimdən öyrənək deyərkən müəllim məsələsini qarşıya qoyurdu. Nəhayət, hansı dildə öyrənək deyərkən təlimin ana dilində aparılmadığından şikayətlənirdi. M.F.Axundov ərəb əlifbasının çətinliyini yaxşı görürdü. Buna görə də, əlifba islahatı aparılmasını zəruri sayır və özü əlifba islahatı aparmış, lakin, onun yaratdığı əlifba qəbul edilməyərək nəşr edilməmişdir.

Axundovun fikrincə, yalnız təbiət və cəmiyyət haqqında elmi biliklər insanı mövhumat və xurafatdan xilas edə bilər. M.F.Axundov köhnə sxolastik məktəbdəki tərbiyə sisteminin çürüklüyünü

görür, onun xalqın mənafeyinə zidd olduğunu kəskin tənqid edirdi. Axundov belə hesab edirdi ki, bu faydasız təhsil-tərbiyə sistemi yaramaz ictimai quruluşun məhsuludur. O, göstərir ki, uşaqların tərbiyəsində çubuq və sillə vurmaq onların əxlaqını pozar, təbiətlərini alçaldar, fitri cövhərlərini boğar, qorxaq və yalançı edər. M.F.Axundov bu cür tərbiyənin əleyhinə çıxır və tərbiyə metodunun dəyişməsini, dünyəvi elmlər əsasında qurulmasını lazım bilirdi. O, təhsilin dünyəviliyi uğrunda mübarizə apararaq qeyd edirdi ki, məktəblərdə dil, ədəbiyyat, tarix, coğrafiya, riyaziyyat, astronomiya və s. fənlər məcburən tədris edilməlidir.

M.F.Axundovun əqli tərbiyə haqqındakı fikirləri çox mühümdür. Onun fikrincə, əqli tərbiyə üçün birinci əsas zəruri şərt ibtidai savaddır. M.F.Axundovun böyüklüyü orasındadır ki, o tərbiyə sahəsində irəli sürdüyü hər hansı "kiçik" məsələni böyük ictimai-siyasi məsələlərlə bağlamışdır. O, ibtidai savad məsələsinə böyük əhəmiyyət verərək, onu ciddi ictimai-siyasi məsələ səviyyəsinə qaldırmışdır. M.F.Axundovun baxışlarına görə, bədii ədəbiyyat insanın mənəvi-estetik inkişafı prosesində müstəsna əhəmiyyətə malik bir vasitədir. Elmi ədəbiyyat insanları nadanlıqdan qoruyursa, bədii ədəbiyyat kobudluq və bayağılıqdan xilas edir. Burada qeyd etmək yerinə düşər ki, bədii ədəbiyyatın tərbiyəvi rolu iki miqyasda nəzərdən keçirilməlidir.

Birincisi, dar mənada, məktəb miqyasında, şagirdlərin dünyagörüşünü və bədii estetik zövqünü formalaşdıran vasitələrdən biri kimi, ikincisi, insanı bütün ömrü boyu müşayət edən, ancaq bədii oxu vasitəsi ilə deyil, həm də teatr, kino və s. vasitəsilə ona mənəvi-estetik mühit yaradan universal vasitə kimi.

Tərbiyə problemləri heç də bəzi pedaqogika kitablarında qabardıldığı kimi atalar sözləri, ibrətamiz fikirlər, hədislər vasitəsi ilə həll oluna bilməz. İnsan psixikasının, mənəvi aləminin daha dərin qatlarına nüfuz etmək üçün mürəkkəb dramatizmin rolu əvəz edilməzdir. Bu mənada M.F.Axundovun əsərlərinin pedaqoji aspektdə dəyəri çox yüksəkdir.

M.F.Axundov göstərir ki, fəlsəfi düşüncə tərzini, ideya-mənəvi yaşantı vərdişlərini yalnız dünyəvi təhsil aşılaya bilər. Onun fikrincə, hər bir insan özünü maddi dünyadan ayırmağı, cari hadisələrin fövqünə qalxmağı öyrənməlidir. Həm də bunu başqalarının nəsihətləri şəklində deyil, özünün fərdi mənəvi-psixoloji yaşantısı kimi mənimsəməlidir.

M.F.Axundova görə, insan davranışlarının əsaslarını onun ehtiyaclarında axtarmaq lazımdır. Bu baxımdan o, insan ehtiyaclarını üç cür təsnif edir: idraki ehtiyaclar; mənəvi ehtiyaclar; fiziki ehtiyaclar.

İdraki xarakter daşıyan təlim nəticələri, ilk növbədə, intellektual vərdiş və bacarıqların inkişaf etdirilməsi məsələsinə aiddir və təlimin də bu müstəvidə qurulması ilə bağlı müəllimi istiqamətləndirir.

Bu zaman şagirdin düşünmə vərdişlərinin inkişafına daha çox diqqət yetirməyin mühüm olduğu vurğulanır. Məktəblərimizdə digər mühüm məsələ şagirdlərin dəyərlərə münasibətini inkişaf etdirməkdir. Bu, emosional xarakter daşıyan təlim nəticələri ilə əhatə edilir. Diqqət yönəldilmiş üçüncü sahə isə psixomotor sahədir ki, bu da əzələ inkişafını və bacarıqları əhatə edir. Bu məsələlər XIX əsrdə M.F.Axundov tərəfindən vurğulanmış, onlar insana həyati ehtiyacları ödəməyə xidmət göstərməklə yanaşı, həm də insan davranışının, həyat tərzinin və ətrafındakılarla münasibətlərinin təşkilində əhəmiyyətli hesab edilmişdir.

M.F.Axundov uşaqları şən və gümrah tərbiyə etməyi zəruri sayır, bu işdə musiqi və nəğmənin rolunu yüksək qiymətləndirirdi. M.F.Axundovun dövründə Şərq məktəblərinin tədris planına nəğmə, musiqi, rəsm və rəqs fənləri daxil deyildi. Çünki fanatik ruhanilər bu fənlərə qarşı düşmən münasibət bəsləyirdilər. M.F.Axundov insanın ahəngdar inkişafı üçün incəsənətin yalnız pedaqoji əhəmiyyətini deyil, həm də ictimai-siyasi əhəmiyyətini doğru təyin etmişdir.

M.F.Axundov irəli sürdüyü dünyəvi təhsil ideyasını təşviq etmək üçün böyük alimlərin və elm xadimlərinin tərcümeyi-hallarını nəşr etməyi məsləhət görmüşdür. M.F.Axundov elmin heç bir

sahəsini nəzərdən qaçırmamışdır. Onun irəli sürdüyü tədris planı, həmin dövrdəki Avropa və Amerika məktəblərinin tədris planından çox yüksəkdə durmuşdur.

Mirzə Fətəli elmdə bir novator kimi köhnəlmiş, mühafizəkar ənənələri qırıb atmışdır. M.F.Axundov hakim feodal-patriaxal münasibətlərə, həmin cəmiyyətdə hakim əxlaq normalarındakı ciddi nöqsanlara, fanatizmə, asketizmə, eqoizmə, kobudluğa, müftəxorluğa, lovğalığa, şöhrətpərəstliyə, riyakarlığa, tənbəlliyə və sairəyə qarşı barışmaz mübarizə aparmışdır. O, uşaqlara aşılanması zəruri olan mənəvi keyfiyyətlər içərisində vətənpərvərliyi birinci yerdə qoyurdu. M.F.Axundzadova görə, vətənpərvər olan kəs vətən təəssübü çəkir və millət üçün can və malını əsirgəmir. Belə şəxs vətənin və millətin azadlığı uğrunda cəfakeşliyə, əzab və əziyyətə dözür. M.F.Axundov dostluq və yoldaşlıq, insanpərvərlik, sadəlik və təvazökarlıq və s. bu kimi əxlaqi keyfiyyətlərin tərbiyə edilməsinə xüsusi əhəmiyyət verirdi.

M.F.Axundov əxlaq məsələlərini də özünün materialist dünyagörüşünə müvafiq olaraq izah etmişdir. O, insana bu dünyada azadlıq və xöşbəxtlik təmin edən əxlaq normaları olmasını arzu edirdi. M.F.Axundov deyirdi ki, yeni insan mətin, iradəli, yeniliyi, azadlığı sevməyi bacaran mübariz qəhrəmanlar kimi yetişsin. O, istəyirdi ki, yeni insan xalqın mənafeyini öz şəxsi mənafeyindən üstün tutan, dostluqda, yoldaşlıqda sədaqətli, möhkəm ideyalı, prinsipial olsun. O, istəyirdi ki, cəmiyyətin üzvləri xalqa, qadın hüququna hörmət bəsləyən, nəzakətli, mədəni, həqiqəti sevən, özünə və başqalarına tələbkar adamlar olsunlar .

Bütün başqa sahələrdə olduğu kimi, M.F.Axundovun təlim-tərbiyə sahəsindəki bir çox mütərəqqi fikirləri hal-hazırda öz əhəmiyyətini itirməmişdir. M.F.Axundovun təlim-tərbiyə haqındakı qabaqcıl ideyaları Azərbaycanda pedaqoji fikrin inkişafı tarixinin çox əhəmiyyətli səhifələrini təşkil edir. Bu ideyalar M.F.Axundovun zəngin ədəbi-fəlsəfi irsi ilə birlikdə yaşayır.

## 10.3. SEYİD ƏZİM ŞİRVANİNİN PEDAQOJİ FİKİRLƏRİ

Seyid Əzim Şirvani (1835-1888) böyük şair olmaqla bərabər, həm də böyük pedaqoq və məktəbdar olmuşdur.

Əvvəlcə, babasından ərəb və fars dillərini öyrənən Seyid Əzim, sonra Şamaxıda mədrəsə təhsili almış, daha sonra Şərq ölkələrinə səyahətə çıxmış, dövrünün böyük alimləri ilə görüşmüş, elmini, dünyagörüşünü daha da genişləndirmişdir. 1856-cı ildə Seyid Əzim əvvəlcə İraqda, sonra Nəcəf və Bağdadda, daha sonra da Suriyanın Şam şəhərində ali ruhani təhsili almışdır.

Seyid Əzim Şirvani 1869-cu ildə Şamaxıda ilk dəfə olaraq "Üsul-i cədid" (Yeni üsul) məktəbi açaraq ömrünün sonuna qədər burada müəllimlik etmişdir. Köhnə mollaxanalardan fərqli olaraq burada dərslər ana dilində keçilmiş, uşaqlar yerdə palazın üstündə deyil partalarda oturmuş, lövhədən istifadə edilmiş, uşaqlara dünyəvi elmlər, türk, fars və rus dilləri öyrədilmiş, tarix, coğrafiya, hesab və s. fənlərdən ibtidai məlumat verilmişdir.

Bu məktəblə bağlı məşhur ədəbiyyatşünas, maarifpərvər Firidun bəy Köçərli yazır: “Axirül-əmir Hacı Seyid Əzim öz vətəni Şamaxı şəhərinə müraciət edib burada bir məktəb binası qoymuşdur ki, onda türk, fars və rus dilləri təlim olunurdu. Və lakin o vaxtlarda təlim-tərbiyə məsələsi çox çətin əmrlərdən birisi hesab olunurdu. Çünki üsuli-cədid üzrə uşaqlara oxumaq və yazmaq öyrətmək layiqincə müntəşir olmamışdı və təlim işlərinə mübaşir olan əşxasın üsuli-cədid nədən ibarət olduğundan xəbəri yoxdu və köhnə qaydadan bir müəllim dışarı çıxsaydı və təlim üçün təzə və yüngül bir cığır açsaydı, camaat ona rəğbət göstərməyib, nifrətlərini çox namərbut və kobud əda və hərəkətlər ilə izhar qılardılar”.

Heç təsadüfi deyil ki, Azərbaycanın görkəmli şairi Mirzə Ələkbər Sabir, məşhur yazıçı və pedaqoq Sultan Məcid Qənizadə və bir sıra başqa yazıçı və şairlər Seyid Əzimin açdığı bu məktəbdə oxumuşlar. Zəngin ədəbi yaradıcılığa malik olan Seyid Əzim Şirvaninin bədii irsi biri azərbaycanca, digəri isə farsca olmaqla iki

böyük külliyyatdan ibarətdir.

S.Ə.Şirvani həm də ictimai xadim olmuşdur. Onun çox gözəl təşkilatçılıq bacarığı olmuşdur. Məşhur "Beyt üs-Səfa"nın (ərəbcə "Səfanın evi" anlamındadır; 19-cu əsrin 60-cı illərində yaradılmış şairlər məclisi idi. Şamaxılı şair Məhəmməd bəy Səfanın evində yaradılmışdı. Şirvan şairlərindən Mollağa Bixud, Ağababa Zühuri, Qafar Rağib, Ələkbər Qafil, Molla Mahmud Zuyi və başqa tanınmış şairlər bu məclisin fəal üzvlərindən idilər. Məclisə S.Ə.Şirvani və M.Bixud başçılıq edirdilər. "Beyt üs-Səfa" Şuşadakı "Məclisi-üns", "Məclisi-fəramuşan", Bakıdakı "Məcmə üş-şüəra" ədəbi məclisləri ilə sıx yaradıcılıq əlaqələri saxlayırdı) yaradıcılarından və rəhbərlərindən idi.

Azərbaycan uşaq ədəbiyyatının görkəmli yaradıcılarından biri kimi şöhrət qazanmış, təlim-tərbiyə mövzusunda yazdığı əsərlərində yazıçı-pedaqoq kimi özünün məharətini göstərmiş Seyid Əzim Şirvaninin ədəbi irsinin mühüm hissəsini uşaq və gənclərin təlim-tərbiyəsinə həsr etdiyi əsərlər təşkil edir. "Qafqaz müsəlmanlarına xitab", "Təlim-tərbiyə haqqında", "Əkinçi" qəzetinə yardım üçün", "Həsən bəy Məlikov Zərdabiyə", "Puşkinə heykəl qoyulması münasibətilə" və s. şerlərində o, bir maarifçi kimi feodal-patriarxal qayda-qanunların əleyhinə çıxmış, qabaqcıl ideyaların carçısı olmuşdur.

Seyid Əzim insanlara dərin və hərtərəfli bilik qazanmağı tövsiyə edir və bununla bərabər gözəl əxlaq və ədəbə yiyələnməyi zəruri hesab edirdi. Seyid Əzimin nəcib ideyalar tərbiyə edən əsərlərini məktəb şagirdləri bir əsrdən artıqdır sevə-sevə oxuyub əzbərləyirlər. Şairin öz oğlu Mir Cəfərə müraciətlə yazdığı şerlərdə təbliğ olunan fikirlər əslində bütün uşaqlar və gənclər üçün olduqca faydalıdır. Şair "Alimlərə hörmət haqqında moizə" şerində oğlu Mir Cəfərə müraciətlə yazır:

Üləma haqqını riayət qıl,
Əhli-elmə həmişə hörmət qıl.
Demə bu kafər, ol müsəlmandır,
Hər kimin elmi var, o insandır.
...Elm bir nur, cəhl zülmətdir,
Cəhl düzəxdir, elm cənnətdir .

Şairin əsərləri içərisində öyüd, təmsil və didaktik mahiyyət daşıyan mənzum hekayələr çoxdur. Bunların da müəyyən bir hissəsi öz ideyaları etibarı ilə onun maarifçi, didaktik şerləri ilə birləşir. Doğruçuluq, mərdlik, dostluq, yoldaşlıqda mətanət, çalışqanlıq, əzilənlərə kömək, insanlarla yaxşı rəftar və s. gözəl və nəcib sifətlərin tərbiyələndirilməsi həmin öyüdlərin əsas məzmununu təşkil edir. Şairin öyüdlərinin çoxu bu günə qədər öz tərbiyəvi əhəmiyyətini itirməmişdir.

Seyid Əzimin öyüdlərində zəhmət, əmək insanı ucaldan başlıca amillər kimi göstərilir və gənc nəslə işsizlikdən, bikarçılıqdan uzaqlaşıb, müəyyən bir sənətə yiyələnmək tövsiyə olunur:

Ey oğul, bil ki, adəmi-bikar,
Xüşk olan bir odundu, layiqi-nar.
Bunu bizdən deyibdilər əqdəm,
Sənəti olmayan deyil adəm.

Maarifpərvər şair başqa bir şerində birlik, ittifaq ideyasını irəli sürərək, fərdiyyətçiliyin əleyhinə çıxır, gəncləri birliyə, ittifaqa çağırırdı:

İttifaq eyləyəndə beş barmaq,
Xeyli asandı bir işi tutmaq.
Yoxdur, ey sərvarim, tək əldə səda,
İttifaq ilədir sünırü səfa.

Seyid Əzim şerlərində Şamaxıda o zamanlar rus dilində yeni rəsmi dövlət məktəbinin açılmasından, özünün bu məktəbdə müəllim kimi çalışmasından və elmin məziyyətlərindən bəhs edir. O, elmli şəxsi var-dövlət sahibi, elmsiz şəxsi isə heyvan kimi dəyərləndirir:

Bu nədəndir? Savadımız yoxdur,
Elmdə ictihadımız yoxdur...
... Bixəbər olmuşuq şəriətdən,
Başımız çıxmır elmi-hikmətdən...
...Zinəti-şəxs elmi-ədyandır,
Elmsiz şəxs misli-heyvandır .

Oğlu Mir Cəfərə yazdığı bir məktubunda şair bu fikrini daha kəskin şəkildə ifadə edərək yazır: “Təvəqqe eləyirəm ki, yaxşı dolanasan, ananı incitməyəsən, yoldaşlarını incitməyəsən, oxumağa səy eləyəsən”.

Ey oğul, bu dəlili-bişəkdir,
Adəmi-bisəvad eşşəkdir.

Seyid Əzim əsl sənətə yiyələnmək üçün elmi əsas götürür. O deyir ki, yaxşı sənətkar olmaq üçün elmli olmaq lazımdır, çünki elmsiz sənət dəyərsiz bir şeydir.

Şair “Cəfər, ey qönçeyi-gülüstanım” misrası ilə başlayan şerində öz övladına əhli-ürfan kimi yetişməyi, bunun üçün “hər lisanə rağib” olmağı, bütün elmləri öyrənməyi məsləhət görür:

Demirəm rus, ya müsəlman ol,
Hər nə olsan get əhli-ürfan ol...
...Cəhd qıl neməti-təmamə yetiş,
Elm təhsil qıl, məqamə yetiş.

Klassik rus ədəbiyyatının mütərəqqi rolunu və əhəmiyyətini düşünən Seyid Əzim Azərbaycan təzkirəçiləri arasında ilk dəfə olaraq rus ədəbiyyatına da müəyyən yer ayırmışdır. O, xüsusilə Puşkinin zəngin irsindən rəğbətlə bəhs etmiş, onu kamala çatmış ən yüksək bir şair, faydalı əsərlər müəllifi və yeni rus ədəbi dilinin mahir bilicisi, ustası kimi tərifləmişdir. Şair şerlərinin birində oğluna xitabən öz dövrünün gənclərinə rus dilini öyrənməyi məsləhət görür:

Ey oğul, hər lisanə ol rağib,
Xassə ol rus elminə talib.
Onlara ehtiyacımız çoxdur,
Bilməsək dil, əlacımız yoxdur.

Seyid Əzimin rus dilini öyrənməyi təbliğ etməsi o dövr üçün mütərəqqi bir hadisə idi. O zaman Azərbaycanda hakim dairələr, ruhanilər rus dilinin, Rusiyadan ucqarlara keçən hər cür qabaqcıl ideyaların əleyhinə çıxırdılar. Elə buna görə də avam xalqa rusca oxumağı şəriətcə qadağan edir, rus dilində kitab, qəzet, jurnal oxuyanları “kafir” adlandırırdılar.

Mütərəqqi ideyaların carçısı olan Seyid Əzim bu mühafizəkarların əleyhinə olaraq rus dilinin tədrisini, rus və Avropa mədəniyyətinin qabaqcıl nailiyyətlərindən istifadə etməyi günün ən vacib və zəruri məsələlərindən sayır və bu sahədə müasiri Həsən bəy Zərdabi ilə bərləşirdi

Seyid Əzim insanın formalaşmasında rərbiyənin roluna böyük qiymət vermiş, bütün insanların tərbiyəyə möhtac olduğunu bildirmişdir:

Filhəqiqət dirəxti-nakamil,
Tərbiyət feyzinə olur şamil.
Növi-insan deyil ağacdan kəm,
Qabili-tərbiyətdi hər adəm.

Şairin fikrincə, insan elm və tərbiyə sayəsində öz əxlaqını və ədəbini inkişaf etdirib yetkin səviyyəyə çata bilər. İnsanın səadətinin mayasında tərbiyə dayanır. Tərbiyəsiz elmin isə faydası yoxdur:

Elmsiz kimsənə hünərsizdir,
Elmi-bitərbiyət səmərsizdir.
Tərbiyət mayeyi-səadətdir,
Tərbiyət şəxsə malü dövlətdir.

S.Ə.Şirvani ilk yaşlardan verilən tərbiyəni, ailə tərbiyəsini zəruri sayır, valideynlərin övladlarına düzgün tərbiyə verməyi məsləhət bilirdi. O, “Qoca ana və oğul” adlı şeirində ilkin tərbiyənin nəyə qadir olduğunu çox ibrətamiz bir misalla qeyd edirdi. Onun fikrincə, valideynlər övladlarına nümunə olmalı, məktəblə, müəllimlərlə sıx əlaqə saxlamalıdırlar. Hər bir valideyn övladını cəmiyyətin faydalı bir üzvü kimi tərbiyə etməlidir.

Seyid Əzimin əsərlərində əxlaq tərbiyəsinə dair fikirləri mühüm yer tutur. Onun bütün əsərlərində doğruçuluq və düzlük, dostluq və yoldaşlıq, xeyirxahlıq, rəhmlilik, torpağa bağlılıq təqdir edilir, paxıllıq, hiyləgərlik, yalançılıq, mərhəmətsizlik, kobudluq isə tənqid olunur. O, əməyi nəinki yaşayış mənbəyi, habelə elmi həyatla bağlayan vacib bir amil, insan ağlını inkişaf etdirən və mühüm tərbiyə vasitəsi hesab etmişdir.

Onun fikrincə, əmək əqli təhsilin zəruri bir ünsürüdür. O, hər hansı bir peşəyə yiyələnmək istəyən şəxsin həmin peşəni kamil bilməsini zəruri sayır və məhdud bir peşə sahibi olmağın əleyhinə çıxırdı. O, eyni zamanda çox peşəçiliyi tənqid edirdi. S.Ə.Şirvani oğluna öyüdlərində elm adamlarına hörmət etməyi məsləhət görür və deyirdi ki, elm əhlinə həmişə hörmət etmək gərəkdir.

Seyid Əzim bu günə qədər öz tərbiyəvi əhəmiyyətini itirməyən öyüd-nəsihətlərini mənzum hekayələrinin başlanğıcında və axırında verir, onları həmin əsərlərin məzmunu ilə əlaqələndirirdi. Maarifçi-pedaqoq öz oğlu Mir Cəfərə üz tutaraq onun timsalında zəmanə cavanlarına bu cür dəyərli nəsihətlər verirdi:

Aciz, qorxaq, axmaq və sadəlövh olma, ağıllı və tədbirli ol.

Avam və nadan qalma, özünə sənət və elm qazan.

Ehtiyac içində olanlara və darda qalanlara kömək əlini uzat.

Fırıldaqçı və şər adamlardan uzaqlaş, yaxşı və nəcib adamlarla yoldaşlıq et, dostluqda və yoldaşlıqda möhkəm ol.

Heç kəsin pisliyini istəmə, xeyirxah ol.

Hər bir işi gördükdə əvvəlcə yaxşı düşün, sonra o işə başla.

Qaşqabaqlı olma, şirindilli və gülərüzlü olmağı özünə adət elə.

Məclisdə ədəblə otur və ədəblə danış.

Sözu öz məqamında düşünərək söylə.

Seyid Əzimin XIX əsrdə məktəb, elm, maarif, mədəniyyət, təhsillə bağlı söylədiyi fikirlərin çoxu bu gün də öz aktuallığını saxlamaqdadır. Şairin maarifçilik ovqatında yazdığı əxlaqi-didaktik şerləri gənc nəslin vətənpərvərlik və qəhrəmanlıq ruhunda tərbiyə olunmasına həmişə faydalı təsir göstərmişdir. Buna görə də klassik sənətkarımızın zəngin ədəbi-bədii irsi müstəqil Azərbaycan Respublikasında çağdaş dövrün tələbləri baxımından daha dərindən araşdırılmağa və öyrənilməyə layiqdir.

## 10.4. HƏSƏN BƏY ZƏRDABİNİN PEDAQOJİ FİKİRLƏRİ

Həsən bəy Zərdabi (Məlikov) (1842-1907) Azərbaycanın maarif mücahidi, görkəmli ziyalısı, Moskva Universitetini bitirən ilk müsəlman türk məzun, Azərbaycanda ilk universitet təhsilli alim və müəllim, islam aləminin ilk təbiətşünas alimi, Bakı Gimnaziyasının ilk müsəlman türk müəllimi (1869-cu il), Azərbaycanda və bütün müsəlman Şərqində xeyriyyəçilik hərəkatının banisi və "Cəmiyyəti-Xeyriyyə"nin qurucusu (1872-ci il), 1873-cü ildə öz şagirdləri ilə birlikdə Bakıda Azərbaycan türk dilində ilk teatr tamaşası göstərən mədəniyyət xadimidir.

Həsən bəy öz qiymətli həyatını xalqın savad alması və maariflənməsinə sərf etmişdi. O, Azərbaycanda ilk qızlar gimnaziyasının açılmasının təşəbbüskarı, təşkilatçısı, 1906-cı ildə Bakıda Azərbaycan Müəllimlərinin Birinci Qurultayının təşkilatçısı və qurultayın sədri olmuşdur. Həsən bəy Azərbaycan mətbuatının banisidir. O, ana dilimizdə Azərbaycan milli mətbuatını yaratmış və 1875-1878-ci illərdə "Əkinçi" adında Rusiyada ilk türkdilli qəzeti nəşr etmişdir. "Əkinçi" qəzeti Azərbaycanda pedaqoji elmin inkişafında böyük rol oynamışdır. Qəzetin elə bir nömrəsi olmamışdır ki, orada maarifin, təhsilin, elmin təbliğinə yer verilməsin. H.B.Zərdabi qəzet vasitəsilə üzünü ziyalılara tutub onları məktəb açmağa, elm, maarif və tərbiyə ilə məşğul olmağa çağırırdı.

O adını Azərbaycan Mədəniyyət tarixinə qızıl hərflərlə yazdıran dahi ziyalı, böyük təbiətşünas alim, pedaqoq, naşir və nasirdir. Onun babası Rəhim bəy və Səlim bəy o dövrün gözüaçıq adamlarından olmuşdur. Hər ikisi çar ordusunun zabiti olmuşdur.

Həsən bəy ilk təhsilini mollaxanada almış,1852-ci ildən isə atasının istəyi ilə rus dilində savad verən 4 sinifli Şamaxı şəhər məktəbində oxumağa başlamışdır. Məktəbin son sinfində o, cavabları ilə imtahan komissiyası üzvlərini elə heyrətləndirmişdi ki, Qafqaz Təhsil Dairəsinin rəisi baron Nikolay Həsən bəyin təhsilini dövlət hesabına Tiflis gimnaziyasında davam etdirməsi təklifini

vermişdi. O, yaxın qohumu, general Fərəc bəy Ağayevin köməyi ilə gimnaziyada təhsilini davam etdirmişdir. 1860-cı ildə gimnaziyanı uğurla bitirən Həsən bəy Moskva Universitetinin fizika-riyaziyyat fakültəsinin təbiətşünaslıq bölməsinə daxil olmuşdur. Burada təhsil aldığı 1861-1865-ci illərdə o, böyük mənəvi inkişaf yolu keçmiş, özünün yüksək mədəniyyəti və istedadı ilə universitetin müəllim və tələbələri arasında dərin hörmət qazanmışdı.

XIX əsrin II yarısında Şimali Azərbaycanda maarifçilik ideyalarının başçısı, bu ideyaları əməli surətdə həyata keçirmək üçün yorulmadan təşəbbüs göstərən ziyalı Həsən bəy Zərdabi idi. Dövlət məmuru, məhkəmə katibi, gimnaziya müəllimi kimi müxtəlif vəzifələrdə çalışan Həsən bəy Zərdabi xalqı qəflət yuxusundan oyatmaq, onu maarif və mədəniyyətə qovuşdurmaq üçün milli mətbuata böyük ehtiyac olduğunu görürdü. O, 1870-ci ildən başlayaraq Azərbaycan dilində qəzət nəşrinə icazə almaq üçün Qafqazın rəsmi dairələrinə dönə-dönə müraciət etmişdi. Lakin dövlət məmurları Həsən bəyin xahişini hər dəfə müxtəlif bəhanələrlə rədd edir, istəyinin qarşısına keçilməz sədlər çəkirdilər. Buna baxmayaraq  Həsən bəy əzmi, iradəsi ilə bütün maneələri üstələdi, qəzetin müstəsna hal olaraq  Bakıda senzuradan keçilməsinə icazə aldı. İstanbuldan mətbəə hürufatı gətirdi və beş illik mübarizədən sonra Həsən Bəy Zərdabi  1875-ci il iyun ayının 22-də ilk milli Azərbaycan qəzeti olan "Əkinçi"nin birinci nömrəsini çap etməyə müvəffəq oldu. Rusiya imperiyasında yaşayan bütün türk-müsəlman əhalisinin birinci mətbuat orqanı olan "Əkinçi"nin nəşrə başlaması ilə ölkənin sosial-mədəni həyatında bir canlanma əmələ gəldi, demokratik ideyalar daha sürətlə yayılmağa başladı. "Əkinçi" öz səhifələrində xalq kütlələrini sosial fəallığa, yeni, müasir mədəniyyətə cəlb edirdi. Azərbaycanın qabaqcıl fikirli adamları Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani, Məhəmməd Tağı Əlizadə, Əhsənül-Qəvaid, Məhbus Dərbəndi və başqaları bu qəzet ətrafında birləşərək feodal patriarxal quruluşun, orta əsr geriliyinin, köhnə həyat formaları və adət-ənənələrinin

əleyhinə çıxır, ictimai həyatın bütün sahələrində tərəqqi, yeniləşmə, təzələnmə ideyalarını irəli sürüdülər. Qəzet 2 həftədə bir dəfə çap olunurdu. Onun beş şöbəsi var idi: ”Daxiliyyə”, “Əkin və ziraət xəbərləri”, “Məktubat”, “Elm xəbərləri”, “Təzə xəbərləri” idi. Onun əsas şöbəsi “Əkin və ziraət xəbərləri” idi. Burada əkinçilik, bağçılıq, bostançılıq, maldarlıq, ümumiyyətlə, kənd təsərrüfatı sahəsində çalışan adamlara faydalı məsləhətlər verilirdi. ”Əkinçi”nin toxunduğu, təhlil və izahına ehtiyac duyduğu problemlər çox rəngarəng idi. Onun səhifələrində ictimai həyatın demək olar bütün sahələrinə dair yazılar dərc olunurdu. Orada çap edilən məqalələrdə iqtisadi, siyasi, mədəni, sosial, fəlsəfi, ədəbi-tənqidi, tibbi məsələlərdən söhbət açılır, geniş xalq kütlələrinə sağlamlığı qorumaq, torpağı becərmək, mal-qaranı bəsləmək, məhsuldarlığı artırmaq qaydaları barədə faydalı məsləhətlər verilirdi. “Bəs nə üçün “Əkinçi”?

Əvvəla fərqli mülahizələri açıqlamazdan öncə, kulturologiyanın bəzi nəzəri əsaslarını xatırlayaq. Bilənlər bilir ki, Kulturologiya – Mədəniyyətşünaslıq haqqında elmdir. “Mədəniyyət” anlayışı isə latın mənşəli “Culture” sözündən dönmədir. Antik dövrlərdə “Culture”nin ilkin hərfi mənası “torpağı becərmək”, “emal (şum) etmək”, “torpağı arıtlayıb yararlı hala salmaq”, əkin-biçinə hazırlamaq, “becərmək” anlamındadır. Qədim dövrlərdə ilk yaranışında bu söz obyektdə insan əməyi ilə aparılan dəyişiklikləri ifadə etmək, əkin yerlərinin, torpaq sahələrinin və s. şumlandığını, sahmana salındığını bildirmək üçün istifadə edilib. İndinin özündə də “aqrokultura” sözü termin kimi mövcuddur. Zaman keçdikcə insan fəaliyyətinin nəticəsi olan “culture” (“kültür”- “kultura”) sözünün məna və məzmun tutumu daha da dərinləşib. O yalnız praktiki fəaliyyəti deyil, həm də mənəvi fəaliyyət sahələrini əhatə etməyə başladı. Elmə maddi və mənəvi Mədəniyyət anlayışları daxil oldu. Beləcə torpağı becərmək, emal (şum) etmək, torpağı arıtlayıb (təmizləyib) yararlı hala salmaq, əkin-biçinə hazırlamaq, becərməklə yanaşı, artıq insan əlinin, zehninin, qəlbinin iştirakı ilə yaradılan bütün dəyərlər “Culture” – “Kültür” – “Kultura” – “Mədəniyyət” əlaməti kimi

qəbul olunmağa başladı…

Mədəni inkişaf dedikdə mövcud olan bütün dəyərlər sistemi, bütün yaradıcılıq sahələri, bütün elm, texnika, iqtisadiyyat, isteh-salat, idarəetmə, səhiyyə, təhsil, ticarət, tikinti, yol, su, işıq, xidmət, təchizat… nəzərdə tutulur. Mədəni insan özünü deyil, özgəsini düşünərək yaşayan insandır. Çünki insanı vəhşilikdən ayıran məhz onun mədəni qazanclarıdır. İnsan varsa, mədəniyyət var, yaxud mədəniyyət yoxdursa, insan da yoxdur…

İkincisi ondan ibarət idi ki, qəzetim məqsədi xalqı qəflət yuxusundan oyatmaq, maarifə,mədəniyyətə cəlb etmək idi.”Əkinçi” adı isə bu mövzulardan uzaq idi. Qəzetin adını “Əkinçi” qoymaqla senzuradan keçmiş oldu.

H.B. Zərdabi inkişaf yollarında əsasən qabaqcıl Avropa təcrübəsindən bəhrələnməyi vacib sayırdı və “milli-dini özgürlük” bəhanəsi altında Qərbdən gələn yeniləşmə əlamətlərinin qarşısını kəsməyə çalışan gerizəkalıları kəskin tənqid atəşinə tuturdu. Dünyagörüşü etibarilə Avropa meylli olan H.B.Zərdabi çağdaş dövrlə səsləşməyən köhnə fikirlərin, mədəni geriliyin təzahürlərini aradan qaldırmağa çağırırdı. Bəlkə də təzadlı səslənər, ancaq çox vaxt xalqın həyatındakı, məişətindəki yaramaz situasiyaların kəskin tənqidi – xalqa olan böyük sevgidən irəli gəlir.

H.B. Zərdabi pedaqoji fəaliyyətlə məşğul olmuş, 1878-ci ildə Bakı realni məktəbində müəllim işləmişdir.

1879-1896-cı illərdə Zərdabda yaşamış, pedaqoji məqalələrlə çıxış etmiş, maaarifçiliklə məşğul olmuşdur.

1896-cı ildə Bakıya köçmüş, qız məktəbi açmaq istəmiş, amma baş tutmamış, “Kaspi” qəzetində əməkdaşlığa başlamışdır.

Həsən Bəy Zərdabinin əxlaqi görüşləri diqqəti cəlb edir. Zərdabi cəhaləti, xürafat və mövhümatı tənqid edirdi. O, şəxsiyyətin tərbiyəsinə fikir verilməsini məqsədəuyğun sayır, mənəvi keyfiyyətlərin inkişaf etdirilməsi, xüsusən vətənpərvərlik və milli hisslərin qüvvətləndirilməsini lazım bilirdi. O, insan həyatının mənasını xalqına təmənnasız xidmətdə görür və bu barədə deyirdi: “*Millətə*

*və insaniyyətə xeyri olana bizlər çox aqil deyirik”.*

Həsən bəy Zərdabi vətəndaşları öz insanlıq ləyaqətini anlayıb başqaları tərəfindən alçaldılmasına, əzilməsinə, hüquqlarının ayaqlar altına atılmasına yol verməməyə çağırırdı. O, öz şərəfini, izzətini, hüquq və mənliyini qorumayan şəxsləri heyvandan belə aciz sayırdı. Həsən bəy Zərdabi qadın təhsilini, əxlaq, fiziki və əmək tərbiyəsini daim diqqət mərkəzində saxlayır, fiziki tərbiyəni bir pedaqoji problemdən savayı, həm də ictimai problem kimi, fiziki tərbiyəni zehni və əxlaqi tərbiyə ilə vəhdətdə nəzərdən keçirirdi. H.Zərdabi əqli, əxlaqi, hissi-estetik tərbiyə və əmək tərbiyəsinə yüksək əhəmiyyət verir və deyirdi ki, bunların arasında qarşılıqlı əlaqə vardır. Zərdabiyə görə, düzgün təşkil edilən və şüurlu surətdə müəyyən məqsədə doğru yönəldilən əmək vasitəsi ilə pozulmuş adamları, hətta cinayətkarları da tərbiyə etmək olar. Əl əməyi uşaqların əxlaqını saflaşdırır, təkmilləşdirir, onlarda təvazökarlıq və hörmət, işgüzarlıq, vətənpərvərlik, əməksevərlik və başqa insani sifətləri tərbiyə edir. O, məktəblərdə çilingərlik, xarratlıq emalatxanaları yaratmağı, kənd şəraitində də uşaqları maldarlıq, tarlaçılıq işləri ilə tanış etməyi zəruri sayırdı.

Həsən bəy Zərdabi vətənpərvərliyi yüksək qiymətləndirir və həyatın mənasını xalqa xidmət etməkdə görürdü. O, gənclərə müraciətində deyirdi ki, əsl vətənpərvər o adamdır ki, vətəninə, xalqına təmənnasız kömək edir, heç bir mükafat gözləmir, vətənin şöhrət və qüdrətini, rifah halını artırır. H.Zərdabi məktəb və tərbiyəni ailədən, ailə tərbiyəsindən ayırmır, o ailənin uşağın tərbiyəsindəki roluna xüsusi diqqət yetirirdi. Zərdabiyə görə, ata və analar övladlarının tərbiyəsinə xüsusi qayğı göstərməli, onları düzgün tərbiyə etməlidirlər. Zərdabiyə görə, tərbiyənin də, tərbiyəsizliyin də ilk mənbəyi ailədir. Buna görə də məktəb ailəyə kömək etməli, övladlarının tərbiyəsində çətinlik çəkən valideynlərə pedaqoji məsləhətlər verməlidir.

H.Zərdabi gənc nəslin sağlamlığına, fiziki tərbiyəsinə xüsusi diqqət yetirir və deyirdi ki, naxoşluq haqqında nalə çəkməkdənsə, sağlamlığın qayğısına qalmaq lazımdır. Zərdabi təmiz havanı, suyu,

günəş işığını sağlamlığın zəruri şərti hesab edirdi.

Zərdabi sağlamlıq və fiziki tərbiyə haqqında fikirlərini tibbə dair əsərlərində şərh etmişdir. Zərdabi deyirdi ki, hər bir kəs xoşbəxt olmaq istəyirsə, sağlam olmağa çalışmalıdır. Səlamətlik bədən üçün böyük nemətdir. Xoşbəxtlik mal-dövlətə deyil, bədənin sağlamlığındadır. Buna görə də bədənin sağlamlığına uşaqlıq və gənclik çağlarından qayğı göstərilməlidir. H.Zərdabi bədəni salamat saxlamaq üçün zəruri olan gigiyenik qaydaları da geniş təhlil etmişdir. Onun fikrincə, insan üçün piyada gəzmək çox vacibdir.

O, dərini təmiz saxlamağı vacib sayır və deyirdi ki, bunun üçün hər gün çimmək salahdır, çünki bədən isti-soyuğa adət edir. Dəniz suyu ilə çimmək bədəni bərkidir, iştahanı açır, yorğunluğu alır. Zərdabi sağlamlığın qorunmasında yuxuya xüsusi diqqət yetirmişdir. İnsanın yorğunluğunu almaq üçün dincəlməsi, yuxu çox vacibdir. H.Zərdabi tərbiyə məsələsinə vacib pedaqoji problem kimi baxmışdır. O, fiziki tərbiyəyə isə ictimai problem kimi baxmışdır. O, əməyi fiziki tərbiyənin tərkib hissəsi hesab edir və deyirdi ki, fiziki tərbiyə şəxsiyyətin ahəngdar inkişafının mühüm şərtlərindən biridir.

## 10.5. MƏHƏMMƏDAĞA ŞAHTAXTLININ MAARİFÇİLİK İDEYALARI

Məhəmmədağa Şahtaxtlı (1846-1931) böyük şərqşünas alim, görkəmli pedaqoq və ictimai xadim olmuşdur. O, Beynəlxalq Fonetika Cəmiyyəti (1899), Beynəlxalq "Asiya cəmiyyəti" (1900) və Rusiya İmperator Coğrafiya Cəmiyyəti Qafqaz şöbəsinin (1903) həqiqi üzvü olmuş, Bakı Universitetinin professoru (1920) kimi pedaqoji fəaliyyət göstərmişdir. Naxçıvan şəhər məktəbini və Tiflis klassik kişi gimnaziyasını (1863) bitirdikdən sonra, Peterburqda müstəqil yolla alman dilini öyrənmiş, sonra da Leypsiq Universitetinin fəlsəfə, tarix və hüquq fakültəsini bitirmişdir (1869). Bir müddət Parisdə Şərq dilləri məktəbində mühazirələr dinləmiş, fran-

sız dilini öyrənmiş, Azərbaycan, rus, alman, fransız, ingilis, ərəb, türk, fars dillərində ədəbi və elmi, pedaqoji əsərlər yazmış, təxminən 12 dil bilmişdir.

M.Şahtaxtlı ömrünün 50 ildən çoxunu xalq maarifi, məktəb və milli mətbuat məsələlərinə həsr etmişdir. 1882-ci ildə "Qafqaz" qəzetinin səhifələrində dərc etdirdiyi "Müsəlmanların məktəb həyatı" başlıqlı silsilə məqalələri onun Azərbaycan xalq maarifinin və məktəb təhsilinin bütün sahələrinə yaxından bələd olduğunu göstərir. O, xalqın maariflənməsi və tərəqqi etməsi üçün yollar axtarır ana dilinin inkişafı üçün pedaqoji məqalələr yazır və dərsliklər nəşr etdirirdi. Onun pedaqoji irsində təhsilin ana dilində aparılması fikri mərkəzi yerlərdən birini tuturdu. Ana dilinin təlim roluna ayrıca əhəmiyyət verən Şahtaxtlı təhsilin yalnız ana dilində aparılmasını zəruri hesab etmişdir. O, yazırdı: "İbtidai məktəb yalnız təhsili ana dilində apardığı zaman yaxşı nəticə verər". Şahtaxtlı qeyd etmişdir ki, məktəbdə verilən elmi-biliklərlə tanışlıq üçün ana dili əsas vasitədir. Şagird ana dili vasitəsilə birbaşa təlimin məzmunu ilə tanış olmağa, ona yiyələnməyə başlayır. Ana dilini yaxşı bilmədən digər dillləri öyrənmək çətin olur. Ana dilinin inkişaf etdirilməsi məqsədilə Məhəmməd ağa Şahtaxtlı 1906-1907-ci illərdə Tiflisdə üç hissədən ibarət "Ana dili" dərsliklərini nəşr etdirmişdir. Onun Tiflisdə Tomson mətbəəsində 1879-cu ildə Azərbaycan və rus dillərində çap etdiridyi "Təkmilləşdirilmiş müsəlman əlifbası" kitabı bu sahədəki ilk təşəbbüsün nəticəsi kimi meydana çıxmışdır.

Məhəmmədağa Şahtaxtlı hələ Sovet hakimiyyəti illərində latın əlifbasının ən fəal tərəfdərlarından biri kimi mübarizə aparmışdır. Onun XX əsrin əvvəllərində Azərbaycan dili haqqında irəli sürdüyü təkliflər günümüzə qədər öz aktuallığını saxlamaqdadır. Eyni zamanda o, dilimizin adı haqqında da dəyərli araşdırmalar aparmışdır. Bu baxımdan onun təkmilləşdirilmiş müsəlman əlifba lahiyəsini (1879) Azərbaycan xalqının maariflənməsinə xidmət edə biləcək münasib əlifbamızın təcəssümü hesab etmək olar. Başda N.Nərimanov olmaqla S.Ağamalıoğlu, T.Şahbazi, C.Məmmədqulu-

zadə, Ü.Hacıbəyli, F.Ağazadə Şərqli, eləcə də M.Şahtaxtlı, Rza Ayazlı bir cəbhədə birləşmişdilər və bunları latınçılar adlandırırdılar. Sovet hakimiyyətinin qurulması ilə latınçıların sırası daha da genişlənməyə, tərəfdarlarının sayı artmağa başladı.1922-ci ilin iyul ayında Yeni Türk Əlifba Komitəsi yaradıldı. C.Məmmədquluzadənin baş redaktorluğu ilə ilk dəf olaraq latın qrafikasında "Yeni yol" qəzeti nəşrə başladı. M.Şahtaxtlı bu komitəyə müzakirə üçün "Şərq latın əlifbası" layihəsini təqdim etmişdi.

Məhəmməd ağa Şahtaxtlının ana dili məktəbinin təşkili üçün irəli sürdüyü mühüm məsələlərdən biri ərəb əlifbasından xilas olmaq idi. O, yazırdı ki, "Ana dilində müvafiq dərsliklərin olması, mollaların pedaqoji təhsil almış xalq müəllimləri ilə əvəz edilməsi hələ məsələni tamamilə həll etmir. Çünki ərəb əlifbasının qüsurları üzündən ana dilli məktəblər təlim-tərbiyə işinin nəticəsinə görə lazımı səviyyəyə qalxa bilməz". Onun 1902-ci ildə "Sövti şərq əlifbası" və 1903-cü ildə isə "Xətti-Məhəmmədağa" başlıqları altında nəşr etdirdiyi əsərləri ərəb əlifbasını sadələşdirmək yolunda çəkdiyi zəhmətin bariz nümunəsi idi. O, milli sözləri yazmaq üçün ana dilində əlifba tərtib etməyi vacib sayırdı. Şahtaxtlı ərəb əlifbasını isə yalnız Quranı və digər kitabları oxumaq üçün saxlamağı təlim işini çətinləşdirən bir iş hesab edirdi. O, yazırdı "bu vaxt şagirdlərə iki əlifba öyrətmək lazım gələr ki, bu da işi asanlaşdırmaq əvəzinə daha da mürəkkəbləşdirər".

Məhəmmədağa Şahtaxtlı təlimin ana dilində aparılması ideyasını rəhbərlik etdiyi "Şərqi-rus" qəzetində də davam etdirmişdi. Qəzet haqlı olaraq yazırdı: "... Ana dilini bilməyən uşaqlar əcnəbi dilini öyrənməkdə çətinlik çəkəcəklər. Öz ana dilimiz vasitəsilə Avropa və xüsusən Rus mədəniyyətini kəsb edə bilərik. Əgər biz xalqımızın qalmasını istəyiriksə və hamının təhsil almasının qayğısını çəkiriksə kitablarımızı ana dilində yazmalıyıq, dilimizi ərəb və fars sözlərindən təmizləməliyik".

Onun ana dilində məktəbin təşkili üçün irəli sürdüyü mühüm məsələlərdən biri də ərəb əlifbasından xilas olmaq idi. O, yazırdı:

“Azərbaycan dilində müvafiq dərsliklərin olması, mollaların pedaqoji təhsil almış xalq müəllimləri ilə əvəz edilməsi də məsələni tamamilə həll etmir. Çünki ərəb əlifbasının qüsurları üzündən ana dili məktəbləri təlim-tərbiyə işinin nəticəsinə görə lazımı səviyyəyə qalxa bilməz”. Məhəmmədağa Şahtaxtlı ərəb əlifbasını dəyişdirməyi bütöv müsəlman aləminin işi hesab edirdi. Onun 1902-ci ildə “Sövti şərq əlifbası” və 1903-cü ildə isə “Xətti-Məhəmmədağa” başlıqları altında nəşr etdirdiyi əsərləri ərəb əlifbasını sadələşdirmək yolunda çəkdiyi  zəhmətin bariz nümunəsi idi. O, milli sözləri yazmaq üçün ana dilində əlifba tərtib etməyi vacib sayırdı. Şahtaxtlı ərəb əlifbasını isə yalnız Quranı və digər kitabları oxumaq üçün saxlamağı lazım bilirdi.

Məhəmmədağa Şahtaxtlı təlimdə səs üsulunun tətbiqi məsələsinə də toxunmuşdur. O, savad təlimini ərəb dilində deyil, ana dilində başlamağı zəruri hesab edirdi. O, yazırdı: “Məlum olmayan ərəb dilində Quranı oxutmaq şagirdin marağını zəiflədir, onları oxuduqlarının və tələffüz etdiklərinin məzmununa biganə qoyur”. Şahtaxtlı təlimin yeganə yolunu ana dilində kitabları oxumaqda görürdü. O, belə hesab edirdi ki, təlimin ana dilində olan sadə kitablardan aşılanması şagirdlərdə təlimə həvəsi söndürməz. Əksinə olaraq ana dilində oxunan kitablar şagirdlərdə təlimə qarşı olan maraqları artırmış olar. O, elə dərsliklər yaratmağı təklif edirdi ki, şagird ana dilində öz fikirlərini təbii və məntiqi ardıcıllıqla şərh etmək üçün ondan məlumat əxz etməyi, ona əsaslanmağı bacarsın və nitqinin zənginliyi üçün xalq nümunələrindən istifadə edə bilsin. Buna görə də Şahtaxtlı uşaqlarda oxuya həvəs oyatmaq üçün şifahi xalq yaradıcılığından istifadə edilməsini faydalı hesab ediridi. O, şifahi xalq yaradıcılığını ağızlarda gəzən, xalqın ağlını və ictimai həyatını öyrənən zəngin bir mənbə olduğunu qeyd ediridi. Bu məqsədlə özü dərin məzmuna malik olan nağıllar, hekayələr, zərb-məsəllər, atalar sözləri, nəsihətlər və s. toplamışdır. Şahtaxtlı bunlardan məktəblərdə qiraət üçün vəsait kimi tərtib edilməsini faydalı hesab edirdi. Bununla əlaqədar olaraq maarifçi alim o zamanlar latin əlifbasının

təbliği ilə geniş məşğul olan yeni yol qəzetində və Moskvada cəmi 5 nömrəsi işıq üzü görmüş “Qızıl Şərq” məcmuəsində bir neçə məqalə çap etdirmiş və 1902-ci ildə tamamladığı 55 səhifədən ibarət bir əsər yazmışdır .

Şahtaxtlı bir müddət Parisdə yaşamış, Fransa kollecində və Ali Təcrübi Təhsil Məktəbində Şərq dillərindən dərs demişdir. Bu dövrdə fransız dilində nəşr etdirdiyi əsərlər Qərbi Avropa və Amerika mətbuatında müzakirə və mübahisələrə səbəb olmuşdu. Şahtaxtlı Fransanın məşhur Sorbonna Universitetində professor kimi fəaliyyət göstərmiş fonetika sahəsində tədqiqatlar aparmış və Fransa Maarif Nazirliyinin fəxri diplomunu (1901) almışdır.

Şahtaxtlı Rusiyada Türkiyənin səfiri vəzifəsində çalışmış general-adyutant Əhməd Şakir paşanın “Günəş təqvimi”, Əhməd Cövdət paşanın 1200 səhifəlik “Peyğəmbərlər və xəlifələr” adlı kitablarını rus dilinə tərcümə etmişdir. 1891-ci ildə “Kaspi” qəzetinin redaktoru olmuş Şahtaxtlı bu qəzetin əsas ideya xəttinə maarifçilik xəttini gətirmişdir.

1902-ci ildə Şahtaxtlı Naxçıvanda ata mülkünü sataraq Tiflisdə “Qeyrət” adında xüsusi mətbəə açmış, burada 1903-ci ilin martından Azərbaycan dilində ilk ictimai-siyasi, iqtisadi, elmi, ədəbi-pedaqoji mətbuat olan “Şərqi-rus” qəzetinin nəşrinə başlamışdır. O, bu qəzetin məqsədini belə izah edirdi: ”Məsləkimizi hər kəs bilir: Məmləkətimizin mədəniyyətinə xidmət etməkdir”. Başqa bir yerdə isə gənclərə müraciətlə yazırdı:”Elmin dalınca gedin. Elm insanı irəli aparır”. Qəzetin Azərbaycanda ictimai fikir tarixinin inkişafında, xalqın maariflənməsində xüsusi xidməti olmuşdur. Onun səhifələrində dünyəvi elmlər, ana dili, qadın azadlığı, uşaqalrın təlim-tərbiyəsi ilə bağlı mütərəqqi fikirlər, pedaqoji məqalələr öz əksini tapmışdır. “Şərqi-Rus” qəzeti Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Ömər Faiq Nemanzadə, Hüseyn Cavid, Məməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Əli Nəzmi, Mirzə Cəlil Şürbi kimi açıqfikirli ədib və mühərrirləri öz ətrafında birləşdirmişdi. Bu yaradıcı heyət Azərbay-

canda mətbuatın inkişafının yeni mərhələsinin ("Molla Nəsrəddin") başlanmasına zəmin yaratmışdılar. M.Şahtaxtlı bu mətbəəni "Molla Nəsrəddin" jurnalının nəşri üçün (1906) Cəlil Məmmədquluzadəyə hədiyyə vermişdir. 1907-ci ildə İrəvan quberniyasından II Dövlət Dumasına deputat seçilən Məhəmməd ağa Şahtaxtlı Duma bağlandıqdan sonra "Rossiya" (Peterburq) qəzeti redaksiyasında işləmiş, 1908-1918-ci illərdə, xaricdə (əsasən, Türkiyə, İran və İraqda) yaşamışdır.

M.Şahtaxtlı 1919-cu ildə vətənə qayıtmış, Bakı Universitetinin yaradılmasında fəal iştirak etmiş və universitetin ilk azərbaycanlı professoru kimi Şərq dilləri və ədəbiyyatından mühazirələr oxumuşdur. Bu universitetin yaradılması 23 aylıq ömrü olmuş milli dövlətimizin nailiyyətidir. Bu elm ocağının meydana çıxmasında, təşkilində Məhəmməd ağa Şahtaxtlının da böyük əməyi olmuşdur. Məhəmməd ağa Şahtaxtlı Avropa mədəniyyətinə yiyələnmiş Qərb dövlətlərində maarifin inkişafında universitetin böyük rol oynadığını və bu məqsədlə də yeni yaranmış müstəqil dövlətdə universitetin fəaliyyətə başlamasının çox zəruri olduğunu israrla qeyd edirdi: "Darülfünun olmazsa nə olur?...Orta məktəblərimizdə...dərs verəcək müəllimlərimiz olmaz; naxoşlarımızı müalicə edəcək təbiblər olmaz. Darülfünunumuz olmasa, ömrünün həpsini elm fününa sərf edəcək professorlar heyəti millətimizin içində nerədən çıxar? Darülfünundan əl çəkmək mədəni həyatdan əl çəkmək deməkdir".

Elmi, tənqidi və publisist əsərlərində Şahtaxtlı müstəmləkəçilik, irqçilik, qadın əsarəti, dövlət quruluşu, demokratiya, xalq hakimiyyəti, din, şəriət məsələləri və s. haqqında dövrünə görə mütərəqqi fikirlər irəli sürmüşdür. Dövrünün qabaqcıl şəxsiyyətləri Şahtaxtlının ədəbi, elmi-pedaqoji və jurnalistik fəaliyyətini yüksək qiymətləndirmişlər.

## 10.6. MƏHƏMMƏD TAĞI SİDQİNİN PEDAQOJİ GÖRÜŞLƏRİ

Məhəmməd Tağı Sidqi Səfərov (1854-1903) XIX əsr Azərbaycan məktəb və pedaqoji fikir tariximizin görkəmli nümayəndələrindən biridir. O, ilk təhsilini İranın "Şah Sultan Hüseyn" mədrəsəsində almış, ərəb və fars dillərini mükəmməl öyrənmişdir. Sidqi ömrünün sonuna qədər maarif və mədəniyyət carçısı olmuş, xalqı elmə, təhsilə, tərəqqiyə çağırmışdır. Sidqi görkəmli bir pedaqoq, məktəbşünas olaraq təlim və tərbiyəyə dair qiymətli əsərlərin, yüksək elmi-pedaqoji dəyərə malik yeddi dərslik və dərs vəsaitinin müəllifi olmuşdur: 1) "Nümuneyi əxlaq"; 2) "Töhfeyi-bənat yəni ki "Qızlara hədiyyə" ; 3) "Müxtəsər coğrafiya risaləsi" 4) "Tənviri əfkar" ("Fikirlərin işıqlandırılması"); 5) "Həkimanə sözlər"; 6) "Nəsihətnamə"; 7) "Pedaqogika". Sidqi uşaqlar üçün də maraqlı, didaktik hekayə və şerlər yazmışdır.

Sidqi bir xalq müəllimi, bir məktəbdar kimi Hacı ağa Fəqir, Hüseyn Soltan Kəngərli, Hüseyn İsmayılov, Salman Əsgərov kimi ziyalıların köməyi ilə 1892-ci ildə Ordubadda "Əxtər" (Ulduz) adlı yeni üsullu milli məktəb açmış və Sidqinin geniş pedaqoji fəaliyyəti də elə buradan başlamışdır. Sidqi bu məktəbin həm təsisçisi, həm rəhbəri, həm müəllimi, həm də müəllifi idi. Naxçıvan ziyalıları M.T. Sidqini Naxçıvana dəvət etdilər və o, Yaxın və Orta Şərqdə məşhur olan "Tərbiyə məktəbi"ni 1894-cü ilin noyabr ayında açdı. M.T.Sidqinin açdığı "Tərbiyə məktəbi"nin Hüseyn Cavid, böyük yazıçı Məmməd Səid Ordubadi, məşhur ədəbiyyatşünas alim Əziz Şərif, görkəmli rejissor və aktyor Rza Təhmasib, Məmmədhüseyn Təhmasib, mollanəsrəddinçi şairlər Rzaqulu Nəcəfov və Əliqulu Qəmküsar qardaşları, yazıcı-publisist Ələkbər Qərib, Əli Səbri Qasımov, şair Məhəmmədəli Sidqi (M.T.Sidqinin oğlu), məşrutəçi Ələkbər Məmmədquluzadə, adlısanlı maarifçilər- Əbdüləzim Rüstəmzadə, Mircəfər Mirişli, Əlirza Rasizadə (Hüseyn Cavidin qardaşı), realist rəssam Bəhruz Kəngərli, filoloji elmlər namizədi Xəlil Hacılarov, əməkdar müəllim Həsən

Səfərli, Məmməd Xəlilov və Əli Xəlilov, Heydər Vəzirov, Əsəd Şeyxov, Qasım Camalbəyov, diplomat İbrahim Əbilov (1882-1923) kimi böyük elm, ədəbiyyat və mədəniyyət, ictimai və dövlət xadimləri yetirmələri olmuşdur. Onlar nəinki Azərbaycanda, eləcə də ölkəmizdən çox-çox uzaqlarda tanınan məşhur şəxsiyyətlər – elm, ədəbiyyat və incəsənət xadimləri, siyasətçilər olmuşlar. M.T. Sidqi istedadlı bir şair, yazıçı kimi uşaq, yeniyetmə və gənclər üçün tərbiyəvi əhəmiyyətli, ibrətamiz şer və hekayələr yazmış, rus, ərəb və farscadan tərcümələr etmiş, teatrımızın inkişafında dəyərli xidmətlər göstərmişdir. M.T.Sidqi demək olar ki, bütün əsərlərində ana dilini, elmi və maarifi təbliğ etmiş, yeni məktəblər açmağı, orada ana dilini, bu dildə elm və ədəb öyrətməyi günün vacib məsələsi hesab edirdi. O, deyirdi:

Cəhd qıl, qoy zəmanədə bir ad,
Eyləsinlər səni bu ad ilə yad.
Millətin həqqini əda eylə,
Məktəbu mədrəsə bina eylə
Aç bu əbnayi-millətə məktəb,
Orda təhsil olunsun elmi-ədəb.
Ki, bu dünyada qəlbi şad olasan
Zikri-xeyr ilə bəlkə yad olasan.

"Tərbiyə məktəbi"ndə həm şəriət dərsləri, həm də dünyəvi fənlər tədris edilirdi. Burada kollektiv sinif-dərs sistemi tətbiq edilir, şagirdlər həsir üstündə deyil, partalarda otururdular. Lövhədən, silgidən istifadə edilirdi. Sinfə qalstuklu, səliqəli, müasir qaydada geyinmiş müəllimlər daxil olurdu. Bu məktəbdə fiziki cəza yox idi. Şagirdlər rahat, sərbəst və şən idilər. Bu məktəbdə ilk dəfə olaraq Sidqinin özü tərəfindən işlənib hazırlanmış və bu günə qədər əhəmiyyətini itirməmiş, mühafizə edilib saxlanılan "Ədəb qaydaları" tətbiq edilirdi. Tədris planında özünə möhkəm yer tutan əxlaq dərsləri də ona böyük şöhrət qazandırmışdı. Bu məktəbdə ərəb və fars dili ilə yanaşı rus dili dərslərinə xüsusi fikir verilirdi. Sidqi Naxçıvan şəhərinin mötəbər adamları, ziyalıları qarşısında etdiyi çıxışında demişdir: "Bu məktəbi bitirənlər həm öz ana dilimizi gözəl bilə-

cək, həm də əcnəbi dilləri tez və asanlıqla öyrənəcək, cəmiyyətimiz, millətimiz üçün xeyirli insanlar olacaqlar”.

Bu məktəbdə, həndəsə, riyaziyyat, coğrafiya, tarix, hifz və səhhət, ədəbiyyat, rus dili öyrədilirdi. Azərbaycan məktəb tarixində bu məktəb ilk milli məktəblərdən biridir.

M.T. Sidqi istedadlı bir şair, yazıçı kimi uşaq, yeniyetmə və gənclər üçün tərbiyəvi əhəmiyyətli, ibrətamiz şer və hekayələr, nəsihətlər yazmış, rus, ərəb və farscadan tərcümələr etmiş, teatrımızın inkişafında dəyərli xidmətlər göstərmişdir.

M. T. Sidqi uşaqların əxlaq tərbiyəsinə xüsusi fikir vermişdir. Onun “Nümuneyi-əxlaq”, “Tənviri əfkar”, “Həkimanə sözlər”, “Məktəbi-tərbiyə” və “Şagirdlər üçün ədəb qaydaları” əsərlərində irəli sürdüyü əxlaq təpbiyəsinə aid fikirləri bu gündə çox əhəmiyyətlidir. M.T. Sidqinin “Qeyrətli və çalışqan uşaq”, “Qeyrətsiz və tənbəl uşaq”, “Ədəbsiz və tərbiyəsiz uşaq”, ”Doğruçu uşaq”, “Yalançı uşaq” hekayələri bu qəbildəndir.

M.T. Sidqi elm və ədəbin əhəmiyyətini yüksək qiymətləndirərək deyirdi: “İnsanı müəzzəz və müşərrəf edən, zülməti-cəhalətdən çıxarıb, nuri - mərifət və tərəqqiye-səadətə yetirən elm və ədəbdir”.

Sidqi elm və tərbiyəni, ədəbi vəhdətdə qəbul edirdi. Sidqi ədəbsiz və mərifətsiz elm adamını və mərifətli biliksiz nadanı yarımçıq adam hesab edirdi. O, yazırdı: *“Ədəbi olmayan aqil və əməli bilinməyən alim fəqət şücaətli silahsiz qoşuna bənzər. Buna görə də insan daim elm və ədəb təhsilinə çalışmalıdır. Elm bir ağacdır ki, onun səmərəsi əmək və ədəbdir..”*

Sidqi yetişən gənc nəslə öz müdrik tövsiyələrini verərək deyirdi: *“İnsanın qədir və şərafətini artıran dörd şeydir: birinci ədəb, ikinci elm, üçüncü sədaqət, dördüncü əmanət və siyanətdir” (mühafizə etmə, himayə etmə).*

Sidqi “Yalançı uşaq” hekayəsində uşaqların əxlaq tərbiyəsinə diqqəti yönəldir, onların düz və doğruçu olmasını tövsiyə ediridi: *“Ey mənim doğruçu şagirdlərim, insaniyyətin əvvəlinci vəzifəsi yalan danışmaqdan pəhriz və nicat etməkdir. Nəbadə, Nəbadə! Ya-*

*lançılığa adət edəsiniz, çünki, yalançı adam Allahın düşmənidir".*

Sidqi bütün əxalqi keyfiyyətlərin, dəyərli biliklərin, ən gözəl vərdişlərin ən kiçik yaşlardan başlanmasını məsləhət görür və belə yazıdı ki, insanın *"hər halının nəticəsi uşaq vaxtında verilən təlim və tərbiyənin səməri və əsəridir... Uşaqlıq yaş ağaca bənzər. Təzə yaş ağac nə qədər əyri olsa da, onu düzəltmək asandır. İnsanın kiçiklikdən tərbiyə qəbul etməsi vazeh mətləblərdəndir".* Çox qiymətli fikirlərdir. Atalar sözlərimizdə də bu barədə belə deyilmişdir: "Ağac yaş ikən, uşaq beşıkdə ikən!"

Böyük pedaqoq, maarifpərvər, məktəbdar Məhəmməd Tağı Sidqi qadın təhsilinə ciddi fikir vermiş, onların azad, təhsilli olmalarına qayğı göstərmiş, qadın hüquqlarının müdafiəsi uğrunda onları mübarizəyə səsləmişdir. Onun qadın məsələsinə aid fikirləri "Əxlaq nümunələri", "Qızlara hədiyyə" dərsliklərində "Rübabə", "Sitarə və xalası", "Analar bəzəyi" məqalə və hekayələrində öz əksini tapmışdır. O, bu əsərində yazır ki, anaların bəzəyi ləl-cəvahirat deyil, tərbiyəli, ədəbli, əxlaqlı uşaqlar tərbiyə etməkdir:

"Bəzək, bəzək ki, deyirlər – cəvahirat deyil,
Cəvahirat bu gün ziynəti-həyat deyil,
Həqiqi validənin ən şərəfli bir bəzəyi –
Ədəbli, uslu çocuqdur, təcəmmülat deyil!"

M.T.Sidqi qızların təhsilinin, tərbiyəsinin zəruriliyindən danışmaqla kifayətlənməmiş, öz ideyalarını əməli olaraq həyata da keçirmişdir. O, 1896-cı ildə Naxçıvanda ilk dəfə olaraq müsəlman qız məktəbini açmağa nail olmuşdur. XIX əsrin sonunda Naxçıvan kimi ucqar bir bölgədə, dindar bir yerdə qızlar üçün məktəb açmaq böyük hünər idi. Şəhərin din xadimlərinin, molla və müctəhidlərin hücumlarına baxmayaraq Sidqi öz mütərəqqi fikirlərindən dönməmiş və qız məktəbinin açılmasına nail olmuşdur. Bu məktəbin açılmasında Naxçıvanın qabaqcıl maarifpərvərləri yaxından kömək etmişlər. Sidqinin bu mütərəqqi fəaliyyəti Bakı maarifpərvər milyonçusu H.Z.Tağıyev tərəfindən təqdir edilmiş və o məktəbin inkişafı və fəaliyyəti üçün maddi yardımda bulunmuşdur.

M.T.Sidqinin "Oğlum Məhəmmədəliyə nəsihət" şerindəki maarifçi – poetik və pedaqoji düşüncələr geniş mənada bütün gənc nəsillər üçün faydalı öyüdnamələrdən ibarətdir. Bu öyüd və tövsiyələr bu gün də gənc nəslin tərbiyəsində aktual və əhəmiyyətlidir:

Ey mənim sərvi – bağ , bustanım
Ey mənim bülbüli- gülüstanım
Sən mənim cismim içrə canımsan,
Sən mənim tifti –xoşbəyanımsan
Nə qədər ki, var əlində fürsət ,
Dərsinə eylə hər zaman diqqət
Yetişibdir zəmani- elmi ədəb
Mənzilin eylə guşeyi – məktəb,
Dəmbədəm məktəb ilə ol dəmsaz
Qış həm yaz həm oxu, həm yaz
Özünü eylə cəhldən azad
Ruzigarın keçirmə qəflətdə
Elm təhsilin eylə diqqətlə
Ömrünü məsrəf eylə bir neçə il
Taki təhsil edəsən bir neçə dil.
Urusu, farsi, türki, həm ərəbi,
Onları bilmək artırır ədəbi.
Sən də öyrən ki, əhli – hal olasan,
Bəlkə filcümlə ba hamal olasan
Olasan niknam, azadə,
Həm bu dünyada, həm o dünyadə.

Məhəmməd Tağı Sidqi ana dilində təlim prosesini və əlifba məsələsini mühüm məsələ hesab edirdi. O, savadsızlığın bir səbəbini davam edən istismar dünyasında görürdüsə, digər səbəbini də təlim prosesində tədrisin aparıldığı ərəb əlifbasında görmüşdü. Buna görə də, yeni əlifbaya keçmək haqqında fikirlərini özünün yalnız bu məsələyə həsr etdiyi məqalələrində deyil, "Heykəli-insana bir nəzər" adlı əsərində əks etdirmiş və yeni əlifbaya keçməyin nə üçün zəruri olduğunu sübut etmişdir. Sidqi bu əsərində yeni əlifbaya

keçməyin “necə bir məqsudi-müqəddəs olduğunu” göstərmişdir. O, eyni zamanda əlifbanın yaranma tarixini də işıqlandırmış, onun necə əmələ gəldiyini və müasir şəkilə necə düşdüyünü ətraflı şəkildə izah etmişdir. Görkəmli pedaqoq yazırdı: “İnsanlar öz keçmişini və tərəqqisini gələcək nəslə çatdırmaq üçün müxtəlif əlifbalar icad etməyə iqdam etdilər. Xətsiz insan əyyami-tifuliyyətdə, yəni yeddi min il bundan əqdəm öz əfkar və xəyalatının, təcarib və imtahanını baqi qoymağa qadir deyildi”.

Görkəmli pedaqoq “Heykəli-insana bir nəzər” əsərində müxtəlif xalqların hansı növ əlifbanı necə yaratdıqlarını da göstərmişdir: O, bu əsərində yazırdı: “İbtidai güldanilər və babillilər və finikiyalılar xətti-heroqlifi ixtira etdilər. Ondan sonra misirlilər və finikiyalılar xətti heroqlifi ixtira etdilər. O, xətlər nəinki insanın ağzından çıxan sədalara dəlalət edirdi, xeyr! Bəlkə, bir parça nəqş və sürvərdən ibarət idi ki, gözə görünən məhsus və məri olan şeylərin surətini və əksini müayinəyi-rəsm edirdi”.

Məhəmməd Tağı Sidqi yazırdı: “Müxtəlif əlifba formaları nəinki, təhsil alan tələbələrə, hətta mollaxana və mədrəsələrdə dərs verən müddərislərə də oxuyub yazmağa və məktubla bir-birini başa salmaqda çətinləşdirirdi. Dərs deyənlərin özləri belə oxumaqda aciz qalırdılar. Bu dövrdə tədrisdə ərəb əlifbasının törətdiyi çətinlik görkəmli pedaqoqun diqqətindən qaçmamış, bu məsələyə dəfələrlə toxunmuşdu. O, bu barədə yazırdı: “O, vaxtlar ki, ərəb qövminin içində mindən biri oxuyub-yazan tapılanda, fars qövminin içərisində on mindən biri oxuyub-yazan tapılanda, türk qövminin içərisində on mindən biri tapılmazdı. Amma indi bu çətin əlifbamızın vücudilə yenə də barmaq boyda balalarımızın altı ayın müddətində yazıb oxumağa qadir ola bilərlər. Hərgah bu üsuli-cədidin tərəfdarları, elm və ədəbin havadarları və əbnayi-millətin təhsil və tərəqqisinə səy və diqqət edən şəxslər və intişari-maarifi çalışan ziyalı zəvati-kiram bu məqsudi, müqəddəsin barəsində himmət və qeyrət göstərsələr, bir az müddətdən sonra müsəlmanların da içərisində yazıb oxumaq bilməyən az tapılar.

Məhəmməd Tağı Sidqi yeni əlifba məsələsini özünun bir sıra iri həcmli əsərlərində və dostlarına yazdığı məktublarında da əks etdirmişdi. Onun bir çox məktub və əsərlərindən aydın olur ki, o, yeni əlifba uğrunda mübarizə aparmağı yalnız tədris, təlim və tərbiyə işləri ilə məşğul olan adamlara məsləhət görməmiş, bu məsələ ilə bütün milli ziyalıların məşğul olmalarını tövsiyə etmişdi. O, yazırdı: “Bu mühüm məsələni həyata keçirməkdə 10-15 nəfər adamın rəyi öyrənilməli və əlifba məsələsi ümumxalqa verilməlidir.

Onun xüsusi diqqət yetirdiyi və təsis etdiyi məktəblərdə həyata keçirdiyi təlim məsələlərindən biri də ana dilinin tədrisidir. Buna görə də Məhəmməd Tağı Sidqi dərsliklərini ana dilində tərtib etmiş və “Məktəbi-tərbiyə”də ana dilinin tədrisinə ciddi fikir vermişdi.

Pedaqoq hər iki məktəbi (“Əxtər” və “Məktəbi-Tərbiyə”) üçün əlyazması şəklində tərtib etdiyi tədris planlarında Azərbaycan dilinin tədrisinə birinci, ikinci və üçüncü siniflərin hərəsində həftədə 10 saat vaxt ayırmışdı. Onun digər fənlərdən fərqli olaraq Azərbaycan dilinin tədrisinə daha çox saat ayırması maarifpərvər ziyalının ana dilinin tədrisinə xüsusi əhəmiyyət verməsindən irəli gəlirdi.

Məhəmməd Tağı Sidqinin Təbriz, Urmiyə, İstanbul, Kərkük, Qahirə, Misir, Tiflis, Krım və bir çox başqa məmləkətdə yaşayan dostlarına yazdığı məktublar və aldığı cavablar onu göstərir ki, o dövründəki ədəbi-bədii dilin sadələşdirilməsinin zəruriliyini çox aydın dərk etmişdi. O, ədəbi dilin saflaşdırılması yolunda mübarizə aparan bir çox Azərbaycan ziyalılarının ön cərgəsində olmuşdur. Araşdırmalar göstərir ki, Məhəmməd Tağı Sidqi öz dövründəki mətbuata xüsusi fikir vermiş, ana dilini necə də eybəcər hala düşdüyünə heyifislənmiş, hətta bəzi yazılarda ana dilindən bir əsər belə olmadığını dönə-dönə qeyd etmişdir. O, yazırdı: “Bu dil bir libasa bənzəyir ki, guya pambığı Türkmənistanda əkilib, ipi İranda əyrilib, rəngi Ərəbistanda verilib, özü Azərbaycanda toxunub, Rusiyada isə gömrüklənibdir”. Sidqinin bu fikrindən aydın olur ki, hər kim olursa-olsun öz dilində danışmağı bacarmalı və onu qiymətləndirməlidir. Onun fikrincə uşaqları savadlandırmaq, fənlərin tədrisi pro-

sesində onlara yaş və bilik səviyyələrinə uyğun müvafiq məlumatlar vermək üçün milli məktəblərdə ana dilinin tədrisi ön plana keçirilməli və tədris ana dilində aparmalıdı. Məhəmməd Tağı Sidqi köhnə dini məktəblərdə ana dilinin tədrisinə heç fikir verilmədiyini, ana dilinin əvəzinə balaca uşaqlara fars və ərəb dillərinin öyrədilməsini ürək ağrısı ilə qeyd edirdi: "Biz, Qafqazda sakin olan türklər, o qədər aləmi-ədəbiyyatdan kənara düşmüşük ki, hənuz məlum ola bilmir ki, bizlər türk ola-ola irsal mərsulumuzun farsi olmağı nə səbəbdəndir?".

Sidqi ana dilimizn saflığı və təmizliyi uğrunda daim mübarizə aparmış, çalışmış bu barədə çox yazmış və çıxışlar etmişdir. M.T. Sidqiqnin ailə arxivimizdə saxladığımız əlyazmalardan biri 1896-cı ilin 14 mayında Naxçıvan şəhərində rus imperatoru II Nikolay Aleksandroviçin tac qoyma gününün qeyd edilməsi mərasimində Sidqinin etdiyi çıxışının əlyazmasıdır. Bu əlyazmanı "Dilimiz və məktəbimiz" adlandıra bilərik ki, bu barədə ayrıca kitab nəşr etdirmişik. Əlyazmanın mətni Naxçıvan qazisi mötəbər Axund Hacı Molla Məhəmməd Nəxçivaniyə yadigar olaraq təqdim edilmişdir. Sidqi bu çıxışında millət balalarının ana dilində təhsil almasından, dilimizin saflaşdırılması və inkişaf etdirilməsindən, maarif və mədəniyyət işlərindən danışmış, Naxçıvan şəhərində, onun qəsəbə və kəndlərində yeni üsulda, ana dilində milli məktəblər açmaq istəyindən söz açmışdır. M.T.Sidqi çıxışında dilimizin çox pozulduğundan insanlarımızın mənasını bilmədən ərəb, fars, rus sözlərinin yerli- yersiz işlətmələrindən təəssüflə danışmış və belə demişdir: "...Qədim tarixlərdə ərəblər geri qalmış mədəniyyətdən uzaq bir millət olmuşlar. Fəqət islamiyyət onları ayıltmış, onlara maarif-mədəniyyət yolunu göstərmiş və yüksək əxlaqi keyfiyyətlərlə təmin etmişdir…Milliyyətindən asılı olmayaraq ərəblər öz dillərini, yazılarını, adət və ənənələrini başqa xalqlara qəbul etdirmişlər. O cümlədən Qafqazda (Azərbaycanda), Türküstanda ərəb dili hakim dil olmuşdur. Hətta "Müəllimi – sani" ismi ilə məşhur olan Əbu Nəsr Farabi əl-Türki və birinci hükəmadan

sayılan və şeyxi rəis ləqəbi ilə müləqqəb olan Əbu Əli İbn Sina kimi şəxslər türk oğlu türk ola-ola əsərlərini ərəb dilində yazmışlar...". M.T.Sidqi çıxışında insanlarımızın, hətta ziyalılarımızın işlətdikləri ərəb, fars, rus sözlərinin yanlış işlətdiklərindən və yerində işlətmədiklərindən qayğılanır və belə deyirdi: "Bir əbaya bürünmüş məktəbdar mirzə deyir: “Duz nəməkdanını mənə ver” (“Nəmək” elə duz deməkdir.”Duz duz qabını mənə ver”(?) kimi mənasız ifadə çıxır), yaxud “Darvaza qapısı”nı ört.(“Darvaza” böyük qapı deməkdir, “qapı” kəlməsi təkrarlanaraq səhv ifadə yaratmışdır), yaxud da deyir: “Mənə bir kasa mast qatıq ver” (“Mast” elə qatıq deməkdir), “Heyva behdanəsinin toxumu”nu ək (“Behdanə” elə “heyva toxumu” deməkdir). Sidqi davam edir: “Sivilizasiya görmüş bir “Obrazovannıy” isə belə danışır: “İstansiyada fayton yox idi. Bir troyka tutdum, pramoy vağzala kimi proqonda getdim. Mejduproçim yamşikin də navodkasını verdim, kontordan posılkanı aldım, bir yeşik suxarı, iki koropka konfet, üç düjin spiçka, bir asmışqa çay aldım…Naprasnı yerə sən də skuçno olma…”. Sidqi çıxışında dilimizin belə gülünc vəziyyətə düşməsindən narahat olur və balalarımızın ana dilində təhsil almasından, dilimizin saflaşdırılmasından, maarif və mədəniyyətimizin inkişaf etdirilməsindən danışır.

Sidqinin əlimizdə olan ikinci əlyazması bir şagird dəftərinin iki səhifəsi həcmində olub başdan sonadək qara tuşla öz əli ilə yazdığı gözəl, lirik bir şer parçası- qəzəldir. Bu vərəqədə həmçinin Sidqi farsca bir şer də yazmış və bazarlıq xərcləri ilə bağlı bəzi qeydlər də etmişdir. Vərəqənin arxasında əlifba tariximiz üçün maraqlı qeydlər də vardır. Belə ki, Sidqi qədim şəkli yazının- piktoqrafiq işarələrin, hansı ki, Gəmiqayada onlara təsadüf edilmişdir ki, onların mənasını açıqlamaq təşəbbüsündə olmuş və bir neçə işarənin qarşılığını da vermişdir. Daha sonra ərəb hərflərində “Əbcəd” hesabının və “Sərvi” xəttinin qarşılıq hərflərini vermişdir. Aydınlıq üçün deyək ki, ərəb əlifbasının nəstəliq, şikəstə, kufi və s. xətləri ilə yanaşı “Sərvi” xətti də vardır. Bu əlifba şaquli bir xəttin sağ və sol tərəfində müxtəlif saylı qollar çəkməklə hərflər və ya

saylar göstərilir, sözlər yazılır. Sidqi də bu bədii –dekorativ xətt növünün qarşılıqlarını həmin vərəqədə yazmışdır.

Sidqi müəllim şəxsiyyətinə, müəllim əməyinə yüksək qiymət verirdi. O, deyirdi “Məktəb bir cismə bənzər ki, onun ruhu müəllimdir”. Müəllimlərin dərin biliyə malik olmasını tələb edirdi. O, deyirdi: “Savadsız müəllimdən uşaqların təlim və tərbiyəsini gözləmək- dəmirçidən saatsazlıq tələb etmək kimidir”.

Daha sonra müəllimin dərsi izahı haqqında belə deyirdi: “Müəllimlər dərsdə nəql edəcəkləri mövzuları əvvəlcə öz evlərində oxuyub tərtib etməlidirlər. Sinfə girdikləri zaman hansı mətni, hansı qaydanı əvvəl söyləmək lazım olduğunu düşünməlidir ki, şagirdlərin qarşısında rəzil olmasınlar. Xülasə oxudulacaq dərsi hazırlamadan sinfə girən müəllimlər vəzifələrini ifa etməmiş hesab olunurlar”. Sidqi məsləhət görürdü ki, müəllimlər şərh zamanı gözəl təşbihlər, atalar sözləri, gözəl ifadələr işlətsinlər.

Sidqi bunu da qeyd edirdi ki, özünü müəllim adlandıran şəxsin hər bir hərəkəti, sözü, söhbəti, davranışı elə olmalıdır ki, təkcə uşaqlar deyil, böyüklər də ondan dərs alsın, nümunə götürsünlər.

M.T.Sidqi uşaqlar üçün didaktik mahiyyətli mənzum şer və hekayələr yazmış öz yetişdirmələrinin təlim və tərbiyəsində onlardan istifadə edilmişdir. M.T.Sidqinin pedaqoji fəaliyyəti ilə bilavasitə bağlı olan ədəbi irsi “Məsnəviyyati-mənəviyyə” adlı irihəcmli mənzumədən, “Kəblə Nəsir” adlı mənzum hekayədən, “Heykəliinsanə bir nəzər” ədəbi-fəlsəfı risalədən ibarət olub kitab halında çap edilmişdir Bu kitab 20-dən çox hekayədən, 300-dən çox qəzəl və şerdən ibarətdir.

Sidqi Azərbaycan uşaq nəsrinin ilk yetkin nümunələrini yaratmışdır. “Məktəb hekayələri” kimi tanınan bu əsərlərdə (“Məktəbə davam”, “Gözütox uşağın hekayəti”, “Yalançı uşaq”, “Səxavətli uşaq” və s.) o, özünün maarifçilik ideyalarını, pedaqoji görüşlərini, yüksək mənəvi-əxlaqi keyfiyyətlərini bədii şəkildə təbliğ etmişdir.

Sidqinin “Kəblə Nəsir” adlı uşaqlar üçün yazdığı mənzum hekayə pedaqoji cəhətdən xüsusi əhəmiyyətə malikdir. Bu əsəri uşaq-

ların ana dili dərsi üçün sinifdənxaric oxu materialı adlandırmaq olar. Burada uşaqlara cahilliyin, avamlığın, savadsızlığın nə kimi bəlalara səbəb olduğunu Sidqi bədii dillə, bir qədər də satirik üslubla uşaqlara çatdrmışdır.

Məmməd Tağı Sidqi 1903-cü ilin dekabr ayında vəfat etmiş və Naxçıvan şəhərində dəfn edilmişdir.O vaxt Azərbaycan dilində yeganə mətbuat orqanı olan "Şərqi-Rus" qəzetində Sidqinin vəfatına həsr olunmuş nekroloq və Hüseyn Cavidin, Cəlil Məmmədquluzadənin, M.S.Ordubadinin, Əsgər Hacızadənin və başqalarının məqalələri getmiş, çoxlu sayda şerlər verilmiş şair, ədib və böyük pedaqoq Sidqi hörmətlə yad edilirdi. Şerlərin birisində deyilirdi:

Dünyadan köçüb getdi hörmətli böyük Sidqi!
Min təəssüf ki, bizdən belə şəxsiyyət getdi!
Dağladı ürəkləri o, öz fərağı ilə,
Könlümüz munisindən bizləri məhrum etdi.
Səməndər kimi qeyrət oduna düşüb yandı,
Rus dövlətində o, belə nöqtəyə çatdı.
Yazaraq nəşr etdiyi maarif yayımilə,
Həyat verdi xalqına, qaranlıqdan çıxartdı.

Bəli, Sidqi milləti qaranlıqdan aydınliğa çıxartdı. Millətin inkişafını elmdə, təhsildə gördü, yeni məktəblər açdı, zəmanədə ad qoydu, həmişə hörmətlə yad edildi. Böyük pedaqoq, istedadlı şair, xalq müəllimi M.T.Sidqininn fikirləri öz dövründə olduğu kimi, bu gün də aktual olaraq qalmaqdadır.

## 10.7. RƏŞİD BƏY ƏFƏNDİYEVİN PEDAQOJİ GÖRÜŞLƏRİ

Rəşid Bəy Əfəndiyev (1863-1942) görkəmli maarif xadimi, yazıçı və alim olmuş, Azərbaycan xalqının milli oyanışında mühüm rol oynamışdır.

R.Əfəndiyev 1879-cu ildə Qori Müəllimlər Seminraiyasına daxil olub, 1882-ci ildə bu seminraiyanı bitirmiş və Qəbələ kənd ibtidai məktəbinə təyinat almışdır. O, burada 8 il işləmiş, 1890-cı

ildə Xaçmaz kənd məktəbində 2 il çalışmış, sonra Tiflisə getmiş və 1900-cü ildə Tiflis Aleksandriski Müəllimlər İnstitutunu bitirmişdir. Bundan sonra R.Əfəndiyev Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinə ana dili və şəriət fənnləri müəllimi vəzifəsinə təyin olunmuşdur. 1904-cü ildə Qori seminariyasının pedaqoji şurasının qərarı ilə ona hami-tərbiyəçi adı verilmişdir. 1906-cı ildə seminariyada assistentlik dərəcəsi almışdir. 1910-cu ildə seminariyanın pedaqoji şurasının katibi vəzifəsinə seçilmişdir. 1916-cı ilədək seminariyanın Azərbaycan şöbəsində pedaqoji təcrübəyə rəhbərlik etmişdir. Böyük pedaqoq Əfəndiyev elmi-pedaqoji, ədəbi və tərcüməçilik fəaliyyətinə hələ Qori Seminariyasında oxuyarkən başlamışdı. O, XX əsrin əvvəllərindən yaradıcılıq imkanlarını genişləndirmiş, “Qan ocağı” (1904), “Rüstəm və Söhrab” (Firdovsidən tərcümə, 1906), “Saqqalın kəraməti” (1909), “Müxtəsər şəriət” (1910), “Arvad məsələsi” (1912), “Qonşu qonşu olsa, kor qız ərə gedər” (1913), “Pul dəlisi” (1918), “Bir saç telinin qiyməti”, “Tiflis səfərləri”, “Qızılgül” və s. müxtəlif janrlarda yazdığı əsərlərini kitab halında nəşr etdirmişdir.

R.Əfəndiyev 1916-cı ildə İrəvan quberniyası xalq məktəblərinin inspektoru vəzifəsinə təyin olunmuşdur. Pedaqoq burada təlim-tərbiyə işlərinin səmərəli təşkilinə böyük əmək sərf etmişdir. O, İrəvan, Naxçıvan və Ordubad şəhərlərində müəllimlər üçün qısamüddətli kurslar yaratmışdır. 1917-ci ilin əvvəlində çar hökuməti yıxıldıqdan sonra quberniyada məktəblərin milliləşdirilməsi işinə rəhbərlik etmişdir. R.Əfəndiyev 1918-ci ildə Bakıya gələrək, Azərbaycan Xalq Cümhuriyyətinin xalq maarifi sahəsində tədbirlərin həyata keçirilməsinə yaxından köməklik göstərmişdir. Maarif Nazirinin əmri ilə Bakı kişi seminariyasının direktoru təyin olunmuş, əlifba komissiyasının tərkibində latın qrafikasına keçmək üçün təqdim olunmuş layihələrin müzakirəsində fəal iştirak etmişdir. R.Əfəndiyevin A.O.Çernyayevskinin məsləhəti ilə qələmə aldığı “Qan ocağı” komediyası onun ilk uğurlu səhnə əsəridir. O, öz dövrü, yaşadığı mühit üçün çox səciyyəvi və mənalı olan bir ailəni

səhnəyə gətirir, həmin ailənin timsalında müsəlman ailələrinin dərdlərini təsvir edir. “Qan ocağı” adlanan ailədə böyük-kiçik yox-dur, ərlə arvadın söhbəti bir-biri ilə tutmur, nadanlıq və cəhalət hökm sürür. Bu əsərdə başlıca məsələ ailə tərbiyəsidir. Buna görə də R.Əfəndiyev qan ocaqlarının yox edilməsini, tərbiyə ocaqlarının yenidən qurulmasında görür, ailə tərbiyəsinin düzgün təşkil edilmə-sini, yəni, məktəblər açılmasını, valideynlərin maarifləndirilməsini zəruri sayırdı.

R.Əfəndiyevin yaradıcılığında “Qonşu qonşu olsa, kor qız ərə gedər” pyesi də ailə-məişət məsələlərinə həsr olunmuşdur. Əsərdə keçmiş evlənmə adətlərində olan nöqsanlar, kişilərin qadınları gör-mədən evlənmələrinin pis nəticələri tənqid edilir. Komedyanın mövzusu Ü.Hacıbəyovun “O olmasın, bu olsun” musiqili kome-diyasının mövzusuna çox yaxındır. Bu əsərin mövzusu nişanlını aldadaraq gözəl qızı göstərib, çirkini ərə verməkdən ibarətdir.

Bu dövrdə qadın hüquqsuzluğunu həm qadınlar, həm də kişi-lər üçün törətdiyi bədbəxtliylərin əyani şəkildə göstərilməsi və tən-qid olunması böyük əhəmiyyətə malik idi.Yazıçı bu əsərdə Sona xanım sürətini yaratmaqla hüquqsuzluğun qurbanı kimi ata evində qarıyıb qalmış qızların faciəsini, Qacay bəy sürəti ilə qadın hüquq-suzluğunu qanuni sayan, qızı görüb sevməyi qanunsuzluq hesab edərək görmədiyi qızla evlənən cahil və nadan kişilərin düşdüyü gülünc və acınacaqlı vəziyyəti göstərməyə və ibrət dərsi verməyə çalışmışdır.

Rəşid bəy Əfəndiyev bütün əsərlərində ailə-məişət məsələləri üzərində möhkəm dayanır, personajların vasitəsilə xalqın irəli getməsi üçün birinci şərti sağlam və bünövrəsi möhkəm olan nəsil yaratmaqda, valideyn, övlad münasibətlərinin düzgün qurulmasında görür. R.Əfəndiyevinin pedaqoji fəaliyyətində diqqəti cəlb edən cəhətlərindən biri onun ana dilində dərsliklər tərtib etməsidir. Rəşid bəy hələ seminariyada oxuyarkən, K.D.Uşinskinin pedaqoji görüş-lərinin təsiri altında yeni Azərbaycan məktəbi yaratmağı qarşısına məqsəd qoymuşdur. Buna görə də o, seminariyada oxuyarkən, gələ-

cək Azərbaycan məktəbləri üçün ana dilində mükəmməl bir vəsait yaratmaq haqqında düşünürdü. O, bu məsələyə münasibət bildirərək yazırdı: “Pedaqojini öyrəndikdən sonra, mən anladım ki, köhnə məktəb dağıdılmalıdır. Bu isə yalnız Uşinskinin yeni üsulla olan dərs kitabı kimi, öz məktəbimiz üçün ana dilində dərs kitabı tərtib etməklə mümkündür. Məhz bu məqsədlə də “Uşaq bağçası” kitabını qiymətli bir zərə bənzətmək üçün pedaqoq Uşinskinin məşhur və məhbub “Əlifba” kitabçasını özümə rəhbər qəbul etdim”.

R.Əfəndiyev savad təlimini altı ay müddətində deyil, bir ayda başa çatdırmaq işinə kömək üçün özünün beş illik pedaqoji təcrübəsinə və böyük rus pedaqoqu K.D. Uşinskinin pedaqoji görüşlərinə əsaslanaraq o 1887-ci ildə “Uşaq bağçası” adlı əlifba dərsliyini yazmışdır ki, bu bu əlifba kitabı ilk dəfə 1898-ci ildə İstanbulda çap edilmişdir. R.Əfəndiyev belə hesab edirdi ki, Azərbaycan xalqının dili öyrənməsindəki çətinlikləri ərəb və fars dilləri törədir. Buna görə də o deyirdi ki, “... məktəblərimizdə Azərbaycan balalarına ərəb-fars dili oxutmaq adəti çox böyük bəlalar əmələ gətiribdir. Əcnəbi dillər bizi tamam batırdı. Elmdən, bilikdən mədəniyyətdən geri saldı. Ərəb və fars dili hər şeyimizi, dərrakəmizi elə xarab edibdir ki, oxuduğumuz elmi biliklər hafizəmizdə qalmır”. Əlbəttə, böyük pedaqoq, ərəb və fars dillərində olan milli-mənəvi sərvətlərdən isti-fadə üçün heç də bu dilin öyrənilməsinin əleyhinə çıxmırdı. O, yalnız çətin, anlaşılmaz, mexaniki əzbərləmə mahiyyətli mücərrəd ərəb və fars sözlərinin mənasını başa düşülmədən işlədilməsi əleyhinə idi. R.Əfəndiyev yazırdı ki, “... bir millətin elmi və mədəni inkişafı üçün onun ana dilinin rolunu dərk etməsi və dərk etdiklərini xalqa izah etməyi hər kəs özü üçün şərəfli vəzifə bilməlidir”. R.Əfəndiyevin “Uşaq bağçası” adlı əlifba dərsliyi  Azərbaycan dilində təhsil verən bütün dövlət və xüsusi tədris məktəblərində istifadə etmək üçün Qafqaz Təhsil Dairəsi tərəfindən bəyənilmişdir. Kitabın üzərində yazılmışdlr: ”Savadsız adam bu kitabla bir ayda oxuyar və yazar. Cəmi 72 səhifədən ibarət olan bu dərslikdə 24 dərs verilmişdir. Bu kitab təkcə Qafqaz

məktəblərində deyil, Şimali Qafqaz və Orta Asiyadakı müsəlman məktəblərinin inkişafında da mühüm rol oynamışdır. “Uşaq bağçası” kitabına daxil edilmiş şer parçalarının bir hissəsi müəllif tərəfindən rus şairlərinin əsərlərindən tərcümə edilmişdir.

Uşinskinin uşaqlar üçün yazdığı əlifba və oxu kitablarında uşaq zəkasını və şüurunu yaxşı inkişaf etdirmək üçün təbii, coğrafi və tarixi məlumat verməyə xüsusi fikir verdiyi kimi, Rəşid bəy də “Uşaq bağçası”nda oxu materiallarında təbii, coğrafi və tarixi məlumatlar vermişdir.

Uşinskiyə görə, tərbiyə yalnız insanın ağlını inkişaf etdirmək deyil, həm də əməyə ciddi ehtiras, sevgi və vərdiş oyatmalıdır. Uşağı fəal işə, əməyə və şəxsi yaradıcılıq fəaliyyətinə alışdırmaq məktəbin ən əsas vəzifəsi olmalıdır. Buna görə də Rəşid bəy kitaba daxil etdiyi oxu materiallarında maldarlıq, quşçuluq, bağçılıq, bostançılıq və ipəkçilik kimi kənd təsərrüfatı sahələri, dərzilik, dəmirçilik və s. kimi kustar sənaye sahələri haqqında sadə məlumat verir, şagirdlərə sənət öyrənməyi, ev heyvanları və ev quşları bəsləməyi, meyvə ağacları yetişdirməyi tövsiyə edirdi.

R.Əfəndiyevin ikinci məşhur dərsliyi “Bəsirət-ül-ətfal” (“Uşaqların gözüaçıqlığı”) kitabıdır ki, 1901-ci ildə Bakıda 2 min tirajla nəşr edilmişdir. Müəllif bu kitabında savad təlimi, oxu texnikasını inkişaf etdirmək məsələləri ilə yanaşı, həm də uşaqların tərbiyə edilməsinə, əxlaqına təsir etməyə xüsusi fikir vermişdir. Bu cəhətə böyük əhəmiyyət verən müəllif əsərin titul səhifəsində yazmışdır: “Müsəlman millətinin tərbiyeyi-əxlaqına və məlumati-nafiəsinə xidmət edici tazə bir kitabdır”. “Bəsirət-ül-Ətfal” kitabı 1901-ci ildən 1902-ci ilə kimi 42000 tirajla 4 dəfə çap olunmuşdur. Kitabı hər dəfə çapa imzalayan zaman müəllif əlavə materiallarla onu zənginləşdirmiş və bir daha təkmilləşdirmişdir. Ona görə də kitabın 1901-ci ildə birinci çapı 128 səhifə olduğu halda, axırıncı çapı 226 səhifəyə qaldırılmışdı.

R.Əfəndiyevin “Bəsirət-ül-Ətfal” kitabında kənd təsərrüfatı, təbiət və coğrafiyaya aid bir sıra məlumatlar da verilmişdir. Kitabın

sonunda Azərbaycan dilinin imla qaydaları, ədəbiyyat tarixi və ədəbiyyatşünaslığa aid bir sıra məlumatlar da vardır. Kitabın son hissəsindəki məqalələr içərisində Rəşid bəyin ərəb əlifbasının Azərbaycan dilinin imla qaydalarına uyğun gəlməməsi haqqında tənqidi qeydləri də nəzəri cəlb edir. Bəsirət-ül-Ətfal əsərinin ən yaxşı cəhətlərindən biri də uşaqlara məktub, ərizə və başqa əməli yazılar öyrətmək üçün nümunələr verilməsidir.

Bu kitabda müəllif Azərbaycan klassik şairlərindən M. Füzuli və S.Ə.Şirvanidən bir sıra parçalar verməklə yanaşı, böyük rus şairlərindən İ.A.Krılovun "Ayna və meymun", "Kəndli və ilan", "Qurd və pişik", A.S.Puşkinin "Kaftar", "Torçu və balıq", "Hal anası", "Bağçasaray fontanı" və s. hekayə və şerlərini tərcümə edərək kitaba daxil etmişdir.

Rəşid bəy Əfəndiyevin göstərilən dərslikləri uzun müddət Azərbaycan məktəblərində geniş miqyasda istifadə edilmiş və Azərbaycan gənclərinin bütöv bir nəsli bu kitablardan təlim və tərbiyə almışdır.

Rəşid bəy əyanilik sistematiklik,ardıcıllıq və asandan çətinə keçməyi təlimin əsas amili hesab etmişdir. Biliklərin möhkəmləməsini təlim prinsipi hesab edən Rəşidbəy biliyi təkrar və çalışmalar vasitəsilə möhkəmləndirməyin zəruri olduğunu qeyd etmişdir. O, eyni zamanda təlimdə şüurluluq və müvafiqlik prinsiplərinə də böyük əhəmiyyət vermişdir.

O, müəllimlərə məsləhət görürdü ki, təlimdə müvəffəqiyyət qazanmaq üçün məlumdan məchula, yaxından uzağa, konkretdən mücərrədə, sadədən mürəkkəb doğru getsinlər.

Rəşid bəy dərs kitablarına daxil etdiyi bədii-pedaqoji parçalarda qadın maarifi məsələsinin təbliğinə daha çox fikir vermişdir. O bu əsərlərində xalqa anladırdı ki, kişinin möhkəm, səmimi ailə qura bilməsi, uşaqların tərbiyəli və elmli olması, qadınların ailə üzvləri ilə səmimi və mədəni rəftar etməsi, gələcək nəslə düzgün tərbiyə verə bilməsi üçün qızların oxuyub savadlanmasının böyük əhəmiyyəti vardır.

Ədib elmlə tərbiyəni vəhdət halında qiyməntləndirdiyi üçün bir sıra nağıl və hekayələrin də uşaqları elm oxumağa dəvət etməklə bərabər, onlara çox qiymətli tərbiyəvi nəsihətlər də edirdi. O, "Oğul məhəbbəti" və "Yol azmış uşaq" rəvayətlərində anaları uşaqların nəzərində daha da yüksəklərə qaldırır, ananın hər kəsdən və hər şeydən əziz olduğunu, çox böyük ustalıqla onlara anlatmışdır.

Rəşid bəy bir çox rəvayət, nağıl və hekayələrində uşaqları öz valideyinlərinə hörmət etdikləri kimi, yaşca böyüklərə, xüsusilə qocalara hörmət etməyə çağırmışdır.

Müəllif övladların ata-anaya hörmət etmələrinin gələcək nəslin tərbiyəsində böyük rol oynadığını əks etdirmək üçün Tolstoydan iqtibas etdiyi "Qoca baba və nəvəsi" nağılını dərs kitabına salmaqla ata-anasına hörmət etməyən övladın gələcəkdə öz uşaq-larından hörmət görməyəcəyini gəncliyə anlatmağa çalışmışdır.

Ədib nağıl və hekayələrində oğruları ən bədbəxt insan simasını itirmiş bir adam kimi təsvir edərək oğruluğun üstünün mütləq açılacağını, oğruların bütün insanların, hətta ailə üzvlərinin nifrətini qazanmağı göstərməklə gənclərdə onlara nifrət hissini qüvvətləndirirdi.

Rəşid bəy bir sıra əsərlərində gənclərə tövsiyə edir ki, gözəl əxlaqi sifətlərə malik olmağa yaxşı yoldaşın, ağıllı dostun böyük rolu vardır. Buna görə də dost və yoldaş seçdikdə ağıllı, bilikli, etibarlı, uzaqgörən, xeyirxah, təmiz və namuslu adamları seçmək lazımdır. Çünki yaxşı adamla dostluq edən həmişə yüksələr və hörmət qazanar, pis adamla ünsiyyət edənlər isə öz gözəl xüsusiyyətlərini də itirib hörmətdən düşərlər.

Xalqın maariflənməsi və mədəni tərəqqisində müəllimlərin roluna böyük əhəmiyyət verən Rəşid bəy onların pedaqoji ustalığını yüksəltməyi və yeni müəllim kadrları hazırlamağı ən vacib məsələlərdən hesab edirdi. Buna görə də o, müəllimlər üçün metodik məktub və məqalələr, məktəblər üçün dərs proqramları yazmaqla kifayətlənməyərək yay tətiləri dövründə Azərbaycan şəhərlərində, hətta Şimali Qafqazın Teberte şəhərində də qısa müddətli müəllimlər

kursu təşkil edərək onlara yeni tədris usullarını öyrədir, pedaqoji mühazirələr oxunur və müəllimin qarşısında duran vəzifələri izah edirdi.

R.Əfəndiyev 1916-cı ildə Qafqaz Müəllimlər Seminariyasından azad olunaraq İrəvan Quberniyasının Müsəlman Məktəblərinin müfəttişi vəzifəsinə təyin olunmuşdur. O, İrəvanda müfəttişliklə bərabər, məktəbləri savadlı müəllim kadrları ilə təmin etmək üçün təşkil etdiyi 3 aylıq müəllimlər kursunda dərs demişdir.

Qafqaz maarif dairəsi onu kurs açıb müəlimlər hazırlamaq üçün 1917-ci ildə Naxçıvana göndərmişdir. O, bu vəzifənin də öhdəsindən ləyaqətlə gəlmiş və bu kurslarda özü də dərs demişdir. Rəşid bəy Naxçıvanda işlədiyi dövrdə pedaqoji kadrların hazırlanmasında və təkmilləşdirilməsində geniş fəaliyyət göstərmişdir.

1918-ci ildə Bakıya gəlmiş və Bakıda seminariya təşkil etmiş və özü oranın direktoru olmuşdur.

1920-ci ildə Şəkidə açılmış darülmüəllimatın rektoru təyin olunmuş və burada pedaqogika və psixologiyadan dərs demişdir.

1926-cı ildə Azərbaycan Arxeoloji cəmiyyətinin Şəki şöbəsinin sədri seçilmişdir. Həmin il Birinci Türkoloji Qurultayda iştirak etmiş və “Qızıl qələmlər” cəmiyyətinin üzvlüyünə qəbul edilmişdir.

R.Əfəndiyev qızlar üçün məktəblərin açılmasını, ailədə əsas tərbiyəçi olan anaların elmli, mədəni, dünya işlərindən xəbərdar olmalarını zəruri sayırdı. İnqilabdan əvvəlki dövrdə məktəbdə oxuyan azərbaycanlı qızları barmaqla göstərmək olardı. Azərbaycanlı qızlar o zaman çadra altında saxlanır və onların məktəbdə oxumağı dini qaydalara görə qadağan edilirdi. Qız məktəblərində yalnız tək-tək azərbaycanlı qızlar, həm də varlıların qızları oxuyurdu. Bu məktəblərin dərs planı və proqramları “kübar ailələrdən olan” qızları tərbiyələndirmək məqsədinə uyğun olaraq tərtib edilmişdi. Bu nöqteyi nəzərdən R.Əfəndiyev Azərbaycanda pedaqoji fikrin inkişafı tarixində görkəmli yer tutur.

O, qızlara məktəblərdə təhsil və tərbiyə verməyi, qadın təhsili məsələsini mühüm bir sosial problem kimi həll etməyi xalqın

mədəni və iqtisadi həyatı üçün mühüm və zəruri problem hesab edirdi. Özünün qadın təhsili haqqındakı fikirlərini həmkarları ilə daim bölüşürdü. O, yazırdı: “Təcrübə ilə isbata yetirilmişdir ki, hər bir millətin və hər bir taifənin səadəti və xoşbəxtliyi arvadlarının dərəceyi-elmiyyətindən asılıdır. Yeni növ bəşəri həyatı ər ilə arvadın bir bədən hesabına yaşayış qüvvəyi-mənəviyyatlarından asılıdır”.

1913-cü ilin iyun ayının 19-da Naxçıvan teatrının səhnəsində Rəşid bəy Əfəndiyevin “Qonşu qonşu olsa, kor qız ərə gedər” komediyası Bəhruz Kəngərlinin bədii tərtibatında tamaşaya qoyulmuşdur. Bu tamaşa haqqında Əlirza Rasizadə (H.Cavidin qardaşı) “İqbal” qəzetində “Naxçıvan məişətindən” adlı məqaləsində yazır: “İyul ayının 19-da Xan Naxçıvanskinin (Böyükxan Naxçıvanski ) nəzarəti altında Rəşid bəy Əfəndiyevin "Qonşu-qonşu olsa kor qız ərə gedər” komediyası oynanıldı. Teatrda tamaşaçı əlindən tərpənmək olmurdu. Rollarda: Xoca Kəsbər-Ələkbər Namazov, Qaçay bəy-Rzaqulu Təhmasibbəyov (R.Təhmasib), Mələk xala-Qurbanəli Abbasov, Çiçi xanım-Süleyman Süleymanov idilər. Tamaşaya H.Cavid və müəllimlərdən Cəmil Mirzəyev baxmış və çox bəyənmişdir. Əli Səbri Qasımov qonaqlara yer göstərib, biletlərə baxırdı...”.

1917-ci ildə yenidən Naxçıvana gələn Zülfüqar Hacıbəyov burada bir ilə yaxın yaşayır. O, Naxçıvanda olduğu müddətdə Üzeyir Hacıbəyovun “Məşədi İbad”, “Ər və arvad” və özünün “50 yaşında cavan” əsərlərini Bəhruz Kəngərlinin səhnə tərtibatında tamaşaya qoyur.

1917-ci ilin axırlarında Rəşid bəy Əfəndiyev Naxçıvanda qızlar məktəbinin müdiri olarkən, həmin məktəbin müəlliməsi Nazlı xanım Nəcəfovanın, Rza Təhmasibin və Bəhruz Kəngərlinin köməkliyi ilə məktəbli qızlardan ibarət dram dərnəyi təşkil edir. Bu dərnəyin yaradılması o zaman Naxçıvanda görünməmiş tarixi hadisə idi. Bütün aktyorlar və mütərəqqi fikirli ziyalılar dram dərnəyinə kömək edirdilər. Dram dərnəyində Ü.Hacıbəyovun “Arşın

mal alan” musiqili komediyası Bəhruz Kəngərlinin tərtibatında tamaşaya hazırlanır. Məşqlər həm qızlar məktəbində, həm də Nazlı xanımın mənzilində gedirdi. 1917-ci il noyabr ayının 12-də yalnız qadınlar üçün Ü.Hacıbəyovun “Arşın mal alan” musiqili komediyası tamaşaya qoyulur. N.Nəcəfova və S.Sultanova qeyd etmişdilər ki, tamaşa zamanı zal tamaşaçı qadınlarla dolu idi. Tamaşada iştirak edən həvəskarlar öz rollarını yaxşı oynayırdılar. Rolları aşağıdakı qadınlar və qızlar - Sultan bəy-Süsən Sultanova, Cahan xala-Gövhər Kəngərli, Süleyman-Asya Məmmədəliyeva, Vəli-Xanım Vəzirova, Gülçöhrə-Dilbər Sultanova, Telli-Fatma Şeyxova ifa etmişdilər.

Xalq maarifinin tərəqqisi uğrunda mübarizə aparan R.Əfəndiyev Azərbaycanın əhalisi arasında maarifin, elmin yayılmasını, oğlanlarla qızların bir yerdə oxuması sahəsində unudulmaz xidmətlər göstərmişdir.

## 10.8. SƏFƏRƏLİ BƏY VƏLİBƏYOVUN PEDAQOJİ DÜŞÜNCƏLƏRİ VƏ PEDAQOJİ FƏALİYYƏTİ

**Səfərəli bəy Vəlibəyov (1861-1902**) XIX əsr Azərbaycan pedaqoji fikir tarixinin görkəmli simalarından biridir. O, Qafqaz (Qori) müəllimlər seminariyasını bitirən ilk üç azərbaycanlıdan biri olmuş, ömrünün on doqquz ilini pedaqoji işə sərf etmişdir. Bu müddətdə o, onlarla iste’dadlı gənc yetirmişdir ki, bu gənclər elm, maarif, ədəbiyyat və incəsənətin müxtəlif sahələrində, habelə ictimai-siyasi işlərdə fəal çalışmış, vətənə və xalqa namusla xidmət göstərmişlər. C.Məmmədquluzadə, N.Nərimanov, S.S. Axundov və bir çox başqaları ibtidai təhsillərini S.Vəlibəyovdan almış, tələbkar və qayğıkeş müəllimlərini həmişə minnətdarlıqla yad etmişlər. Onu da qeyd edək ki, S.Vəlibəyov böyük ədib və müəllim S.S. Axundovun doğma dayısıdır.

S.Vəlibəyov 1861-ci ildə Şuşa şəhərində anadan olmuşdur.

Əvvəllər mollaxanada oxumuş, ərəb və fars dillərini mükəmməl öyrənmiş, 1875-ci ildə Şuşa şəhər məktəbinə daxil olub, 1879-cu ildə həmin məktəbi bitirmişdir. Elə bu ildə Qafqaz (Qori) Müəllimlər Seminariyasının nəzdində açılmış Azərbaycan şö'bəsində tələbə toplamaq məqsədilə Şuşaya gələn A.O. Çernyayevski gənc Səfərəli ilə söhbət aparmış, zirək və hazırlıqlı olduğunu görüb, onu seminariyanın 2-ci sinfinə qəbul etmişdir.

Seminariya həyatı, buradakı təlim-tərbiyə sistemi başqa seminaristlər kimi S.Vəlibəyovun da mənəvi inkişafına müsbət təsir göstərirdi. Gələcək müəllim təhsilin ilk günlərindən başlayaraq özünü qabil və işgüzar bir gənc kimi göstərir, tədris fənlərinə dərindən yiyələnir, dünya ədəbiyyatı nümunələrini sevə-sevə mütaliə edir, pedaqogika elmi haqqında mükəmməl bilik alır.

Qori Müəllimlər Seminariyası nəzdində bir ibtidai məktəb açılmışdı ki, bu məktəbdə bir tərəfdən şagirdlərə sövti üsulla Azərbaycan və rus dillərində dərs deyilir və onlar əsas şöbəyə hazırlanırdı, digər tərəfdən də seminariyanın siniflərində oxuyan tələbələr üçün təcrübə dərsləri keçirilirdi. Müəllim olmadığına görə bu məktəbi idarə etməyi də əvvəllər öz üzərinə götürən Çernyayevski sonralar bu vəzifəni tutmağa Səfərəli bəy Vəlibəyovu hazırlamışdı.

1881-ci ildə seminariyanı bitirən S.Vəlibəyov burada vəzifəsində saxlanılır. 1896-cı ilə qədər bu məktəbdə fəaliyyət göstərir. Ibtidai məktəbdə işlədiyi zaman bir tərəfdən burada təhsil alan uşaqları əsas şöbəyə hazırlayır, digər tərəfdən də əsas şöbənin tələbələrinin bu məktəbdə keçdikləri pedaqoci praktikaya rəhbərlik edirdi. Səfərəli bəy Vəlibəyov tələbələrin pedaqoji praktikasına çox ciddi yanaşmış və dönə-dönə göstərmişdir ki, bu, gələcək müəllimlərin hazırlığında əsas məsələlərdən biri olmalıdır.

Səfərəli bəy Vəlibəyov ancaq bu məktəbdəki fəaliyyəti ilə kifayətlənməmişdir. O, ictimai və pedaqoji fəaliyyətini yay tətili zamanı da davam etdirmişdir.

1883-cü ildə yay tətili zamanı Şuşada istirahət edən S.Vəli-

bəyov burada bir məktəb açaraq uşaqlara savad öyrədirdi. Onun məktəbində müxtəlif təbəqələrdən olan 25 şagird oxuyurdu. Tədris səs üsulu ilə aparılırdı. O, eyni zamanda yerli məktəbdarlara da səs üsulunun üstünlüyünü izah edir, bu üsul ilə dərs deməyin əhəmiyyətini əyani olaraq göstərirdi. Bu vacib işinə görə o, Qafqaz Təhsil Dairəsi popeçiteli tərəfindən mükafatlandırılmışdır.

Aparılmış tədqiqatlar göstərir ki, S.Vəlibəyov seminariyada ancaq pedaqoji işlə məşğul olmamışdır. O, həm də seminariya daxilində gedən məfkurə mübarizəsində daim fəal iştirak etmişdir.

Məlumdur ki, XIX əsrin 90-cı illərində Qafqaz təhsil orqanlarının bəzi mürtəce başçıları Azərbaycan və gürcü dillərini seminariyanın tədris proqramından çıxarmağa cəhd edirdilər. Buna qarşı çıxan A.O. Çernyayevski, Ə.Axundzadə və N.Lomouri ilə bərabər S.Vəlibəyov da böyük iş görmüşdür. O, bu mürtəce siyasətə qarşı əks mövqe tutmuşdur. Qafqaz Müəllimlər Seminariyasından azad edilməsinin bir səbəbi də məhz bu məsələdə prinsipial mövqe tutması olmuşdur.

S.Vəlibəyovun mühüm xidmətlərindən biri də ana dilində dərslik tərtib etməsidir. Onun A.O. Çernyayevski ilə birlikdə 1888-ci ildə nəşr etdirdiyi "Vətən dili" (II hissə) uzun müddət məktəblərdə istifadə edilmişdir.

S.Vəlibəyov 1888-ci ildə Tiflisdə "Qüdrəti-xuda" adlı kitabını nəşr etdirir. Cəmi 44 səhifədən və 20 qiraət materialından ibarət olan bu kitab sinifdənxaric oxu üçün nəzərdə tutulmuşdur. Burada təbiət, cəmiyyət haqqında səthi anlayış verilir, uşaqlara ağıllı məsləhətlər aşılanırdı.

Səfərəli bəy Azərbaycan dilində Qamus (Ensiklopediya) yaratmağa da ilk təşəbbüs göstərmişdir. "Xəzineyi-əxbar" ("Xəbərlər xəzinəsi") adlandırdığı bu Qamusun I və II hissələrini o, 1891-ci ildə Tiflisdə çap etdirmişdir. Bu, 240 səhifədən ibarət ensiklopediya tipli kitab idi. Təkcə "A" hərfini və 300-dən yuxarı istilahı əhatə edən "Xəzineyi-əxbar"da ədəbiyyat, tarix, coğrafiya, etnoqrafiya və s. haqqında qısa məlumatlar verilmiş və ayrı-ayrı görkəmli

şəxslərin tərcümeyi-halı nəql edilmişdir.

Müxtəlif fənlər üzrə dərsliklərin olmadığı bir vaxtda bu kitab qiymətli bir vəsait olmuşdur. S.Vəlibəyov həm də fars məktəbləri üçün sövti üsulla ilk dərslik tərtib edən müəlliflərdən biridir.

1896-cı ildə Bakıda "Üsuli-cədidi-lisani-farsi" adı ilə çap olunan bu dərsliyi o, qabaqcıl rus və Avropa pedaqoci elminin son nailiyyətləri əsasında tərtib etmişdi.

Qafqaz (Qori) Müəllimlər Seminariyasının nəzdindəki ibtidai məktəbdə 15 il dərs deməsi, Çernyayevski ilə birlikdə "Vətən dili" dərsliyinin II hissəsini hazırlaması bu kitabın tərtib olunmasında böyük rol oynamışdır. "Üsuli-cədid" 160 səhifədən ibarət olub bir neçə hissəyə bölünürdü. I hissədə uşaqlara sövti üsulla hərflər öyrədilirdi. Kitabın böyük bir hissəsini təşkil edən II hissədə mənzum və mənsur parçalar verilirdi.

S.Vəlibəyov Azərbaycan məktəb və pedaqoji fikir tarixində özünəməxsus yer tutan məşhur pedaqoq, kamil metodist olmuşdur. XIX əsr Azərbaycan pedaqoji fikir tarixinin görkəmli simalarından biridir. O, Qafqaz (Qori) müəllimlər seminariyasını bitirən ilk üç azərbaycanlıdan biri olmuş, ömrünün on doqquz ilini pedaqoji işə sərf etmişdir. Bu müddətdə o, onlarla istedadlı gənc yetirmişdir ki, bu gənclər elm, maarif, ədəbiyyat və incəsənətin müxtəlif sahələrində, habelə ictimai-siyasi işlərdə fəal çalışmış, vətənə və xalqa namusla xidmət göstərmişlər. C.Məmmədquluzadə, N.Nərimanov, S.S. Axundov və bir çox başqaları ibtidai təhsillərini S.Vəlibəyovdan almış, tələbkar və qayğıkeş müəllimlərini həmişə minnətdarlıqla yad etmişlər.

S.Vəlibəyov Azərbaycan məktəb və pedaqoji fikir tarixində özünəməxsus yer tutan məşhur pedaqoq, kamil metodist olmuşdur.

## 10.9. MİRZƏ ƏLƏKBƏR SABİRİN PEDAQOJİ GÖRÜŞLƏRİ VƏ MÜƏLLİMLİK FƏALİYYƏTİ

**Mirzə Ələkbər Sabir (1862-1911)** satirik şerin böyük ustadı kimi, Azərbaycan pedaqoji fikrinin inkişafı tarixində mühüm rol oynamış, təhsilin, maarif və mədəniyyətin inkişafında xüsusi xidmətlər göstərmişdir. Sabirin adı həmişə maarif, məktəb, gənc nəslin təlim və tərbiyəsi məsələləri ilə sıx bağlı olmuşdur. Sabir böyük mütəfəkkir, nadir satirik şair, böyük müəllim və tanınmış , mahir pedaqoq olmuşdur.

Sabir yalnız öz dövrünün rəzalət və cəhalət dünyasını qamçılamamış, həm də uzaq gələcəyin aktual problemlərini müəyyənləşdirmiş, yeni minilliyə gedən qüsurları bir-bir göstərmiş, onları aradan qaldırmaq üçün yollar aranmasını qarşıya qoymuşdur. Cəsarətlə demək olar ki, ötən əsrin elə mühüm ictimai – siyasi hadisəsi, maarif, məktəb və yaxud məişət məsələsi yoxdur ki, M.Ə. Sabir yaradıcılığında öz satirik qələmi ilə ona toxunmamış olsun.

...Ələkbər hələ 5-6 yaşında olduğu zaman atası ona dərviş paltarı geydirmiş, dini şerlər oxumağı öyrətmiş və uşaq səkkiz yaşına çatdığı zaman onu molla məktəbinə qoymuşdur. Orta əsrlərdən qalmış olan bu məktəblərdə dünyəvi elmlər yox dərəcəsində idi. Burada əsasən Quranı-Kərim, hədislər, dini rəvayətlər, Sədi Şirazinin "Gülüstan" və "Bustan"ı, daha sonralar Cəlaləddin Ruminin "Məsnəvi"si, Füzulinin "Divan"ı, öyrədilirdi. Oxumaq və yazmaqda şagirdlər üçün sərt qaydalar, cəza üsulları qoyulmuşdu. Sabir bu məktəbdə oxuduğu zaman ilk üç misralıq şerini yazmışdır ki, bu şer-dən o dövrün məktəbini, qaydalarını müəyyən qədər bilmək olur:

**Tutdum orucu irəmazanda,**
**Qaldı iki gözüm qazanda ,**
**Mollam da döyür yazı yazanda...**

O dövrün məktəblərində Quran şifahi öyrədilir, əzbərlədilirdi. Yalnız Quranı oxuyub qurtarandan sonra yazıya keçilirdi. Görünür Sabir yazıya keçməkdə bir az tələsmişdir.

Sabir bir-iki il bu məktəbə davam etdikdən sonra atası artıq oğlunun ana dilində və farsca yazıb oxuması ilə kifayətlənərək onu təhsildən ayırmaq və öz dükanında bir köməkçi işlətmək istəyirdi. Lakin Ələkbər məktəbə, ədəbiyyata elə bağlanmışdı ki, onu bu yoldan ayırmaq çox çətin idi.

Sabirin "Oxutmuram əl çəkin!" satirası da elə bir qədər avtobioqrafik mahiyyətdə olub, uşaqlarını məktəbə qoymayanları tənqid edir, uşaqlıqda atası ilə özü arasında baş vermiş hadisə də bədii şəkildə öz əksini tapır.

**"Oğul mənimdir əgər, oxutmuram əl çəkin,**
**Eyləməyin dəngəsər oxutmuram əl çəkin."**

Sabir sonralar təhsilini Şamaxıda Seyid Əzim Şirvaninin ana dilində açdığı "Yeni üsul" ("Üsuli-cədid") (1869) məktəbində - "Məclis məktəbində" davam etdirmişdir ki, onun da Sabirin yetişib formalaşmasında böyük təsiri olmuşdur. O bu məktəbdə S.M.Qənizadə ilə bir sinifdə oxumuşdur. Bu məktəbdə ana dili ilə yanaşı rus dili, ərəb və fars dilləri də öyrədilirdi ki, bu dillər vasitəsilə Şərq, rus və Avropa ədəbiyyatı öyrədilirdi.

Sabirin müəllimləri Seyid Əzim Şirvani, Cəlaləddin Ünsizadə və başqaları olmuşdur. C. Ünsizadə sonralar "Ziya" və "Ziyayi-Qafqasiyyə" qəzetlərinin, "Kəşkül" jurnalının və "Kəşkül" qəzetinin redaktoru olmuşdur. S.Ə.Şirvani hələ o zaman iki dərslik yazmış, 300-dən artıq təzkirə-ədəbiyyatşünaslıq əsəri yaratmışdır. C.Ünsizadənin Sabirə və onun şagird dostlarına dediyi hesab dərslərinin konspektləri əsasında 1884-cü ildə Tiflisdə öz şəxsi mətbəəsində çap etdirdiyi "Hesab" dərsliyi uzun müddət Qafqaznın türkdilli ibtidai məktəblərin əsas dərs vəsaiti olmuşdur. M.Ə.Sabir hələ məktəb illərindən Şərqin Ömər Xəyyam, Nizami Gəncəvi, Sədi, Xacə Hafiz, Bəhaiddin kimi şairlərinin yaradıcılığına yaxşı bələd imiş. Onun farsdilli poeziyadan ilk mükəmməl tərcümələri məhz məktəb illərinə təsadüf edir. M.Ə.Sabirin ən yaxın şagird yoldaşı və dostu S.M.Qənizadənin yazdığına görə, Ələkbər "Məclis məktəbi"ndə uşaqların hamısından istedadlı imiş, hələ şagird olan-

da Nizami Gəncəvinin ”Xəmsə”sini fars dilindən Azərbaycan dilinə tərcümə edirmiş.

Sabir 21-22 yaşlarında Şərqə getmək, dini mərkəzləri ziyarət etmək məqsədilə ilə atasından razılıq almış və çox güman ki, müəllimi Seyid Əzimin Yaxın Şərq ölkələri haqqında maraqlı söhbətləri də onun bu fikrinə təkan vermişdir. Bu ziyarət, oradakı ziyalılarla, elm adamları ilə görüşlər Sabirin dünyagörüşünün formalaşmasına qüvvətli təsir göstərmişdir.

Böyük mütəfəkkirin Pedaqoji fikir və mülahizələrini, məktəbdarlıq fəaliyyətini, təhsilini, maarifin inkişafı sahəsindəki xidmətlərini əsasən dörd qismə bölmək olar: 1) elmə, təhsilə olan nadan münasibəti, cəhaləti tənqid edən satirik şerlər; 2) şairin elm, tərbiyə, təhsil haqqında fikirləri və bu sahədə publisistik yazıları və şerləri; 3) Sabirin məktəbdarlıq və pedaqoji fəaliyyəti; 4) Sabirin uşaqlar üçün yazdığı əsərlər.

M.Ə.Sabiri “İnqilabi satiranın banisi” hesab edirlər. Sabiri kamil insan, hərtərəfli inkişaf etmiş şəxsiyyət yaratmaq uğrunda mübariz vətəndaş şair də hesab etmək olar.Sabir mənəviyyat, əxlaq, insaniyyət inqilabçısı olmuş, o, insanlarda həqiqəti olduğu kimi görmək və dərk etmək səviyyəsi yaramaq arzusunda olan böyük pedaqoq - şair, maarif inqilabçısı olmuşdur. Millətin tərəqqi və inkişafına kömək etməyən, “mənə nə var” deyib maarif və mədəniyyətə əngəl olanlar Sabirin satirik tənqid obyekti idi. Özünün salimliyini dünyada hər şeydən üstün tutanların, elmə maarifə və tərəqqiyə maneçilik törədənlərin, “Mən cahi-cəlal düzəldim, kef çəkim, başqaları da buna baxıb həsəd aparsın”- deyib milləti avamlıq və cəhalət içində görmək istəyənləri qələminin gücü ilə ifşa etmişdir:

Səs salma, yatanlar ayılar, qoy hələ yatsın,
Yatmışları razı deyiləm kimsə oyatsın,
Tək-tək ayılan varsa da , həq dadıma çatsın,
Mən salim olum, cümlə cahan batsa da batsın.
Millət necə tarac olur olsun, nə işim var?!
Düşmənlərə möhtac olur-olsun, nə işim var?!

Şair öz satiralarında, publisist yazılarında “Üsuli–Cədid” məktəblərindən vahiməyə düşən mürtəceləri, “övladi – vətənin” təlim-tərbiyəsi üçün bir qəpik pul verməyən varlıları, “Oğul mənimdir əgər, oxutmuram, əl çəkin!” – deyib, öz uşağını məktəbə qoymayan cahilləri tənqid etmişdir.

Sabir bir sıra əsərlərini, xüsusi ilə satiralarını bilavasitə məktəb, tədris və tərbiyə məsələlərinə həsr etmişdir. O dövrdə xürafatçı ruhanilər yeni üsullu məktəblərin, mütərəqqi məktəblərin əleyhinə təbliğat aparır, onun fəaliyyətinə mane olmağa çalışırdılar. Cəhalətpərəst din dəllalları bağırırdılar:

“Vah!.. bu imiş dərsi- üsuli-cədid?!
Yox!... Yo....x! oğul, məktəbi – üsyandı bu!
Molla deyil bundakı təlim edən!
Əlhəzər et, bir yeni şeytandı bu!
Dur qaçaq, oğlum baş ayaq qandı bu!...

M.Ə. Sabirin dövründə təhsilə, maarif və mədəniyyətə qarşı əks duranlara münasibəti, o dövrün ictimai mühiti haqqında məlumatı Sabirin şerlərindən, mənzum hekayələrindən aydın almaq olur:

-Nə xəbər var Məşədi?
- Sağlığın!... az çox da yenə,
-Qəzet almış Hacı Əhməd də ...
-Pah! Oğlan nəmənə? ...Sən özün gördün alanda?
-Belə nəql eylədilər!...
- Dəxi bir başqa xəbər?
- Hac Cəfərin oğlu Vəli
- Qoyub uşqolaya oğlun...
- O qurumsaq da?
- Bəli!
- ...Öylə isə ona da min kərə lənət deməli!...

Sabir məqalələrində yazırdı ki, başqa millətlərdən geri qalmamaq üçün indi millətə oxumaq lazım, elm, bilik lazımdır, “Əcnəbi seyrə balonlarla çıxır, biz hələ avtomobil minməyirik” – deyərək “Zaman nə istəyir” adlı məqaləsində yazırdı: “Hər bir dərdin, millətin çarəsinə baxmaq zamanı yetişdi. Əcaba, bizim də dərdimizin

çarəsi varmı?...Çarəmiz, ən böyük çarəmiz məktəbdir. Məktəb, yenə məktəb! Hər şəhərdə, bacardıqca hər kənddə ... məktəb açmalı... Övladi-vətəni tərəqqiyə, mədəniyyətə çatdırmalı!”.

Sabir “Uşaqdır” adlı əsərində avam, cahil, savad və mədəniyyətdən geri qalmış feodal-patriarxal ailədə aparılan tərbiyə işlərini, belə ailədə uşağın tərbiyəsi üçün zərərli olan tədbirləri satirik qələmlə tənqid etmişdir. Belə ailələrdə valideynlər uşağın təlim-tərbiyəsinə etinasızlıqla yanaşırlar. Uşaq söysə də, döysə də, sındırsa da olar, nə qədər nalayiq iş tutsa da qoy tutsun, böyüyəndə pis işlərdən əl çəkər. Bu cür ailələrdə “tərbiyə işi” Sabir satirasında belə qələmə alınmışdır:

“Ay başı daşdı kişi, dinmə, uşaqdır uşağım!
Nə ədəb vaxtıdır, qoy söysün, ufaqdır uşağım!
...Bir söyüşdən ötəri etmə əziyyət balama,
Göyərib coşma, utan, qonşuları yığma dama,
Sənə söydükləri getsin başı batmış atama,
Qışqırıb bağrını da yarma, uşaqdır uşağım!
Nə ədəb vaxtıdır, qoy söysün, ufaqdır uşağım!”

Sabir ailədə uşaq tərbiyəsinin mənfi cəhətlərini tənqid etməklə bərabər, eyni zamanda ata-anaların övladlarının məktəbə getmələrini, elm, təhsil və tərbiyəsinə qayğı göstərdiklərini də təqdir etmişdir:

“Mənim bağım-baharım,
Fikri ziyalı oğlum!
Məktəb zamanı gəldi,
Dur, ey vəfalı oğlum!
Ey gözüm, ey canım!
Get məktəbə, cavanım!
...Elm öyrən, imtahan ver,
Öz fəzlini nişan ver,
Qədrin bil elmü fəzlin,
Elmin yolunda can ver!
Ey gözüm, ey canım!
Get məktəbə, cavanım!...”

Gənc nəslin təlimi, tərbiyəsi və təhsili Sabiri ən çox məşğul

edən məsələlərdən biri olmuşdur. Sabir xalq müəllimini maarif cəbhəsinin döyüşçüləri adlandırır, məktəbi isə təribiyə, ədəb, əxlaq mərkəzi adlandırır və belə yazır:

Biz niyə məktəbi, təhsili-ülumu sevirik,
Çünki məktəb adına bizdə xəyanət yoxdur!

Sabir insanın formalaşmasında, bir şəxsiyyət kimi inkişafında tərbiyənin roluna böyük qiymət verir və insanlarda ən yüksək mənəvi keyfiyyətlərin tərbiyə ilə meydana gəldiyini və tərbiyə ilə elmin vəhdətdə olduğunu, elmin insanları, milləti nüfuzlu etdiyini bildirir:

Tərbiyə elmsiz deyil məqbul,
Elm ilə olur hüsuli-izzət,
Elm ilə olur nüfuzu-millət.

M.Ə. Sabir öz yaradıcılığında, pedaqoji fəaliyyətində elmə, təhsilə xüsusi diqqət yetirmiş, "Yeni tipli məktəb", "Ana dili təhsili", tərbiyə və təhsil problemləri, uşaq ədəbiyyatı məsələləri Sabir yaradıcılığının ana xəttini təşkil etmişdir.

Sabir köhnə məktəblərin mahiyyətini ifşa etdiyi kimi, yeni üsullu məktəblər təşkil etmək üçün var qüvvəsi ilə çalışmış və özü də Şamaxıda 1908-ci ildə "Ümid" adlı belə yeni üsullu məktəblərdən birini açmışdır. Burada Sabir məktəbdarlıqla, müəllimliklə məşğul olmuş, uşaqlara oxutmaq üçün dərs vəsaitləri, mənzum şer və hekayələr yazmışdır. "Ümid" məktəbində əsasən yoxsul, zəhmətkeş balaları oxuyurdu. O zaman varlı təbəqənin fikrinə görə, yoxsul balaları yalnız sənət öyrənməli idilər. Guya yoxsul balalarının zehni işdən çox, fiziki işlərə qabiliyyəti varmış. Sabirin bütün uşaqların zəkalı və qabiliyyətli olması məsələsini irəli sürməsi mütərəqqi pedaqoji ideya kimi qiymətli olmaqla, onların bu fikirlərini heçə endirmişdir. Sabir uşaqlara xalqın, millətin gələcəyi, ümid çırağı kimi baxırdı: "Ey millətin ümidi, dilü-canı uşaqlar"- deyərək uşaqların parlaq gələcəyinə ümidlə baxırdı.

Sonralar, 1910-cu ilin əvvəllərində Sabir pedaqoji fəaliyyətini Balaxanıda Hacı Zeynalabdın Tağıyevin "Nəşri maarif" Xeyriyyə

cəmiyyətinin açdığı ibtidai məktəbdə, sonra isə Sabunçu məktəbində davam etdirmişdir. Sabir bir müəllim və tərbiyəçi olaraq, çox müdrik, həssas və coşqun ruhlu adam olmuş, keçdiyi ədəbi qiraət dərslərində şagirdlərə mümkün qədər ətraflı bilik vermək və xüsusilə, onlarda bədii zövq tərbiyə etmək üçün böyük şövqlə çalışarmış. Nəğmə dərslərinə xeyli vaxt ayırması da maraqlı bir cəhət idi.

Aktyor H.Abasov bir müddət Balaxanıda "Nəşri-maarif" cəmiyyətinin məktəbində M.Ə.Sabirlə birlikdə müəllimlik etmişdir. Həyatında baş verən hadisələrin çoxu yadında qalmasa da, Sabiri, onunla birlikdə müəllimlik etdiyi günlərini, yarım əsrdən artıq vaxt keçməsinə baxmayaraq, yaxşı xatırladığını bildirir və onu cəsarətli, qoarxmaz bir şəxs kimi xarakterizə edir: «Böyük şair olan Sabir çox cəsarətli bir şəxs idi. O zaman kənddə bir qrup mürtəce xürafatçılar var idi ki, Sabiri sevmirdilər. Aydındır ki, onlar Sabirin satiralarından çox narahat idilər. Sabirin kənd camaatı arasında böyük hörməti olduğuna görə mürtəcelər zahirdə çəkinir, gizli hədə-qorxulara əl atırdılar. Belə bir əhvalat yadıma gəlir. 1910-cu il oktyabrın axırlarında mürtəcelər Sabirə imzasız bir məktub yazmışdılar. Onlar Sabiri hədələyirdilər ki, ayın axırına kimi öz xoşu ilə kənddən çıxıb getsin, əks təqdirdə ailəsi başsız qalacaqdır.

O zaman biz müəllimlər bu məktubdan sonra təşvişə düşmüşdük. Sabir isə məktubu soyuqqanlılıqla qarşıladı və köhnə qayda ilə öz işlərini davam etdirirdi. O zaman biz Sabirlə ikimiz bir otaqda yaşayırdıq. Ay başa çatanda bir gün axşam o mənə belə dedi:

Hacağa, ay qurtardı, ancaq həriflərdən bir xəbər çıxmadı...»

M.Ə.Sabir qadınların təhsil alıb tərəqqi etməsinə xüsusi qayğı göstərirdi. O, qadın hüquqlarının müdafiəsinə, ananın müqəddəs tərbiyəçi vəzifəsinə, onun qağıkeş əməyinə yüksək qiymət verirdi. Bu baxımdan Sabirin “Ana bəzəyi” şerində qızların təhsil alması, tərəqqiyə can atması, yüksək iradi, əxlaqi keyfiyyətlərə yiyələnməsi vurğulanır:

Təşkil edəcəklər kişilər məktəbi-nisvan,

Qızlar oxuyub cümlə şərəfdar olacaqdır!

Şerlərində gənc nəslə nəcib əxlaqi, mənəvi keyfiyyətlər aşılamaq Sabir yaradıcılığının səciyyəvi xüsusisyyətidir. O, demək olar ki, bütün şerlərində uşaq, yeniyetmə və gəncləri təhsil qazanmağa, elmə, maarif və mədəniyyətə yiyələnməyə səsləyir:

Elmin izzəti payidar olur,
Cahilin nikbəti canşikar olur;
Hər kəs elm oxur, bəxtiyar olur,
Millət elm ilə bərqərar olur.
Oxuyun, əzizlər, oxumaq zəmanıdır!
Oxumaq hər adəmin ədəbi nişanıdır!.

Sabir məktəb, maarif, təhsil məsələləri ilə məşğul olduğu kimi tərbiyə problemləri onun daim diqqət mərkəzində olmuş və yazmışdır:

Ümmətin rahnüması tərbiyədir,
Millətin pişvası tərbiyədir,
Tərbiyətlə keçir umuri – cəhan,
Hər işin ibtidası tərbiyədir.
....Tərbiyət elmsiz deyil məqbul
Ki, onun müqtəzası tərbiyədir!
Bitərbiyəliliklə tifli-məsum
Axırda olur səfilü məşum...

Sabirin məktəbə, elmə, tərbiyəyə, maarif və mədəniyyətə verdiyi qiymət, ana dili və rus dilinə verdiyi geniş mövqe – Azərbaycanda xalq maarifinin inkişafında böyük rol oynamış və xalq maarifi sahəsində müəyyən dönüş əmələ gəlməsinə kömək etmişdir. Sabirin təhsil haqqındakı fikirləri və onun əməli pedaqoji fəaliyyəti Sabiri Azərbaycanın böyük xalq müəllimləri sırasına qədər yüksəltmişdir.

Sabir yetişən gənc nəslin tərbiyəsində, dünyagörüşünün formalaşmasında uşaq ədəbiyyatının roluna böyük əhəmiyyət vermiş, özü də uşaqlar üçün dəyərli, ibrətamiz şerlər, təmsillər, nəsihətlər, mənzum hekayələr, nəğmələr yazmışdır. Onun "Yalançı çoban", "Molla Nəsrəddin və oğru", "Cütçü", "Yaz günləri", "Uşaq və

buz", "Uşaq və pul", "Ağacların bəhsi", "Məktəb şərqisi", "Qarğa və tülkü", "Təbib ilə xəstə", "Qarınca", "Qoca bağban" və s. şerləri Azərbaycan uşaq ədəbiyyatının ən yaxşı nümunələri olmaqla gənc nəslin tərbiyəsində, idraki inkişafında, dünyagörüşünün genişlənməsində xüsusi əhəmiyyət kəsb edir.

"Məktəb şagirdlərinə töhfə" adlı şerində Sabir özünün kiçik həmvətənləri haqqında müqəddəs bir ideal bəslədiyini açıb deyir:

"Vəqtdən daim istifadə edin,
Elm təhsilini iradə edin;
Çalışın, biniyaz olun, çalışın!
Elm ilə sərfəraz olun, çalışın!"

"Qoca bağban" adlı şerində isə xudpəsəndliyi pisləyən şair ümumi mənafeyin qorunmasını, xalq üçün çalışmaq lazım gəldiyini yetişən gənc nəslə öyrədir. Yüz yaşlı bağban namuslu əməklə yaşayan, cəmiyyət üçün xeyirli iş görməyi özünə borc bilən, ata – babaların timsalı kimi sadə və əzəmətli bir insan kimi canlanır.

"Dedi: Yer şumlayıb cəfa çəkərəm,
Torpağa alma çərdəyi əkərəm.
Dedilər: Bundan bir səlahın yox,
Sən bu gün var isən, səbahın yox.
İndi əkdiklərin nə vəqt çıxar?
Bu çıxınca səni zəmanə yıxar.
Dedi: Əkmişlər, almışız, yemişiz,
Əkəriz biz daha yeyənlər üçün!
Əhli-xeyrə dua deyənlər üçün!"

Şairin mənzum hekayələrinin bir çoxunda, oğurluğun, əliəyriliyin pis nəticəsi açılıb göstərilir. "Uşaq və pul" mənzuməsində qocanın yerə düşən pulunu uşaq qaçırıb sevinə-sevinə evlərinə gətirir. Lakin ana buna etiraz edir: "Oğul, özgənin pulu bizi ucaltmaz, əksinə, dost-düşmən yanında başı aşağı olarıq. Pul nə qədər fərəh gətirsə də, təmiz vicdan ondan da qiymətlidir".

Xain olsaq əgər bu dünyadə
İrzi namusumuz gedər badə;
Gözümüz müntəhayi-zillətdən
Baxamaz kimsəyə xəcalətdən;

Gərçi pul çox fərahfəzadır, oğul,
Leyk namus pək bəhadır, oğul!

Böyük sənətkarın fikrincə övladın sağlam tərbiyəsi ailədəki şəraitdən asılıdır.

Sabirin "Artıq alib, əskik satan tacir", "Camış və sel" mənzumələrində də əliəyrilik, yalançılq tənqid olunur. Şair deyir ki, artıq alıb əskik satan tacirin oğlu da atasının yolu ilə gedir. O, atasından oğurlamaq istədikdə ata oğlunu cəzalandırır. Bu zaman nurani bir qoca ataya deyir:

Əkdiyin danənin budur səməri
Səndən əxz eləyib həmin hünəri.

Şair "Nə əkərsən, onu da biçərsən" məsəlindən istifadə edib atanın pis əməllərinin acı nəticələrini oxucularına çatdırır. Şerin sonunda Sabir valideynlərə: "Doğru olsan övladın da doğru olar, oğru olsan övladın da oğru olar." - deyə nəsihət verir.

Şairin məzumələrində müraciət etdiyi mövzulardan biri də ticarətdə haramlığın tənqididir. "Camış və sel" mənzuməsində südə su qatan atanın aqibətinə oğlu rişxənd edib gülür. Sel camışı aparır. Atanın göz yaşlarına baxmayaraq oğul onun günahını üzünə deyir:

Ağlama, babacan!
Çünki su südlərə süfeyl oldu,
Qatdığı su yığıldı seyl oldu.

Deməli, selin camışı aparması fələyin qəzası deyil, atanın tutduğu pis əməlin nəticəsidir.

XX əsrin əvvllərində yazılmış "Uşaq və buz", "Yaz günləri", "Məktəb şərqisi", "Məktəbə tərğib", "Elmə tərğib", "Cütçü" və s. kimi şerləri ilə Sabir Azərbaycan klassik uşaq şerinin qüdrətli yaradıcılarından biri olduğunu sübut etdi.

Şairin "Uşaq və buz" şeri bu gün də bədii dəyərini itirməyən, dillər əzbəri olan şərqilərdən biridir. Şerdəki uşaq obrazı ağıllı, cəsarətli və yaşına münasib anlayışa malikdir. Uşağın buzla rəftarı yaşıdlarına bir sıra gözəl keyfiyyətlər- hazırcavablıq, iraədəlilik, dözümlülük və cəldlik aşılayır.

Sənətkarın təkcə "Uşaq və buz" şeri deyil "Məktəb şərqisi", "Məktəbə tərğib", "Elmə tərğib" şerləri də dərin mənalıdır. Bu nəğmələrdə Sabir məktəbin böyük əhəmiyyətindən, elmin səmərəsindən, elmlə insanın öz arzularına, işıqlı günlərə qovuşmasından vətənə xalqa xidmətindən bəhs edir.

Məktəbdə var şərafət,
Dəftərdə var lətafət.
Cari olur qələmdən
Şirin-şirin hekayət.
Ey gözüm, ey canım!
Get məkətəbə, cavanım!

Şairin yaradıcılığında onun təmsilləri də xüsusi yer tutur. "Ağacların bəhsi" adlı təmsildə üç ağac: alma, palıd və şam ağacları təsvir edilir. Palıd öz nəhəngliyi, alma dadlı meyvələri, şam isə yaşıl budaqları və ev tikənlərə gərəkliyi ilə öyünür. Deməli, təbiətdə lazımsız heç bir şey yoxdur. Barlı ağac meyvəsi ilə insanlara fayda verdiyi kimi, barsız ağacın da öz dəyəri, öz yeri var. "Qarınca" təmsilində isə qarışqa özündən qat-qat ağır yükü yuvasına daşıyır. Şair uşaqları qarışqadan ibrət almağa çağırır və göstərir ki, kiçik işləri görmək hünər deyil, hünər odur ki, böyük çətinliklə uğurlu işlər görəsən.

Ufacıq işləri hünər sanma,
Böylə işlər keçər sühulət ilə,
Hünər oldur ki, bir böyük əməli
Edəsən həll min süubət ilə.
..İş apar, baş gedərsə qoy getsin...
Ad qalır, bəs deyilmi, millət ilə?!

"Hörümçək və ipəkqurdu" təmsili də ideya-məzmun baxımından ibrətamizdir. Təmsildə şair vətənə, xalqa faydalı olmağı təbliğ edir. İpəkqurdu öz sürətli işi ilə öyünən hörümçəyin zərərli təbiətini üzünə söyləyir. Məharət tez və çox iş görməkdə deyil, cəmiyyətə nə dərəcədə xeyir verməkdədir.

Sabir tərbiyə və təhsilin demək olar ki, bütün sahələri haqqında dəyərli pedaqoji fikirlər söyləmişdir. M.Ə. Sabirin irəli sürdüyü,

şerlərində təbliğ etdiyi maarifçi-pedaqoji ideyalar müasirlik baxımından da, yeni təhsil quruculuğu üçün də xeyli əhəmiyyətlidir. Onun bu sahədəki fikrilərini aşağıdakı kimi qruplaşdırmaq olar:

🕮 Tərbiyənin məqsədi kamil insan formalaşdırmaq, onun mənəvi, fiziki və əqli qabiliyyətlərini ahəngdar surətdə inkişaf etdirmək və yüksək əxlaqi keyfiyyətlər tərbiyə etmək;

🕮 Tərbiyə prosesində insanda geniş dünyagörüş yaratmaq, onu müasir biliklərlə silahlandırmaq, onda sadəlik, təvazökarlıq, vətənpərvərlik, əməksevərlik, insanpərvərlik, düzlük və doğruçuluq, xalq mənafeyi uğrunda mübarizlik kimi keyfiyyətlər formalaşdırmaq;

🕮 Təlim prosesində tərbiyəvi vəzifələri həyata keçirmək, təlim, tərbiyə, və ictimai faydalı işləri kompleks şəkildə hər bir fərdin yaşına və psixoloji xüsusiyyətlərinə uyğunlaşdırmaq;

🕮 Tərbiyə və təlim işlərində müəllim əməyinə yüksək qiymət vermək, müəllim – şagird münasibətlərini humanist, demokratik və pedaqoji əsaslar üzərində qurmaq, müəllimin ixtisas biliyinə, elmi, pedaqoji, psixoloji və metodik biliklərə yiyələnməsini, düzgün və səlis nitqə malik olmasını, yüksək əxlaqi, mənəvi keyfiyyətlərə sahib olmasını vacib hesab etmək;

🕮 Cahillik və nadanlıqdan uzaqlaşmaqda, insanların mütərəqqi biliklərə yiyələnməsində, məktəbin böyük rola malik olmasını dəyərləndirmək və xalq arasında məktəbin rolunu yüksəltmək, təbliğ etmək.

M.Ə. Sabirin şerləri, yaratdığı nəğmələr, mənzum hekayə və təmsillər öz ictimai - əxlaqi, ədəbi-bədii təravətini bu gün də saxlayır, gənclərin yüksək ideya və əxlaqi, mənəvi və estetik tərbiyəsində mühüm rol oynayır. M.Ə.Sabirin tərbiyə, təhsil, maarif və mədəniyyət haqqında fikirləri Azərbaycan məktəbinin fəaliyyətinə, maarif və mədəniyyətinin inkişafına, pedaqoji fikir tarixinə yeni məzmun gətirmiş və onu daha da inkişaf etdirmişdir.

## 10.10. FİRUDİN BƏY KÖÇƏRLİNİN PEDAQOJİ GÖRÜŞLƏRİ VƏ PEDAQOJİ FƏALİYYƏTİ

Firudin bəy Əhmədağa oğlu Köçərli (1863- 1920) böyük pedaqoq, görkəmli maarifpərvər, pedaqoq, dəyərli ziyalı və tanınmış ədəbiyyatşünas alim olmuşdur.

O, 1879-cu ildə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinə daxil olmuş və 1885-ci ildə buranı bitirmişdir. Seminariyada göstərdiyi müvəffəqiyyətinə görə ona "Məzkur ibtidai xalq müəllimi" adı verilmiş və İrəvan Müəllimlər Gimnaziyasına müəllim göndərilmişdir.

1881-ci ildə yaranan və 34 il davam edən İrəvan Müəllimlər Seminariyasında Firudin Bəy Köçərli 10 il dərs demiş, mədəni-maarif işləri aparmış, məktəblər üçün yeni dərs proqramları, dərs vəsaitləri tərtib etmiş, mətbuatda təhsilin, pedaqoji elmin müxtəlif sahələrinə dair məqalələrlə çıxış etmişdir. Seminariyada F.Köçərlinin müəllimi olmuş A.D.Çernyayevski yazırdı: "Hazırda elə bir mətbuat orqanı yoxdur ki, müəllim Köçərli orada xalqının ədəbiyyatı, tarixi haqqında çıxış etməsin". "Ərəb əlifbası və onun nöqsanları" adlı silsilə yazıları həm ziyalılar, həm də xalq arasında böyük marağa səbəb olub".

Firudin bəy Köçərli (1863-1920) tələbə ikən yunan filosofu Sokratın həyatı və əxlaqi görüşlərinə həsr olunmuş "Təlimati-Sokrat" əsərini tərcümə etmişdi. Sonralar Saleh bəy Zöhrabbəyovla birlikdə "Təlimati-lisani-türki" dərsliyini tərtib etdilər. 35 illik müəllimlik fəaliyyətində ədəbiyyatşünaslıq üzrə ciddi axtarışlar aparmış Firudin bəy Köçərli türk dilinin tədrisinə dair çoxsaylı məqalələr yazmışdır. O, 300-dən artıq dərsliyə düzəliş etmiş, nəzəri materiallarla, hekayələrlə zənginləşdirmiş, metodik baxımdan yeniləşdirmişdir. Azərbaycan tarixi və ədəbiyyatının vurğunu olan ədib başqa xalqların ədəbiyyatı ilə öz ədəbiyyatımızı müqayisə edir, xalqlar arasında ədəbi-mədəni əlaqələri genişləndirmək məqsədilə etdiyi tərcümələrlə ( Puşkin, Lermontov, Çexov, Tolstoy, Koltsov,

Sereteli və b.) rus mətbuatında fəal iştirak edirdi. Ədib Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin (M.P.Vaqif, M.F.Axundov və b.) irsinin təbliği sahəsində də çalışır, xalqın maariflənməsində, mədəniyyətinin inkişafında qəzet və jurnalların rolunu yüksək qiymətləndirərək məqalələr dərc etdirirdi. 1897-ci ildə Çernyayevskinin ölümündən sonra o, "Vətən dili" dərsliyinin yenidən işləmiş və daha təkmil variantını nəşr etdirmişdir.

İrəvan Müəllimlər Gimnaziyası F.Köçərli yaradıcılığına qüvvətli təsir göstərmişdir. O, bu on il ərzində gimnaziyada pedaqoji fəaliyyəti ilə yanaşı ədəbiyyatımızın toplanması, tədqiqi, elmi şərhi sahəsində də bir sıra diqqətəlayiq işlər görür. F.Köçərli gimnaziyada işlədiyi dövrdə öz yaradıcılıq imkanlarından istifadə edərək 1890-cı ildə A.S.Puşkinin "Balıqçı və balıq nağılı" adlı əsərini tərcümə etmiş, daha sonra çap etdirdiyi Puşkinin "Torçu və balıq", Lermontovun "Üç xurma ağacı" və M.Kolstovun "A kişi, niyə yatıbsan?" adlı şerlərini 1895-ci ildə kitabça halında çap etdirmişdir. On il İrəvan gimnaziyasında işlədikdən sonra, F.Köçərli 1895-ci ildə Qori Müəllimlər Seminariyasına işə dəvət olunmuşdur. Bu təyinat Köçərlini xeyli məmnun etmiş və o, böyük bir həvəslə özünə doğma bildiyi Qori seminariyasında işə başlamışdır. Çünki bir zamanlar dərs aldığı əziz müəllimləri ilə birgə çalışacaqdı. Həmin ildən o, Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsində Səfərəli bəy Vəlibəyov, Popov, Qaraqanidze, Lamauri, R.Əfəndiyev kimi zəmanəsinin mütərəqqi pedaqoqları ilə bir sırada çalışmış, millətimizin böyük ziyalısı və alimi kimi xalqının maariflənməsində, təhsil almasında böyük rol oynamışdır.

F.B.Köçərli Qori seminariyasına müəllim təyin olunan gündən bütün imkanlardan istifadə edir. Elm, maarif, mədəniyyət və tərəqqi baxımından geri qalmış Azərbaycan balalarının təlim-tərbiyəsi ilə ciddi məşğul olur. Elmi fəaliyyəti cəhətdən də Qori illəri Köçərlinin həyatında ən dolğun illərdir. Köçərli Qoridə işləyərkən Azərbaycan ədəbiyyatında realist demokratik cərəyanın ən böyük nümayəndəsi, milli dramaturgiyamızın banisi M.F.Axundovun yaradıcılığını

ətraflı tədqiq etməklə məşğul olmuş, ədibin yüzilliyi ilə əlaqədar olaraq, xüsusi bir kitabça yazmışdır.

Köçərli Qori seminariyasında müəllimlik etdiyi illərdə gürcü inqilabçıları ilə yaxın olmuş, onların köməyi sayəsində inqilabi ədəbiyyat əldə edib oxumuşdur. 1906-cı ildə bolşevik qəzeti "Dəvət"də çıxış etməsi, zəhmətkeşləri çarizmə qarşı əlbir mübarizəyə çağırması da göstərir ki, o, dövrün inqilabi ideyalarına biganə qalmamışdır.

F.Köçərli Qori seminariyasında bir neçə il müəllim, 1910-cu ildən 1918-ci ilədək isə Azərbaycan şöbəsinin rəhbəri vəzifəsində çalışır. Bu dövrdə o, tədrisdə Azərbaycan dilinə geniş yer ayrılması məsələsinə ciddi fikir verir, ana dilimizin yad təsirlərdən qorunmasında ziyalıları köməyə çağırırdı. Seminaryanın təzə rəhbərliyi isə vaxtını təhsilə deyil, daha çox intriqalara, azərbaycanlı seminaristləri təqib etməyə sərf edirdi. F. Köçərli 1893-cü ildə Tiflisdə çıxan "Ziyayi-Qafqaziyyə" qəzetində geniş məqalə ilə çıxış edib, dil məsələsini kəskin müzakirəyə qoymuşdu. Bakıda çıxan qəzetlərdə də dil, məktəb, maarif, təhsil mövzusuna geniş yer verilirdi.

F.Köçərli dərindən dərk edirdi ki, məktəbin tərbiyə işinin canını yaxşı xalq müəllimi ilə yanaşı, ailənin düzgün tərbiyəsi təşkil edir. Çünki hamıdan ziyada xalqın qeydinə qalan, onun gözünü açan və qəlbini elm nuru ilə dolduran müəllim və onun yaxın köməkçisi ailədir.

F.Köçərli müəllimi durmadan öz üzərində işləməyə, biliklərini artırmağa və təcrübəsini zənginləşdirməyə çağırırdı. Müəllim şagirdlərin əqli inkişafı, görüş dairələrinin genişlənməsi üçün yalnız sinifdə dərslə kifayətlənməməli, işinə formal münasibət göstərməməlidir. F.Köçərli müəllimin fəaliyyətini yalnız məktəb və məktəbdənkənar təlim-tərbiyə işləri ilə məhdudlaşdırmır, onları daim ailə ilə əlaqə saxlamağa çağırırdı.

F.Köçərli pedaqoji mülahizələrində əsil insan və vətəndaş yetişdirməklə bağlı olan bu nəcib xüsusiyyətlərin formalaşması yolunda əngələ çevrilən səbəbləri tənqid edərək, bir daha xatırladırdı ki, xalqın bu cür ictimai tərəqqiyə çatmamasının səbəbi heç də dini

islam məfkurəsi deyil, məişətə və vətəndaşlıq cəmiyyətinə aid mülki qanunlardır.

F.Köçərli bu yönümdən vətəndaş tərbiyəsi amilləri sırasında şəxsiyyət tərbiyəsini də mühüm vəsitə sanır, bununla əlaqədar olaraq yazır ki, ”...tərbiyənin amilləri çox olmaqla bərabər qayət müxtəlifdir: insanı əhatə edən bütün şeylər, yaxud ona müəyyən təsir göstərən hallar bu qəbildəndir”.

F.Köçərli xalqın tarixini tədqiq, təhlil etmək, öyrətmək və öyrənmək üçün nağılların, tapmaca və bayatıların, atalar sözləri və məsəllərin, sayaçı sözlərinin əhəmiyyətini xüsusi qeyd etmiş və “Balalara hədiyyə” adlı əsərində də bu hikmətli el ədəbiyyatı nümunələrindən geniş istifadə etmişdir. Bu kitabın yazılması və tərtibi demək olar ki, gənc nəsli şifahi xalq ədəbiyyatı nümunələri ilə tanış etmək və onun tərəqqisinə kömək etmək məqsədi güdmüşdür. Bu kitab əsrimizin ilk illərində uşaq ədəbiyyatının müvəffəqiyyətli nümunələrindən biri olmuş və müəllifin bu sahəyə dair ədəbi və pedaqoji fikirlərini özündə təcəssüm etdirmişdir. F.Köçərli şifahi xalq ədəbiyyatını yazılı ədəbiyyatın bünövrəsi hesab etmiş və məhz buna görə gənc nəslin təlim tərbiyəsi işində folklor nümunələrini zəruri saymışdır. “Balalara hədiyyə” adlı əsərini də bu prinsip əsasında tərtib etmiş, folklora və folklor nümunələri ruhunda yazılmış əsərlərə üstünlük vermişdir. Bu da təsadüfi deyildi. Müəllifə görə, Azərbaycan xalqının uzun illər boyu öz məişətinə, adət və ənənəsinə dair yaratdığı nağıl, hikmətli sözlər, incə mənalı tapmacalar, uşaqları əyləndirən, onların ürəyinə yatan yanıltmaclar zaman keç-dikcə unudulmaqdadır. Bunun qarşısını almaq üçün F.Köçərli öz xalqını və vətənini sevən hər bir şəxsdən bu qiymətli inciləri, mə-nəvi nemətləri toplamağı və yeri gəldikcə daha geniş mənada bunlardan istifadə etməyi hamının vətəndaşlıq borcu sayır. Bu məqsədlə ta qədim zamanlardan bu günə qədər ağızdan-ağıza, dildən-dilə düşmüş mahnıları, tapmacaları, hikmətli sözləri və məsəlləri qiymətli bir inci kimi nəşr etməyi və geniş oxucu kütləsinin istifadəsinə verməyi özünə borc bilir.

Kitabda Azərbaycan xalqının uzun əsrlər boyu öz məişətinə, adət və ənənəsinə dair yaratdığı və yaşatdığı nağıl, mənzumə və hikmətli sözlər, tapmacalar, yanıltmaclar toplanmışdır. Müəəlif bu nadir el ədəbiyyatını oxucunun istifadəsinə vermiş və həm də uşaqların təlim-tərbiyəsi işində bu ölməz sənət incilərinin köməyini alqışlamışdır. Kitabın müqəddiməsində müəllif yazırdı ki, "Balalara hədiyyə olaraq millətimizin yaratdığı nağıl və hekayələrdən, məsəl və tapmacalardan və bir çox dürlü mənzumələrdən məcmuəni tərtib qıldım ki, onlar unudulub xatirələrdən çıxmasın...Zənnimcə, bu məcmuəni kim oxusa, böyük ya kiçik, onun qəlbi açılıb xəndan olacaqdır. Balalar şad olacaq. Bu səbəb ki, onda dərc olunan əsərlərin cümləsi onların həyatına və təbiətinə müvafiqdir. Böyük adamların ürəklərinin açılmağına səbəb bu olacaqdır ki, onlar mütaliə əsasında öz uşaqlıq vaxtlarını bilaixtiyar xatirələrinə gətirəcəklər. Bu isə, yəni qəlbi şad etmək özlüyündə bir xidmətdir".

"Balalara hədiyyə" əsərinin səhifələrində kiçik həcmli nağıllar xüsusi zövqlə seçilmiş və qruplaşdırılmışdır. Məlum olduğu kimi, xalq yaradıcılığı ilə bağlı olan bu hikmətli nağıllar gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında böyük əhəmiyyət kəsb etmişdir. Xalqımızın arzu və istəkləri ilə bağlı olan bu nağıllarda təsvir və tərənnüm olunan mərd, mübariz, igid, dözümlü, qorxmaz, çətin və ağır anlarda ağıl və zəka ilə, təmkinlə, səbrlə bütün maneələri aradan qaldıran qəhrəmanları xalq sevmiş, gənc nəslin nümayəndələri də bəzi hallarda özlərini bu əfsanəvi qəhrəmanlara oxşatmaq istəmişlər. Bu cəhətdən F.Köçərlinin seçdiyi və qruplaşdırdığı nağıllar öz məzmun və ideyasına, sağlam məfkürəsinə, məndəricəsinə görə kitabın yarandığı dövr üçün çox səciyyəvi idi.

F.Köçərli gənc nəslin hərtərəfli inkişafı üçün yalnız nağıllardan deyil, şifahi xalq ədəbiyyatının bayatı, layla, sayaçı sözlər, atalar sözləri və məsəlləri, atmaca və tapmacalarından da istifadə etmiş, müxtəlif həyati hadisələləri qələmə almışdır. F.Köçərli "Balalara hədiyyə" kitabında bayatılardan da geniş istifadə etmişdir. Məsələn, vətənə məhəbbət hissi aşılayan müəllif dağları vəsf

edir.Təbiətin füsunkar gözəlliklərini özündə əks etdirən bu dağları bahar fəslində bərli-bəzəkli, toylu-büsatlı, güllü-bülbullü, qış fəslində isə qarlı-boranlı təsvir edir.

“Balalara hədiyyə” kitabı bəhs etdiyimiz janrlarla məhdudlaşmır. Burada bu və ya başqa mətni tamamlayan, fikri aydınlaşdıran məsəllərə, tapmacalara, yanıltmaclara və müxtəlif uşaq oyunlarına geniş yer verilmişdir. Qeyd etmək lazımdır ki, məsəllər, tapmacalar, yanıltmaclar və s. müstəqil şəkildə deyil, hər mətnin sonunda, şer və hekayənin məzmun və ideyasına müvafiq şəkildə verilmişdir.

F.Köçərlinin apardığı müşahidələr, verdiyi hökmlərdən və gəldiyi nəticələrdən çıxış edərək demək olar ki, onun müxtəlif sahələrdə elmi-nəzəri fikirləri olduğu kimi, dilimizin təmizliyi, saflığı uğrunda apardığı mübarizə həm ədəbiyyatşünasın öz sağlığında və həm də sonrakı illərdə böyük əhəmiyyət kəsb etmiş, Azərbaycan uşaq ədəbiyyatının inkişafına böyük təsir göstərmişdir. F.Köçərlinin qələmindən çıxan bir çox məqalələr və bədii əsərlər uşaqlara doğma ədəbiyyatı sevdirmək, onları ümumxalq dilinin zənginlikləri ilə tanış etmək ruhunda yazılmışdır.Ümumiyyətlə, F.Köçərli gənc nəslin təlim-tərbiyəsi işində uşaq ədəbiyyatının roluna böyük əhəmiyyət vermişdir.

F.Köçərlini düşündürən mühüm məsələlərdən biri seminariyanın Azərbaycan şöbəsinin Qoridən köçürülməsi olmuşdur. Firudin bəy Bakıda olarkən “Nəşri-maarif” cəmiyyətinin iclasında çıxış edərkən ziyalılara seminariyanın Azərbaycan şöbəsində vəziyyətin ağır olduğunu söyləmiş və bölgələrimizdən birinə köçürülməsini təklif etmişdi. Lakin nə rus çarlığı, nə də gürcü knyazlığı buna icazə vermirdi. Onun qərarı isə qəti idi: ”Necə olursa-olsun, seminariyanı Azərbaycana gətirməliyik ki, oxuyanların sayı çoxalsın, ailələrin “Qori uzaqdır, mən uşağımı ora göndərmərəm” bəhanəsi də kəsilsin”.

Beləliklə, 1918-ci ilin yayında rus çarının yıxılmasından və gürcü knyazlarının başlarının hökumət qurmağa qarışmasından istifadə edən böyük ziyalı F.Köçərli seminariyanı Qazaxa köçürür.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Firudin bəy Qazax seminariyasının direktoru kimi fəaliyyətə başlayır.

Qazax seminariyasında tarix-coğrafiya dərslərini Əli Hüseynov, ədəbiyyat dərslərini Köçərlinin keçmiş tələbələrindən olan Yusif Qasımov, pedaqogika dərslərini isə seminariyanın direktoru Köçərli özü aparırdı.

Göründüyü kimi, Köçərli Qazax seminariyasında təkcə dərs demək, yaxud bir müdir kimi təşkil etməklə fəaliyyətini məhdudlaşdırmır, yaşının 60-a yaxınlaşdığına baxmayaraq, yenə də ikiqat həvəslə çalışır, özfəaliyyət dərnəkləri təşkil edir, yaşlılardan ötrü savad kursları açırdı. Qazaxda ilk uşaq evi yaradılmasının təşəbbüskarı da F.Köçərli ilə onun həyat yoldaşı Badisəba xanım olmuşdur.

F.Köçərli yeni məktəblər açılması uğrunda ardıcıl mübarizə aparırdı. Pedaqoji işdə yenilikçi olan Köçərli köhnə məktəbin qüsur və nöqsanlarını da ardıcıl tənqid edir, vaxtı keçmiş əxlaq və tərbiyə normalarını yeni və müasir normalarla əvəz etməyə çağırırdı. Köçərli təlimdə vaxtı keçmiş sxolastik üsulun əleyhinə çıxır və cəsarətlə göstərirdi ki, öz gözəl uşaqlıq illərini ərəb hərflərini əzbərləməklə keçirən balalarımızın zəhməti hədər gedir, onların hafizəsi kütləşir, biliyə həvəsi azalır, nəhayət on-on iki ildən sonra, böyük yaşlı adamlar kimi yetişəndə belə, yenə də onlar savadsız qalırlar.

Köçərli təlim-tərbiyə işində böyük rolu olan dərslik və proqramların tərtibinə böyük əhəmiyyət verirdi. Xüsusilə dərsliklərə, xalqın gələcəyi olan minlərlə balaların istifadə edəcəyi qiraət kitablarına qarşı o, daha tələbkar idi. Köçərli tədris proqramlarının müəlliflərindən tələb edirdi ki, onların tərtib etdikləri proqramlar əhatəli və ardıcıl olub, həmin fəndən dərs deyən müəllimin əsas vəzifəsinəyüksək mənimsəməyə nail olmağa kömək etsin. F.Köçərlinin tərtib etdiyi Azərbaycan dili proqramı müəllifin başqalarından tələb etdiklərinə özünün şəxsən necə riayət etdiyini göstərmək üçün əhəmiyyətlidir. Köçərlinin həmin proqramda təqdir etdiyi pedaqoji prinsip induktiv prinsip olub, təlim prosesində sadədən mürəkkəbə, asandan çətinə doğru təcrübəsinə əsaslanır. Bu isə öz növbəsində

keçilən materialın şagirdlərin böyük bir qismi tərəfindən mənimsənməsi üçün ən yaxşı təminat yaradır.

Köçərli müasir ədəbiyyat məsələləri ilə yanaşı Azərbaycan ədəbiyyatının tarixini tədqiq etməklə də müntəzəm məşğul olmuşdur. Ədəbiyyat tarixi məsələləri bütün ədəbi tarixi boyu onu maraqlandırmışdır. Tənqidi məqalələrində də o, tez-tez ədəbiyyat tarixinə müraciət edir, ədəbi müqayisələr aparır, ənənələrdən danışır, bu ənənələrın müasir ədəbiyyata tətbiqinin yollarını göstərirdi.

Gənc Köçərli hələ İrəvan gimnaziyasında müəllimlik etdiyi illərdə Azərbaycan yazıçıları haqqında məlumat toplamağa başlamışdı. Müəllif həm özünə qədərki ədəbiyyatşünasların əsərlərindən, həm də özünün əldə etdiyi materiallardan istifadə edərək rusca yazdığı "Azərbaycan ədəbiyyatı"adlı kitabda oxuculara Azərbaycan ədəbiyyatı haqqında müxtəsər məlumat vermək istəmişdi.

F.Köçərlinin çoxəsrlik Azərbaycan irsini toplayıb, elmi prinsip və ardıcıllıqla öyrənərək öz tədqiqatının nəticələrini "Azərbaycan ədəbiyyatı" əsərində xalqın istifadəsinə verməsi onun böyük xidmətlərindən sayılır. Bu əsəri yazmaqla F.Köçərli müasir Azərbaycan ədəbiyyat tarixçiliyi elminin əsasını qoymuş və beləliklə, gələcək tədqiqatçılar üçün geniş bir yol açmışdır.

F.Köçərlinin pedaqoji irsində diqqəti cəlb edən mühüm məsələlərdən biri də qadın təhsili məsələsidir. O, qadınları yüksək qiymətləndirir və dönə-dönə qadınların təhsili problemlərinə toxunurdu.

F.Köçərli düzgün olaraq qeyd edirdi ki, islama qədər Ərəbistanda qadın dözülməz vəziyyətdə olmuş, onun heç bir hüququ olmamışdır. İslama qədər ərəblər arasında vəhşi adətlərdən biri məhsul olmayan illərdə açlıq və çətinliklərdən qorxaraq öz qız uşaqlarını diri-diri quma basdırmaq idi. Bəzən də onları qul kimi satırdılar. İslamdan sonra bu vəhşi adət dəyişildi. Qadın və kişi bərabər hüquqlu oldu.

Ədibin bir sıra məqalələri vardır ki, onları qadın azadlığına həsr etmişdir. Həmin məqalələr: "İslamın qadına münasibəti",

“Keçmişdə müsəlman qadını” və “Müsəlman qadını hal-hazırda” olmuşdur. Bu məqalələrdə F.Köçərlinin qadın hüququnun müdafiəçisi olduğu və onların uşaq tərbiyəsindəki rolu açıqlanır. F.Köçərli göstərirdi ki, qadına elə yüksək hüquq verilməlidir ki, müasir ölkələrin qadınlarına verilən təhsil və başqa hüquqlardan yüksəkdə dayansın.

XIX əsrdə Tiflisdə müsəlman ibtidai qız məktəbi açmaq təşəbbüsü bütün Qafqaz müsəlmanlarının ictimai və mədəni həyatında çox mühüm hadisə idi.

Dövrün məşhur maarifçisi və pedaqoqu F.Köçərli yazırdı: “Müsəlman qız məktəbinin açılması Qafqaz müsəlmanlarının tarixində yeni dövrün başlanğıcı olacaqdır”. F.Köçərli qız məktəbinin əhəmiyyətini qadınların özlərinin köləlikdən azad olunmasından başqa, həm də ailənin ümumi həyat tərzinin yaxşılaşması baxımından qiymətləndirirdi. O yazırdı ki, müsəlman qızlarının məktəbi bitirməsi ilə öz vəzifəsini yaxşı başa düşən təhsilli evdar qadınlar və analar meydana gələcək və tədricən bütün mü-səlmanların həyat tərzi, istər ailədə, istərsə də kənarda yaxşılığa doğru yenidən qurulacaqdır. F.Köçərli ailə tərbiyəsinin yaxşılaşacağını ayrıca qeyd edir. O, yazırdı ki, bir tərəfdən atalar öz uşaqlarının təhsilli və təcrübəli anadan tərbiyə aldıqlarını görüb özlərini xoşbəxt hesab edəcəklər, digər tərəfdən indiyə qədər nökərlərin və mehtərlərin himayəsində böyüyən uşaqların özləri xoşbəxt olacaqlar.

## 10.11. CƏLİL MƏMMƏDQULUZADƏNİN PEDAQOJİ FİKİRLƏRİ VƏ PEDAQOJİ FƏALİYYƏTİ

Cəlil Məmmədquluzadə (1866-1932) xalqın maariflənməsində, tərəqqisində, oğlan və qızların təhsilə cəlb olunmasında həm əsərləri ilə, həm də əməli pedaqoji fəaliyyəti ilə, bir yazıçı, bir xalq müəllimi, bir fəal maarifçi, ziyalı kimi geniş fəaliyyət göstərmişdir.

"Molla Nəsrəddin" jurnalı Cəlil Məmmədquluzadənin şah əsəridir. Böyük ədibin redaktorluğu ilə birinci sayı 1906-cı il aprelin 7-də Tiflis şəhərində nəşr olunan bu məşhur jurnal Qafqaz xalqlarının, geniş mənada, müsəlman Şərqinin, xüsusən, Azərbaycanın mili oyanışı və dirçəlişində mühüm rol oynamışdır. "Molla Nəsrəddin" jurnalının səhifələrində tərbiyə, təhsil, dil, əlifba, məktəb, müəllim, elm, mədəniyyət, ailə tərbiyəsi, incəsənət məsələlərinə dair çoxlu məqalə, felyeton çap etdirmiş, xalqın xoşbəxtliyini elmdə, təhsildə görmüşdür. O, təhsilin və tərbiyənin məqsədini vətənpərvər, mübariz, azadlığı düşünən və onun uğrunda fədakarlıqla mübarizə aparan, cəsarətli, mərd insanlar yetişdirməkdə görürdü. Qori Müəllimlər Seminariyasında keçən təhsil illəri (1882-1887) çox təsirli və cəlbedici olmuşdur. Burada o, burada böyük alim, pedaqoqlardan-A.O.Çernyayevski (1840-1894), D.D.Semyonov (1834-1902), N.N.Novospasski, N.O.Lomouri (1852-1915), habelə azərbaycanlı müəllimlər Mirzə Əbdüssəlam Axundzadə (1843-1907), Səfərəlibəy Vəlibəyov (1861-1902) kimi adlı-sanlı pedaqoqlardan dərs almış, onların ədəbi-maarifçi, pedaqoji-metodiki görüşlərindən faydalanmışdır. Qori Müəllimlər Seminariyası Cəlil Məmmədquluzadənin həyatında mühüm müsbət dəyişikliklər yaratmış, əlamətdar izlər buraxmışdır. Seminariya dövrü Mirzə Cəlilin ümumi inkişafında, yazıçılıq taleyində, mənəvi zənginliyində mühüm rol oynamışdır. C.Məmmədquluzadə seminariyada N.Nərimanovla (1870-1925), S.S.Axundovla (1875-1939), F.Köçərli (1863-1920) ilə bir dövrdə təhsil almışdır ki, bu böyük insanların dostluğu, əməl və məslək birliyinin təməli də məhz Qoridə - peda-

qoji elm məbədində qoyulmuşdur.

Cəlil Məmmədquluzadə 1887-1897-ci illər arasında Naxçıvanda pedaqoji fəaliyyətlə məşğul olmuşdur. O, 1887-ci ilin sentyabr oktyabr aylarında İrəvan quberniyasının Uluxanlı kənd ibtidai məktəbində, sonralar isə Baş Noraşen, sonra da Nehrəm kənd məktəblərində müəllimlik etmişdir.

Nehrəm kənd məktəbində qızları təhsilə cəlb etməsi, diyarşünaslıq muzeyi yaratması, ipəkçilik peşəsini öyrətmək üçün xüsusi məşğələlər təşkil etməsi, kəndlilərin əməyini yüngülləşdirmək məqsədilə Tiflisdən dəmir kotan gətirilməsinə nail olması onun hörmət və nüfuzunu daha da artırmışdır. Bu dövrdə eyni zamanda yerli həvəskarlarla birlikdə Naxçıvanda teatr tamaşaları hazırlayıb göstərən, əslində teatr hərəkatına rəhbərlik edən Cəlil Məmmədquluzadə mənsub olduğu xalqın maariflənməsi ilə yanaşı, milli oyanışı və mədəni tərəqqisi yollarında da yorulmadan çalışmışdır.

Cəlil Məmmədquluzadə dünyəvi təhsilin tərəfdarı olub məktəblərdə həqiqi təhsil verməyi, elmi bilikləri öyrənməyi, tələb edirdi. O, məktəblərdə, nəbatat, heyvanat, elm, hikmət (fizika) təbiət, coğrafiya, geologiya, astronomiya elmlərini öyrənməyi zəruri sayırdı. O, xalqı avamlıq və cəhalətdən qurtarmağın ən yaxşı yolunu məktəbdə görürdü. "Danabaş kəndinin məktəbi" əsərində o, bu məsələni ətraflı təsvir etmişdir.

Cəlil Məmmədquluzadə təlim prosesində möhkəm intizamı yüksək qiymətləndirərək hər cür cəzanın əleyhinə çıxırdı. O, deyirdi ki, müəllim öz biliyi, bacarığı, mədəniyyəti, nəzarəti, gözəl davranış sadəliyi, insanpərvərliyi və s. ilə əhali arasında nüfuz qazanmalıdır. Mirzə Cəlil elmə, alimə, hörmətlə yanaşmağı tələb edir.

Cəlil Məmmədquluzadə təlimin ana dilində aparılması məsələsinə xüsusi diqqət yetirir. O, bu məsələni "Əlifba", "Gələcək" felyetonlarında "Tərcümeyi-halım", "Dili tutulub" və başqa məqalələrində geniş şərh etməklə ana dilinin təmizliyinə böyük əhəmiyyət verirdi. O, təlimin ana dilində olması, onun inkişafı, sağlığı, xalqa yabançı, əcnəbi sözlərdən təmizlənməsi uğrunda cəsarətlə mübarizə

aparmış, ana dilinin zənginliyini təbliğ etmişdir. Bu məsələ "Ana-mın kitabı" əsərində daha geniş qoyulmuşdur.

Cəlil Məmmədquluzadə ərəb əlifbasından latın əlifbasına keçid uğrunda fəal mübarizlərdən biri və ya birincisi olmuşdur. Belə ki, 1922-ci ilin 11 iyulunda maarifpərvər ziyalılardan olan Səməd ağa Ağamalı oğlunun sədrliyi ilə Yeni Türk Əlifbası Komitəsi təsis olunur və həmin ilin 21 sentyabrında yeni türk (latın) əlifbası ilə çıxan "Yeni yol" qəzeti bu komitənin orqanı kimi nəşrə başlayır. Bu qəzet latın əlifbası ilə nəşr olunan XX əsrin ilk türk qəzeti idi ki, onun redaktoru Cəlil Məmmədquluzadə olmuşdur. Qəzetin vəzifəsi Azərbaycanda və türk dünyasında yeni əlifbanı yaymaq, latın əlifbası ilə Azərbaycan, Şərq və dünya xalqlarının ədəbiyyatını və mədəniyyətini təbliğ etmək idi. 1928-ci ilədək qəzet Yeni Türk Əlifba Komitəsinin mətbu orqanı kimi fəaliyyət göstərmiş, 1929-cu ildən 1939-cu ilədək AK (b) P Bakı Komitəsinin mətbu orqanı olmuşdur.

Əski əlifbanın müsəlman aləminin avam və savadsız təbəqələri arasında yazı-pozu işlərində böyük çətinliklərə, hətta yarıtmaz əməllərə səbəb olması o dövrdə C. Məmmədquluzadəni də ciddi düşündürmüş və böyük maarifpərvər ədib özünün məqalə və felyetonlarında əski əlifbaya olan tənqidi münasibətini bildirmişdir. Müəllif belə məqalələrindən birini özünün fəaliyyət göstərdiyi və redaktoru olduğu Əlifba Komitəsinin orqanı olan "Yeni yol" qəzetində çap etdirmişdir. Qəzetin 18 oktyabr 1922-ci il tarixli 6-cı sayında dərc etdirdiyi "Kürk" adlı felyetonunda müəllif dolayısı ilə əski əlifbanı tənqid edir. Felyetonda təbrizli sövdəgər Məşədi Qulaməli öz qardaşına məktub yazır ki, qış yaxınlaşır, yaxşı qazanc əldə etmək ucun ucuz qiymətə kürk alıb göndərsin. Lakin Məşədi Qulaməlinin məktubunda "kürk" sözünü "kürək" oxuyan qardaşı ona kürk əvəzinə min dörd yüz kürək alıb göndərir və Məşədi Qulaməlini zərərə salır. Molla Nəsrəddinlə bu barədə danışan məşədi Qulaməli öz qardaşının əski əlifbanı oxuya bilməyib ona ziyan vurması barədə deyir: "Zalım oğlu, zalım, yəqin ki, mənim kağızımda "kürk" sözünü "kürək" oxuyub. Ax, bir aləm mənə ziyan vurdu".

Göründüyü kimi, felyetonda “kürk”un “kürək” kimi oxunması və əski əlifbanın bu üsulla tənqidi Cəlil Məmmədquluzadənin dayısı Əli Məhbusun şerində də çox gözəl bədii ifadəsini tapmışdır:

“On yıl oxuyan seçməz idi “kürk”u “kürək”dən,
Hec biri ayıranmazdı yazıq “kürk”u “kürək”dən.
Lap təngə gələrdi “ze”yə “zal”, “zad” deməkdən,
İndi ayırıbdır “ze”yi “zal”dan bu əlifba,
Türkün dilini eyləyib asan bu əlifba”.

Cəlil Məmmədquluzadə məktəbin və ailənin qarşısında gənc nəsli nəcib və müqəddəs əxlaqi keyfiyyətlər ruhunda tərbiyə etməyi qoyurdu. Mirzə Cəlil əsərlərində xalqı vətən naminə fədakarlığa, zülmə qarşı üsyana çağırırdı. Vətənpərvərliyi yalnız oğlanlarda deyil, qızlarda da tərbiyə etməyi zəruri sayırdı.

O, çalışdığı Nehrəm kənd məktəbində təlim-tərbiyə işlərini yenidən qurmuş, maarifçilik hərəkatını genişləndirmiş, qızların təhsilə cəlb olunmasına dəyərli xidmətlər göstərmişdir. Mirzə Cəlil cəmi 26 nəfər şagirdlə qəbul etdiyi Nehrəm məktəbində təhsil alanların sayı 1896-cı ildə 40 nəfərə çatdırılmışdı. O, qızların maariflənməsinə, təhsilə cəlb olunmasına xüsusi diqqət yetirərək, çalışdığı Nehrəm məktəbinə 8 nəfər qızı cəlb etmişdi. Bu Nehrəm kimi dindar bir kənddə böyük hadisə idi. Bütün bunlar Azərbaycanda qadın təhsili sahəsində atılan ilk addımlardan biri olmuşdur.

Cəlil Məmmədquluzadə əqli, əxlaqi, estetik, əmək tərbiyəsi ilə yanaşı, uşaqların fiziki tərbiyəsinə də diqqət yetirməyi tələb edirdi. O, uşağın hətta ana bətnində olduğu zaman mühafizə olunma-sını, sağlam yetişməsini zəruri sayır və deyirdi ki, fiziki cəhətdən sağlam nəsil yetişdirmək üçün əvvəlcə hamilə analar mühafizə olunmalıdır.

Cəlil Məmmədquluzadə ailə tərbiyəsinə böyük əhəmiyyət verirdi. Onun fikrincə, uşağın gələcək xoşbəxtliyini dərindən düşünməyən, tərbiyə yollarını bilməyən valideyn uşaqlarını yaxşı tərbiyə edə bilmir. Uşağın tərbiyəsinə həm ata, həm ana məsuliyyət daşıyır. Ailədə uşaqları yaxşı tərbiyə etmək üçün ailə üzvləri xüsusilə ata, analar arasında dostluq, mehribanlıq və həmrəylik olmalıdır.

Cəlil Məmmədquluzadə dəyərli pedaqoji fikirlər söyləməklə bərabər həm də uşaqlar üçün tərbiyəvi, didaktik mövzularda şerlər yazmışdır. Bu cəhətdən onun "Çobanlar" şeri daha səciyyəvidir:

Göydəki göy buludlar,
Yorğanıdır çobanın.
Yastı-yastı təpələr,
Yastığıdır çobanın.
Yumru-yumru qayalar,
Yumruğudur çobanın.
Yanındakı boz köpək,
Yoldaşıdır çobanın.
Ağzı qara canavar,
Düşmənidir çobanın.

C. Məmmədquluzadə bu şeri ilə gözəl bir təbiət mənzərəsi canlandıraraq uşaqların estetik-bədii tərbiyəsinə nüfuz edir, çoban həyat tərzini uşaqlara anladaraq onların dünyagörüşünü inkişaf etdirir və zəhmətkeş, əməkçi bir insan surəti təsvir edərək uşaqlarda zəhmətə, əməyə məhəbbət aşılayır. Bu şer Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə, milli soykökünə, xalqın dilinə, folkloruna sıx bağlı olub uşaqlarda ən nəcib mənəvi, əxlaqi keyfiyyətlər tərbiyə edir.

C. Məmmədquluzadənin pedaqoji fikirləri, bədii yaradıcılığı, publisistik məqalələri və məktubları bu gün də öz aktuallığı ilə insanları tərəqqiyə, inkişafa səsləyir.

## 10.12. SULTAN MƏCİD QƏNİZADƏNİN PEDAQOJİ GÖRÜŞLƏRİ

Sultan Məcid Qənizadə (1866-1937) tədqiqatçıların yazdıqlarına görə ulu babası Ağa Məsih Şirvani Şamaxının tanınmış şairlərindən olub. Ədibin bəzi məqalələrində "Məsihzadə" imzası ilə yazması da bu varisliyə işarədir. Sultan Məcidin atası tacir idi. Şamaxının sayılıb-seçilən ziyalılarından olub. Elmə, maarifə böyük marağı varmış. Bu səbəbdən də oğlunun ilk müəllimi özü olub. O,

əvvəlcə övladına yazıb-oxumaq öyrədib, sonra da onu şəhərdəki müxtəlif məktəblərdə oxudub, bir neçə dilin öyrədilməsinə nail olub. Rus dilini mükəmməl bildiyindən Sultan Məcid Qənizadə 1883-cü ildə Tiflisdəki Aleksandrovski Müəllimlər İnstitutuna daxil olmuşdur. Bu institut 50 ilə yaxın bir müddətdə yaxın vilayətlərin şəhər məktəbləri üçün müəllim kadrları hazırlayıb. O vaxt müsəlmanların şəhər məktəblərində müəllim işləməsi çar hökuməti tərəfindən qadağan edildiyindən Sultan Məcid Qənizadə tələbə dostu və gələcəkdə yaxın silahdaşı olacaq Həbibbəy Mahmudbəyovla birlikdə kənd məktəblərinə təyin ediliblər. Bu haqsızlıqla razılaşmayan hər iki dost Bakıya gələrək 1887-ci ildə "Rus-Azərbaycan məktəbi" adlı ibtidai təhsil ocağının yaradılmasına nail oldular. Bu maarif işığının şöləsi tezliklə yurdumuzun bir sıra bölgələrinə də yayıldı. Azərbaycan maarifinin yeni mərhələsi sayılan bu uğurlu fəaliyyətin şöhrəti başqa ölkələrdə də yeni təhsil ocaqlarının yaradılmasına təkan verdi.

Sultan Məcid Hacı Murtuzəli oğlu Qənizadə Azərbaycanda ana dilində məktəblər açılmasında, dərsliklər çap edilməsində, milli mətbuat və milli teatrın yaranmasında böyük işlər görmüşdür. O, dörd hissədən ibarət «Samouçitel russkovo yazıka», «Kilidi - ədəbiyyat», «Lüğəti – türki və rusi» və s. əsərlərinin müəllifidir. S.M.Qənizadə elmə yiyələnməyi vacib hesab edir, tərbiyəni də elmi biliklər üzərində qurmağı əhəmiyyətli sayırdı. İnsanların formalaşmasında tərbiyənin rolunu yüksək qiymətləndirir, insanların təbii imkanlarının tərbiyə vasitəsilə istedada çevrilməsini qeyd edirdi. İstər böyüyən nəslin tərbiyələnməsində, istərsə də Azərbaycanın ictimai - mədəni inkişafında müəllimlərin roluna yüksək qiymət verirdi. O əxlaq tərbiyəsi, insanlarda formalaşdırılacaq mədəni davranış qaydaları haqqında maraqlı fikirlər söyləmişdir. Qadını insan aləminin ziyarətgahı hesab edən ədib qızların tərbiyəsi, ailə və ailədə uşaqların düzgün tərbiyəsində onların roluna böyük əhəmiyyət vermişdir. O, öz əsərlərində qadın azadlığını təbliğ etmiş, qadınların iqtisadi – sosial asılılığını tənqid etmişdir.

Sultan Məcid Qənizadə böyük yazıçı və dramaturq idi. Onun ilk qələmə aldığı pyes "Qönçə xanım" adlanıb. Təəssüf ki, bu günə kimi bu əsər tapılmayıb. Rus ədiblərindən etdiyi tərcümələrlə yanaşı, Sultan Məcid xalq nağılları əsasında uşaqlar üçün mənzum, tərbiyəvi hekayələr yazmışdır.

Sultan Məcid Qənizadə böyük jurnalist idi. Qori Müəllimləri Seminariyasında işlədiyi müddətdən mətbuatda müntəzəm çıxış edən Sultan Məcid Qənizadə ən çox "Dəbistan" jurnalında çap olunardı. Ədəbiyyatşünas Firudin Hüseynovun yazdığına görə, Sultan Məcid Qənizadə Nəriman Nərimanovla yaxından dostluq etmiş və əqidə yoldaşı Həbibbəy Mahmudbəyovla birlikdə maarifpərvər bir mətbuat orqanı açmaq haqqında düşünürmüş. 1906-cı ildə nəşrə başlayan "Molla Nəsrəddin" jurnalının yaranışını alqışlayan və buna çox sevinən ziyalılarımızdan biri məhz Sultan Məcid Qənizadə olmuşdur.

Sultan Məcid Qənizadə müəllimliyə başladığı ilk gündən həyatını və yaradıcılığını millətinin oyanışına, tərəqqisinə, təhsilinə və işıqlı gələcəyə sahib durmasına bağlamışdı. Bir çox həmkarından fərqli olaraq Sultan Məcid Qənizadə yaradıcılığında da, pedaqoji fəaliyyətində də insanları mənəviyyata, əxlaqa çağırırdı. Qənizadə dünyəvi elmləri yorulmadan təbliğ etməklə yanaşı, hər kəsi insan olmağa, insaniyyətə, milliyyətə, Vətənə xidmətə səsləyərdi. O, bütün ibrətamiz öyüdlərində vətəndaş olduğunu, Vətənə bağlılığını ifadə edirdi.

S.M.Qənizadə təkcə dərsliklər tərtib etməklə kifayətlənməmiş, həm də şagirdlər üçün sinifdənxarıc oxu kitabları da tərtib etmiş və öz dostlarını da bu işə cəlb etmişdir. Təzəcə açılmış yeni tipli məktəbdə şagirdlərin yaş səviyyəsinə uyğun, sağlam məfkurəli oxu kitabları yox idi. S.Qənizadə belə bir vəziyyətin qarşısını almaq, şagirdləri sağlam məfkurəli ədəbiyyatla qidalandırmaq, onları birinci növbədə, mütərəqqi rus mədəniyyəti ilə tanış etmək məqsədi ilə "Nübar", "Cəmi-mərifət", "Çıraq" və N.Nərimanovla birlikdə "Sovqat" adlı uşaq qəzet və curnalları nəşr etməyə təşəbbüs göstər-

mişdir. Lakin S.M.Qənizadənin bu nəcib səyi çar senzurasına xoş gəlməmiş, onun bu təşəbbüsləri rədd edilmişdir .

S.M.Qənizadənin pedaqoji fikirlərində mərkəzi yerlərdən biri-ni müəllim məsələsi tutur. Bu fikirlər onun bir sıra bədii əsərlərin-də, xüsusilə "Müəllimlər iftixarı"nda öz əksini tapmışdır. S.M.Qə-nizadə tərbiyə işinin müvəffəqiyyətlə aparılmasında müəllimin bacarığını, istedadını yüksək qiymətləndirirdi. O, deyirdi ki, "Hü-nərli ustad xam dəmirdən səbirlə misri qılınc yapa bilirsə, yaxşı müəllim kəctab millətdən xoşəxlaq cəmiyyət hazırlaya bilər".

S.Qənizadə parta arxasında oturan körpə uşaqların arasında sabahın yaradıcılarını görür və onların düzgün tərbiyə olunmasını tələb edirdi. Onun fikrincə, müəllimin nəsihəti, tərbiyəsi hər cür bahalı şeylərdən, məsələn, qızıl həmayildən və mirvari kəlübənddən qiymətlidir. Çünki onlar sinə və gərdən zinəti ikən, bu, ruh və can nicatı üçündür.

Azərbaycanda mütərəqqi pedaqoji ideyalardan qidalanan və onu davam etdirən S.M.Qənizadənin pedaqoji irsi çox zəngindir. Onun əsərləri Azərbaycanda pedaqoji fikrin inkişafında müəyyən rol oynamış, onun təsis etdiyi ilk "Rus-Azərbaycan" məktəbi əsa-sında yaradılan məktəblərdə minlərlə azərbaycanlı balaları təlim – tərbiyə almış, onun dərslikləri, lüğətləri, bədii əsərləri və tərcümə-ləri azərbaycanlı balalarının və zəhmətkeşlərin zehni və mənəvi tərəqqisinə kömək etmişdir.

O dövr yazıçılarının bir çoxunu məşğul edən problemlərdən biri də qadın azadlığı məsələsi olub. Sultan Məcid Qənizadə müsəl-man aləmində əsrlər boyu davam edən qadın geriliyinə son qoymaq üçün "Gəlinlər həmayili"ndə öz fikirlərini oxucuların müha-kiməsinə vermişdi. Sultan Məcid Qənizadə bütün bunlardan sonra "Xalq düşməni" adlandırıldı və 1937 ci ildə dünyasını dəyişdi.

## 10.13. NƏRİMAN NƏRİMANOVUN PEDAQOJİ FİKİRLƏRİ

Nəriman Nərimanovun (1870-1925) Azərbaycan pedaqoji fikrinin və maarifinin inkişafında xidmətləri çox böyükdür. Böyük mütəfəkkir uşaq şəxsiyyətinin inkişafında tərbiyənin rolunu yüksək qiymətləndirirdi.

Nəriman Nərimanov uşaqlara dərin məhəbbətlə yanaşır, onların şəxsində gələcəyin qurucularını görürdü. “Nadanlıq” dramında köhnə kəndin dəhşətli mənzərələri, müəllimin çəkdiyi əzab-əziyyət təsvir edilir. Burada maarif ilə cəhalət, tərəqqi ilə irtica, yeniliklə köhnəlik qarşı-qarşıya gəlir. Maarifin ilk arzuları ilə kəndə müəllim gələn Məmmədağa addımbaşı manelərlə, düşmənlərlə üzləşir. Nəsihətlər, çağrışlar fayda vermir. Axırda qaçaq düşmüş qardaşı Vəli də ona düşmən kəsilir. Nəriman Nərimanov “Dilin bəlası, yaxud Şamdan bəy”, “Nadir şah” dramlarında saf məhəbbəti, Nadir şahın ölkədə apardığı islahatları təsvir edirdi.

Nəriman Nərimanov elmə, təhsilə yüksək qiymət verərək xalqın elmə və təhsilə yiyələnməsində 3 mühüm maneə olduğunu bildirdi. Bunlardan birincisi, atalarımızın elmsiz olmaları bizim qaranlıqdan işığa çıxmağımıza, yeni təhsil almağımıza, dünyəvi elmləri öyrənməyimizə mane olurdu. Təhsil işindəki II çətinlik köhnə məktəblərdə, xüsusilə mollaxanalarda hökm sürən təlim metodları idi. Milli qəzet, milli ədəbiyyat yox idi. “Ağızlarımız bağlı, fikirlərimiz dağınıq, halımız qayət-pərişan idi. Uşaqların təhsilini çətinləşdirən III məsələ analarımızın savadsızlığı idi. Bu yaman bəla, məşəqqətli müharibə idi” - deyən Nərimanov bunu gənclərin təhsilinə mane olan ən böyük bəla hesab edirdi.

N.Nərimanovun fikrincə, tərbiyənin məqsədi öz vətənini, xalqını sevən, mərd, mübariz, xeyirxah, insanlığa xidmət edən, elmi biliklərlə silahlanmış, mənəviyyatca pak, sağlam, gümrah, şüurlu insan yetişdirməkdir.

N.Nərimanov insan şəxsiyyətinin təşəkkülündə tərbiyənin rolunu yüksək qiymətləndirməklə ictimai mühitin də böyük rol oyna-

dığını qeyd edirdi.

N.Nərimanov tələb edirdi ki, uşaqlara düzgün tərbiyə vermək üçün valideynlər özləri tərbiyəli olmalıdırlar. İnsan düz olub, doğru danışmalıdır. Yalan və əyriliyin axırı yoxdur. Əvvəl-axır bu işlər aşkar olur və insanı bədnam edir.

N.Nərimanova görə tərbiyənin qüdrətli vasitələrindən biri və başlıcası məktəbdir. Məktəb xalqın, gənclərin tərəqqisi, tərbiyəsi üçün ən mühüm vasitədir. Tərbiyə elmin gücü ilə olar. Ona görə də məktəblərin olması vacibdir.

N.Nərimanov əxlaqa, əxlaq tərbiyəsinə, düzgünlüyə, doğruluğa, vətənpərvərliyə, millətsevərliyə, əməksevərliyə, xalqlar dostduğuna, iradəli olmağa, mərdliyə, cəsurluğa xüsusi əhəmiyyət verir və həmin keyfiyyətlərin gənc nəsildə tərbiyə edilməsinə zəruri sayırdı.

N.Nərimanov əməyi yüksək qiəmətləndirir və deyirdi ki, inşanın ruhunu ucaldan bir çox şey varsa, onun ən birincisi zəhmətdir. Onun fikrincə, əmək insanda dostluq, doğruçuluq, səmimiyyət, təvazökarlıq, sadəlik, insanpərvərlik kimi əxlaqi keyfiyyətlərin formalaşmasında mühüm rolu oynayır. İnsan əməyi sayəsində ucalır.

Nəriman Nərimanov müəllim əməyinə, müəllim şəxsiyyətinə həmişə yüksək qiymət vermişdir. O deyirdi ki, hər millətin mədəni tərəqqisi məktəblə, məktəbin tərəqqi tapması isə müəllimlərə bağlıdır. Müəllim yalnız uşaqların müəllimi deyil, həm də özünün müəllimidir. Uşaqlara qayğı və məhəbbəti olmayan müəllimin təlim və tərbiyəsi səmərəsiz və nəticəsiz qalar. Müəllimin uşaqlara şəfqəti olarsa, müəllim məqsədinə asanlıqla çatar.

Onun müəllimdən tələb etdiyi keyfiyyətlərdən biri, pedaqogikanı, təlim və tərbiyənin prinsip və üsullarını, psixologiyanı bilməsi və ona istinad etməsidir. O, şagirdlərin fərdi xüsusiyyətlərinə istinad etməyi təlim və tərbiyə işində müvəffəqiyyətin rəhni hesab edir və göstərir ki, ...hər uşağın özünə görə bir qeyri-xasiyyəti, təbiəti olmağı binaən hamıya bir qayda və qanun ilə dərs vermək, hamıya bir dildə bəyan etmək olmaz. Hamını bir ölçü ilə ölçmək olmaz.

Uşaqların bir parası zehinli, bir parası zehinsiz, fəhmsiz, bir parasının qüvveyi-hafizəsi qüvvətli, bir parasınınkı naqis, bir parası müdhiş hekayələr sevən, bir parası gülünc və fərəhli nağıllardan həzz alan olur. Uşaqlara məhəbbəti olan müəllim bunların hamısını mülahizə edər, hər kəsin öz biliyinə, qanacağına görə hərəkət edərsə, hər kəsin eyibinə görə çarə taparsa, əlbəttə, təilim və tərbiyə düz yol ilə gedib, tərəqqi dərəcəsinə çatar.

N.Nərimanovun müəllimlər qarşısında qoyduğu vəzifələrdən biri də dövlət və hökumət quruculuğu üçün ləyaqətli adamlar, cəsur, cürətli və dəyanətli, doğrucul və vicdanlı adamlar yetişdirməkdən ibarətdir. Həmin məktubda bir məsələyə xüsusi əhəmiyyət verən N.Nərimanov yazmışdı:

"Sizin tərbiyənizdən çıxan cavanlarımız gərək cəsur, cürətli və dəyanətli olsunlar. Yəni bir parça çörəkdən ötəri ikiüzlülük etməsinlər, filankəsin xoşuna gəlmək üçün qatığa qara deməsinlər".

N.Nərimanovun müəllimlər qarşısında qoyduğu üçüncü vəzifə daha genişdir. O göstərirdi ki, "Azərbaycan Şərq üçün bir məktəbdir. Yəni Şərq hazırki halında qalarsa, biz ona hər cəhətdən müəllim olacağıq".

N.Nərimanov pedaqogika və psixologiyanın nəzəri məsələləri ilə birlikdə pedaqogika tarixini də bilməyə, klassik pedaqoqları, keçmişin zəngin pedaqoji irsini öyrənməyə və ondan faydalanmağa böyük əhəmiyyət verirdi. O, böyük və fədakar pedaqoqların-müəllimlərin həyat və fəaliyyətindən gətirdiyi ibrətli misallarla göstərirdi ki, xalqını, zəhmət adamını, yoxsulları və məzlumları sevən müəllimlər onların xoşbəxtliyi və tərəqqisi üçün hər cür cəfalara və məşəqqətlərə dözməyə razı olmuşlar. Onlar yalnız sözlə deyil, əməli işlərində xalqa xeyirxah olduqlarını sübut etmişlər.

Nəriman Nərimanov müasir, yeni düşüncəli müəllim kadrlarının hazırlığını zəruri sayırdı. N.Nərimanov müəllim işini həkimliklə müqayisə edir və göstərir ki, "həkim azara görə dərman verdiyi kimi, müəllim də tələbə görə bilik verməlidir". O deyirdi ki, naxoşun ruhunu təmizləməkdənsə, qanını təmizləyin. İnsanın dili

onun qanıdır. Qan təmiz olanda ürək yaxşı işlədiyi kimi, dilin də saf olması millətin tərəqqisinə səbəb olur.

N.Nərimanov müəllim kadrları hazırlığı işinə xüsusi diqqət verməklə yanaşı, müəllimlərin qarşısında bir sıra mühüm vəzifələr qoymuşdur. Bu vəzifələrdən birincisi əmək məsələsidir. Cəmiyyətin əmək üzərində qurulması ideyasını əsas götürən N.Nərimanov belə hesab edirdi ki, müəllimlərdən təlim alan gənclər, ilk növbədə, əməksevər olmalıdırlar. 1924-cü ildə APİ-nin ilk məzunlarının buraxılışı münasibətilə yazdığı "Elmlərini yeni tamam etmiş müəllimlərə" açıq məktubunda bu məsələni ön planda qoyan N.Nərimanov demişdi:

- Əziz yoldaşlar! Təzə həyata qədəm qoymanızı təbrik edirəm. Vəzifəniz hər nə qədər çətin, ağır və məsuliyyətli bir vəzifədirsə, bunu da düşünməlisiniz: insanın ruhunu ucaldan çox şey varsa, onun ən birincisi zəhmətdir. Ona görə də, sizin tərbiyənizdə olan Azərbaycan balaları gərək zəhmətsevən olsunlar. Yəni başqasının yox, öz zəhmətinin qüvvəsinə ehtiyaclarını rəfedici olsunlar".

N.Nərimanovun istər bədii yaradıcılığı, istərsə də məqalələri geniş xalq kütlələrinin təlim və tərbiyə işində mühüm rol oynamış, onların qəflət yuxusundan oyanmasına, avamlığa, mövhümata, nadanlığa uymamasına kömək göstərmişdir.

Nəriman Nərimanov əxlaqın saflaşdırılmasında təhsilin və elmin ("Tərbiyə dəxi ancaq elmin gücünə olar") möhtəşəm gücünü xüsusi vurğulayırdı. Onun fikrincə, "Heç bir millət qılınc və tüfəng ilə qabağa getməyibdir. Hansı millət ki, irəli gedib tərəqqi edibdir, ancaq elmin gücünə xoşbəxt olubdur. Amma o millət ki, ümidini qılınca bağlayıb, həmişə zəlalətdə bulunubdur".

Nəriman Nərimanov elmə, təhsilə yüksək qiymət verərək xalqın elmə və təhsilə yiyələnməsində 3 mühüm maneə olduğunu bildirdi. Bunlardan birincisi, atalarımızın elmsiz, savadsız olmaları idi. Bu hal bizim qaranlıqdan işığa çıxmağımıza, yeni təhsil almağımıza, dünyəvi elmləri öyrənməyimizə mane olurdu. Təhsil işindəki ikinci çətinlik köhnə məktəblərdə, xüsusilə mollaxanalarda

hökm sürən təlim metodları idi. Milli qəzet, milli ədəbiyyat yox idi. “Ağızlarımız bağlı, fikirlərimiz dağınıq, halımız qayət-pərişan idi. Uşaqların təhsilini çətinləşdirən üçüncü məsələ analarımızın savadsızlığı idi. Bu bəla, “məşəqqətli müharibə idi” - deyən Nərimanov bunu gənc nəslin təhsilinə ciddi mane olan ən böyük bəla hesab edirdi.

O hələ Odessada Novorossiysk Tibb Universitetinin tələbəsi ikən Baxçasaraya (Krım) gedərək orada öz əsərlərindən ibarət teatr tamaşaları vermiş N.Nərimanov böyük türk ictimai-siyasi və maarif xadimi İsmayıl bəy Qaspralı ilə olan görüşü haqqında xoş təəssüratlarını da Tağıyevə məktub şəklində göndərmiş və 1914-cü ildə “Bəsirət” qəzetində dərc etdirmişdir. Millətin həyatına dair mühüm məsələlərdə doğru yol göstərənləri “kahramanlar” adlandıran Nərimanov həmin məqalədə və məktubda xüsusi olaraq qeyd edirdi ki, "Millət uğrunda bütün ömrünü sərf edən şəxsi millət unutmamalıdır

Nəriman Nərimanov ana dili və onun tədrisinə yüksək əhəmiyyət verir, Azərbaycan dilinin təmizliyə uğrunda mübarizə aparırdı. O, deyirdi ki, millətin dilini bilməmiş onun dərdinə dava etmək çətindir. Nəriman Nərimanov təlimin ana dilində aparlımasını zəruri sayırdı.

N.Nərimanov ana dilini xalqdan uzaq salanlara qarşı çıxmaqla, onların fikrini böyük etiraz və coşqunluqla rədd edir, ana dilinin tədrisi məsələsində haqqın, ədalətin qalib gələcəyinə inanırdı. Ana dilinin məktəb proqramından çıxarılmasını istəyənləri və buna görə əl çalanları mənasız hesab edən N.Nərimanov yazırdı: “Qoy çalsınlar! Lakin haqqı batil edə bilməyəcəklər. Bəşərin fitrət və təbiətində məknun olan hissiyyatı - aliyeyi nabud edəməyəcəklər!... Analarımızın laylalarını qulaqlarımızdan çıxarmayacaqlar, illər ilə bilüzum bir şey kimi ayaq altına aldıqları o gövhəri qiymətdən saqid ödəməyəcəklər. Ana dilimiz hər halda qüvvət tapacaqdır...”.

N.Nərimanov ana dilinin təlimi əhəmiyyətini göstərməklə bərabər, onun tərbiyəvi rolunu ayrıca qeyd edir. Ana dilinin tərbiyəvi əhəmiyyətindən bəhs edən N.Nərimanov uca səslə deyirdi: “Ana

dili! Nə qədər rəfiq, nə qədər ali, hissiyyati-qəlbiyyə oyandıran bir kəlmə! Nə qədər möhtərəm, müqəddəs, nə qədər əzəmətli bir qüvvə! Ana dili! Bir dil ki, mehriban bir vücud öz məhəbbətini, şəfqəti-madərananəni sənə o dildə bəyan edibdir. Bir dil ki, sən daha beşikdə ikən layla şəklində öz ahəng və lətafətini sənə eşitdirib, ruhun ən dərin güşələrində nəqş bağlayıbdır!". Ana dilinin tədrisinə böyük əhəmiyyət verən N.Nərimanov düzgün və asan yazıb oxumağa kömək edən, dövrün tələblərinə cavab verə biləcək bir dərslik – "Türk – Azərbaycan dilinin müxtəsər sərf - nəhfi" adlı məşhur kitabını yazmış və 1899-cu ildə Bakıda nəşr etdirmişdir.

Nəriman Nərimanov bu dərsliyi pedaqoji fəaliyyətinin nəticəsində yazmışdır. Kitabı yazmaqda əsas məqsədi ana dilində, xüsusilə imla qaydalarında sabit qayda-qanunun olmaması idi. Bu vəziyyət şagirdləri dolaşdırırdı. Bu da öz növbəsində gənc nəslin savadlanmasına mane olurdu. Azərbaycan dili və yazını digər millətlərin dili və yazısı ilə müqayisə edən N.Nərimanov göstərirdi ki, "bu zamanlar mədəniyyətli millətlər çalışırlar ki, dillərini və yazılarını asanlaşdırsınlar, lisan nə qədər asan olarsa o qədər tez yayılıb inkişaf tapar". Nərimanov yazı işini asanlaşdırmaq məqsədilə dilimizin tarixində ilk dəfə olaraq, Azərbaycan dilində durğu işarələri və onların işlədilməsi qaydaları haqqında geniş məlumat vermişdir.

Nəriman Nərimanov qrammatik formalara aid canlı danışıq dilindən, Azərbaycan şair və yazıçılarının əsərlərindən misallar gətirirdi. Bu dərslik uzun illər Azərbaycan balalarına ana dilinin qrammatikasını öyrətmək işində mühüm rol oynamışdır.

Nəriman Nərimanov həmçinin, S.M.Qənizadə ilə birlikdə "Sovqat" (1896) adlı şəkilli uşaq jurnalı və "Məktəb" (1900) adlı elmi-pedaqoji aylıq jurnal nəşr etmək təşəbbüsündə olmuşdur.

N.Nərimanov təbliğ etdiyi vətənpərvərliyi məhdud mənada deyil, geniş mənada götürürdü. O, öz sevimli vətəninin gələcək istiqlaliyyətini və xoşbəxtliyini heç bir vaxt başqa xalqın səadətindən ayırmır, onların birini digərinə qarşı qoymur, əksinə, bütün xalqların səmimi və mehriban yaşamaları uğrunda ardıcıl mübarizə apa-

rırdı. Onun fikirlərində fərdin mənafeyi Vətən və xalqın mənafeyi ilə birləşdirilir. O yazırdı: Siz özünüzü bir millətdən hesab edirsinizsə, özünüz üçün müəyyən bir vətən var isə, həmin millətin, həmin vətənin dərdi, qəmi sizin dərdiniz, qəminizdir və ya bir millət və ya Vətən üçün ümumi dərd və qəm olacaqdır.

N.Nərimanov vətənpərvərliyi əmək ilə, həm də hamının xeyrinə olan əmək ilə əlaqələndirir və Vətənin bütün övladlarını onun tərəqqisi yolunda çalışmağa çağırır. Onun fikirlərində həm fiziki, həm də zehni əmək yüksək qiymətləndirilir. O, bəşəriyyətin səadətini əməkdə görür, yüksək əxlaqi keyfiyyətlərin yaranmasında əməyə üstünlük verirdi.

N.Nərimanov dövrünün digər tərəqqipərvər ziyalıları kimi xalqı hər vəchlə ictimai tərəqqiyə səsləmiş, bu yolda Vətənə, xalqa xidmətin başlıca qayəsini ana dilinə məhəbbətdə görmüş, beynəlmiləlçiliyin, bəşəriliyin mayasını millilikdə axtarmışdır. Çünki "millilik olmayan yerdə bəşərilik yoxdur" – deyə hadisələrə ictimai məzmun verməyə çalışmışlar. Bu yönümdən onun "… Ana dili…nə qədər möhtərəm, müqəddəs, nə qədər əzəmətli bir qüvvə" ideyası bu sahədə olan əməli fəaliyyətini təyin etmək üçün qiymətli nümunədir.

Maarifpərvər ədib xalq arasında vətənpərvərlik ideyalarının qızğın təbliği üçün səy göstərərək, "Azərbaycan müəllimlərinin birinci qurultayında (1906) o, tərəqqipərvər maarif xadimlərinin Azərbaycan dilini icbari fənn kimi məktəblərdə yeni proqram əsasında tədrisinə və müəllimlərin hüquq bərabərliyinə nail olmağa çağırırdı. O, hələ məktəb oxuduğu vaxtlarda ikən müsəlmanların geri qaldıqlarını və bu sahədə geri qalmanın səbəblərini, tərəqqi yoluna düşmə çarələrin izləyir və fikirləşəirdi.

N.Nərimanovun vətənpərlərlik tərbiyəsi problemləri ilə əlaqədar ideyaları çox maraqlıdır. Onun xalqın həyatına, varlığına, tarixinə, mənəvi dünyasına, mötəbər pedaqoji irsinə son dərəcə həssas olan qayğıkeş münasibəti yeni düşüncə tərzindən aşkarlanması və nəcib, yüksək mahiyyətli ideya-nəzəri irsi vətənpərvərlik tərbiyəsi

baxımından dəyərli bir örnəkdir.

Nəriman Nərimanov yaradıcılığında ailə tərbiyəsi, qadın, qadına münasibət kimi məsələlər mühüm yer tutur. N.Nərimanov cəmiyyətin normal inkişaf etməsi üçün qızların təhsil almasını, elm öyrənmələrini zəruri sayırdı.

O ailə tərbiyəsinə yüksək qiymət verir və ata anaların övladlarının tətbiyəsi ilə ciddi məşğul olmağa çağırırdı ki, gələcəkdə övladları pis yollara düşməsinlər N.Nərimanovun oğlu Nəcəfə yazdığı məktubunda bu pedaqoji məsləhəti aydın görmək olur: “Heç ata-ana istərlərmi ki, uşaqları bədbəxt olsunlar. Heç istəməz ki, oğlu qazamatda illərlə çürüsün. Amma çifayda bunların hamısını görürük və gözlərimizdən qanlı yaşlar tökülür. Bəs lazım gəlmirmi bu, dərdin dərmanını tapaq. Nə vaxtadək qoca ata-analarımız sudlara düşəcəklər? Günah kimdədir. Bəyəm günah qazamatda çürüyən uşaqlarımızdadır? Xeyr, günah özümüzdədir. Vaxtında lazım olan tərbiyəni verməyib öz əlimizlə uşaqlarımızı odda yandırırıq. Bəs bunu bilə-bilə nə üçün uşaqlarımıza elə pərvəriş vermirik ki, nadanlığın əlindən xilas olalar? Necə verək tərbiyə? Halbuki özümüzdə lazım olan tərbiyə yoxdur? Bəli, gərəkdir, biz özümüz uşaqlarımıza tərbiyə verək, ta onlar da gələcəkdə öz uşaqlarını cürbəcür bəlalardan saxlasınlar. Tərbiyə dəxi ancaq elmin gücünə olar...” Məktubda həmçinin Nərimanov oğluna məsləhətlər verərək vəzifə-mənsəb arxasınca qaçmamağa, şəxsiyyət və idarələrdən mümkün qədər az asılı olan peşə və ya sənət seçməyi tövsiyə edir. Özünün də tibb sahəsini seçməsini kənar şəxslərdən az asılı olmaq və daha çox ruhi məmnunluq alması üçün etdiyini bildirir. Məktubda həmçinin Nərimanovun dünyaya, həyata baxışı, mühit, insanlar, hakimiyyət haqqında fikirləri öz əksini tapmışdır.

Nəriman Nərimanovun fikrincə tərbiyənin məqsədi öz vətənini, xalqını sevən, mərd, mübariz, xeyirxah, insanlığa xidmət edən, elmi biliklərlə silahlanmış, mənəviyyatca pak, sağlam, gümrah, şüurlu in-san yetişdirməkdir.

Nəriman Nərimanov insan şəxsiyyətinin təşəkkülündə tərbiyə-

nin rolunu yüksək qiymətləndirməklə ictimai mühitin də böyük rol oynadığını qeyd edirdi.

Nəriman Nərimanov tələb edirdi ki, uşaqlara düzgün tərbiyə vermək üçün valideynlər özləri tərbiyəli olmalıdırlar. İnsan düz olub, doğru danışmalıdır. Yalan və əyriliyin axırı yoxdur. Əvvəl-axır bu işlər aşkar olur və insanı bədnam edir.

Nəriman Nərimanova görə tərbiyənin qüdrətli vasitələrindən biri və başlıcası məktəbdir. Məktəb xalqın, gənclərin tərəqqisi, tərbiyəsi üçün ən mühüm vasitədir. Tərbiyə elmin gücü ilə olar. Ona görə də yeni tipli məktəblərin olması vacibdir.

Nəriman Nərimanov əxlaqa, əxlaq tərbiyəsinə, düzlüyə və doğruluğa, vətənpərvərliyə, millətsevərliyə, əməksevərliyə, xalqlar dostduğuna, iradəli olmağa, mərdliyə, cəsurluğa xüsusi əhəmiyyət verir və həmin keyfiyyətlərin gənc nəsildə tərbiyə edilməsini zəruri sayırdı.

Nəriman Nərimanov əməyi yüksək qiəmətləndirir və deyirdi ki, insanın ruhunu ucaldan bir çox şey varsa, onun ən birincisi zəhmətdir. Onun fikrincə, əmək insanda dostluq, doğruçuluq, səmimiyyət, təvazökarlıq, sadəlik, insanpərvərlik kimi əxlaqi keyfiyyətlərin formalaşmasında mühüm rolu oynayır. İnsan əməyi sayəsində ucalır.

Onun istər bədii yaradıcılığı, istərsə də məqalələri geniş xalq kütlələrinin təlim və tərbiyə işində mühüm rol oynamış, onların qəflət yuxusundan oyanmasına, avamlığa, mövhümata, nadanlığa uymamasına kömək göstərmişdir.

Nəriman Nərimanov əxlaqın saflaşdırılmasında təhsilin və elmin ("Tərbiyə dəxi ancaq elmin gücünə olar") möhtəşəm gücünü xüsusi vurğulayırdı. Onun fikrincə, "Heç bir millət qılınc və tüfəng ilə qabağa getməyibdir. Hansı millət ki, irəli gedib tərəqqi edibdir, ancaq elmin gücünə xoşbəxt olubdur. Amma o millət ki, ümidini qılınca bağlayıb, həmişə zəlalətdə bulunubdur".

N.Nərimanov Azərbaycan məktəb və pedaqoji fikir tarixində özünəməxsus orijinal fikirlərə malik bir sima olmuşdur.

## 10.14. ABBAS SƏHHƏTİN PEDAQOJİ İDEYALARI VƏ MÜƏLLİMLİK FƏALİYYƏTİ

Abbas Səhhət (1874-1918) Azərbaycan uşaq ədəbiyyatında şərəfli bir yer tutmaqla bərabər, həm də böyük pedaqoq, tərbiyəçi və müəllim, ictimai xadim olmuşdur. O Məşhəd və Tehran şəhərlərində mükəmməl tibb təhsili almışdır. 1900-cü ildə Tehran Universitetinin tibb fakültəsini bitirən və rus, ərəb, fars və fransız dillərini mükəmməl bilən gənc 1901-ci ildə Şamaxıya qayıtmış və həkimliklə yanaşı məktəblərdə Azərbaycan dilindən dərs demişdir. Məhz bu dövrdən etibarən o ədəbi-pedaqoji fəaliyyətə başlamış və artıq 1903-cü ildən məqalələri Şərqi-Rus qəzetində çap olunur. 1905-ci ildə "Yeni poeziya necə olmalıdır?" adlı məqaləsi, daha sonra "Poetik nitq", "Azadlığa mədhiyyə", "Oyanışın səsi" şerləri işıq üzü görür.

Abbas Səhhət vətənində "Yeni üsul" məktəblərinin açılmasının yorulmaz müdafiəçisi və təbliğatçısı olmuşdur. A.Səhhət yeni üsullu məktəbləri – "Üsuli-cədid" məktəbini, "Rus-Azərbaycan" məktəblərini yüksək qiymətləndirir, bu təhsil ocaqlarını "bütün dərdlərin əlacı", "bütün xəstəliklərin dərmanı" adlandırırdı. O, müəllimlərə müraciət edərək deyirdi ki, müəllim məcburiyyətdən sui-istifadə etməməlidir, onun fikirləri "millətin tərbiyəsinə, xalqa şüurlu surətdə xidmət etməyə yönəlməlidir".

A.Səhhətin elmi-pedaqoji fəaliyyətində yeni üsullu dərsliklər tərtib etməkdə mühüm yer tutur. Özünün həmyerlisi və sələfi S.Əzim, müasirləri S.M.Qənizadə, H.Mahmudbəyov və başqaları kimi A.Səhhət də öz şagirdləri üçün dərsliklər tərtib etmişdir. Onun şerləri dövrün məşhur pedaqoqları, o cümlədən M.Mahmudbəyov, A.Şaiq, F.Ağazadə tərəfindən tərtib edilən "Türk əlifbası" (1907), "İkinci il" (1908), "Gülzar" (1912), "Ədəbiyyat məcmuəsi" (1912) kimi dərsliklərə daxil edilmişdir. Bu kitablar məktəblilərin sevə-sevə oxuduqları dərsliklər idi. Bu kitablara daxil edilən hekayə və şeir parçalarının bir çoxu onun öz əsərləri, digərləri isə onun dünya

xalqları ədəbiyyatından etdiyi tərcümələr idi.

Yuxarıda deyildiyi kimi onun özü də dərslik tərtib etməkdə iştirak etmişdir. M.Mahmudbəyovla birlikdə hazırladıqları "Yeni məktəb" (1909) və "Türk ədəbiyyatına ilk qədəm" (1914) dərslikləri xüsusi əhəmiyyət kəsb edirdi. Dərsliyə verilən elmi-pedaqoji tələblər baxımından bu kitablar zəmanəmizin ən yaxşı dərslikləri hesab olunurdu. A.Səhhət elmə, məktəbə, təhsilə ana dilinə və ədəbiyyata, bunların təlim və tərbiyəvi əhəmiyyətinə ayrıca əhəmiyyət verirdi.

A.Səhhət, elmi, təhsili, məktəbi işıq, mərifət, cəhaləti isə düşmən adlandıraraq qorxmadan, cəsarətlə, işıq, mərifət dalınca getməyi, "Mərifətə sahib olmağı", "indiki düşməni-cəhaləti yox etməyi" tövsiyə etmişdir.

A.Səhhət şerlərində "Ayıl, ey ümməti-mərhumə ayıl",-deyə xalqın elmdən, təhsildən məhrum olan "ölmüş" nümayəndələrini ayıltmağa, təhsilə cəlb etməyə çağıraraq göstərir ki, "Xabi-qəmə aludə", "asudə" yatmaq vaxtı deyil, indi "mədəniyyət" dəmidir. Ona görə də elm və təhsil yolunda "mərdanə", səylə çalışmaq, buna "kəsb-ürfan" etmək lazımdır. A.Səhhət insanın təhsil üçün səy göstərməsini xüsusi qeyd edir və nikbinliklə göstərirdi ki, hər kəs təhsil alıb elmlərə yiyələnərsə, o, təbiət və cəmiyyətin sirlərini aşkara çıxara bilər, istədiyi kimi təbiəti dəyişdirər, hər çətin işi yerinə yetirər, məqsədinə nail olar.

A.Səhhətə görə "elm heç kəsin malı deyildir", təhsil mənsubiyyətindən və ictimai mənşəyindən asılı olmayaraq hamı üçün bərabər olmalıdır. Bunun üçün o, ana dilində yeni üsullu məktəblər açılmasını, ümumi icbari təhsilin həyata keçirilməsini tələb edirdi. A.Səhhət müəllimin işini məktəblə məhdudlaşdırmayıb, öz təsirini məktəbdən xaricə çıxararaq hər zaman, hər yerdə şagirdlərin təlim-tərbiyəsi qeydinə qalmağa, onlara müntəzəm rəhbərlik etməyə, nümunə olmağa çağırmışdır: istər məktəb daxilində, istərsə də məktəb xaricində müəllimlər gərək öz yetirmələrinin davranışına diqqət etsin, qüsurlarını təshih etməyi özünə borc bilsin... Müəllim

gərək bütün varlığı ilə onlar üçün nümunə olsun.

Dövrünün görkəmli maarifpərvərlərindən olan A.Səhhət ana dili və onun tədrisi məsələlərinə də xüsusi diqqət yetirmişdir. O, özündən əvvəlki qabaqcıl pedaqoqların dil haqqında fikirlərinə əsaslanaraq demokratik ideyalı müasirlərinin səsinə səs verir, ana dilində məktəblər açmaqda və Azərbaycan dilinin saflığı uğrunda mübarizədə fəal iştirak edirdi. A.Səhhət dili və ədəbiyyatı hər bir millətin qurtuluşunun əsası sayırdı, "...bu dünyanı biz lisanımız vasitəsilə öyrəndik, dilimiz vasitəsilə tərbiyə tapdıq; onu sevməmək olarmı?..." – deyə şair ana dilini sevməyə, onu öyrənməyə çağırırdı. A.Səhhətin pedaqoji fəaliyyətində diqqəti cəlb edən məsələlərdən biri də onun dövrü mətbuatda uşaq şerləri və hekayələri ilə çıxış etməsidir. Bu mənada onun "məktəb" adlı pedaqoji jurnalın və "Kəlniyyat" adlı Satirik jurnalın səhifələrində dərc olunan şerləri çox xarakterikdir. Uşaq psixologiyasına dərindən bələd olan A.Səhhətin uşaqlar üçün yazdığı şerləri uşaqlar tərəfindən sevilə-sevilə oxunurdu.

A.Səhhət gənc nəslin bədii estetik zövqünün formalaşmasına ayrıca əhəmiyyət verirdi. Onun 1916-cı ildə yazdığı "məktəblərdə nəğmə və musiqinin əhəmiyyəti" adlı məqaləsi bu mənada ayrıca əhəmiyyət kəsb edir.

Abbas Səhhətin yaradıcılığında və pedaqoji fikirləri içərisində Vətən anlayışı, Vətən sevgisi, Vətənə məhəbbət hissi çox güclüdür. Onun "Vətən" adlı bir şeri demək olar ki, Azərbaycan pedaqoji fikir tarixində Vətən haqda deyilmiş sözlərin bir növ məcmusu, onun yekunudur.

Abbas Səhhətin təsvir etdiyi Vətən sevgisi, Vətən məhəbbəti, vətənpərvərlik ideyaları öz dövründə uşaq və gənclərin mənəvi-əxlaqi tərbiyəsində mühüm rol oynadığı kimi, bu gün də – torpaqlarımızın bir hissəsi erməni daşnaklarının tapdağı altında olduğu, Vətən övladlarından bir milyonunun qaçqın, köçkün vəziyyətində çadırlarda, tələbə yataqxanalarında, Vətən, yurd həsrəti ilə yaşadıqları bir dövrdə daha aktual səslənir və xalqımızın bütün övladlarını,

xüsusilə də gəncləri vətənin azadlığı uğrunda mübarizəyə çağırır.

Abbas Səhhət 1906-cı ildə Şamaxıda açılan real məktəbdə müllimlik etdiyi zaman şair onunla yaxın olan yerli müəlimlərinköməkliyi ilə rus dilini əsaslı öyrənir. Və rus klassiklərinin əsərlərini həvəslə mütaliə edir. Bu illərdə Səhhət rus dilinin ən yaxşı mütərcimi kimi məşhurlaşır. O, eyni zamanda Qərbi Avropa şairlərindən Hüqo, Höte, Müsse, Hartmandan bir sıra tərcümələr edib.

Abbas Səhhət O uşaq ədəbiyyatını təsirli tərbiyə vasitəsi hesab etmiş və sələfləri M.Füzuli, Q.Zakir, S.Ə.Şirvaninin gözəl ədəbi ənənələrini davam etdirmişdir. O öz yaradıcılığı ilə uşaq ədəbiyyatı xəzinəsini xeyli zənginləşdirmişdir. Onun "Cücələr", "Quşlar", "Ana və bala", "Yaz", "İlk bahar", "Qış" kimi şerləri Azərbaycan uşaq ədəbiyyatının qızıl fonduna daxil olmuşdur. Şairin şerlərinin bir çoxu bu gün də balacaların dilinin əzbəridir.

Onun orta məktəbdə oxuyub, öyrəndiyimiz "Vətən" şeri vətənə sevgi, məhəbbət tərbiyəsində ən yaxşı şer nümunələrindən biri olub, qəlblərə təsir edən qüvvətli misraları ilə bu gün də yaddaşımıza həkk olunmuşdur:

Könlümün sevgili məhbubu mənim
Vətənimdir, vətənimdir, vətənim. ...
Vətənin sevməyən insan olmaz.
Olsa, ol şəxsdə vicdan olmaz.

Şairin pedaqoji mahiyyətli şerləri çoxdur. Şairin "Ata və oğul" şeri maarifləndirici və təhsilin təbliği baxımından qiymətlidir:

Ay dədə, dur get mənə çox şeylər al!
Bir dənə çanta, bir-iki dəftər al!
Mən dayım oğluyla gəlirdim bayaq,
Gördüm o məktəbdə oxur çox uşaq.
Durdum ora pəncərədən baxmağa,
Dərslərinə azca qulaq asmağa.
Dərsləri yetdikdə, dədə, axirə,
Oxudular elliyi birdən-birə.
Hamısının yaxşı tuturdu səsi,
Hər-kim ola görsə düşər həvəsi.

Çöldə məni gördü müəllimləri,
Tutdu apardı özü lap içəri.
Xeyli danışdırdı məni, dinlədi,
Sonra nəvazişlə mənə söylədi:
- De səni göndərsin atan məktəbə,
Elm oxuyub ta yetəsən mətləbə.

A.Səhhətin şerlərini yaşadan, hər şeydən əvvəl, onların uşaq yaşına və ruhuna münasib olmasıdır. Bu cəhətdən Abbas Səhhətin şerləri çox səciyyəvidir. "Yaz", "Qaranquş balaları", "Bağça" və başqa şerlər uşaqlarda müsbət hisslərin tərbiyəsinə yönəldilmişdir. Abbas Səhhətin uşaq şerlərini səciyyələndirən cəhətlərdən biri də onların uşaqları yoran, darıxdıran nəsihətçilikdən, quru mühakimələrdən uzaq olmasıdır. Uşağın təbiəti konkretlik, əyanilik tələb edir. Uşaqlar üçün yazılan əsərlər öz konkretliyi, parlaqlığı ilə fərqlənməlidir. A.Səhhətin "Cücələr", "Quşlar" və s. şerləri buna gözəl nümunə ola bilər. Abbas Səhhət əxlaqi ideyaları, mənəvi keyfiyyətləri konkret olaraq uşaqlara anlaşıqlı bir tərzdə çatdırmaq üçün təmsil janrından daha çox istifadə etmişdir. Təmsillərdə bir-birinə zidd cəbhənin nümayəndələri iştirak edirlər. Bu isə əxlaqi ideyaları dərk etməkdə uşaqlar üçün əyani-konkret material rolunu oynayır: əxlaqi fikir uşaqlara daha tez çatır. Digər tərəfdən, təmsillərdə yumor hissi güclü olur. Uşaqlar yumora daha çox meyl edirlər. M.Qorki bu münasibətlə yazmışdır: "...Elə düşünmək lazım deyildir ki, bütün uşaq kitabları istisnasız olaraq dərkedici material verməlidir... Bizə uşaqda yumor hissini inkişaf etdirən şən, maraqlı kitablar da lazımdır".

Məzmunu şifahi xalq ədəbiyyatından götürülmüş "Ulaq və Aslan", "Gün və külək" təmsillərində lovğalıq pislənilir. "Ulaq və Aslan" təmsilində lovğa ulaq aslanı öldürmək iddiasına düşür, lakin özü pis vəziyyətdə qalır: aslan onu parçalayır. "Gün və külək" təmsilində külək nə qədər güc verirsə, çobanın çuxasını çıxarda bilmir. Günəş isə öz istisi ilə buna nail olur. Bu təmsildən çıxan nəticə belədir: işi zorla yox, xoşluqla görmək lazımdır. "Ayı və arılar", "Ayı və şir" təmsillərində fikirləşmədən iş görmək tənqid olunur.

Birinci təmsildə bal yemək həvəsi ilə arıların yeşiyinə girən ayı, ikinci təmsildə isə ovladıqları dovşanı bölmək üstündə bir-birilə didişən, nəticədə ovu tülküyə verən ayı və şir gülünc vəziyyətdə qalırlar. Bu təmsillər əsasında uşaqlar bu nəticəyə gəlirlər ki, hər bir işi əvvəl fikirləşmək, sonra isə görmək lazımdır.“İki dana”, “Aşpaz və pişik” təmsillərində sözə baxmamaq pislənilir. “İki dana” təmsilində yoldaşının sözünə baxmayan dana, “Aşpaz və pişik” təmsilində isə qoca meymunun sözünə baxmayan meymunlar tələf olurlar. Böyük bağça yaşlı uşaqlar tərbiyəçinin köməyi ilə təmsillərdən belə nəticə çıxarırlar: yaşlıların sözünə baxmayan ziyan çəkər. “Qarışqa və milçək”, “Tülkü və qurd” təmsillərində lovğalıq tənqid edilir, zəhmətə məhəbbət təbliğ olunur. Yayda xörəklərə qonub yeyən, qışda isə ac qalan milçəkdən fərqli olaraq, qarışqa yayda qış üçün azuqə toplayır, heç kəsə möhtac olmur. Şair balaca oxucularını milçək kimi lovğa, tənbəl olmamağa, qarışqa kimi işgüzar və əməksevər olmağa çağırır.

Beləliklə, deyə bilərik ki, Abbas Səhhətin bədii yaradıcılığı, elmi-publisistik məqalələri, pedaqoji ideyaları yetişən gənc nəslin təlim və tərbiyəsi üçün bu gün də çox əhəmiyyətli və qiymətlidir

## 10.15. ABDULLA ŞAİQİN PEDAQOJİ FİKİRLƏRİ VƏ PEDAQOJİ FƏALİYYƏTİ

Abdulla Şaiq (1881-1959) böyük şair, müəllim, pedaqoq, tərbiyəçidir. Özünün dediyi kimi, o, həm pedaqoji fəaliyyəti ilə, həm də ədəbi əsərləri ilə gənc nəsli yeni ruhda tərbiyələndirmək məqsədini qarşıya qoymuşdur.

Abdulla Şaiq Mustafa oğlu Talıbzadə 1881-ci il fevralın 24-də Tiflisdə ruhani ailəsində dünyaya göz açmışdı. Ömrünün 34 ilini Azərbaycan təhsilinin inkişafına həsr edən Abdulla Şaiq maarif və məktəb işləri ilə məşğul olmuş, qadınlar üçün jurnal çıxarmaq, uşaqlar üçün bağça açmaq, kitabxana yaratmaq, kasıb uşaqları pulsuz oxutmaq yollarını arayıb tapmışdır. Eyni zamanda o, “Əlifba”

kitabı hazırlamış, müxtəlif dərsliklər və dərs proqramları hazırlamışdır.

"Laylay" adlı uşaq şeri ilə imzası mətbuat səhifələrində görünməyə başlayan Abdulla Şaiqin uşaqlar üçün yazdığı bir sıra şerlər dövrünün tanınmış "Dəbistan" və "Məktəb" uşaq-gənclər toplularında işıq üzü görmüşdü. A. Şaiq həm də 1910-cu ildə yazdığı "Gözəl bahar" pyesi ilə milli uşaq teatrının əsasını qoymuşdu.

1919-cu ildə Bakı Dövlət Universitetinin yaranmasından ilhamlanaraq "Tələbə və həyat" pyesini qələmə almışdır. O, xalq ədəbiyyatının toplanmasında və araşdırılmasında, Azərbaycan klassiklərinin və dünya ədəbiyyatının nadir incilərinin oxuculara çatdırılmasında da böyük rol oynamışdır. Onun Nizami, Füzuli, Nəsimi, Vaqif, Mirzə Fətəli Axundov, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Məhəmməd Hadi kimi böyük ədəbi simalar haqqındakı fikirləri bu gün də öz dəyərini qoruyub saxlayır. Başqa millətlərin ziyalıları ilə dostluq edən Abdulla Şaiq Şekspirin "Maqbet" pyesini, Conatan Sviftin "Qulliverin səyahəti" romanını, Puşkinin, Lermontovun, Krılovun, Qorkinin, Nekrasovun əsərlərini dilimizə çevirmişdir. Uşaq əsərlərinin böyük tərbiyəvi rolunu yaxşı başa düşən Abdulla Şaiq, başqa şair və yazıçılarla birlikdə, Azərbaycan uşaq ədəbiyyatını yeni-yeni əsərlərlə zənginləşdirmişdir. Abdulla Şaiqi uşaq ədəbiyyatına gətirən, hər şeydən əvvəl, onun yüksək vətənpərvərlik hissləri olmuşdur. Ədib özü bu münasibətlə belə yazırdı ki, şair – həm müəllim, həm də mürəbbidir. Xalqını və onun gələcəyi olan balaları sevən hər şair, hər yazıçı böyüklər üçün əsər yazdığı kimi, əziz balaları da unutmamalıdır. Onların da payını ayırıb verməlidir. Uşaqlar üçün əsər yazmaq asan deyildir. Bundan ötrü uşaqların daxili aləmini, maraq dairəsini yaxşı bilmək, həyata bir növ "uşağın gözü ilə baxmaq", onu düşündürməyi bacarmaq tələb olunur. Təsadüfi deyildir ki, V.Q.Belinski uşaq yazıçısı üçün yalnız istedad deyil, həm də xüsusi bir düha lazım olduğunu göstərmişdir. Uşaqlar üçün əsər yazmaq – məsuliyyətli, həm də şərəfli işdir. Uşaqlar olduqca həssasdırlar. Uşaqlıq təəssüratı

qüvvətli olub, bütün ömür boyu mühafizə olunur.

Abdulla Şaiqin uşaqlar üçün yazdığı "Xoruz", "Bənövşə", "Keçi", "Quzu", "Qızıl gül", "Qərənfil" və digər şerləri, "Tülkü həccə gedir", "Tıq-tıq xanım" kimi pyesləri uşaqlar tərəfindən indi də maraqla qarşılanır.

Abdulla Şaiqin şerləri milyonlarla gənc qəlbi yüksək mənəvi hisslərlə, saf duyğularla zənginləşdirmişdir. Ədibin tələbəsi şairə Mirvarid Dilbazi bu münasibətlə yazmışdır: "Şaiq şeri insanın ruhunu gəncləşdirir, saflaşdırır, onu gəncliyə, uşaqlığın nağıllı-laylalı dünyasına qaytarır. Bu sənət insana yüksək məqsədlərlə doğulduğunu öyrədir".

A.Şaiqin uşaq əsərləri üçün səciyyəvi cəhət onların dilinin sadəliyi və aydınlığıdır. Onun fikrincə sayılan dildə sadəlik, yığcamlıq, anlaşıqlıq hər cür əsər üçün, xüsusən uşaq əsərləri üçün zəruri şərtdir. Uşaqla hər dildə danışmaq olmaz, onunla, necə deyərlər, onun öz dilində danışmaq lazımdır. Əks halda əsərin ideyası balaca oxucuya çatmaz. A.Şaiqin bu cəhəti nəzərə alıb, uşaq şerlərini sadə dildə, oynaq vəzndə yazmağa çalışmışdır:

Ay pipiyi qan xoruz,
Gözləri mərcan xoruz!

Və ya:

Ala-bula boz keçi,
Ay qoşa buynuz keçi!

Abdulla Şaiq uşaqlarla onların öz dilində, həm də onlara yaxın olan mövzularda danışmağı bacarır. Onun əksər uşaq şerləri yığcamlığı, aydınlığı ilə uşaq qəlbinə tez yol tapır. Təsadüfi deyildir ki, Şaiqin bir çox şerləri uşaqların dilinin əzbəridir.

Abdulla Şaiqin ədəbi irsi kiçik yaşlı uşaqların tərbiyəsi üçün zəngin material verir. Onun bir çox şerlərində uşaqların təbiətlə tanışlığı və nitq inkişafı üçün müvəffəqiyyətlə istifadə etmək olar. Məlum olduğu kimi, təbiət – həyata təzəcə göz açan, ona yenicə bələdləşən körpə uşaqlar üçün sirli bir aləmdir. "Bu nədir?" refleksinin təsiri ilə uşaq bu aləmi öyrənməyə can atır. Quşlar, heyvanlar,

bitkilər aləmi, təbiətin əsrarəngiz gözəlliyi uşağı özünə cəlb edir. Təbiət uşaq üçün təkcə estetik zövq mənbəyi deyil, həm də idrak mənbəyidir. Təbiətlə tanışlıq uşaqların həyati təsəvvürlərini genişləndirir, onlarda düzgün dünyagörüşün formalaşmasına kömək göstərir. Uşaqların təbiətlə tanışlığında bədii ədəbiyyatın əvəzedilməz rolunu duyan A.Şaiq təbiəti tərənnüm etmiş, onlara fəsillər, heyvanlar, quşlar, bitkilər, sadə şəkildə təbiət hadisələri haqqında məlumat verməyə çalışmışdır. Onun bir çox şerləri ("Bahar", "Payız", "Payız gecəsi", "Qışın nəğməsi" və b.) balacaları ilin fəsilləri ilə tanış edir. Bu şerləri uşaq bağçasının böyük və məktəbə hazırlıq qruplarında oxumaq və qismən əzbərlətmək məsləhətdir.

Abdulla Şaiqin bitki və heyvanlara dair lirik şerləri uşaqları mədəni və vəhşi bitkilərə, vəhşi və ev heyvanlarının həyat tərzi ilə tanış edir. Abdulla Şaiq, müəllim-yazıçı kimi, uşaqları bitkilərə, heyvan və quşlara qayğı ilə yanaşmağa çağırır. Şairin 1928-ci ildə yazdığı "Qərənfil", "Bənövşə", "Qızılgül", "Zanbaq" kimi şerləri uşaqları gül və çiçəklərlə tanış etmək cəhətdən maraqlıdır. "Qərənfil" şerində uşaqlar qərənfilin çəhrayı, ağ, qırmızı, sarı rəngdə, həm də yaşıl saplaqlı olduğunu öyrənirlər:

Qərənfiləm mən,
Gözəl güləm mən,
Yaşıl saplaqlı
Bir sünbüləm mən...

A.Şaiqin 1906-cı ildə yazdığı "Xoruz", "Keçi", "Dovşan" və "Uşaq və dovşan" şerləri uşaqları heyvan və quşlarla tanış edən səmimi şerlərdir. Uşaqların dilinin əzbəri olan bu şerlər oynaq və axıcı yazılmışdır. Bunlar kiçik yaşı uşaqlar üçün ən münasib şerlərdir.

A.Şaiqin uşaqlar üçün yazdığı mənzum hekayə və təmsillərində tərbiyə məqsədləri ön plana çəkilmişdir. "Tıq-tıq xanım", "Tülkü həccə gedir", "Yaxşı arxa" mənzum hekayələrində yazıçı şəxsləndirmədən, yəni heyvan surətlərinin müəyyən adamları təmsil etməsi priyomundan istifadə etmişdir. Əxlaqi ideyanın uşaqlara daha tez çatması və əsəri cansıxıcılıqdan qurtarmaq üçün Şaiq nağıl jan-

rından istifadə etmişdir. Kiçik uşaqlar nağılı çox sevirlər. Nağıl öz maraqları süjet xətti ilə, canlı surətləri ilə uşağı daha çox cəlb edir.

Görkəmli yazıçı, alim, prof. Mir Cəlal Paşayev deyir: "Şaiq uşaqları bədii lövhələrlə düşündürməyi bacarır. O, vətən sevgisi, bəşəri məhəbbət, əmək sevgisi, ata-ana məhəbbəti, yoldaşlıq hissi, sədaqət, doğruluq, saflıq, mərdanəlik, etibar, alicənablıq kimi xüsusiyyətləri təbliğ edən əsərlərin hər birində bu duyğuları müstəqil dil ilə təriflәmir, canlı insan və ya alleqorik surətlər, maraqlı sərgüzəştlər vasitəsilə verməyə çalışır".

Abdulla Şaiq mənəvi-əxlaqi zənginliyə malik, kamil insanın yetişməsində tərbiyəyə xüsusi yer verir. Sağlam cəmiyyətin əsasını, bünövrəsini ilk ailə tərbiyəsi təşkil edir – qənaətinə gəlir. Tərbiyə qəlib kimi bir şeydir. İnsanın dünyagörüşünün formalaşması da həmin tərbiyə "qəlibləri"nin formasından, quruluşundan asılıdır. İnsanın alnına onun qatil, oğru, alçaq və ya sədaqətli, mərhəmətli, adil olacağı yazılmır. Onun yaşadığı mühit, şərait, aldığı tərbiyə sifətlərə, keyfiyyətlərə yiyələnməkdə rol oynayır.

Abdulla Şaiq sübut etmək istəyir ki, tərbiyənin ideya istiqamətindən asılı olaraq insan ağıllı, qabiliyyətli, düzgün və ya oğru, cəllad, cani də ola bilərlər.

A.Şaiq valideynlərin diqqətini ailə tərbiyəsinin düzgün qurulmasına cəlb edərək göstərir ki, ailədə xoş əhval-ruhiyyə, qayğı, səmimiyyət, inam, etibar və sədaqətlə aşılanmış bir iqlim yaranarsa, həmin ailədən nəslə xələl gətirən vətəndaş yetişməz. Ata-ana nəvazişi və sədaqəti ilə böyüyən uşaqlar cəmiyyət üçün ən lazımlı, hamıya örnək olacaq bir səviyyəyə çatırlar. Əks təqdirdə, uşaqlara qarşı laqeydlik, onlarla yersiz, qaba və sərt rəftar, ailədə despotizm səviyyəsində cansıxıcı şəraitin olması, yersiz cəza və qorxu hissinin mövcudluğu, uşaq psixologiyasının nəzərə alınmaması və sair kimi mənfi hallar gənc nəslin mənəvi-əxlaqi inkişafına ağır zərbə vurmaqla, onu cəmiyyət üçün ən qorxulu bir adama çevirər.

Abadulla Şaiq yazdığı əsərləri ilə, pedaqoji fikrləri və pedaqoji fəaliyyəti ilə zəngin ədəbi və pedaqoji irs qoyub getmişdir.

## 10.16. HÜSEYN CAVİDİN PEDAQOJİ GÖRÜŞLƏRİ VƏ MÜƏLLIMLIK FƏALİYYƏTİ

Hüseyn Cavid (1882-1943) mütəfəkkir şair, görkəmli dramaturq, böyük pedaqoq Azərbaycan ədəbiyyatı və pedaqoji fikir tarixində orijinal ədəbi simalardan biridir. Öz yaradıcılığı ilə Hüseyn Cavid Azərbaycan ədəbiyyatını zənginləşdirdiyi kimi, təlim və tərbiyəyə dair, şəxsiyyətin əxlaqi, mənəvi keyfiyyətlərinə dair orijinal fikirləri ilə pedaqoji fikir tarixini də zənginləşdirmişdir.

Hüseyn Cavid dövrünün çətinliklərini, mürəkkəbliyini dərindən dərk edərək xalqın, millətin tərəqqisini məktəbdə, müəllimlikdə görürdü. Məktəblərimizin o dövrdə geriliyinə acıyan ədib bunun səbəbini məktəb binalarının olmamasında, bu sahəyə lazımınca diqqət verilməməsində, savadllı müəllimlərin azlığında görürdü və "Növhə" adlı şerində yazırdı:

....İşlər fənadır, bir neçə məktəblər olmasa,
Onlarda can verən müəllimlər olmasa,
Qafqazda yox müəllimlərimiz, digər olmasa,
Bunlar ki var, sılahidi vallah gər olmasa,
Mütləq xərab ediblər təməddün binasını.

Cavid təlim-tərbiyə məsələlərindən və məktəbdən danışarkən məşhur bir məsəli diqqətə çatdırır: "Günəş girməyən evə təbib girər". Təlim və tərbiyə prosesinin həyata keçirilməsində məktəb binasını və sinif otaqlarını əsas təlim-tərbiyə ocağı hesab edir. Düşünür ki, məktəblər və məktəb binaları gözəl və görkəmli , havalı və uca yerlərdə tikilməlidir... Məktəb binası mümkün dərəcədə günəşli yerlərdə vaqe olmalı, rütubəti çox olan yerlərdən həzər edilməlidir..." Nə üçün? Çünki orada körpə uşaqlar oxuyur və tərbiyə alırlar. Günəşsizlik və rütubət isə bir çox xəstəliklərin mənbəyidir". Şair bu mövzudan bəhs edərkən özünün çətin şəraitdə oxuduğu və tərbiyə aldığı Sidqinin məktəbini xatırlayırdı. (Məktəb Bazarçayı üzərindəki camə məscidində yerləşdiyi üçün otaqları dar və rütubətli idi).

Cavid elmin, müəllimin rolunu sübut etmək üçün çox ibrətamiz, maraqlı və inandırıcı faktları təhlil edir və deyirdi ki, rahat və xoşbəxt yaşamaq üçün işləmək, bir peşəyə sahib olmaq vacibdir. Hər bir peşə sahibi yaxşı işləmək, nöqsanlarını anlayıb sənətində mahir olmalıdır. Belə bir məharəti, qabiliyyəti insanlar elmdən, məktəbdən öyrənirlər. H.Cavidin fikrincə, insan nə qədər öyrənir, nə qədər oxuyursa, yenə azdır. Buna görə də, gecə-gündüz oxumaq və hər şeydən xəbərdar olmaq lazımdır ki, Vətənə xidmət etməyin əsl yolunu axtarıb tapasan. Həyatda elə adamlara rast gəlmək olur ki, onlar azacıq bilikləri ilə fəxr edib, hər şeydən xəbərdar olduqlarını söyləyirlər:

“Bilmək, öyrənmək” öylə bir uçurum
Ki, intəhası yox, dibi yox...
“Bilirəm” söyləyən də var pək çox.

H.Cavid uşaqların fərdi xüsusiyyətlərini, qabiliyyətlərini nəzərə almağı müəllimlərə tövsiyə edirdi. Çöhrələr müxtəlif olduğu kimi, əxlaq və xarakterlər də müxtəlif olur. Müəllim nəzəriyyə ilə kifayətlənməməli, həm də axtarış aparmalı, xüsusi əməli istedada malik olmalıdır. H.Cavid müəllimlərə valideynlərin kömək etməsini zəruri sayırdı. Hüseyn Cavid məktəbdən, müəllimlərdən gənc nəslin təlim və tərbiyəsi qayğısına qalan ata-analar tərbiyə etməyi tələb edirdi. O, deyirdi ki, müəllimin hər sözü, hər duruşu, hər halı bütün şagirdlərə ciddi təsir göstərir. Müəllim öz sözü və nüfuzu ilə təkcə şagirdləri tərbiyə etmir. O, valideynlərə də qüvvətli təsir edir.

Cavid uşağın tərbiyəsində irsiyyət, mühit və tərbiyənin rolundan danışır. Bunların hər üçünün insanın yetişməsində mühüm rolu olduğunu göstərir. İnsan tərbiyəsində irsiyyətin mühüm amil olduğunu belə izah edir ki, bir uşağın sağlam və ya xəstə doğulmasında ata-ana məsuliyyətlidir. Hüseyn Cavid ailələrdə uşaqların rejim qaydalarına baxmadığını, düzgün tərbiyə almadıqlarını, erkən yaşlardan uşaqların müxtəlif xəstəliklərə düçar olduqlarının səbəblərini anaların savadsız və uşaqlara münasibətlərini, qulluq etmək qaydalarını bilmədik-lərindən irəli gəldiyini söyləyir. O, belə

qənaətə gəlir ki, cəmiyyətin rifahı ziyalı, iffətli analardan daha çox asılıdır. Valideynlər evdə uşağın təlim və tərbiyə işinə ciddi nəzarət etməlidir. Çünki uşaqların təlimə yiyələnməsi onları avamlıqdan, cəhalətdən xilas edər. Bu məsələdə H.Cavid "Qurani-Kərim"ə, Məhəmməd peyğəmbərin kəlamlarına istinad edib deyir ki, "Beşikdən qəbrədək elm öyrənin". "Elm Çində də olsa, gedib öyrənin". Hüseyn Cavid valideynləri ilk növbədə uşaqlarına ana dilini təmiz öyrətməyə çağırırdı. Belə ki, Hüseyn Cavid daim dilimizin saflığı, təmizliyi uğrunda mübarizə aparırdı. Ana dilimizin gözəlliyini, zənginliyini dərs dediyi tələbələrə təbliğ edirdi. O, gənclərə ana dilindən başqa digər dilləri də öyrənməyi tövsiyə edir və yazırdı: "Vətən övladı üçün lazımdır ki, bəzi mətbuatı oxumaq və öyrənmək üçün övladi vətən türk dilini bilməlidir. İkinci bir para hadisələrin və xəbərlərin məzmununu bilmək üçün fars dilini öyrənməlidirlər, üçüncü dini məsələlərlə məşğul olanlar ərəb dilini bilməlidirlər, dördüncü rus dilini əsaslı bilməlidirlər. O rus dilini ki, bizim vətəndə bəzi həqiqətləri və məsələləri bilmək və dərk etməkdə ən lazımlı vəsait sayılır və o dili öyrənmək və bilmək lazım və vacibdir". Göründüyü kimi H.Cavid təhsildə dil öyrənmək məsələsinə xüsusi diqqət yetirmiş və yetirmələrinə də bunu məsləhət görmüşdür.

Görkəmli pedaqoq, ədəbiyyatşünas alim, "İstiqlal" ordenli, Əməkdar Müəllim Lətif Hüseynzadə (2008-ci ildə, 106 yaşında dünyasını dəyişmişdir) 1918-1919-cu illərdə Naxçıvanda "Rüşdiyyə" məktəbində oxuyarkən İstanbulda təhsil almış Hüseyn Caviddən türk dili, Tehranda, Nəcəfdə təhsil almış onun böyük qardaşı Şeyx Məhəmməd Rasizadədən ərəb dili və onun kiçik qardaşı Qori Müəllimlər Seminariyasının məzunu olmuş Əlirza Rasizadədən rus dili dərsi almışdır.

Lətif Hüseynzadə Hüseyn Cavidin müəllimlik fəaliyyətindən də bəhs edərək yazır: "Mən Naxçıvanda "Rüşdiyyə" məktəbində oxuyurdum. Hüseyn Cavid bu məktəbdə dərs deyirdi. O, zahirən çox sakit və mülayim təbiətli idi...Çox danışmağı sevməzdi. Heç

vaxt sinifdə hirslənməzdi. Bəzən şagirdləri güldürər, özü də mənalı-mənalı gülümsərdi.

Hüseyn Cavid şagirdlərə çox da tələbkar deyildi. Lakin, şagirdlər onu çox sevdiklərindən həmişə dərsə hazırlıqlı gələrdilər. Dərsdə kifayətləndirici cavab verməyən şagirdə, o, təbəssümlə "Öyrənərsən!" - deyərdi. Hüseyn Cavidin dərs üsulu çox maraqlı idi. O, ədəbiyyat nəzəriyyəsinə aid sxemlər hazırlamışdı. Bu sxemlərdə ədəbi janrların növləri, bədii ifadə vasitələri, ədəbi cərəyanlar, klassik və şifahi ədəbiyyatda şer formaları və sair göstərilmişdi...

Hüseyn Cavid qız uşaqlarının təhsilə cəlb olunmasını çox istəyirdi. O, qız uşaqlarının məktəbdən yayındırılmasının və təhsildən uzaqlaşdırılmasının dinimizə də zidd olduğunu söyləyirdi. Sualı belə qoyurdu: "Əcaba, səkkiz-doqquz yaşında bir qız yalnız ibtidai, yaxud rüşdi təhsil görürsə, şəriətə müxalifmi zənn olunur?" Guya "qız tərbiyə görür-görməz itaətsiz olacaq" söyləyənlərin fikirlərini rədd edirdi. Valideynləri qız uşaqlarını məktəbə qoymağa çağırır və qızların tərbiyəsinə xüsusi fikir verilməsini, onların yüksək, əxlaq və mənəviyyata sahib olmalarını istəyirdi. Bu cəhətdən onun "Qız məktəbində" şeiri pedaqoji baxımdan çox dəyərli və əhəmiyyətlidir:

– Quzum, yavrum! Adın nədir?
– Gülbahar.
Pəki, sənin anan, baban varmı?
– Var.
Nasıl, zənginmidir baban?
– Əvət, zəngin, bəyzadə...
– Öylə isə, geydiyin geyim niçin böylə sadə?
Yoqmu sənin incilərin, altın biləziklərin?
Söylə, yavrum! Hiç sıqılma...
– Var əfəndim, var... lakin
Müəlliməm hər gün söylər, onların yoq qiyməti,
Bir qızın ancaq bilgidir, təmizlikdir ziynəti.
– Pək doğru söz... Bu dünyada sənin ən çoq sevdiyin
Kimdir, quzum, söylərmisin?
– Ən çoq sevdiyim ilkin

O Allah ki, yeri-göyü, insanları xəlq eylər.
– Sonra kimlər?
– Sonra onun göndərdiyi elçilər.
– Başqa sevdiklərin nasıl, yoqmu?
– Var...
– Kimdir onlar?
Anam, babam, müəlliməm, bir də bütün insanlar...

Hüseyn Cavidin pedaqoji cəhətdən çox böyük əhəmiyyət daşıyan digər bir şeri "Öksüz Ənvər" dir. Bu şeirdə Cavid müəllimlərə bildirmək istəyir ki, onlar uşaqlara qarşı diqqətli, mehriban, həssas və qayğıkeş olsunlar. Öz şagirdlərini yaxşı öyrənib tanısınlar, onların ailə vəziyyəti ilə yaxından tanış olsun və tələsik qərarlar çıxarmasınlar. Şer xəstə yatan və dünyasını dəyişən anaya qulluq və qayğı göstərən məktəbli Ənvərin iztirabı və laqeyd, qəzəbli müəllimin rəftarı haqqındadır….Ənvərin bir neçə gün dərsə gəlməməsi müəllimi hirsləndirmişdir. Müəllim isə Ənvərin dərsə gəlməməsinin səbəbini öyrənmədən, bir qayğı və diqqət göstərmədən pedaqojidən uzaq tələsik qərar qəbul edir:

Müəllim əkşi, çatıq yüzlə püritabü qəzəb,
Görüncə Ənvəri, qaldırdı:
– Ey! Çocuq, bana baq!
Sən, iştə hanki cəhənnəmdə, söylə, nerdə idin?
Düşünmə, söylə!
– Əfəndim, şey...
– Ah, dəni, yaramaz!
Nasıl da baq dalıyor, sanki tilkidir qurnaz!..
Çocuqcığazda cavab: iştə bir sükuti-həzin...
Gözündə dalğalanır incə bir bahar buludu,
O həp baqıb duruyor, yoqdur onda hiylə və suç...
Sükuta qarşı müəllim qəzəblə bir, iki, üç
Toqatlayınca, çocuq bircə kərrə hıçqırdı:
"Aman, vay, annəciyim!..", sonra qəşş olub getdi;
Bu səs sınıfda olan cümlə qəlbi titrətdi.

Hüseyn Cavid bu kiçik şerlə böyük pedaqoji məsələni müəllimlərə çatdırmaq istəyir ki, uşaqlara qarşı diqqətli, qayğıkeş və

mərhəmətli olsunlar. Uşaqları, onların ailədəki həyatını dərindən öyrənsinlər.

Hüseyn Cavid uşaqların məktəbə hazırlanmasında ev, ailə tərbiyəsinin roluna ayrıca yer verirdi. "Ev tərbiyəsi necə olmalıdır?" sualına ailələrdə mövcud olan xoşagəlməz tərbiyə üsulları ilə cavab verir: "Uşaqlar damdabacalarla qorxudulur. Başıaçıq çölə çıxsan göydən başına adamcıl qurd düşər. Qaranlıq bir yerə getsən cinlər, divlər səni təhdid edər" və i. a.

Şair ailə tərbiyəsində yalançılığı, kindarlığı, qorxaqlığı, itaətsizliyi, xurafat və mövhumatı tənqid edir və valideynlərin xoşagəlməz müraciət üsullarına qarşı çıxaraq yazır: "...Bir ana oğluna "Yavrum! Quzum! Get qardaşını çağır da gəlsin, yeməyini yesin" deyəcəyi yerdə, "Partdamış! Gəbərmiş! Get o çönənbəri çağır da gəlsin, zəhrimarını zoqqumlasın" - deyir".

Hüseyn Cavid tərbiyə işində anaların roluna böyük əhəmiyyət verirdi və bu məsələ onu daim qayğılandırırdı. O yazırdı: "Cocuq tərbiyəsinə diqqət etmək üçün tərbiyə görmüş analar lazım deyilmi? Hanı ana yetişdirəcək məktəblərimiz! Hər hansı qəzetəyə baxsan millət böylə? Vətən şöylə? - olmalı kimi bir çox məqalələr, xülyalar görünür. Lakin xülya ilə, boş xəyal ilə iş aşarmı? Vətəni, vətənin qiymət və əhəmiyyətini, tərəqqi və səadətini kimdən bəkləyə bilərik? Beli bükülmüş, ətəh və ətalətə uğramış ixtiyarlardanmı? Bir para biqeyd, laübali gənclərdənmi? Yaxud, saf, təmiz, məsum, ləkəsiz növzadlardanmı. Şübhəsiz ki, vətənə, millətə, millətin gələcəyinə ağlayacaq, tərəqqisinə çalışacaq olsa-olsa, ancaq ana qucaqlarında, məktəb sıralarında çırpınan məsumlar ola bilərlər. Fəqət bu növzadların yeyib-içməsinə, geyinib-gəzməsinə, təlim-tərbiyəsinə diqqət edəcək analar hanı?" Övladının tərbiəysi qeydinə qalmayan valideynləri Cavid əfəndi belə sözlərlə qınayır və söyləyir: "Xeyirsiz, xain, ədəbsiz övlad yetişdirib onları tərbiyə və islaha çalışmayan ata-analar, şübhəsiz ki, gələcəkdə namuslu, vicdanlı, heysiyyətli insanlara müsəllət olmaq üçün bir sürü əxlaqsız, bir yığın sərsəri yetişdirmiş olurlar. Böylə qeydsiz, tərbiyəsiz ata-

ananın nə dərəcə məsul olacağı... hər kəsə məlum və aydın bir həqiqətdir.... Bu gün azacıq təbiətə qarşı durub övladını tərbiyədən məhrum buraxanlar, yarınkı gün cigərguşələrinin zillət, fəlakət odunda yanıb-qovrulduqlarını ağlaya-ağlaya seyr edəcəklər… Cocuqlar məsumdurlar, onunçün etdikləri işlərin heç birinə məsul deyildirlər, onların hal və hərəkətlərindən məsul olacaq yalnız ata-analarıdır. Qızını, oğlunu tərbiyə etməkdə müsamihə göstərən valideyn qanun və əxlaq nəzərində şiddətlə məsul tutulmalıdır. Çünki cəmiyyəti-bəşəriyyə üçün müzür bir adam hazırlamış olurlar".

Lətif Hüseynzadə "Araz şahiddir" (Bakı, ADPU, 2018) kitabında yazır ki, türk ordu generalı  Kazım Qarabəkir Paşa 1918-ci ildə Naxçıvanı erməni işğalından qurtarmaq  üçün Naxçıvana  gəldiyi zaman Hüseyn  Cavidlə  görüşmüş, onunla  yaxından tanış olmuş və aralarında sıx dostluq münasibətləri yaranmışdır. Kazım Qarabəkir Paşa bir ordu generalı olmaqla bərabər  həm də rəssam, bəstəkar, şair, pedaqoq olmuşdur. O Naxçıvanda ordunu təşkilatlandırmış, məktəb açmış, kitabxana təşkil etmiş, teatr tamaşaları yaratmış, "Çocuklara öyüdlərim" adlı pedaqoji əsərini çap edilməsi üçün Hüseyn Cavidə təqdim etmiş və o əsər 1921 ci ildə ilk dəfə  Bakıda nəşr edilmişdir. Kazım Qarabəkir Paşa dostu Hüseyn Cavidə şer də yazmışdır.

*Nə qədər xoş təsadüf, nə mutluluq*
*İkimizdə bir zamanda, həp bərabər doğulduq,*
*Şer, sənət dünyasında ikimiz də şair olduq,*
*Sən ustad bir müəllim mən də qorxmaz bir əsgər*
*Bu millətə, bu vətənə, qılınc ilə qələm olduq.*

Paşanın belə səmimi, gözəl sözlərini Cavid əfəndi yüksək qiymətləndirdikdən sonra o da bədahətən paşanın böyük bir vətənpərvər, sərkərdə,-çox istedadlı bir şair olmasını ifadə edən belə bir şer söylədi:

*Sən bir əsgər, həm də böyük bir sərkərdə, qəhrəman*
*Sən bizim üçün Oğuz Kağan, heç yenilməz Alparslan*
*Sən həm qılınc, həm də qələm bu, millətə, bu vətənə*
*Hünərinlə xilas oldu düşmənlərdən Təbriz, Mərənd,*

*Naxçıvan*
*Gülür indi Anadolu torpağında Ərzurum, Qars, Ərdahan.*
*Gülür indi həm güneyli, həm qüzeyli, ana yurdum*
*Azərbaycan.*

Göründüyü kimi, Hüseyn Cavidin böyük şair olmaqla bərabər, həm də böyük ictimai xadim, böyük pedaqoq və müəllim olmuşdur.

## 10.17. ÜZEYİR HACIBƏYOVUN PEDAQOJİ FİKİRLƏRİ

Üzeyir Hacıbəyov (1885-1948) - Azərbaycan bəstəkarı, musiqişünas, alim, publisist, dramaturq, pedaqoq, tərcüməçi, dirijor və ictimai xadimdir. Bütün Şərqdə ilk opera və operettaların yaradıcısı olmuşdur. Üzeyir Hacıbəyov böyük pedaqoq, müəllim və tərbiyəçi olmuşdur.

Üzeyir Hacıbəyov Qori Müəllimlərlər Seminariyasını 1904-cü ildə bitirdikdən sonra Cəbrayıl qəzasının Hadrut kənd məktəbinin 3-cü paralel sinfinə müəllim təyin olunmuşdur. Bir müddət burada işlədikədən sonra 1905-ci ildə Bakıya gəlmiş, Bibiheybətdə - fəhlə rayonunda müəlimlik etmiş, zəngin pedaqoji-metodik təcrübə toplamışdır. O, sadə bir müəllimlik etməmiş, əhalinin savadlanması qayğısına qalmış, savad kursları təşkil etmiş, təbliğat işləri aparmış, "İrşad", "Həyat", "İqbal", "Kaspi" qəzetlərində müxtəlif imzalarla məqalələr yazaraq xalqı savadlanmağa, tərəqqi etməyə səsləmişdir.

Ü.Hacıbəyovun pedaqoji fikirləri sırasında ümumtəhsilin vacibliyi, məktəb şəbəkəsinin genişləndirilməsi və təlimin ana dilində aparılması, ana dilimizin saflaşdırılması və zənginləşdirilməsi, təhsilin məzmununun, təlim metodlarının səmərəliliyinin artırılması, müəllim hazırlığı, onun ictimai, pedaqoji-metodik vəzifələri və digər məsələlər bu gün də aktualdır. O, müzakirə, müqayisə, təhlil metodu ilə, əyanilikdən istifadə ilə şagirdlərdə yaradıcı təfəkkürün inkişafı ideyasını müdafiə edirdi. İbtidai siniflər üçün proqram və dərsliklərin tətribində yaş xüsusiyyətlərinin, bilik səviyyə-

sinin, xəlqiliyin, elmliyin, ardıcıllığın, həyatiliyin, tərbiyəediciliyin nəzərə alınmasını, öyrətmədə asandan çətinə, sadədən mürəkkəbə, məlumdan məchula, yaxından uzağa didaktik qaydaların gözlənilməsini tələb edir və yazırdı: "Unutmayaq ki, hər bir dərs yazıb-oxumağı öyrətməkdən başqa, bir də uşaqların tərbiyəsində xidmət etməlidir. Tərbiyəedici dərs isə heç bir vaxt quru öyüd-nəsihətdən ibarət olmamasıdır. Bəlkə öylə bir keyfiyyət halında yazılmalıdır ki, uşaq özü o keyfiyyətdən nəyin yaxşı, nəyin pis olduğunu anlasın". Üzeyir Hacıbəyov müəllimi "Millət xeyiri üçün iş görən" şəxs kimi qəbul edir, ona böyük tələbələrlə yanaşır, müəllimlik vəzifəsini çətin, mürəkkəb və məsuliyyətli bir iş olduğunu hesab edərək yazırdı: "Hər bir adam onun öhdəsindən gələ bilməz və hər adama müəllim deyib uşaqları ona tapşırmaq böyük xətadır".

Üzeyir Hacıbəyov kənd məktəblərində kənd təsərrüfatı peşələrinin öyrənilməsini mühüm iqtisadi, mənəvi amil kimi təqdir edir və göstərir ki, bağçılıq, dülgərlik, bostançılıq, arı saxlamaq, barama becərmək, əkin əkmək sənətlərini elə öyrətmək lazımdır ki, onun səmərəsi göz qabağında olsun – "Elm və maarifin fəzilətini nəsihət ilə qandırmaq çətindir, onu göz ilə göstərmək lazımdır".

Ü.Hacıbəyov müəllimlərin məişətinin, sosial vəziyyətinin, iş yerinin normallığını təlim-tərbiyə işində pedaqoji prinsip kimi götürür, əgər bu prinsip təmin olunmazsa, müəllimin işinin keyfiyyətsiz olacağı qənaətinə gəlir.

Üzeyir Hacıbəyov bir müəllim-pedaqoq kimi ana dilində məktəblərin açılmasına, ana dilli dərs kitablarının olmasına, məktəblərin yeni pedaqoji və metodiki prinsiplər əsasında qurulmasına xüsusi əhəmiyyət verirdi. O, təbliğat və təşviqat işləri ilə yanaşı praktik fəaliyyət göstərərək pedaqoji, metodiki əsərlər yazırdı: O, 1907-ci ildə "Türki-rus və rus-türki lüğəti"ni, "Hesab məsələləri" adlı kitablarını və s. dərslik və dərs vəsaitlərini yazmışdır.

Millətin oyanması işində mədəniyyəti zəruri şərt kimi qəbul edən Üzeyir Hacıbəyov deyirdi ki, XX əsrdə irəliləyən mədəniyyətin qarşısını heç bir şeylə almaq olmaz... cürətsiz cürətlinin həmişə

ayaq altısı olmuşdur. Cürətli oğul yox olan atasının evini abad edər, cürətsiz isə atasının abad evini xarabaya döndərər.

Üzeyir Hacıbəyov əsərlərində ailə tərbiyəsinə geniş yer verərək deyirdi ki, uşaqların düzgün inkişafı ilkin tərbiyədən ailə tərbiyəsindən çox asılıdır.

Valideynlər övladlarının tərbiyəsi qayğısına qalmalıdırlar ki, onlar sərbəst yaşamağa qədəm qoyduqda məişətin tikanlı yolundan qorxmasınlar. Onun fikrincə, valideynlər uşaqların bilikli, əməksevərlər və həyata hazır olan vətəndaşlar kimi yetişdirilməsinə məsuliyyət daşıyırlar.

Görkəmli vətənpərvər ana dilində yazıb danışmağı bacarmayan yalançı millətpərəstləri kəskin tənqid edir və bununla əlaqədar rus, “Avropa alim və filosoflarının” Azərbaycan dili haqqındakı fikirlərini iftixarla yada salırdı: Azərbaycan dili” ən kamil bir dildir ki, onun vasitəsilə insan ən ali fikirlərini və ən dəqiq hisslərini bəyanə qadirdir”.

Üzeyir Hacıbəyov ana dilinə xor baxanları, onu bilməməklə öyünənləri “zavallılar” adlandırır və deyirdi ki, ana dilinin qədrini bilməmək, gözəl və zəngin bir dilə malik olub onu qiymətləndirməmək bədbəxtlikdir. O, dilin sosial və mədəni funksiyasını yüksək qiymətləndirirdi: “Dilimizi öyrənməliyik, öz rifah və səadətimiz üçün öyrənməliyik, öz mədəniyyət və mərifətimiz üçün öyrənməliyik ki, öz ehtiyacımızın bəyanına qadir olaq”.

**Tapşırıqlar**

Aşağıdakılarla bağlı məlumatları müxtəlif mənbələrdən əldə etməyə çalışın. Topladığınız informasiyalar üzərində işləyin və onları sistemə salaraq formalaşdırmaqda olduğunuz banka daxil edin.

1. Azərbaycanda təhsilə dair Çar Rusiyasının həyata keçirdiyi siyasətin mahiyyəti ilə bağlı fikirlərinizi təqdim edin.
2. Rus-Azərbaycan məktəbləri hansı məqsədlə yaradılırdı? Fikrlərinizi arqumentləşdirin.
3. Qori seminariyasının məzunlarından kimlərin fəaliyyətindən bəhs edə bilərsiniz? Üzeyir bəy Hacıbəyov barəsində danışın.

4. Abbasqulu ağa Bakıxanovun tərbiyəyə dair fikirləri.
5. Mirzə Fətəli Axundzadənin yaradıcılığında milli-mənəvi dəyərlər.
6. Seyid Əzim Şirvaninin əsərlərində əxlaq tərbiyəsi.
7. H.Zərdabi əqli, əxlaqi, hissi-estetik tərbiyə və əmək tərbiyəsi haqqında.
8. M.T.Sidqi tərbiyə və təhsil haqqında.
9. Hüseyn Cavid tərbiyə və təhsil haqqında.
10. Cəlil Məmmədquluzadə dünyəvi təhsil və tərbiyə haqqında.
11. Rəşid Bəy Əfəndiyevin tərbiyə haqqında fikirləri.
12. Firudin Bəy Köçərlinin pedaqoji fəaliyyəti.
13. Mirzə Ələkbər Sabir tərbiyə və təhsil haqqında.
14. Ü.Hacıbəylinin pedaqoji fəaliyyəti.
15. Nəriman Nərimanovun tərbiyə haqqında fikirləri.

**Ədəbiyyat**


1. Abbasqulu ağa Bakıxanov. Klassik Azərbaycan ədəbiyyatı "Seçilmiş əsərləri". Bakı: Avrasiya pres, 2005.
2. Bağırov Ə. S.Ə.Şirvani və məktəb. Bakı: Maarif, 1986. 168 s.
3. Bəktaşi İ.H. F.Köçərlinin yaradıcılıq yolu. Bakı: Yazıçı, 1986.
4. Bəşirov V.P. Azərbaycan maarifpərvərlərinin mütərəqqi pedaqoji ideyalarının inkişafı (1870-1920-ci illər). Bakı: Oka-Ofset, 2008.
5. Köçərli F. Azərbaycan ədəbiyyatı. Bakı: Elm, 1985.
6. Hacıbəyli Üzeyir. Seçilmiş əsərləri iki cilddə. I cild. Bakı: Şərq-Qərb, 2005.
7. Mir Cəlal. Klassiklər və müasirlər. Bakı: Azərnəşr, 1973.
8. Əhmədov H.M. XIX əsr Azərbaycan məktəbi. Bakı: Təhsil, 2006.
9. Əhmədov H.M. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. Bakı: Təhsil. Elm, 2001.
10. Əhmədov H.M. Nəriman Nərimanov təlim və tərbiyə haqqında. Azərbaycan məktəbi, 1990, № 4.
11. Əhmədov H.M. Azərbaycan pedaqoji antologiyası. (XIX əsr-XX əsrin əvvəlləri). Bakı: Maarif, 2011.
12. Əhmədov H.H. Azərbaycanda Xeyriyyə cəmiyyətlərinin maarifçilik fəaliyyəti. Bakı, 1997.
13. Hüseynzadə L.T. Hüseyn Cavidi xatırlarkən. //"Azərbaycan müəllimi" qəzeti, 17 sentaybr, 1982.
14. Hüseynzadə R.L. Sidqi M.T. Dilimiz və məktəbimiz haqqında. Bakı: Müəllim, 2005.
15. Hüseynzadə R.L. M.Ə.Sabirin pedaqoji görüşləri, tərbiyəvi fikirləri və pedaqoji fəaliyyəti. // AMİ-nin xəbərləri. Xüs.buraxılış 2011, dekabr.

# XI FƏSİL. SOVET DÖVRÜNDƏ TƏHSİL VƏ PEDAQOJİ

**Əhatə olunan məsələlər**

11.1. SSRİ-nin ilk quruculuq illərində məktəb və maarif məsələləri. Sovet məktəbi və Sovet pedaqogikası
11.2. Görkəmli Sovet pedaqoqları: Anatoli Vasilyeviç Lunaçarski, Stanislav Teofiloviç Şatski, Anton Semyonoviç Makarenko.

## 11.1. SOVET MƏKTƏBİ VƏ SOVET PEDAQOGİKASINA BİR NƏZƏR

Rusiyada bolşeviklər hakimiyyətə gəldikdən sonra (1917-ci ilin oktyabrı) Rusiyanın həyatında köklü dəyişikliklər baş verdi, o cümlədən də təhsil sahəsində böyük yeniliklər, islahatlar baş verdi.

O dövrün hakim qüvvələri (bolşeviklər) məktəbdən öz hakimiyyətləri üçün bir vasitə kimi istifadə edirdilər. Onlar RKP-nin VIII qurultayında (1918) bəyan etdilər ki, rus inqilabının taleyi müəllim ordusunun sovet hakimiyyəti tərəfində olmasından birbaşa asılıdır. Bu məqsədlə də onlar 1918-ci ilin yanvarında məktəb direktoru və inspektoru vəzifələrini ləğv etdi. Məktəbin idarə olunması fəhlə-əsgər-kənd deputatları sovetinə, təhsilə ümumi rəhbərlik isə maarif üzrə Dövlət Komissiyasına tapşırıldı.

I. Beynəlmiləl Müəllimlər İttifaqının yaradılması əsas vəzifələrədən biri idi. Sovet hökuməti demokratik ruhlu müəllimlərin demokratik tələblərinə əhəmiyyət verməyərək “Ümumrusiya Müəllimlər İttifaqı”nı ləğv etdi (hansı ki, bu təşkilat demokratiyaya xidmət edirdi). Onun əvəzinə bolşeviklərin tam nəzarətində olan “Beynəlmiləlçi Müəllimlər İttifaqı” təşkil olundu və bu təşkilatın 1918-ci ilin iyununda qurultayı keçirildi ki, bu qurultayın da əsas məqsədi bütün müəllimlərin bolşeviklərin tərəfində mübarizə aparmaq məqsədi idi. Çünki, müəllimlərə böyük ehtiyac var idi. Rusiyada əhalinin cəmi 23%-i savadlı idi.

SSRİ-də maarif üzrə Dövlət Komissiyası 1918-ci ildə əsas-

namə hazırladı (A.V. Lunaçarski və N.K. Krupskayanın rəhbərliyi ilə), həmin ildə (1918 avqust) çağırılmış xalq maarifi üzrə Birinci Ümumrusiya qurultayında hər iki sənəd ("Vahid əmək məktəbinin prinsipləri" və "Vahid əmək məktəbi haqqında əsasnamə") qəbul olundu. Burada iki dərəcəli vahid məktəbin yeni sistemi qəbul edildi – birinci dərəcə 5 illik, ikinci dərəcə 4 illik. Bu iki dərəcə birlikdə doqquzillik orta ümumtəhsil məktəbini təşkil edirdi.

1918-ci ilin yanvarın 21-də kilsəni dövlətdən, məktəbi kilsədən ayıran dekret verildi və dinin tədrisinə qadağa qoyuldu. Məktəblərdə kommunist ideologiyası təbliğ olundu və oğlanlarla qızların birgə təliminə başlandı. Ölkədə savadsızlığı ləğv etməklə bağlı 1920-ci ildə N.K. Krupskayanın rəhbərliyi ilə Ümumrusiya fövqəladə komissiyası yaradıldı. Bu proses "Mədəni inqilab" adlandırılaraq sosializm quruculuğunun əsas şərti hesab edildi.

II. Vətəndaş müharibəsi dövründə dağıdılmış məktəblər yenidən təşkil olundu. 1920-ci ildə Maarif Komissarlığı sovet məktəbinin ilk tədris plan və proqramlarını nəşr etdi. İnqilabın tam qələbəsindən sonra dinc quruculuq şəraitində məktəbin inkişaf yolunu müəyyən etmək üçün 1920-ci il dekabr ayının 31-dən 1921-ci il yanvarın 4-nə qədər xalq maarifi üzrə partiyanın birinci müşavirəsi keçirildi.

Həmin tarixdə müşavirənin qərarı ilə ümumtəhsil məktəbi – yeddiillik məktəb qəbul olundu. Bu məktəb təhsil müddəti 3-4 il olan texnikumlar və başqa sənət məktəbləri üçün baza vəzifəsini görməli idi. Mövcud orta məktəblərdə VIII-IX siniflərin ləğv olunması nəzərdə tutuldu. Müşavirə fəhlə uşaqları üçün fabrik-zavod şagirdliyi məktəbinin yaranmasını zəruri hesab etdi.

Bu dövrün əvvəlində belə bir məktəb sistemi qəbul edildi: bir dərəcəli məktəb – 4 sinifli (8 yaşdan – 12 yaşa qədər – Azərbaycanda ibtidai məktəb 5 illik olmuşdur), yeddiillik məktəb – 7 sinifli (8 yaşdan – 15 yaşa qədər), doqquzillik məktəb – 9 sinifli (8 yaşdan – 17 yaşa qədər). Bu dövrdə istehsal əməyi ilə əlaqədar bir sıra sənət – texniki məktəblər də əmələ gəlirdi. 1921-ci ildən tədris müddəti 4

il olan FZŞ məktəbləri sürətlə inkişaf etməyə başladı. Əvvəllər ibtidai məktəb üzərində qurulan FZŞ məktəbi, sonradan 7 illik ümumtəhsil bazasına çevrildi. 1925-ci ildə FZY (fabrik – zavod yeddiilliyi) meydana çıxdı və sürətlə inkişaf etdi.

1923-cü ildə kəndlərdə yeni tip olan kəndli gənclər məktəbləri (KGM) yarandı. KGM ibtidai məktəb üzərində qurulmuş və tədris müddəti 3 il olmuşdur. Bu məktəblər uşaqlara həm ümumtəhsil, həm də aqronomiyadan, texnikadan və kənd təsərrüfatının təşkilindən xeyli məlumat verildi. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin üçüncü sessiyası 1928-ci ilin may ayında ümumi icbari ibtidai təhsil barədə qanun qəbul etmişdir. Həmin qanun maarif orqanları qarşısında 1928-1929-cu dərs ilindən etibarən on il müddətində icbari ibtidai təhsili həyata keçirmək vəzifəsini qarşıya qoymuşdur.

RSFSR Xalq Komissarları Soveti 1929-cu ilin fevral ayında orta məktəblərdə tədris müddətinin on il olması haqqında qərar qəbul etmişdir.

1930-cu ildə ölkədə icbari ibtidai təhsil (4 illik) həyata keçirilməyə başlandı.

Bu dövrdə tədris üsullarının tətbiqində bir sıra kobud səhvlərə yol verilmişdi. Bəzi orta məktəblərdə "Dalton-plan" deyilən üsul tətbiq olunmuşdu. "Dalton-plan"a əsasən şagirdlər müəllimin yazılı tapşırığı üzrə ya fərdi, yaxud 3-5 nəfər briqada ilə özləri işləyirdilər, sonra isə müəllimə hesabat verirdilər. Bu üsul sinif-dərs formasını dağıdır, müəllimi isə məsləhətçiyə çevirirdi. ABŞ-da yaradılmış "Dalton-plan" dərsin səmərəsini və müəllimin rəhbər rolunu zəiflədir, şagirdlərin biliyini hesaba alınmasında məsuliyyətsizlik əmələ gətirirdi.

1930-1941-ci illər SSRİ-də ümumi icbari ibtidai təhsilin həyata keçirilməsi, sovet məktəbində təlim-tərbiyə işlərinin yenidən qurulması və sovet pedaqogikasının xeyli dərəcədə müvəffəqiyyət əldə etməsi dövrüdür.

1930-1934-cü illərdə ümumi icbari təhsil kəndlərdə ibtidai məktəb həcmində, şəhərlərdə isə yeddiillik məktəblər həcmində hə-

yata keçirilmişdi. Həmin illərdə təlim prosesində müəllimin rolu daha da yüksəldi, tərbiyə işlərini yaxşılaşdırmaq məqsədi ilə sinif rəhbəri vəzifəsi yarandı. Təlim-tərbiyə zamanı məktəbdə tərbiyə işlərinin güclənməsinə diqqət artırıldı.

1933-cü ilin yazından bütün məktəblərdə ilk dəfə olaraq sinifdən-sinfə keçirmək üçün yoxlama imtahanları keçirildi.

Bu dövrdə uşaqların fiziki tərbiyəsi sahəsindəki işlər yaxşılaşmış, uşaqların bədən tərbiyəsinin əsasında "Əməyə və müdafiəyə hazır ol" kompleksi qoyulmuşdu. Şagirdlərin estetik tərbiyəsinə diqqət artırılmışdı.

1934-cü ildə "İbtidai və orta məktəblərin quruluşu haqqında" qəbul olunan qərar üzrə mövcud məktəb sistemi dəqiqləşdirilmişdi: I-IV sinfə qədər ibtidai məktəb, I-VII sinfə qədər natamam orta məktəb, I-X sinfə qədər onillik tam orta məktəb adlandırılmışdı. Həmin qərarla "qrup" sözü "sinif" istilahı ilə əvəz edildi. Natamam və tam orta məktəbdə keçmişdə "məktəb müdiri" əvəzinə, "məktəb direktoru" vəzifəsi müəyyən olundu ki, bu vəzifəyə azı üç illik müəllimlik staji olan ali təhsilli müəllimlər təyin edilə bilərdilər.

1932-1936-cı illərdə əsası 1893 -cü ildə Amerika alimi Oskar Krismen tərəfindən qoyulan "Pedologiya" elmi meydana çıxmışdı ki, məktəblərdə də pedologiya deyilən bir sistem tətbiq olunurdu. Pedologiya - yunan sözü olub "Uşaq haqqında elm" deməkdir. Yəni, uşağın psixologiyasını, fiziologiyasını, sağlamlığını, intellektual səviyyəsini, qabiliyyətini, istedadını, inkişafını nəzəri və praktik cəhətdən kompleks öyrənənən bir elmdir.

Pedologiyanın 4 əsas prinsipi vardır: 1) Uşağın öyrənilıməsinə kompleks şəkildə yanaşmalı. Yəni onun fiziki, psixoloji, əqli, əxlaqi, mənəvi, sosial, intellektual hazırlığı vəhdətdə öyrənilməlidir ; 2) Uşağın inkişafının onun genləri, irsi kökləri ilə bağlılığı; 3) uşağın tərbiyəsi və inkişafının sosial şərtlər və şəraitlə bağlılığı; 4) Uşaqların istedad və qabiliyyətlərinin və ya çətin, ya da mürəkkəbliyinin testlərlə yoxlanması.

O dövrdə Azərbaycanda "Təhsil sahəsində Elmi-Tədqiqat

Pedologiya İnstitutu” fəaliyyət göstərirdi ki, o bu günkü "Azərbaycan Respublikasının Təhsil İnstitutu"nun sələfidir. Pedalogiya ölkənin siyasətinə uyğun olmadığından 1936 -cı ildə "Yalançı elm" adlandırılaraq ləğv edildi.

III. 1940-1941-ci tədris ilində şəhər və kənd məktəbləri yeni ümumi tədris planı qəbul etdi, 1940-ci ildə məktəb yaşlı uşaqlar dəqiq hesaba alındı və onların məktəbə davamiyyəti üzərində nəzarət artırıldı. Bu illərdə müəllim hazırlayan pedaqoji müəssisələrin sayı artdı, universitet məzunlarının daha çox hissəsi məktəblərə müəllim kimi göndərildi.

1941-ci il iyunun 22-də faşist Almaniyası müharibə elan etmədən SSRİ-yə hücum etdi. Tarixdə misli görünməmiş müharibə şəraiti ağır təsirini xalq maarifi sahəsində də göstərdi. Yuxarı sinif şagirdləri, müəllimlər, ali məktəb tələbələri könüllü olaraq vətənin müdafiəsinə getdilər. Qalanlar isə arxa cəbhədə - müdafiəyə lazım olan işlərə qoşuldular.

Müharibə illərində məktəbdə ictimai-faydalı işlər geniş yer tutdu. Cəbhə yaxınlığında olan uşaqlar uzağa köçürüldülər. Müharibə yeddiillik icbari təhsilin həyata keçirilməsini çətinləşdirdi. O zaman belə bir səhv fikir yayılmışdır ki, müharibə zamanı guya oxumaqla deyil, yalnız hərbi işlərlə məşğul olmaq lazımdır. “Pravda” qəzetində dərc edilmiş xüsusi göstərişdə bu cür fikirlər rədd edildi və göstərildi ki, heç bir müharibə çətinliyi məktəb və tərbiyə işini dayandıra bilməz.

Beləliklə, müharibə zamanı ümumi təhsilin həyata keçirilməsi davam etdi və uşaqların məktəbdən yayınması hallarına yol verilmədi.

Məktəbin bütün tədris və tərbiyəvi işləri bu dövrdə mübariz vətənpərvərlik səciyyəsi aldı. Böyük Vətən müharibəsi illərində kolxoz və sovxoz tarlalarında şagird əməyi böyük tərbiyəvi rol oynadı; əmək möhkəm kollektiv yaratdı, uşaqların görüş dairəsini genişləndirdi və təsərrüfata da xeyli fayda verdi. 1941-1945-ci illərdə şagirdlərin davranışına da xüsusi diqqət verildi. 1943-cü ildə

təsdiq olunmuş “Şagirdlər üçün qaydalar” şagirdlərin məktəbdə və məktəb xaricində mədəni davranış qaydalarını müəyyən etdi. “Qaydalar” mühüm dövlət sənədi idi.

Tərbiyə işlərini yaxşılaşdırmaq məqsədilə bir sıra tədbirlər həyata keçirildi: 1943-cü ilin iyul ayında böyük şəhərlərdə oğlanlarla qızların təlimi ayrıldı (bu, istənilən nəticəni vermədiyi üçün 1954-cü ildə yenidən əvvəlki vəziyyət bərpa olundu). 1944-cü ilin yanvarında bilikləri qiymətləndirmədə beş bal sistemi qəbul edildi. Həmin ilin iyun ayında Komissarlar Soveti “Məktəbdə təlimin keyfiyyətini yaxşılaşdırmaq haqqında” qərar qəbul etdi. Bu qərar üzrə ibtidai və yeddiillik məktəbdə buraxılış imtahanı, orta məktəb üçün kamal attestatı imtahanı, əlaçılara isə qızıl və gümüş medal vermək məsələsi qəbul olundu.

Müharibə qələbə ilə bitdikdən sonra 1946-1950-ci illər üçün qəbul olunmuş beşillik plan xalq təsərrüfatının, maddi və mənəvi nemətlərin, elm və mədəniyyətin yalnız bərpasını deyil, həm də inkişaf etdirilməsini nəzərdə tuturdu. Başqa sahələrdə olduğu kimi, bütün təlim-tərbiyə müəssisələrində aparılan işlərin keyfiyyəti yüksəldilməli idi.

IV. Partiyanın XIX qurultayının 1951-1955-ci illər üçün qəbul etdiyi beşillik plan üzrə kəndlərdə ümumi icbari təhsil tamamlanmalı, böyük şəhərlərdə isə orta təhsilin və politexnik təlimin həyata keçirilməsinə başlanmalı idi.

Xalq maarifi və tərbiyə məsələləri üzrə dövlətin mühüm tədbirlərindən biri də məktəblərdə günü uzadılmış qrupların yaradılması, yasli və bağçalar uşaqların dövlət hesabına tərbiyə edilməsi idi.

Bu illərdə pedaqoji institutlar dörd illik tədris müddətindən beş ilə keçmiş fakültələrin təmayülləri genişləndirilmiş, ibtidai məktəb üçün ali təhsil verən ibtidai məktəb fakültələri açılmışdı. Müəllimlərin ixtisasını artırmaq üçün qiyabi təhsil genişləndirilmiş, qiyabi oxuyan müəllimlərə əlavə məzuniyyət verilmiş və onlarla aparılan metodik işlər gücləndirilmişdi.

1957-1958-ci tədris ilində RSFSR-in 50 məktəbində 11 illik təlim müddəti qəbul edildi. Bu məktəblərin yuxarı sinif şagirdləri həftədə üç gün istehsalatda işləməli idilər. 1953-cü ildə 11 illik məktəblərin təcrübələrini yekunlaşdırmaq üçün geniş müşavirə keçirildi. Müşavirə müəyyən etdi ki, bu təcrübə müsbət nəticə verir, həftədə üç gün istehsalatda işləməklə şagirdlər orta ümumi və politexnik təhsil alırlar, istehsalat sahəsində müəyyən bilik və vərdişlər qazanırlar, peşəyə yiyələnirlər, məhsuldar əməyə qoşulurlar.

Dövrün tələblərinə müvafiq olaraq 1960-1970-ci illərdə uşaq şəxsiyyətinin formalaşması prosesi pedaqoji tədqiqatlar üçün əsas mövzu hesab edildi.

V. 1980-ci illərdə həyatımızın bütün sahələri siyasiləşdiyindən siyasi tərbiyə məsələləri gündəmə gələrək pedaqoji tədqiqatların, məktəb həyatının mərkəzində dayandı və kommunist tərbiyəsinin əsasını təşkil etdi.

Yeni yanaşmalara görə, şagirdin bir şəxsiyyət kimi formalaşdırılması və inkişaf etdirilməsi üçün təhsil humanistləşdirilməli, demokratikləşdirilməli, humanitarlaşdırılmalı, təlim inkişafetdirici və tərbiyəedici olmalı, fərdiləşdirilməli və diferensiallaşdırılmalıdır.

Təhsilin humanistləşdirilməsi bir tərəfdən "müəllim-şagird", "şagird-şagird" münasibətlərinin humanistləşdirilməsini, digər tərəfdən təlimin və tərbiyənin məzmununun, forma və metodlarının elə qurulmasını nəzərdə tutur ki, bu zaman hər bir şagirdin fərdiyyətinin, idrak problemlərinin, şəxsi keyfiyyətlərinin səmərəli inkişaf etməsi təmin olunur, uşağın yaxşı oxuya bilməsi və yaxşı oxumaq istəməsi üçün əlverişli şərait yaradılır. Təhsilin humanistləşdirilməsi, ilk növbədə, şagirdin təlim prosesində bilavasitə inkişaf etdirilməsini, onun inkişafı, özünü bir şəxsiyyət kimi təsdiq etməsi, özünü reallaşdırması üçün əlverişli şəraitin yaradılmasını nəzərdə tutur. Şagirdin təlim prosesində inkişaf etdirilməsi bu konsepsiyanın ana xəttini təşkil edir.

Dünyanın aparıcı dövlətlərini ictimai və pedaqoji dairələrində təhsilin demokratikləşdirilməsi və humanistləşdirilməsi ideyası

diqqət mərkəzindədir.

Demokratik təhsil sistemi ideyası, hər şeydən əvvəl, təhsilin mümkünlüyünü, təhsil müəssisələrinin muxtariyyətini, məktəb pillələrinin ardıcıllığını, yaradıcı, azad düşünən və hərəkət edən insan formalaşdıran tədris prosesinin təşkilini nəzərdə tutur.

VI. Sovet pedaqoqikasının görkəmli nümayəndələri yetişdi ki, dəyərli pedaqoji tədqiqatlar aparıldı.

**Anatoli Vasilyeviç Lunaçarski (1875-1933**) ensiklopedik təhsilə malik idi, on bir dil bilirdi. 1917-1929 -cu illərdə Maarif Komissarı vəzifəsində çalışmışdır. Sovet hökumətinin təhsillə bağlı ilk sənədlərinin müəllifi A.V.Lunaçarski olmuşdur. Onun yeni nəslin tərbiyəsinin əsas vəzifələri, təhsil-tərbiyədə məktəbin və müəllimin rolu, ümumi, politexnik və peşə təhsilinin nisbəti və qarşılıqlı əlaqəsi, tərbiyədə incəsənətin və ədəbiyyatın rolu ilə bağlı maraqlı pedaqoji mülahizələri vardır. O, yeni insanın ahəngdar inkişafı üçün əqli, əxlaqi, politexnik, estetik və fiziki tərbiyənin vəhdətini zəruri hesab edir, insandan bəşəriyyətin xeyrinə bir şey yaratmağı tələb edirdi. A.V.Lunaçarski yazırdı: “Əvvəla, yeni insan özünü cəmiyyətə qarşı qoymamalı, özünü qurucu hesab etməli. İkincisi, məktəbli gənclərdə mübariz optimizm, ruh yüksəkliyi, qələbəyə inam tərbiyə etmək lazımdır. Üçüncüsü, sovet məktəbi şagirdləri humanizm ruhunda tərbiyə etməlidir.”

**XX əsrin görkəmli rus pedaqoqlarından biri də Stanislav Teofiloviç Şatskidir (1878-1934).** O, ilk təcrübəsinə 1905-ci ildə Moskva yaxınlığında A.U.Zelenko ilə birlikdə işlədiyi Şelkov uşaq koloniyasında başladı. Bu koloniya 1911-ci ildə Kaluqa vilayətində təşkil olunmuşdu. Həmin koloniya 1917/18-ci dərs ilində internat-məktəbə çevrildi.

S.T.Şatski pedaqoji fəaliyyətində pedaqogikanın əsas müddəası olan uşaq şəxsiyyətinə hörmət və tələb, mütəşəkkillik və şüurluluq məsələlərinə xüsusi diqqət yetirmişdir. O deyirdi ki, uşaq istədiyini deyil, sosializmin xeyrinə yaradıcılıq işi görməlidir. Uşaq həmişə oynayıb-gülməklə vaxt keçirə bilməz. S.T.Şatski məişət və

özünəxidmət əməyinə də geniş yer verirdi. O, tərbiyənin prinsiplərinə əsaslanaraq bədii tərbiyənin vəzifələrini, onun məzmun və üsullarını müəyyənləşdirmişdi. S.T.Şatski uşaqlarda və yeniyetmələrdə doğma təbiətə məhəbbət hissi oyadırdı. Çünki bu məhəbbət uşaqları təbiət qüvvələrinə sahib olmağa ruhlandırır, onlardan fəallıq və təşəbbüskarlıq tələb edir. Uşaq şəxsiyyətinə böyük hörmətlə yanaşan S.T.Şatski yazırdı ki, tədris-tərbiyə fəaliyyəti həyatla, məhsuldar əməklə sıx bağlı olmalı, məktəb özünüidarəsindən geniş istifadə edilməli. O, müəllimin rolunu yüksək qiymətləndirir, onun fəaliyyətinə yaradıcılıq prosesi kimi baxırdı. O, hərtərəfli biliyini, zəngin mənəviyyatı, kollektivçiliyi, yoldaşları ilə dost və əlbir işləməyi bacarmağı müəllimə xas olan zəruri keyfiyyətlər hesab edirdi.

**Anton Semyonoviç Makarenkonun** Sovet məktəb və pedaqogikasının inkişafında (1888-1939) böyük xidmətləri vardır. Poltava Müəllimlər İnstitutunu qızıl medalla bitirən A.S.Makarenko 1917-ci il sentyabrın 1-də Kryukova ibtidai məktəb müfəttişi vəzifəsinə təyin olundu. 1920-ci ildə Poltava quberniya maarif şöbəsi Makarenkonu qanun pozan uşaqlar və yeniyetmələr koloniyasına müdir təyin etdi. Az sonra bu koloniyaya M.Qorkinin adı verildi. 1926-cı ilin may ayında bu koloniya bərbad halda olan Kuryajdakı koloniya ilə birləşməli oldu. Bunun üçün koloniya Kuryaja köçdü.

1927-ci ildə Ukrayna çekistlərinin toplanmış olduğu vəsait hesabına Dzerjinskiyə xatirə olaraq onun adına yurdsuz uşaqlar üçün bir kommuna təşkil etmək qərara alındı. 1927-ci ilin axırlarında kommunanın rəsmi açılışı oldu. Onun rəhbərliyi və idarə olunması A.S.Makarenkoya tapşırıldı. Elə həmin vaxt Ukraynada böyük şöhrət qazanan A.S.Makarenkonun iş üsuluna ciddi hücumlar başlandı. 1928-35-ci illərdə kommunada çalışan A.S.Makarenko Ukraynanın əmək koloniyalarının tədris-tərbiyə hissəsinə müdir təyin edildiyindən Kiyevə köçdü. Sonra isə M.Qorkinin məsləhəti ilə Moskvaya köşüb, ədəbi fəaliyyətlə məşğul oldu. Moskvada onun öz təcrübələri əsasında qələmə aldığı “Pedaqoji poema” (1933-1937),

"Valideynlər üçün kitab" (1937), "Qüllələr üzərində bayraqlar" kitabları nəşr olundu.

A.S. Makarenkonun pedaqoji sisteminin əsas tələbi – kollektivdə, kollektiv vasitəsi ilə, kollektiv üçün tərbiyə prinsipidir. O deyirdi ki, bizim tərbiyənin əsas vəzifəsi kollektivi ilk öncə təşkil və tərbiyə etməkdir. Kollektiv adamların təsadüfi toplanışı deyil, ümumi məqsədə çatmaq üçün səlahiyyət, məsuliyyət hiss edən adamların birliyidir.

A.S. Makarenkonun tərbiyə sistemində "paralel təsir" prinsipi mühüm yer tutur. Bu prinsipə görə, kollektiv üzvünə şəxsən təsir etməkdən başqa, bir də kollektiv vasitəsi ilə təsir edilməlidir. Onun tərbiyə sistemində əsas məsələlərdən biri də humanizmdir, insanlara qayğı, hörmət və tələbkarlıq prinsipidir. O deyirdi ki, insanlardan mümkün qədər çox tələb etmək və ona olduqca çox hörmət etmək lazımdır.

A.S. Makarenko insanın tərbiyə və yenidən tərbiyə edilməsində əməyin rolunu yüksək qiymətləndirirdi. O deyirdi ki, intizam tərbiyənin ancaq vasitəsi deyil, həm də tərbiyənin nəticəsidir. Günahkar və intizamsız adamları cəzasız buraxmaq olmaz. Əsas məsələ cəzanı necə tətbiq etməkdədir. Cəza sitemsiz, mənəvi cəhətdən təhqiredici və tələsik olmamalıdır, cəza fərdi səciyyə daşımalı və günaha müvafiq verilməlidir, cəza alan adamın mənsub olduğu kollektiv cəzanı ədalətli olduğunu dərk etməlidir.

Daha sonralar sovet pedaqogikasının görkəmli nümayəndələri meydana gəldilər. P.R.Atutov, Y.K.Babanski, P.P.Blonski, V.P.Bespalko, V.E.Qmurman, P.N.Qruzdev, M.A.Danilov, N.K.Qonçarov, L.V.Zankov, B.P.Yesipov, F.F.Korolyov, İ.Y.Lerner, E.İ.Monoszon, İ.T.Oqorodnikov, V.V.Suxomlinski, M.N.Skatkin, Q.İ.Şukina və başqalarının təhsil və tərbiyənin nəzəri və tarixi problemləri ilə bağlı maraqlı, elmi pedaqoji araşdırmalar apardılar. Yeni təhsil konsepsiyaları işlənib hazırlandı. Pedaqoji elmin yeni sahələri yarandı və surətlə inkişaf etməyə başladı.

# XII FƏSİL.

# SOVET DÖVRÜNDƏ AZƏRBAYCANIN GÖRKƏMLİ PEDAQOQLARI

**Əhatə olunan məsələlər.**

**12.1. Görkəmli Azərbaycan pedaqoqu Əhməd Seyidov və onun pedaqoji xidmətləri**
**12.2. Görkəmli Azərbaycan pedaqoqu Mehdi Mehdizadə Azərbaycan xalq maarifinin, təhsilinin inkişafında xidmətləri**
**12.3. Görkəmli Azərbaycan pedaqoqu Mərdan Muradxanovun Azərbaycan pedaqoji fikrinin inkişafında xidmətləri**

## 12.1. GÖRKƏMLİ AZƏRBAYCAN PEDAQOQU ƏHMƏD SEYİDOV VƏ ONUN PEDAQOJİ XİDMƏTLƏRİ

Azərbaycan pedaqoji fikrinin inkişaf tarixində özünəməxsus yeri və görkəmli xidmətləri olan professor Əhməd Yusif oğlu Seyidov öz elmi pedaqoji fəaliyyəti, zəngin pedaqoji irsi, yetişdirdiyi elmi pedaqoji kadrları ilə Azərbaycan pedaqoji fikir tarixində silinməz izlər qoymuşdur. İstər onun çoxsaylı əsərləri, çox yönlü elmi-pedaqoji fəaliyyəti və istərsə də görkəmli pedaqoq Əhməd Seyidova həsr edilmiş əsərlər Azərbaycan pedaqoji elminin inkişafında böyük rol oynamışdır.

Professor Əhməd Seyidovun elmi-pedaqoji fəaliyyəti, Azərbaycan pedaqoji elminin və təhsilinin inkişafında, milli elmi pedaqoji kadrların yetişməsində, eləcə də gənc nəslin və tələbə-gənclərin milli-mənəvi ruhda tərbiyəsində müstəsna xidmətləri olmuşdur.

Prof. Əhməd Seyidov Azərbaycan elmi-pedaqoji fikrinin təməlini qoyanlardan biri olaraq pedaqoji cameəmizdə obrazlı şəkildə belə deyilmişdir: Əhməd Seyidov, Mərdan Muradxanov, Mehdi Mehdizadə üçayaqlı saca bənzər ki, pedaqoji elmimiz bu böyük alimlərin çiyinləri üzərində ucalmışdır. Əhməd Seyidov 1947-ci ildə "XIX əsrdəAzərbaycanda pedaqoji fikrin əsas nüma-

yəndələri" mövzusunda RSFSR PEA-nın Pedaqogiaknın nəzəriyyəsi və tarixi Elmi Tədqiqat İnstitunda elmlər doktoru dissertasiaysı müdafiə edərək ilk pedaqoji elmlər doktoru elmi dərəcəsinə layiq görülmüş Azərbaycanın milli pedaqoji kadrıdır. (1939 cu ildə isə "Abbasqulu Ağa Bakıxanovun pedaqoji fikirləri" mövzusunda Kirov adına ADU- da namizədlik dissertasiyası müdafiə etmişidr).

Əhməd Seyidovun 1917-ci ildə Qori Müəllimlər Seminariyasının son məzunlarından biri olmuş və ilk dəfə olaraq Hacı Kərim Sanılı ilə birlikdə "Türk əlifbasi" dərsliyini yazmışdır. Əhməd Seyidovun ibtidai sinif müəllimi Qori Müəllimlər Seminariyasının 1885-ci il məzunu Əhməd Ağa Mustafayev Əhməd Seyidovun ilk müəllimi olmaqla bərabər həm də onun gələcək həyatına düzgün istiqamət vermiş, Əhməddə böyük istedad və qabiliyyəti, gələcəyin böyük alimini görərək bu barədə anası Xədicəni inandırmış və o da Əhməd Seyidovu Qori Müəllimlər Seminariyasına göndərməyə qərar vermişdir.

Əhməd Seyidov Qori Müəllimllər Seminariyasını bitirdikdən ilk pedaqoji fəaliyyətinə öz evində 1892-ci ildə doğulduğu Qazax rayonunun Aslanbəyli kəndində qızlar və oğlanlar üçün açdığı məktəbdə başlamışdır. Bu da onun milli ruhlu, vətənpərvər, fədakar bir müəllim-pedaqoq şəxsiyyətindən xəbər verir.

Əhməd Seyidov 1940-cı ildə V.İ. Lenin adına APİ-nin pedaqogika və psixologiya kafedrasının müdiri seçilmiş, 30 ildən artıq bu kafedraya rəhbərlik etmişdir. O 1941-1942 -ci illərdə həmin institutda dil ədəbiyyat fakültəsinin dekanı, 1943-1944-cü illərdə elmi-metodik işlər üzrə direktor müavini, 1944-1949 - cu illərdə isə institutun direktoru olmuşdur.

ADPU - nun pedaqogika kafedrasının ən uzun müddətli kafedra müdiri olmaqla o pedaqoji universitetin inkişaf tarixində xüsusi yer tutmuş, xeyli elmi pedaqoji kadrların yetişməsində, dəyərli pedaqoji əsərlərin yazılmasında, tələbə -gənclərin milli-mənəvi ruhda təlim və tərbiyə almasında böyük xidmətlər göstərmişdir. Belə ki, Ə Seyidov kafedraya müdir təyin ediləndə burada 3

elmlər doktoru, professor (Ə.Y.Seyidov, M.M.Mehdizadə, Ə.K.Zəkuzadə), 6 elmlər namizədi, dosent (M.ƏMuradxanov, T.Y.Əfəndiyev, D.M.Mustafayeva, Ş.S.Ağayev, İ.İ.Vəlixanlı, A.K.Abdullayeva) 3 elmlər namizədi, baş müəllim (Ə.S.Tağıyev, Q.K.Qasımzadə, S.M.Babayeva) çalışırdı. Əhməd Seyidov 1973-cü ilə qədər həmin vəzifədə çalışmış və 1 sentyabrda öz ərizəsi ilə kafedra müdiri vəzifəsindən azad edilmiş, kafedrada professor-məsləhətçi vəzifəsinə keçirilmişdir.

Əhməd Seyidov 1940-cı illərdən vəfatına qədər (1977) 100-dən artıq elmlər namizədi və elmlər doktorunun elmi rəhbəri olmuşdur. O Azərbaycanın görkəmli pedaqoqlarından akademik Hüseyn Əhmədovun, professor, Əməkdar Elm Xadimi Nurəddin Kazımovun, prof. Yusif Talıbovun, prof. Əliheydər Həşimovun, prof. Sərdar Quliyevin, prof.Sabir Şəfiyevin, prof. İramin İsayevin elmi rəhbəri olmuşdur. Həmçinin dosentlərdən Allahverdi Eminov, Əyyub Tağıyev, Bəxtiyar Abdullayev, İsa Musayev, Həmzə Əliyev, Hacı Novruzov, Əhməd Əhmədoov, Ədalət Cəlilov, Sabir Orucov, Əminə Hüseyznova və başqaları Əhməd Seyidovun yetirmələri olmuşdur.

Əhməd Seyidov Azərbaycanda pedaqoji fikrin inkişafında bilavasitə xidmət göstərməklə yanaşı, vaxtilə SSRİ məkanında, xüsusilə Moskvanın pedaqoq elitasında milli irsimizi yüksək səviyyədə tanıtmışdır. Akademiklərdən Y.M.Medinski, N.K.Qonçarov, D.İ.Konstantinov onun pedaqoji yaradıcılığını yüksək qiymətləndirmişlər, Ə.Seyidovun mühitində Mirzə İbrahimov, Mirzə Məmmədov, Yusif Qasımov, Əli Hüseynov (Mehdi Hüseynin atası), Mehdi Mehdizadə, Mehdixan Vəkilov, Mir Cəlal Paşayev və digər görkəmli simalar olmuş və onlar böyük pedaqoqun nüfuzunu gözləmişlər.

Əhməd Seyidovun həyatı və elmi-pedaqoji fəaliyyətini öyrəndikcə, həm də təhsil tariximizin, universitet tariximizin, pedaqoji fikrimizin müəyyən dövrlərini də öyrənmiş oluruq.

"İstiqlal" ordenli, Əməkdar müəllim Lətif Hüseynzadənin

Əhməd Seyidovla bağlı bir xatirəsini bura əlavə etmək istərəm ki, onlar Bakı Dövlət Universitetində eyni vaxtda oxumuş və eyni vaxtda da- 1930 cu ildə bu təhsil ocağını bitirmişlər. L.Hüseynzadə təyinatla İrəvan Pedaqoji Texnikumuna müəllim göndərilmiş, Ə.Seyidov isə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda əmək fəaliyyətinə başlamışdır. L.Hüseynzadə xatirələrində söyləyir ki, təhsil aldığı dövrdə Rusiyadan və Türkiyədən dəvət edilmiş çox görkəmli alimlər - Rusiyadan - Komarovski, Makovelski, Seredinski, Marr, Meşşaninov və başqaları, Türkiyədən - İsmayıl Hikmət, Xəlil Fikrət, Möhyəddin, Bəkir Çobanzadə, Mehmet Fuad Köprülüzadə və başqaları onlara dərs demişlər. Bu böyük alimlər çox dəyərli elmi-pedaqoji tədqiqat işləri aparmış, dərslik və dərs vəsaitləri də yazmışlar. Məsələn, İsmayıl Hikmət 4 cildlik "Türk ədəbiyyatı tarixi", 2 cildlik "Azərbaycan ədəbiyyatı tarixi", Möhyəddin "Psixoloji", Fuad Köprülüzadə "Azəri ədəbiyyatına dair tədqiqlər", Xəlil Fikrət "Tədris və tərbiyə tarixi" əsərlərini nəşr edilmişdir.

Tələbələr təhsil illərində dərin və hərtərfəli bilik qazanmaqla bərabər, həm də ciddi elmi - tədqiqat işləri ilə də məşğul olmuş, ictimai işlərdə fəal iştirak etmiş, faydalı təşəbbüslər irəli sürmüşlər. Məsələn Akademik Meşşaninov bir qrup tələbə ilə Naxçıvanda arxeoloji tədqiqatlar aparmaq üçün bir qrup tələblərini də özü ilə götürmüşdür. L.Hüseynzadə xatırlıayır ki, Culfa rayonu ərazisində Zoğala yaşayış yerindən axtarışlar zamanı tunc dövrünə dair hökmdarın taxtının kənarlarına qoyulan qartal fiquruna bənzər qrifon tapılmışdır.

L.Hüseynzadə xatirələrində yazır ki, 1928-29-cu tədris ilində Lenin adına Azərbaycan Dövlət Darülfünunun 10 illik yubileyində Şərq fakültəsi nəzdində jurnalistika şöbəsi yaradıldı. Fəal tələbələr dərsdən sonra jurnalistika şöbəsinin məşğələlərində iştirak edirdilər. Bu şöbədə Əhməd Seyidovla birlikdə təhsil alır və birlikdə fəaliyyət göstərirdik. Burada qəzetçilik, müxbirlik, mətbəə ləvazimatı, redaksiya işlərinə dair çox maraqlı dərslər keçirdik. Jurnalistika fakültəsinin və jurnalistika şöbəsinin rəhbəri professor S.Seredinski

idi. Bir gün rektorumuz Tağı Şahbaziyə müraciət etdik ki, darülfünunda çoxtirajlı bir qəzet nəşr edək. Rektor da fikrimizi bəyəndi, razılıqla qarşıladı və 1929 cu ilin iyun ayında Azərbaycan Dövlət Darülfünunda "Student jurnalist" adlı çoxtirajlı universitet qəzetinin ilk nömrəsini buraxmağa nail olduq. Bu ilk nömrədə Əhməd Seyidovun "Tibbi fakültədə yeni tədbirlər" adlı məqaləsi də getmişdir". Rəngli buraxılmış bu qəzetin redaksiya heyətində Əhməd Seyidov və Lətif Hüseynzadənin adları görünməkdədir.

Əhməd Seyidov pedaqoji fikir tariximizin inkişafı istiqamətində Azərbaycan və xarici ölkələrin pedaqoji fikir tarixinə dair dəyərli tədqiqatlar aparmış, tərtib etdiyi dərslik və dərs vəsaitləri bu gün də öz aktuallığını itirməmişdir.

Əhməd Seyidov Azərbaycan pedaqoji fikrinin böyük bir tarixi dövrünün yaradlcısı kimi A.A.Bakıxanov, Mirzə Fətəli Axundov, Mirzə Şəfi Vazeh, Seyid Əzim Şirvani, Həsən Bəy Zərdabi, Məhəmməd Füzuli, F.B.Köçərli, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə haqqında, onların pedaqoji görüşləri barəsində dəyərli tədqiqtaların müəllifi olmuşdur. Onun ali pedaqoji məktəblər üçün yazdığı "XIX əsr Azərbaycan pedaqoji fikrinin əsas nümayəndələri", "Azərbaycanda pedaqoji fikrin inkişaf tarixi", "Pedaqogika tarixi" dərslik və dərs vəsaitləri uzun illər tələbə və müəllimlərin, pedaqoq- tədqiqatçıların dəyərli bilik və əsaslı istinad mənbəyi olmuşdur. Həmin kitablar bu gün də öz aktuallığını saxlamaqdadır.

Prof. Əhməd Seyidov özünəməxsus elmi məktəb yaratmışdır. Görkəmli rus pedaqogika tarixçisi alimi E.N.Medinski yazır: "O Azərbaycan pedaqoji fikir tarixinin pioneridir. Onun öz tələbləri, öz məktəbi, öz ardıcılları vardır". Bu məktəbin layiqli nümayəndələrindən biri prof. Hüseyn Əhmədov bu fikri qüvvətləndiərərk belə demişdir: "Prof.Əhməd Seyidov Azərbaycan məktəb və pedaqoji fikir tariximizin tədqiqi sahəsində tam bir məktəb yaratmışdır".

Əhməd Seyidov haqqında Akademik Hüseyn Əhmədov, prof. Mərdan Muradxanov, prof.Əjdər Ağayev, prof. Yusif Talıbov, prof. Fikrət Seyidov, prof. Sərdar Quliyev, prof. Fərrux Rüstəmov, prof.

İramin İsayev, prof. Fərahim Sadıqov, prof.Əliheydər Həşimov, prof. Müseyib İlyasov, prof. Rüfət Hüseynzadə, prof. Həsən Bayramov, dos. Aytəkin Məmmədova, dos. Miri Həsənov, dos. Allahverdi Eminov, dos. Əlibala Zalov və başqaları dəyərli məqalələr, kitablar yazmışlar. Dosent Aytəkin Məmmədovanın "Professor Əhməd Seyidov və Azərbaycanda pedaqoji elmin inkişafı" (Bakı:Elm və təhsil, 2018, 192 s.) adlı monoqrafiyası prof. Ə.Seyidovun həyat və fəaliyyətini kompleks şəkildə öyrənmək baxımından çox faydalıdır.

## 12.2. AKADEMIK MEHDİ MEHDİZADƏNİN AZƏRBAYCAN TƏHSİLİNİN İKİŞAFINDA XİMƏTLƏRİ VƏ MAARİFÇİLİK FƏALİYYƏTİ

Mehdi Məhəmməd oğlu Mehdizadə 1903-cü ildə 18 yanvarda indiki Cəbrayıl qəzasının Daşkəsən kəndində anadan olmuşdur. 1919-cu ildə Daşkəsən kənd ibtidai məktəbini bitirmiş və növbəti ilin noyabrından Daşkəsən kənd qiraət komasının müdiri kimi əmək fəaliyyətinə başlamışdır. 1921-ci ildə 6 aylıq pedaqoji kursu bitirib və həmin ilin sentyabrından I dərəcəli Daşkəsən kənd məktəbində müəllim işləməyə başlamışdır.1923-cü ildə Azərbaycan Pedaqoji İnstitutu yanında hazırlıq kursuna, 1924-cü ildə isə institutun fizika-riyaziyyat fakültəsinə qəbul olmuşdur. Mehdizadə 1926-cı ildə Azərbaycan Pedaqoji İnstitutu bitirmiş və Qaryagin (indiki Füzuli) şəhərində II dərəcəli məktəbə fizika və riyaziyyat müəllimi kimi çalışmışdır.

Mehdi Mehdizadə 1927-ci ildə Cəbrayıl qəza Xalq Maarif Şöbəsi yanında metodika bürosunun rəhbəri, 3 il sonra, 1930-cu ilini mart ayından isə Azərbaycan Xalq Maarif Komissarlığının İctimai Tərbiyə Baş İdarəsinin elmi katibi, Azərbaycan Xalq Maarif Komissarının birinci müavini vəzifəsində çalışmışdır. 1932-ci ildə Azərbaycan Dövlət Elmi- Tədqiqat Pedaqoji İnstitutunun aspiranturasına qəbul olunmuş və elə həmin illərdən etibarən Azərbaycan

Dövlət Pedaqoji İnstitutun pedaqogika kafedrasında müəllim kimi fəaliyyətə başlamış, zaman keçdikcə biliyini daha da təkmilləşdirmiş, təhsil, maarif tarixinə dair məqalələrlə mətbuatda çıxışılar edir.

ADPİ rəhbərliyi M.Mehdizadənin elmi -pedaqoji fəaliyyətini dəyərləndiərərk 1934 -cü ildə onu pedaqoji faküültənin dekanı, sonra isə ADPİ-nin elmi işlər üzrə direktor müavini, daha sonra tədris işləri üzrə ditektor müavini vəzifəsinə təyin edir.

M.Mehdizadə 1941-ci ildə "Azərbaycan məktəblərində savad təlimi tarixi" mövzusunda pedaqogika üzrə elmlər namizədi dissertasiyasını müdafiə edir. 1942-1946-cı illərdə İkinci Dünya Müharibəsində əsgəri xidmətdə olur. Vətənə qayıtdıqdan sonra o, təhsil pillələrində durmadan yüksəlir: ADPİ-də pedaqogika kafedrasının müdiri, institutun direktor müavini, institutun rektoru vəzifələrində çalışır və nəhayət 1952 -ci ilin mart ayında Azərbaycan Respublikası Maarif Naziri vəzifəsinə qədər yüksəlmiş və bu vəzifədə 23 il Azərbaycan maarifinə xidmət etmişdir. 1956-cı ildə isə "Azərbaycan Sovet məktəbinin tarixi" mövzusunda Moskvada doktorluq dissertasiyası müdafiə etmişdir.

Mehdi Mehdizadə elmi-pedaqoji fəaliyyətini, mütərəqqi maarifçilik fəaliyyətini davam etdirir, ardıcıl olaraq pedaqoji əsərlər yazır, beynəlxalq konfranslarda məruzələr edir, Azərbaycan elmini, maarifini, pedaqoji ideyalarını beynəlxalq aləmə yayır. Onun "Azərbaycan məktəbləri yenidənqurma yollarında", "Məktəbdə təlim-tərbiyə işlərinin yenidən qurulması", "Azərbaycan xalq maarifi yeni yüksəlişdə", "Azərbaycan Sovet məktəbinin tarixinə dair xülasələr", "Azərbaycanda məktəb təhsilinin və pedaqoji fikrin inkişafı" adlı kitabları və daha bir çox elmi, pedaqoji, metodiki məqalələri təhsilimizin, maarifimizin, pedaqoji fikir tariximizin inkişafında böyük rol oynamışdır. Onun bütün bu böyük xidmətləri layiqincə qiymətləndirilmiş və o 1960- cı ilə o SSRİ pedaqoji Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Mehdi Mehdizadə 10 cildlik "Azərbaycan Sovet Ensiklopediyası", 4 cildlik "Pedaqoji ensiklopediya"nın, 2 cildlik "Pedaqoji

lüğət"in müəlliflərindən biridir. 1930 cu ildən durmadan, yorulmadan 50 il müxtəlif vəzifələrdə çalışaraq, dəyərli elmi-pedaqoji əsərlər yazmış, pedaqoji elmimizi zənginləşdirmiş, maarif və təhsilimizin inkişafında böyük xidmətlər göstərmişdir. Mehdi Mehdizadənin aşağıdakı əsərləri vardır: "Pedaqogika" dərsliyi. (1941-1942-ci illər); "Məktəb quruculuğu sahəsində nailiyyətlərimiz" kitabı. (1957-ci il); "Pedaqogika" dərsliyi.(1958-ci il); "Azərbaycan sovet məktəbinin tarixinə dair xülasələr" (1958-ci il); "SSRİ xalqlarının məktəb və pedaqoji fikir tarixinin oçerkləri"; (1979-1980-cı illər) "Azərbaycanda xalq maarifinin inkişafı". (1980-il)"Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları. (1982-ci il) Akademik Mehdi Mehdizadə 1 may 1984-cü ildə Bakıda vəfat etmişdir.

## 12.3. GÖRKƏMLI AZƏRBAYCAN PEDAQOQU MƏRDAN MURADXANOVUN AZƏRBAYCAN PEDAQOJİ FİKRİNİN İNKİŞAFINDA XİDMƏTLƏRİ

Mərdan Muradxanov 1909-cu ildə Salyan rayonunda anadan olmuşdur. 1927-ci ildə Bakı Pedaqoji Texnikumunu, 1932-ci ildə Azərbaycan Pedaqoji İnstitutunu bitirmişdir. 1939-cu ildə A.İ.Gertsen adına Leninqrad Pedaqoji İnstitutunun aspiranturasını bitirmişdir. Azərbaycan Elmi Tədqiqat Pedaqogika İnstitutunda elmi işlər üzrə direktor müavini (1946-1952), APİ-də Pedaqogika (1952-1958) və İbtidai təhsil nəzəriyyəsi və metodikası (1960-1979) kafedralarının müdiri işləmişdir. 1961-ci ildə professor adını almışdır. Azərbaycanda çap olunan "Pedaqogika" (1958-1959, 1964) dərsliklərinin, Moskvada nəşr edilən ikicildlik "Pedaqoji lüğət"in və dördcildlik "Pedaqoji ensiklopediya"nın müəlliflərindəndir.

Muradxanov Mərdan Əsədulla oğlu (1909-1979) - pedaqoq-alim. Prof. (1961). Azərbaycan Əməkdar Elm Xadimi (1973). Bakı Pedaqoji Texnikumunu (1927), APİ-nin pedaqogika fakültəsini (1932) bitirmişdir. Azərbaycan. Elmi Tədqiqat Pedaqogika İnstitu-

tunda elmi işlər üzrə direktor müavini (1946-1952), APİ-də pedaqogika (1952-1958) və ibtidai təhsil nəzəriyyəsi və metodikası (1960-1979) kafedralarının müdiri işləmişdir. Azərb. və dünya pedaqoji fikir tarixinin tədqiqi, ailə tərbiyəsi məsələləri, didaktikanın aktual problemləri və s. Muradxanovun elmi tədqiqat dairəsinə daxil olan başlıca problemlərdir. M. Muradxanov Azərbaycanda çap olunan "Pedaqogika" (1958-1959, 1964) dərsliklərinin, Moskvada nəşr edilən ikicildlik "Pedaqoji lüğət"in və dördcildlik "Pedaqoji ensiklopediya"nın müəlliflərindəndir.

Mərdan Muradxanov görkəmli pedaqoq A.S. Makarenko pedaqoji irsinin ilk və ən fəal təbliğatçılarından araşdıcılarından olmuş, Bu barədə "A.S.Makarenkonun pedaqoji irsi və ondan Azərbaycanda istifadə edilməsi təcrübələri" adlı dəyərli əsər də yazmışdır. Müasirləri Mərdan Muradxanovu "Azərbaycanın Makarenkosu" adlandırmışlar.

## Tapşırıqlar

1. Sovet Dövründə Azərbaycanın görkəmli pedaqoqlarının pedaqoji ideyaları və tədqiqat sahələri haqqında referat hazırlamalı.

## Ədəbiyyat


1.Muradaxanov M.Ə. A.S.Makarenkonun pedaqoji irsi və ondan Azərbaycanda istifadə edilməsi təcrübələri. Nəşriyyat: Maarif, Bakı, 1965.

2. Rüstəmov F.A. Pedaqoji oçerklər: Sələflərim və müasirlərim. Bakı: Elm və təhsil, 2010

3. Əliyev Ramiz .Akademik Mehdi mehdizadı irsindən pedaqoji istifadə haqqında // Azərbaycan məktəbi, 2005. №1.

4. Hüseynzadə R.L. Əhməd Seyidova həsr edilmiş monoqrafiya/ Azərbaycan müəllimi, 12 yanvar, 2019 -cu il.

# XIII FƏSİL.
# AZƏRBAYCANIN MÜSTƏQİLLİYİNİN İLK İLLƏRİNDƏ TƏHSİLİN İNKİŞAFI

**Əhatə olunan məsələlər**

13.1.Müstəqilliyin ilk illərində təhsildə Heydər Əliyev Siyasəti
13.2.Azərbaycanda təhsil islahatları;
13.3. Boloniya təhsil proses
13.4. "Azərbaycan Respublikasinda təhsilin inkişafi üzrə Dövlət Strategiyasi" və onun həyata keçirilməsi ilə bağli fəaliyyət planı

## 13.1. MÜSTƏQİLLİYİN İLK İLLƏRİNDƏ TƏHSİLDƏ HEYDƏR ƏLİYEV SİYASƏTİ

Ulu öndərimiz Heydər Əliyev Azərbaycan Respublikasının müstəqilliyinin ilk dövrlərindən başlayaraq təhsilin inkişafına xüsusi diqqətlə yanaşıdı. O, təhsilimizin inkişafına ardıcıl qayğı göstərirdi. Bu sahədə dünya təcrübəsinin öyrənilməsinə xüsusi diqqət göstərilməsini təhsil işçiləri qarşısında, pedaqoq və müəllimlər qarşısında bir vəzifə olaraq qoyurdu. Hələ müstəqilliyiizin ilk dövrlərində Ulu öndərimiz Heydər Əliyev deyirdi: "Azərbaycan dövlət kimi yeni iqtisadi siyasi yolu ilə gedərək, dünyanın bütün ölkələrinin, xüsusən Qərb ölkələrinin təcrübəsindən istifadə etməyə çalışır və təhsilin də təkmilləşdirilməsində bu təcrübədən istifadə etmək lazımdır".

Dünya sivilizasiyasinin tarixi təcrübəsi göstərir ki, elmə, təhsilə, mədəniyyətə yüksək qiymət verən dövlət başçıları bununla nəinki öz ölkələrinin iqtisadi və mədəni yüksəlişini təmin edər, həm də dünya mədəniyyətinə böyük töhfə vermiş olarlar. Bu mənada Heydər Əliyevin milli təhsilin inkişafına göstərdiyi qayğı və diqqət özünəməxsusluğu ilə həmişə seçilmişdir.

Heydər Əliyev Azərbaycan təhsilinin inkişafından danışarkən onun 1998-ci ildə keçirilən Azərbaycan müəllimlərinin XI qurulta-

yındakı nitqindəki konseptual fikri əsas tutmalıyıq ki, "….xalqımızın maariflənməsi, təhsillənməsi üçün o dövr çox əhəmiyyətli bir dövr olmuşdur. Biz bunu qiymətləndirməliyik, heç vaxt unut mamalıyıq. Biz tariximizə doğru, ədalətli qiymət verməliyik". XI qurultayda ölkə başçısı Heydər Əliyev geniş və dərin məzmunlu nitq söyləmişdir. Öz fəaliyyətinin təhsillə bağlı məqamlarını açıqlayan ümummilli lider müəllim əməyinə yüksək qiymət vermiş, qarşıdakı illərdə pedaqoji sahəyə qayğı və diqqətin daha da artırıla cağını vurğulamışdır.

1999-cu ilədək təhsil sahəsində müxtəlif qərarlar qəbul edilsə də, təhsilin milli tərəqqimizin güclü amilinə çevrilməsi üçün dövlət təminatı olmalı idi. Odur ki, 1998-ci ilin martında "Təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması haqqında" Sərəncam imzalandı və bunun ardınca "Təhsil sahəsində islahatlar Proqramı" qəbul edildi. Komissiyanın yekun iclasında çıxış edən Heydər Əliyev demişdir: "Təhsil sistemi elə bir sistemdir ki, burada heç bir inqilabi dəyişiklik ola bilməz. Ümumiyyətlə, bizim həyatımızın bütün sahələrində dəyişikliklər təkamül xarakteri daşıyır".

Müstəqil Azərbaycan Respublikasının qurucusu, xalqımızın ümummilli lideri, təhsilimizin himayəçisi Heydər Əliyevin fərmanı ilə hələ 1998-ci ildə bazar iqtisadiyyatı münasibətlərinin bərqərar olduğu ölkəmizdə təhsil sistemində islahatın aparılması üçün islahat proqramının hazırlanması məqsədilə xüsusi komissiya yaradıldı. Prezidentin 1999-cu il 15 iyun tarixli fərmanı ilə 1781 məktəbəqədər tərbiyə-təlim müəssisəsini, 45556 ümumtəhsil məktəbini, 109 ibtidai peşə -ixtisas, 56 orta peşə ixtisas və 46 ali peşə-ixtisas təhsili müəssisəsini, 376 məktəbdənkənar tərbiyə müəssisəsini, diplomdan sonrakı təhsillə bağlı 15 təhsil müəssisəsini və 79 struktur bölməsini əhatə edən Azərbaycan respublikasının təhsil sistemində islahatların keçirilməsi üçün təhsil sahəsində İslahat proqramı təsdiq edildi. Heydər Əliyev təhsil sistemində islahatların əsas məqsədini özü müəyyən etmişdi: "Təhsil sistemində islahatların əsas məqsədi ondan ibarətdir ki, Azərbaycan təhsil sistemi dünya təhsil sistemi-

nin standartlarına uyğunlaşdırılsın….On illərlə əldə etdiyimiz təhsil prinsipləri gözlənilməli və inkişaf etdirilməlidir. Əgər biz bu yolla gedəriksə, qısa bir zamanda Azərbaycanda təhsil sistemini dünya standartlarına çatdıra bilərik”.

Müstəqil Respublikamızın memarı Heydər Əliyevin qayğısı ilə Təhsil İslahatı Proqramının əsas müddəaları Dünya Bankının maliyyə yardımı ilə həyata keçrilməyə başladı. Müstəqilliyin ilk dövrlərində Təhsil Qanununun layihəsi ümumxalq müzakirəsinə verildi. Ümumi orta təhsilin dövlət standartları hökümət səviyyəsində təsdiq edildi. Azərbaycan təhsili dünyanın aparıcı dövlətlərinin təhsilinə inteqrasiya edildi. Xüsusi istedadı olan şagirdlərə və gənclərə diqqət artırıldı, adları “Qızıl kitaba” salındı. İstedadlı gənclərə dövlət qayğısı Ana Qanunumuzda öz əksini tapdı.

İslahat proqramı ilk növbədə, təhsil müəssisələrinin fəaliyyətində, təhsil sisteminin strukturunda, idarəedilməsi və iqtisadiyyatında, milli zəminə, bəşəri dəyərlərə əsaslanan, bütün qurumların fəaliyyətini təhsil alanın mənafeyinə yönəltmək üçün təlim-tərbiyənin məzmununda yeniləşmənin həyata keçirilməsini, yüksək insani keyfiyyətləri özündə birləşdirən kamil şəxsiyyətin formalaşdırılmasını əsas məqsəd kimi qarşıya qoydu.

İslahatın qarşıya qoyduğu əsas istiqamətləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- Təhsilin keyfiyyətinin artırılması,
- Təhsilin beynəlmiləlləşdirilməsi və inteqrasiyası
- Təhsildə idarəetmə mexanizmlərinin yaradılması,
- Təhsil kadrlarının hazırlanması və attestasiya mexanizmlərinin yaradılması.

Tədris müəssisələrinin, bütövlükdə təhsil sisteminin maddi-texniki bazasının yaradılması islahatların aparıcı istiqamətlərindən biridir. Azərbaycan məktəbi müasir kompüter texnikası ilə təmin edilməli, dünyaya inteqrasiya edilməli, dünya rabitə informasiya sisteminə qoşulmalı və hər bir məktəblinin, tələbənin ondan istifadə edilməsi təmin edilməlidir.

Heydər Əliyev 2000-ci il iyunun 13-də "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" yeni fərman imzaladı. Fərman təhsil sisteminin əsaslı şəkildə təkmilləşdirilməsinə, idarəetmənin müasir prinsiplər üzrə təşkilinə, təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılmasına və dünya təhsil sisteminə inteqrasiyasına zəmin yaratdı.

Müstəqilliyin ilk illərində milli təhsil sistemimizdə islahatın strateji istiqamətlərindən biri ilk növbədə təhsilin idarə olunmasının yeni mexanizminin hazırlanması və onun tətbiqinə keçilməsi idi. Həqiqət naminə etiraf etməliyik ki, hələ bu gün də təhsil sistemində bəzən totalitar rejimdən qalan üsulla idarə etmə hallarına rast gəlmək olur. Qarşıda duran başlıca vəzifə Azərbaycan təhsil sistemində qazanılmış mütərəqqi ənənələri saxlamaqla, inkişaf etmiş ölkələrin təhsili idarəetmə mexanizmlərini ətraflı, dərindən öyrənməklə ölkəmizdə dünya standartlarına cavab verən müasir idarəetmə mexanizmlərini ətraflı, dərindən öyrənməklə ölkəmizdə dünya standartlarına cavab verən müasir idarəetmə sisteminə keçilməsinə nail olmaqdan ibarətdir. Bu məsələdə təhsil müəssisələrinə müstəqillik verilməli, idarəetmədə ağırlıq məsələsi aşağılara ötürülməlidir. Müstəqilliyin ilk dövrlərində Azərbaycanda təhsil islahatlarının mühüm istiqamətlərindən biri onun müasir maliyyələşdirilməsinin həyata keçirilməsini təmin etməkdən ibarət olmalı idi. Bu halda iki məqama: birinci təhsilin inkişafına ayrılan büdcə vəsaitlərinin həcminin artırılması; ikincisi təhsil sistemində qanunvericiliyə uyğun əlavə gəlir gətirən mənbələrdən istifadəyə geniş yer verilməlidir. Bu istiqamətdə başlıca vəzifə təhsil sistemində maliyyələşdirmənin yeni mexanizmini işləyib hazırlamaqdan ibarət oldu.

Müstəqilliyin ilk illərində strateji sahələrdən biri də təhsil sisteminin, təhsil və tərbiyənin milliləşdirilməsi problemi idi. Milli təhsil onu nəzərdə tuturdu ki, məktəb, elm, bilik, təhsillə yanaşı, milli ruhu əks etdirən tərbiyə, əxlaq, mənəviyyat həyata keçirilməli id. Hər bi məktəbli, gənc, tələbə öz dilini, ədəbiyyatını, tarixini, mədəniyyətini dərindən bilməli idi. Uzun illər sovet dövründə

bunlara diqqət və əhəmiyyət verilməmişdir. Ona görə də Ulu öndərimiz Heydər Əliyev Azərbaycan Gənclərinin Birinci Umumrespublika Forumundakı nitqində demişdir: “Xalqımızın tarixinin əsasını təşkil eləyən bütün mərhələlərdə, keçmiş əsrlərdə yüksək mənəviyyat olmuşdur. Keçmiş tariximizdən bizə qalan simaları bu gün dünyada məşhurlaşdıran və bizim üçün nümunə edən onların yüksək mənəviyyatıdır, yüksək amallarıdır... Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli- mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz”. Bəli, ulu öndərimiz mili tərbiyəni, vətənpərvərliklə bağlayır və bunu təhsilimiz qarşısında əsas bir vəzifə olaraq qoymuşdur.

Tədris müəssisələrinin əsas vəzifələrindən biri Azərbaycan vətəndaşının hər bir gəncin vətənpərvər olmasını təmin etməsidir. Təhsil islahatlarının son məqsədi dərin və hərtərəfli biliyə, yüksək peşəkarlığa və mədəniyyətə malik xalqımızın soykökünə, demokratiya və milli müstəqillik ideyalarına sədaqətli, vətənini, millətini sevən əsl Azərbaycan vətənpərvərlərini yetişdirmək olmalıdır. Buna nail olmaq üçün təhsil və tərbiyə məzmunca milli və ümumbəşəri dəyərlər əsasında yeniləşməlidir.

Azərbaycan Respublikasının orta təhsil sistemində ən ciddi problemlərdən biri, təbii ki, məktəb tikintisi, ümumtəhsil məktəblərinin təmiri və avadanlıqlarla təchizatı idi. Azərbaycan təhsilinin qayğıkeş hamisi ulu öndərimizin ”Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi” haqqında 4 oktyabr 2002-ci il tarixli Sərəncamı və həmin Sərəncamla hazırlanmış xüsusi proqram sayəsində Azərbaycanda dünya standartlarına uyğun məktəb binaları tikilməyə başlandı.

Heydər Əliyev çıxışlarının birində etiraf edirdi ki, “1979, 1980, 1981-ci illərdə hər il Azərbaycanda 35 min şagirdin oxuması üçün məktəb binaları tikilirdi. Bu, bir ildə, təxminən 50-60 məktəb

binasının tikilməsi demək idi. Bu, o vaxt olmuşdur ki, o dövrdə məktəblərin sayı həddindən çox artmışdır".

Həqiqətən, həmin illərdə Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində 350 mindən çox şagird yeri olan 680 ümumtəhsil məktəbi tikilib istifadəyə verilmişdir. Məktəbəqədər tərbiyə müəssisələrinin sayı isə 1600-den 1875-ə çatmışdır. Bu proses sonralar da davam etdirildi.

2002-ci ilin sentyabrında isə Suraxanı rayonundakı 275 nömrəli məktəbdə olarkən Heydər Əliyev məktəb tikintisi barəsində belə demişdirki, mən bu gün bəyan edirəm ki, yaxın zamanlarda Azərbaycanda məktəb tikintisi, məktəblərin müasir avadanlıqlarla təmin olunması, təmir edilməsi ilə əlaqədar ciddi tədbirlər haqqında öz təkliflərimi irəli sürəcəyəm". Və çox keçmədi ki, elə həmin il ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında sərəncam imzalandı. Bu Sərəncam məktəblərdə təlim şəraitinin və təlim mühitinin yaradılmasında ciddi dönüşə səbəb oldu.

Heydər Əliyevin gərgin əməyi və qayğısı nəticəsində hələ 70-ci illərdə və 80-cı ilin əvvəllərində ümumtəhsil məktəblərinin tədris-maddi bazası və kadrlarla təminatı möhkəmləndirilmiş, onun imzaladığı "Ümumtəhsil məktəbləri şagirdlərinin dərsliklərdən pulsuz istifadə etməsinə keçmək haqqında" qərarla 1978-ci eldən ümumtəhsil məktəb şagirdlərinin dərsliklərlə pulsuz təminatına keçilmişdir. Heydər Əliyev elə müstəqilliyin ilk illərindən özünün şəxsi təşəbbüsü və qayğısı nəticəsində 1995-96-cı tədris ilindən I-IV sinif şagirdlərinin dərsliklərlə pulsuz təminatı məsələsi bərpa edilmişdir.

Müstəqilliyin ilk dövrlərində mühüm istiqamətlərdən biri də bütün təhsil pillələrində minimum dövlət standartlarının müəyyənləşdirilməsi idi. Bu baxımdan ümumtəhsil məktəblərində dərs proqramının, tədris yükünün ağırlığı, tədris fənlərinin həddən artıq ağır olması ciddi narahatlıq doğururdu. Buna görə də təhsil sahəsində keçirilən islahatlar təhsilin bu pilləsinə xüsusi diqqət yetirdi.

Azərbaycan təhsilinin mühüm tərkib hissəsi olan texniki peşə təhsilinin inkişafının yüksəliş dövrü Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci mərhələsinə təsadüf edir. 1970-ci illərdə Azərbaycanın texniki peşə təhsili özünün yeni yüksəliş dövrünə qədəm qoymuş, həmin il texniki peşə məktəblərinin sayı 1965-ci illə müqayisədə 1,7 dəfə, təhsil sahələrinin sayı isə 2,5 dəfə artmışdır.

1970-80-ci illərdə respublikada texniki peşə təhsili şəbəkəsinin inkişaf dinamikasının təhlili göstərir ki, 1970-ci ildə 76 texniki pesə məktəbi fəaliyyət göstərir və orada 40,9 min şagird təhsil alırdı. Bu rəqəm müvafiq olaraq 1980-ci əldə 173 məktəbə və 99,8 min şagirdə, 1982-ci ildə isə 182 məktəbə və 109 min şagirdə catdırılmışdır. Deməli, məktəblərin sayı bu illərdə 2,5 dəfə, təhsil sahələrinin sayi isə 2,5 dəfədən çox artmışdır.

Azərbaycanda texniki peşə təhsilininin təkrarsız zəngin şəbəkəsinin yaradıcısı Heydər Əliyevin 1993-cu ilin iyun ayında hakimiyyətə yenidən qayıdışı təhsilin bu sahəsinin tamamilə məhv olmaq, tarixə çevrilmək təhlükəsindən xilas etdi.

1970-ci illərdə və 1980-ci illərin əvvəllərində ali təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində böyük işlər görülmüşdür. Heydər Əliyevin təşəbbüsü və qayğısı ilə ali məktəblər üçün tədris korpusları, yataqxanalar tikilmişdir. 1970-80-cı illərdə Azərbaycanda ali təhsil müəssisələrinin sayi 1969-cu illə müqayisədə 12-dən 17-yə, təhsil sahələrin sayı isə 70 mindən 100 minə yüksəlmiş, orta ixtisas məktəblərinin sayı əsasən stabil qalmışdır. Ulu Öndər Heydər Əliyevin Azərbaycan təhsilinin inkisafi yolundakı böyük xidmətlərindən biri 1970-80-ci illərdə onun təşəbbüsü ilə və qayğısı sahəsində Azərbaycandan kənarda, keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən məşhur ali məktəblərində respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətin 80-dən artıq sahəsini əhatə edən və ən zəruri ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssislər kimi hazırlanmasına imkan və şərait yaratmasıdır.

Heydər Əliyev 70-80-ci illərdə Azərbaycandan kənarda təhsil almış yüksək ixtisaslı mütəxəssisləri “Azərbaycanın yetirmələri, Azərbaycanın milli sərvəti" kimi yüksək qiymətləndirmişdir.

Heydər Əliyevin 70-80-ci illərdə respublikadan kənarda azərbaycanlı gənclərinin təhsil almasına geniş imkanlar yaratmasını və bu işə daim qayğı göstərməsini qiymətləndirərkən, onun tarixi dəyərinin miqyasını müəyyənləşdirərkən belə bir həqiqəti də etiraf etməliyik ki, hər il respublikadan kənara orta hesabla 800-1000 nəfər gəncin göndərilməsi Heydər Əliyevin özünün dediyi kimi, respublikada mövcud ali məktəblərdən əlavə, Azərbaycan üçün böyük töhfə olan sanki daha bir ali məktəbimiz də fəaliyyət göstərirdi. Bu rəmzi, simvolik ali məktəbin yaradıcısı və rəhbəri Heydər Əliyev idi. Bu gün istər ölkəmizdə, istərsə də xarici ölkələrdə fəaliyyət göstərən həmin mütəxəssislər 70-ci illərdə əsası qoyulan və 15 mindən çox yetirməsi olan Heydər Əliyev məktəbinin məzunları, Heydər Əliyev yetirmələridir. Bu böyük tarixi-mədəni nailliyət idi və bu tarixi uğur Heydər Əliyevin adı ilə bağlıdır.

Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanın müstəqil, milli ənənələrə və ümumbəşəri dəyərlərə, dünya standartlarına cavab verən elmi potensialının formalaşdırılması istiqamətində həyata keçirilən siyasət bu gün əzmlə davam etdirilir. Azərbaycan elmi, təhsili Prezident İlham Əliyevin rəhbərliyi altında məhz bu ənənələr əsasında inkişaf edir və millətin nurlu gələcəyinə yol açır.

Heydər Əliyevin layiqli davamçısı, hörmətli prezidentimiz İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva təhsilimizin inkişafına, gənclərimizin xarici ölkələrdə təhsil almasına, müasir tipli, Avropa standartlarına uyğun məktəblərin, təhsil müəssisələrinin tikintisinə xüsusi qayğı göstərir. Cənab İlham Əliyev daim vurğulayır ki, xalqımızın gələcək inkişafı təbii sərvətlərlə deyil, məhz intellektual inkişafla bağlıdır və elmə qoyulan sərmayə xalqın intellektual sabahına xidmət edir.

Bu münasibətlə hörmətli prezidentimiz deyir: "İnsan kapitalı inkişaf etmiş ölkələrin indiki durumunu müəyyən edən amildir. Həmin ölkələr təbii resurslar hesabına yox, intellektual potensiala, yeni texnologiyaların icad olmasına, tətbiqinə görə inkişaf edirlər. Biz də bu yolu seçməliyik... Dünyada elmi-texniki tərəqqinin bütün yeniliklərini bilmək, onları qavramaq, qabaqcıl ali məktəblərlə əlaqə yaratmaq təhsil prosesinin inkişafında mühüm rol oynayacaqdır. Azərbaycan da bu yolu seçmişdir".

Hazırda prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin elm, təhsil və mədəniyyət sahəsinə göstərdiyi qayğını ardıcıl davam etdirərək, qısa müddət ərzində elm və təhsil sahəsi üçün çox mühüm qərarlar qəbul edib və bu məsələ bu gün də davam etməkdədir.

Məlumdur ki, yüksək təhsilli, rəqabətədavamlı insan dövlətin və millətin tükənməz sərvəti və dayağıdır. Azərbaycan Respublikasının prezidenti, cənab İlham Əliyev demişdir: "Azərbaycanın gələcək inkişafı məhz təhsillə bağlıdır". Bu bir həqiqətdir ki, təhsil sistemi müasir tələblər səviyyəsində qurulmuş dövlət xüsusi statusa malik olmaqdan başqa, qabaqcıl elmi mövqeyə malik, bütün sahələrdə inkişaf edən və asılı olmayan bir dövlət kimi çıxış edir. Bu baxımdan dövlətimiz təhsilə xüsusi qayğı göstərir. Dövlət başçısının fəaliyyəti dövründə ölkənin inkişafı baxımından strateji sahə olan elm və təhsilə qayğı xeyli nümunələrlə zəngindir. Bu müddətdə elmin inkişafına diqqət artırılmış, bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi, maliyyə təminatı, əsas fundamental və tətbiqi elmlərin inkişafı üzrə görüləcək tədbirlər müəyyənləşdirilmişdir. Elmin, təhsilin inkişafı üçün dövlət büdcəsində nəzərdə tutulan vəsaitlərin ildən-ilə artımı, bu sahədə çalışan müəllimlərin əmək haqlarında, tələbə, magistr və aspirantların təqaüdlərində özünü göstərən əsaslı artımlar, habelə məktəblərin dərsliklərlə pulsuz təminatı dövlət rəhbərinin bu əhəmiyyətli sahəyə diqqət və qayğısının bariz ifadəsidir. Bu gün dövlət büdcəsinin 25 faizi təhsilə ayrılır. Təqribən 1 milyard ABŞ dolları cuvarında vəsait bu sahənin inkişafına yönəldilir. Bura

ödənişli təhsil haqqını, valideynlərin repetitorlara verdiyi pulu da əlavə etsək, böyük rəqəm alınır. Mütəxəssislərin hesablamalarına görə, bu, dövlət büdcəsindən təhsilə ayrılan vəsaitə bərabərdir. Onu da qeyd edim ki, Heydər Əliyev Fondu hər il təhsilə təxminən 100 milyon dollar əlavə xərclər qoyur.

Bunun nəticəsi olaraq, son illər keçirilən islahatlar bir sıra təhsil ocaqlarının, maddi-texniki bazasının möhkəmlənməsinə, alimlərin sosial vəziyyətinin yaxşılaşmasına səbəb olmuşdur. Alimlər isə öz növbəsində, müasir elmin və bazarın tələblərinə cavab verən konkret nəticələr göstərmək iqtidarındadır. Müasir dünya ölkələri, o cümlədən bütün inkişaf etmiş ölkələr təhsili, strateji üstün sahə elan edir və ölkənin gələcək inkişafının təhsil sisteminin səviyyəsindən asılı olduğu bir daha meydana çıxır..

Beləliklə, yekun olaraq deyə bilərik ki, təhsilin hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının mühüm sahəsi olduğunu dərindən bilən Heydər Əliyev hakimiyyətə gəlişinin ilk günündən Azərbaycanda təhsilin inkişafına qayğını ön plana çəkdi, ölkənin sosial-iqtisadi inkişafında təhsilin aparıcı istiqamətlərindən biri kimi onun tərəqqisinə nail olmaq üçün bütün potensial imkanlardan istifadəyə geniş şərait yaratdı.

1993-cü ilin ikinci yarısından etibarən təhsil və mədəniyyət böyük inkişaf yolu keçdi, təhsilin maddi-texniki bazası möhkəmləndi, güclü elmi-pedaqoji kadrlar hazırlandı. Təhsilin idarə edilməsi yeni mexanizmi hazırlandı. Yeni tipli, müasir məktəb tikintisi sürətlə artırıldı. Məktəblərin kompüterləşməsi prosesi, informasiya – kommunikasiya texnologiyalarından istifadə genişləndi. Müəllim kadrlarının hazırlığına, onların ixtisasının artırılması və yenidən hazırlanması məsələləri təkmilləşdirildi və genişləndirildi.

**Tapşırıqlar**

1. ”Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramı”nın əsasına qoyulmuş prinsiplərə, islahatların aparılmalı olduğu strateji istiqamətlərə, müəyyənləşdirilən tədbirlərə interpretasiya verin.

## İSTİFADƏ EDİLMİŞ VƏ MƏSLƏHƏT GÖRÜLƏN ƏDƏBİYYAT


1. Axundova E.H. Heydər Əliyev: Şəxsiyyət və zaman. Bakı: Ozan, 2009.
2. Adıgözəlov Ə. Qərbi Azərbaycandakı məktəblərimizin tarixindən. Bakı: Təhsil, 2003.
3. Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). I cild (Ali məktəblər üçün dərslik). Bakı: Çıraq, 2007.
4. Azərbaycan Respublikasının Təhsil Sahəsində İslahat Proqramı. Bakı: "Çaşıoğlu", 1999.
5. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası.Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli nömrəliSərəncamı/Xalq qəz. 25 okt.2013-cü il.
6. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı fəaliyyət planı. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 19 yanvar, 2015-ci il.
7. "Azərbaycan 2020 –gələcəyə baxış" inkişaf Konsepsiyası". Azərbaycan Respublikası Prezidentinin 2012-ci il, 29 dekabr tarixli Fərmanı.
8. Azərbaycan müəllimlərinin qurultayları (I-XII). (Tarix-xronoloji, stenoqrafik materiallar). Bakı: Çaşıoğlu", 2008.
9. Azərbaycanda pedaqoji fikir və maarifin inkişafı. Bakı, 2003.
10. Azərbaycan təhsili Xalq Cümhuriyyəti illərində. Bakı:Çaşıoğlu, 2003.
11. Azərbyacan təhsili müstəqillik illərində. Bakı:Çaşıoğlu, 2003.
12. Azərbaycan təhsil ocaqları (ali və orta ixtisas təhsili məktəbləri).Bakı: Diplomat, 1998
13. Bayramov H. Çar Rusiyasının Azərbaycandakı təhsil siyasəti: Unifikasiya prosesi və tarixi - pedaqoji paradiqmanın formalaşması. Bakı: Elm, 2015.
14. Bəşirov V.P. Azərbaycan pedaqoji fikrindən milli tərəqqi ide-

yaları. (XIX əsrin sonu, XX əsrin əvvəlləri) Bakı:Oka-Ofset, 2008.
15. Cəfərov H. Naxçıvanda təhsil: İnkişaf yolu və imkanları. Bakı: Elm və təhsil, 2011.
16. Cəfərov C,Ə. Allhverdiyev C.V. İrəvanda milli maarifçilik mühiti. Bakı: Şərq-Qərb, 2017.
17. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir.(XIII cild) Bakı: Azərnəşr, 2004.
18. Əliyev Heydər.Müstəqillik yolunda. I cild, Bakı: Azərnəşr, 1996.
19. Əzizova Z.M., Əliyev S.H. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: Mütərcim, 2019.
20. Əmirəliyeva İ.B. Pedaqoji fikir tarixindən. Bakı:Mütərcim, 2018
21. Əmrahov M., Salahov M., Əsədov N. Azərbaycanda ali məktəb quruculuğu, ali pedaqoji təhsilin təşkili və inkişafı tarixinin oçerkləri (1917-1941) Bakı:Mütərcim, 2008.
22. Əliyev İ.İ. Azərbaycan Etnopedaqogikası. Bakı: Elm və təhsil, 2009.
23. Əlizadə Ə.Ə. Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, 2004.
24. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Yeni pedaqoji təfəkkür: psixopedaqogikaya giriş. Bakı:ADPU, 2008.
25. Əlizadə H.Ə., Mahmudova R.M. Sosial pedaqogika. Bakı, Bakı Universiteti. 2013
26. Əhmədov H.M. XIX əsr Azərbaycan məktəbi. Bakı: Maarif, 2000.
27. Əhmədov H.M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: Elm və təhsil, 2014.
28. Əhmədov H.M. Azərbaycan pedaqoji antologiyası.(XIX əsr-XX əsrin əvvəlləri). Bakı: Maarif, 2011.
29. Əhmədov H.M. Seçilmiş pedaqoji əsərləri. XXX cilddə. 26-cı cild. Bakı: Tərəqqi, 2018.

30. Əhmədov H.M. Nəriman Nərimanovun pedaqoji fikirləri. Bakı, Maarif, 2000.
31. Əhmədov H.H. Azərbaycan təhsilinin inkişaf strategiyası. Bakı, 2010.
32. Əhmədov H.H. Azərbaycanda Xeyriyyə cəmiyyətlərinin maarifçilik fəaliyyəti. Bakı, 1997.
33. Hüseynzadə R.L. Qədim və erkən orta əsrlərdə Azərbaycanda tərbiyə, təhsil və pedaqoji fikir. Bakı: Nurlar, 2007.
34. Hüseynzadə R.L., İsmayılova M. C. Tərbiyə işi və onun metodikası. (Dərs vəsaiti) Bakı: ADPU, 2013.
35. Hüseynzadə R.L., Məmmədov T.M. Pedaqogika. Dərslik (Rus dilində). Bakı, ADPU, 2015.
36. Hüseynzadə R.L., Qəhrəmanova K.K.Tərbiyə:Hüquqi-normativ əsaslar.(Dərs vəsaiti) Bakı, ADPU, 2015.
37. Hüseynzadə R.L. Allahverdiyeva L.Z.Ailə pedaqogikası. Dərslik. Bakı: ADPU, 2016
38. Hüseynzadə R.L. Təhsil strategiyası Heydər Əliyev ideyalarının məntiqi davamı kimi. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92–ci ildönümünə həsr olunmuş Azərbaycanşünaslığın aktual problemləri. VI beynəlxalq elmi konfransın proqramı. 5-7 may 2015.
39. Hüseynzadə R.L. Qədim məktəb tarixinə bir nəzər. Ümummilli lider Heydər Əliyevin 92 illik yubileyinə həsr olunmuş "Təhsilin inkişaf strategiyası və onun reallaşdırılması" mövzusunda VII Respublika elmi-praktik konfransı. 7 may , BDU, 2015.
40. Hüseynzadə.R.L. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təhsilimizin inkişafının metodoloji əsası kimi// Məktəbəqədər və ibtidai təhsil. 2015 № 1.
41. Hüseynzadə R.L. Heydər Əliyev nəzəri irsində müəllimlik// Sumqayıt Dövlət Universiteti. Elmi xəbərlər. Sosial və humanitar elmlər bölməsi. Cild 11. 2015 № 2
42. Hüseynzadə R.L. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təhsilimizin inkişafının metodoloji

əsası kimi// Məktəbəqədər və ibtidai təhsil. 2015 № 1.
43. Hüseynzadə R.L. , Məmmədov T. M. Ali məktəb pedaqogikası. (proqram Magistratura üçün). Sumqayıt Dövlət Universiteti 2015
44. Hüseynzadə R.L. Sidqi M.T. Dilimiz və məktəbimiz haqqında. Bakı: Müəllim, 2005.
45. Hüseynzadə R.L., Əkbərov N.A. Məktəbdə pedaqoji prosesin təşkili.Metodik vəsait. Bakı: Aktiv. 2013.
46. Hüseynzadə R.L. Naxçıvanda ilk qız məktəbləri. Ümumi orta təhsilin müasir problemləri. Beynəlxalq elmi konfrans. Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Naxçıvan Dövlət Universiteti və Naxçıvan Müəllimlər İnstitutu. 24 noyabr, 2012.
47. Hüseynzadə R.L. M.Ə.Sabirin pedaqoji görüşləri, tərbiyəvi fikirləri və pedaqoji fəaliyyəti. AMİ. Xəbərlər. Xüs. Buraxılış, 2011. Dekabr.
48. Hüseynzadə R.L. Bakı milyonçusu, maarifpərvər xeyriyyəçi H.Z.Tağıyevin Sultana hədiyyəsi// Azərbaycan məktəbi, 2011, № 3.
49. Hüseynzadə R.L. Qori Müəllimlər Seminariyasının naxçıvanlı məzunları// İbtidai məktəb və məktəbəqədər tərbiyə 2010 № 2.
50. Hüseyznadə R.L. Pedaqogika tarixi. Magistraturaya hazırlıq üçün dərs vəsaiti. Bakı: Magistratura.Az. 2018.
51. Hüseynzadə R.L. İrəvan maarifçiliyi// Azərbaycan məktəbi, 2018, № 1. s. 61-68.
52. İsayev İ.N. Pedaqoji irsimizdən: M.V.Vidadidən H.K.Sanılıyadək. Bakı: ADPU, 2014.
53. İsmayılaova N.R. Müstəqillik illərində Azərbaycanda təhsilin inkişafı. Bakı: Mütərcim, 2013.
54. Qasımova L.N, Mahmudova R.M. Pedaqogika. Dərslik. Bakı: Çaşıoğlu, 2012.
55. Qazıyev Y.X. Azərbaycanda məktəb kitabxanalarının inkişaf yolu. Monoqrafiya. Bakı: MBM, 2014

56. Qəhrəmanova A. F. Azərbaycan Demokratik Respublikasında xalq maarifinin təşkil yolları. Bakı: “Oka-Ofset”, 2005.
57. Mehdizadə M.M., Allahverdiyev T.Ə., Əliyev Q.H. Azərbaycanda xalq maarifinin sürətli inkişafı. Bakı: Maarif, 1980.
58. Məmmədov K.A. Şərq pedaqoji fikir tarixindən. Bakı: Mütərcim, 2011.
59. Məmmədova A.T. Professor Əhməd Seyidov və Azərbaycanda pedaqoji elmin inkişafı.Bakı:Elm və təhsil, 2018.
60. Mərdanov M.C. Azərbaycan təhsil tarixi (I-III cild). Bakı: Təhsil, 2011.
61. Mərdanov M.C. Azərbaycan təhsili yeni inkişaf mərhələsində. Bakı: Çaşıoğlu, 2009.
62. Mehdizadə M.M. Azərbaycanda sovet məktəbinin tarixinə dair xülasələr.Bakı: Azərtədrisnəşr, 1958.
63. Rüstəmov F.A. Azərbaycanda pedaqoji elm: təşəkkülü, inkişafı, problemləri (1920-1991-ci illər). Bakı: BDU, 1998.
64. Rüstəmov F.A., İsayev İ.N. Pedaqoji irsimizdən: M.V.Vidadi, M.P.Vaqif, Q.B.Zakir. Bakı: Elm və təhsil, 2013.
65. Seyidov Fikrət. Azərbaycan pedaqoji fikir tarixindən səhifələr. Bakı: Çaşıoğlu, 2002.
66. Seyidov F.Ə. Qori Seminariyası və onun məzunları. Bakı: Maarif, 1988.
67. Şükürov S. Gəncə məktəblərinin tarixindən. Bakı:Maarif, 1992.
68. Şirzadova M.H.Azərbaycanda məktəbəqədər təhsil müəssisələrinin inkişaf tarixindən. Bakı: Təhsil, 2007.
69. Talıbov Y.R., Sadıqov F.B., Sadıqov S.M. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. Bakı: Ünsiyyət, 2000.
70. Yəqubi Ə.R. Azərbaycanda təlim-tərbiyə mədəniyyəti, təhsil və pedaqoji fikir tarixi. Bakı: Nurlan, 2005.

## MÜNDƏRİCAT

Ön söz ........................................................................................ 3
**I fəsil. Azərbaycanda təhsilin təşəkkülü və inkişafı....................... 13**
1.1. Qədim Azərbaycan sivilizasiyasina bir baxış............................ 13
1.2. Bəşər tarixində təhsilin ilk məkanı............................................ 16
1.3. Qədim Azərbaycanda ilkin savad təlimi, qədim yazılarımız və təhsil mədəniyyəti.................................................................................. 30
1.4. Zərdüşt məktəbləri və "Avesta"da tərbiyə məsələləri................. 43
**II fəsil. İslamiyyətin ilk dövrlərində Azərbaycanda təhsil............ 52**
2.1. İslamiyyətdə tərbiyə və təhsil mədəniyyəti................................ 52
2.2. İslamiyyətdə tərbiyə məsələlərinin qoyuluşu............................. 61
2.3. İslamiyyətdə təhsil..................................................................... 65
2.3.1. Suffədə təhsil............................................................................ 65
2.3.2. Məscid və camelərdə təhsil....................................................... 67
2.3.3. Kuttablarda təhsil...................................................................... 69
2.3.4. Məktəblərdə təhsil..................................................................... 71
2.3.5. Xanəgah, təkyə (təkkə), Zaviyə və dərgahlarda təhsil.............. 76
2.3.6. Kitabxanalar bir elm, tədris mərkəzi kimi................................ 85
2.3.7. Mədrəsələrdə təhsil.................................................................. 96
2.3.8. "Nizamiyə" mədrəsələri........................................................... 100
2.3.9. Azərbaycanda ilk ali təhsil verən mədrəsələr........................... 106
**III fəsil. XI-XII əsr Azərbaycan klassikləri tərbiyə və təhsil haqqında.................................................................................................. 115**
3.1. Qətran Təbrizinin tərbiyə və təhsil haqqında fikirləri.................. 115
3.2. Xətib Təbrizinin müəllimlik fəaliyyəti və tərbiyə haqqında fikirləri.......................................................................................... 121
3.3. Əbülhəsən Bəhmənyarın yaradıcılığında tərbiyə və təhsil məsələləri.......................................................................................... 125
3.4. Nizami Gəncəvinin tərbiyə və təhsil haqqinda fikirləri............. 130
3.5. Xaqani Şirvaninin əsərlərində pedaqoji ideyalar........................ 137
**IV fəsil. XIII-XV əsr Azərbaycan klassikləri tərbiyə və təhsil haqqında.................................................................................................. 144**
4.1. Məhəmməd Nəsirəddin Tusi tərbiyə və təhsil haqqında............. 144
4.2. Marağalı Əvhədinin tərbiyə və təhsil haqqında fikirləri.............. 148
4.3. Məhəmməd Füzulinin təhsil və tərbiyə haqqında fikirləri........... 152

4.4. Nəsimi yaradıcılığında pedaqoji ideyalar. Hürufilikdə tərbiyə....... 155
**V fəsil. XVII -XVIII əsrlərdə Azərbaycanda təhsil və pedaqoji fikrin görkəmli nümayəndələrı....... 161**
5.1. XVII- XVIII əsrlərdə Azərbaycanda təhsil müəssisələrinin inkişafi....... 161
5.2. Saib Təbrizinin pedaqoji ideyaları....... 166
5.3. Qövsi Təbrizinin təlim və tərbiyə haqqında fikirləri....... 170
5.4. Molla Vəli Vidadinin yaradıcılığında pedaqoji ideyalar....... 172
5.5. Molla Pənah Vaqifin müəllimlik fəaliyyəti və təlim-tərbiyə haqqında fikirləri....... 177
5.6. Qasım bəy Zakirin pedaqoji fikirləri....... 182
**VI fəsil. XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda təhsil və pedaqoji fikrin inkişafi....... 184**
6.1. Çar rusiyasının həyata keçirdiyi təhsil siyasəti....... 184
6.2. Azərbaycanda "Qəza Məktəbləri"....... 186
6.3. Azərbaycanda "Şəhər məktəbləri"....... 189
6.4. Azərbaycanda "Kənd məktəbləri"....... 192
6.5. Azərbaycanda "Müsəlman məktəbləri"....... 194
6.6. Azərbaycanda "Dövlət məktəbləri"....... 195
6.7. Azərbaycanda "Dəmir yolu məktəbləri"....... 197
6.8. Azərbaycanda "Bazar günü məktəbləri"....... 199
6.9. Azərbaycanda "Sənət məktəbləri"....... 200
6.10. Azərbaycanda "Rus-tatar məktəbləri"....... 201
6.11. Azərbaycanda "Üsuli-cədid" məktəbləri....... 204
6.12. Azərbaycanda ana dilində ilk dərsliklərin meydana gəlməsi....... 232
6.13. Xeyriyyəçi - maarifçilik hərəkatı....... 243
**VII fəsil. Azərbaycanda qadın təhsilinin təşəkkülü və inkişafı....... 247**
7.1. Azərbaycan maarifpərvərlərinin qadın təhsili haqqında fikirləri və qadın təhsili uğrunda mübarizələri....... 247
7.2. XIX əsrin əvvəllərində azərbaycanda qadın təhsilinin təşəkkülü və inkişafı....... 259
7.3. Azərbaycanın müxtəlif bölgələrində ilk dünyəvi, milli qız məktəblərinin yaranması....... 264
7.4. Hacı Zeynalabdın Tağiyevin maarifçilik fəaliyyəti və ilk qız məktəbinin yaranmasında xidmətləri....... 278

**VIII fəsil. XIX əsrin sonlarında və XX əsrin II yarısında Azərbaycan pedaqoji kadrlarının hazırlığı məsələləri......................... 289**
8.1. Zaqafqaziya (Qori) Müəllimlər Seminariyası və onun Azərbaycanlı məzunları haqqında........................................................... 289
8.2. İrəvan milli maarifçilik mühiti. İrəvan müəllimlər Seminariyası və pedaqoji kadr hazırlığı məsələləri........................................ 315
8.3. Qazax Müəllimlər Seminariyası........................................ 337
8.4. Bakı Kişi Müəllimlər Seminariyası........................................ 342
8.5. Naxçıvan Müəllimlər Seminariyası və onun varisləri................. 345
**IX fəsil. Azərbaycan Xalq Cümhuriyyəti dövründə təhsil........... 363**
9.1. Azərbaycan Xalq Cümhuriyyəti dövründə tərbiyə, təhsil və pedaqoji fikir........................................................................ 363
9.2. Bakı Dövlət Universitetinin təsis edilməsi.......................... 370
**X fəsil. XIX əsrin sonu və XX əsrin birinci yarısında Azərbaycan klassiklərinin, görkəmli maarifpərvərlərinin tərbiyə və təhsil haqqında fikirləri.............................................................. 385**
10.1. Abbasqulu ağa Bakıxanovun tərbiyə və təhsil haqqında fikirləri.............................................................................. 385
10.2. Mirzə Fətəli Axundovun pedaqoji fikirləri.............................. 394
10.3. Seyid Əzim Şirvaninin pedaqoji fikirləri................................ 401
10.4. Həsən bəy Zərdabinin pedaqoji fikirləri.................................. 407
10.5. Məhəmmədağa Şahtaxtlının maarifçilik ideyaları..................... 412
10.6. Məhəmməd Tağı Sidqinin pedaqoji görüşləri........................... 418
10.7. Rəşid bəy Əfəndiyevin pedaqoji görüşləri.............................. 428
10.8. Səfərəli bəy Vəlibəyovun pedaqoji düşüncələri və pedaqoji fəaliyyəti.............................................................................. 437
10.9. Mirzə Ələkbər Sabirin pedaqoji görüşləri və müəllimlik fəaliyyəti.............................................................................. 441
10.10. Firudin bəy Köçərlinin pedaqoji görüşləri və pedaqoji fəaliyyəti.............................................................................. 453
10.11. Cəlil Məmmədquluzadənin pedaqoji fikirləri və pedaqoji fəaliyyəti.............................................................................. 462
10.12. Sultan Məcid Qənizadənin pedaqoji görüşləri...................... 466
10.13. Nəriman Nərimanovun pedaqoji fikirləri.............................. 470
10.14. Abbas Səhhətin pedaqoji ideyalari və müəllimlik fəaliyyəti... 479
10.15. Abdulla Şaiqin pedaqoji fikirləri və pedaqoji fəaliyyəti.......... 484
10.16. Hüseyn Cavidin pedaqoji görüşləri və müəllimlik fəaliyyəti... 489
10.17. Üzeyir hacibəyovun pedaqoji fikirləri.................................. 496

**XI fəsil. Sovet dövründə təhsil və pedaqoji....................................500**
11.1. Sovet məktəbi və sovet pedaqogikasina bir nəzər......................500
**XII fəsil. Sovet dövründə Azərbaycanın görkəmli pedaqoqları... 510**
12.1. Görkəmli Azərbaycan pedaqoqu Əhməd Seyidov və onun pedaqoji xidmətləri........................................................................... 510
12.2. Akademik Mehdi Mehdizadənin Azərbaycan təhsilinin ikişafinda ximətləri və maarifçilik fəaliyyəti..............................................515
12.3. Görkəmli Azərbaycan pedaqoqu Mərdan Muradxanovun Azərbaycan pedaqoji fikrinin inkişafinda xidmətləri..........................517
**XIII fəsil. Azərbaycanın müstəqilliyinin ilk illərində təhsilin inkişafı.......................................................................................... 519**
13.1.Müstəqilliyin ilk illərində təhsildə Heydər Əliyev siyasəti.........519
İstifadə edilmiş və məsləhət görülən ədəbiyyatın siyahısı 530
Mündəricat 534

**RÜFƏT LƏTİF OĞLU HÜSEYNZADƏ**

# AZƏRBAYCAN MƏKTƏB VƏ PEDAQOJİ FİKİR TARİXİ

***Dərs vəsaiti***

***Çapa imzalanmış 08.01.2020-ci il***
***Kağız formatı 60x84 1/16, çap vərəqi 33,5***
***Sifariş 03, sayı 500***

***ADPU-nun mətbəəsi***
***Bakı, Ü.Hacıbəyli küçəsi, 68***
***Tel: (+99412) 493-74-10***
***Email: poliqrafiya@mail.ru***